VEYDƏDDİN PİRƏLİYEV
(VİDADİ HƏSƏNOĞLU)

JURNALİSTİKAŞÜNASLIĞIN ƏSASLARI

BAKI "Təknur" – 2013

Kitabın elmi redaktoru: *Himalay Qasımov.*
Filologiya elmləri doktoru, professor.

Rəyçilər: *Himalay Qasımov.*
Filologiya elmləri doktoru, professor.
Azərbaycan Dövlət Pedaqoji Universiteti «Azərbaycan ədəbiyyatı tarixi» kafedrasının müdiri.

Cahangir Məmmədli.
Filologiya elmləri doktoru, professor.
Bakı Dövlət Universiteti «Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi» kafedrasının müdiri.

Ч 612
+Р 52

VEYDƏDDİN PİRƏLİYEV (VİDADİ HƏSƏNOĞLU). **JURNALİSTİKAŞÜNASLIĞIN ƏSASLARI.** Bakı - "Təknur" - 2013. 496 s.

262344

Veydəddin Pirəliyevin (Vidadi Həsənoğlu) bu kitabı jurnalistika, filologiya, sosiologiya, o cümlədən humanitar fakültələrdə təhsil alan tələbələrə, həmçinin jurnalistika ilə əlaqədar elmi-tədqiqat işləri aparan maqistir və doktorantlara, ümumiyyətlə, jurnalistika ilə məşğul olan və yaxud olmaq istəyən hər kəs üçün dəyərli mənbə və sanballı vəsait ola bilər.

Kitabda girişlə bərabər «Jurnalistika tarixi», «Jurnalistika və ədəbi-tənqid», «Jurnalistikanın elementləri», «Bədii-publisistika janrları: inkişafı və xüsusiyyətləri», «İnformasiya janrları: növləri və xüsusiyyətləri», «Analitik janrlar: xüsusiyyətləri və yaranma səbəbləri» haqqında ətraflı məlumat verilir, hər bir janra və yaxud növə uyğun misallar gətirilir, yeni fikirlər irəli sürülür.

Bu seriyadan olan kitabların məhdudluğunu nəzərə alsaq, tam əminliklə söyləyə bilərik ki, «Jurnalistikaşünaslığın əsasları» kitabı jurnalistikanı sevən, onunla məşğul olan, həmçinin olmaq istəyən və bu sahə üzrə elmi araşdırma aparan hər kəs üçün mühüm töhvədir.

İSBN: 978-9952-445-27-6

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

**© VEYDƏDDİN PİRƏLİYEV
(VİDADİ HƏSƏNOĞLU)**

BU KİTABI ANAM FATMA XANIM BURXAN QIZININ 80 İLLİK YUBİLEYİNƏ HƏSR EDİRƏM

GİRİŞ

Jurnalistika ictimaiyyətdə fikir formalaşdıran, cəmiyyətə təsir etmək və onu öz arxasınca aparmaq qüvvəsinə, həmçinin ictimai şüuru işıqlandıran, varlığı düşündürən, həyatı qiymətləndirən, o cümlədən duyma, mənalandırma, dəyişdirmə və s. bir çox fasiləsiz tərəqqi, zənginləşmə və keyfiyyətlərə malik olan, tarixin mürəkkəb və keşməkeşli mərhələlərindən keçib gələn, özünü müasir dünyaya sübut və təsdiq edən ədəbi-bədii forma, daha doğrusu, son zamanlar müstəqil elm kimi formalaşan ***jurnalistikaşunaslıqdan*** ibarətdir.

Millətin ötən qərinə və əsrlərdəki əhvali-ruhiyyəsi, tərəqqi və tənəzzülünün səbəbləri, inkişaf dərəcəsi, düşüncə tərzi, idrak xüsusiyyətləri, şəxsiyyətə və həyata baxışının formalarını öyrənmək üçün onun publisistikası əvəzsiz vasitədir. Xalqın həyatında baş verən müxtəlif tipli hadisələr bütün əlvanlığı, emosiyaları, psixoloji çalarları ilə ilk əvvəl onun publisistikasında ifadə olunur. Hər bir millətin jurnalistikası, sözsüz ki, onun məişətinin güzgüsü hesab olunur. Xalqın dolanacağı, onun övzai-məişəti, dərəceyi-tərəqqisi, mərtəbeyi-kamalı, qüdrət və cəmalını yalnız həmin zaman kəsiyində dərc olunan mətbuatdan daha aydın və düzgün öyrənmək olar. «Bir xalqın publisistikasını öyrənmədən onun həqiqi tarixini, ədəbiyyatını, siyasi-ictimai səviyyəsini bilmək mümkün deyil.» (125,41.)

«Publisistik əsərin müəllifləri öz etiqadlarını müdafiə etmək üçün rəqiblərinə qarşı kəskin çıxışlarla hucuma keçir, cəmiyyəti və həmfikirlərini qarşıda duran vəzifələri həll etmək naminə həmrəyliyə, birləşməyə çağırır və bunun üçün səy göstərir... Publisistika hər bir fakta və ya hadisəyə reaksiya vermək-

lə, ictimaiyyətin inkişafına kömək etmək, yaxud, əksinə, onun inkişafını ləngitməyə səbəb olması nöqteyi-nəzərindən yanaşır... Publisistika ədəbi janr olmaqla bərabər, həm də mətbuatdır. Ümumiyyətlə, publisistika janr etibarı ilə zəngin və müxtəlifdir... həm də daima ədəbiyyatın yoldaşı, köməkçisi olmuşdur. Hətta bəzi zamanlarda, ictimai-siyasi məsələlərlə əlaqədar olaraq yazıçıların bədii yaradıcılığında publisistikaya meyl olmuş, iri həcmli nəsr əsərlərinə qədər publisistik nəfəslə isinmiş, yeni-yeni bədii əsərlər meydana çıxarmışlar.» (125,202-203)

Bu söz, yəni publisistika zaman-zaman öz adını dəyişərək cəmiyyətdə gah publisistika, gah judrnalistika, gah da hər iki mənada işlənərək mətbuatı təşkil etmişdir. Son bir neçə on ildir ki, jurnalistika məfhumuna daha çox üstünlük verilir. Ola bilsin ki, bu bədii-publisistikanın zəifləməsindən, cəmiyyətdə baş verən sosial-ictimai-siyasi tərəqqidən irəli gələn bir prosesdir.

«Publicus» sözü latın dilindən gəlmiş-«ictimai» (1.ictimai, cujacu ədəbiyyat; 2.ictimai-cujacu ədəbiyyat janrı, üslubu; 3.publisistlik fəaliyyət) deməkdir. Jurnalistika sözü isə etimoloji baxımdan latın sözü olan «diurnal»-«birgünlük» ifadəsini bildirir. Həmin sözün kökü fransız sözü «jour»-«gün», «journal»-ilk görnüşdə «gündəlik», sonrakı mənasında isə «qəzet» ifadəsini verir və bu (1.jurnalistika (qəzet və jurnallarda ədəbi-publisistik fəaliyyət); 2.mətbuat) mənalarını daşıyır. (133,358-703)

Publisistika və yaxud jurnalistika öz formasına və təsir mexanizminə görə bədii ədəbiyyatdan fərqlənir. Beləki, bədii ədəbiyyat həyatda baş verən prosesləri, bəzən də həyatda olmayan hadisələri uzun bir zaman keçdikdən sonra bədii sözün ecazkar qüdrəti ilə formalşmış, obrazlı şəkildə oxuculara təqdim edir. Amma jurnalistika bu günki həyatı canlı olaraq təsvir edən ədəbi-bədii-bir elmdir. Bədii ədəbiyyat bu imkandan məhrumdur və yalnız istisna hallarda bu cür çıxış edə bilir.

«Publisistika insan və onun həyatı haqqında söhbətdir. Bu insan və onun həyatı, bədii ədəbiyyatdakı insan və onun həyatından daha konkretdir... Həyatda baş verən proseslər öz həllini tapıb və yaxud tapa biməsindən asılı olmayaraq publisistik nitq

üçün mövzu ola bilər.» (125,203)

Jurnalistikada ictimaiyyətin psixologiyası, fikri, mənəvi varlığı və onun mürəkkəbliyi təcəssüm olunur. İnsanın yaşadığı mühit, düşüncə, yaşayış tərzi və s. bədii ədəbiyyatdan fərqli olaraq müəyyən çalarlarla deyil, birbaşa, emosional şəkildə müstəviyə gətirilir. Çox vaxt elə olur ki, jurnalist və haqqında söhbət gedən şəxs bir-birini yaxşı tanıyır, qonşuluqda yaşayır və hətta qohumluq əlaqələrinə malik olurlar. Sözsüz ki, bu da məqalənin daha oxunaqlı olmasına, oxucu auditoriyayasına və cəmiyyətdə gedən proseslərə mənfi və yaxud müsbət təsir göstərmək qüvvəsinə malik olur. Məzmunlu, dolğun, fakt və dəlillərə söykənən məqalə, daxili ideya və emosional ştrixləri birləşdirir, oxucuda fikir və təsəvvür, arzu və istək yaradır, onu püxtələşdirir, proseslərin mərkəzinə aparır və zamanın tələbinə uyğun gələn kamil insan formalaşdırır.

«Publisistika həmişə cərəyan edən hadisələrə çevik cavab verir, onları ümumiləşdirir və haqqında cəmiyyətdə fikir formalaşdırır. Məhz buna görə də, publisistikanı «canlı tarix» adlandırırlar.» (125,202-203)

«Müharibədə topçu alayları ön atəş xəttində döyüşüb, digər qoşun növlərinin hərəkətinə yol açdıqları kimi, hər bir xalqın tarixində sosial özünüdərketmə, milli dirçəliş və ictimai islahatlar mərhələsi başlanarkən digər ədəbi janrlardan fərqli olaraq publisistika (jurnalistika) fəallaşıb ədəbi prosesdə ön plana keçir...» (89)

Jurnalistika tarixinə, janr əlvanlığına, üslub və xüsusiyyətlərinə, tənqidi və tətbiqinə, daha doğrusu, özünün gerçəkliyinə arxayın olaraq bütün məqamları birləşdirə və onu günün tələblərinə uyğun şəkildə, yəni hazırlanmış formada oxucunun istifadəsinə verə bilən bir ədəbi-bədii vasitədir. Sözsüz ki, bu kontekstdə jurnalistin dünyagörüşü, həyata və məqalədə cərəyan edən proseslərə münasibəti, hümanistliyi, vətənpərvərliyi, düşüncəsi, nəcib duyğuları, idealogiyası və başqa amilləri burda öz sözünü demiş olur. Lakin unutmaq lazım deyil ki, fəlsəfi baxımdan, jurnalistikanın «dəqiq, qərəzsiz, vicdanlı» kimi qızıl

qanunu mövcuddur. Bu qanuna və onun tələblərinə riayət etmək isə hər bir jurnalistin ümdə vəzifəsi hesab olunur. Bunun üçün baş verən hadisə, proses, məlumat, informasiyaya obyektiv yanaşmaq və onu düzgün və doğru qiymətləndirmək istedadına malik olmaq vacibdir. Bu isə, heç də asan iş deyil... Amma buna çalışmaq və nail olmaq çağdaş jurnalistikaşünaslıq elminin tələbidir. Jurnalistin məşhurlaşması, oxucu auditoriyasının genişlənməsi, onun bir qələm sahibi, jurnalist kimi cəmiyyətdə formalaşmasında «Jurnalistikşünaslığın əsasları» kitabı mühüm və əhəmiyyətli yer tuta bilər. Bu isə o deməkdir ki, jurnalistikaşünaslıq bir elm kimi müasir dünyada artıq mövcuddur və özünü təsdiqləməkdə davam edir.

Müasir Kütləvi İnformasiya Vasitələri cəmiyyətdə baş verən əsas sosial-iqtisadi-siyasi və başqa dəyişmələr prosesini əks etdirir. Hər hansı bir hadisə və yaxud xəbər öz əksini bu və yaxud başqa formada qəzet və jurnal səhifələrində, radio efirində, televiziya ekranında, yeniliklərdə və internet-portallarda tapır.

Kütləvi informasiya və rabitə vasitələri cəmiyyətdə daha tez-tez mübahisə və qələm münaqişələrinə səbəb olur. Kütləvi informasiya və rabitə vasitələri haqqında suallar cəmiyyətdə ona görə böyük əhəmiyyət daşıyır ki, onlar əhalinin yaşayış tərzinə birbaşa və yaxud dolayısı ilə təsir göstərir. Xüsusi mülkiyyət, korrupsiya, rüşvətxorluq, qiymətlərin bahalaşması, infilyasiya və s. bu kimi suallar, həmçinin bu sahələr ilə maraqlanan və yaxud bu sahələrdə adı hallanan şəxslər həmişə KİV-nin nəzarət mərkəzində olurlar. Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, KİV-nin cəmiyyətə təsiri bəzi hallarda çoxsaylı mülahizə və mübahisələr ortaya çıxarır. Bu zaman, Kütləvi İnformasiya Vasitələri müəyyən vəziyyətdə olur ki, bu da onları son dərəcə olduqca zəiflədir, həmçinin hərtərəfli hucumlara məruz qoyur. Jurnalist əməyində prosesin özü, ən başlıcası, onun bu və yaxud başqa mənada nəticəsi çoxlarının maraqlarına toxunur.

Janr, tarixən yaranmış forma, jurnalist əsərinin növüdür. Ədəbiyyat janrlarından fərqli olaraq jurnalist janrları özünün

doğruluğu, ünvanlığı, faktlığı ilə fərqlənir.

Bütün jurnalist əsərlərinin əsasını fakt təşkil edir. Fakt, bu baş vermiş hadisə, qəziyyə, proses və sairdə, o cümlədən hər bir jurnalist yazısında əsas informasiya hesab olunur. Faktın özünəməxsus sonrakı qohumluq əlaqələri mövcuddur: həqiqilik, doğruluq, yenilik, ictimai əhəmiyyətlilik, birsözlə, fakt mənasız, bayağı, boş və çeynənmiş olmamalıdır. Çünki informasiya faktdan yaranır. «Lazımdır ki, müəllifin çıxışı və bizə təqdim etdiyi fakt doğru olsun. Əgər faktın doğru olmadığı üzə çıxarsa, o zaman bədii əsər özünün bütün əhəmiyyətini itirər; o zərərli olmağa başlayar; çünki o insan şüurunu işıqlandırmağa xidmət etməyəcəkdir, əksinə, o şüuru daha da qaranlıqlaşdırmağa kömək edəcəkdir. Beliniski ənənələrinə sadiq qalan N. Dobrolyubov öz yaradıcılığında «həqiqətə sədaqət» prinsipini nümayiş etdirmişdir.» (29,326) Bu tezisə əsaslanaraq söyləmək olar ki, informasiyanı mənimsəmənin üç stereotipi, üç pilləsi mövcuddur:

Birinci pillə-şüura xüsusi təsir göstərməyən, yalnız qısa an ərzində resipiyentin xəyalında həyəcan yaradan informasiya;

İkinci pillə-insan şüuruna və yaxud şüuraltına yüngülvari təsir göstərən, yalnız resipiyentin diqqətini cəlb edən informasiya;

Üçüncü pillə-insan şüurunda və şüuraltında iz buraxan, pesipiyentdə fəal yaradıcılıq əks etdirən, real hərəkətlə yekunlaşan, həqiqətin zahirini pozitiv istiqamətə dəyişdirən *informasiya.*

İnformasiya janrı xüsusi metod və informasiyanı ötürmə qaydaları, belə demək mümkünsə, təhkiyə, nağıl etmədən ibarət olan «teleqraf üsulu» ilə real faktın real zaman kontekstində olması baxımından fərqlənir və informasiya janrına aid edilir: xronoloji informasiya, genişlənmiş informasiya, qeyd, replika, hesabat, məktub (epistolyar), müsahibə, reportaj və s.

Xronoloji informasiya-Nə?, Harda?, Nə vaxt? suallarına cavab verir və 2-15 sətr həcmində olur. Əsasən rəsmi və qeyri-rəsmi qəzetlərin birinci-ikinci səhifələrində dərc olunur. Xronoloji informasiyanın dili-kitab, üsulu-quru, başqa sözlərdən təmizlənmış, yəni rəsmi olur.

Genişləndirilmiş informasiyanın həcmi isə 30-150 sətr arasında olur. Xronoloji informasiyadan fərqli olaraq genişləndirilmiş informasiyada kommentariya (şərh) ola bilər. Kommentariya faktın geniş mənada şərhindən, onun anlaşılan və yaxud anlaşılmayan tərəfindən, izahından, konkretləşməsindən və s. təşkil olunur. Kommentariyanın aşağıdakı növləri mövcuddur:

1.Genişləndirilmiş kommentariya-faktın aydınlaşdırılmasını* nəzərdə *tutan informasiyadır;

2.Mütəxəssis, peşəkar kommentariyası-faktın peşəkarlıqla, daha səlahiyyətli, etibarlı, xəbərdar insan tərəfindən kommentariya edilməsidir;

3.Bir-birinə zidd fikirli kommentariya-təhrik etməyə, bu sahə üzrə müxtəlif mütəxəssis və səlahiyyətli insanlarla faktın araşdırılmasına istiqamətlənmiş kommentariyadır;

4.Sinxron kommentariya-mövzunun təhqiqatı prosesində jurnalist tərəfindən söylənilən rəy və fikirdir;

5.Təfsilatlı kommentariya-faktın ən xırda hissəciklərinə kimi araşdırılması. Həmçinin, geniş müzakirə zamanı əsas və əlavə detalların, qəhrəman və başqa amillərin iştirakı deməkdir.

Biz burda, informasiya janrı haqqında qısa məlumat verdik və onun bəzi növləri ilə tanış olduq. Bu sadəcə olaraq qısa tanışlıq xarakteri daşıyırdı. Başqa informasiya janrları haqqında kitabın beşinci fəslində daha müfəssəl və təfsilatlı məlumat veriləcək və misallar gətiriləcəkdir.

Bir çox yanaşma və müxtəlif nöqteyi-nəzərlərə görə jurnalistika ictimaiyyətin diqqətini cəlb edən və ictimai şüura daha yaxşı təsir etmək gücünə malik olan bir ədəbi-bədii vasitə, daha

doğrusu bir elmdir. Cəmiyyətdə baş verən coşqun və səs-küylü dəyişikliklər dövründə jurnalistikanın yerini hər hansı bir başqa mexanizm ilə əvəz etmək mümkün deyil. Məhz buna görə də, daima cəmiyyətdə belə bir sual diqqət mərkəzində olur: «Həqiqətənmi jurnalistika dördüncü hakimiyyət hesab olunur?»

Mülahizə, fikir və rəy diapazonu burda həddən artıq geniş və çox mənalıdır. Kimlərsə tərəddüd etmədən jurnalistikanı (qanunverici, icra edici və məhkəmə hakimiyyətindən sonra) dördüncü hakimiyyət saydığı halda, kimlərsə dırnaqarası, ironiya ilə jurnalistikanın hansı «hakimiyyəti» olduğunu soruşur. Üçüncü qrup insanlar isə jurnalistikanın böyük və real gücə malik olduğunu və rişxənd etmədən KİV-nin cəmiyyətdəki rolunu yüksək qiymətləndirirlər.

Paradoks ondadır ki, söylənilən fikir və mülahizələrin hamısı doğrudur. Beləki, onların hər biri jurnalistikanın ən əhəmiyyətli tərəflərini düzgün qeyd edir və göstərirlər. Bu insanların səhvi ondan ibarətdir ki, onlar problemin həllinə sistemli şəkildə yanaşmırlar.

Jurnalistikanı dördüncü hakimiyyət adlandırırlar, ona görə yox ki, onun əlində dövlət strukturunu idarə edə bilən hansısa sükan var. Əsla yox... Jurnalistika cəmiyyətin həyatında yaxından iştirak etdiyinə və ictimaiyyətin tərəqqisində əsas vasitə olduğuna görə bu ada layiq görülüb və bunu bu gün də, ləyaqət və şərəflə qoruyub saxlaya bilir.

Kütləvi İnformasiya Vasitələri nəinki hakimiyyətə, bütün qeyri-obyektivliyə qarşı müxalifətdə olmalı və buna borcludur. Ancaq bu zaman, şərəf və ləyaqətin saflığı qorunub saxlanılmalı, ən kiçik hissıciklər yaddan çıxmamalıdır. Müasir dövrdə müxalifət adlandırılan hansısa siyasi qüvvələr yox, bütünlükdə jurnalistika özü tənqidçi rolunda çıxış etməlidir. Hətta bu, rəhimsiz və insafsızcasına olsa da, konstruktivlik qorunub saxlanılmalıdır. Hakimiyyətin cavabı isə Kütləvi İnformasiya Vasitələrinə normal şəkildə işləmək üçün yaxşı şərait yaratmaqdan ibarət olmalıdır. Bu istər qanuni, istər mənəvi və yaxud

da, iqtisadi tərəfdən olsa da-fərq eləməz. Bu, dövlətin ictimaiyyət qarşısında ən vacib öhdəliyi sayıla bilər. Çünki xalq dövləti ona xidmət etmək üçün qurur, istismara və işgəncəyə məruz qoymaq üçün yox... Burda Heydər Əliyevin kəlamını xatırlamaq yerinə düşər. O demişdir: «Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.»

Biz və bizim cəmiyyət necədirsə, jurnalistika da, həmin cürdür. Deməк cəmiyyət və jurnalistika paralel addımlayır və tərəqqi edir. Bunları bir-birindən ayrı düşünmək və dərk etmək mümkünsüzdür. Çünki əsrlər boyu demokratiya üçün mübarizə aparan cəmiyyət, zaman keçdikcə əldə etdiyi bu «qənimətdən» necə istifadə etməyi öyrənəcək və hər şey öz layiq olduğu yeri tutacaqdır. Demokratiya və jurnalistika arasında qarşılıqlı əlaqənin yaranması uzun müddətli yol olsa da, şəxsi və ictimai həyatın çiçəklənməsinə öz töhfəsini verir.

Jurnalistikanın arsenalında dövri mətbuatı əhatə edən çoxsaylı janrlar və müddəalar mövcuddur. Bu yanr və müddəalardan yerli-yerində və düzgün istifadə etmək jurnalistikada aparıcı yeri tutur. Çoxları elə düşünülər ki, jurnalist üçün əsas odur ki, maraqlı, həm də materiallarla zəngin olan bir məqalə yazsın. Onun hansı janra aid olması heç bir əhəmiyyət kəsb etmır. Əlbəttə ki, tez-tez eşitdiyimiz və rastlaşdığımız bu fikirlə qətiyyən razılaşmaq olmaz. Bununla bahəm başqa fikir və düşüncələr də, mövcuddur. Ola bilsin ki, jurnalistikanın janrlarından danışmaq diqqəti bir o qədər cəlb etməsin. Beləki, «janr» sözünün mənası fasiləsiz olaraq dəyişdirilir və zaman-zaman mürəkkəbləşir, yəni tərəqqi edir. O ki, qaldı janrların nəzəriyyəsinə və təcrübədə istifadə olunmasına, bu sahə kifayət qədər öyrənilməyib və öyrənilməyə ehtiyac duyulur. Bu onunla isbat olunur ki, hər bir tədqiqatçı öz janr «dəst»ini təklif edir. Burda, ən azı, iki səbəbə görə bununla razılaşmaq olmaz.

Birincisi, bu növ əsərlər «janr» olaraq tarixilik və müəyyən olunma prinsipinə əsasən nəzəriyyəçilər və tədqiqatçılar tərəfindən sistemləşdirilir. Jurnalistikada yaradılan bütün əsərlər bir çox ölçü prinsiplərinə əsasən janrlara bölünür. Məsələ, on-

dadır ki, hər bir konkret əsərin müəyyən olunmuş xüsusiyyətləri var. Bu cür xüsusiyyətlər nisbətən əsassız (müəllif düşünmür ki, onun məqaləsinin mövzusu necə olacaq) və yaxud da, müəllifin güclü (müəllif əvvəldən mövzunun necə olacağı və onda nələrin əks olunacağını düşünür) yaradıcılığı sayəsində meydana gəlir. Hər bir halda, məntiqli və ciddi keyfiyyətlərə malik olan mövzunu ayrı qrupda birləşdirmək olar.

Burda ən doğrusu, əsərdə onların daxil olduğu tutarlı qrup və əsas (ikinci dərəcəli yox) nişanələrin oxşarlığı ola bilər. Məhz, sonra birləşdirici əlamətlər müəyyən olunur ki, buna «janr nişanələri», onların publisistikada birləşmə qrupunu isə «janr» adlandırırlar.

İkincisi, janr haqqında dəqiq fikiri jurnalistlərin peşəkar müzakirəsi zamanı əldə etmək olar. Bir var ki, nəşrin redaktoru jurnalistə müraciət edərək deyir: «Xahiş edirəm, kənd təsərrüfatı haqqında yaxşı bir məqalə yaz.» Bir də var ki, redaktor jurnalistə təklif edir ki, «Pambıqçılar haqqında oçerk yaz.» Jurnalist redaktoru ikinci halda daha yaxşı başa düşəcək, nəinki, birinci halda. Çünki ikinci halda redaktorun nə istədiyi və konkret olaraq hansı janr və hansı sahədən yazı təklif etdiyi jurnalistə aydındır. Deməli, dövri mətbuatda janr əhəmiyyətli yer tutur və müstəsna rola malikdir.

Jurnalistikada aparıcı yerlərdən birini də, janr yaradan səbəb və amillər tutur. Artıq yuxarıda deyildiyi kimi jurnalistika janrı dedikdə, birinci diqqəti cəlb edən nəşrin məzmun-forma və oxşar nişanələrini birləşdirən sabit növlər başa düşülür. Buna oxşar nişanələri janr yaradan səbəb və amil adlandırırlar. Bu səbəb və amilləri bilmək jurnalistə mənbəni və onun meydana gəlməsinin əsasını və yaxud dövri mətbuatın başqa janrlarını daha dəqiq, aydın anlamaqda kömək edir. Müasir jurnalistikanın nəzəriyyəsi əsas qaydalar kimi aşağıdakı janr yaradan səbəb və amilləri göstərir: əşyanın təsvir edilməsi, təsvir olunmanın məqsədyönlü təyin edilməsi və təsvir olunmanın metodu. Janr yaradan səbəb və amillərin əhəmiyyəti müadil (*bir böyükdə, bir boyda*) deyil. Bu nöqteyi-nəzərdən çıxış edərək

deməк olar ki, onların səbəb və xüsusiyyətləri növbə ilə öyrənilməli və hər birinin rolu janr yaratma prosesində müəyyən olunmalıdır.

Mövzunun jurnalistikada təsvir və yaxud əks olunması deməк olar ki, kifayət qədər oyrənilibdir. O, özündə müxtəlif fəaliyyət sahələrinin fenomenini birləşdirir, məsələn, siyasət, iqtisadiyyat, hüquq, din, əxlaq, idman və s. Bu fəaliyyət sahələrini çox vaxt jurnalistikanın obyekti adlandırırlar. Jurnalistikanın mövzusu və hədəfi arasında paralel apararkən bilmək lazımdır ki, «mövzu hədəflə bir cərgədə duran əşya deyil.» (84,49)

Bu cür fikirlə ona görə razılaşmaq lazımdır ki, jurnalistika həqiqətən müasir həyatın fəal tərəfləri ilə iş birliyi qurur. Lakin mövcud müəyyən olunma jurnalistikanın yalnız «vəziyyət, şərait, hadisə»lərlə məşğul olduğu kimi qəbul oluna bilməz. Çünki bu yurnalistikanın sərhədlərini məhdudlaşdıra bilər. Odur ki, «vəziyyət, şərait, hadisə» daha yığcam, daha konkret məna deyil, əksinə, daha geniş və daha böyük ölçüdə nəzərə alınmalıdır.

Hər bir fəaliyyət sahəsinin məqsədi olduğu kimi, jurnalist yaradıcılığı da bu prinsiplərdən kənarda qalmır və qala da bilməz. Çünki jurnalistika bir elm kimi özünün məqsədyönümlü mexanizmi, daha doğrusu, janr yaradan səbəb və xüsusiyyətləri ilə əhəmiyyətlidir. Burda hər şeydən öncə diqqəti əsas məqsədə, daha sonra «ikinci cərgəyə» aid etmək lazımdır. Bu analitik mətnin yaranma prosesində əmələ gələn yaradıcılıq məramıdır. Qeyd etməliyik ki, hər hansı mətnin öz məqsədi var. Məqsədsiz mətn bar verməyən ağac kimidir, yəni odundur. Bu nəzəriyyəyə əsaslanaraq demək olar ki, nəşrin mətninin məqsədi var və onlar aşağıdakılardır:

1.Auditoriyaya müəyyən olunmuş ideoloji və yaxud başqa formada təsir etmək nəzərdə tutulmur (burda nəşriyyatın kommersiya maraqlarının təmin olunması mütləqdir);

2.Müəyyən təsir etmə əvvəlcədən nəzərdə tutulur. Ola bilsin ki, o nəticədir:

3. qərəzsiz (obyektiv) məlumatlandırma;
4. manipulyasiyalı (yalan) göstərmə.

Bu cür məqsədlər janrın formalaşmasına vasitə ilə təsir göstərir və buna görə də, mövcud işdə onlar haqqında heç bir söhbət getmir.

Mövzunun araşdırılması, onun təhqiqata cəlb olunması metodu jurnalistikada vacib sayılan əməllərdən biridir. Bir çox tədqiqatçıların fikrinə görə jurnalistikada iki əsas metod qrupu mövcuddur-«dəyişdirmə və dəyişdirilmə.» (75) Yəni: -dərk etmə və bədii metodlar. «Səmərəli dərk etmə və bədii metodların tətbiq olunması nəticəsində həqiqəti hansı janrın «aqibəti» gözləyir? Bunu tam mənada başa düşmək olar, əgər yada salmış olsaq ki, bu metodlar özündə-empirik və nəzəri adlı iki dərk etmə dərəcəsini birləşdirir.» (148)

Empirik tədqiqatın nəticəsində jurnalistikada informasiya publisistikasının axını dayanır. Dərk etmənin nəzəri səviyyəsinin tətbiq olunması isə təhlil olunmuş informasiya publisistikasının əsas axınını təşkil edir və mövzuların yaranmasına səbəb olur. Bu cür bildirişlər hər şeydən öncə dərin, səbəb-istintaq əlaqələrinin xırda hissələrinə qədər tədqiq olunur, mövzunun əlaqələri qiymətləndirilir, əsaslı sübutlar gətirilir və s.

Jurnalistikada bədii metodların tətbiq olunması və səmərəli-dərk etmənin işlədilməsi adətən paralel gedir. Bu da, öz növbəsində, bədii deyil, bədii-publisistik əsərlərin yaranmasına gətirib çıxarır.

Məlumdur ki, jurnalistikada janrların formalaşmasında janr yaradan amillərin rolu böyükdür. Janr formalaşdıran səbəblərlə tanış olmaqla, biz onların janr yaratmaqda olan sonrakı rolunu da müəyyən edə bilərik. Bu məqsədlə, jurnalistikada məşhur olan bir neçə janrı təsəvvür etmək lazımdır. Ənənəvi olaraq elmi baxımdan onlardan bir neçəsini nəzərdən keçirək. Məsələn, informasiya janrına aid olan-məlumatlı qeyd, xronika, hesabat, müsahibə, reportaj janrları; analitik jurnalistikaya aid olan-korrespondensiya, məqalə, icmal, KİV-də icmalla çıxış,

resenziya, kommentariya, ədəbi-tənqidi məqalə janrları; bədii-publisistikaya aid olan-oçerk, esse, felyeton, pamflet, parodiya, satirik kommentariya, epiqram, lətifə, zarafat, oyun və s. janrları mövcuddur.

Jurnalistikaşünaslığın əsasları çox geniş və əhatəli sahədir. Bu, jurnalistika və onun tarixi, qanunauyğunluğu, inkişafı və mürəkkəb spesifik xüsusiyyətləri haqqında danışan, bir cox başqa elmlərlə daima və sıx təmasda olan bir elmi sahədir. Jurnalistikaşünaslığın əsasları-publisistik məqalə və əsərlərin elmi-metodoloji qavranma və qiymətləndirilməsi, hadisə, proses, məlumat, vəziyyət, fakt, qəziyə və informasiyaların alınma, öyrənilmə və hazırlanması, hazır məhsulun oxucu auditoriyasına çatdırılması, jurnalistik adət-ənənələr, həmçinin onun nəzəriyyəsi və təcrübəsi nöqteyi-nəzərindən ümumiləşdirilməsinə kömək edir. Jurnalistikaşünaslıq bir elm kimi üç əsas şöbədən-jurnalistika tarixi, jurnalistika və ədəbi tənqid, jurnalistika nəzəriyyəsi və təcrübəsindən ibarətdir.

Jurnalistikanın aparıcı üç şöbəsinin hər biri ayrı-ayrılıqda bir neçə müstəqil bölməyə ayrıla bilər. Biz elmi əsaslara istinad edərək belə bir bölgü apardıq və nəticədə aşağıdakı təsnifatın üzərində dayandıq:

1.Jurnalistika tarixi;
2.Jurnalistika və ədəbi tənqid;
3.Jurnalistikanın elementləri;
4.Bədii publisstika janrları: inkişafı və xüsusiyyətləri;
5.İnformasiya janrları: növləri və xüsusiyyətləri;
6.Analitik janrlar: xüsusiyyəti və yaranma səbəbləri.

Oxucuları əmin edirik ki, «Publisistika-Jurnalistika» seriyasına daxil olan növbəti kitablarda, «Jurnalistika tarixi»nin davamını verməklə bərabər, eyni zamanda jurnalistikanın jeni bölmələri-«Tətbiqi jurnalistika», «Uşaq jurnalistikası», «Sosioloji jurnalistika», «Analitik janrlarln təsnifatı» və bir çox başqa istiqamətlər haqqında dəyərli və müfəssəl məlumatlar verəcəyik.

BİRİNCİ FƏSİL

JURNALİSTİKA TARİXİ

Hər xalqın öz jurnalistikası olduğu kimi, onun jurnalistikasının yaranma tarixi də mövcuddur. Jurnalistika tarixi milli-mədəni sərvətdir, bədii-tarixi salnamədir, «xalq həyatının güzgüsüdür», «xalqın şüurudur.» (181) Ancaq bu, heç də o demək deyil ki, jurnalistika tarixi milli çərçivə daxilində məhdudlaşaraq qalır və ondan kənarda özünü göstərmir. Əgər bu prinsipi bir aksioma kimi qəbul etmiş olsaq, onda böyük yanlışlığa yol vermiş olarıq. O təfəkkürü də, yaxın buraxmaq olmaz ki, jurnalistika tarixi milli dəyərləri özündə əks etdirmir. Əksinə, o özündə milli xüsusiyyətlərin müəyyən spesifik normalarını qoruyub saxlayır. Hər hansı bir xalqın jurnalistikasını, jurnalistika tarixini öyrənmədən onun tarixini, ədəbiyyatını, mədəniyyətini, ədəbi dəyərlərini öyrənmək mümkün deyil. Vaxtı ilə «The Edinburgh Review» («Edinburq icmalı») jurnalında öz yaradıcılıq yoluna başlayan və sonrlar məşhur ingilis tarixçisi kimi şöhrət qazanan Makoley bir ifadəni dönə-dönə təkrarlamaqdan yorulmamışdır. O, deyirdi: «Hər bir ölkə tarixinin həqiqətini, onun mətbuatında tapmaq olar.» (166) Buna görə də, dünya jurnalistikasının tarixi millətlərin, xalqların, etnik qrupların jurnalistikasının cəmindən, birliyindən və qarşılıqlı sintezindən əmələ gəlir.

Jurnalistikanın tarixini sistemləşdirmək, onu düz xətt boyunca ardıcıl düzmək, ümumiləşdirərək vahid nəticə əldə etmək, müstəqil elm sahəsi kimi təqdim edərək nailiyyət qazanmaq olduqca çətin, mürəkkəb proses olsa da, bir o qədər əhəmiyyətli və şərəfli işdir.

Jurnalistikanın tarixi ilə məşğul olan tədqiqatçılar həm ədəbi şəxslərə, həm onların yaradıcılığına və həm də, jurnalistikanın metodlarına, ədəbi növ və janrlarına, tənqidi, tətbiqi və sənətkarlıq xüsusiyyətlərinə tarixilik prinsipindən yanaşmalıdır.

Dünya, həmçinin Avropa, o cümlədən qonşu Rusiyada jurnalistika tarixini yaratmağın, onun bütün proses və məziyyətlərini öyrənmə, sistemləşdirmə, ümumiləşdirməyin özünəməxsus çoxillik təcrübə və ənənələri olduğu halda, bunu Azərbaycan jurnalistikasına şamil etmək olmaz. Azərbaycan jurnalistikasında bu istiqamətdə sanballı bir iş görülməyib və yaxud çox cüzi, səthi halda görülüb ki, bu da hal hazırda öz mənfi təsirini göstərir və bu prosesin tərəqqisini ləngidir.

Bu baxımdandan, «Azərbaycan jurnalistikası tarixi»ni 1875-ci illə, Həsən bəy Zərdabinin «Əkinçi»ni (44) dövriyyəyə buraxdığı zamanla məhdudlaşıb dayanmaq, ən azından, özümüzü aldadmaq kimi qəbul olunmalıdır. Beləki, Azərbaycan jurnalistikasının tarixi çox uzaqlara, eramızın IV-V əsrlərinə, Orxon-Jenisey abidələrinə, daş kitabələrin, qəbir üstü yazılı abidələrin, bədii-publisistikanın *epitafiya (məzar kitabçası), əfsanə, epiqraf* kimi qədim janrlarının mövcud olduğu zamana gedib çıxır. Biz çalışacağıq ki, «Jurnalistikaşünaslığın əsasları» kitabının «Jurnalistikanın tarixi» fəslinin «Azərbaycan jurnalistikası tarixi» bölməslində bu məsələ ilə rabitəli suallara qismən də olsa aydınlıq gətirək, cavab tapaq, onun yerini göstərməyə, izini müəyyənləşdirməyə çalışaq və əsas istiqamətlərini nişan verək.

Jurnalistika tarixi ilə bağlı müfəssəl və ardıcıl məlumat almaq üçün bu məsələyə sistemli və ümumiləşdirilmiş şəkildə yanaşmağın daha düzgün olduğunu nəzərə alaraq müəyyən bölgü aparmalı olduq. Bölgünün nəticələri bizə aşağıdakı strukturu verdi:

1. Yunan jurnalistikası tarixi;
2. Roma jurnalistikası tarixi;
3. Qərbi Avropa jurnalistikası tarixi;
4. Azərbaycan jurnalistikası tarixi.

1.YUNAN JURNALİSTİKASI TARİXİ

Jurnalistika (publisistika) haqqında fikir mübadiləsinə başlamazdan öncə, jurnalistika tarixinə, dünya və Avropa jurnalistikasına, bununla bağlı elmi araşdırmalara və bu sahənin tanınmış alimlərinin elmi əsərlərinə və fikirlərinə müraciət etmək vacibdir. Yalnız bu təqdirdə, istədiyimizə müəyyən formaya yaxınlaşa və yaxud nail ola bilərik. Bu nöqteyi-nəzərdən çıxış etmiş olsaq görərik ki, antik dövr, dünya jurnalistikasına ekskurs etmək mütləqdir. «Xristomatiya, natiqlik (orator) mədəniyyəti ilə bağlı öyrənmək istədiyimiz bu sahəyə iyirmi iki yüzilliyi, yəni bu dövrü əhatə edən xeyli sayda şifahi və yazılı əsərlər daxil olubdur. «Dünya jurnalistikası tarixinə giriş» dedikdə, b. e. ə. IV əsrə, Qədim Yunanıstanda başlanan natiqlik (orator) mədəniyyətinə və oradan tutmuş bu günə kimi keçən zamanın jurnalistikasını nəzərdə tutur.» (118)

262344

Alimlər «Predromantizm» (85) tezisinin yazılışından irəli gələrək, keçmişə çevrilmiş əsas fikri istilah edib qurmaq, elmi termin kimi onu əsaslandırmaq məqsədi ilə «pred-» və «proto-» rus dilində olan önşəkilçilərindən istifadə etməyi məqbul saymışdılar.» (165)

Müasir jurnalistika dedik də, ictimai, siyasi, iqtisadi, sosial institut, informasiyanın toplanması və işlənməsi, ictimaiyyət üçün ən əhəmiyyət kəsb edən hissənin dövri mətbuatda yayılmasını başa düşürük. Ancaq antik dövrdə, bunların heç biri yox idi. Ümumiyyətlə, informasiyanın toplanması, işlənməsi və yayılması və yaxud hər hansı bir sistem haqqında o zamanlar söhbət, belə, gedə bilməzdir. Qədim yunanlar sosial sahə üçün vacib olan məlumatları əhaliyə sığorta vəsiqələri (polis) vasitə-

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

sı ilə çatdırırdılar. İctimai kommunikasiyanın əsas kanalı aqora (böyük meydan), şəhər meydançası olduğu üçün, bura siyasi və dini mərkəz kimi fəaliyyət göstərirdi. Yığıncaq və iclaslar, məhz, buarda keçirilirdi. Aqorada gəzişən yunanlar bir-biriləri ilə yenilikləri bölüşür, mübahisə edir, müxtəlif məlumatlara qulaq asırdılar. Hərdən də, carçı vətəndaşların qarşısına çıxaraq sığorta vəsiqələri ilə bağlı günün vacib informasiyasını onlara çatdırırdı.

Yunanların başqa ünsiyyət yeri gimnaziyalar, idman məşqləri üçün nəzərdə tutulan zallar idi ki, onlar da, yavaş-yavaş informasiya mübadiləsi mərkəzlərinə və nəhayət əvvəlki ideyasını dəyişərək özünəməxsus ali təhsil məktəblərinə çevrilirdi. Burda vətəndaşlar qarşısında filosoflar məruzə ilə çıxış edirdilər.

Demokratik dövlət quruculuğunun sığorta vəsiqələri ali qanunvericilik hakimiyyətinə, xalq məclisinə məxsus olduğundan ictimai həyat üçün vacib olan məsələlərin böyük əksəriyyətini səs çoxluğu ilə həll edən xalq məclisi artıq «mədəniyyət cəfəngiyyatına» (67) çevrilmişdir. Siyasətdə zəfər qazanmaq gözəl və təsdiqləyici danışıq bacarığından asılı idi. Artıq Qədim Yunanıstanda, xalq məclislərində ən yaxşı natiqə səs vermək təklifi irəli sürülürdü. Protaqor təsdiq edirdi ki, bəlağətlə danışan «ləyaqətli siyasətçi» (67) hesab olunurdu. Birsözlə, kim inandırıcı danışırdısa o, da qalib gəlirdi.

Bütün bunlar b. e. əvvəl, V əsrdə Qədim Yunanıstanda cərəyan etmiş və ölkəni tərəqqiyə, natiqlik mədəniyyətinə gətirib çıxarmışdır. Həmin zaman kəsiyində müəllimlər bəlağətli sofistlər (gözəl və aydın danışıq qabiliyyətinə malik olan, düzgün olmayan fikri sofizmlərlə sübut etməyi bacaran mütəfəkkir və filosoflar) idi. «Onlar müxtəlif səviyyələrdə çıxış etməklə yanaşı, dinləyiciləri böyük ustalıqla, gətirdikləri arqument və faktlara inandırır, özünəməxsus formada improvizasiya edirdilər. Cəmiyyətdə yüksək nüfuza və reytinqə malik olan natiqlər (oratorlar) bahalı dərslər verirdi. Protaqor, Qorqiy, Qipiy, Lisi, Herodot, Demosfen-sofistlərin nəhəng və tanınmış simaları sa-

yılırdılar.» (14)

Protaqor (B. e. əvvəl 480-410-cu illərdə yaşayıb) pedaqoji aləmdə, dərslərdə sözün deyilişinə xüsusi diqqət yetirməsi ilə seçilirdi. Onun «İnsan hər şeyin ölçüsüdür» (14) məşhur deyimi həyatda öz təsdiqini tapmışdır.

Qorqiy (B. e. əvvəl 480-380-ci illərdə yaşayıb) rəsmiyyət nöqteyi-nəzəri baxımından daha təsirli, ifadəli nitqə müvəffəq olmağa çalışırdı. Xoş avaza, xoş ahəngə nail olmaq üçün o, vezndən, assonansdan, alliterasiyadan və daxili qafiyədən məharətlə istifadə etməyə üstünlük verirdı. Qorqiy «Yelenaya mədh» nitqində belə bir fikri təsdiqləyərək deyirdi: «Söz-böyük hakimiyyətdir, bədəncə kiçik və gözəgörünməzdir; Tanrı hərəkəti ona görə yaradır ki, o hərdən qorxunun qarşısını alır, fərəh gətirir və rəhmi ikiqat artırır.» (14)

Qədim Yunanıstanda loqoqraflar (məhkəmə üçün çıxış hazırlayanları belə adlandırırdılar) qarşılarına daha böyük məqsədlər qoyur, onları icra etməyə səy göstərirdilər. Loqoqraflar yaxşı muzdu və yaxud mükafat müqabilində həm məhkəmə çıxışları hazırlayır, həm də məhkəmələrdə müştərilərinin yerinə çıxışlar edirdilər. Həmin zaman ustad kimi yetişmiş, fəsahətli, istedadlı, yaxşı nitqi ilə hamını heyran qoyanlardan biri də Lisiy (B. e. əvvəl 435-380-ci illərdə yaşayıb) idi. Əfsanəyə görə onun nitqi gözəl, kamil, qısa, dəqiq, ahəngliyi və öz xüsusiyyətilə seçilərdi və hər cür bər-bəzəkdən uzaq olardı. Nitqini müştərilərinin uslübuna uyğun qurmağı bacaran Lisiy, antik rəvayətə əsasən zəmanəsinin on ən yaxşı natiqlərindən biri olmuşdur. Ancaq bu siyahıda birinci yeri bütün qaydalara rəğmən Demosfen (B. e. əvvəl 384-322-ci illərdə yaşayıb) tuturdu. (14) Məhkəmə bəlağəti sahəsində böyük uğurlara imza atan Demosfen gücünü siyası arenada sınamaq istəyir. Lakin onun xalq məclisində ki, ilk çıxışı uğursuzluqla nəticələnir. Sakit danışıq tərzı, pis diksiya (tələffüz) və inamsızlıq dinləyicilərdə sarkazm, istehza, acı gülüş yaradır. Bütün bunlar onu həvəsdən salmır, əksinə, işinə daha ciddi və məsuliyyətli yanaşmağa sövq edir. Öz üzərində var gücü ilə işləməyə başlayan Demosfen,

müxtəlif tapşırıqların icrasına başlayır. Danışığında olan qüsuru aradan qaldırmaq, nitqini daha səlist və canlı yaratmaq üçün o, ağzına kiçik daş qırığı qoyur və məşqlərini dəniz kənarında, dalğaların sədası altında aparır. Nəticədə, Demosfen canlı danışıq tərzinə, təsirli və aydın ifadə artikuliyasiyasına nail olur. Böyük əmək və əziyyət hesabına istəyinə yetişir: o, yunanlar üçün natiqlik nümunəsi olur. (14)

Özünün ehtiraslı və coşğun çıxışlarında Demasfon ictimaiyyəti, həmçinin həmvətənlərini maraqlandıran ən aktual siyasi problemlərə tez-tez müraciət etməyə başlayır. Məsələn, o çıxışlarının birində Makedoniya çarı Filippın Elladanı (Yunanıstanı) ekspansiya etməsinə qarşı çıxaraq aqressoru kəskin tənqid atəşinə tutur. Onun işlətdiyi «Filippika» (165) sözü bundan sonra yunanlar üçün qəzəbi yumşaldıcı termin kimi işlənir. Natiqlik nəsri isə-publisistikanın mənbələrindən birinə çevrilir. Onun başqa formalarından biri isə tarixi nəsr adlanır.

Qədim yunan istoqrafiyasının (tarixçi, tarix üzrə mütəxəssis) banisi, «Tarixin atası» (165) Herodot (B. e. əvvəl 490 və ya 480-425-ci illərdə yaşayıb) (165) sayılır. Yunanıstan-Fars müharibəsinin tarixini məhz, o yazmışdır. Herodot bu kitabda şahidi olduğu ən vacib məsələlərə toxunmaqla yalnız tarixi faktları qabartmağa meyillik nümayiş etdirmir, o, eyni zamanda həm müharibənin başlanması səbəblərini özünəməxsus formada araşdırır və yunanların qələbəsinə səbəb olan hissələrə aydınlıq gətirir. Afinanlılar Herodotun «Tarixini» (165) şövq və coşqunluqla qarşılayaraq müəllifi böyük məbləğdə pulla mükafatlandırırlar.

Yuxarıda qeyd etdiyimiz kimi şifahi söz qədim yunan mədəniyyətində aparıcı yer tutur və üstünlük təşkil edirdi. Amma sığorta vərəqələri və yazılı kanallardan sosial yönümlü informasiyaları yaymaq üçün əməli surətdə, mütəmadi çap olunmayan və dövriliyi olmayan yazılı mənbələrdən, informasiya kitablarından, qəzet və jurnalların nəşr olunmasından bir mənbə kimi istifadə olunurdu. B. e. əvvəl VIII əsrdə yunanlar əlifbanı finikiyalılardan götürərək mənimsəyirlər. Kitab ticarəti Qədim

Yunanıstanda b. e. ə. V əsrdə inkişaf etməyə başlasa da, onun qiymətinin baha olması hər kəs üçün əlçatan deyildir.

Əsas yazılı informasiya mənbəyi (B. e. ə. V əsrə kimi olan dövrdə yunanların çoxu savadlı idi) özündə sosial sığortada baş verən mənalı xəbərləri ifadə edirdi ki, bunlar da, müəyyən əşyalar (taxta, daş, dəmir lövhə və s.) üzərində hər gün publisistik formada yazılaraq asılırdı. Təmizlənmiş və yaxud ağardılmış kiçik lövhəciklər üzərində yazılmış bu cür informasiyaları-levkomat adlandırırdılar. Levkomatlar ictimai yerlərdə asılırdı. Həmin levkomatlarda yazılar dövri formada dəyişdirilirdi. Verilən xəbərlər isə kommentariya olunmurdu. Levkomat yerli «qəzet» funksiyasını yerinə yetirirdi. Yazılar kilsələrin divarlarına, həmçinin daş stellajlara yazılaraq müqəddəs və ictimai yerlərdə, diqqəti cəlb etmək üçün qoyulurdu. Onlar mühüm əhəmiyyət kəsb edən-qanun, fərman, müqavilə, sərancam və s. rəsmi sənədlərdən ibarət olurdu. Publisistik yazılar hakimiyyətin aləti deyildir, əksinə, vətəndaşların sosial sığorta vərəqələrinə nəzarətini təmin edirdi. Məqsəd isə insanları məlumatlandırmaq, onlara informasiya vermək və sığorta vərəqələrinin qiymətini elan etməkdən ibarət idi.

2.ROMA JURNALİSTİKASI TARİXİ

Roma Qədim Yunanıstan mədəniyyətinin varisi, eyni zamanda demokratik ənənələrin davamçısı hesab olunur. Bu fikiri böyük alman filosofu Karl Marksın söylədikləri də, tam təsdiqləyir. O, demişdir: «Yunan mifologiyası olmasa idi, Roma mifologiyası olmazdır. Roma mifologiyası olmasa idi ... dünya mifologiyası olmazdır.»

Roma da, Ellada (Yunanıstan) kimi senzuranın nə olduğunu bilməyirdi. Baxmayaraq ki, latın dilində olan «censor» sözü onlara olduqca yaxın idi. Beləki, bu söz qədim Romada vaxtı ilə işlənmiş və başqa məna kəsb etmişdir. «Censor» sözü-qiymət qoyan, qiymət təyin edən deməkdir. Qədim Romada hər beş il-

dən bir əhalinin siyahıya alınması aparılirdi ki, bunu da senzura həyata keçirirdi. Senzur məmurlar həmin siyahıda korrekta (düzəlişlər) edir, müəyyən adamları siyahıdan çığarır, yerlərinə başqalarını əlavə etməklə bərabər, atlı və senatorlar haqqında da məlumatlar verirdilər.

Antik cəmiyyətin demokratik quruluşu, azad fikirlilik üçün azad söz və hüquq yaratmışdır. Xalq məclislərində natiqlər ictimai-siyasi həyatla bağlı fikirlərini azad şəkiidə ictimaiyyətə izhar edirdilər. Ədəbiyyat nümunələri, əsərlər senzor yoxlamalarına məruz qalmırdı. Amma polisin (sığorta vərəqələri) etik normalarına, həmçinin başqalarının azad fikirlərinə və plüralizmə qarşı səbirsizlik nümayiş etdirənlərə qarşı ağır və ciddi cəzalar tətbiq olunurdu. Beləki, özünün «Allahlar haqqında» kitabında Protoqor allahların varlığını şübhə altına alan, onların varlığını inkar edən fikirlər söylədiyinə görə Afinadan qovulmuşdur. Sonralar ingilis filosofu Con Milton təsdiqləyirdi ki, «antik dövrdə, əsasən iki ifadə forması dövlətin nəzarəti altında olurdu. Burincisi, böhtan, iftira, ikincisi isə, qədim yunan və romalıların böyük rəğbət bəslədikləri allahlar.» (137) Lakin imperator Avqustun əmrinə əsasən Ovidiya erotik məhəbbət haqqında yazdığı poema və şerlərə görə Qara dəniz sahillərinə sürgün olunmuşdur. Bu da, təsdiq edir ki, geniş məzmunlu əsərlərə senzura tətbiq olunurdu. Ancaq mübahisəsiz demək olar ki, antik dövrdə bu və yaxud başqa formada senzura olmayıbdır. Areopaqın (ali məhkəmə, divanxana) qərarına əsasən Protoqorun traktatı yandırılmış, Ovidiyanın kitabı isə nəşr olunduqdan sonra kitabxanadan götürülmüşdür.

Bizim eranın IV əsrnin ortalarına kimi qədim Romada bir il ərzində baş verən hadisələr haqqında xronoloji ardıcıllıqla siyahı hazırlanaraq müəyyən olunmuş yerə qoyulurdu. Buna annal deyirdilər. (Latın sözü «anno» il deməkdir. Amma rus dilində «анналы» salnamə mənasını verir.) Annal ciddi xronoloji ardıcıllığına və işgüzarlığına görə tərtib olunurdu və özünün yığcamlığına və quru üslubuna görə seçilirdi. Hadisələrə izahat verməkdən çəkinməyən yunan tarixçilərindən fərqli olaraq,

roma tarixçiləri faktların müəyyən olunmasında məhdudluğa yer verirdilər. Anallarda (əfsanələrdə) yüksək vəzifəli məmurların adları qorunub saxlanır, günəş və ay tutulmaları, müharibə, bayraq, qiymətlərin qalxması və s. haqqında məlumatlar əsas yer alırdı. Məlumat təmizlənmiş kiçik taxta lövhəciklər üzərinə ildə bir dəfə yazılaraq, vətəndaşların mütəmadi gəldikləri yerə, ali xadımin və Pantifikin evinin üstünə qoyulurdu.

Romanın yeni ərazilər işğal etdiyi zaman, belə bir ideya yaranır ki, informasiyanı yazaraq əyalətlərə yaymaq lazımdır. Kanada tədqiqatçısı Qarold İnnis özünün «İmperiya və kütləvi kommunikasiya» (165) kitabında təsdiq edir ki, Romanın sosial və hakimiyyət strukturları yazının təsiri altında formalaşmışlar, yəni xalq və hakimiyyətin ünsiyyəti elitanın nəzarəti altında təşəkkül tapmışdır. Yazının sayəsində mərkəzdə yerləşmiş elita böyük ərazini idarə edə bilirdi ki, bu da, imperator hakimiyyətinin inkişafına öz müsbət təsirini göstərməyə bilməzdir.

Yuli Sezarın (b. e. ə. 100-44-cü illər) zamanında, onun əmrinə əsasən gündəlik əlyazması şəkilində «Acta senatus» və «Acta diurna» bülletenləri işıq üzü görməyə başlayır. Bunlar o zaman dövri mətbuat funksiyasını yerinə yetirirdilər. Onların səhifələrində Senatda aparılan iclasların protokolları öz əksini («Acta senatus»-Senat xəbərləri deməkdi) tapırdı. Bu proses b. e . ə. I əsrə qədər davam etmişdir. İmperator Tiberiy daha irəli gedərək publisistik yazıların dərc olunmasına icazə vermişdir. Bu icazə tarixə ilk dövri, həm də azad mətbuat kimi daxil olur.

B. e. V əsrində, Romanın süquta uğraması ilə bu cür əlyazması formasında buraxılan qəzetlərin sonu çatır. O zaman Romada, informasiya axtarıb tapan və yazanları «diurnarin» kimi qələmə verirdilər. Bu məntiq üzərində fikirlərimizi cəmləşdirmiş olsaq «Acta diurna»nı indi ki, jurnalistikanın sələfi hesab etmək olar. Lakin yaddan çıxartmaq olmaz ki, onlar haqqında xatirə bugün də dilimizdə qalmaqdadır.

Roma, natiqlik bəlağətini irsən qədim Yunanıstandan götürmüşdür. Bəzi natiqlik nəsrinə aid olan əsərlərdə ictimai həyatı fəal əks etdirən çağırış nümunələri mövcud idi ki, bunları

da erkən publisistika hesab etmək olar. Beləki, ictimai xadim, parlaq natiq, Roma yazıçısı Siseron (b. e. ə. 106-43-cü illərdə yaşayıb) özünün «Qatilin əksinə nitq»ində (165) dövləti yıxmaq üçün təşkil olunmuş dəstəni və siyasi rəqibi Roma papası Katilini mübarizədən kənarlaşdırmaq məqsədi ilə belə bir üsuldan istifadə olunduğunu yazmışdır. Aforizm, nəsihətamiz misallar, hazırcavablıq, ifadələrdə kəskin və açıq sonluq, təzyiq artıran sual və nidalı cümlə quruluşu və s. bu cür müxtəlif üslublardan istifadə edən Siseron dinləyicilərini özünə inandıra bilmişdir. Onun bəzi ifadələri sonralar da, geniş istifadə olunmuşdur.

Antik dövr elə bir kommunikasiya vasitəsi yarada bilmişdır ki, sonrakı mərhələlərdə, müxtəlif dəyişikliklərə və inkişafa baxmayaraq o öz prinsipial mövqeyini itirməmiş, əksinə, by günkü dünya mətbuatında yerini qoruyub saxlamışdır. İctimai-siyasi xəbərlər, bəlağət, tarix, səlnamə, xronika, canlı danışıq, çağırış, nəsihət və s. sonraki Avropa publisistikasının yaranmasını təmin etmişdir. Publisistika mütamadi olaraq dövrünün ən vacib ictimai-siyasi məsələlərini, əlifbanı, kitab nəşrini, natiqliyi və baçqa vacib hadisələri qabartmaqla qədimdən bəri həyatın, zamanın gündəlik normasına çevrilmişdir.

3.QƏRBİ AVROPA JURNALİSTİKASI TARİXİ

Milad tarixinin iyirmi birinci yüzilliyinin təmtəraqlı bir dövrünü yaşayan, özünün tarixi inkişaf trayektoriyası ilə öyünmək iqtidarında olan, tarixi boyu keşməkeşli hadisələrə məruz qalan və ətrafında müxtəlif çalarları birləşdirən, olduqca çox maraqlı prosesləri arsenalında qoruyub saxlayan Qərbi Avropa jurnalistikası, zəngin və dolğun materialları ilə bu gün fəxr edə bilər. Dolğun və aktual olan bu tarixi prosesi bir mövzuda və yaxud bir kitab daxilində bütöv şəkildə vermək olduqca çətin, həmçinin çox məsuliyyətli bir işdir. Məhz, buna görə də, onu tarixilik nöqteyi-nəzərindən aşağıdakı dövrlərə bölmək qərarına gəldik:

1.1900-cü ilə kimi olan dövr;
2.1900-cü ildən 1945-ci ilə kimi olan dövr;
3.1945-ci ildən bu günə kimi olan dövr.

XVI əsrin sonu XVII əsrin əvvəllərində Avropada iqtisadi və siyasi vəziyyət yüksələn xətt üzrə inkişaf etməyə başlayır. Ölkələr arasında ticarət və mədəniyyət əlaqələrinin genişlənməsi yeni informasiya sisteminin yaranmasına zərurət yaradır. Dəniz və quru kommunikasiya əlaqələrinin yaranması, çaylardan intensiv surətdə istifadə, yeni kanalların tikintisi və s. bu kimi inkişaf informasiyaya olan tələbatı daha da artırır. XVI-XVII əsrlərdə Avropanın bir çox ölkələrində poçt xidmətləri yaranmağa başlayır və genişlənir, bu da öz növbəsində informasiya mübadiləsini sürətləndirməyə vadar edir. Həm təsərrüfat, həm də siyasi sahələrdə operativ informasiya almaq üçün, həmçinin Avropanın iri ticarət mərkəzlərində keçiriləcək yarmarkalar, əmtəə ilə dolu gəmilərin limana gəlməsi və çeşidli malların qiymətləri haqqında məlumatları əldə etmək üçün informasiya vərəqələri yayılmağa başlayır. Hətta «informasiya aclığını» aradan qaldırmaq məqsədi ilə əlyazma formasında yazılmış qəzetlər əhali arasında dolanır. Avropanın böyük iqtisadi və maliyyə mərkəzlərində bu günkü qəzetlərin sələfi olan «Venetsiya» qəzeti əlyazması şəkilində işıq üzü görür. Bir çox Avropa dövlətlərinin dilinə daxil olmuş «qəzet» sözü qədim Venetsiya sikkəsinin «gazzetta» adından götürülmüşdür. (166)

Əlyazma formasında işıq üzü görən qəzetlərin dövriyyəsi həftədə bir dəfə idi. Təəssüf hissi ilə deyə bilərik ki, «Venetsiya» qəzetinin jurnalistləri və yaxud ona ruh verən insanlar haqqında çağdaş zəmanəmizə qədər konkret məlumat gəlib çatmayıbdır. Venetsiya «avviso» (1556) adını almış, məlumatları peşəkarcasına toplayan sex, «avvisatori» haqqında bu gün kifayət qədər məlumat mövcuddur. «Avvisatori» sözünün italyan dilindən tərcüməsi müjdəçi, xəbər gətirən deməkdir. Qeyd etmək yerinə düşərdi ki, bu peşə həmin zaman kəsiyində, heç də hörmətli, nüfuzlu sənət sayılmırdı. «Venetsiya» əlyazması

vaxtı ilə İtaliyada, o cümlədən Avpopada kifayət qədər yayılmış və tədavüldə olan nəşr hesab olunurdu. Onun təsiri nəticəsində Almaniyada analoji üsulla qəzet çıxmağa başlayır. İtaliya təcrübəsindən ilk yararlanan və ondan istifadə edən Fuqqerov bank evi olur. Fuqqerov maliyyə-imperiyası bir çox Avropa ölkələrində öz maraqlarını ifadə edirdi. Onların agentləri ümumi xarakter daşıyan işgüzar məlumatları səliqə ilə toplayaraq yazırdılar. Bu xəbərlər, Fuqqerov bank evinin «qəzeti» kimi («fudderzeitungen») 1568-1605-ci illəri əhatə etmiş və Avropada olduqca böyük müvəffəqiyyət qazana bilmişdır. Qəzet azad satışda olmasa da, cəmiyyətin seçilmiş adamlarına, Fuqqerov ailəsinin üzvlərinə və bank evi ilə əlaqəsi olan müştərilərə mütəmadi çatdırılırdı.

Avropada dövri qəzet nəşrinin tarixi 1609-cu ildən (bəzi tədqiqatçılar isə bu tarixin 1605-ci ildən olduğunu qeyd edirlər) hesablanır. İlk qəzetin vətəni isə Almaniya sayılır. «Relation: Aller furnemmen» sözü ilə başlayan bu qəzet 1609-cu ilin yanvarında Strasburq şəhərində nəşr olunmuşdur. Qəzetin həmin sayında Kölün, Antverpen, Roma, Venetsiya, Vena, Praqa və başqa şəhərlər haqqında yeniliklər əsas yer almışdır. Həftəlik qəzetin redaktoru-naşiri, vaxtilə əlyazması formasında yenilikləri vərəqələr şəklində tərtib edib yayan Yoqann Karolyus adlı şəxs idi. (166)

1609-cu ildə Ayqsburq şəhərində ikinci həftəlik «Avisa Relation oder Zeitung» adlı qəzet Luka Şultenin redaktorluğu ilə çapdan çıxır. Həmin ildən başlayaraq Avropada həftəlik dövri nəşrlərin sayı sürətlə artmağa başlayır. 1610-cu ildə Bazeldə «Ordinari Wohenzeitung», 1615-ci ildə Frankfurt-na-Maynda və Venada, 1616-cı ildə Hamburqda, 1617-ci ildə Berlində, 1618-ci ildə Antverpen, Maqdeburq, Nyurenburq, Rostok, Braunşveyq və Kölün şəhərlərində qəzetlər nəşr olunmağa başlayır. O ki, qaldı Kölün şəhərinə, burda 1558-ci ildən başlayaraq Mixel fon Aytstinq adlı bir şəxs ildə iki dəfə olmaqla siyasi və hərbi informasiyalarla zəngin olan «Relatio Historica» («Hərbi xəbərlər») toplusunu nəşr etdirməyə başlayır. Bu toplu şəxsən

Mixel fon Aytstinq tərəfindən yaz və payız mövsümlərində Frankfurt kitab yarmarkasında satılırdı.

1594-cü ildə, Kölün şəhərində yarım illiyi əhatə edən «Merkurtus Gallo Belgicus» adlı daha bir nəşr işıq üzü görür. Latın dilində dərc olunan bu toplu, nəinki Almaniyada, hətta ondan çox-çox uzaqlarda da, məşhurlaşır.

Artıq 1630-cu ildə Avropanın 30-dan şox şəhərində dövri həftəlik qəzetlər işıq üzü görməyə başlayır. 1609-1700-cü illərdə yalnız Almaniyada 200-dən yuxarı qəzet nəşr olunurdu. Bütün bunlar çap məhsullarına, informasiyaya olan tələbat, şəhərlərin salınması və genişlənməsi, həmçinin nəşriyyat işinə olan maraqdan irəli gəlirdi. Burda maraqlı bir faktı qeyd emək yerinə düşərdi. Beləki, qəzet və nəşriyyat işi genişləndikcə paralel olaraq senzuralar da, meydana gəlməyə başlayır.

1502-ci ildə, İspaniyada nəşrlərin əvvəlcədən senzuradan keçməsi ilə bağlı rəsmi qanun qəbul olunur. Senzur funksiyasını dövlət və kilsə yerinə yetirirdi. 1521-ci ildə Almaniyada Lyuterə qarşı Borum fərmanı tətbiq olunur ki, bu da, həmin ölkənin mətbuat tarixində qəbul olunan ilk senzura sayılır.

1559-cu ildə Romada, reformanın qalib gəlməsinə qarşı katolik kilsəsi çıxış edir və birinci olaraq «Qadağan olunmuş kitabların indeksi» adlı siyahı tərtib olunur. Vatikan tərəfindən qəbul və bütün katolik ölkələrinə tətbiq olunan bu senzura haqqında Con Milton özünün məşhur «Areopaqitika» adlı kitabında geniş və müfəssəl məlumat verməklə bərabər, «papa» senzurasını «sirli əjdaha» adlandırır. (137) Avropanın böyük şəhərlərini bürüyən senzura hər yerdə eyni qaydada hiss olunmurdu. Hollandiya belə ölkələrdən biri idi.

Rotterdam şəhərində siyasi sığınacaq tapan fransalı filosof-publisist Pyer Beyl 1684-cü ildə yazırdı: «Hollandiya Respublikası elə bir üstünlüyə malikdir ki, onu başqa ölkədə tapmaq olmaz. Nəşriyyat işi burda oduqca azaddır. Avropanın hər yerindən inamı qırılmış insanlar bura axışır...» (49)

Avropada ilk gündəlik qəzet 1650-ci ildə Leypisqdə, başqa məlumatlara görə isə 1660-cı ildə, yenə də Leypisq şəhərində

meydana gəlmişdir. Hərbi və dünya işlərindən xəbər verən bu qəzetin naşiri Tiloteus Ratsşe olmuşdur.

Almaniyaya nisbətən, gecikmiş olsa da, bu proses Avropanın başqa ölkələrində də, davam edir. İlk gündəlik qəzetlər İngiltərədə 1702-ci ildə «The Daily Coyrant» («Gündəlik kurant»), Fransada 1777-ci ildə «Journal de Paris» («Paris qəzeti»), İtaliyada 1798-ci ildə «Gazzetta di Genova» («Genuya qəzeti») həyata vəsiqə alırlar. (166)

XVII əsrdə ilk Avropa jurnalının yaranması tarixə «Ədiblər Respublikası» və yaxud «Alimlər Respublikası» adı kimi daxil olmuşdur. Beləliklə, bu jurnal Avropanın intellektual səviyyəyə malik olan insanları arasında ünsiyyətin yeni mərhələsini qoymuşdur. Bütün bunlara rəğmən jurnalın üzvləri, şəxsi görüşlərindən başqa, bir-biriləri ilə həm də, elmi yazışma vasitəsilə əlaqə saxlayırdılar. Həmin dövrdə, Avropanın mənəvi həyatını bunsuz başa düşmək çətin idi. Bu cür yazışma nə antik dövrün epistolyar, nə də ki, orta əsrlərin Renessans yazışmalarını xatırlatmırdı. Bu tamamilə yeni bir forma, yeni bir üsul olaraq, yeni bir mərhələnin başlanğıcını qoydu. «Biliyə yiyələnmək istəyən hər bir kəs, ən azı, müəllimin və şərhçinin izahına yox, özünün və özünə bərabər intellektual səviyyəli şəxslərə istinad etməli idi.» (33,299) Artıq Avropada akkumulyasiya yolu ilə elmi cəmiyyətlər yaranmağa başlayırdı. İlk elmi jurnal Avropada («Journal des Savants») «Alımlər jurnalı» (1665-1828) adlanır və o Jan-Batist Kolberanın təşəbbüsü ilə nəşr olunmuşdur. Kolberin təklifi ilə çap olunan bu dövri jurnal Avropa intellektual dairələrinin elmi, tənqidi və ədəbi problemlərə olan ehtiyacını ödəməklə yanaşı, həm də elm ictimaiyyətinin fikirləri üzərinə işıq salırdı. Jurnalın ilk nüsxəsi 5 yanvar 1665-ci il tarixində dünyaya qovuşur. Redaktor-naşir rolunda Fransa parlamentinin məsləhətçisi Deni De Sallo çıxış edir. Jurnal əvvəlcə həftədə bir dəfə, sonralar isə həftədə iki dəfə olmaqla 12 səhifə həcmində çap olunmağa başlayır.

Salloya təklif olunur ki, nəşrdə olan informasiya boşluğunu səmərəli elmi ünsiyyət və müzakirələrlə təkminləşdirsin. Mə-

lumatlar məktub formasında jurnalın redaksiyasına daxil olurdu. Bunun nəticəsi idi ki, dərgi elmi polemikaya, «provokasiya» mübahisəsinə istiqamətlənirdi. «Journal des Savants»-ın nəşrində Deni Salloya Fransa mədəniyyətinin görkəmli xadimləri Maren Leroy de Qombervill və Jan Şaplen kömək edirdilər. Bir ildən sonra jurnal yunan dili üzrə professor, rahib Jan Qalluanın rəhbərliyinə keçir və 1674-cü ilə kimi davam edir.

XVIII yüzilliyin əvvəllərində «jurnal» «dövri əsər» kimi «müəyyən zaman fasiləsi ilə mütəmadi çıxır, yeniliklər və yaxud yeni çap olunan kitablar haqqında xəbər verməklə bahəm, onların məzmununu açır və elmdə baş verən kəşflər haqqında auditoriyaya məlumat çatdırır; qısaca demiş olsaq bu əsərlərdə, «Ədiblər Respublikasında» mümkün olan hər şey haqqında kimsə gündəlik hər şeyi işıqlandırır.» (33,299)

1665-ci ildə, bir neçə həftə gecikmə ilə İngiltərədə Henri Oldenberqin rəhbərıiyi altında yeni «Philosophical of Sosietu» («Kral cəmiyyətinin fəlsəfi əsərləri») adlı jurnal meydana gəlir. London Kral cəmiyyətinin rəsmi orqanı olan bu jurnal ayda bir dəfə çap olunurdu. Maraqlıdır ki, jurnalda dərc olunan on məqalədən üçü «Journal des Savants»dan götürülürdü.

1668-ci ildə, Romada ilk dəfə İtaliyan dilində «Il Giornale de Letterati» («Ədəbiyyatçılar jurnalı») jurnalı işıq üzü görür. Bu Fransada nəşr olunan «Journal des Savants»ın formasında olsa da, dərginin redaktoru Françesko Nadzari tərəfindən özünəməxsus formada düşünülmüşdür. Jurnal sonrakı mərhələlərdə İtaliyanın ədəbiyyat xadimlərinə xidmət göstərməkdə nümunəyə çevrilir. Ədəbiyyatşünaslıq, fəlsəfə və dilşünaslıqla bağlı və spesifik xüsusiyyətlərə malik olan əsərlərin çap olunduğu bu jurnal 1679-ci ilə kimi, düz on bir il insanların xidmətində dayanır.

1682-ci ildə professor Otto Menke Leypisiq şəhərində latın dilində «Acta Eruditorium» («Alimlərin qeydləri») adlı jurnalın buraxılışına təşəbbüs göstərir və qısa zaman ərzində bütün Avropada məşhurlaşır. Həmin jurnalın səhifələrində özünün çoxsaylı əsərlərini çap etdirən Hotfrid Vilhelm Leybnits fəal iştirak

etməyə başlayır. «Acta Eruditorium» jurnalı 1731-ci ilə kimi «ömür sürür.» (166)

Avropanın əksər ölkələrini dolaşan senzuranın təqibi jurnalistlərə özlərinin əsərlərini çap, həmçinin mətbuat orqanlarını nəşr etdirməyə Hollandiyada imkan verirdi. Bu isə bütünlükdə, jurnalistləri öz diqqətini ora yönəltməyə məcbur edirdi.

Dini baxışlarına görə mühacirətdə yaşayan nüfuzlu Fransız skeptik-filosofu Pyer Beyl 1684-cü ildən başlayaraq Hollandiyada özünün fəlsəfi-ədəbi vaxtaşırı nəşr olunan «Nouvelles de la republique des lettres» («Ədəbi respublikanın yenilikləri») adlı dərgisini dövriyyəyə buraxır. Nəşrin ilk sayının müqəddiməsində Pyer Beyl yazırdı: «Biz axılsız qərəzdən uzağıq. Biz bu yaxınlarda, nəinki hakim, məlumatçı rolunda çıxış edəcəyik. Biz kitablardan bizim əksimizə olan, lakin bizim xeyrimizə işləyən vicdanlı sitatlar gətirəcəyik.» (166) Beylin nəşri öz zamanında çox böyük rezonansa səbəb olmuşdur ki, bu da, redaktorun Avropanın intellektual dairələrində kifayət qədər tanınması faktını təsdiqləmiş olur. Fransada «Nouvelles de la republique des lettres» jurnalının yayılmasına qadağa qoyulduğundan, bu jurnalı Fransada əldə etmək mümkün deyildir.

Beylin jurnalında fəlsəfə, ilahiyyət, tarix və ədəbiyyat, siyasi və dini polemik xüsusiyyətlərə malik kitablarda qarşıya qoyulan suallara cavab, həmçinin onlara yazılan resenziyalar əsas yer tuturdu. Hətta yanlış düşünənlərə səbr və dözümlü münasibət bəsləyən Hollandiyada, Beylin bir neçə nəşri ona gətirib çıxardı ki, müstəqil redaktoru Rotterdam universitetinin tarix və fəlsəfə professoru kürsüsündən azad etdilər.

Bədxahların hucumu və sarsılmış sağlamlığı Beyli məcbur etdi ki, üç ildən sonra jurnalın nəşrini dayandırsın. Naşir Bonaj de Boval jurnalın adını dəyişib «Histoire des ouvrages des savants» («Alimlərin əsərlərinin tarixi») və yaxud («Alimlərin əsərlərinin salnaməsi») adını qoyaraq Beylin işini davam etdirdi. Jurnal öz yeni adı altında 1709-cu ilə kimi yaşaya bildı.

1688-ci ildən mühacir həyatı yaşayan və Beylin opponenti kimi tanınan Jan Leklerk Amstredam şəhərində «Bibliotheque

universelle et historique» («Ümumi tarix kitabxanası») adlı jurnalının nəşrinə təşəbbüs göstərir. Bu jurnal beş il mövcud oldu və naşir onunla şöhrət tapdı. Nəşrin ilk sayında Leklerk Con Lokkanın «İnsan dərrakəsi haqqında təcrübə» əsərindən geniş çıxarışlar dərc etdirdi və bununla da, bir çox Avropa ölkələrində coşqun müzakirələrə səbəb oldu.

Fransada ədəbi-tənqidi mahiyyət daşıyan jurnal öz mənbəyini 1672-ci ildə nəşrə başlayan «Merkure galant» («Ədəbli Merkuri») jurnalından götürür. Bu jurnalın nəşr olunmasında zəmanəsinin məşhur dramaturqu və mahir polemikaçısı Molyerin əleyhdarı Jan Donno Vize kral «imtiyazı» alır. (166)

İlk illər «Merkure galant» qeyri-müntəzəm nəşr olunur, lakin 1677-ci ildən De Vizenin jurnalı ayda bir dəfə çap olunmağa başlayır. Oxucuların diqqətini aristokrat, kübar həyatı ilə bağlı yazılar daha çox cəlb edirdi. Bu isə auditoriyanın maraq dairəsindən irəli gəlirdi.

«Madama məktub» rubrikası altında de Vize kral sarayının və Paris elitasının yeniliklərini dərc etdirir. Getdikcə De Vizinin hesablaması özünü doğruldurdu. Beləki, saray və salonların qeybətləri geniş oxucu kütləsinə çatdırılırdı. Sözsüz ki, bu cür informasiyalar böyük marağa səbəb olurdu. Müasirlərin bu dövri nəşrə reaksiyası heç də birmənalı olmurdu. Jan de Labryuyer üçün «Merkure galant» «Həddən aşağı əhəmiyyətsiz, cüzi bir şey: Bu cür nəşrlər bizdə, heç də az deyil. Kim ki, bu cür səfeh, gic kitablarla var-dövlət toplayır, yaşamağın yolunu bilir, öz ağlındadı, kim ki, onu alır bax o ağılsızdır; Ancaq oxucuların zövqünü bilərək, ona hansısa cəfəngiyyatı, sarsaq bir şeyi soxuşdurmaq olduqca çətindir.» (83,43)

Qeyd etmək lazımdır ki, 1690-cı ildə «Merkure galant» jurnalında Şarl Perronun «Yatmış gözəl» nağılı dərc olunur. İmzasız (anonim) dərc olunan bu nağılın müəllifi, yəni Şarl Perro əsərlə öz adını ona görə bağlamaq istəmirdi ki, klassisizm kanonuna (dini üsul) görə bu çox «aşağı janr» hesab olunurdu.

Kral imtiyazı verilən «Merkure galant» jurnalı, sonralar-dramaturq, şair, musiqiçi, rəssam, romançı, jurnalist, kom-

mersant kimi adları yarlıq edərək özünə yapışdıran və özünü istedadlı adam kimi qələmə verən Şarl Dyufrenin əlinə keçir. Sonda Dyufren Fransa jurnalistikasının tarixinə yalnız ilk fransız jurnallarından birinin redaktoru kimi daxil olmuşdur.

O, ilk dəfə 1699-cu ildə, («Siamalının ciddi və komik əyləncəsi») fransız həqiqətlərini təsadüfən Paris şəhərinə gələn Siamalı bir tüfeylinin gözü ilə göstərməklə yeni metodun əsasını qoyur. Dyufrenin qəhrəmanı tamamilə avropa həyatının əxlaqi ilə tanış deyil, məhz buna görə də, mütəmadi olaraq komik və gülüş vəziyyətlərə düşür. Bununla da, müəllif oxucunun diqqətini gündəlik həyatın çirkin, xoşagəlməyən tərəflərinə cəlb etmək istəyir.

Dyufren tərəfindən istifadə olunan belə bir metod, fransa publisistikasında maarifçiliyin həddən artıq məşhur olduğu bir dövrdə geniş yayılır. Bu metoddan istifadə etməklə, Şarl Monteckye özünün «Fars məktublarında», Oliver Qoldsmit isə «Dünyanın vətəndaşları və yaxud Londonda yaşayan çin filosofunun öz Şərqdəki dostlarına məktubu» əsərlərində yetərincə bəhrələnirlər. Həmin dövrdə bu priyom və metoddan bir çox başqa ədiblər də uğurla istifadə etmişlər.

XVIII əsrdə Avropa yeni iqtisadi, sosial-siyasi və ideoloji keçid dövrünə qətiyyətli bir addım atdı. Mütləqiyyət rejimi demokratik meylərlə əvəzlənməyə başladı. Feodal iqtisadi münasibətləri yavaş-yavaş öz yerini kapitalizmə verir, elm və fəlsəfədə rasionalizm təsdiqlənir, siyasi və dini həyat-tolerantlaşır (səbr və dözümlük nümayış etdirilir, «insan hüquqları təbiiləşir», fəlsəfi-hüquqi və demokratik konsepsiya qanunauyğunlaşır). Qeyd etdiyimiz hadisələr çox çətinliklə olsa da, özünə yol açır. XVIII əsr-qanlı inqilabi fırtınalar və müstəqillik uğrunda gedən müharibələr dövrü kimi tarixə düşür.

«Artıq sosial-iqtisadi və siyasi hərəkat mənəvi sahə ilə bağlılıq təşkil edirdi. Qazanılan nailiyyətlərə əsaslanaraq bir qrup ziyalı təbəqə özləri özlərinə «maarifçilər» adını verdilər. Avropada tərəqqipərvər qüvvələrin şüarı belə idi: «Maarifçilik dərrakə işığının köməyi ilə.» (166) Beynəlxalq kitab ticarətinin

səyahəti, hər yerdə artmaqda olan tərcüməçilik fəaliyyəti və yazışma nəticəsində yeni ideyalar intişar tapmağa başlayır.

Maarifçilik dövri jurnalistikanın çiçəklənməsi və təşəkkül tapması ilə üst-üstə düşür və bu düz gəlmənin öz qanunauyğunluğu mövcud olur. Bəzən elə olur ki, bu zamanı şəxsi jurnalizm əsri adlandırırlar. Praktiki olaraq, hər bir dövri nəşrin arxasında redaktorun şəxsiyyəti və yaxud özünün həyata keçirdiyi ideoloji siyasət dayanır. Tez-tez filosof və yazıçılar öz şəxsi baxışlarını təbliğ etmək üçün yeni mətbuat orqanı yaratmaqla əlaqədar hökumətə müraciət etməli olurlar. Qəzet və jurnallar konseptual dövri mətbuat olaraq, maarifçilik ideyalarını geniş oxucu auditoriyasına yaymaq üçün əsas kommunikasiya vasitəsi hesab olunurdular.

XVII əsrdə Avropada maarifçiliyin başlanğıcı ingilis deist (deizm tərəfdarı, fəlsəfi cərəyan) və filosoflarının yaratdıqları yeni ideya ilə bağlı idi. 1689-cu ildə «Bill hüquqlar haqqında» (Con Lokkanın bir neçə fəlsəfi konsepsiyasını nəzərə almaqla) bəyanat yalnız İngiltərədə deyil, bütün Avropada əlamətdar hadisə oldu. Çünki «Bill hüquqlar haqqında» adlı bəyanatda əsasən şəxsiyyətlə dövlət arasında münasibətlərin yeni modeli verilirdi.

Lokkon tərəfindən söylənilən «biz azad doğuluruq, həmçinin biz ağıllı doğuluruq» («Vətəndaşların idarə olunması haqqında», 1690) fikri, çoxları üçün həqiqi kəşf kimi səslənirdi və qəbul olunurdu. Volter yazırdı: «Lokkon insanlığın qarşısında, insanın idrak və dərrakəsini, o cümlədən üstün anatom kimi insan bədəninin mexanizmini açdı və bu məsələyə aydınlıq gətirdi.» (166) Bir çox fransız maarifçiləri (Monteskiye, Volter, Prevo) İngiltərəyə getdilər ki, mədəniyyət və dövlət strukturunun ideologiyası haqqında ən qabaqcıl və səmərəli ideya ilə tanış olsunlar.

Cəmiyyətin əxlaqını maarifçilik və əyləndirmək vasitəsi ilə düzəltmək-maarifçilik jurnalistikasının əsas tapşırığı oldu. Buna görə də, maarifçilik ideyasını təbliğ edən nəşrlərin dili öz sadəliyi və aydınlığı ilə fərqlənirdi ki, oxucu auditoriyası üçün o,

maksimum başa düşülən və asan anlaşılan olsun. Daniyel Defo yazırdı: «Əgər məndən soruşsalar ki, hansı üslubu ən yaxşı hesab edirəm, onda mən cavab verərdim ki, beş yüz nəfər müxtəlif peşə sahibi ilə, ağıldan kəm və dəlilər müstəsna olmaqla, başa düşən hamı ilə.» (166)

Defonun özü təcrübəli pamfletçi və mahir polemikaçı, satirik yönümlü nasir kimi bir çox məqsədlərə çatmış və şöhrət qazanmışdır. Onun «Dissidentlərin öhdəcindən gəlməyin ən qısa üsulu» (1702) pamfleti dini baxışlarına görə anqilikan kilsəsi tərəfindən təqib olunanlara qarşı istiqamətlənmişdir. Amma Defo onu bu cür yazırdı: «Kimə qarşı bu pamflet yönəldilib? Karikaturaya dəqiq cavab, pamfletçilər üzərində məhkəmə ... Tapılan kitabların nüsxələri açıq yandırıldı, cərimə və üç dəfə ağaca bağlanaraq biabırçı nümayiş etdirmə... » (166) Nəhayət ki, vətəndaş edamını döndərmək Defoya nəsib olur və o, öz şəxsi zəfərini yaşayır. Həbsxanada olarkən Defo «Biabrçı ağacın himni» (1703) kitabını yazır. Xoşbəxtlikdən kitab hökmün icra olunacağı gün satışa çıxarılır. Bu zaman meydana toplaşan kütlə Defonu alqışlarla və gül səpməklə salamlayırlar.

1704-cü ildə həbcxanadan çıxan Defo, müstəqil jurnalist kimi «The Weekly» («Həftəlik») adlı şəxsi jurnalın nəşrinə başlayır. Həbsxana həyatı Defonu «xalqa qarşı bir qədər də, lütfkar, mehriban edir»; o, satira, siyasi əsər, polemik məqalələr yazır. Onun «İcmal»ı («Revieü») daha çox Fransa ilə Avropa münasibətlərinin Fransaya nə qədər təsir göstərməsindən bəhs edir.» (72) Həftədə dörd dəfə çap olunan bu xalq vərəqəsi, sözün həqiqi mənasında, bu prinsipiallığına görə, ingilis jurnalıstikasının başlanğıcı hesab oluna bilər.» (72,244) Defo 1713-cü ilə kimi jurnalın nəşrini davam etdirir və onu şəxsi əsərləri ilə zənginləşdirir. Hətta ona, bu işgüzarlığına görə «cənab Revyu (icmalçı)» ləqəbi vermişdilər.

İngiltərə maarifçilik jurnalistikasında əxlaqın islah edilməsi üçün iki yanaşma: satirik və mənəvi-nəsihətedici (didaktik) metodlar mövcud idi. Onları həmişə bir-birindən ayırmaq mümkün olar, əgər kənar tərəflərini fərqləndirmək olsa. Bu

məqamda Cozef Addison və Riçard Stilyanın nəsihətamiz jurnalistikasını bir tərəfdən göstərmiş olsaq, onda gərək ikinci tərəfdən Conatan Sviftin yandırıcı, kəskin, acı satirasını göstərək. U. M. Tekkerey bunu necə incə və ağıllı qeyd edərək yazırdı: «yumşaq satirada, heç vaxt o, qadağan olunmuş zərbə vurmur; mərhəmətli hakimdir, o, yalnız gülüşlə cəzalandırır. Bu zaman Conatan Sviftin satirası adamı amansızcasına asır...» (198)

Svift İngiltərə jurnalistikasının tarixində parlaq iz qoyan publisistlərdəndir. Onun istedadı və bacarığı haqqında fikir söyləyən M. U. Tekkerey qeyd edirdi ki, «ən yırtıcı dimdik və caynaq, ova nə zaman batırsa, ən güclü qanad havanı nə zaman yarırsa, bunların hamısı Svift satirasında var.» (198) Pamflet Sviftin ən sevimli janrı idi. O, öz oxucularını heç vaxt publisistik əsərlərinə aldadıcı, uydurma adlar yazmaqla çaşdırmamışdır. Nə vaxt ki, mətbuatda imzasız, adsız publisistik əsərlərə qadağa tələbi sürən məqalə dərc olunur, o zaman Svift etiraz edir və təsdiqləyir ki, bu cür məqalə qanunu mümkünsüz edir.

1696-1697-ci illərdə, Svift əməli olaraq eyni vaxtda-«Kitabların davası» və «Çəllək nağılı» adlı iki pamflet yazır ki, onlara da, uzun müddət üzdə olmaq nəsib olur. «Çəllək nağılı» Sviftin ədəbi yaradıcılığında ən məşhur və parlaq əsər hesab olunur. Həmin əsərdə, reformasiyanın və müxtəlif istiqamətli xristian məzhəbinin daxili aləmini əks etdirən incə və kəskin reaksiya verilir. Pyotr, Martin və Cekin daxili aləmində katolisizm, lüteranlıq və kalvinizm (puritanlıq) obrazları əmələ gəlir.

Sviftə siyasi qərəzçilik əvvəlcə viqlər (indiki liberalların sələfi) tərəfində olur, lakin 1709-1710-cu illərdə o, viqlərlə əlaqəni kəsir və «The Examiner» («Tədqiqatçı») adlı həftəlik torizm jurnalının redaktoru olur. Onun bu işi 1910-cu ilin noyabrından, 1911-ci ilin iyun ayına (№13-43) kimi davam edir. «The Examiner»də Svift viq partiyasının liderlərinə qarşı bir sıra şeir, məqalə və pamfletlər dərc etdirir. Siyasi mübarizənin ən qızğın çağında Svift yazırdı: «Bizim düşmənlərimiz siyasi mübarizədə qudurmuş və özlərinin məğlubiyyətindən asudə xoşhal olaraq birləşib, abunə formasında pul toplayır, cızma-qara

yazan quldur dəstəsi icarəyə götürür, böhtan atmaq, tovlamaq üslubu ilə oxucuların böyük əksəriyyətinin səviyyəsinə çatmaq istəyirlər.» (166)

Hətta Sviftin ən məşhur əsəri, «Qulliverin səyahəti» (1726) romanı, sözün həqiqi mənasında, nə isə başqa bir şey deyil, bir problemdə mərkəzləşib qalmır, əksinə, çoxlu sonsuz problemlər masa üzərinə gətirir. Britaniyanın dövlət strukturlarından tutmuş, dünya alimlərinin xoş xüsusiyyətlərinə və bütünlükdə hər kəsin mənəvi simasına kimi, bu fikir geniş inkişaf etmiş, açılmış pamflet idi demiş olsaq, məncə, yanılmarıq.

Addisonun gəlişi ilə «The Tatler» jurnalının keyfiyyəti müəyyən qədər artır və məşhurlaşır. Onun (Addisonun:-*V. P.*) bir çox esseləri, hətta indiyə kimi təkrar-təkrar nəşr olunur və ingilis essesiyasının misilsiz forması hesab olunur. «The Tatler» jurnalının bütün saylarının struktur kompozisiyasının hamısının bünövrəsi Addisonun esselərindən birinin üzərində qurulur.

1710-cu ildə Cozef Addison öz dostunun nəşriyyat layihəsi ilə maraqlanır. O, jurnala özünün esse və məqalələrini göndərir. «The Tatler» jurnalında Addison «öz istedadını tapır və bununla da, dünyanın ən valehedici həmsöhbəti danışmağa başlayır.» (166)

London həyatını əks etdirən esselər Stil və Addison tərəfindən yaradılmış və müxtəlif hadisələrə həsr olunmuşdur. Həftədə üç dəfə dərc olunan «The Tatler» jurnalı esselərlə yanaşı kiçik həcmli elan və qeydlər də, çap etdirirdi.

İsaak Bikerstafın öz cazibadarlığını və simasını itirəcəyindən ehtiyat edən Addison və Stil 1711-ci ilin başlanığıcında, fəaliyyətinin qızğın çağını yaşayan «Boşboğaz» jurnalının nəşrini dayandırırlar. Həmin il Addison və Stil yaradıcılıqlarının ən uğurlu ədəbi irsi olan «The Spectator» («Tamaşaçı») jurnalına həyat bəxş edirlər. (166)

«Tamaşaçı» dərgisi ingilis qeyri-adi adamı, centlmen, tərbiyəli provinsal, onu əhatə edən aləmə maraq və diqqətlə baxan ser Rocer de Koverl üçün həqiqi müvəffəqiyyət meydanı oldu:

«Bax, dünyada bu cür yaşayıram, daha çox tamaşaçı kimi, onun nümayəndələrindən biri kimi, insanlığı dərk edirəm; Beləliklə, mən bəsirətli, gözü açıq dövlət xadimi, hərbiçi, ticarətçi və sənətkar oldum, heç vaxt həyatın təcrübi tərəfinə qarışmadım. Mən nəzəri cəhətdən çox gözəl bilirəm ki, kişinin və yaxud atanın rolu nədədir və iqtisadiyyatda baş verən səhvləri, işgüzar həyatı və əyləncələri başqalarından yaxşı görürəm. Kim bütün bunlarla məşğuldur-«başqasının gözündə qıl axtaranlar», çünki onlar kimlərinsə gözündə olan ləkəni uzaqdan daha yaxşı görürlər. Bəs, kimin bu işdə əli var? Qısaca demiş olsaq, mən özümün, bütün həyatımın hər tərəfinin müşahidəçisi olmuşam və bu rolu mən burda da, davam etdirmək fikrindəyəm.» (166)

«The Spectator» («Tamaşaçı» və yaxud «Şahid») dərgisinin tirajı həmin zaman 14000 nüsxəyədək artır. Artıq Avropanın hər yerində, hətta müstəmləkə ölkələrində, belə, oxucular səbrsizliklə jurnalın yeni nəşrini gözləyirdilər. Addison və Stil dərginin maksimum həddə çatdığı bir zamanda, nəşriyyat tərəfindən seçilmiş strategiyaya sadiqlik nümayiş etdirərək jurnalın ədəbi simasını dəyişdilər. «The Spectator» jurnalı iki il mövcud oldu və bu müddət ərzində onun cəmi 555 sayı işıq üzü gördü. Lakin sonuncu saydakı elan dərginin oxucularını şok vəziyyətinə saldı. Beləki, gözlənilmədən jurnalın personajlarından birinin evlənməsi, digərinin isə qəflətən ölməsi nəşrin ləğv olmasına səbəb oldu.

1714-cü ildə, Addison təkbaşına «The Spectator» jurnalının nəşrini davam etdirməyə qərar venr və onun sayını 635-ə çatdırır. «The Spectator» və başqa Addison jurnallarının nüfuzu sayəsində İngiltərə və Avropa jurnallarının inkişaf ənənəsi görünməmiş dərəcədə artır. Yalnız İngiltərədə təqlid etmənin sayı onlarla hesablanırdı.

«Pıçıldayan» («The Wisperer», 1709), «Deyingən» («The Grumbler», 1715), «Donquldanan adam» və yaxud «Çəlləkdən qovulmuş Diogen» («The Grouler, or Diogenes robbd of His Tub», 1711), «Boşboğaz» («The Female Taller», 1709-1710), «Əyləncə» («The Entertainer», 1717-1718), «Tənqid 1718

ildə», («Critick for the Year MDCCXVIII», 1718), «Xəbərçi» («The Intelligencer», 1728) məşhur dramaturqun atası Tомас Şeridan və Sviftin iştirakı ilə dərc olunurdu; «Tutuquşu» («The Parrot», 1728), «Ümumi tamaşaçı» («The Universal Spectator», 1728–1746), Defonun yeznəsi Henri Beyker və bir çox başqaları bir-biri ilə xalqın diqqəti uğurunda mübahisə aparırdılar.» (47,328-329)

Bunlardan başqa Addison və Stilin jurnalları kitab şəklində bütün XVIII əsr boyu dəfələrlə təkrar-təkrar Avropa xalqlarının dillərinə tərcümə olunaraq nəşr edilmişdir. Yeni nəşriyyat modelini 1731-ci ildə Edvard Keyb «Gentleman's Magazine» («Xeyirxahlıq») dərgisinin timsalında təqdim etdi.

Fransada Addison və Stilin ideyaları Pyer de Marivo və rahib Prevo tərəfindən reallaşdırılır. Marivo «Le Spectateur français» («Fransız tamaşaçısı», 1722-1723), «The Spectator», («Tamaşaçı»), «Lindigent philosophic» («Yoxsul filosof», 1728) və «Le Cabinet du philosophe» («Filosof kabineti», 1734), kimi jurnallar vasitəsilə Fransız oxucularını İngiltərənin mədəniyyət ənənələri ilə tanış etməyə tələsir. Həmin zaman ərzində, Marivo İngiltərədə böyük uğur və nüfuz qazanır.

Antuan Fransua Prevo daha çox rahib Prevo adı ilə tanınırdı. Onun məşhur «Kavaler de Qriye və Manon Lasko» romanı Fransa jurnalistikasının inkişafına böyük xəzinə bəxş etmişdir. 1728-ci ildən 1734-cü ilə kimi gizlənmək məcburiyyətində qalan Prevo gah Hollandiyada, gah da İngiltərədə yaşamalı olur. Bu da, ona ingilis jurnalistikasının fənd və metodları ilə tanış olmaq imkanı verir. 1733-cü ildə Prevo Londonda «The Spectator» formasında yeni həftəlik «Le Pour et le Contre» («lehinə və əlehinə» (1733-1740) adlı dərgisinə yaşıl işıq yandırır.

İngiltərədə nəşr olunan jurnalın Parisdə yayılması, Fransa jurnalistikasının tarixində böyük hadisəyə çevrilir və əhəmiyyətli rol oynayır. Prevonun bu jurnalının başlığı özündə obyektivliliyə bağlılıq nümayiş etdirirdi. İnformasiyanın mötəbərliyi və həqiqiliyi, tənqidi çıxışların keyfiyyəti oxucuları inandırır və hipnoz edirdi. Volterin özü, onun əsərinə yazılan resenziyanın

rahib Prevonun jurnalında yerləşdirilməsinə nail olmuşdur.

Almaniyada ingilis maarifçilik jurnalistikasının ədəbi əxlaq xəttini «Der Vernunfter» («Ağıllı», 1713-1714), «Die lustige Fama» («Şad xəbər», 1718), «Der Freigeist» («Azadfikirli», 1745), «Der Hypochondrist» («İpoxondirik» (xəstəlik adı), 1762) nəşrləri davam etdirirdi.

C. Addisonun və R. Stilin jurnalistikasına oriyentasiya götürən İsveçrəli naşirlər Yoqan Yakob Bodmer və Yoqan Yakob Breytinqer özlərinə diqqəti cəlb edərək yeni estetik baxışlı və alman şairlərini kəskin tənqid edən həftəlik «Discourse des Mahlern» («Nəqqaşların söhbəti», 1725-1723) mətbuat orqanını çap etdirdilər. Jurnal fransız estetikasını yayan və Yoqan Kristof Qotşedin rəhbərlik etdiyi «Leypisiq məktəbi» (166) ilə mübarizəyə başlayır.

«Sürix» və «Leypsiq» məktəbləri arasında gedən on beş illik «ədəbi müharibə» Y. K. Qodşedin rəhbərliyi altında nəşr olunan «Die vernunftigen Tadlerinnen» («Ağıllı kahin», 1725-1726) və «Der Bidermann» («Vicdanlı adam», 1728-1729) kimi dövri mətbuat orqanlarının səhifələrinə gətirilir.

İtaliyada, ingilis əxlaq jurnalistikasının davamçısı məşhur şair və tənqidçi Qaspar Qottisi olur. O, 1760-cı ildə, «Gazzetta Veneta» («Venetsiya qəzeti») (166) adlı mətbuat orqanının nəşrinə başlayır. Həftədə bir dəfə işıq üzü görən qəzet, demək olar ki, Q. Qottisinin şəxsi əsərləri hesabına tamamlanır.

Alman maarifçilik jurnalistikasında əsas yeri Q. E. Lessinq tərəfindən nəşr olunan «Hamburgische Dramaturgie» («Hamburq dramaturgiyası») jurnalı tutur. Jurnalın məqsədi millətin teatra olan zövqünü formalaşdırmaqdan ibarət olsa da, o cəmisi iki il (1767-1768) yaşaya bilir. «Hamburq dramaturgiyası» alman maarifçilik estetik fikrində böyük xatirə kimi əbədi qalır.

Avropa qitəsində, XVIII yüzillik bütünlükdə dövri nəşrlərə qarşı senzuranın hərəkəti və qadağaları ilə yaddaşlara həkk olundu. Hətta, liberal İngiltərədə, mətbuat azadlığı kifayət qədər mürəkkəb vəziyyətdə qalırdısa, onda başqa Avropa dövlətlərində, o cümlədən Fransa və Almaniyada işin vəziyyəti daha

acınacaqlı idi, ona görə ki, bu ölkələrdə jurnalistlər məhkəməsiz təqiblərə, izləmələrə məruz qalırdılar.

Alman redaktoru Kristian Fridirix Daniyel Şubartın taleyi buna ən açıq nümunə ola bilər. Şubart, A. L. Şletser və V. L. Vekrlinlə birlikdə XVIII əsrin sonu üçün Almaniyanın üç ən yaxşı publisistlərindən hesab olunurdular. 1773-cü ildə Şubart Ayqsburq şəhərində, «Deutsche Chronik» («Alman xronikası») adlı məşhur siyasi qəzet nəşr etdirir. 1777-ci ildə, Vyurtenberq şahzadəsi Karl Yevgeni istehzalı məqaləyə görə qəzəblənərək Şubartı Asperq qalasına göndərir. Həbsxanada müstəqil naşir nə az, nə çox, istintaqsız və məhkəməsiz düz on il ömür sürür. Lakin cəmiyyətin təzyiqi nəticəsində Şubart həbsxanadan azad edilir və öz fəaliyyətini davam etdirir. Məşğuliyyətsiz qalmayan publisist «Vaterlandschronik» («Vətən salnaməsi») adlı yeni qəzetin nəşrinə başlayır.

1738-ci ildə, İngiltərədə parlament iclaslarında aparılan müzakirə və mübahisələrin işıqlandırılmasına qoyulan qadağadan sonra, mətbuatla bağlı ən səs-küylü siyasi qalmaqal jurnalist Con Uilksin işi oldu. İqlər partiyasının tərəfdaşı kimi qazanılmış şöhrət, həmçinin yaranmış şərait 1757-ci ildə onun nümayəndələr palatasına üzv seçilməsini reallaşdırır və bununla da, Con Uilks viqlər (İngiltərədə indiki liberallar partiyası) və torilərin (İngiltərədə konservatorlar partiyası) öz aralarında apardıqları «həftəliklər müharibə»nin mərkəzinə gətirilir (1762-1763). Torilər partiyasının siyasi hakimiyyəti həftəlik «The Briton», («İngilis») jurnalını, o cümlədən onun redaktoru məşhur romançı-publisist Tobayas Smolettini müdafiə edir.

Buna cavab olaraq Con Uilks viqlər partiyasının xəzinəsindən ödənilən maliyyənin hesabına həftəlik «The North Briton», («Şimali İngiltərə») jurnalının nəşrinə başlayır. Cəmiyyət, jurnalist fəaliyyəti ilə məşğul olan Uilksin tərəfində dayanır və nəticədə o, ictimai fikirdə məşhur şəxsə çevirir. Onun redaktoru olduğu jurnal özünün qalmaqallı çalarları ilə Nazirlər Kabinetinin istefaya getməsinə səbəb olur.

«The North Briton» jurnalının 45-ci nömrəsi (aprel, 1763)

ən qalmaqallı say kimi tarixə həkk olunur. Kralın çıxışına istehzalı kommentariya (şərh) ilə münasibət bildirən Uilksin pamfleti hakimiyyətin səbr kasasını doldurur. «The North Briton»un 45-ci sayı böhtan, iftira elan olunur və yandırılmasına hökm verilir. Mətbəəçilər və nəşriyyatçılar həbs olunurlar. O cümlədən, Con Uilks də həbs olunur və Tauer həbsxanasına yerləşdirilir. Lakin məhkəmə Con Uilksi nümayəndələr palatasının üzvü olduğuna görə həbsdən azad edir və əlavə olaraq ona böyük məbləğdə pul kompensasiyası verilməsi haqqında hökm çıxarır, çünki Con Uilksin həbsi üçün palatanın xüsusi qərarı olmalı idi.

Bundan sonra nümayəndələr palatası Con Uilksin «The North Briton» jurnalında dərc olunan əsərlərini təhqir həcviyyə sayır və müəllifi deputat toxunulmazlığından azad edirlər. Deputat immunitetindən məhrum edilən Uilksə qarşı məhkəmə prosesi başlayır. İşin qurtarmağını gözləməyən müəllif ehtiyyatlı olmağa üstünlük verir və Fransada gizlənir. Bu hal İngiltərə ictimaiyyətində birmənalı qarşılanmır, hətta «Uilks və azadlıq» şüarı müxalifət tərəfindən həyata vəsiqə alır. Londonun hər bir binasının divar və pəncərələrinə jurnalın məşhur sayını bildirən «45» rəqəmi həkk olunur. Bu rəqəm müxalifətin özünəməxsus parolu və çağırışı idi.

Söz azadlığı ilə bağlı vəziyyət İngiltərədə XVIII yüzilliyin sonunda, əsasən də, «1771-ci ildən sonra, hər iki palata tərəfindən parlament müzakirə və mübahisələrinin mətbuatda dərc olunması ilə bağlı irəli sürülmüş və sükutla qəbul olunmuş qərardan sonra vəziyyət yaxşılaşır. Bu zamandan etibarən onun azsaylı oxucuları siyasətdə baş verənlərlə yaxşı məlumatlandırılır, qəzetlərin yarıdan çoxu isə öz səhifələrini parlament sesiyaları haqqında aparılan hesabata həsr edirlər. Bundan sonra qəzetin çox hissəsi, bəzən bütöv bir səhifəsi ödənişli elan, kitab haqqında bildiriş, konsert, teatr, əyləncəli proqram, xidmətə ehtiyacı olan müxtəlif insanların elanına və s. ayrılır. Qəzetin qalan səhifələri isə poeziya, ciddi və yumoristik məqalə, qəzetə ünvanlanan məktub (korrespondent və yaxud təxəllüs verilmiş

imzalarla), xırda informasiya, teatr və yaxud kübar dedi-qodu, qəzet elanları, xarici işlər haqqında uzun-uzadı hesabat, həmçinin başqa yazılarla zəbt olunurdu.» (47,328-329) Bu cür nəşrlərin tirajı çox deyildir-bir neçə min nüsxə yaxşı göstərici hesab olunurdu.

Fransa inqilabına qədər ki, dövrdə bu ölkədə senzura son dərəcə ağır xarakter daşıyirdı. Kral bəyanatlarından (deklarasiya-1757) birində, «kimliyindən asılı olmayaraq əsərlərində ifşa etməyə təşəbbüs göstərən və bu cür yazıları nəşr etdirmək istəyən, özündə dinə və yaxud şüurlu surətdə ona qarşı meyilliliyə təhrik etməyə, kral hakimiyyətini, dövlətin əmin-amanlığını təhqir edən və ona şübhə yaradan hamını» (166) ölüm cəzası gözləyirdi.

Məşhur «Ensiklopediya», Deni Didro və Jan Dalambera senzura təqibinə düçar olmuşlar. 1759-cu ildə Fransanın Baş prokuroru bu nəşri ictimai qruluşa, dini ləğv etməyə və dövlətə qarşı istiqamətlənmiş sui-qəsd adlandırmışdır. 1711-ci ildən 1775-ci ilədək 364 əsərə senzura qadağası tətbiq olunmuşdur, beləki, bunların əksəriyyətini kitab və kitabçalar, siyasi məzmunlu pamfletlər təşkil edirdi. Sözsüz ki, bu zaman ərzində «kral senzorları»nın sayı xeyli artmışdır. Əgər 1742-ci ildə onların sayı 78 nəfərə çatırdısa, 1774-cü ildə bu rəqəm 119 nəfər təşkil edirdi.

Siyasi azadlıq haqqında nəzəriyyəni monarxiya qruluşlu dövlət şəraitində Şarl Monteskye hazırlamış, ensiklopedistlər isə onu inkişaf etdirmişlər. Özünün «Qanunların mənəviyyəti haqqında» (1748) elmi əsərində Monteskye azadlıq anlyışını qanunların şüurlu müəyyən olunması konsepsiyası ilə birləşdirirdi. O, yazırdı: «Vətəndaş üçün siyasi azadlıq, özünün təhlükəsizliyinə və inama əsaslanan mənəvi sakitlikdir. Bu azadlığı əldə etmək üçün mütləq elə bir idarəetmə sistemi olmalıdır ki, bir vətəndaş, başqa vətəndaşdan qorxmasın.» (166) Buna görə də, mütləq müəyyən hədd çərçivəsində dövlət hakimiyyətinə müdaxilə etmək lazımdır, əsasəndə, qanunverici, icraedici və məhkəmə hakimiyyətinin fiziki şəxs qismində bölünməsində.

Maarifçilik ideyasının toxumu, hazırlanmış münbit torpağa düşür-«günbə-gün maarifçilik dərnəkləri və salonlarının sayı artır, gizli nəşriyyatların sayı çoxalır, elmi əsərlər yazan igidlərin əlyazmaları artırılaraq yayılır. Eyni vaxtda, hakimiyyət cəzaları gücləndirir, getdikcə kitab nəşrinə «kral imtiyazı» almaq çətinləşir; müəlliflər, nəşriyyatçılar, mətbəəçilər həbsxanalara atılır və sürgün edilirlər (Valter, Didro, Krebiyon-oğul, Marmontel və bir çox başqaları Vensen və Bastiliya qalalarında olmuşlar).» (49,91)

1789-cu ildə Fransada siyasi qəzetlər meydana gəldi. Praktiki olaraq partiyaların hamısı dövri mətbuatın əhəmiyyətini başa düşdülər. Bu zaman bütün partiya liderləri şəxsi qəzetlərin redaktoru qismində çıxış edirdilər. Mirabo, Marat, Babef, Robespyer, Demulen və başqaları deyilənlərə misal ola bilərlər.

Bu dövrün istedadlı jurnalistlərindən biri Kamil Demulyen «Les Revolutions de France et de Brabant» («Fransa və Brabanta inqilabı») adlı qəzetində yazırdı: «Bu gün jurnalistlər-ictimai hakimiyyətdir. Onlar ifşa edir, dekret verir, təəccüblü formada idarə edir, kimlərə haqq qazandırır və yaxud onları ittiham edirlər. Hər gün onlar tribunaya qalxırlar... onlar həmin adamların arasındadırlar ki, onları 83 departament eşidir. Hər gün səhər qəzetlər məftunedici və günəşə bənzər formada üfüqləri işıqlandıraraq çıxırlar.» (166) Bu şüarların ucadan deyildiyi və jurnalist dünyasında ulduzların erkən parladığı bir zaman idi. Beləki, rahib Emmanyuel Jozef Siyesin «Üçüncü zümrə nədir?...» (1789) pamfleti bu qəbildən hesab olunur. Balzak Siyesi «pamfletlərin knyazı» adlandırırdı.

Jaradıcılığa pamfletlə başlayan Demulyen qraf Mirabonun qəzetində jurnalist məktəbini keçir və tarixə inqilabın ən yaxşı natiqi kimi düşür. Mirabonun publisistikası «yığcamlığı, güclülüyü, bəzən səfsəfəyə əsaslanan (sofizm) çalarlı səmimiliyi, həmişə özünə arxayın və dərhal anlamaq bacarığına malikliyi, hər yerdə əsas arqument və xeyirli sübutlara istinad edən məntiqinə görə fərqlənirdi.» (86,15)

Fransa inqilabının birinci mərhələsində (may 1789-avqust

1792) dövri mətbuatda həvəsləndirici hadisə baş verir. Beləki, 26 avqust 1789-cu ildə mətbuat azadlığını hüquqi müstəvidə müdafiə edən «İnsan və vətəndaşların hüquq deklarasiyası» adlı qanun qəbul olunur. Bu vəziyyət 1791-ci ildə qəbul olunan Fransa Konstitusiyasında olduğu kimi saxlanılır. Məhz, bunun məntiqi nəticəsi olaraq Fransada dövri mətbuatın sayı həmin zaman 500-ü ötüb keçir.

O dövrdə Amerikadan qayıdan Jan-Pyer Brisso inqilabi mətbuatın liderlərindən birinə çevrilir. Onun «Patriot Francais» («Fransanın vətənpərvəri») adlı qəzeti (1789-1793) yeniləşmənin simvolu kimi qəbul olunur. Jan-Pol Marat böyük şöhrət qazanır, onun dili ilə «dördüncü təbəqə danışmağa başlayır.» (166) Marat özünün «I'Ami du peuple» («Xalqın dostu» 1789–1793) adlı mətbuat orqanı vasitəsilə ictimai fikrə təsir göstərmək üçün var-gücü ilə çalışır.

Lui Antuan Sen-Jyust yazırdı: «Mətbuat susmur; o şöhrətpərəstin iç üzünü göstərən, onun hiyləgərliyini aşkar edən, onu ictimaiyyətin müzakirə mövzusuna çevirən aramsız səslənən ehtirassız səsdir; mətbuat-hər tərəfi diqqətində saxlayan nəzər, bütün cinayətləri görən və onları təsvir edən çalarları yumayan vasitədir; bu həm doğrunun, həm də yalanın silahıdır...» (86)

1793-cü ildə başlayan Fransa inqilabı «öz uşaqlarını yemə» mərhələsinə başlayır. Yeni Konventin (Fransa inqilabı dövründə vəkillər şurası) dekretlərinin birinə əsasən, xalq nümayəndəliyinin buraxılmasına və yaxud kral hakimiyyətinin bərpa olunmasına səsləyən bütün növ publisistik əsərləri dərc etdirən müəllif və nəşriyyatçıları ölüm hökmü gözləyir. Vaxtilə Konventə əl çalanlar bir-birinin ardınca eşafota (edam kürsüsü) çıxarılırlar.

Yakobinçilik terroru zamanı Brisso, onun ardınca məşhur «Le Père Duchesne» nəşrinin sahibi Жак Рене Эбер, sonra Demulyen və Danton həmkarları ilə birlikdə 1794-cü ildə edam olunurlar.

İmperiya dövründə yadda qalan simalar arasında Lui Fransua Bertenin adını çəkməmək haqsızlıq olardı. O, XIX əsr Fran-

sa jurnalistikasının həyatında parlaq və silinməz iz qoymuşdur. Berten inqilab dövründə «Journal Français» («Fransa jurnalı»), «Eclair» («Şimşək») kimi dövri nəşrlərlə əməkdaşlıq etmişdir. Onun əsas siyasi idealı (qayəsi) konstitusiyalı monarxiya olmuşdur.

O, 1800-cü ildə, jurnalistika və siyasi fəaliyyətə maraq göstərən qardaşı Pyer Lui Berten ilə birlikdə, «Journal des Débates politiques et liltéraires» («Siyasi və ədəbi müzakirələr jurnalı») adlı mətbuat orqanını ələ keçirir. Bu qəzetin təməli 1789-cu ildə Parisdə qoyulmuşdur.

İtaliyada sürgündə olan Berten 1804-cü ildə Fransaya qayıtmağa icazə alır, lakin onun qəzetinin adı artıq dəyişdirilmişdi və ona nəzarət etmək üçün xüsusi senzor təyin olunmuşdur.

Bertenin qəzeti yalnız Napoleon rejiminə qarşı olduğuna görə deyil, həm də, jurnalistikaya yeni forma və janr gətirdiyi üçün maraqlı idi. Onun yurnalistikada etdiyi yeniliklər sonralar bütün Avropa jurnalistikasında əməli iş kimi qəbul olunur və bu gün də, istifadə olunmaqdadır. Burda söhbət, konkret olaraq felyeton janrından gedir.

«Felyeton» sözünün özü həmin dövrdə, yəni XVIII yüzillikdə Fransız dilində mövcud olmayıb. Bu söz 1800-cü ildə, Bertenin öz qəzeti «Journal des Débates»-ə əlavə vərəqə formasında etdiyi dəyişiklik zamanı meydana gəlib.

1803-cü ildə, Berten qəzetin formasında, yəni qəzetin ölçüsündə dəyişiklik etməklə onu bir qədər uzadır və qəzetin aşağı hissəsini ağ rəngli «kəsmə xətt»lə bölür. Həmin xəttdən aşağıda olan hissə felyeton adlandırılır. Sonralar «felyeton» termini aşağıdakı hallarda istifadə olunmağa başlayır:

a).qəzetin «zirzəmisi», ədəbi materialı;

b).kiçik həcmli publisistik-aktual xarakterli ədəbi əsərlər, «felyeton»da yerləşdirilir və yaxud əlavə vərəqdə dərc olunur (icmal, qarışıq).

Məhz ikinci qiymətində felyeton daha geniş formada yayılaraq əvvəlcə Fransada, daha sonra Almaniyada və Rusiyada, XX əsrin əvvəllərindən isə Azərbaycanda yayılır. Felyetonun rubrikadan janra transformasiyası kifayət qədər uzun müddət tələb etmişdir. Yalnız XX yüzilliyin əvvəllərində, qəti formada insan şüurunun nöqteyi-nəzərindən keçərək janr adını qazanmışdır.

«Journal des Debates» dərgisidə felyetonun təşəkkül tapmasını teatr tənqidçisi Jyulyen Lui Joffruanın adı ilə bağlayırlar. Joffrua Fransaya mühacirətdən 1800-cü ildə qayıdır və adı çəkilən mətbuat orqanında felyetonçu-tənqidçi vəzifəsində çalışır.

Fransız jurnalistlərinin düçar olduğu «Böyük təmizləmə» (1807) ilində qəzetin senzoru Fyeve senzor Etennlə dəyişdirilir. Bu da, Napoleon üçün az görünür, beləki, 1811-ci ildə tirajının sayı 32 000 nüsxəyə çatan qəzet onun tərəfindən dövlətin xeyrinə müsadirə olunur və Bertenə bildirilir ki, «artıq o, kifayət qədər varlıdır.»

Adı «Journal de l'Empire»-ə dəyişdirilmiş məşhur «Journal des Debates»ə qarşı güciəndirilmiş bu tədbirlər, həmçinin nəşriyyat haqqında dekretin qəbuı olunması, «mətbəəni və kitab ticarəti işi üzrə baş idarəni», o cümlədən bütün dövri mətbuatı tam nəzarətdə saxlamaq üçün atılan bir addım idi.

03 avqust 1810-cu ildə, yalnız Sena departamenti istisana olmaqla, hər departamentdə bir qəzetin nəşr olunması və onların yerli hakimiyyət orqanı olan prefekturanın nəzarəti altında olması haqqında Napoleon tərəfindən dekret imzalanır. Məhz, elə bu ildə Paris qəzetləri haqqında dekret layihəsi hazırlanır. Dekret yalnız həftədə nəşri üç dəfəyə qədər məhdudlaşdırılan üç qəzetə siyasi məlumatları dərc etməyə icazə verəcəyini nəzərdə tutur. Bu dekretlə, həm də qəzetlərə felyeton dərc etdirməyə qadağa tətbiq olunur.

1811-ci ildə, Fransada bütün qəzetlərin bağlanması haqqında qərar hazırlananda, bu qəzetlərin bir çoxu öz mövqelərini qoruyub saxlamağa müvəffəq olmaq üçün yaltaqcasına imperatorun hüsn-rəğbətini qazanmağa çalışırlar. Sədaqətlik nümayiş etdirmək baxımından «Journal du coir» («Axşam jurnalı»)

dərgisinin redaktorunun müraciəti «zirvədə» dayanır. Həmim müraciətdə deyilir ki, «Journal du coir» iyirmi ildən artıqdır ki, mövcuddur ... Heç vaxt onun nəşri dayandırılmayıb, heç vaxt həbsə məhkum olunmayıb. Onun dörd min nəfər abunəçisi var. Jurnalın üslubu-siyasi fikirləri söyləməmək, yalnız hökumətin məsləhət bildiklərini yaymaq, intişar etməkdir ... Dərgi özünün inkişafı və uzunömürlü olması üçün bitərəfanə, qərəzsiz olmasına daima borcludur və özünün ehtiyyatlığı ilə, məhz bununla, deyəsən o hakimiyyətin himayədarlıq iltifatını qazanıb... Heç zaman bizi əzab-əziyyətə, narazılığa təhrik etməyibdir.» (166)

Yaltaqlıq kömək etmədi və Parisdə 1811-ci ildə, yalnız «Journal de Paris», «Gazette de France», «Monituer» («Müəllim») və «Journal de I'Empire» adlı dörd həftəlik qəzetin qalmasına icazə verildi.

Napoleonun mətbuata olan münasibəti alman jurnalistikasına da, təsirsiz ötüşmədi. Nəşriyyat haqqında Fransada, 1810-cu il ildə qəbul olunan dekret yalnız işğal olunmuş Reyn ittifaqına yox, həmçinin qonşu dövlətlərə də, öz təsirini göstərirdi. Beləki, Prussiya dövləti Henrix fon Kleystanın həftəlik «Berliner Abendblatter» («Berlin axşam vərəqələri») qəzetini siyasi kommentariyalara görə bağlayır. Almaniyanın özündə isə, bütün qəzetlərə siyasi yenilikləri yalnız rəsmi Fransa qəzeti olan «Monituer»dən dərc etmək göstərişi verilir. «1812-ci ildə, bütün böyük vilayətlərdə, «32-ci diviziyada» yalnız iki yerli qəzet qalmışdı: biri Hamburqda («Korrespondent») və o biri Bremendə. Hər iki nəşr, ikiqat, paralel olaraq alman-fransız mətnində dərc olunurdu. Buna görə də, ətraflı, müfəssəl nə isə yerləşdirməyə yer qalmırdı. Bunla belə, Hamburq qəzeti fransız mətni olmadan nəşr olunmaq istəyirdi, lakin daxili işlər naziri Napoleona bu haqda məruzə edəndə o, susmuşdur.» (176,414) Fransanın işğalı altında olan İtaliyada, yalnız hökumət tərəfə olan nəşrlər, məsələn, «Monitore di Roma» («Roma müəllimləri») formasında, fransız dilində surəti çıxarılmış qəzetlər işıq üzü görə bilirdilər.

1815-ci ildə Napoleonun süqutundan sonra keçmiş Müqəd-

dəs Roma imperiyasının ərazisində, 35 knyazlığı və 4 azad şəhəri birləşdirən Almaniya ittifaqı yaranır. İttifaqın konstitusiyası qəbul olunur. Bundan sonra senzura Bavariya, Vyurtemburq və bir çox başqa ərazilərdə ləğv olunur. Ancaq Almaniya 1848-ci ilə qədər senzuradan qəti azad ola bilmir. Beləki, Almaniyanın bir çox ərazilərinin konstitusiyası-1818-ci il Bavariya və Baden, 1819-cu il Vyurtemberq mətbuat azadlığına yol verirdi.

1814-cü ildə Fransanın Konstitusiya xartiyası azad sözü bərpa edir, lakin həmən 21 oktyabr 1814-cü ildə qəbul olunmuş yeni qanun bunun üstündən xətt çəkir. Bütün bu qadağa və normalara baxmayaraq onu Napoleon siyasətinin jurnalistlər əleyhinə apardığı mübarizə ilə müqayisədə yüngül saymaq olar. 1824-cü ildə Parisdə 12 həftəlik qəzet işıq üzü görür. 1814-cü ildən, 1830-cu ilə qədər olan dövrdə isə Fransa hökuməti yeddi dəfə senzura qaydalarını dəyişir.

1815-il ildə Almaniyada İttifaq aktı elan olunur. Bu akta əsasən bütün ittifaq dövlətləri üçün mətbuat azadlığı eyni olmalı idi, lakin bu vəd yerinə yetirilmir. Bunun əvəzinə 1819-cu ildə, 1814-cü il Fransa qanunvericiliyini sözbə-söz ifadə edən mətbuat haqqında qanun verilir və alman mətbuatı söz və mətbuat azadlığını 1848-ci ilə kimi gözləməli olur.

Fransada mətbuatın azadlığına zəmanət verən qanuna 1830-cu il hadisələri nəticəsində nail olmaq mümkün olur. Kral özünün şəxsi hakimiyyətindən istifadə edərək, palatanın iştirakı olmadan seçkilərin keçirilməsi, həmçinin nisbətən kitab, əsasən də, qəzet və jurnallar haqqında son dərəcə ciddi senzura qaydaları tətbiq edir.

XIX əsrdə İngiltərədə dövri mətbuatın həqiqi çiçəklənmə dövrü müşahidə olunur: 1810-cu ildə yalnız Londonda 30-dan artıq jurnal nəşr olunurdusa, 1820-ci ildə bu rəqəm 100-ə yaxınlaşır. Edinburq şəhəri Krallığın ərazisində, Londondan sonra ikinci intellektual mərkəz hesab olunurdu və o buna görə «şotland Afinası» titulunu almışdır.

XIX əsrin birinci yarsında çoxsaylı dövri mətbuat arasında mədəniyyət və ictimai-siyasi yazılar nöqteyi-nəzərindən dörd

jurnal daha təsirli sayılırdı. Bunlar «The Edinburgh Review» («Edinburq icmalı», 1802-1929), «The Quarterly Review» («Hər rüblük icmal», 1809-1967), «Blackwood's Magazine» («Bleykvud jurnalı», 1817), «The London Magazine» («London jurnalı», 1820-1826), həmçinin keyfiyyətli mətbuatın sinonimi sayılan «The Times» («Tayms» qəzetlərindən ibarət idi.

Hər kvartalda bir dəfə nəşr olunan «The Edinburgh Review» dərgisi Şotlandiyanın paytaxtı Edinburq şəhərində 1802-ci ilin oktyabrında təsis olunmuşdur. Viqlər partiyasının orqanı olan bu jurnalın əsasını Frensis Djeffri, Sidni Smit və Henri Brouqxem qoymuşdular. Jurnalın naşiri qismində kitab nəşriyyatçısı Arçibald Konstebl çıxış etmişdir. O, ilk dəfə olaraq müəlliflərə daha yüksək qonarar ödəməklə bu prosesin başlanmasına təkan vermişdir. Bu, jurnalın Baş redaktoru 27 il fasiləsiz ona rəhbərlik edən, tənqidçi və esseist, XIX əsrdə İngiltərədə tam hakimiyyətli redaktorların başlanığıcını qoyan Frensis Djeffri olmuşdur.

«The Edinburgh Review» jurnalı fövqəladə təsirə malik mətbuat orqanı olmaqla, onun çoxsaylı məqalələri siyasi və ədəbi-tənqidi xarakter daşımış, necə deyərlər, «həqiqətən axırıncı mərhələ» sayılmışdır. Bu nəşrin mülayim mühafizəkarlığı oxucu auditoriyasının çox xoşuna gəlmiş, onun ədəbi mülahizə və mühakiməsi həm oxuculara, həm də, jurnalistlərə həlledici təsir göstərmişdir.

Başlanğıcının ilk ilində jurnal şairlərin, əsasən də, Uilyam Vorsvort və Robert Sautinin güclü tənqidinə məruz qalmışdır. 1808-ci ildə Henri Brouqxem tərəfindən yazılan və gənc şair lord Bayronu ələ salan məqalə İngiltərə ədəbiyyatında ən səs-küylü hadisəyə səbəb oldu. Şəxsiyyəti rişxənd hədəfi olan Bayron «The Edinburgh Review» jurnalının hucumuna «İngilis el şairi və şotland icmalçısı» (1809) satirik şeirində tutarlı cavab verdi.

Bununla belə, «The Edinburgh Review» dərgisinin yüksək səviyyəli tənqidi məqalələri bir çox Avropa və Amerika ədəbi-tənqidi nəşrlərinə nümunə olur. Necə olur ki, Frensis Djef-

fri bir redaktor olaraq Tomas Makoley və Tomas Karleyl kimi görkəmli esseistlərin istedadını üzə çıxarır. «The Edinburgh Review» jurnalında öz yaradıcılıq yoluna başlayan Makoley sonralar məşhur ingilis tarixçisi olur və yorulmadan, sevə-sevə təkrar edir: «ölkə tarixinin həqiqətini, onun mətbuatında tapmaq olar.» (166)

Rüblük «The Quarterly Review» («Hər rüblük jurnal») jurnalının bünövrəsi, mühafizəkarların mətbuat orqanı kimi 1809-cu ildə Londonda qoyulur. Bu jurnalın arxasında «kitab nəşriyyatının kralı» kimi tanınan Con Myurrenin nəşriyyat firması dayanırdı. Dərginin «xaç atası» qismində isə «The Edinburgh Review» jurnalı ilə kəskin arası dəymiş Valter Skott çıxış edirdi. Nəşrin ilk redaktoru, bir vaxtlar «The Anti-Jacobin» («Anti-Yakobinçi», 1797-1798) həftəlik jurnalı ilə şöhrət qazanan publisist və satirik Uilyam Qifford (1809-1824) oldu.

1820-ci ildə Con Skott tərəfindən təməli qoyulan «The London Magazine» («London jurnalı») jurnalı sırf ədəbiyyat nəşri hesab olunsa da, özünün qısa müddətli «həyatında» ingilis essesinə əhəmiyyətli dərəcədə təsir göstərə bildi. Bu dərgidə Çarlz Lem («Elinin oçerkləri»), Uilyam Xezzlitt («Masa arxası söhbət»), Tomas De Kuins («Tiryək qəbul etmiş ingilisin etirafı») kimi istedadlı esseistlərin bacarığı və qabiliyyəti üzə çıxır.

XVIII-XIX əsrlərin hüdudunda, İngiltərədə qəzetlər oxucu auditoriyasına jurnallar qədər təsir etmək gücünə malik deyildi. Lakin bu zaman Britaniya mətbuatının sinonimi hesab olunan qəzetlər meydana gəlir. Onun bünövrəsini 1785-ci ildə ingilis mətbəəçisi Con Uolter «Universal Daily Register» («Hərtərəfli gündəlik jurnal») qəzetini nəşr etməklə qoyur. 1788-ci ildə Con Uolterin nəşrinin adı dəyişdirilərək «The Times» («Zaman») qoyulur və bu ad altında qəzet dünya mətbuat tarixinə daxil olur.

Con Uolterin qarşısında dayanan əsas tapşırıq ondan ibarət idi ki, «The Times» maraqlı və oxunan bütün dairələrdə qəbul olunsun. O, özünün birinci redaksiya məqaləsində deyir: «qəzet mütləq zamanın salnaməsi, bütün insan şüurunun təzahürün-

də həqiqi tarix olmalı; lakin o yalnız yaxşı hazırlanmış masaya bənzər bir hadisə ətrafında cəm olmamalı, əksinə, öz ehtiyyatında müxtəlif dadları təmin edə biləcək xörəklər hazırlamalı ... ifratçılıqdan qaçaraq, qızıl ortanı tutmalıdır.» (166)

«The Times»ın ümummilli həqiqi əhəmiyyəti, sonralar isə nüfuzlu Avropa qəzeti kimi özünü göstərməsi XIX əsrdə mümkün oldu. Vəziyyətdən istifadə edən «The Times» qəzeti 1807-ci ildə özünün korrespondenti Henri Robinsonu Avropanı işıqlandırmaq məqsədilə ezamiyyətə göndərir. «The Times» mətbuat orqanının korrespondentinin reportajları Almaniyadan, İspaniyadan 1809-cu ilə qədər davam edir. Britaniyanın özünəməxsus «Avropaya pəncərəsi» rolunu oynayan qəzet getdikcə həm ölkənin daxilində, həm də onun hüdudlarından kənarda korrespondentlərinin sayını artırır.

1817-ci ildə Con Uolter II parlamentdə yer alır və qəzetin redaktoru vəzifəsinə Tomas Barnası təyin edir. Barnas qəzeti dünya informasiya sistemində nüfuzlu dərəcəyə qaldırır və bununla da, onun təsiredici qüvvəyə malik olan imicini birqədər də, artırır. Açıq radikallığa və orta sinfin ənənəvi dəyərlərinə meyl edən proseslərə yol verməyən, ölçülmüş mövqe nümayiş etdirən «The Times» qəzeti faydalı formada onu həmin dövrün populist və radikal nəşrlərindən, o cümlədən, bayağı mətbuatdan fərqləndirirdi.

«The Times» qəzeti Con Dileynanın redaktorluğu altında, Krım müharibəsindəki hadisələr zamanı şöhrətinin zirvəsinə çatır. Hərbi prosesləri işıqlandırmaq məqsədilə müharibə zonasına «The Times» qəzetinin məşhur korrespondenti Uilyam Rassel göndərilir. Britaniya mətbuatı tarixində Uilyam Rassel ilk hərbi korrespondent kimi tarixə düşür. Korrespondentin müharibə bölgəsindən verdiyi informasiya şairləri ruhlandırır. Onun siyasi və hərbi dairələri ifşa etməsi hökuməti istefaya, hərbi rəhbərliyi isə dəyişməyə məruz qoyur. Reportajlarının hər bir sətri qanadlı ifadəyə çevrilən Uilyam Rassel daha da, məşhurlaşır.

XIX əsrin ortalarında «The Times» qəzeti «dağıdıcı» ləqəbi

alır. Qəzetin gündəlik tirajının sayı 60 000 nüsxəyə çatır, halbu ki, onun yaxın rəqibinin tirajının sayı çətinliklə 6 000 nüsxəyə bərabər idı. Reportajların keyfiyyəti və həqiqiliyi, hadisələrin vaxtlı-vaxtında işıqlandırılması, baş və analitik məqalələrin yüksək səviyyədə olması, qitənin siyasətindəki hiyləgər məlumatları açıqlaması «The Times» qəzetini Avropa dövri mətbuatının etalonu edir. Bir çox Avropa ölkələrində «The Times» qəzetinin xüsusi korrespondentləri başqa dövlətlərin səfirləri qədər hörmətə malik olur. Zaman keçdikcə mətbuat «Tayms»ın sayəsində həqiqətən «dördüncü hakimiyyətə» çevrilirdi. Abraxam Linkolni üçün «The Times» qəzeti bu dövrdə «dünyanın ən böyük gücü» hesab olunurdu, hətta kraliça Viktoriya özünün məktublarından birində bu qəzetin kəsərli qüvvəyə malik olmasından gileylənmişdir.

İnformasiya agentliklərinin yaranması ikinci əhəmiyyətli innovasiya rabitəsi sayılır. Dünyada ilk informasiya agentliyi 1835-ci ildə Parisdə yaradılır. Onun bünövrəsini «Havasın tərcümələr bürosu»nda fəaliyyətə başlayan Şarl Lui Havas qoyur. Bu insanın əsas məqsədi xarici mətbuatı yerli dövri məlumatla əməli surətdə təmin etməkdən ibarət idi. Sonrakı mərhələdə Havasın informasiya agentliyi özünün geniş korrespondent şəbəkəsindən və xarici qəzetlərdən aldığı yenilikləri əvvəlcə Paris, sonra əyalət, daha sonra isə xarici qəzetlərə satmağa başlayır.

Gələcək şəxsi informasiya agentliklərinin əsasını qoyacaq Bernxard Volf və Piter Yulius Röyter ilk təcrübələrini Havasın agentliyində almışlar. Bütün 1848-ci il boyu Avropanın ən məşhur üç «xəbərçisi» bir yerdə işləyir. 1848-ci ilin axırında, Volf şəxsi agentliyini yaradır və «National Zeitung» adlı Berlin qəzetinin icraçı direktoru vəzifəsini alır. O, redaksiyaya teleqraf qoşur və yeni rabitə vasitəsi ilə qəzetdə London və Frankfurtdan alınmış qısa xəbərləri yerləşdirir. Yeni rabitə vasitəsi olan teleqrafın qiyməti baha olduğu üçün Volf qəzet və jurnal nəşiryatları, həmçinin şəxsi mətbuat orqanları ilə müqavilə imzalayir, onları Paris, London, Ştettina, Hamburq və Frankfurt-

na-Mayn şəhərlərindən aldığı birja yenilikləri ilə təmin edir.

Təşkilat 1848-ci ildə özünün informasiya agentliyini yaratmağa başlayır. Dünya informasiya biznesinin «açıq səyahətinə» Almaniyanın Kasselya şəhərində doğulan Piter Yulius Röyter də qoşulur. 1849-cu ildə Paris şəhərində çap işinə verginin olmamasından istifadə edərək başlayan Röyter qəzet vərəqəsinin əsasını qoyur və burda o, müxtəlif mövzuları əhatə edən xəbərlər, birja xronologiyası haqqında məlumatlar, hətta kübar dairələrə aid olan informasiyaları yerləşdirir. Röyterin həyat yoldaşı informasiyaları Fransız dilindən alman dilinə tərcümə edir və qəzeti öz abunəçilərinə, Almaniyaya göndərir. İdeya yaxşı olsa da, maliyyə baxımından sərfəli hesab olunmurdu. Bu məsələyə hələ çox qalmış qəzet bağlanır, çünki Röyterin buna olan inamı itmişdir.

Röyter informasiya bazarının gələcək perspektivini İngiltərədə görür və bu məqsəd ilə «The Times» qəzetinin Baş redaktoru ilə danışıqlara başlayır. Lakin bu sövdə baş tutmur, beləki «The Times»ın Baş redaktoru almanın yəhudi mənşəli və xarici kəşfiyyata mənsub olmasından ehtiyat edir. Artıq bu zaman «The Times» qəzetinın bütün Avropada, Amerikada, Çində, Hindistanda, Yaxın Şərqdə və sair yerlərdə yaxşı informasiya şəbəkəsi qurulmuş, çoxlu sayda korrespondentləri fəaliyyət göstərirdi. Bununla belə, 1851-ci ildə Piter Yulius Röyter İngiltərəyə gəlir və həmin ilin 4 oktyabrında «Sualtı teleqraf» adlı kompaniyanın əsasını qoyur.

Bir çox tədqiqatçılar bu tarixi Röyter agentliyinin yaranması günü kimi hesab edirlər. Ancaq bu zamana kimi Röyterin kifayət qədər vəsaiti, ən başlıcası isə onun Avropanın mərkəzlərində çoxsaylı rabitəsi var idi. Röyterin yeni kompaniyasının idarəsi London Fond Birjasının binalarından birində yerləşir. Röyter London Fond Birjası ilə birja məlumatlarının yayılması, həmçinin bu məlumatların Avropa birjasına çatdırılması haqqında kontrakt imzalayır. 1853-cü ildə Röyter kompaniyanın adını dəyişərək «The Continental Telegraph» («Kontinental teleqraf») qoyur və çalışır ki, sırf birja informasiyasından

kənara çıxsın. Uzun müddət qəzet bazarına çıxmaq ona qismət olmur, sözsüz ki, buna da səbəb nüfuzlu «The Times» qəzetinin güclü müqaviməti idi. Nə vaxt ki, «The Continental Telegraph» Sevastopolun məğlub olması xəbərini «The Times» qəzetini qabaqlayaraq ictimaiyyətə çatdırır, elə bu zamandan etibarən dünyanın siyasi yeniliklərinə çıxış başlayır. Bundan sonra ingilis qəzetləri bir-birinin ardınca Röyterlə müqavilə imzalayırlar. 1858-ci ildən başlayaraq «The Times» qəzeti özünün çoxsaylı abunəçilərini, o cümlədən cəmiyyətdə olan mövqeyini yavaş-yavaş itirməyə başlayır, hətta 1860-cı ildə, şəxsi korrespondentlərinin informasiyası ilə bərabər «The Continental Telegraph» agentliyinin xəbərlərini də, yaymağa məcbur olur.

XIX əsr Fransa «penny (ingilis pul vahidi) press»in lideri, o dövr jurnalistikasının ən maraqlı, həm də çox istedadlı redaktoru və jurnalistlərindən biri, müasir jurnalistika siyasətinin inkişaf təmayülünü dərk edən Emilya Jirarden olmuşdur. O, jurnalistika fəaliyyətinə «La mode» (1829-1854) modalar jurnalının nəşri ilə başlayır. «La mode» jurnalı ilk əvvəl, sırf cəmiyyətin yuxarı təbəqəsini təmin etmək məqsədi daşıyirdi. Lakin bir müddət keçdikdən sonra Jirarden ona siyasi nəşr çalarları verir, amma bununla belə o, kübar cəmiyyətinin və oxucuların marağını nəzərə alaraq jurnalın modalar bölməsini olduğu kimi saxlayır. Jirardenin ən uğurlu layihələrindən biri 1836-cı ildə, «Presse» («Mətbuat») adlı yeni orqanının əsasını qoyması idi. Həmin zaman kəsiyində, «Press»nin abunə haqqı 40 frank təşkil edirdi ki, bu da başqa nəşrlərdən iki dəfə ucuz hesab olunurdu. Hər şeyi düzgün götür-qoy edən Jirarden, sonda belə bir nəticəyə gəlir ki, «qəzetlər redaktorlar tərəfindən yox, abunəçilər tərəfindən hazırlansın.» Həmin il qəzetin tirajı 10000 nüsxəyə çatır. Reklamdan əldə olunan gəlir Jirardenə ildə 200000 frank qazanc verir. Emilyanın yeni qəzeti oxucuları yalnız qiymətinin aşağı olması ilə deyil, həm də, istedadlı və bacarıqlı jurnalistləri ilə özünə cəlb edir. Misal olaraq bədii-tənqidi felyeton bölməsini aparan Teofil Hoteni göstərmək olar.

«Əbədi yəhudi»nin «Constitutionnel»də nəşri zamanı

abunəçilərin sayı 3000-dən 40000-ə yüksəlir, növbələr yaranır. Oxu zallarında oxumağı bacarmayanlara ucadan oxumaqla əsər haqqında məlumat çatdırılır.

Qəzetin köməyi sayəsində ictimai xadim kimi böyük təsir qüvvəsinə və nüfuza malik olan Emilya de Jirarden redaktorluqdan dövlət hakimiyyətinin yuxarı kürsüsünə qalxır. Getdikcə nəşriyyat və mətbuatda çalışanlar daha çox müstəqillik əldə etməyə meyl göstərirlər. Jurnalistika sahəsində çalışanların maaşları artır, güzaranları yaxşılaşır, sözsüz ki, bu da jurnalistika peşəsini nüfuzlu, etibarlı, hörmətli edir.

Veron və Jirarden kimi nəşriyyatçı və redaktorların fəaliyyəti jurnalistikada yeni eranın başlanmasını təsdiqləmiş olur. Kütləvi mədəniyyətin elementləri XIX əsrin ikinci yarsından etibarən özünü fəal göstərməyə başlayır. Zaman keçdikcə qəzetlər nisbətən siyasətdən uzaqlaşaraq biznesin bir hissəsinə çevrilirlər.

Mətbuatda sensasiyalı cinayətlərin təsvir olunması kütləvi xarakter alır. Hələ, 1827-ci ildə «Blackwoods Magazine» jurnalında Tomas De Kuinsin tutqun yumorlu «Ölüm haqqında, çözəl incəsənətlərdən biri kimi» essesi verilmişdir. De Kuins dövri mövzunun formalaşmasına yeni baxış təklif edir. O, cinayəti estetizmləşdirir (ideya və məzmuna fikir verməyib, gözəlliyə aludə olmaq), onu bayağı salnamə çərçivəsindən çıxardaraq pis semiotika (xəstəlik növü) və düşünülmüş cinayətin yerinə yetirilməsinə, onun gözəlliyinə çalışır.

1861-ci ildə M. P. Millo tərəfindən təməli qoyulan Fransanın «Pette Journal» gündəlik qəzeti dəhşətli ölüm hadisəsinə səhifəsində yer ayırdığı üçün auditoriyanın rəğbətini qazana bilir. Baş vermiş cinayət hadisəsi nə qədər qorxulu və dəhşətli təsvir olunursa, həmən sürətlə də, nəşrin tirajı çoxalır. Məhz bunun məntiqi nəticəsi olaraq «Pette Journal» qəzetinin tirajı 1869-cu ildə 470000 nüsxəyə yaxınlaşır.

«Kütləvi» mətbuat tez bir zamanda şəkil vermək çapının qaydalarını öyrənərək yazılan sensasiyalı məqalələrin ruhuna müvafiq olaraq şəkil təsvirləri verməyə başlayırlar. 1870-ci

ildə, M. P. Millo tirajının sayı milyon nüsxəyə çata biləcək gündəlik şəkilli qəzet nəşr etmək məqsədilə Parisdə şəkil çap edə bilən bütün nəşryatları alır. Müqayisə etmək məqsədi üçün deyə bilərik ki, İngiltərədə ilk şəkilli qəzet olan «Daily Graphic» («Gündəlik yazı») 1890-cı ildə işıq üzü görmüşdür. Almaniyada isə birinci həqiqi şəkilli qəzet İoqan Veberin gücü hesabına 1843-cü ildə nəşr olunan «Leipziger İllustrierte Zeitung» («Leypisiq şəkilli qəzeti») qəzeti olmuşdur. Həftədə bir dəfə nəşr olunan bu qəzet, nəşriyyatçı-redaktor tərəfindən «ümumi maraq qəzeti» kimi dəyərləndirilirdi. Getdikcə məşhurlaşan qəzetin tirajı 1873-cü ildə 18000 nüsxəyə çatır.

Avropada siyasi və radikal jurnalistika, İngiltərədə çartizm (çartizm hərəkatı) jurnalistikası, Fransada respublika mətbuatı, Almaniya, Fransa və başqa Avropa dövlətlərində sosializm dövrü ideoloji mətbuat bazarını müxtəlif çalarlarla özünəməxsus şəkildə formalaşdıran tipoloji innovasiya, hazırlanmış keyfiyyətli kütləvi jurnalistikanı zənginləşdiridi.

XIX yüzilliyin axırında ən gözə çarpan hadisə kimi «yeni jurnalizm» dövrünün başlanmasını qeyd etmək olar. Bu özünü 1896-cı ildə Alfred Xarmsvort tərəfindən əsası qoyulan «The Daily» («Gündəlik») qəzetində, həmçinin Viktoriyadan (Böyük Britaniya Kraliçası nəzərdə tutulur:*-V. P.*) sonrakı dövr estetik ənənələrdə, o cümlədən Obri Berdsli tərəfindən şəkillər təsvir olunan «Jellow Book» və yaxud «The Savoy»da nəşr olunan «kiçik həcmli, balaca jurnallar»da göstərməyə başladi.

Bu fəsildə biz, XVI əsrdən başlayaraq XIX əsrin sonuna qədər Qərbi Avropa jurnalistikası tarixində maraq doğuran müəyyən məqamlar haqqında söhbət açmaqla, bu dövr jurnalistikası barədə lakonik məlumat vermiş olduq. Sonrakı iki bölmə, yəni 1900-1945 və 1945-2013-cü illəri əhatə edən Qərbi Avropa jurnalistikasının tarixi haqqında «publisistika-jurnalistika» seriyasının gələcək nəşrlərində məlumat verməyi qarşımıza məqsəd qoyuruq və bunu özümüzə borc bilirik.

4.AZƏRBAYCAN JURNALİSTİKASI TARİXİ

Azərbaycan mətbuatının tarixindən danışarkən, yalnız yaxın keçmişə müraciət etmək məntiqsiz nəticə verə bilər. Bunun üçün ədəbi dilin təşəkkül tapdığı və yazının Azərbaycanda formalaşdığı tarixə və zamana nəzər salmaq mütləqdir. Məlum olduğu kimi mətbuatın əsasını yazı və ədəbi dil təşkil edir. Bu iki amil bir-biri ilə sıx tellərlə elə bağlıdır ki, onların birini digərindən ayrı düşünmək mümkün deyil. Bu nöqteyi-nəzərdən çıxış edərək Azərbaycan jurnalistikası tarixini üç hissəyə bölmək olar:

1.Orxan-Yenisey abidələrindən 1920-ci ilə kimi olan dövr;
2.1920-ci ildən 1991-ci ilə kimi (covet dövrü) olan dövr;
3.1991-ci ildən 2013-ci ilə kimi olan dövr.

Jurnalistikaşünaslıq elmi jurnalistika tarixi, jurnalistika və ədəbi tənqid, jurnalistikanın elementləri, bədii publisstika janrı: inkişafı və xüsusiyyətləri, informasiya janrları: növləri və xüsusiyyətləri, analitik janrların xüsusiyyəti və yaranma səbəbləri adları altında fəaliyyət göstərən altı əsas dayaq üzərində təşəkkül tapdığına, həmçinin başlanığıcı tarixlə bağlı olduğuna görə bu mövzunu davam etdirərək Azərbaycan jurnalistikası tarixini də, Yunan, Roma və Qərbi Avropa jurnalistikası tarixləri kimi müstəqil formada vermək qənaətinə gəldik. Azərbaycan jurnalistikasının tarixi daha geniş və daha müfəssəl öyrənilməli, həmçinin ayrıca kitab şəklində oxucu auditoriyasına təqdim olunmalıdır. «Jurnalistikaşünaslığın əsasları» kitabında çərçivənin məhdudliğunu nəzərə alaraq bu məsələyə yığcam yanaşmağı daha doğru hesab etdik.

Hər bir xalqın jurnalistika tarixinin mənbəyində bədii-publisistika dayandığı kimi Azərbaycan jurnalistikası tarixinin mənbəyində də, bədii-publisistika dayanır. Bədii-publisistika tarixilik baxımından jurnalistika janrları arasında ən qədimi

hesab olunur. Bu janrın epitafiya, lətifə növlərinin dəqiq tarixi elm aləminə hələ ki, məlum deyil. Ola bilsin ki, onun yaşı bir neçə minilliklər hesab olunsun. Amma bütün bunlar düşüncə və nəzəriyyədən başqa bir şey deyil. Bu cür proseslərə tarixin öz yanaşma metodu və prinsipləri mövcuddur. Belə fakt və tarixi araşdırma və tədqiqatlara, məntiqə əsaslanaraq fikir söyləmək mümkündür.

Azərbaycan mətbuatında bədii publisistikanın tarixi olduqca qədim zamanlara, Orxon-Yenisey abidələrinə gedib çatır. Avropadan Volqaboyuna, oradan isə Uzaq Şərqə qədər böyük bir ərazini əhatə edən Orxon-Yenisey abidələrinə aid olan yazılarda Azərbaycanın özünəməxsus çəkisini görmək mümkündür. Ölkəmizin ərazisində tapılan daş kitabələrdəki yazılar «qrafik işarə» tərkibinə görə Orxon-Yenisey kitabələri ilə ümumilik təşkil etsə də, bəzi hallarda onlardan fərqlənir. Ancaq tipik yazı stili, ümumi epitafiya üslubu, səslərin əlifba işarələrində ifadə olunma keyfiyyəti hər birində dəyişməz şəkildə qalır. XX əsrin 70-80-ci illərindən sonra, aparılan tarixi qazıntılar zamanı bir qayda olaraq heç bir arealda türk-runik abidə mətninə təsadüf olunmayıbdır. Bununla belə, son zamanlar tapılan və əksəriyyəti yeni eranın əvvəllərinə V-VI əsrlərə aid edilən və Cənubi Qafqaz regionunda-Azərbaycanda ola biləcəyini də istisna etmirlər. Bu məqsədlə ölkənin Şimal-Qərb bölgələrindən birində-Şəki rayonunun Daşbulaq kəndində aparılan axtarışlar, həmçinin Ağsu və Tovuz rayonlarındakı arxeoloji qazıntılar zamanı aşkarlanan tapıntılar öz müsbət nəticəsini vermişdir. Bu ərazilərdə tapılan yeraltı insan məskənləri, küp qəbirlər və müxtəlif alətlər deyilənləri təsdiqləmişdir.

«Şəkinin Daşbulaq kitabələrində ancaq Azərbaycan arealına məxsus spesifik qrafik işarələrin iştirakı Azərbaycanda çox zəngin və qədim yazı təcrübəsinin mövcudluğundan xəbər verir. Bu qədim və zəngin təcrübənin məhsulu olan ilk və eramızın əvvəllərinə aid qədim yazılı abidələrin aşkar olunması dilimizin, xalqımızın tarixinə və Orxon-Yenisey kitabələrinin oxunmasına böyük və layiqli töhfədir. Qədim türk runik yazılı

abidələrinin yeni arealı Azərbaycandır.» (199)

Azərbaycan xalqının ən böyük yazılı abidəsi sayılan «Kitabi-Dədə Qorqud» dastanı yuxarıda söylənilən fikirlərə aydınlıq gətirmək baxımından dəyərli mənbə hesab olunur. VI-VII əsrlərin real tarixi mənzərəsini qoruyub saxlayan «Kitabı-Dədə Qorqud» dastanı həm coğrafi, həm yazı, həm də ədəbi dil baxımından yetkin bir ədəbiyyat nümunəsi kimi çağdaş dövrümüzə qədər uzun və keşməkeşli tarixi bir yol keçərək gəlib çatmış, öz təravətini qoruyub saxlamışdır. Bu əsərin dili və yazısı ilə bağlı Azərbaycanın dilçi alimləri Ə. Dəmirçizadə, T. Hacıyev, M. Təhmasib və başqaları elmi əsaslara söykənən dəyərli fikirlər söyləmişlər. Onların nəzəriyyəsinə əsasən «Kitabı-Dədə Qorqud» uzun illərin, əsrlərin, əhəmiyyətli bir dövrün sintaksisini daşıyır.»

Həmin zaman kəsiyində Azərbaycanın bir xalq və dövlət kimi mövcud olması bir çox ərəb mənbələrində öz əksini tapmışdır. «VII əsrə aid ərəb qaynağında Azərbaycanla bağlı maraqlı bir məlumat var: Beşinci ərəb xəlifəsi I Müaviya (611-680) öz müşaviri Übeyd ibn Şəriyyə ilə söhbətində soruşur: «...Sən Allah, Azərbaycan haqqında əlaqəniz, təlaşınız və xatirəniz nədir? O, cavab verir: (Ü. Şəriyyə:-*V. P.*) Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər.» (1)

«Kitabi-Dədə Qorqud» dastanının boylarında müasir jurnalistikanın tələblərinə rast gəlmək mümkündür. Bu boyların hər birində maarifləndirmə, məlumatlandırma və maraqlandırma (əyləndirmək) ümumi bir kompozisiya xətti üzrə hərəkət edir. «Kitabi-Dədə Qorqud» dastanında Tanrıya inam, müharibəyə hazırlıq, şənlik məclislərinin qurulması, toy-büsat, igidlərin bir-birini öyrətməsi, düşmən hücumuna məruz qalarkən qonşuları köməyə çağırmaq qaydaları və bu kimi başqa adətlər söylədiklərimizə əyani sübutdur. «Kitabi-Dədə Qorqud» Azərbaycan ədəbiyyatının çox qədim nümunələrindən biri olmaqla bahəm, həm də dilimizin, tariximizin, mədəniyyətimizin keçmişini öyrənmək baxımından böyük əhəmiyyətə malikdir. Professor Tofiq Hacıyevin «Kitabi-Dədə-Qorqud» dastanını «Ana ki-

tabımız» adlandırması fikirlərimizin doğruluğunu təsdiqləyir.

Dünya jurnalistikasının tarixini öyrənərkən, istər bu Qədim Yunanıstan, istərsə Roma, istərsə də Qərbi Avropanın müxtəlif dövlətləri ilə bağlı olsun, daima həmin ölkələrin dövlət strukturlarında gedən proseslər, yazı-pozu ənənələri jurnalistika tarixi və tərəqqisi kimi qələmə verilir. Belə olduğu halda, maraqlı bir sualla rastlaşırıq. Nə üçün biz öz tarixi keçmişimizə bu konteksdən yanaşmırıq və yaxud ona göz yumuruq? Halbu ki, əlimizdə bunun doğruluğunu təsdiq edən kifayət qədər dəlil və sübutlar var. «V əsrin birinci rübündə indiki Azərbaycanın ərazisində Qafqaz albanlarının əlifbası yaradılmışdır.» (10,214-592) Əlifbanın isə nə üçün yaradılmasının izahata ehtiyacı yoxdur. «1937-ci ildə İrəvanda, Matenadaranın Eçmiadzin fondundakı 15-ci əsrə aid bir dərsliyin əlyazması (alban əlifbası: - *V. P.*) İ. Abuladze tərəfindən aşkar edilmişdir... V-VII əsrlərdə Albaniya ərazisində geniş yayılmış, məktəblərdə tədris edilən bu əlifba ilə dini, elmi və bədii əsərlər ərsəyə gəlmışdır. V-VI əsrlərə aid Alban təqvimi də bu əlifba ilə tərtib olunmuşdur.» (10,214-592) Məktəbi, elmi, ədəbiyyatı, dərsliyi və bədii nümunələri mövcud olan xalqın həyatında anons və müxtəlif cədvəllər, xəbərdarlıq və bildirişlər və bu kimi əlamətləri əks etdirən buklet və elanların olması istisna təşkil etmir.

«Albanların adı ilk dəfə 2-ci əsr mənbəyində, e. ə. 4-cü əsrdə baş vermiş hadisələrlə əlaqədar çəkilir. Alban əhalisi əkinçilik, maldarlıq, bağçılıq, balıqçılıq, ovçuluq, ipəkçilik, toxuculuq, metal emalı, ticarət və s. ilə məşğul olmuşdur ki, bunlar da Azərbaycanın bu günkü reallığı ilə tamamilə üst-üstə düşür. Bu ərazilərdə süni suvarma sistemi nisbətən yüksək inkişaf etmişdir. Yaloylutəpə, Mingəçevir və s. yerlərdən tapılmış arxeoloji materiallar Albaniyanın vilayətləri arasında iqtisadi və mədəni əlaqələrin inkişafını göstərir.» (10,215-592) Həmin dövrlərdə siyasi əlaqələrə, yüksək sənətkarlığa, iqtisadiyyata və mədəniyyətə, bədii ədəbiyyata, ədəbi tənqidə malik olan xalqın, ən azı, ictimai xəbərlər bülleteninin olması mütləq hal kimi qəbul olunmalıdır. Nədənsə Azərbaycan tarixinin həmin məqamla-

rını Azərbaycan mətbuatının başlanğıcı kimi qəbul etməkdən ehtiyat edirik və yaxud yan keçirik. Unutmaq olmaz ki, Azərbaycan qədim dövlətçilik ənənələrinə malik olan dövlətdir və ona rəhbərlik edən şəxslərin ətrafında xəttablar olub, əmr, fərman, sərəncam, qərar, hesabat və buna oxşar başqa yazı işlərini qələmə alıblar. Bu təqdirdə belə bir qənaətə gəlmək olar ki, Azərbaycan jurnalistikasının tarixi V-VI əsrlərə, bəlkə də bir qədər əvvəllərə gedib çıxır. Bunu söyləməyə həm dünyada cərəyan edən siyasi proseslər və bu gün ki, reallıq və zərurət tələb edir.

Təqribən VII əsrə aid olan «Kitabi-Dədə Qorqud» yazılı abidəsinə əsasən, belə qənaətə gəlmək olar ki, bu dastanın dili və yazısı bir neçə ilin içində formalaşa bilməz. Yazının bütün qaydalarla ərsəyə gəlməsi, onun qrammatik və sintaksis qanunlar əsasında formalaşması üçün ən azı yüzəlli-iki yüz ildən artıq bir zaman kəsiyi tələb olunur. Adi riyazi hesablama aparmış olsaq, görərik ki, yazı Azərbaycanda V-VI əsrlərdə təşəkkül tapıb və ondan müəyyən məqsədlər, elan, xəbər, təsərrüfat və xəzinə işlərinin siyahıya alınması və başqa məqsədlər üçün istifadə olunubdur.

Onuncu əsrdən başlayaraq, Azərbaycanda yazılı ədəbiyyat daha mütəşəkkil formada püxtələşmiş, hətta ədəbi-tənqidin bünövrəsini yaratmaq mümkün olmuşdur. Ədəbi tənqid olan yerdə jurnalistikadan, onun dilindən danışmağa, əlbəttə ki, tam haqqımız çatır.

XIX əsrin birinci yarsında Cənubi Qafqazda, ümumiyyətlə, Azərbaycanın ərazisində aparılan Rus-İran müharibələri azərbaycanlıların parçalanması, pərən-pərən düşməsi və torpaqlarının işğal olunması ilə nəticələnmişdir. Məhz, bu nöqteyi-nəzərə istinad edərək deyə bilərik ki, Azərbaycan xalqının bundan sonrakı tərəqqisi və təkamülü, daha doğrusu 1918-ci ilə kimi olan dövrü, əlbəttə ki, jurnalistika və mətbuata aid olan hissəsi, müvafiq olaraq Cənubi Azərbaycanda (Təbriz), Qərbi Azərbaycanda (Tiflis və İrəvan) və Şimali Azərbaycanda (Bakı) təşəkkül tapmışdır. Bu məqsəd ilə biz, Azərbaycan jurnalistika-

sının tarixini analiz edib sistemləşdirərkən mövcud ardıcıllığa əsaslanmalı və bunu özümüzə borc bilməliyik.

Azərbaycanlıların mətbuat yaratmaq təşəbbüsü hələ XIX əsrin əvvəllərində mövcud olmuşdur. Amma nədənsə Şimalda çar Rusiyası, Cənubda İran şahlığı buna icazə verməmişlər. Bu arzu 1841-ci ildə Abbasqulu ağa Bakıxanovun və Mirzə Fətəli Axundzadənin istəkləri nəticəsində reallaşa bilərdi. Ancaq təəssüflər olsun ki, bu öz bəhrəsini vermədi. Həmin dövrdə, mətbəə açmaq üçün çar üsul-idarəsindən icazə almaq heç də asan iş deyildir. Çünki Rusiya imperiyası ictimai fikrin inkişafında, xalqın maariflənməsində tamamilə maraqlı deyildir. Belə bir zaman kəsiyində mətbəə yaratmaq, mətbutla məşğul olmaq və qəzet buraxmaq çox müşkül bir məsələ idi. Özünün siyasi idarə etmə mərkəzini Tiflis şəhərində yerləşdirən çar Rusiyası bütün Qafqaza, o cümlədən Şimali Azərbaycana buradan, İran isə Cənubi Azərbaycanın işğala məruz qalan ərazilərinə Tehrandan nəzarət edirdi. Buna görə də, Tiflis Cənubi Qafqazın, Tehran isə Cənubi Azərbaycanın siyasi, iqtisadi və mədəni mərkəzləri sayılırdı.

Tarixdən məlumdur ki, Gürcüstanın ərazisində ta qədimdən çoxsaylı türkdilli tayfalar, həmçinin azərbaycanlılar yaşayiblar. «Hələ eramızdan əvvəl Gürcüstanın cənub və cənub-şərq ərazisində türkdilli tayfaların yaşaması haqqında çoxsaylı mənbələr, o cümlədən gürcü mənşəli tarixçilərin və etnoqrafların etirafları mövcuddur.» (36,32-47)

Çoxsaylı Azərbaycan dilli əhalinin öz ana dilində nəşr olunan mətbuat orqanına ehtiyacı var idi. Amma təəssüflər olsun ki, həm rus, həm də İran imeriyası belə bir işin qarşısına hər cürə sipər çəkərək onun təşəkkülünə imkan vermirdi. Həmin dövrdə, yəni XIX əsrin otuzuncu illərində A. Bakıxanov Tiflisdə nəşr olunan «Tiflisskiye vedomosti» və M. F. Axundzadə «Qafqaz» qəzetlərilə əməkdaşlıq etməyə müyəssər olmuşdular. Onların səyi nəticəsində 1828-ci ildən nəşrə başlayan, rus və gürcü dillərində işıq üzü görən «Tiflisskiye vedomosti» və 1845-ci ildən isə «Zaqafqazskiy vestnik» qəzetlərinə bülleten

formasında, müvafiq olaraq Azərbaycan dilində, «Tiflis əxbarı» və «Qafqazın bir tərəfinin xəbəri» adlı qəzet-bülletenlər əlavə olunaraq çap olunmağa başlamışdır. «Tiflisskiye vedomosti» qəzetinin nəşri «A. S. Qriboyedovun fars sarayına (İrana:-*V.P.*) fövqəladə diplomatiya naziri təyin olunması münasibətilə onun Sankt-Peterburqdan Tiflisə gəlməyinə iki gün qalmış, yəni 4 iyul 1828-ci ilə təsadüf edir.» (200) «A. S. Qriboyedovun öz əsərlərinin ilk variantını A. Bakıxanova oxuması və onun fikrini öyrənməsi Qüdsinin (A. Bakıxanovun:-*V.P.*) hələ gənc yaşlarında çox dərin biliyə və hörmətə malik olduğunu göstərir.» (11,11)

Tarixə 1828-ci ildə «Gülüstan» «sülh müqaviləsi» kimi daxil olan bu hadisə, əslində Azərbaycanın Rusiya və İran dövlətləri tərəfindən ilhaq olunması kimi yazılcaydı daha ədalətli olardı. Həmin dövrdə, istər Azərbaycanın Rusiya imperiyasının tərkibinə daxil olan Şimalı, istərsə də, İranın tərkibində qalan Cənub hissələrində yaşayan çox milyonlu Azərbaycan dilli əhali, həmçinin onun aparıcı qüvvəsi olan ziyalılar öz ana dillərində mətbuat orqanının olmasına daima cəhd göstərmişlər. Ancaq buna müyəssər ola bilməmişlər. Nəhayət ki, çətinliklərə sinə gərən və özündə qüvvət tapan millət oğulları XIX əsrin ikinci yarısında Cənubi Azərbaycanda mətbuat orqanının yaranmasına nail olurlar. 1858-ci ildə, Təbriz şəhərində «Azərbaycan» adlı ilk fars dilli rəsmi hökumət qəzeti nəşrə başlayır. Baxmayaraq ki, bu qəzet fars dilində nəşr olunurdu, onun azərbaycanlıların yığcam yaşadıqları Təbriz şəhərində dərc olunması, həmçinin azərbaycanlılara aid problemləri əks etdirməsi, simvolik olsa da, «Azərbaycan» adlandırılması o zaman üçün uğurlu hesab oluna bilər.

Gürcüstanda buraxılan «Tiflis əxbarı» və «Qafqazın bir tərəfinin xəbəri» qəzet-bülleten və Təbrizdə nəşr olunan «Azərbaycan» adlı qəzetlər peşəkarlıq baxımından, kamil hesab olunmasa da, həmin zaman üçün onların böyük əhəmiyyət kəsb etdiyini vurğulamaq, qiymətləndirmək və ümum Azərbaycan mətbuatının yeni dövr tarixində ilk müjdəçisi kimi dəyərləndirnək olar.

XIX əsrin 50-ci illərində Qasımbəy Zakirin «Təmsilat», 60-cı illərində Mirzə Fətəli Axundzadənin «Kəmalüddövlə məktubları», 70-ci illərdə Azərbaycanda cərəyan edən iqtisadi-siyasi-ictimai proseslər, o cümlədən siyasi azadlıq, milli dirçəliş, sosial ədalət, milli tərəqqi, mədəni yüksəliş, radikal islahatlar uğurunda gedən ideoloji mübarizələr yeni mətbuat orqanının yaranmasını zəruri və həm də, tələb edirdi. Belə bir zamanda maarifpərvər ziyalı Həsən bəy Zərdabi (Həsən bəy Məlikzadə.-V. P.) çar hökumətinə müraciət edərək, çətinliklə olsa da, qəzetin açılmasına icazə ala bilir. Qəzetin nəşri üçün ədib İstanbuldan xüsusi ərəb mətbəə şirifləri gətirməli olur. Bir xeyli əzab-əziyyətdən sonra nəhayət ki, 1875-ci ilin 22 iyulunda Bakıda, 1854-cü ildə yaranmış qubernator mətbəəsində «Əkinçi» adlı müstəqil, ana dilində Azərbaycan qəzeti işıq üzü görür. Bununla da, Azərbaycan milli mətbuatının yeni mərhələsinin təməli qoyulmuş olur. Odur ki, «Əkinçi»ni Azərbaycan milli mətbuatının ilk qaranquşu adlandırırlar. Qəzet ayda iki dəfə olmaqla 300-400 nüsxə ilə nəşr olunur. Həmin zaman kəsiyində Azərbaycanın bir çox ictimai xadimləri, istedadlı publisistlərinin böyük bir nəsli bu mətbuat orqanının işığından nur alır. «Əkinçi» qəzetində N. Vəzirovun, Ə. Goraninin Moskvadan, S. Ə. Şirvaninin Şamaxıdan, Heydərinin Dərbənddən göndərdikləri məktublar, həmçinin S. Ə. Şirvaninin şeirləri və M. F. Axundzadənin «Vəkili-naməlumu millət» imzası ilə məqalələri dərc olunur. H. Zərdabinin yaratdığı «Əkinçi» qəzetinin dəsti-xətti əsasən bir ideya əsasında qurulurdu. Bu xalqın maarifləndirməsindən ibarət olan bir ideya idi.

Xalqın maarifləndirilməsini öz qarşısına əsas vəzifə kimi qoyan ədib, bütün gücünü bu istiqamətə səfərbər edir. O, «Əkinçi»nin səhifələrindən daima onu düşündürən məsələləri-milli birliyi, milli xüsusiyyətləri, milli oyanışı qabartmaq üçün bir əməliyyat meydanı kimi istifadə edir. Sözsüz ki, publisist alim onun üçün doğma olan kənd təsərrüfatı ilə bağlı məsləhətlər verməyi də, unutmurdu. Qəzetdə çalışan maarifpərvər, demokratik naşirlər Şərqin geriliyini, ətalət və süstlüyünü həqiqi

azadlığın yoxluğunda görürdülər. Həmin dövrdə xalqın başa düşə biləcəyi sadə bir dildə yazılan bu qəzetdə, fikirlərin səslənməsi təbii ki, Azərbaycanı əsarət altında saxlayan imperiya məmurlarını ciddi narahat etməyə bilməzdi. İmperiyaya can-la-başla xidmət göstərən polkovnik Əlibəy Əlixanov «Əkinçi»-nin ana dilində ona göndərilmiş ilk nüsxəsini alıb hiddətlə yazmışdı: «Təəssüf eyləyirəm redaktor nə üçün bilmir ki, öz çarına sədaqətlə xidmət edən bir nökər hökumət tərəfindən buraxılmayan bir qəzeti oxumaz.» (201)

«İrticaçi qaragüruhun təqib və təzyiqi altında ... Azərbaycan qəzeti «Əkinçi» fəaliyyətinin kamil çağında, 1877-ci ilin 29 sentyabrında qapanmağa məcbur oldu.» (88,3) Qəzetin bağlanması bir neçə səbəbdən baş vermişdir. Bu səbəblərdən bəzisi ondan ibarət idi ki, «redaktorun işgüzar və məzmunlu məqalələri, istedadlı şair Hacı Seyid Əzim Şirvaninin müsəlmanları fəal və mənalı həyata səsləyən gözəl şeirləri ucsuz-bucaqsız səhrada yüksələn fəryadı xatırladırdı və cavabsız qalan bir çağırış idi. Bundan əlavə, cənab Məlikov ehtiyatsızlıq edərək öz qəzetində vaxtsız olaraq şəbehlər (şaxsey-vaxsey) məsələsinə toxundu və bununla da şiəlik tərəfdarlarının qızğın hiddətinə səbəb oldu.» (52,139) Cəmisi 56 sayı ilə oxucularını sevindirən bu qəzet Azərbaycan milli mətbuatının sonrakı mərhələsinin tərəqqisi üçün istinad nöqtəsi rolunu oynadı.

«Əkinçi»nin bağlanmasından təxminən il yarım sonra, 1879-cu ilin yanvarında, Tiflisdə «Ziya» adlı türkdilli yeni bir qəzet nəşrə başlayır. Bu qəzet Cəlaləddin və Səid Ünsizadə qardaşlarının fədakarlığı sayəsində nəşr olunur. «Ziya» qəzeti də, «Əkinçi» kimi abunəçi və maddi durum sarıdan əziyyət çəkirdi. Yaxşı ki, bəzi ziyalılar bunu başa düşürdü və imkanları daxilində qəzetə öz köməkliklərini göstərirdilər. Belə ziyalılardan biri çar ordusunun zabiti general-leytenant İsrafil bəy Yadigarov idi. O, 1879-cu ilin noyabrında qəzetə maddi yardım göstərir və yeni il üçün qəzetin abunəçilərindən biri olur. «Ziya»nın cəmi 76 sayı oxucuları ilə ünsiyyətdə ola bilir.

1880-ci ilin 6 dekabrında Cəlaləddin və Səid Ünisizadə qar-

daşları qəzetin adını dəyişərək onu «Ziyayi-Qafqaziyyə» adlandırırlar. Qəzetin «müəssisləri Ünsizadə qardaşları-Hacı Seyid əfəndi və Cəlal əfəndi idi. Onlar çox bacarıqlı və şərq dillərini yaxşı bilən adamlar olsalar da, qəzet nəşr etmək kimi çətin və mürəkkəb işi aparmağa hələ qəti hazır deyildilər. Bunun nəticəsində tez bir zamanda «Ziyayül-Qafqazın nəşri dayandırıldı...» (52,141) Bu qəzetin cəmisi 104 sayı işıq üzü görə bildi.

«Əkinçi»nin bağlanmasından altı il sonra, yəni 1883-cü ildə tərəqqipərvər və azad fikirli ziyalı, Avropa mədəniyyəti ilə yaxindan tanış olan Cəlaləddin Ünsüzadənin naşirliyi ilə Tiflis şəhərində «Kəşkül» adlı qəzet və həmin sərlövhə ilə aylıq ədəbi siyasi jurnal nəşr olunmağa başlayır. Azərbaycan ziyalılarının hər tərəfli köməyinə ümid bəsləyən «Kəşkül» mütərəqqi oxucularına müraciət edərək yazırdı: «Yeni başlanmış həyat yeni köməyə və təlimata möhtacdı. Ümid edirik ki, bizimlə yanaşı millətin nümayəndələri və xeyirxahlar da millətə xidmət naminə yaradılmış bu vərəqin nəşrinə kömək edəcəklər.» (88) «Kəşkül» Azərbaycan mətbuatında tərəqqipərvər bir istiqamət tutmuş «Əkinçi» qəzeti kimi demokratik ruhda publisistik məqalələr dərc etməyə başlayır. 1883-1891-ci illər arasında nəşr olunan «Kəşkül» qəzeti təbliğ etdiyi mütərəqqi fikirləri ilə tez bir zamanda ətrafına yeni fikirli insanları toplayır. «Həsən bəy Məlikov Zərdabi, Seyid Əzim Şirvani, Məhbus Dərbəndi, Məhəmməd ağa Şahtaxtlı, Səfərəli bəy Vəlibəyov, Axund Əhməd Səlyani, Molla Hüseyn Qayıbov, Abbas ağa Nazir, Gülməmməd bəy Kəngərli, Mirzə Rəhim Fəna, Firidun bəy Köçərli, Əsgər ağa Gorani və b. «Ziya» və «Kəşkül» redaksiyaları ətrafında birləşirlər. Bununla da maarifçi realist ədəbi hərəkat yenidən dirçəlir.» (88,7) Nəticədə qəzetin səhifələri müxtəlif məsləkli ziyalıların qızğın müzakirə meydanına çevrilir. Qəzetin öz qarşısına qoyduğu vəzifə, müəyyən təşkilati tədbirlər, mədəni sahədə islahatlar həyata keçirməkdən, həlli vacib sayılan məsələləri müzakirəyə vermək və ədəbiyyatın inkişafı üçün lazimi şərait yaratmaqdan ibarət idi.

Onlar təşkilatçı olmaqla həm də, yerlərdə fəaliyyət göstərən

müxtəlif şairlərin vahid mərkəz ətrafında toplanmasına daim diqqət yetirir və onların yaradıcılığına yeni ruh-müasirlik duyğusu gətirməyə çalışırdılar. Düzdür, hərdən bir qəzetin səhifələrində mənasız və lazımsız yazılara da, rast gəlmək mümkün idi. «Bəzən qəzetin bir neçə nömrəsində dalbadal Dağıstan və Çeçen xarabalıqlarından redaksiyaya göndərilən ərəb dilində yazılmış uzun, heç bir ciddi əhəmiyyəti olmayan məqalələr də çap olunurdu. Dini-əxlaqi məsələlərin müxtəlif sahələrindən bəhs edən və dil cəhətdən anlaşılmaz olan bu məqalələrin əksəriyyəti, yəqin ki, yalnız onların müəllifləri üçün çap edilirdi.» (52,140)

Cəlaləddin Ünsüzadə öz qardaşı Səid Ünsüzadədən fərqli olaraq rus və dünya ədəbiyyatı nailiyyətlərinin xalqa çatdırılmasını özünün başlıca işi hesab edirdi. Bu məqsədi daha nəzərə çarpdırmaq üçün redaktor qəzetə «Kəşkül» kimi simvolik ad vermişdir. O, qəzetdə xalqı daha çox maraqlandıran və düçündürən məsələlərin işıqlandırılmasına üstünlük verirdi. Qəzet səhifələrində müxtəlif janrda, mövzuda, ölçüdə yazı nümunələri nəzərdə tutulsa da, bunlar bir məqsədə, bir amala-xalqı maarifləndirmək işinə xidmət edirdi.

M. F. Axunzadə və H. Zərdabi publisistikasının məşğul olduğu məsələlər, həmin dövrün görkəmli publisist-maarifçiləri üçün əsas mövzu olaraq qalırdı. Beləki, qəzetdə yazıları ilə çıxış edən S. Ə. Şirvani, F. Köçərli, N. Vəzirov, M. Şahtaxtinski və başqaları köhnə məktəbin, onun tədris üsulunun əleyhinə çıxır, mollaların rəftarını satira atəşinə tuturdular.

N. Vəzirov məktəblərdə dərslik kimi istifadə olunan «Leyli və Məcnun» və Hafizin əsərləri haqqında danışaraq göstərirdi ki, bu kitabları oxuyanlar şübhəsis ki, eşqibazlıqla məşğul olacaqlar. O, uşaqların əxlaqını pozan bu kitabların yerinə «elmi-coğrafiya» kitabının oxunmasını məsləhət görür və deyirdi: «Əgər belə olsa onda uşaqlar həm yazıb oxumağı öyrənər, həm də yer üzündə olan vilayətlərdən xəbər tutarlar.» (169) Dramaturq-publisist mürtəce adətlərə öz kəskin qələmilə öldürücü zərbə vurur, buna qarşı zəhməti, əməyi təbliğ edirdi: «Necə ki,

qarışqa çox kiçik isə də həmzəhmət olub özünə çox yaxşı yuvalar təmir edər, habelə insan da həmzəhmət olanda onun nəfi ziyadə olur.» (177)

«Kəşkül» qəzeti bağlandıqdan sonra Zaqafqaziya müsəlmanları on-on beş il öz ana dilində mətbuat orqanından məhrum qaldı. Bir neçə şəxsin Azərbaycan dilində qəzet çıxarmaq təşəbbüsü hökumət tərəfindən rədd edildi.» (52,141) Ana dilində qəzet və jurnalların məhdud dərc olunması isə ziyalıları öz fəaliyyətlərini rus dilli mətbuatda davam etdirməyə sövq etdi.

XIX əsrin 80-90-cı illərində Bakıda rus dilində «Kaspi», «Bakinskoye izvestiye», «Baku» və başqa qəzetlər çıxmağa başladı. Həmin əsrin 80-ci illərindən başlayaraq cəmiyyətdə baş verən siyasi proseslərin yeni vüsət alması, xalqa ictimai fikri daha dolğun şərh etmək baxımından yeni istiqamətli mətbuat orqanlarına ehtiyac duyulurdu.

Cənubi Azərbaycanda 1880-ci ildə «Təbriz» və 1884-cü ildə «Mədəniyyət» adlı iki qəzet nəşrə başladı. Bu Cənubi Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə idi. İstər Cənubi, istərsə də, Şimali Azərbaycanda, həmçinin Gürcüstanda həmin dövrdə söz azadlığı, demokratiya boş məfhumdan başqa bir şey sayıla bilməzdi. Odur ki, mütərəqqi fikirli ziyalılar öz arzularını həyata keçirmək üçün xarici ölkələrə, əsasən də, Türkiyəyə üz tuturdular. Türkiyə həmin dövrdə İran və Rusiyaya nisbətdə daha demokratik sayılırdı. Baxmayaraq ki, burda da, çətinliklər və problemlər az deyildir. Mühacir mətbuatı məhz belə bir şəraitdə yarandı. İlk mühacir mətbuatının nübarı Türkiyənin İstanbul şəhərində yetişdi. Bunlar «Əxbər» (Ulduz) və «Şahsevən» qəzetləri idi. Həmin qəzetlərdə dövrün çətinlikləri, məmurların özbaşınalığı, dini geriliklər, fanatizm, xalqın ağır və məşəqqətli həyat tərzi əsas yer tuturdu. 1875-ci ildə nəşrə başlayan «Əxbər» qəzeti iyirmi il fasiləsiz fəaliyyət göstərmiş, Yaxın və Orta Şərq ölkələrində böyük rəğbət qazanmış, əks-səda doğurmuşdur. «Əxbər»in naşiri və redaktorları Azərbaycanın görkəmli alim və istedadlı publisistləri Məhəmməd Tahir

Təbrizi və Mirzə Mehdi Əxbər olmuşdur.

1888-ci ildən fəaliyyətə başlayan «Şahsevən» qəzeti satirik yönümlü qəzet olaraq İranda istibdad quruluşunu ifşa etməklə cəmiyyətdə ictimai fikrin demokratik istiqamətdə tərəqqisinə nail ola bilmişdir. Bu qəzetə görkəmli Azərbaycan maarifçisi Ə. Talıbov və həmfikirləri rəhbərlik etmişdilər.

XIX əsrin ikinci yarsında Cənubi Azərbaycanda dərc olunan «Azərbaycan» (1858), «Təbriz» (1880), «Mədəniyyət» (1884) qəzetlərinin ümumi bir qüsuru var idi ki, o da onların doğma Azərbaycan dilində yox, fars dilində nəşr olunması idi. Məhz buna görə də, milli dil ədəbiyyatın tərəqqisinə əhəmiyyətli dərəcədə təsir göstərə bilmirdi.

Azərbaycan və rusca nəşr olunan qəzetlərin zaman keçdikcə saylarının artması ölkənin iri şəhərlərində, həmçinin iqtisadi-siyasi mərkəzlərində-Bakı, Şamaxı, Şuşa, Gəncə və başqa sənaye şəhərlərində ilk mətbəələr, litoqrafiyalar və yeni tipli poliqrafiya müəssisələrinin yaranmasına səbəb oldu. Nəticədə 1889-cu ildə Bakıda beş mətbəə və bir litoqrafiya fəaliyyət göstərirdisə, 1900-cü ildə litoqrafiyaların sayı on altıya çatmışdı. XX əsrin 18-ci illərinə, yəni Azərbaycanda müstəqil Demokratik Respublikanın (ADR) yaranmasına kimi olan dövrdə, mətbuatı ideya istiqamətinə görə üç siyasi formaya-demokratik, milli burjuaziya və bolşevik mətbuatına bölmək olar. 1905-ci il Rus-burja, 1905-1911-ci illər Səttərxan hərəkatı və başqa siyasi proseslər nisbətən də olsa senzuranın zəifləməsinə, həmçinin dövlət idarələrinin güzəştə getmələrinə səbəb olur. Sözsüz ki, bu da, mətbuatın azadlığına və inkişafına təkan verirdı.

1905-1911-ci illər İran inqilabi dövründə ilk dəfə olaraq Azəbaycan dilində «Azərbaycan», «Ana dili», «Təbriz», «Musavat», «Əncümən», «Zənbur», «Mücahid», «Şəfəq», «Mükafat», «İslam» kimi qəzet və jurnallar dərc olunaraq yayılmağa başladı. İnqilab illərində Azərbaycan dilində «Naleyi-millət» adlı qəzet işıq üzü gördü. Lakin inqilabın yatırılmasından, yəni 1911-ci ildən sonra Cənubi Azərbaycanda nəşriyyat işində müəyyən çətinliklər yaranmağa başladı.

XX əsrin əvvəllərində Azərbaycanda, xüsusilə də, Bakıda cərəyan edən ictimai-siyasi proseslər, inqilab ab-havası öz bəhrəsini verdi. Bunun məntiqi nəticəsi olaraq rus və Avropa təhsili görmüş, bir neçə əcnəbi dili yaxşı bilən maarifpərvər ziyalı M. Şahtaxtiniskinin (1848-1931) redaktorluğu və bilavasitə rəhbərliyi sayəsində 1903-cü ilin mart ayının 30-da «Şərqi-Rus» (1903-1905) adlı qəzet fəaliyyətə başladı. Bu mətbuat orqanında Məhəmməd Şahtaxtinski ilə yanaşı gələcəyin məşhur publisistləri olacaq Ömər Faiq Nemanzadə, Cəlil Məmmədquluzadə, Səmədağa Qayıbov, Üzeyir Hacıbəyli, Rəşid İsmayılov, Əsəd Babayev, Yusif Əfəndizadə və başqa qələm sahibləri çalışırdı. Qəzetin fəaliyyətə başlaması dövrün mütərəqqi ziyaliları, maarifçiləri tərəfindən alqışla qarşılandı və ona çoxlu şeir və məqalələr həsr olundu. «...Şərqi-Rus» ruznaməmiz mərifət meydanına qədəm qoyub, elm və mədəniyyət bayrağını qalxızdı. Ətraf və əknafdan idarəyə daxil olan təbriknamələr, nəzm və nəsr ilə ruznamənin tərifi qəfləti-tövsifi yuxusundan ayrılmağımıza böyük bir dəlil və əlamətdir desək, xəta etmiş olmarıq.» (52, 86)

«XX əsrin əvvəllərində ana dilində ilk və bircə qəzet olan «Şərqi-Rus» Azərbaycan xalqının ictimai həyatında, milli intibahında, maariflənməsində mühüm rol oynamışdır.» (93,15) «Elə bu vaxtdan etibarən bir-birinin ardınca «Həyat» (1905-1906), «İrşad» (1905-1908), «Tərəqqi» (1908-1909), «Molla Nəsrəddin» (1906-1931), «Füyuzat» (1906), «Dəbistan» (1906-1908), «Rəhbər» (1906-1907), «Məktəb» (1911-1912), «Şəlalə» (1913-1914), «Haqq yolu» (1911-1912), «Səda» (1909-1911), «İqbal» (1912-1915), «Yeni iqbal» (1915-1917), «Övraqi-nəfisə» (1915-1919) və başqa bu kimi ictimai, siyas və satirik yönümlü qəzet və jurnallar nəşr olunmağa başlayır.» (155,5) Bu mətbuat orqanlarının səhifələrində millətin taleyüklü problemləri müzakirə edilir, dövrün feodal geriliyi, kəndlilərin ağır həyat tərzi təsvir olunur, mədəniyyət, ədəbiyyat, dil məsələlərinə diqqət yetirilirdi. Zamanına görə Şərqin ən inkişaf etmiş ölkəsi sayılan Azərbaycan həm də, «İşıq» (1911-1912) adlı ilk

qadın məcmuəsi ilə də, öyünə bilər.

Həmin dövrdə, ancaq Tiflisdə Azərbaycan dilində az tirajla mətbuat məhsulları buraxılırdısa, artıq Bakıda mükəmməl və güclü mətbəələr yaranmağa başladı. Bakıdakı «Kaspi» mətbəəsi ilə bərabər Tiflisdə və Gəncədə də, yeni mətbəələr yaranırdı. Orucov qardaşlarının bu sahədəki fəaliyyəti getdikcə genişlənir və yeni imkanlar ortaya çıxırdı. Məhdud olsa da, Şuşa və Naxçıvan şəhərlərində çapxana binalarının təməli qoyulurdu.

1905-ci ildə, Tiflis şəhərində Cəlil Məmmədquluzadənin (1866-1932) və Ömər Faiq Nemanzadənin (1872-1937) səyləri nəticəsində yaradılan «Qeyrət» mətbəəsi Azərbaycan mətbuatının və ədəbiyyatının inkişafında misilsiz rol oynamışdır. Məhz, həmin ildə, (1905-ci ildə.-*V. P.*) Mirzə Cəlilin redaktorluğu ilə Tiflis şəhərində «Novruz» adlı qəzet nəşr olunmağa başlayır. Bu böyük mütəfəkkirin ilk naşirliyi, daha doğrusu məşhur «Molla Nəsrəddin»ə hazırlığı və keçid mərhələsi kimi də, dəyələndirilə bilər.

Azərbaycan mətbuatına yenilik gətirən, ilk ədəbi publisistika məktəbinin təməlini qoyan, Azərbaycan tarixində ilk satirik jurnal olaraq Yaxın və Orta Şərq ölkələrinə səs salan «Molla Nəsrəddin» jurnalı 1906-ci ilin 7 aprelin də Tiflis şəhərində, «Qeyrət» mətbəəsində nəşrə başlamışdır. Jurnalın redaktoru böyük ədib, görkəmli satirik mühərrir Cəlil Məmmədquluzadə idi. Jurnal və redaktorun «Molla Nəsrəddin» adı ilə fəaliyyətə başlaması mənalı idi. Bu onların qədim və zəngin milli xalq ədəbiyyatı ənənələri, güclü Şərq koloriti ilə sıx bağlılığını göstərirdi.» (93,24) Müəyyən fasilələrlə iyirmi beş il fəaliyyət göstərən «Molla Nəsrəddin» jurnalı əvvəlcə (1906-1918) Tiflisdə, qısa bir müddət ərzində (1921) Təbrizdə və sonrakı illərdə (1922-1931) Bakıda nəşr olunmuşdur.

«Molla Nəsrəddin» təkcə Azərbaycan xalqının həyatından deyil, o həm də, Türkiyə, İran, Rusiya, Hindistan, Əfqanıstan, Ərəbistan və Qafqaz xalqlarının həyat və məişətindən, onların ağır yaşayış tərzindən, həmçinin mədəniyyət və ədəbiyyatından, o cümlədən iqtisadiyyat və ticarətindən ətraflı və maraqlı

məqalələr dərc edirdi ki, bu da, onun həmin ölkələrdə sevilməcinə, şöhrətlənməsinə gətirib çıxarmışdır.

«Molla Nəsrəddin»in hamı tərəfindən sevilməsinin əsas səbəbi onun həqiqətpərəstliyi, həqiqəti cəsarətlə deməsi və onun yerini düzgün nişan verməsi, möhkəm əqidə və məslək sahibi olması, müasirlik və fəallıq nümayiş etdirməsi, dövrünün nəhəngləri sayılan, çar, şah, sultan, şeyx, xan, bəy və milyonçuları daima tənqid hədəfində saxlaması, şirin, ləzzətli, duzlu, canlı xalq dilində yazması, xalqın istək və arzularını dolğun, dürüst və real əks etdirməsi, ətrafına qüdrətli qələm sahibi, mühərrir, karikaturaçılar toplaması və dərin ictimai-estetik məna ifadə etməsi, ədəbi-bədii manera, orijinal kompozisiya qurması və klassik ədəbiyyatdan lazımınca qidalanması, mütərəqqi dünya ədəbiyyatının və incəsənətinin yeniliklərindən layiqincə bəhrələnməsi və yeri gəldikcə onları təbliğ etməsi, səbrlə, inamla, cəsarətlə gələcəyə baxması və dini fanatizmə, xürafata, ictimai bərabərsizliyə qarşı mübarizə aparması, zəhmət adamlarına yaxın dost olması və xoş münasibət bəsləməsi, həmçinin gülüş yolu ilə silmək istədiyi həyat çətinliklərinin yerində yeni, ürəkaçan, müasir həyat tərzinin formalaşması uğurunda mübarizə aparmasında idi. Jurnalın özünə «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!» (93) şüarını seçməsi, jurnalın hər bir oxucusunda fəqarət hissi oyadır, onda doğmalıq, yaxınlıq əlamətlərinin oyanması, cücərməsi funksiyasını yerinə yetirir və onu gövrəldirdi.

«Molla Nəsrəddin»dən danışərkən onun mühərriri və «ağsaqqalı» Mirzə Cəlildən, onun silahdaşları M. Ə. Sabir, Ə. Haqverdiyev, Ə. Qəmküsar, R. Nəcəfov, Ö. F. Nemanzadə, M. S. Ordubadi, Ə. Nəzmi, Ə. Məhzun, B. Abbaszadə, S. Mümtaz, Ə. Əzimzadə, K. Rotter, O. Şmerlinq və başqalaından danışmamaq günah olardı. Jurnal dövrünün görkəmli tənqidçiləri Firidun bəy Köçərli və Seyid Hüseyn tərəfindən də, yüksək qiymətləndirilirdi.

Əlbəttə, «Molla Nəsrəddin»dən söhbət açarkən onun ana dili uğrunda apardığı mübarizədən yan keçmək mümkün deyil. XX əsrin əvvəllərində Azərbaycan mətbuatında dil məsələləri

ilə bağlı gedən proseslərdə «Molla Nəsrəddin» fəal iştirak edirdi. Tanınmış tənqidçi-publisist F. Köçərlinin (1863-1920) dil məsələsi ilə bağlı «Ana dili» (96) adlı məqaləsini bu jurnalda çap etdirməsı yuxarıda deyilənlərə əyani sübutdur.

Həmin dövrdən bir neçə onilliklər keçdikdən sonra, xalq yazıçısı Süleyman Rəhimov Cəlil Məmmədquluzadə haqqında obrazlı şəkildə yazırdı: «Kim deyir ki, Mirzə Cəlil gülüb, yanılır, Azərbaycan torpağında hələ belə ağlayan olmayıb. Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev kimi sənətkarlar nə qədər böyük olsalar da, Mirzə Cəlilin ətrafında pöhrələyiblər. Yəni bu köklü ağac olmasaydı, bu pöhrələrin böyüyüb bar tutması bir xeyli müşkül iş idi. Mirzə Cəlilin bir böyüklüyü də bundadi.» (129)

«Molla Nəsrəddin» ədəbi məktəbi özü ilə bərabər yeni satirik mühərrirlik məktəbinin bünövrəsini qoydu. Beləki, onlarla jurnal-«Bəhlul» (1907), «Zənbur» (1909-1910), «Mirat» (1910), «Arı» (1910-1911), «Kəlniyyət» (1912-1913), «Leylək» (1914), «Tuti» (1914-1917), «Məzəli» (1914-1915), «Babayi-Əmir» (1915-1917), «Tartan-partan» (1918), «Məşəl» (1919) və başqa jurnalların redaktorları vaxtilə bu jurnalda əməkdaşlıq və naşirlik edən qələm sahiblərinin sayəsində həyata vəsiqə qazandı. «Molla Nəsrəddin»in bilavasitə təsiri nəticəsində, Bakıda «Ciqit» (1907-1918), «Vay-vay» (1908), «Bakinskoye qore» (1908-1909), «Bur» (1909-1915), «Adskaya poçta» (1909-1910), «Bakinskiye streli» (1910), «Baraban» kimi rus dilli satirik jurnallar çap olunurdu.

«Molla Nəsrəddin»in bilavasitə təsiri nəticəsində 1907-ci ilin mayında, Bakıda nəşrə başlayan «Bəhlul» jurnalının adı Azərbaycan el ədəbiyyatından, xalq bədii gülüşünün tarixindən alınmışdır. Jurnalın redaktoru maarifpərvər mühərrir Ələsgər Əliyev (1883-1938), rəssamları Ə. Əzimzadə, Y. Y. Hamberq, S. B. Cəlilbəyov olmuşdur.» (93,44) Bu jurnal satirik gülüş baxımından «Molla Nəsrəddin»lə müqayisədə zəif olduğundan oxucuların diqqətini özünə kifayət qədər cəlb edə bilmədiyi üçün bir ildən artıq davam etməmişdi. Cəmi doqquz sayı işıq üzü

görən «Bəhlul»un səhifələrində Əli Nəzminin və M. Ə. Sabirin bir çox şerləri dərc olunmuşdur.

«Zənbur» satirik jurnalı özünün ilham vericisi və onu öz arxasınca aparan «Molla Nəsrəddin»ə həmişə borcludur. Məhz, bunun məntiqi nəticəsi idi ki, düşmənlərin dilindən istehza ilə deyilirdi: «Allah «Zənbur»un neştərini sındırsın və özünü də tezbazar eləsin.» (93,45) 1909-cu ilin martından 1910-cu ilin oktyabrınadək fəaliyyətdə olan bu satirik jurnal öz ideya istiqamətinə, qəzetçilik sənətinə və gülüş metoduna görə sələfindən heç də, geri qalmırdı. Əksinə, ondan bəhrələnir, onun üslubunu və ənənələrini qoruyub saxlayır, inkişaf etdirirdi. Müxtəlif zamanlarda «Zənbur»u Rza bəy Səlimxanov və Murtuz bəy Pələvəndov redaktə etmişlər. Jurnalın 1909-cu il 1-21-ci saylarının redaktoru R. Səlimxanov, 22-41- ci saylarının redaktoru Ə. Əzimzadə, 1910-cu il 1-27 ci saylarının redaktoru M. Pələvəndov olmuşdur. Ə. Müznib isə jurnalın son beş sayını redaktə etmişdir. Jurnalda M. Ə. Sabir, Ə. Nəzmi, A. Səhhət və b. çıxış etmişdilər. Bu mətbuat orqanında çəkilən karikaturaların müəllifləri isə Beno və Ə. Əzimzadə olmuşdur. «Mövzu dairəsinə, xəlqiliyinə görə də «Molla Nəsrəddin»ə yaxın olan Zənbur dövrün məşhur realist şair və ədiblərini, başqa sözlə, mollanəsrəddinçiləri öz ətrafına toplamışdır. «Molla Nəsrəddin»in təsiri ilə çıxan gülgü jurnalları içərisində «Zənbur»un xüsusi yer tutmasının sirri məhz bunda idi.» (93,45)

«Molla Nəsrəddin» ədəbi məktəbinin davamçılarından biri də, «Tuti» jurnalı olmuşdur. Cəfər Bünyadzadənin redaktorluğu ilə 1914-1917-ci illərdə Bakıda nəşr olunan bu jurnal Azərbaycan satirik mətbuatının maraqlı səhifələrindən birini təşkil edir. Bu jurnalın ətrafında dövrün tanınmış qələm sahiblərindən olan Ə. Müznib, Ə. Nəzmi, N. Bəsir, M. S. Ordubadi, M. Hadi, H. İ. Qasımov, C. Əsgərzadə İrəvani, Ə. Vahid, S. Mənsur, Ə. Razi və başqa mütərəqqi fikirli insanlar cəmləşmişdilər. Jurnal liberal-burjua istiqamətli, qələm sahiblərinin bir çoxu isə müxtəlif məsləkli olmasına baxmayaraq realist ədiblər qrupu və rəssam Ə. Əzimzadə «Tuti»yə «Molla Nəsrəddin» üslubu, təravəti,

ruhu, bəzəyi gətirə bilmişlər. «Tuti» bir tərəfdən Azərbaycan xalq ədəbiyyatı nümunələrini, Ə. Əzimzadənin rəssamlıq irsini, digər tərəfdən də, H. Vəzirov və başqalarını təbliğ edirdi. Ziddiyyətli dövrün keşməkeşli tarixi hadisələrini əks etdirməklə yanaşı, satirik «Babayi-Əmir» jurnalı ilə yersiz çəkişmələr də edirdi.» (93,48) «Tuti» ilk sayından axıra kimi öz məsləkinə sadiq qalmış, xidmət etdiyi xalqı mütləqiyyətin buxobundan azad edərək yeni, müstəqil cəmiyyətə qovuşdurmaq arzusu və məqsədilə yaşamış və bu yolda mübarizə aparmışdır.

«Molla Nəsrəddin» jurnalistlika məktəbinin yetirmələrindən hesab olunan «Mirat» Ə. Tağızadənin, «Arı» D. Bünyadzadənin, «Kəlniyyət» H. İ. Qasımovun redaktorluğu, İrəvanda nəşr olunan «Leylək» M. Mirfətullayev və C. Əsgərzadənin rəhbərliyi ilə dərc olunurdular. Bu jurnallar başqa satirik dərgilər kimi «Molla Nəsrəddin»dən nəfəs və qida alırdılar. Onların çoxunun ömrünün az olması maliyyə çətinlikləri ilə bağlı olsa da, digər tərəfi «Molla Nəsrəddin»i açıq-aydın vermələrindən, yəni ona çox yaxın mövqedən çıxış etmələrindən ibarət idi. Məhz, bütün bu və ya buna bənzər vəziyyətlərin olması dayanaqlı məntiqə əsaslanır. Cəmişi bir sayı işıq üzü görən Ə. Qarayevin «Tartan-partan» və altı sayı ilə öyünmək istəyən «Məşəl» satirik jurnallarının da ömrü az olmuşdur.

«Mollanəsrəddinçilərin duzlu-məzəli yazilarının təsiri, böyük xalq jurnalının mövzu və ideyaları, forma və üslub xüsusiyyətləri bu gülgü məcmuələrində aydın hiss edilməkdə idi. Bu jurnallar çox zaman xalq ədəbiyyatı nümunələrini satirik üsluba uyğunlaşdırır, nəzm və nəsrdən, mükalimələrdən istifadə etməklə fikri mollanəsrəddinsayağı, əks mənada verməklə eyni ədəbi priyomlardan bəhrələnirdilər.» (93,47)

Cəmisi bir il fəaliyyət göstərən satirik «Məzəli» jurnalı, dramaturq və mühərrir Haşım bəy Vəzirovun (1862-1916) rəhbərliyi altında 1914-ci ilin dekabrından 1915 ilin dekabrına kimi yaşaya bildi. Həmin dövrdə nəşr olunan satirik jurnalların əksəriyyəti «Molla Nəsrəddin» jurnalının təsiri ilə dərc olunsa da, «Məzəli» bu baxımdan onlardan fərqlənirdi. Bu jurnal yal-

nız oxucuları güldürməklə yox, əksinə, özünün əsas hədəfi olan varlıları, mollaları, yalançıları və riyakarları kəskin tənqid atəşinə tutmaqla vəzifəsinə əməl etdiyini bildirirdi. Jurnalın «Yolumuz» adlı baş məqaləsi bunu deməyə imkan verir. H. Vəzirovun rəhbərliyi ilə işıq üzü görən jurnalda H. İ. Qasımov, Ə. Əzimzadə, Ə. Nəzmi, Ə. Qəmküsar, Ə. Razi, C. Əsgərzadə, Ə. Müznib, C. Cabbarlı və başqa istedadlı insanlar çalışırdı.

«Məzəli» jurnalı daxili məsələlərlə bərabər həm də, beynəlxalq mövzulara geniş yer verirdi. «Ə. Əzimzadənin karikaturalarında adi məişət məsələlərindən tutmuş alman imperializminin dünya ağalığı siyasətinə, Kayzer Vilhelmin Kərbəla ziyarətinə getmək niyyətinə qədər geniş və o dövr üçün aktual olan mövzular real əks etdirilirdi.» İstedadlı rəssamın «sehirli fırça»sının köməyi ilə acınacaqlı Bakı mədənləri, orda çalışan və min-bir əzab və əziyyət içində boğulan fəhlələrin ağır, faciəli həyatı təsvir olunurdu. «Öldür və bölüşdür» (93,50) siyasətinə, maarifin tənəzzülünə, həmçinin qadın azadlığına biganə qalmayan «Məzəli» jurnalı, heç də dövrünün mətbuat orqanlarından geri qalmırdı. Dövrün tanınmış və sevilən satrik jurnallarından biri də, «Babayi-Əmir» idi. 1915-ci ilin 21 aprelindən nəşrə başlayan və həftdə bir dəfə nəşr olunan bu jurnal iki ilə yaxın böyük müvəffəqiyyətlə fəaliyyət göstərdi. Jurnalın baş redaktoru məşhur şair, təcrübəli naşir Əlabbas Müznib Mütəllibzadə olmuşdur. Bu jurnalda müxtəlif gizli imzalarla Əli Nəzmi, M. S. Ordubadi, C. Cabbarlı, B. Abbaszadə, Nemət Bəsir, Əlağa Vahid, Əmin Abid və başqaları iştirak edirdilər. Bəzi tənqidçilər «Babayi-Əmir»i də, «Məzəli» jurnalı kimi liberal mövqedən çıxış etməkdə günahlandırırdı, hətta «Molla Nəsrəddin»dən zəif olduğunu daima vurğulayırdılar. «Bu həqiqəti hələ o zaman dərindən duyan böyük ədib C. Məmmədquluzadə «qabaq belə zarafatlar yox idi, indi hamı «Molla Nəsrəddin»ə baxıb, başlayıblar zarafatnan yazmağa»-deyirdi. (93,52)

«Babayi-Əmir» satirik məqalələrlə yanaşı səhifələrində dünya siyasətini əhatə edən yazılara da, üstünlük verirdi. Dövrün siyasi məsələləri içərisində qan və torpaq hərisləri, dün-

yanı zəbt edib şahlıq iddiasına düşənlər, imperialist qüvvələr, Vilhelm və başqa mövzular dərgidə aparıcı yer tuturdu.

Azərbaycanın mətbuat tarixində «Molla Nəsrəddin» yurnalından sonra ədəbi məktəb kimi iz qoyan mətbuat orqanlarından biri də, «Füyuzat» oldu. «Füyuzat» jurnalının ilk sayı 1906-cı il noyabrın 1-də dərc olunur. Jurnalın Baş redaktoru görkəmli maarifçi, dövrünün taninmış ziyalısı Əli bəy Hüseynzadə idi. «Ə. Hüseynzadənin Azərbaycan ictimai-mədəni həyatı və milli mətbuat tarixindəki xidmətlərindən ən çox diqqəti cəlb edəni onun söz və mətbuat azadlığı uğrunda mübarizə aparmasıdır. Ədəbi-tənqidi və publisistik məqalələri, şerləri, bədii nəsri və siyasi-fəlsəfi pamfletlərində Ə. Hüseynzadə azadlığı-hüriyyəti obrazlı şəkildə təqdim edir, azad sözü «pəriyi-hürriyyət» adlandırır.» (46)

«Füyuzat» jurnalı xeyriyyəçi-maarifpərvər Hacı Zeynalabdin Tağıyevin sponsorluğu ilə çap olunurdu. Mənşəcə ərəb sözü olan «Füyuzat»ın lüğəti mənası həyatın həqiqətlərini duymaq, dərk etmək, onlardan həzz almaq, feyziyab olmaq anlayışını verir. Jurnalda Ə. Hüseynzadə ilə birlikdə M. Hadi, M. Ə. Sabir, Hüseyn Cavid, Səid Səlmasi, A. Şaiq, Əhməd Kamal, Əhməd Raiq və başqa qələm sahibləri çıxış edirdi. «Füyuzat»da Əli bəy Hüseynzadə məqalələrinin birində yazırdı: «Bizə fədai lazımdır! Türk hissiyyatlı, islam etiqadlı, Avropa (müasir) qiyafəli fədai!» (46) Sonradan bu fikir füyuzatçı mətbuat orqanları tərəfindən müasirləşdirildi və «Təzə həyat» (1907-1908), «İrşad» (1905-1908), «Səda» (1909-1911), «Yeni Füyuzat» (1910-1911), «Həqiqət» (1909-1910), «Tərəqqi» (1908-1909), «İqbal» (1912-1915), «Sədayi-həqq» (1912-1915), «Şəlalə» (1913-1914), «Açıq söz» (1915-1918), «İttifaq» (1908-1909), «Bəsirət» (1917) «Qurtuluş» (1915), «Dirilik» (1914-1916), «Azərbaycan» (1918), «Övraqi-nəfisə» (1915-1919) mətbuat orqanları tərəfindən «Türkləşmək, islamlaşmaq, müasirləşmək.» (46) şəklində tətbiq olundu. Azərbaycan dövlətinin bugün qürurla dalğalandırdığı üç rəngli (mavi, qırmızı, yaşıl) bayrağın ideya mənəvi dəyərləri Ə. Hüseynzadənin həmin tezisi və

füyuzatçıların tarixi xidmətləri sayəsində təşəkkül tapmışdır. Qeyd etmək lazımdır ki, Əli bəy Hüseyinzadə (1864-1940) və Əhməd bəy Ağayev (1868-1939) «Füyuzat» jurnalında fəaliyyətə başlamazdan öncə, maarifçi-mesenat Hacı Zenəlabdin Tağıyevin maliyyə dəstəyi sayəsində 1905-ci il iyulun 7-də nəşrə başlayan və Azərbaycan dilində işıq üzü görən «Həyat» qəzetini hazırlayıb oxucuların öhdəsinə vermişdilər. Hər iki ədibin «Həyat»da birgə çalışması və sonradan onlardan birinin 1906-cı ilin 1 noyabrında «Füyuzat» jurnalını yaratması və bununla da «Molla Nəsrəddin»in davamı olaraq, ikinci ədəbi məktəbin formalaşmasına rəvac verməsi oldu. Bu hal Mirzə Cəlilin mətbuat yolunda atdığı addımla analoji eynilik təşkil edir.

«Füyuzat» öz ideya istiqamətinə görə «Molla Nəsrəddin»dən kəskin surətdə fərqlənirdi. Daban-dabana, bir-birinə zidd olan bu iki mətbuat orqanının barışa bilmədikləri əsas nöqtə dil problemi idi. Daha çox Osmanlı türkünün, həmçinin ərəb və faras dillərinin məngənəsində boğulan «Füyuzat» yurnalı və onun davamçıları, məhz bu baximdan «Molla Nəsrəddin»in və onda çalışan mütərəqqi ziyalıların tənqid atəşinə düçar olurdular. «Böyük ədib Cəlil Məmmədquluzadə «Xatiratım» memuarında «Həyat» qəzetinə belə qiymət verirdi: «Burada mən qəzet sahibləri Əli bəy və Əhməd bəyin yazıçılıqda çox məharətli olmalarını təsdiq edə-edə onların qəzetlərini o yerdə xoşlamadım ki,... şəriət vaizi kimi müsəlman qardaşları islam dinində dəxi də sabitqədəm və bərqərar olmağa dəvət edirdilər.» (87) «Füyuzat» və o qəbildən olan mətbuat orqanları ilə bağli söz söhbətlər və mübahisələr, sözsüz ki, dövrün tanınmış publisisti, tənqidçi-alim F. Köçərlinin maraq dairəsindən kənarda qala bilməzdi. O, yazirdı: «Allah Əli bəy Hüseynzadəyə insaf versin. Kaş o alicənab İstanbulda rahat əyləşib, bizim şumbəxt Qafqaza təşrif gətirməyə idi. O, cənabın elm və kamalına sözümüz yoxdur. Sözüm ondadır ki, elm və kamalından bizə bir bəhrə vermədi, ancaq dilimizə pozğunluq saldı, təzə dil gətirdi.» (96,294) Bu misallardan aydın olur ki, həm Cəlil Məmmədquluzadə, həm də, Firidun bəy Köçərli Ə. Hüseynzadənin elm və biliyini, kama-

lını yüksək qiymətləndirərək, onu düzgün istiqamətə yönəltmək istəyiblər.

Ədəbi dil ilə bağlı öz fikrini açıqlayan yazıçı-dramaturq Ə. Haqverdiyev yazırdı: «Bunu gördükdə (Osmanlı türk ləhcəsinə olan marağı.-V. P.) osmanlı ədəbiyyatının ağalıq xülyası cünbüşə gəldi. Bu əsası icra etmək üçün bir neçə nəfər İstanbuldan Azərbaycana ezam olundu. Əlibəy Hüseynzadə, Əhməd Kamal, Səbribəyzadə Xalid Ziya və sairləri. Birinci Əlibəy Hüseynzadə «Füyuzat»ı nəşrə başlayıb, türk Azərbaycan dilini osmanlılaşdırmağa qədəm qoydu. Bunun müqabilində «Molla Nəsrəddin»in amansız mübarizəsi nəticə verə bilmədi və yazıçı gənclərin çoxunu Əlibəy öz nüfuzu altına çəkdi. Əlibəydən sonra Əhməd Kamal «Yeni Füyuzat» jurnalının başında əyləşib Əlibəy yolu ilə getdi. 1910-cu ildə Səbribəyzadə «Şəlalə» jurnalı ilə meydana atıldı.» (43) Doğrudur bütün bu kimi çatışmazlıqlarla bahəm, «Füyuzat» jurnalı rus və dünya ədəbiyyatı klassiklərindən Lev Tolstoy, Gete, Viktor Hüqo, Bayron, Azərbaycan klassiklərindən M. Füzuli, A. Bakıxanov, hətta «kimyəvi elementlərin dövri cədvəli» və onun müəllifi D. Mendeleyev haqqında yazılara da yer verirdi, onları öz ideya istiqamətinə müvafiq qiymətləndirirdi.» (93,65)

Yalnız Ə. Hüseynzadənin və Ə. Ağayevin deyil, bütün füyuzatçıların əsərlərində dil Osmanli türkcəsi və qəliz ərəb-fars tərkibləri ilə dolu idi. Bunun bariz nümunəsini Mirzə Cəlilin «Anamın kitabı» pyesində açıq-aydın görmək mümkündür. Lakin bu nöqsanlara baxmayaraq «Füyuzat» yeni ədəbi-publisist bir məktəbin təməlini qoymağa nail ola bildi. Bu jurnalın, o cümlədən bütün füyuzatçıların üstünlüklərindən biri və ən əsası da ondan ibarət idi ki, onlar rus inqilabına və onun yalançı vədlərinə inanmırdılar. Ə. Hüseynzadə onları «qırmızı qaranlıqlar» (93,66) adlandırırdı. Məhz, buna görə də, Oktyabr inqilabından sonra Ə. Hüsenzadə, Ə. Ağayev, Ə. Topçubaşov və başqa füyuzatçılar burjua məfkurəsinə xidmətdə, pantürkizm və panislamizm ideyalarını yaymaqda günahlandırıldılar. Onların bir hissəsi mühacirətə üstünlük versə də, bir çoxu «qırmızı

terror»un qurbanı oldu.

«İrşad» 1905-1908-ci illərdə Bakıda, Azərbaycan dilində nəşr olunan gündəlik ictimai-siyasi qəzet idi. Birinci sayı 1905-ci il dekabrın 17-də, son sayı isə (dörd aylıq fasilə ilə) 1908-ci il iyunun 25-də dərc olunmuşdur. Qəzetin naşiri İsa bəy Aşurbəyov, redaktoru isə Əhməd bəy Ağayev (bir müddət müvəqqəti redaktoru Haşım bəy Vəzirov) idi. «İrşad»la müntəzəm əlaqə saxlayan, onun səhifələrində çoxlu məqalə, felyeton, resenziya, açıq məktub, satirik hekayə, səhnəcik, miniatür və başqa ədəbiyyat nümunələri dərc etdirənlərdən birincisi Üzeyir Hacıbəyli olmuşdur. O, vaxtilə «İrşad»a müvəqqəti redaktorluq etmiş və sonradan «Təzə həyat» qəzetinə redaktor təyin edilmiş H. Vəzirovun rus dilli «Bakınski den» qəzetinin səhfəsindən «İrşad»ın ünvanına nalayiq fikirlər söyləməsinə etiraz edərək yazırdı: «Bağlanmış «İrşad»ın ən yaxın əməkdaşı olduğum üçün, mən laqeyd baxa bilmərəm ki, bu qəzet haqqında ən gözəl xatirələr ... onun ünvanına nalayiq şər atması ucbatından ləkələnmiş olsun. Odur ki, rus kütləsi qarşısında etiraf edən redaktora kiçicil cavab verməyə məcburam.» (42)

Azərbaycan jurnalistikası tarixinin ikinci dövrü (1920-2013) haqqında təfsilatlı məlumatı «Publisistika-Jurnalistika» seriyasına daxil olan növbəti kitablarda verməyə çalışacağıq.

İKİNCİ FƏSİL

JURNALİSTİKA VƏ ƏDƏBİ TƏNQİD

Azərbaycan ədəbiyyatında ədəbi tənqidin erkən görüntüləri IX-X əsrlərə gedib çıxır. «...XI əsrdə Xətib Təbrizi («Şərh divan əlhəmasə», «Şərh divan Əbu Təmmam», «Əl kafi fi elmey əl-əruz vəl qəvafi»), Yusif Xoylu («Tənvir»), XIII əsrdə Nəsrəddin Tusi («Mizanül-əşar», «Əsasül iqtibas»), XIV əsrdə Əssar Təbrizi («Nəqayiqül-hədanq», «Ənisül uşşaq»), XV əsrdə isə Vahid Təbrizi («Risaleyi-cəmi müxtəsər») və Məhəmməd Rəfi Dost Məhəmməd oğlu («Məşrəbül-ətşan») bədii əsərlərə şərh yazmış, incəsənətin mahiyyəti, məqsəd və vəzifəsi haqqında fikirlər söyləmiş, ədəbi-tənqidi yaradıcılıqla məşğul olmağın ənənəsini yaratmışlar.» (37,9-376)

Jurnalistikada ədəbi tənqidin ilk cücərtiləri XVII əsrin sonları XVIII əsrin əvvəllərində Avropa mətbuatında, daha doğrusu, İngiltərədə görünməyə başlayır. Hələ o zaman, fövqəladə təsir qüvvəsinə malik olan «The Edinburgh Review» («Edinburq İcmalı») jurnalı mətbuat orqanı olmaqla bərabər, həm də, çoxsaylı məqalələrində siyasi və ədəbi-tənqidi xarakterli yzılara geniş yer verməış, necə deyərlər, «həqiqətən axırıncı aşırım» rolunu oynamışdır. Bu nəşrin mülayim mühafizəkarlığı oxucu auditoriyasının çox xoşuna gəlmiş, onun ədəbi mülahizə və mühakiməsi həm oxuculara, həm də, jurnalistlərə həlledici təsir göstərmişdir.

Nəşrə başladığı ilk illərdə jurnal şairlərin, əsasəndə, Uilyam Vorsvort və Robert Sautinin güclü tənqidinə məruz qalmışdır. 1808-ci ildə, Henri Brouqxem tərəfindən yazılan və gənc şair lord Bayronu ələ salan məqalə İngiltərə ədəbiyyatında ən səs-küylü hadisəyə çevrilmişdir. Şəxsiyyəti rişxənd hədəfi olan Bayron «The Edinburgh Review» jurnalının hucumuna «İngilis

el şairi və şotland icmalçısı» (1809) satirik şeirində tutarlı cavab verərək özünü müdafiə etmişdir.

Bununla belə, «The Edinburgh Review» dərgisinin yüksək səviyyəli tənqidi məqalələri bir çox Avropa və Amerika ədəbi-tənqidi nəşrlərə nümunə olur və bu tənqidin nəticəsində Tomas Makoley və Tomas Karleyl kimi görkəmli esseistlərin istedadını üzə çıxarır.

XIX əsrin əvvəlində Rusiyada cərəyan edən siyasi-ədəbi proseslərin nəticəsində ədəbiyyatda və publisistikada başlayan ədəbi-tənqid həmin dövrün qabaqcıl demokratik jurnalları sayılan «Sovremennik» («Müasir»), «Ruskoye slova» («Rus sözü»), «İskra» («Qığılcım») və s. mətbuat orqanları vasitəsilə cəmiyyətin fikir və arzularını tam əks etdirməyə başlayır. Bu nöqteyi-nəzərə istinad edərək söyləmək olar ki, ədəbi-tənqidi ideyanın əsas axınını siyasi mübarizə təşkil edir və bu prosesdə o xüsusi rol oynayır. Siyasi proseslərin vüsət aldığı bir zamanda ədəbi-tənqid ziyalıların, maarifçilərin, o cümlədən qələm sahiblərinin qarşısına ictimaiyyəti maraqlandıran suallar qoymağa başlayır və onları-bədii ədəbiyyatı, əsasəndə publisistikanı inkişafa sürükləyir. Artıq XIX əsrin ortalarından etibarən Rusiyada Belinski, Gertsen, Dobrolyubov, Çernışevcki, Dostoyevski, Pisaryev, Ulyanov kimi böyük və güclü tənqidçilər nəsli yetişir. Məhz, bunun məntiqi nəticəsi olaraq jurnalistikada ədəbi-tənqid, o zaman imperiyanın əsarətində olan Azərbaycana da, nüfuz etməyə başlayır. Baxmayaraq ki, ədəbi-tənqidin ilk cücərtiləri Azərbaycan ədəbiyyatında X-XV əsrlərdə görünməyə başlamışdır. Lakin Qərb yönümlü ədəbi-tənqidin ədəbiyyatda, əsasəndə jurnalistikada ilk görüntüləri ölkəmizdə Mirzə Fətəli Axundzadənin əsərlərində, mətbuatda isə Həsən bəy Zərdabinin yaratdığı «Əkinçi» qəzetində görünməyə başlayır.

Xalqın maarifləndirilməsini öz qarşısına əsas vəzifə kimi qoyan Həsən bəy Zərdabi «Əkinçi»nin səhifələrindən daima onu düşündürən məsələləri-milli birliyi, milli xüsusiyyətləri, milli oyanışı qabartmaq məqsədilə əməliyyat meydanı kimi istifadə edir. Bu maarifçilik jurnalistikasının əsas tələblərindən

biri kimi gündəlikdə dururdu. Qəzetdə çalışan maarifpərvər, demokratik naşirlər Şərqin geriliyini, ətalət və süstlüyünü həqiqi azadlığın yoxluğunda və məktəblərin olmamasında görürdülər. Maarifçilik fəlsəfəsinin tələb etdiyi istiqamətlərdən biri də, hamının başa düşə biləcəyi dildə qəzet nəşr etdirmək idi. Defo yazırdı: «Əgər məndən soruşsalar ki, hansı üslubu yaxşı hesab edirəm, onda mən cavab verərdim ki, beş yüz nəfər müxtəlif peşə sahibi ilə, ağıldan kəm və dəlilər müstəsna olmaqla, başa düşən hamı ilə.» (166) Həmin dövrdə xalqın başa düşə biləcəyi açıq, aydın, sadə bir dildə yazan «Əkinçi» qəzetində belə fikirlərin səslənməsi, təbii ki, Azərbaycanı əsarət altında saxlayan imperiyanı, həmçinin yerli məmurları, o cümlədən xan, bəy, molla və cəhalət pərdsi altında gizlənənləri ciddi narahat etməyə bilməzdi. İmperiyaya canla-başla xidmət göstərən polkovnik Əlibəy Əlixanov «Əkinçi»nin ana dilində ona göndərilmiş ilk nüsxəsini alıb hiddətlə yazmışdı: «Təəssüf eyləyirəm redaktor nə üçün bilmir ki, öz çarına sədaqətlə xidmət edən bir nökər hökumət tərəfindən buraxılmayan bir qəzeti oxumaz.» (197)

Ədəbi tənqidi fikrin inkişafı üçün əsas məcra sayılan nəşriyyatın zəifliyi, xüsusilə, XIX əsrin 90-cı illərində ana dilində dövri mətbuatın tamamilə süqut etməsinə baxmayaraq, Azərbaycan publisistikası əzablı yollarla irəliləyib inkişaf etdi. M. F. Axundzadə və «Əkinçi»dən sonra publisistikada original, spesifik xüsusiyyətləri olan yeni bir mərhələ əmələ gəldi. Bir sıra səbəblər üzündən «M. F. Axundzadə ilə ondan sonra yetişən şəxsiyyətlər arasında, onların ədəbi görüşləri arasında möhkəm üzvi əlaqənin» (156,35) yaranmasında, Azərbaycanda realizm nəzəriyyəsinin kifayət qədər işlənməsinə, ədəbi tənqiddə, ümumiyyətlə, «realizm» istilahında istifadə edilməsinə (109) baxmayaraq, maarifçilər realist publisistikanın prinsiplərini, onun qarşısında duran məqsəd və vəzifələri doğru başa düşmüş və düzgün şərh etmişlər.

«M. F. Axundzadənin ədəbi tənqidi məqalələrinin ondan sonra gələn yazıçı və publisistlərə naməlum qaldığı, bundan XIX əsrin sonu, XX əsrin əvvəllərində ədəbi tənqidi fikrin zərər

çəkdiyini söyləyən akademik Kamal Talıbzadə, «həmin səviyyədən başlayaraq inkişaf etməsinə mənfi təsir» (113,62) göstərdiyini qeyd, - edirdi.

Ə.Mirəhmədov deyirdi: «... filosof və mütəfəkkir Axunzadənin görüb qurtardığı işin çoxunu onun xələfləri, demək olar, başdan başlamalı olmuşlar; Tarix onların «bir işini iki eləmişdi.» Necə deyərlər, onların «əzabı şədid olmuşdu.» (95,27) Akademik Əziz Mirəhmədov, birinci növbədə M. F. Axunzadənin ədəbi tənqidi məqalələrinin özündən sonra yetişən ədəbi qüvvələrə naməlum qaldığına işarə edirdi. Bu mülahizələr ədəbi tənqidi fikrin ayrı-ayrı mərhələlərinin müəyyən tarixi xronoloji ardıcıllıq üzrə inkişafını izləmək, ənənə və varislik əlaqələrini öyrənmək baxımından tamamilə doğrudur.

Bu məqamda bəzi amilləri mütləq nəzərə almaq lazım gəlir. Beləki, M. F. Axundzadə irsinin XIX əsrin 80-ci illərindən başlayaraq ədəbiyyat və publisistika cəbhəsinə gələn ədiblərin nəzəri-estetik görüşlərinin formalaşmasında təsirsiz ötüşmədiyini görməmək mümkün deyil.

Birincisi, qeyd etmək lazımdır ki, akademik K. Talıbzadənin etiraf etdiyi kimi «F.Köçərli 1903-cü ildə «Azərbaycan tatarlarının ədəbiyyatı» adlı əsərində Axundzadədən bir tənqidçi kimi bəhs etmiş, «M. F. Axundzadə» kitabçasında bəzi tənqidi məqalələrin adını çəkmişdi.» (52)

İkincisi, M. F. Axundzadənin nəzəri irsi bütünlükdə xələflərinin hamısına məlum olmasa da, estetik baxışlarının əyani ifadəsi realizmin canlı və dəyərli nümunəsi sayılan «Təmsilat»ı ortaya qoymuşdur.

XIX əsrin 80-90-cı illərində Mirzə Fətəli Axunzadənin həll edib başa çatdırdığı problemlərin təbliğinə, onların dönə-dönə yenidən müzakirə olunmasına, təbliğatına ehtiyac duyulurdu. «Əkinçi» (1875-1877) qəzetində haqqında danışılan bir çox məsələlərin yenidən gündəmə gətirilərək müzakirə olunması buna əyani sübut ola bilər. Axundzadə tərəfindən irəli sürülən məsələlər, o cümlədən onun əsərlərinin ayrı-ayrı tezislərinin Həsən bəy Zərdabi və Hacı Səid Ünsizadə tərəfindən təkrar

olunması söylədiklərimizin doğruluğunu təsdiqləmiş olur.

1884-cü ildə «Qafqaz» və «Tərcüman» qəzetlərinin Şuşa müxbiri H. X. Qaradaği haqqında dərc etdirdiyi məktubunda şairin müasir dövrün aktual məsələlərinə, yeni ədəbi formalara meyl göstərməsini sevinclə xəbər verirdi. «Tərcüman» yazırdı: «Müxbirimizin yazdığına görə Əliağa (Həsənəli ağa:-X. M.) qələmi əski şairlərin qələmi kimi gül ilə bülbül və ya ki, münacatdan ibarət olmayıb, təzə əfkar üzrə yazılıb, üsuli-şeirdə təzə yol, təzə zaman başlayacaqdır.» (88,45)

«Millətin ötən qərinələrdəki əhval ruhiyyəsini, tərəqqi və tənəzzülünün səbəblərini, inkişaf dərəcəsini, düşüncə tərzini, idrak xüsusiyyətlərini və səviyyəsini, həyata baxışını öyrənmək üçün onun ədəbiyyatı əvəzsiz vasitədir... Bir millətin ədəbiyyatı, demək olar ki, onun məişətinin aynasıdır. Hər bir millətin dolanacağını, övzi-məişətini, dərəceyi-tərəqqisini, mərtəbeyi-kamalını, qüdrət və cəlalını onun ədəbiyyatından bilmək olar.» (52,98)

Artıq XIX əsrin 90-cı illərində müasir məişət problemlərini publisistikanın təsvir obyektinə çevirmək, sənəti geniş xalq kütləsinin həyatına yaxınlaşdırmaq meyli günbə-gün güclənirdi. Təsadüfi deyildir ki, bir çox insanlar «Kəşkül» redaksiyasına məktub göndərərək «Əkinçi» ənənələrini davam etdirməyi, onun kimi xalqa müasir məişət normaları haqqında faydalı məlumat verməyi, təzə və zindəganlıq yollarını öyrətməyi tələb edirdilər.» (252)

1895-ci il yanvarın 15-də N. Nərimanovun «Nadanlıq» komediyasının ilk tamaşası münasibətilə dərc olunmuş rəylərdə məqalə müəllifləri əsərin müvəffəqiyyətini ilk növbədə onun məzmun və ideya yeniliyi ilə əlaqələndirirdilər. «Kaspi» qəzeti «Nadanlığ»ın uğurunun sirrini komediyanın dövrün aktual məsələlərinə toxunması, qapalı müsəlman məişətinin mənfi tərəflərini təsvir etməsi ilə izah edirdi. Rəyçi Ömər obrazının təhlili üzərində xüsusi dayanaraq əsərin müasir əhəmiyyətini, onun simasında Azərbaycan həyatına yeni gələn, lakin hələ kifayət qədər həmvətənlərinin rəğbətini qazana bilməyən ma-

arifçi ziyalı surəti yaratmaqda görürdü. Ziyalıların real həyatdakı mövqeyini doğru ifadə etdiyinə görə resenziya müəllifi tərəfindən təqdir olunurdu.» (196)

Elə həmin ilin, yəni 1895-ci ilin iyun ayında, Tiflisdə rus dilində çıxan «Novoye obozreniya» qəzetində pedaqoq, publisist, tənqidçi Firidun bəy Köçərlinin «Azərbaycan komediyaları» adlı məqaləsi dərc olunur. Ədib yazırdı: «Bu pyes (yəni «Nadanlıq»:-*V. P.*) qarışıq növdən olan bir dram əsəridir. Hadisələrin düyümü pis düşünülmüş, onların açılması isə qeyri-təbii bir faciə ilə qurtarır. Əsərin heç də yeni olmayan ideyası-nadanlıq üzərindən insanların necə kobudlaşdığını və rəhmsiz olduğunu göstərməkdən ibarətdir... Müəllif bədbəxt kəndlilərin şəxsində nadanlığın nümayəndələrini səciyyələndirmək üçün öz qara boyalarını əsirgəməmişdir... Dörd pərdəli «Nadanlıq» komediyasında tam və bitkin əsərin məziyyətləri yoxdur ... Komediyada yanlış, Azərbaycan ləhcəsinin ruhu ilə uyuşmayan ifadələrə, demək olar ki, addımbaşı təsadüf olunur, ... ərəb-fars sözlərini yerli-yersiz işlədən də, onun danışığı bəzən gülünc, bəzən də başa düşülmür.» (52,35-43)

Tənqidçi belə hesab edirdi ki, xalqın ağlından və ürəyindən əvvəl onun əsəbinə təsir göstərməklə teatra tamaşaçı toplamaq niyyətindən irəli gələrək müəllif zahiri effekt yaradan səhnələrə yol vermiş, ideya və sənətkarlıq kimi mühüm məsələlər diqqət mərkəzindən kənarda qalmışdır.

Yuxarıda müraciət etdiyimiz mənbələrə əsasən tam əminliklə söyləmək olar ki, Azərbaycan jurnalistikasında ədəbi tənqid XIX əsrin sonlarından daha geniş vüsət almağa başlamış və Azərbaycanda mətbuatın intibah dövründə, yəni XX əsrin əvvəllərində tərəqqi mərhələsinə keçmışdır. XX əsrin ilk illərində, mükəmməl rus və Avropa təhsili görmüş, bir neçə əcnəbi dili yaxşı bilən gökəmli maarifpərvər ziyalı Məhəmməd ağa Şahtaxtinskinin Tiflisdə, «Şərqi-Rus» (1903-1905) adlı qəzeti nəşrə buraxmasından sonra jurnalistikada ədəbi-tənqidin rolu daha da artmışdır.

O zaman «Şərqi-Rus» Azərbaycan dilində nəşr olunan ye-

ganə Azərbaycan qəzeti idi. Qəzetin redaksiya heyətində C. Məmmədquluzadə, M. Ə. Sabir, Əli Nəzmi, M. S. Ordubadi, Abdulla Tofiq Sur, H. Zərdabi kimi məşhur ədib və publisistlər fəaliyyət göstərirdi. Qəzet maarif, mədəniyyət, əlifba, dil, din, məişət və bir çox problemləri çəkinmədən səhifəsinə çıxarırdı.

Xalqın arzu və istəklərini, ictimai-siyasi mübarizələrin mahiyyətini daimə diqqət mərkəzində saxlayan mətbuat ədəbiyyatla heç vaxt indiki qədər sıx əlaqədə olmamışdır. Əsrin ilk dekadasında elə görkəmli Azərbaycan ədib və publisistləri yox idi ki, öz yaradıcılığını birbaşa mətbuat ilə bağlamamış olsun. İki müxtəlif yolla: teatr və mətbuatla inkişaf edən Azərbaycan ədəbiyyatı və publisistikası geniş təbliğ olunur, yeni-yeni janrlar ərsəyə gətirilirdi. Bu işdə publisistikanın çiyninə xüsusi ağırlıq düşürdü.

«Yüksək müşahidə qabiliyyətinə malik olan publisist sənətkardan «müsəvvir və nəqqaş», «öz zəmanəsinin aynası», dövrün «əks-sədası» olmağı tələb edən» tənqidçi Firidun bəy Köçərli haqlı olaraq belə düşünürdü. O, deyirdi: «... xalq həyatında baş verən müxtəlif xarakterli mürəkkəb hadisələrə vaxtında ayıq və fəal münasibət» (88,55) bəsləməyən jurnalist öz vətəndaş borcunu yerinə yetirə bilməz. Publisist mənsub olduğu xalqın kədər və sevincini, şad və qüssəsini yaradıcılığında qələmi vasitəsi ilə təsvir etməlidir.

«Ədəbiyyatımıza dair məktub» məqaləsində ədib tərəfdən irəli sürülən aparıcı məsələlərdən biri də, «sənət əsərinin bədiiliyi, gözəlliyi, təsir qüvvəsinə malik olması idi.» (52,17)

Əhməd bəy Ağayevin «İslam, Axund və hatifülqeyb» bədii-publisist əsərinin qəhrəmanı «İslam sənətkardan aydın mövqe, açıq fikir və məqsəd tələb edirdi. Quranı moddan düşmüş elan edib, şüurlu surətdə «bəlağət və fəsahət» işlətmək adı altında fikri dolaşıq, ifadə tərzi qəliz kitablar yazan, bu yolla xalqın düşüncəsində pozğunluq yaradan müəllifləri açıq surətdə nəinki xalqa xəyanətdə, hətta əqli keyfiyyətlərin naqisliyində ittiham edirdi... Çünki kitabın qaranlıq və qarışığı yazıçının əqlinin qaranlıq və qarışığına dəlalət edir.» (2,9)

XX əsrin əvvəllərində, Azərbaycanda baş verən ictimai-siyasi hərəkat jurnalistikada, ədəbi tənqiddə, ədəbiyyatda ciddi dəyişikliklərlə müşayət olunurdu.

Dövri mətbuat tamamilə yeni əhəmiyyət və məna kəsb etməyə başlayırdı. Əhalidə jurnal və qəzetə olan maraq, kitab ticarətinə kifayət qədər zərbə vururdu. Məhz buna görə də, təhsilindən və istedadından asılı olmayaraq qəzet və jurnal nəşr etməyə böyük axın var idi. Görkəmli qələm sahibi M. T. Sidqi «ədib nədən olur, ədib nədən əmələ gəlir?» sualına cavab verərək yazırdı: «Böyük sənətkarın yetişməsi üçün heç də onun harada, şəhərdəmi, kənddəmi, varlımı, yoxsulmu ailədə doğulması şərt deyil. Bu işdə onun tərbiyəsi həlledici rol oynayır. Şair daşdan yaranmaz! Ədib ağacdan olmaz! Şair və ədib millət, millət balalarından əmələ gəlir. Deməк olur ki, bir kəndin guşəsində, bir alaçığın bucağında yırtıq libasa və köhnə qundağa bürünmüş bir uşaq elm və tərbiyə sayəsində axırda bir şairi-kamil olur... Əlhasil, hər bir şey diqqət və etinanın zəminində və təlim və tərbiyənin sayəsində və qədrşünaslığın təhti-himayəsində hüsula gəlir.» (113,10)

Zəmanəsinin güzgüsü olmaq: şair, yazıçı, publisist şəxsiyyətin bir cəhətidir. Bu heç də, sənətkarın böyük amalı, onun ürəyinin genişliyi haqqında fikir söyləməyə əsas vermir. Əsil realist sənətkar həyatı əks etdirməyi «məfkurəlikdən ayırmır, o nəyə isə xidmət edir, nəyi isə izah edir.» (156)

Firidun bəy Köçərli «jurnalistin, ədibin qarşısında «yaşadığı mühitdə baş verən rəngarəng hadisələri əks etmək yolu ilə xalqa cəhalət və nadanlıqdan qurtuluş, qabaqcıl fikirlərə yiyələnmək yolunu göstərmək, vətəndaşların «qeyrət və təəssüb damarını hərəkətə gətirmək, ... qəflətdən bidar edib, tərəqqi və maarif səmtinə cürət və cəsarətlə dəvət» (52) etmək kimi böyük və şərəfli bir vəzifəni qoyurdu. Əgər ədibin bu fikir və mülahizələrinə diqqətlə yanaşmış olsaq, görərik ki, həmin fikir və mülahizələr görkəmli rus tənqidçisi A. İ. Gertsenin (90) ideyaları ilə birləşir və yaxud üst-üstə düşür.

A. İ. Gertsen yazırdı: «Son iyirmi beş ildə çox böyük həcm-

də bilik, anlayış, idrak, ideya yayılıbdır. Onlar Omski və yaxud Tobolski quberniyalarının sakinlərinə Dikkensin və yaxud Jorj Sandın, Londonda və yaxud Parisdə nəşr olunan romanlarını çapdan iki ay sonra oxumağa imkan veribdir.»

Firidun bəy Köçərli isə belə hesab edirdi ki, «Sədi, Hafiz, Şekspir, Bayron, Russo, Hüqo, Göte, Şiller, Puşkin, Tolstoy kimi yazıçılar ona görə öz millətlərinin müəllimi və mürəbbisi ola biliblər ki, «əsərləri ilə onların təhzibi-əxlaqına, rüfət və səadət tapmasına, şöhrət və qüvvət kəsb etməsinə hüsn-tədbirlər və səlamət təriqlər göstəriblər.» (52)

XX əsrin birinci on illiyi Azərbaycanda mətbuatın qeyri-adi formada inkişafı, dövri nəşrlərin sürətlə artması kimi səciyyələndirilə bilər. Beləki, bir-birinin ardınca işıq üzü görən, Azərbaycan və rus dillərində nəşr olunan «Şərqi-Rus», «Molla Həsrəddin», «Dəbistan», «Rəhbər», «İrşad», «İqbal», «Səda», «Həyat», «Məktəb», «Bakinskoye raboçi», «Vışka», «Znanie» və başqa mətbuat orqanları daima günün ən vacib məsələlərini qabardır və onların həll olunması yolları haqqında müfəssəl məlumatlar verirlər. Bu mətbuat orqanlarında mütəmadi çıxış edən Azərbaycanın maarifpərvər, demokratik fikirli ziyalıları bundan ruhlanaraq ana dilində qəzet və jurnal yaratmaq səylərini davam etdirirdilər. H. Zərdabi, F. Köçərli, N. Nərimanov, C. Məmmədquluzadə, M. Şahtaxtiniski, S. M. Qənizadə, Ə. Hüseynzadə, Ə. Ağayev, Ü. Hacıbəyli, Ə. Topçubaşov, Seyid Heseyn və başqaları bu sahədə ciddi səy və fədakarlıq göstərirdilər.

Mətbuatın cəmiyyətdə fasiləsiz artan müsbət rolunu görən, bu vasitədən bacarıqla istifadə etməklə xalqı ayıltmağa, həyatda ona düzgün yol göstərməyə cəhd edən hər bir ziyalının, qələm sahibinin vətəndaşlıq borcu olduğunu vurğulayan F. Köçərli yazırdı: «Ey qardaşlar, həyatın qədrini biliniz...ayılınız, hərəkət ediniz, qapı-bacalarınızı açınız, evinizə işıq düşsün, üfunətli və ağır havası dəyişilsin. Gözlərinizin tozunu silib diqqət ilə ətrafınıza baxınız, hər kəs işləyir, çalışır, həyatdan nəfbərdar olur.» (93,416)

Əvvəlki, «Əkinçi», «Ziya», «Ziyayi-Qafqaziyyə», «Kəşkül»

qəzetlərindən fərqli olaraq, XX əsrin əvvəllərində nəşr olunan mətbuat orqanları özünün dövrülüyü, müxtəlifliyi, rəngarəngliyi və mənalığı baxımından daha yetkin təsir bağışlayırdı. Beləki, qəzetlər yeri gəldikcə Avropa və rus ədəbiyyatında baş verən yeniliklər, həmçinin şair, yazıçı, publisistlər haqqında məlumatlar və onların əsərlərindən parçalar verir, jurnallar öz səhifələrində şəkillər dərc etdirir, Azərbaycanda ədəbi tənqid və karikatura məktəbinin carçısı olan «Molla Nəsrəddin» (1906-1931) jurnalı isə geniş oxucu auditoriyasını valeh etməklə bütün Yaxın Şərq və Qafqaz bölgəsini əhatə dairəsində saxlayırdı.

«Molla Nəsrəddin» jurnalı təkcə mənsub olduğu xalqın şifahi söz sənəti ilə deyil, həm də klassik yazılı ədəbiyyatı ilə, qabaqcıl rus və dünya ədəbiyyatı, mədəniyyəti ilə sıx bağlı idi. Jurnalın kəskin siyasi felyetonları, inqilabi ruhlu şeirləri, həqiqətpərəstlik və ifşaçılığı ... şiddətli və ardıcıl mübarizə aparması, onun senzura izləməsi və təhlükəsinə məruz qalmasına, təhdid və təkfir edilməsinə səbəb olurdu.» (93,28)

Getdikcə qəzet və jurnalların ictimaiyyət arasında nüfuzu və əhəmiyyəti artırdı. Mətbuat orqanlarında ədəbi məsələlərlə yanaşı, rəsmi məlumatlar və mədəniyyət xəbərləri, o cümlədən həyatda baş verən hadisə, problem, çatışmazlıqlar haqqında lazımi informasiya almaq mümkün idi. Məhz bütün bunların məntiqi nəticəsi idi ki, mətbuata, nəşrlərə və redaktorlara müxtəlif yollarla hucum edirdilər.

Cəlil Məmmədquluzadənin «Molla Nəsrəddin» jurnalında çap etdirdiyi «Niyə məni döyürsünüz?» adlı felyetonu tənqidə tab gətirməyənlərə qarşı düşünülmüşdür.

Əli bəy Hüseyinzadənin yaratdığı «Füyuzat» jurnalı öz ideya istiqamətinə görə «Molla Nəsrəddin»dən kəskin surətdə fərqlənirdi. Bu iki mətbuat orqanının barışa bilmədikləri əsas nöqtə dil problemi olsa da, onların həyata baxışlarında siyasi ziddiyyət tapmaq mümkün idi. Daha çox Osmanlı türkünün, həmçinin ərəb və faras dillərinin məngənəsində boğulan «Füyuzat» yurnalı və onun davamçıları, bu baximdan «Molla Nəsrəddin»in və mütərəqqi ziyalıların tənqid atəşinə düçar olur-

dular. Jurnalın yaradıcısı və Baş mühərriri Əli bəy Hüseynzadə mötədil, mülayim-liberal istiqmətli bir publisist olduğundan, «Füyuzat»da bu istiqamətdə hərəkət edirdi. Mirzə Cəlilin «Xatiratım» (87) memuarında bununla bağlı söylədiyi fikirlərlə razılaşmamaq imkanımız xaricindədir.

Azərbaycan cəmiyyətinin bütün ağıllı həyatında cərəyan edən hadisələrə hay verən qəzet və jurnallar, bütün original və bellestrik tərcüməni öz üzərlərinə götürərək, demək olar ki, tənqidin ən əhəmiyyətli hissəsini dadmışlar. Kifayət qədər əhəmiyyət kəsb edən sosial-siyasi, mədəni-iqtisadi inkişaf və ideya mərkəzinə çevrilmiş fövqəladə Azərbaycan həyatı daha müxtəlif və rəngarəng görünürdü.

Əhməd bəy Ağayev M. F. Axundzadənin «Hacı Qara» komediyasının özəyini təşkil edən qaçaqmalçılığa münasibət bildirərkən Mirzə Fətəlini sənətkar mövqeyi bildirmədiyinə görə tənqid edirdi. O, belə hesab edirdi ki, müəllif təsvir etdiyi hadisələri sosial və psixoloji cəhətdən təhlil etməmiş, onları sadəcə olaraq təsvir və təqdim etmişdir. Tənqidçi (Ə. Ağayev:-V. P.) tamaşaçılara bununla bağlı sual verməyi məsləhət görərək yazırdı: «Siz nahaq yerə, məsələn, müəllifdən «Hacı Qara»da onun təsvir etdiyi qaçaqmalçılığın azərbaycanlılar arasında təzahürünün səbəbləri barədə soruşmursunuz?» (184)

Mövhumatın yayılmasına, haqsızlığın tüğyan etməsinə, milli ədavətə və insan hüquqsuzluğunun artmasına, maarifin və təhsilin inkişafına mane olanlara, qadın azadlığına qarşı döyüşkən mövqedə dayanan «Molla Nəsrəddin» jurnalı yalnız yeni publisistika məktəbinin əsasını qoymaqla bərabər, o həm də Azərbaycan jurnalistikasında tənqidçilik məktəbinin bünövrəsini qoymuş oldu. Özünəməxsus dili, üslubu, xüsusiyyəti, mövzu seçimi, məzmun axtarışı olan «Molla Nəsrəddin» jurnalı nəşrindən bir müddət keçdikdən sonra «ədəbi və siyasi» mətbuat orqanı kimi şöhrət tapmağa başladı. Onun səhifələrində «1. Məqalələr. 2. Kəskin tənqidlər. 3. Xüsusi elanlar. 4. Poçt qutusu. 5. Karikatura və illüstrasiyalar»la bərabər siyasi məqalələr də, yer alırdı. Senzuranın jurnala tətbiq etdiyi qadağalar bunu

deməyə əsas verir. İran şahı, Türkiyə sultanı, Rus çarı və onların ölkələrində yaratdığı üsul-idarə, çatışmazlıq, eybəcərlik, özbaşınalıq, qadın azadlığı, dini biganəlik və sairənin tənqidi belə bir fikir söyləməyə əsas verir. Jurnal «Senzuranın qadağan etdiyi felyeton və karikaturaların yerini ağ buraxıb, üstündən qırmızı xətt çəkib, altından istehza ilə yazırdı: «Bizdən asılı olmayan səbəbə bu yer boş qaldı.» (93,29)

XX əsrin ilk illərində publisistlər F. Köçərli və C. Məmmədquluzadə, yazıçı S. M. Qənizadə və N. Vəzirov, şair M. Ə. Sabir və Ə. Qəmküsar və başqalarının qələmindən ərsəyə gələn əsərlərdə, Azərbaycanda mövcud olan reallıqlar, hər şeydən öncə, həyat və onun əsasını təşkil edən insanın köhnə əməlləri tənqid, yeni xüsusiyyətləri isə tərif olunaraq qiymətləndirilirdi. Burda başlıca tələb tənqidçinin əsərlərə «doğru və düzgün» qiymət verməsindən və onu həyata keçirməsindən ibarət idi. Ədiblərın fikrincə bu və yaxud bu qəbildən olan tələblər belə əsasdan irəli gəlirdi.

Sözün həqiqi mənasında, «Molla Nəsrəddin» jurnalı canlı təfəkkürə, yetkin düşüncəyə, idraka malik olan insan obrazına bənzəyirdi. Bütün bunlarla yanaşı jurnal həm də, cəmiyyətdə müəyyən olunmuş fikir axını əldə etmişdir, yəni öz simasını formalaşdıra bilmişdir. Rus tənqidçisi Belinski mətbuatla bağlı belə bir fikir söyləmişdi: «Hər şeydən öncə jurnalın öz qiyafəsi, xüsusiyyəti olmalıdır. Simasız olmaq onun üçün daha da pisdir. Qiyafə və xüsusiyyət jurnalın istiqamətindən, onun mülahizəsindən, onun nəzəriyyəsindən ibarət olur və onun bir orqan kimi mövcudluğunu təsdiqləyir.» (82) Əminliklə söyləmək olar ki, «Molla nəsrəddin» jurnalının bütün cizgiləri bu parametrlərin hər birinə uyğun gəlirdi.

«Azərbaycan məişətindəki gerilik, savadsızlıq, ailə münasibətlərindəki müxtəlif tipli qüsurlar, uşaq tərbiyəsinin naqis cəhətləri, ətalət və tənbəllik, oğurluq, dini təəssübkeşlik və s. bu kimi mənfi hallar da, «Molla Nəsrəddin»in əsas tənqid hədəflərindən idi. Bütün bu qüsurları jurnal qabaqcıl mədəniyyətə malik xalqların həyat tərzi ilə müqayisədə təsvir edir, ara-

dan qaldırmağa çalışırdı.» (93,35-36)

XX əsrin əvvəllərində, getdikcə artan ictimai proseslərin fonunda, cəmiyyətdə baş verən dəyişikliklər, mətbuatda gedən dinamik polemika ədəbi tənqidin Azərbaycan jurnalistikasında öz həqiqi yerini tutmasına təkan verirdi. Bu zaman kəsiyində baş verən əsas hadisələrdən ən başlıcası, Azərbaycan jurnalistikası tarixində yeniləşmə və köklü dəyişiklər idi.

Maarifçilər real həyatda baş verən proseslərin jurnalistlər tərəfindən mətbuat səhifələrinə çıxarılmasını sənətkarın cəmiyyət qarşısında borcu hesab edir və bunu yüksək qiymətləndirirdilər. Bu dəyişikliklərin nəticəsində, sözsüz ki, mətbuat yeniləşir, publisistlərin dünyagörüşü püxtələşir, yaradıcılığın demokratik meyilliyi baş verir. Yeni ideya, yeni fikirlər meydana gəlir ki, bu da, ədəbi-nəzəri məsələlərdən hesab olunurdu.

XIX əsrin sonu, XX əsrin əvvəlində Azərbaycanda maarifpərvər realist publisistlərin ədəbi-estetik görüşlərində bir ziyalı, millətin nümayəndəsi kimi xalqın qarşısında olan borclarını yerinə yetirmək, siyasi-ictimai mübarizədə öz mövqelərini nümayiş etdirmək əsas yer tuturdu. Həyatda baş verən zəruri məsələlərə bu nöqteyi-nəzərdən yanaşma realist maarifçi jurnalistikanın sonrakı tərəqqisinə əhəmiyyətli dərəcədə kömək edirdi. Maarifçilərin idrakı ondan ibarət idi ki, publisist-jurnalistlər yalnız özlərinin şəxsi düşüncələrinə bağlanıb onları mətbuat səhifələrinə çıxartmaqla kifayətlənməməlidirlər, əksinə, xalq-millət qarşısında duran vətəndaşlıq borcunu yerinə yetirməyə, vətənin dərdinə qalmağa, qayğısını çəkməyə və bu problemləri əsas meyarı hesab etməyə borcludurlar.

N. Nərimanov 1906-cı ildə «İrşad» qəzetində dərc etdirdiyi «Müsahibə» məqaləsində qələm yoldaşlarının XIX əsrin 90-cı illərdəki arzularından söhbət açaraq yazırdı: «Əcabə, bunlar (həmin dövrün qələm sahibləri:-V. P.) parələrinin çox az olmağını bilərkən vəqtlərini, pullarını əbəs yerə puç eləmələrinəmi təəccüb ediyorsunuz? Etməyiniz, əfəndim!... Adını igid qoyan, millət harayına çağıranda, canını qu tük döşək balışda bəsləməz! Beləmi, əfəndim? Beyləsə, təəccüb etmək! Qeyrətli ədib-

lərimiz aslan tələdən xilas olmağına çarə axtaran kimi kəndi əfkarlarını tövrbətövr vasitələrlə bildirmək istədilər. Ümidlərini istiqbala tutub aləmi-hürriyyəti gözləyirdilər.» (107)

Mətbuat orqanlarının və publisist-jurnalistlərin günbə-gün çoxalması ədəbi tənqidin inkişafına yaxşı nəticələr verirdi. Bir-birinin məqalələrinə tənqidi münasibət bəsləyən qələm sahibləri püxtələşir, yeniliklər axtarır, millətin problemlərini duyur, onları həll etmək yollarını arayır, vətən naminə canından keçməyə hazır olduqlarını nümayiş etdirirlər. Petrovski-Razumovski Kənd Təsərrüfatı və Meşəçilik Akademiyasında oxuyan bir qrup azərbaycanlı tələbənin Nəcəf bəy Vəzirovun rəhbərliyi altında «İmdadiyyə» təşkilatı təsis edib «çirkinliklərin kökünü kəsən çoxlu əllər hazırla»mağa təşəbbüs göstərmələri (35), Sultan Məcid Qənizadənin «institutu bitirərkən iyirmi bir yaşında olduğu» halda «öz millətinə qurban olacağını ürəyinin güncəsində bəsləməsi» (73), Nəriman Nərimanovun seminariyanı qurtardıqdan sonra «Kəşkül» redaksiyasına gəlib yoldaşları ilə bərabər «irəlidə vətən və əbnayi-vətənə xidmətlər edəcəklərini vəd» (34) vermələrini misal göstərmək juxarıda söylənənlərin aydın ifadəsi ola bilər.

Belə bir qənaətə gəlmək mümkündür ki, bunlar millətin ağır dərdlərinə çarələr axtarıb tapmaq, onları böhranlı vəziyyətdən qurtarmaq, bir sözlə, vətəndaşlıq borclarını yerinə yetirmək məqsədilə sənət meydanına gəlmişlər.

Həmin dövrün görkəmli tənqidçisi Firidun bəy Köçərli cəmiyyətdə baş verən proseslərə həssas münasibət bəsləməyi maarifçi yazıçı, publisist və jurnalistlərin əsas vəzifə borcu hesab edirdi. «Sənətkardan «müsəvvir və nəqqaş», «öz zəmanəsinin aynası», əsrin «əks-sədası» olmağı tələb edən tənqidçi haqlı olaraq belə düşünürdü ki, xalq həyatında baş verən müxtəlif xarakterli mürəkkəb hadisələrə vaxtında ayıq və fəal münasibət bəsləmədikcə» qələm sahibi «vətəndaşlıq borcunu yerinə yetirə bilməz.» (88)

1905-ci ildə Rusiyada baş verən inqilab başqa millətlər və xalqlar kimi Azərbaycanada öz müsbət təsirini göstərdi. İri neft

və sənaye mərkəzi sayılan Bakı mətbuatın inkişafına qüvvətli təkan verdi. İctimai-siyasi və inqilabi hadisələrin müxtəlif qütblərində dayanan hər bir sinfin məfkurəsinə uyğun olaraq mətbuat nümunələri yarandı. Ayrı-ayrı məsləklərə xidmət edən qəzet və yurnalların yaranması, Azərbaycanın sonrakı dövrü üçün mürəkkəb, həm də, zidiyyətli bir zamanın təkzib olunmaz və əvəzsiz salnaməsini yaratmış oldu.

Firidun bəy Köçərli, Sultan Məcid Qənizadə, Seyid Hüseyn və başqalarının «ictimai-siyasi quruluş haqqında fikirləri köhnə cəmiyyətin yaramazlıqlarını tənqidlə, bu cəmiyyətin törətdiyi rəzalət və üfunəti, ictimai bərabərsizliyi, milli zülmü göstərən səhnələrlə bir yerdə, bir-birindən ayrılmaz şəkildə verirdilər.»(88)

Zaman tələb edirdi ki, qələm sahibi olan hər bir sənətkar diyarba-diyar gəzməli, cəmiyyətin qarşısında duran problemləri görməli, bunu günün tələbləri səviyyəsinə qalxızmalı və həlli yollarını göstərməlidir. Xəstəliyə düçar olmuş həyat bu bəladan mütləq azad olmalıdır. «Tərəqqi» qəzetinin 1 dekabr 1908-cı ildə nəşr olunan 115-ci sayında dərc etdirdiyi «Məişətimizə dair» məqaləsində Firidun bəy Köçərli yazırdı: «Necə ki, təbib naxoşun naxoşluğunu bilməmiş buna müalicə etməz, habelə də bizim intelligensiyamız... millətimizə qarışmamış, onunla müşavirət və müamilət etməmiş, onun nəfəs aldığı hava ilə tənəffüs etməmiş, onun şadlığına və qəminə şərik olmamış, onun cəhalət mərizlərini öz yerində bilafasilə təhqiq və təcziyə etməmiş və üsuli-tədavisinə lazım olan dərmanları istemal qılmamış millətə həqiqi kömək edə bilməzlər.» (52,170)

Elm və maarif kəsb edənlərin əksəriyyətinin arzusu şəhərə qaçmaq, orda bir qulluqda çalışmaq, şən və firavan yaşamaq və hərdən birdə təqlid və həcv yazmaqla həyatlarını yola verməkdən ibarət olmuşdur. Əslində heç biri öz şəxsi mənfəətlərini xalqın xeyrinə qurban vermək və yaxud xərcləmək istəməmişlər. Qaranlıqda qalanlarımız isə bir-birini əzə-əzə, tapdaya-tapdaya, kor-korana zülm və əziyyət içində həyatlarını yola vermişlər. S. M. Qənizadənin qarabağlı şair M. Ə. Növrəslə bu istiqamətdə apardığı söhbət faydalı və maraqlı ölmuşdur.

Təqlidçi və həcvgu şair M. Ə. Növrəsli XIX əsrin 70-ci illərində Azərbaycanda ədəbi tənqidin ilk cücərtiləri görünməyə başladığı bir vaxtda, məzmunsuz, lazımsız, heç bir mənası olmayan şeirlər yazdığına görə dramaturq-publisist N. Vəzirov tərəfindən «Əkinçi» qəzetində kəskin şəkildə tənqid olunmuşdur. Lakin bu tənqiddən bir nəticə çıxarmayan M. Ə. Növrəsli tutduğu yolu davam etdirmişdir. Təxminən iyirmi ildən sonra Bakıda, yuxarıda qeyd etdiyimiz kimi, onun S. M. Qənizadə ilə görüşməsi ədəbiyyat aləminə gəlməsini sürətləndirmişdir. Nəticədə, Növrəsin 1900-cu ildə «Pəndi-ətfal» kitabı nəşr olunmuşdur. Yazıçı ilə söhbətdən razı qalan Növrəs «Pəndi-ətfal» kitabının müqəddinəsində yazırdı:

«Ol zaman bir cavani-xoştinət.
Xahişi-qəlbi rövnəqi-millət.
Adı Sultan, «Məcid»dir, ləqəbi,
Qənizadə, o xeyirlər səbəbi.
Dedi: - «Ey növrəsi-səfadidə,
Bəzmi-eyşi sən etmisən çidə...
Tapmısan nəzmü nəsrdə şöhrət,
Heyifsən, tazəhalə qıl rəğbət,
Bəsdir, elə təriqi-pəndi übur.» (111)

Tənqidçi kimi zəmanəsinin qələm sahibləri arasında böyük nüfuza malik olan Firidun bəy Köçərlinin gördüyü işlər böyük və diqqətə layiqdir. O, 1884-1920-ci illər arasında bir çox ədiblərə 900-ə yaxın məktub yazmış, onları doğru-düzgün yola dəvət etmişdir. Bunların içərisində onun M. Ə. Sabir və A. Səhhətə, eləcə də şair-tərcüməçi H. Qaradağiyə verdiyi məsləhətlər adamın qəlbini rövnəqləndirir. Abbas Səhhət Köçərlinin bir tənqidçi, yaxın məsləkdaş, xeyirxah dost kimi xidmətlərini yüksək qiymətləndirərək yazırdı:

«Yazmısan tazə nə şeylər? Deyə sordun məndən,
Ruhumun tarına mizrab sən oldun, qardaş,
Sabir ilə belə məktub çox aldıq səndən,
Hər nə yazdıqsa, ona bani sən oldun, qardaş.

Bir zaman Nasehu Tərrah ilə Sabir, bəndə,
Yaşayırdıq hamımız qəflət ilə fəxrəndə,
Birimiz mərsiyəqulluqda böyük şair idik,
Birimiz sağərə mayil, birimiz canəndə.

Birimiz həcvdə Yəğma kimi çox mahirdir,
Laübali keçirdi günümüz rindanə,
Pərişan yuxudan sən bizi bidar etdin,
Doğru, düz yolda çalışmaqlığa vadar etdin.» (93)

«Real tənqid, həqiqi həyatda baş verən hadisələrə necə münasibət göstərirsə, rəssamın əsərinə də, bunlar həmin cür təsir edir: o çalışır ki, onları öyrənsin, onların şəxsi normalarını müəyyən etsin, onların xüsusiyyələrində olan cizgiləri, çalarları ... toplasın.» (26,46)

XX əsr Azərbaycan mətbuatında Cəlil Məmmədquluzadənin mənalı, bədii, ictimai təkamülə əsaslanan, həqiqətə istiqamətlənən qələmi ictimai-siyasi, fəlsəfi fikrin zənginləşməsində xüsusi dəyərə malik xəzinələrdən biri kimi qəbul olunur. Çünki ədibin açıq-aydın formada izhar olunan tənqidi düşüncələri həyatda cərəyan edən real hadisələrə, obrazlara, ən vacibi isə, həqiqətə söykənir. Onun və qələm yoldaşlarının yaratdığı «Molla Nəsrəddin» ədəbi məktəbi isə, bütünlükdə, Azərbaycan mətbuatında yeni dövr ədəbi tənqidinin təməl daşı sayılır.

«Mirzə Cəlilin realizmi bir tərəfdən həyatdan qidalanır, materialını Azərbaycan xalqının müasir məişətindən alırdı, ikinci tərəfdən M. F. Axundzadə yolu ilə gedərək, rus realizminin (İ. A. Krılov, N. V. Qoqol, L. N. Tolstoy, A. P. Çexov, M. Y. Saltıkov-Şedrin) zəngin təcrübəsindən istifadə edir, yeni şəraitdə tənqidi realizmi inkişaf etdirirdi.» (93,105)

Cəlil Məmmədquluzadə mövzularını tarixi həyatdan yox, bugünkü real həyatdan, xalqın, millətin məişətindən götürürdü. Daha doğru söyləmiş olsaq, bu hadisələrin özü ədibi yazmağa və həyacanlanmağa «ürəyinin dərdini» deməyə sövq edirdi. Ədib gördüklərinə münasibətini açıqlayaraq yazırdı: «Tiflisin Şeytanbazarında rast gəldiyim islam aləmi hər gün və hər

saat məni yazmağa vadar edirdi. Material o qədər idi ki, şairlər deyən kimi:

> Yaza-yaza dərdimi aləmdə kağız qoymadım,
> Axırı bir guşeyi-divara yazdım dərdimi.

deyən qələm sahibi fikrini belə yekunlaşdırır: «Axırda mən də bir hekayə yazdım.» (93,105)

Çox vaxtı biz, XX əsrin sanballı qələm sahiblərinə tənqidi realist deyirik. Əslində, doğru olan bu fikrin ətraflı və həqiqi araşdırmaya ehtiyacı var. M. F. Axundzadədən tutmuş müasir dövrümüzə qədər olan bütün publisistlər ictimaiyyətin bütün əskiklərini ifşa və tənqid etmişdir. Onlar qələmlərini qamçıya çevirərək köhnə zamanın qalıqlarını, köhnə strukturu, istismarı, neqativ tendensiyaları daima döyəcləmişdir. Ancaq bu tənqidlərin hamısı eyni çalarda olmadığına görə cəmiyyət tərəfindən müxtəlif cür qarşılanırdı. Bunların içərisində elələri var idi ki, onların tənqidi moizə, nəsihət, mücərrəd çağırış ruhunda deyil, ən çox tələb olunan şüar və qəti hökmlər formasında, olduqca konkret, müasir və başa düşülən formada səslənır. Xalqın arzu və istəyini ifadə edən, açıq və aydın yazılan tənqidi məqalələr oxucu auditoriyası tərəfindən məqbul qarşılanırdı.

Tənqidi realizm deyirik! Əlbəttə qələm sahibləri daima tənqid qələminin ucunu itiləməli və onu iti saxlamalıdır. Çünki onların qarşısında qarlı zirvələr kimi çətin və keçilməz olan, dayanan, sabaha, tərəqqiyə, demokratiyaya, müstəqilliyə mane olan çoxlu mənfi sipərlər mövcuddur ki, bunları da yalnız tənqidin gücü ilə dəf etmək mümkündür. Bu hədəfi kifayət qədər güç və istedad sərf edərək döymədən, sarsıtmadan, yıxmadan irəliyə bir addım da getmək olmaz. M. F. Axundzadə demişkən: «İstismarın atasına od vurmaq lazımdır!» (192)

XX əsrin başlanığıcında günbə-gün püxtələşən, inamla zirvəyə doğru irəliləyən tənqidi realizmi Mirzə Cəlilin yaxın dostu, həmkarı, molla nəsrəddinçilərin sevimlisi, yeni satirik şeirin banisi Mirzə Ələkbər Sabir olmadan düşünmək qeyri mümkün idi. Mirzə Ələkbərin tənqidi ictimai aləmin zülmətli göylərinə

işıq saçdı, şimşək kimi çaxaraq parlaq bir nur gətirdi. Onun tənqidi satirasında gələcəyə ümid, inam əsas yer tuturdu. Ədibin «Durma, götür qaç başını, Mir Haşım» satirik şeiri bu kontekstdə çox əhəmiyyətli və maraqlıdır. M. Ə. Sabir yazırdı:

«Sən o deyildinmi edəndə qiyam,
Səcdə edərdi sənə yeksər əvam?
İndi olar da ayılıb bittəmam,
Qılmadı heç yerdə sənə ehtiram.
Atdı camaat daşını, Mir Haşım!..
Durma, götür qaç başını, Mir Haşım!
Yardımı Səttar başını, Mir Haşım?»

«Tənqidi gülüş o zaman müvəffəqiyyətlə səslənir ki, gülən adam mənəvi cəhətdən yüksəkdə dursun, gülüş hədəfi isə mənəvi cəhətdən alçaq adamlar olsunlar. Sabirin öz hədəfinə münasibəti məhz belə idi.» (93,133)

M. Ə. Sabir haqqında fikrini bildirən tənqidçi publisist Firidun bəy Köçərli yazırdı: «Sabir əsrimizin ən müqtədir və xoştəb şairlərindən birisidir. Onun sabiqdə bəzi müstəar adlar ilə imzalanmış abdar, xoşməzmun və mövzun kəlamları «Molla Nəsrəddin»in səhifələrində dərc olunub, oxucuları bir yandan güldürüb bir yandan ağladırdı. Onun yazdığı şeirlərin çoxu açıq və sadə ana dilində olub, məişətimizin eynini göstərdiyinə görə əzbər öyrənilirdi ...» (52,19) M. Ə. Sabir və A. Səhhətlə mütəmadi əlaqə saxlayan F. Köçərli bir tənqidçi kimi fikir və iradlarını bildirməklə yanaşı, həm də hər iki şairə öz tövsiyyə və məslətətlərini əsirgəməmişdir.

Başqa ədiblər kimi yazıçı-publisist N. Nərimanov da, F Köçərli tənqidindən yan keçmədi. Yazıçının «Nadanlıq» pyesini ədəbi tənqidin süzgəcindən keçirən Firidun bəy gənc müəllifin «qara rənglər»dən daha çox istifadə etdiyini vurğulayır, onu «həyatı daha dərindən öyrənməyə və hərtərəfli göstərməyə» çağırırdı.

Bu tənqid «Nadanlıq» pyesinin müəllifinə bədii yaradıcılığında səmərə verdi. Beləki, 1916-cı ildə, Nəriman Nərimanov

dərc etdirdiyi «Hifz-səhhət» məqaləsində yazırdı: «Düz iyirmi il bundan müqəddəm mən «Nadanlığı» yazıb meydana buraxdım. Məşhur mühərrilərimizdən biri, rəfiqimiz Firidun bəy Köçərli «Nadanlığı rus dilində tənqid etdi, yaramaz bir şey hesab edib yazanını, yəni məni lazımınca çubuqladı. Oxuyan deyirdi, «Nadanlığı» yazan daha əlinə qələm gərək götürməsin. Fəqət onun çubuqlamağı «Nadir şah»ın meydana gəlməsinə səbəb oldu.» (125,35)

M. F. Axundzadə sənətin həyata, varlığa münasibəti haqqında danışərkən materialist idrak nəzəriyyəsinə əsaslanaraq, insanı, onun daxili aləmini sənətin əsas təsvir obyekti hesab edirdi. Məhz Firidun bəy Köçəli həyatla sənət məsələsinə bu nöqteyi-nəzərdən yanamış, öz nəzəri görüşlərini müasir ədəbi hadisələrlə əlaqələndirirmişdir. Tənqidçinin Axundzadə məktəbinə mənsub olan Yusif Vəzir Çəmənzəminli yaradıcılığını təhlil etməsi və onun haqqında dəyərli fikirlər söyləməsi bu baxımdan əhəmiyyətlidir. Yusif Vəzirin «Yeddi hekayə» kitabını (Bu kitaba ədibin «Cənnətin qəbzi», «Həyat səhifələri» və başqa hekayələri daxildir:-*V. P.)* oxuyan tənqidçi fikirlərini ifadə edərək yazırdı: «Yazdığınız hekayələr artıq dərəcədə xoşuma gəldi. Sizin hekayələrin yaxşılığı və xoşagəlimliyi ondadır ki, onlar məişətdən götürülübdür və ədibanə təhrir olunurlar ... Sizin gələcəkdə müqtədir bir yazıçı olacağınıza şübhə yoxdur. İndilikdə bu gözəl hekayələr ilə sizi təbrik edirəm ki, vaxtınız olduqca bu qisim əsərlər vücuda gətirməklə ədəbiyyatımıza rövnəq verəsiniz.» (125,234)

İki il sonra, 1914-cü ildə Y. V. Çəmənzəminlinin «Həyat səifələri» kitabçasındakı hekayələri oxuyan F. Köçərli eyni estetik prinsip əsasında onları qiymətləndirərkən yazırdı: «Bəzi hekayələr çox gözəl yazılıbdır. Məişətimizin hali və övzam ədibanə təsvir olunubdur. Bizim yazıçılarımızın böyük qüsuru ondadır ki, dolanacağımızla, adət və əxlaqımızla aşina deyillər. Hər nə hüsula gətirilirsə, cəmisini xəyalət aləmində törədirlər və çox nahəmvar və uyğunsuz da törədirlər. Hər nə ki, var, onu yazmaq istəmirlər ... Hər nə ki, var, ola bilər və ya da gərək

olsun, onu yazmaq istəyirlər. Bu da onların qüvvələrindən və biliklərindən bilaxaricdir. Beləki, özlərini gülünc və yazıq, gülməli bir hala salırlar.» (125,234)

Üslub məsələlərinə son dərəcə tələbkar münasibət bəsləyən Firidun bəy Köçərli 12 fevral 1914-cü ildə Yusif Vəzir Çəmənzəminliyə göndərdiyi məktubunda yazırdı: «Keçmişdə də sizə yazmışdım ki, sizin diliniz açıq və sadədir. Amma onda azacıq bir rəkakət görünür. Onu islah etmək lazımdır. İndi demək olar ki, o rəkakət görünmür, vəli bəzi məqamlarda osmanlı türklərinin şiveyi-lisanı müşahidə olunur. Bu hala səbəb yəqin ki, osmanlı türklərinin istilahında yazılan kitabların və hətta ruznamələrin mütaliəsidir. Və bir də mənayi ifadə etmək üçün lazım olan istilah və sözlərin kamyablığıdır.» (56)

Azərbaycan mətbuatında ədəbi tənqidin nümayəndələrindən biri də Əli Nəzmidir. O, Mirzə Cəlil və Mirzə Ələkbər ədəbi çeşməsindən su içmiş və «Molla Nəsrəddin» ədəbi məktəbinin qayə və məqsədinə uyğun olaraq köhnəliyi tənqid, yeniliyi isə yorulmadan təbliğ edirdi. M. F. Axundzadə və M. Ə. Sabir ifşa üsulunu davam etdirən Əli Nəzmi çox zaman surət və tipləri öz «etirafnamə»si yolu ilə tənqid etmişdir. Müəllifin tənqidi əsasında yazılan nəzm və nəsr əsərləri dövrünün sanballı mətbuat orqanları sayılan «Molla Nəsrəddin», «Şərqi-Rus», «Məzəli», «Tərəqqi», «Zənbur» və başqalarında mütəmadi olaraq dərc olunurdu. Şairin qələm və məslək dostu Cəlil Məmmədquluzadə onun haqqında deyirdi: «Sabirin vəfatından sonra ikinci sabirimiz birincinin yerini boş qoymadı. Məşədi Sijimqulu-Kefsizsin zövq və səfalı, məzə və duzlu şeirinin heç bir vaxt dalı kəsilmədi. O, özü cicman qocaldısa da, onun kəlamının lətafəti bir zərrə qədər əskilmədi.» (93,205)

Bəzən də, elə olur ki, ədəbi tənqidi düzgün başa düşmürlər və yaxud onu yanlış istiqamətə sürükləmək istəyirlər. Bu demokratiyanı anarxiya ilə səhv salanların aqibətinə daha çox oxşayır. 1913-cü ildə Firidun bəy Köçərlinin «Molla Nəsrəddin» jurnalında dərc etdirdiyi «Ana dili» məqaləsi həmin zaman kəsiyində, bu məsələyə mətbut orqanlarının, həmçinin bir çox

jurnalistlərin düzgün yanaşmadığını üzə çıxardı. Türk mühərriri Səbribəyzadə Xalid Xürrəm və «Şəlalə» qəzeti belələrindən idi. Hətta Əli Səttar «İqbal» qəzetində «Təəssüf» məqaləsi ilə çıxış edərək «Molla Nəsrəddin»çiləri, o cümlədən Köçərlini ittiham etmiş, onlara etika «dərsi» vermək fikrində olmuşdur.

Tənqidin neqativ məqsəd üçün istifadə olunmasını, biz, «Təzə həyat» qəzetinin redaktoru cənab Haşımbəy Vəzirovun, «Bakinski den» qəzetində «İrşad» qəzetini, onun əməkdaşlarının, o cümlədən Üzeyir Hacıbəylini gözdən salmaq, ləkələmək məqsədilə onların ünvanına söylənilən qərəzli ittihamlarda görə bilirik. Düzdür, sonradan Haşımbəy Vəzirov öz «Tövbənaməsində» etdiyi səhvə görə üzür istəmişdi, ancaq cənab Üzeyir Hacıbəyli onun hədyan və yalanla dolu qərəzli məqaləsini cavabsız qoymamışdır.

M. F. Axunzadə ilə başlayan ədəbi tənqid, Həsən bəy Zərdabinin «Əkinçi» qəzeti vasitəsilə Azərbaycan mətbuatına qədəm qoyaraq «Molla Həsrəddin» ədəbi məktəbi ilə püxtələşmiş, Firidun bəy Köçərli düşüncə və qələminin sayəsində layiq olduğu yüksəkliyə çatmış, sonrakı tənqidçilərin köməyi nəticəsində inkişaf etmişdir. XIX əsrin sonu XX əsrin əvvəlində «Molla Nəsrəddin» və «Füyuzat» ədəbi məktəbləri ətrafında əlaqələndirici funksiyasını yerinə yetirən bütün mətbuat orqanları, jurnalistikada ədəbi bir dövrün danılmaz və qiymətli mərhələsinin məhsulu hesab olunur. Bu zaman kəsiyi Azərbaycan jurnalistikasında yaranan və mövcud olan ədəbi tənqidin bütün məziyyətlərini özündə toplaya, həmçinin masa üzərinə qoya bilmişdir. «Əkinçi»dən tutmuş «Övraqi-nəfisə»yə qədər olan keşməkeşli bu dövr Azərbaycan jurnalistikasının canlı salnaməsi sayıla bilər. Təəssüf hissi ilə qeyd etmək olar ki, 1920-ci ildə, müstəqil Azərbaycan dövlətinin Rusiya tərəfindən ilhaq olunmasından sonra bir partiyalı avtoritar pejimin mövcud olması nəticəsində ölkəmizdə jurnalistika, o cümlədən ədəbi tənqid yetmiş bir il «yetimlik, ayrılıq, həbsxana» həyatı yaşammalı oldu.

ÜÇÜNCÜ FƏSİL

JURNALİSTİKANIN ELEMENTLƏRİ

Jurnalistika cəmiyyətin özündən kənarda mövcud deyil, yəni cəmiyyətlə bərabər tərəqqi edir və yaxud onunla bərabər ləngiyir, birsözlə paralellik təşkil edir. Zaman geçdikcə biz və bizim cəmiyyətimiz azadlığın və azad sözün nə olduğunu anladıqca başa düşəcəyik ki, nə üçün insanlar əsrlər boyu mübarizə aparmış, azad söz sahibi olmağa can atmışlar. Belə bir anoloji müqayisə aparmış olsaq görərik ki, antik dövrlə bu gün arasında nə qədər böyük və müqayisəyə gəlməyəcək fərq var. Məsələn, b. e. əvvəl IV əsrdə Makedoniya çarı Filippi kəskin tənqid atəşinə tutan Demasfenlə, söz azadlığını və demokratiyanı anarxiya ilə qarışıq salanlar arasında olduğu kimi. Demokratiya ilə jurnalistika arasında olan isti əlaqədən yetərincə bəhrələnərək, şəxsi və ictimai həyat üçün böyük yenilik, uğur və çiçəklənmə gətirmək olar. Lakin bu yol olduqca uzun və həm də çox məsuliyyətlidir. Elə, antik dövrdən bu günə kimi olan zaman qədər. Əgər biz həqiqi jurnalistikanın barını dadmaq istəyiriksə haqqın və ədalətin tərəfində olmalıyıq. Bunun üçün jurnalistikanın nə olduğunu bilmək, onu lazımınca dəyərləndirmək və peşəkar olmaq gərəkdir.

Apardığımız araşdırmadan bəlli olur ki, publisistika və jurnalistika sözləri eyni mənanı daşimaqla, həm də, elmi-ədəbi janr olaraq ədəbi həyatın tərkib hissəsini təşkil edir. Amma bu gün böyük inamla deyə bilərik ki, jurnalistika ədəbiyyatla nə qədər yaxın olsa da, artıq müstəqil bir elm kimi fəaliyyət göstərir və dünya ictimaiyyəti tərəfindən müsbət qəbul olunur.

Mətbuatda: publisistika və jurnalistikada hər hansı bir mövzu, məqalə və əsərin əsasını fakt təşkil edir. Fakta söykənməyən hər hansı əsər və yaxud məqalə janrından asılı olma-

yaraq uğursuzluğa düçar olur. Fakt artıq baş vermiş hadisə və prosesdir. Ona görə də, fakt informasiyanın əsas süjet xəttini yaradaraq qalanlarını özünün ətrafında cəmləyir. Fakt özündə bu xüsusiyyətləri əks etdirməlidir: doğruluq, etibarlılıq, yenilik, ictimai əhəmiyyətlilik və s. Fakt bayağı, köhnəlmiş, mənasız, şit, ədəbsiz və sair neqativ tendensiyalardan uzaq olmalı, ədəbilik səpməlidir.

Məqalə və yaxud əsər faktlardan tərtib olunur. Bütün bunlar özünü jurnalistikanın sənətkqrlıq və fərdiçilik xüsusiyyətlərində tapır.

Jurnalistikada üç pilləli informasiya, dərketmə stereotipi mövcuddur:

-Birinci pillə-informasiya beyinə, şüura xüsusi formada daxil olmur, yalnız qısa müddət ərzində resipiyentin təxəyyülünə toxunur;

-İkinci pillə-informasiya şüura, şüuraltı toxumalara yüngülcə toxunur, yalnız resipiyentin diqqətini cəlb edir;

-Üçüncü pillə-informasiya ağla və ağılaltına təcəssüm edir, resipiyenti fəal yaradıcılığa çağırır, həqiqi fəaliyyət başa çatır, dəyişən zahiri görnüş real pozitiv forma alır.

Jurnalistikanın xüsusiyyətlərindən və fərdiliyindən danışərkən öncə onun janr əlvanlığına diqqəti cəlb etmək lazım gəlir. Çünki jurnalistin publisistik sənətkarlığı bir fərd kimi bu məqamda daha bariz şəkildə ifadə olunur. İnformasiya janrı özünün xüsusi üsuluna, həmçinin real faktın real zaman kontekstində «teleqraf» ilə qəbulu və ötürülməsinə görə fərqlənir.

Jurnalistika peşəkar fəaliyyət (Peşə latın sözü olan «professio»dan əmələ gəlmiş, rəsmən ixtisas, məşğuliyyət mənasını verir. Bu sös əməyin bölüşdürüldüyü, əmək fəaliyyətinin yarandığı şəraitdə meydana gəlmişdir.) tələb edən sahələrdəndir. «Bu bilik, bacarıq, qabiliyyət, ümumi və xüsusi kompleks, istedad tələb edən bir sahədir.» (73) «Jurnalist peşəsində hər bir ixtisas və ixtisaslaşma bir-birindən seçilir. Kütləvi İnformasiya Vasitələrinin fəaliyyətində ixtisas və ixtisaslaşma günbə-gün

artır, çoxalır. Bununla belə «reportyor məsul katibdən, xüsusi müxbir kommentatordan, məktublar şöbəsinin müdiri rejissordan və s. yalnız spesifik baxımdan fərqlənmir», peşəkarlıq nöqteyi-nəzərindən onlar eyni işi ərsəyə gətirirlər. Onların birgə əməyi, «strukturu» hər bir peşəkar jurnalistin şəxsidir, özüdür.» (183) Odur ki, jurnalist hər şeydən əvvəl kamil və incə bədii zövqə malik insan olmalıdır.

Ədəbiyyatda baş verən proseslər publisistika və jurnalistikada, publisistika və jurnalistikada baş verən proseslər ədəbiyyatda təşəkkül tapır. Bunları bir-birindən ayrı düşünmək mümkün deyil, çünki mətbuat bunların vəhdəti nəticəsində işıq üzü görür.

Jurnalistin, publisistin sənətkarlığı bu məqamda üzə çıxır və daha barız şəkildə ifadə olunur. Fikirlərin şüurlara asanlıqla çatmasını təmin etmək üçün, jurnalist məqalələrinin bədii-estetik gücünü artırmalı, emosional-ekspressiv vasitələrdən istifadəyə böyük miqyasda əhəmiyyət verməlidir. Sənətkarlıq xüsusiyyətlərindən söhbət düşmüşkən onu vurğulamaq lazımdır ki, forma və məzmunun vəhdəti, birinin digərini tamamlaması vacıb şərtlərdən hesab olunur.

Jurnalist seçdiyi və yaxud müraciət etdiyi mövzuya uyğun olaraq elə bir forma və ifadə tərzi, janr seçməlidir ki, istədiyini, həmçinin onun mahiyyətini dəqiq surətdə ifadə edə bilsin. Məqalənin quruluşu, kompazisiyası, üslubu və s. aparıcı əhəmiyyətə malik olsun. Hər bir əsərin oxucular tərəfindən mənimsənilməsi, dərk olunması, şüurlara təsir göstərməsi onun quruluşundan, ayrı-ayrı hissələrin düzülüşündən, uslub və dilindən asılıdır. Kompazisiya bir qayda olaraq dörd əsas elementdən-sərlövhə, başlanğıc, mətnin hissələri və sonluqdan ibarət olur.

Ümumiyyətlə, kağız (qəzet və jurnal) jurnalistikasını üş əsas qrupa bölmək olar:

1.İnformasiya janrları-xronikal informasiya, geniş informasiya, informasiya, qeyd, press-reliz, replika, informa-

siya korrespondensiyası, reportaj, informasiya müsahibəsi, sual-cavab, kommentariya, hesabat, sorğu, məsləhət, və s.;

2.Analitik janrlar-analitik hesabat, analitik korrespondensiya, analitik müsahibə, söhbət, dəyirmi masa, anket, monitorinq, reytinq, rəy, jurnalist təhqiqatı, proqnoz, icmal, eksperiment, variant, məktub (epistolyar janr), açıq etiraf, tövsiyə və s.;

3.Bədii-publisistik janrlar-oçerk, esse, felyeton, pamflet, parodiya, satirik kommentariya, həyat-məişət xəbərləri, əfsanə, epitafiya, epiqraf, lətifə, zarafat, oyun və s.

MƏZMUN VƏ FORMA

Jurnalistika elə bir sahədir ki, onu cəmiyyətdən kənar və yaxud ictimai həyatı ondan kənar başa düşmək qeyri mümkündür. Hər kəsin gündəlik həyatı jurnalistika ilə başlanır və jurnalistika ilə də yekunlaşır. Jurnalistika həyatda olan və yaxud baş verən proseslərin, əşya və cisimlərin, fakt və dəlillərin, bir sözlə bizi əhatə edən aləmdəki bütün varlıqların özüdür. Həyatda mövcud olan hər bir hadisə, əhvalat, predmet və sairənin konkret forması və məzmunu var. Deməli, jurnalistika forma və məzmun olmadan yaşaya bilməz. «Məzmun və forma kateqoriyalarının-insan idrakının pillələrinin-dialektikasının daxili əlaqə və vəhdətini, anların ziddiyyət və əksikliyini obyektiv aləm şərtləndirir. Məzmun fakt, cisim və əhvalatların daxili prosesini, onların mövcudluğunun əsasını təşkil edən vacib cəhətləri ifadə edir. Forma isə faktın görkəmini, tərtibini və təşkilini-strukturunu göstərir.» (37,125)

Yuxarıda qeyd etdik ki, jurnalistika reallığı, həyatda baş verə bilən hadisələri, həqiqiliyi, ümumiyyətlə, varlığı əks etdirən peşə, sənət, elm sahəsidir. Keçmişdə Kant, Hegel və bir çox başqa filosoflar peşənin, jurnalistikanın ictimai idrak əhəmiyyətini inkar edən və yaxud azaldan nəzəriyyələr irəli sürmüşdülər. Ancaq XIX əsrin ortalarında Belinski, Dobrolyubov, Çernışevski kimi rus tənqidçiləri bu cür nəzəriyyələrin qəti

əleyhinə çıxmış və ardıcıl mübarizə aparmışlar.

Əgər jurnalistika ictimai həyatdan bəhrələnirsə, cəmiyyətlə birlikdə yaşayırsa və onda baş verən proseslərdən nəfəs alırsa, deməli o həyatdan doğur, o cümlədən varlığı əks etdirir. Beliniskinin estetik fikirlərinə əsaslanaraq demək olar ki, jurnalistika nəinki ictimaiyyətin məhsuludur, həm də cəmiyyətin kəskin mübarizə silahıdır. (82)

Bütün zamanlarda olduğy kimi, bu gün də, məzmun və formanın aktuallığı ön sırada dayanır. Bunların bir-birini tamamlamaması anlaşılmaz və mücərrəd publisistik məqalələrin meydana gəlməsinə səbəb ola bilər. Bu günkü informasiya bolluğunda hər hansı bir hadisə haqqında müxtəlif mətbuat orqanı və jurnalist məqalə hazırlayaraq öz məhsulunu oxucu auditoriyasına ötürə bilər. Sözsüz ki, bunların hamısının məzmunu və forması eyni cür olmayacaqdır. Burda onları yalnız fakt, dəlil və sübutlar birləşdirir. Məhz bu məqamda, məzmununa uyğun forma və yaxud formaya uyğun məzmun seçən müəllif uğur qazanacaq. Çünki məzmun və forma kateqoriyasını bir-birindən təcrid etmək mümkün deyil. Bunlar ayrılıqda, təkbaşına yaşaya bilmir, məzmun həmişə formaya, forma isə məzmuna keçir, vəhdətdə olurlar.

Jurnalist öz fikrini, yazacağı mövzunun məzmununu ifadə etmək üçün münasib forma seçir. Formasız publisistik məqalə bünövrəsiz binaya, strukturu olmayan təşkilata oxşayır. Məhz elə buna görə də, formasız məqalənin varlığı, kerçəkliyin duyulması və hiss olunması mümkün deyil. Məlum olduğu kimi forma nəzəri vasitələrin köməyi ilə yaranır, məzmun isə ideyanın açılmasına xidmət edir. «Məzmun kimi forma özü də mürəkkəbdir. Əsərin dili, kompazisiyası, süjet xətti, üslubu və s. onun formasıdır. Müxtəlif priyomlar, müxtəlif təsvir üsulları vardır ki, məzmunu inkişaf etdirmək, onu maraqlı, cəlbedici quruluşa salmaq üçün vasitə rolunu oynayır. Buna görə də formanı publisistik məqalənin daxili bütövlüyü, kamilliyi mənasında başa düşmək lazımdır. Bu da nəzərdə tutulmalıdır ki, formanın ünsürləri olan dil, kompazisiya, süjet xətti, üslub və s. özü də

mürəkkəb hissələrdən və elementlərdən ibarətdir. Forma kamilliyindən danışarkən bütün bunları sintez halında götürmək lazımdır.» (94,62)

Publisistik məqalədə məzmun yalnız formaya düşdükdən sonra təzahür edir. Burda forma bir növ çərçivə, qəlib funksiyasını yerinə yetirmiş olur. Məhz buna görə də məqalənin ideyası mövzu və məzmunla bağlı olduğu kimi, həm də forma ilə rabitədə olur. Formadan söhbət açarkən onun fəal rolunu, öz spesifik xüsusiyyətlərini unutmaq olmaz. Məlum məsələdir ki, hər bir janr öz-özlüyündə bir formadır. Amma bununla bahəm hər bir formanın da öz daxili spesifik xüsusiyyətləri, qanunları mövcuddur. Jurnalist hər hansı bir janrdan və yaxud formadan istifadə etməklə publisist əsər yaradırsa o, mütləq həmin janr və yaxud formanın daxili qanunlarını, spesifik xüsusiyyətlərini nəzərə almalıdır. Oçerk, felyeton, pamflet, parodiya, satirik kommenyariya-bədii publisistika, analitik hesabat, analitik müsahibə, analitik sorğu, analitik korrespondensiya-analitik publisistika, qeyd, informasiya korrespondensiyası, informasiyalı hesabat, informasiyalı müsahibə, bilits-sorğu-informasiya publisistikasına aid edilsələr də, həcm etibarı ilə bir-birindən ciddi şəkildə fərqlənirlər. Lakin bunların heç birinin ölçülmüş qəti həddi yoxdur. Ancaq bununla belə onları bir-birinin çərçivəsinə yerləşdirmək olmaz və bu tamamilə mümkün deyil. Əks təqdirdə onların hər birinin daxili strukturu iflasa uğrayar və sarsılar.

Bu nöqteyi-nəzərdən çıxış edən mütəxəssislər mövzunu öz xəyal infiltrasiyasından keçirdiyi zaman hadisələri müəyyən bir formaya salmaq istərkən, əvvəlcə onun hansı janrın və yaxud formanın çərçivəsinə sığa biləcəyini müəyyən edir, hadisələrin və xarakterin inkişafında təfərrüata enərkən buna da həmin janrın və yaxud formanın imkanları prizmasından yanaşırlar.

Jurnalistikada mövcud olan bədii publisistika, analitik publisistika və informasiya publisistikası bölmələrinə daxil olan janrlar olduqca rəngarəng, müxtəlif təsir qüvvəsinə və hərəkət trayektoriyasına malikdir. Necə ki, həyatda mövcud olan insan-

lar, canlılar, cansızlar və sair kimi. Janrları sadəcə olaraq forma, struktur kimi də, qəbul edə bilərik. Hamıya yaxşı bəllidir ki, məzmun ilkindir, mütəhərrikdir, aparıcıdır, daima müasirləşir, yeniləşir, mütərəqqi fikirlərlə zənginləşir, tez dəyişir və tərəqqi edir. Forma isə məzmuna nisbətən sabitdir, uzun ömürlüdür, məzmundan asılıdır, beynəlmilərdir, mübarizdir, müqavimət göstərmək qabiliyyətinə malikdir. Müqavimət nəticəsində isə çox zaman məzmunla forma arasında uyğunsuzluq, qarşıdurma yaranır. «Forma yeniliyi, məzmunun müasirlik ruhunu tamamlaya, onun sosial mündərəcəsini aydın ifadə edə bilmir. Formanın geniş imkanlı olması məzmunun hərtərəfli açılmasına, dinamikləşməsinə imkan vermir, durğunluq yaranır, fərdi yaradıcılığın inkişafı ləngiyir. Məzmunla forma arasındakı biçimsizlik uzun müddət davam etmir, təzə məzmun özünə təzə forma tapır. Forma passiv zahiri əlamət deyil. O məzmuna təsir göstərir, müəllif niyyətinin açılmasında, onun mövqeyinin müəyyənləşməsində əhəmiyyətli rol oynayır.» (37,136-137)

Məzmun ideya, fikir, estetik məna daşıdığına görə xarici formada, təsadüflərin bir-birinə bağlanmasında deyil, müəllifin təxəyyülündə, fikrində, niyyətində yaranır. Jurnalistin əlinə qələm almadan təsəvvüründə canlandırdığı fikir, şüurunda gəzdirdiyi ideya və xəyalında mövcud olan rəngarəng gözəllik və sairin hamısı yaradıcılıq konsepsiyasına daxildir. Qələm sahiblərinə yaxşı məlumdur ki, yaradıcı insan qələm və kağız götürüb, ağ vərəq üzərinə idrakın məhsulunu sərgiləməzdən öncə, oxucu auditoriyasına vermək istədiyi fikir və ideyaları beyninin süzgəcindən geçirir, onun haqqında sabit fikir formalaşdırır və sonra onu yazıya köçürür.

Məzmun hər hansı bir publisistik əsərin toplusudur. Çünki məzmun məqalədə danışılan hadisənin, baş verən proseslərin, qarışılıqlı rabitə və mübarizəsi, həmçinin ana dilinin ifadə etmə tərzində hasil olur. Varlığın müxtəlifliyi, insanın fərdi və ümumi xüsusiyyətləri, onun daxili aləmi, özünəməxsusluğu müşahidə nəticəsində yaranır, dünyagörüşü nöqteyi-nəzərindən qiymətləndirilir, emosional-ekspressiv baxımdan ifadə olunur. Bu cür

məzmuna malik olan publisistik əsər oxucunu düşündürür və onun daxili harmoniyasına təsir edir.

Jurnalistika ilə bədii ədəbiyyat arasında mövcud olan əsas fərq birincinin günün tələblərinə cavab verən informasiyanı, zövq və estetik maraq çərçivəsində ödəyə bilən məzmun seçmək qabiliyyətinə, həmçinin dünyagörüşə malik olmasındadır. Günün aktual mövzusunu seçmək, ona məzmun və forma vəhdəti gətirmək jurnalisti daim düşündürməli, narahat etməli, onda yazmağa həvəs oyatmalıdır. «Sənətkarın ən böyük məziyyətlərindən biri mövzu seçməyi bacarmasıdır. Seçilən mövzu onu ilhama gətirməli, onun görüşlərini, duyğularını, dövrün ondan tələb etdiklərini başqalarının hələ müşahidə etmədiklərini və yaxud müşahidə edərək, bu barədə danışa bilmədikləri şeyləri oxucuya söyləmək imkanı yaratmalıdır. Dövrün ictimai sifarişi adlanan şey budur.» (19)

Jurnalistin publisistik məqalənin bütün materialını mövcud ictimai həyatdan götürməsinə baxmayaraq, heç də bu fakt və məzmunu cəmiyyət ona hazır formada vermir. Müəllif özünün şəxsi müşahidə istedadı nəticəsində faktları həyatdan götürür və öz təxəyyülünə uyğun olaraq ona məzmun verərək masa üzərinə gətirir. Sözsüz ki, bu məqamda yalnız fakt və məzmun yox, həm də mövzunun aktuallığı aparıcı mövqedə dayanır. «Müəllif həyatdan götürdüyü materialı və faktı öz idealına görə yenidən işləyir və bunun sayəsində onun təsvir etdiyi tablonun çəkilməsinə səbəb olan həqiqi hadisə daha canlı, ifadəli və formaca daha dolğun olur.» (181)

JURNALİSTİKADA PEŞƏKARLIQ

Jurnalist kamil və incə bədii zövqə, yüksək müşahidə qabiliyyətinə malik olmalı, jurnalistika tarixini, jurnalistika və ədəbi tənqidi, o cümlədən jurnalistikanın nəzəriyyəsini mükəmməl bilməli, həmçinin böyük dünyagörüşə sahib olan yaradıcı şəxsiyyət kimi yetişməlidir. Bu keyfiyyətlərə malik olan jurna-

listin yaradıcılığı şablonçuluqdan, şəristəsizlikdən, quru mühakimələrdən, darıxdırıcı təsvirlərdən daim uzaq olacaq, oxucu auditoriyasının rəğbətini qazanacaq, cəmiyyətdə layiq olduğu yeri tutacaqdır. Yalnız yüksək sənətkarlığa və istedada malik olan jurnalisti peşəkar adlandırmaq olar.

Həyat inkişaf edir, ictimai dirçəliş nişanələri artır, məqalələrin əhatə dairəsi genişlənir, faktlar çoxalır, mövzular müxtəlifləşir, demək bunlarla paralel jurnalistin özünün də, dünyagörüşü, peşəkarlığı, həyata və yeniləşən cəmiyyətə münasibəti dəyişir, günün tələbi səviyyəsinə yüksəlir. Lakin bir vacib məqam əsas götürülməlidir ki, faktların çoxluğu, zamanın tərəqqisi, mövzuların müxtəlifliyi və genişliyi məqalələrin təsir qüvvəsinə, janr səciyyəsinə, leksikologiyasına və başqa dəyərlərinə xələl gətirməməlidir. Hər bir xəbər müəllifin hadisələrə münasibətini ifadə edən xüsusi kommentariyalar ilə müşayət olunmalı, jurnalistin mövqeyi açıqlanmalı, nəticə hasil olmalı və oxucu düzgün cəhətə istiqamətləndirilməlidir.

Ola bilsin ki, müəllif hansısa bir hadisə haqqında söhbət açdığı və yaxud xəbər verdiyi halda, böyük ustalıqla tamamilə başqa bir hadisə haqqında məlumat verir və peşəkarcasına da, əvvəlki məsələnin üzərinə qayıdır. Bu elə edilməlidir ki, nə məqalənin ümumi vəziyyətinə, nə də ki, oxucunun düşüncə tərzinə zərər dəyməsin. Məsələn, belə bir sistem Azərbaycan muğamlarında mövcuddur. Xanəndə ayaq verərək başqa bir müğama və yaxud onun şöbəsinə keçir və sonra da, ustalıqla həmin gedişləri edərək əvvəlki vəziyyətə qayıdır. Firidun bəy Köçərlinin «Məişətimizə dair», «Yarımçıq qalanlarımız», «Həqiqi gözəllik və hərəkətsiz nisfimiz» (52) və sair məqalələrində bu prinsiplər çox gözəl qorunub saxlanmış və ustalıqla işlənmişdir. Sadəcə olaraq birinci misalda dinləyici bundan feyziyab olur və ifaçını alqışlayır, ikinci misalda isə oxucu müəllifin fikirlərini heç bir çətinlik çəkmədən anlayır. Azərbaycan jurnalistikasının intibah dövründə bu işi məharətlə yerinə yetirən publisistlər az olmayıbdır. Firidun bəy Köçərli, Cəlil Məmmədquluzadə, Abdulla Şaiq, Sultan Məcid Qənizadə, Əli bəy Hüsey-

nzadə, Əhməd bəy Ağayev və başqaları öz məqalələrində Azərbaycanda gedən mədəni və iqtisadi tərəqqinin geriliyindən, «bütün bir qövm və tayfanın və hətta millətin qəflətdə» (125) yatıb qalmasından, zamanın inkişaf axarından geri düşməsindən danışmış, fikirlərinin hafizələrə vaxtında çatması üçün misallar gətirmişlər. «Biz müsəlmanlara gəldikdə, biz bəşəriyyət karvanının qatarından üzülmüş yorunuq dəvə kimi bir yerdə qalıb, uzun dəhrləri xabi-qəflətdə keçirmişik. Bu halda ətrafımızda vüquə gələn hadisat, əlamət, gürultu, nərilti və hürriyyət yolunda olan vuruşma və çırpışma bizi də bir növ yuxudan oyadıbdır, gözümüzü açıb görürük ki, karvan çoxdan gəlib gedibdir. Qabaqda vəsi bir biyaban, yolu getməyə nə dizdə taqət və nə də ürəkdə hünər, nə qəlbdə mətanət və nə də mənzurda bir rəhbər və dəlil!» var. «Odur ki, Xacə Hafiz bizim kimi qəflət yuxusunda vaxtını keçirmiş bir millətə xitabən deyir: Key rəfi, rəh ze ke porsi, çe koni, çun başi? (*Yəni yolu nə vaxt gedəcəksən? Səni xabda qoyub keçən karvanın sorağını kimdən soracaqsan? Nə eləyəcəksən? Başına nə çarə qılacaqsan?)*» (52,187) Bu kimi əlavə və miniatürvari hekayələr məqalənin ümumi quruluşuna heç bir xəsarət yetirmir, əksinə, fikiri davam etdirir, onun yaxşı başa düşülməsi üçün münbit şərait yaradır. Bu cür priyom həm məqaləni maraqlı, həm də oxucunu asanlıqla məsələnin mahiyyəti ilə tanış edir. Yalnız peşəkar jurnalist belə cazibədarlığa nail ola bilər.

Jurnalistin peşəkarlığı ilk öncə özünü daha qabarıq formada, yazdığı məqaləyə verdiyi başlıqda göstərir. Sərlövhə elə məharətlə seçilməlidir ki, oxucunun diqqətini cəlb etsin. Çünki oxunacaq məqalənin əsas məğzi birinci onun başlığında təzahür edir. Başqa sözlə, müəllifin şərhi ilə sərlövhə bir-birini tamamlamalıdır. Oxucu məqalənin başlığında irəli sürülən ideyanı, məqalənin təhlilində görməlidir. Əks təqdirdə oxucuda müəllifin qeyri obyektivliyinə və yaxud peşəkarlığına şübhə yaranacaqdır. Bu isə özünə, həmçinin oxucuya hörmət edən jurnalist üçün arzu olunmaz haldır.

Bəzən elə olur ki, juxarıda haqqında danışdığımız müstəqil

başlığı, vahid mövzu və problemi olan məqalələrdən fərqli olaraq, müxtəlif həyat sahələrindən alınmış mövzular və problemlər vahid bir ideya ətrafında toplanır və onun açılmasına xidmət göstərir. Məsələn, müəllif «Məişətimizə dair» (52) başlıq altında verilən silsilə məqalədə kəndli həyatının mövcud zaman kəsiyi ərzində baş verən bütün cəhətlərini: siyasi, ictimai, sosial, mədəni, dini, əxlaqi, mənəvi, iqtisadi, qadın hüquqsuzluğu və sair bu kimi problemləri birləşdirməyi bacarmışdır.

Jurnalistin konkret bir janrda yazdığı məqalədə digər janrlara məxsus əlamət və xüsusiyyətlərdən istifadə etmək bacarığı sinkretlik sayılır. Bu metoddan daha çox cəmiyyəti daima maraqlandıran problemli məqalələrdə istifadə olunur. Məsələn, müəllif hər hansı bir sahənin tənqidinə həsr olunmuş məqaləyə bir müddət fasilə verdikdən sonra, yenidən əvvəl ki, problemin üzərinə qayıtmalı olur. Bu zaman o, bu müddət ərzində baş verən siyasi-iqtisadi fəsadlar və proseslər haqqında lakonik məlumat verir. İlk baxımdan bunlarla məqalədə qoyulan problemlər arasında heç bir əlaqə görünmür və kənar mətləb təsiri bağışlayır. Əslində, bu müəllifin əsas məqsədinin ifadəsi üçün hazırlıq kimi qəbul olunmalıdır. Burda analitik təhlil janrı ilə informasiya janrı vəhdət halında verilir.

Bəzən elə olur ki, jurnalist səyahətnamə janrının imkanlarından istifadə etməklə müəyyən bir elin, obanın övzayi halını, məişətini, mədəniyyətini və s. verir. Əlbəttə, bunu alqışlamağa dəyər. Qeyd edək ki, Azərbaycan publisistikasında bu janrdan XX əsrin birinci rübündə daha çox istifadə olunurdu. Amma sonralar bədii-publisistika janrının tərkibində oçerkin yaranması ilə əlaqədar olaraq səyahətnamə oçerkinin törəməsi bu janrın aradan çıxmasına səbəb oldu. Lakin bundan məharətlə istifadə etmək heç də, qəbahət sayılmır.

Peşəkarlıq baxımından publisistikada (jurnalistikada) elmi-populyar məqalələrə məxsus materiallardan istifadə etmək təqdirə layiq hesab olunur. Bunlar elmi-nəzəri məsələlərə həsr olunmuş xüsusi məqalələr olduğu üçün oxucu auditoriyasını elmi məlumatlarla silahlandırmağa xidmət edir və bu məqsəd

izlənilir. Jurnalist-publisist əsərin toxumasına elmi mətləblər daxil etməklə, qarşısına arqumentlərini əsaslandırmaq, fikirlərinin təsir qüvvəsini artırmaq məqsədi qoyur.

Jurnalistikada maraq doğuran formalardan biri də, etnoqrafik materiallarla zəngin olan məqalələrin diqqət mərkəzində olmasıdır. Bu cür məqalə yazmaq istəyən müəllifdən mütləq folkloru bilməsi tələb olunur. Çünki məqalənin özü etnoqrafik, folklor haqqında materiallarla zəngin olan bilik mənbəyi hesab olunur. «Köçərilərin övza və əhvalı» və «Qarabağda Cavanşir mahalının əhval və övzasına dair» (52) məqalələri bu formada yazılan ən yaxşı nümunə saymaq olar.

Hər bir jurnalist çalışır ki, onun yazdığı məqalə oxucu auditoriyasının diqqətini cəlb etsin və materialda verilən hadisə və yaxud xəbərə onu inandırsın. Sözsüz ki, bu müəllifdən böyük bacarıq və istedad tələb edir. Bu məqamda qələm sahibləri son dərəcə ustalıqla və uğurla seçilən ədəbi əsərlərdən, tanınmış şəxslərdən, dövlət xadimlərindən və s. sitatlar gətirməyə çalışırlar. Jurnalist burda, yalnız iqtibasın birbaşa mövzu ilə həmahəng olması və yaxud məqalənin ideya məzmunu ilə eyni cür səslənməsi deyil, həmçinin mətləbin oxucuya asan çatması, onun bədii təsir qüvvəsini və emosional gücünü artırmaq məqsədi izləyir.

Məqalələrin kompazisiya xüsusiyyətlərindən danışarkən başqa bir amili də yaddan çıxartmaq olmaz. Bu da, məqalələrdə yeri düşdükcə miniaturvari hekayələrdən istifadə etmədi. Jurnalistin şəxsi təcrübəsi, dünyagörüşü, oxuduğu kitablar, həmçinin əxz etdiyi əhvalatlar əsasında formalaşan bu «hekayələr» publisist məqalələrin mövzusu və ideyası ilə səsləndiyi kimi, həm də onun ekspressiv təsir qüvvəsini bir qədər artırır.

Hadisələrə münasibət bildirmək ehtiyacından doğan emosionallıq jurnalistikada obrazlığın qüvvətlənməsinə səbəb olur. Nəticə etibarı ilə bu məqalələrə bədiilik, gözəllik, təsvirilik verir. Jurnalistin istifadə etdiyi obrazlar arasında təşbeh öz xüsusiliyi ilə daha çox fərqlənir. Odur ki, qələm sahibi təşbehi elə bir ustalıqla seçməli və yerində işlətməlidir ki, o həqiqətən yazıya

emosionallıq bəxş etmiş olsun. Bu ona görə vacib elementlərdən biri sayılır ki, oxucu bunun nəticəsində təsvir olunan obrazı və hadisələri asanlıqla təsəvvür edə bilsin və onu olduğu kimi qəbul etsin. Məsələn, o, «naçalnik dəftərxanasına» çağrılan «qara rəiyyət» camaatının «zar və zəbun» halını «ziyanlıq mal»a, «məhkəmələrin səhnində, silistçilərin qapısında, pristavların həyatində» döşənən müsəlmanları qoyun sürüsünə, ana dilini bəyənməyib Osmanlı dilini təqlid edən yazıçıları «meymuna» oxşadırdı. (52,294.)

Məqalələrdə mifoloji obrazların yerli-yerində işlədilməsi ilə yaranan təşbehlər yazıya xüsusi gözəllik bəxş edir və oxucunu söhbəti daha yaxşı anlamağa sövq edir. Bu cür priyomlardan istifadə edən müəllif məqaləyə yeni bir çalar verməklə bərabər, həm də onu təravətləndirir. «Molla Nəsrəddin» jurnalının birinci sayının üz qabığında bir qrup din xadiminin yatması təsvir edilmiş və bununla da, «cəhalət yuxusunda yatanlar» yuxy allahı Morfeyin ağuşu ilə müqayisə olunmuşdur.

Jurnalist geniş erudisiyaya malik, müxtəlif elm sahələri haqqında zəngin biliyə sahib olmalıdır. Bu onun üslubunun ifadə tərzində, emosional təsvir qüvvəsinin artmasında və bir çox başqa amillərdə əhəmiyyətli dərəcədə kömək ola bilər. Bədii və elmi əsərlərə tez-tez müraciət etmək, onlardan sitatlar gətirmək, qısaca olaraq məzmununu danışmaqla müəllif qarşısına qoyduğu məsələnin həllinə asanlıqla çatar. Bəzən elə olur ki, jurnalist məqalənin kompazisiyanı iqtibaslar və yaxud hansısa əsərin qısa məzmunu üzərində qurur. Məsələn, «Qaranlıqda qalanlarımız» məqaləsi İ. A. Krılovun «Ağacın yarpaqları və kökləri» təmsili, «Qarabağda Cavanşir mahalının əhval və övzasına dair» məqalə Qasımbəy Zakirin «Bərdə xəbərləri» şeiri, «Dünyada bəla nədən törəyir?» (52) məqaləsi Lev Tolstoyun eyni adlı hekayəsindən gətirilən sitat və qısa məzmunlar üzərində qurulmuşdur.

Publisist məqalələnin oxucular tərəfindən başa düşülməsini və qavranmasını asanlaşdırmaq məqsədilə daima axtarışda olmalı, müxtəlif üslub vasitələrindən səmərəli istifadə etmək

qabiliyyətinə malik olmalıdır. Belə vasitələrdən biri də, ritorik sualdır. Məlum olduğu kimi ritorik sual cavab tələb etmir, çünki onun cavabı həmin sualın daxilində olur. O ancaq oxucunun diqqətini təsvir edilən hadisənin müəyyən vəziyyətinə və istiqamətinə cəlb etmək məqsədi daşıyır. Məsələn, «Məgər bu səhranı ziylətləndirən və ağacın özünə hüsn və lətafət verən biz yarpqalar deyilik? Əgər biz olmasaq, ağac nəyə bənzər və məgər bizim özümüzü tərif etməyə haqqımız yoxdur? Biz deyilikmi çobanı sürüsü ilə günün istisindən saxlayan və onlara rahatlıq bəxş edən?» (52,109)

Məqalənin emosionál qüvvəsini artırmaq üçün ritorik sualın spesifik xüsusiyyətlərindən istifadə olunur. Sual verilir və bu suala cavab da, sualla verilr. Nəticədə ikiqat ritorik sual əmələ gəlir ki, bu da, məqalənin təsir qüvvəsini qeyri-adi dərəcədə artırır. Məsələn, «Rusiya kimi böyük, qüvvətli və şövkətli dövlət məhəbbətə layiq olmadığı halda bizim müsəlman məmləkətlərinin haqqında nə söyləmək olar?» (52) ritorik sualına yenidən ritorik sualla cavab verilməklə ikiqat ritorik sual yaradılır. «Aya İran və Osmanlı məmləkətlərində də vətənpərvərlik şərtləri icra olunurmu? O dövlətlərdə də, hürriyyət, rahətlik, əminlik, haqşünaslıq, üxüvvət ... rəsuyətpərvərlik varmı? ... Hansı fədakarlığı və cannısarlığı meydana qoyublar?» (182)

Müasir jurnalistikanı sual-cavabsız təsəvvür etmək mümkün deyil. Cünki ictimaiyyəti maraqlandıran suallara cavab məhz bu priyomun payına düşür. Belə hallarda zəruri problemlərlə əlaqədar məsələlərə cavab almaq üçün müəllif tərəfindən müəyyən suallar qoyulur və onlara cavab alınır. Hətta məqalədə qoyulan sualın cavabı aydın olsa da, onun cavabı verilir və fikir daha da möhkəmləndirilir. Bu metod həm ədəbiyyatda, həm də jurnalistikada təhkiyə adlandırılır. Məsələn, «Dünya beş gündür, beşi də qara.» Beş günlük ömürdən ötrü bu fəna dünyada səy və təlaş etməyin, mal və dövlət şövqünə düşməyin, kəsb və hörmət qeydinə qalmağın, ömrü bihudə çürütməyin lüzumu varmı?» (52,279)

Məqalənin sonu suala verilən cavabla yekunlaşır. «Gözünü-

zün tozunu silib, diqqət ilə ətrafa baxınız, hər kəs işləyir, çalışır, həyatdan nəfbərda olur. Haqq-taala «leysə lil insanə illa masəa» buyurmamışlarmıdır?» (52,283)

Jurnalistin yaradıcılığında bütün bədii təsvir vasitələrinin artırılmasında təkrarların özünəməxsus yeri var. Oxucu auditoriyasına təsir göstərmək, təsvir olunan hadisələr haqqında fikir formalaşdırmaq məqsədi ilə müxtəlif cür təkrarlardan istifadə olunur. Bu formalardan biri abzas və yaxud cümlələrin eyni söz və ifadə ilə başlanmasıdır. «Filhəqiqə heç bir millət mədəniyyət aləmindən, ... bizim kimi uzaq düşməyibdir. Heç bir mllətin, heç bir qövm və tayfanın üstündə o qədər ağır təkliflər ... qalmayıbdır, nə qədər ki, biz müsəlmanların üstündə qalıbdır.» (52,188)

Gətirdiyimiz misalda təkrar olunan «hər millət» sözü fikrə xüsusi emosionallıq vermişdir. Hərdən də elə olur ki, həmcins cümlələrin sonunda təkrar yaranır. Məsələn, «Amma işə gələndə hamı çarpalardan əvvəl yada düşən taybuynuz öküz olur. Odunamı getmək, suyamı getmək lazımdır, taybuynuz öküz olsun, cüt əkməkmi lazımdır, yenə taybuynuz öküz gəlsin, dəyirmana dən aparmaq və dəyirmandan unu evə gətirmək taybuynuz öküzün borcudur, xırmanda taxıl döymək ancaq taybuynuz öküzün işidir.» (52,115)

Sinonim təkrarların jurnalist üslubunda xüsusi yeri var və ondan geniş istifadə olunur. Bir qayda olaraq hər hansı məfhumu və yaxud şəxsi səciyyələndirən sinonim sözlərin silsiləsindən istifadə olunur. Məsələn, «Milləti ayıldan və onun ruhani və cismani qüvvələrini hərəkətə gətirən, qəlbini ziyalandırıb, ruhunu təzələndirən gözəl və ali fikirlər, hüsni-tədbirlər, doğru və salamat sözlər və səmimi-qəlbdən çıxan avazlar olacaqdır.» (52,84)

Bütün bunlar bir daha sübut edir ki, jurnalistikanın məzmunu, forması, üslubu, dili, fərdi və peşəkarlıq xüsusiyyətləri olduqca zəngin və mənalıdır. Hər bir jurnalist, yazıçı, ümumiyyətlə, qələm sahibi qarşısına qoyduğu problemləri həll etmək və cəmiyyətə doğru-dürüst informasiya vermək istəyirsə o, jurnalistikanın bu zənginliklərindən məharətlə istifadə etməyi

və yeri gəldikcə ondan bol-bol bəhrələnməyi bacarmalı, oxucu auditoriyasına kifayət qədər sanballı və kamil əsərlər bəxş etməyə qadir olmalıdır. (125)

JURNALİSTİKADA FƏRDİÇİLİK

Hər bir sənət növündə olduğu kimi jurnalistika da, özünəməxsus fərdiçilik və sənətkarlıq cizkiləri ilə zəngindir. Bunları bilmək və yaxud öyrənmək heç də, fərdin mükəmməl jurnalist olmasından, onun bu peşəyə tam yiyələnməsindən xəbər vermir. Bu o zaman baş verir ki, jurnalistikaşünaslığın bütün xüsusiyyətləri ilə bu peşə sahibinin, fərdin şəxsi bacarıq, istedad keyfiyyətləri birləşsin və vəhdət təşkil etsin. Yalnız bu təqdirdə yüksək peşəkarlıqdan danışmaq, söhbət açmaq olar.

«Sənətkarın yaradıcılıq fərdiliyi mürəkkəb və çoxcəhətli söz sənətinin spesfikliyi ilə bağlı anlayışdır. Bu anlayış həm ədəbi şəxsiyyətin dünyagörüşünü, təcrübə və istedadını, həm müşahidə aparmaq qabiliyyətini, faktı görmək, seçmək, duymaq və hiss etmək, əhvalatın iştirakçısı olmaq və ondan təsirlənmək, həm də zamanın-estetik tələbləri səviyyəsində dayanmaq, həyatı canlı ifadə edə bilmək bacarıq və imkanını əhatə edir.» (37,78)

Jurnalistikada sənətkarlıq xüsusiyyətlərindən danışarkən qarşımızda janr əlvanlığı, ana dili və onun leksikologiyası, üslubiyyat, mövzu, forma seçmək və məzmun kimi bir çox başqa aparıcı amillər ön planada dayanır. Məhz, bu amillər jurnalistin bir fərd olaraq peşəkar kimi yetişməsində müstəsna rol oynayır.

Jurnalistikaşünaslıq elmi cəmiyyətlə, onun əsasını təşkil edən xalq kütləsi ilə birlikdə nəfəs almaq, zülm altında, nadanlıq qaranlığı içində və yaxud firavan, xoşbəxt keçən həyatla, eyni zamanda sevinc gətirmək, səadətə qovuşmaq, çıxış yolları axtarıb tapmaq imkanlarından istifadə etməklə çarələr axtaran bir vasitə kimi günbə-gün tərəqqi edir, püxtələşir və yeni imkanlar qazanır.

Bildiyimiz kimi jurnalistikanın janr xüsusiyyətləri üç-bədii

publisistika, analitik və informasiya janrlarından ibarətdir və bu istiqamətdə fəaliyyət göstərir. Jurnalistin hansı mövzuda publisistik əsər və yaxud məqalə yazmasından asılı olmayaraq o, öncə mövzunu və bundan sonra, ikinci olaraq bu mözunun uyğun gələ biləcəyi janrı seçir. Əgər müəllif, informasiya ilə zəngin olan məqaləni bədii-publisistik və yaxud bədii-publisistik mövzuya aid olan mətni analitik janr vasitəsilə oxucuya çatdırmaq istəsə, sözsüz ki, burda yanlışlığa yol vermiş olar və bu oxucu auditoriyasında ikrah hissinin yaranmasına gətirib çıxarar. Bu fikri, dilin-leksikologiyanın zəifliyi, üslubiyyatın səhv olması, forma və məzmunun naşılığı haqqında da, söyləmək olar.

Deyilənlərə görə «şəxsiyyət təkcə nə etdiyi ilə yox, həm də necə etdiyi ilə səciyyələnir.» (37) Jurnalist həyatda baş verən proses və hadisələrə reaksiya verəndə, həyatı öyrənəndə, onu bədii sözün qüdrəti ilə ifadə etmək istəyəndə mütləqdir ki, «nə» ilə «necəni» sintez etsin, sistemləşdirsin və çoxları üçün sadə görünə bilən hər hansı bir fakt və əhvalatda oxucunu düşündürə biləcək məzmunu tapsın. Çünki həyatın çox çalarlı olması, heç də jurnalistə ideya, məzmun və forma vəhdəti, tutarlı üslubuyyat vermir. İdeya yalnız istiqamətləndirir, ideya yalnız aparır. Hər bir publisistik əsər öz məzmunu, ideya dolğunluğu, baş verən prosesləri əks və təsvir etdirmək qüdrəti, daha doğrusu pafosu ilə yaşaya bilər. Pafosun dərinliyi, müxtəlifliyi, ecazkarlığı, faktların çoxluğu, təsiretmə qüvvəsinin yetərliyi, jurnalistin leksik ustalığı, varlığa subyektiv yox, obyektiv yanaşması, verilən dəlil və sübutları sintez etmək və ümumiləşdirmək, onları canlandırmaq qabiliyyətinə malik olması ilə ölçülür.

Azərbaycan jurnalistikasında «Yarımçıqlarımız», «Taybuynuz öküz», «Ehtiyac», «Həqiqi gözəllik və hərəkətsiz nisfimiz», «Kişmiş oyunu», «Poçt qutusu», «Usta Zeynai», «Puruşkeviç və Hacı Xudu», «Qulaq ardına», «Fələk, evin yıxılsın», «Cığal qumarbaz» və başqa publisistik əsərlərin mahiyyəti müasirliyi təbliğ, xalq idealını təsdiq etmək pafosundan, köhnəliklə vuruşmaq, qalib gəlmək, inam və əzmin qələbəsinə nail olmaq və sair bu kimi ideallar üzərində qurulmuşdur.

Jurnalistika bir sıra ümumi xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər olmadan jurnalistikanı, onun «şirinliyini, dadını, ləzzətini» (162) duymaq olmaz. Bunlar haqqında danışmadan jurnalistikada sənətkarlıq xüsusiyyətlərindən söhbət açmaq, ümumiyyətlə, sənətkarlıq məsələlərinə aydınlıq gətirmək qeyri mümkündür.

Heç kəs bir, üç, beş və on ilə peşəkar jurnalist olmur. Bunun üçün illər, təcrübələr, maariflənmə, «bərkdən-boşdan» çıxma və s. lazım gəlir. Bütün bunların mayasında isə fərdilik dayanır. Jurnalistika peşəsi zavod, fabrikdə, və yaxud inşaat və istehsalat sektorunda aparılan işə bənzəmir, ona görə ki, bunların hamısında kollektiv əmək sərf olunduğu halda, jurnalistikada bunun əksi olaraq fərdiçilik əsas yer tutur. Bu isə uzun zaman nəticəsində aparılan fədakər zəhmətin hesabına tədricən formalaşır. Beləki, fərdi yaradıcılıq fəaliyyətinin müəyyənləşməsi və konkret yer tutması üçün mədəni, siyasi, ictimai, iqtisadi, ədəbi mühit əvəzsiz rol oynayır, dövrün qabaqcıl, bədii-estetik tələbləri, zamanla ayaqlaşma, istedadlı fərdin düzgün dəyərləndirilməsi və başqa keyfiyyətlər tələb olunur.

Jurnalistin qələminin məhsulu ola biləcək bütün publisistik əsərlər janrından, forma və məzmunundan asılı olmayaraq həyatla və onun əsasını təşkil edən insanla bağlıdır. Jurnalistin özü də, həmin həyatı bölüşdürən, onda yaşayan həmin insanlardan biridir. Odur ki, jurnalist qələmi alıb ağ kağız üzərində işləməzdən öncə insan amilinə diqqət yetirilməli, yazılacaq hər söz, işlədiləcək hər ifadə üçün məsuliyyət daşıdığını dərk etməlidir. Bu amilin özü də, jurnalistin bir peşəkar fərd kimi yetişməsi, cəmiyyətdə tanınması və məşhurlaşması üçün xidmət edən ən vacib cəhətlərdən biri kimi başa düşülməlidir.

Jurnalistikada sənətkarlıq və fərdiçilikdən danışarkən qeyd etmək lazımdır ki, hər bir fərd mənfi və müsbət keyfiyyətlərə, ayrı-ayrı daxili varlığa, yaradıcılıq manerasına, şəxsi istedada, onu əhatə edən təsirlərə və amala bağlı olduğundan ərsəyə gətirilən publisistik əsərlər də, başqa-başqa olur, bir-birinə oxşamır. Məhz, bu nöqteyi-nəzərdən söylədiyimiz fikirlərə

yanaşmış olsaq, jurnalistikada sənətkarlıq və fərdiçiliyin nə olduğunu anlamaq çətinlik yaratmaz.

Faktı mənimsəmək və onu publisist zehninin süzgəcindən buraxmaq jurnalistin fərdiçiliyini zənginləşdirir, doğruluğa münasibətdə, ifadə olunmasında və cümlə qruluşunda aydınlıq yaradır. O, hadisələrin məzmununu açanda əldə etdiyi dəlil, sübut və faktlara, xırda hissələrə və cizgilərə, həmçinin prosesin baş verdiyi yerə və zamana, mənzərəyə, bir sözlə, hər şeyə diqqət yetirir, onları öz şüurunun daxilinə, düşüncəsinə, mənəvi-əxlaqi aləminə yerləşdirir. Bu səbəbdən jurnalist nə qədər çox şey görsə, nə qədər çox adamla görüşsə, həyat hadisələrinin içində olsa, bir o qədər yaxşıdır. Bəzən elə olur ki, jurnalist baş vermiş prosesi kimdənsə, hardansa eşitməklə tələm-tələsik publisistik əsər yazır və çap etdirir. Bu isə, heç vaxt auditoriya tərəfindən yaxşı qarşılanmır. Məlumdur ki, oturub yazanda həyatın bu və yaxud digər cəhətini, həmçinin baş vermiş prosesin hissəciklərini yaxşı bilmirsən və yaxud yaxşı xatırlamırsan. Nəticədə, yanlışlıq yaranır və bununla da, həmin jurnalist cəmiyyətdə bir fərd olaraq həm öz üzərinə, həm də jurnalist sənətkarlığına, peşəsinə kölgə salır və nüfuzunu itirir. Bu ləkəni aradan qaldırmaq isə jurnalistdən uzun zaman və çoxlu zəhmət tələb edir.

Jurnalistin sənətkarlıq və fərdi dünyagörüşü, təcrübəsi, istedadı, bacarığı, dərketmə qabiliyyəti onu bütün həyatı boyu addım-addım izləyir, zənginləşdirir. Onun bəşəriyyəti estetik cəhətdən mənimsəyə bilməsi və gerçəkliyi mənalandırmaq qabiliyyətinə malik olması, analiz etmək istedadı, duyğu və düşüncədən keçirib dəyərləndirmək bacarığı və sairəni günbə-gün artırır, yaradıcılığına müsbət təsir göstərir.

MÜASİR JURNALİSTİKANIN DİLİ

Sirr deyil ki, kütləvi informasiya vasitələri dilin inkişafına olduqca çox təsir göstərir. Bu və yaxud başqa düzəltmə sözlərin və söz birləşmələrinin kütləvi informasiya vasitələri tərəfindən dilimizə gətirilməsi və sonradan dilimizdə kök salaraq qalması,

dilimizin qanunlarına tabe olması prosesi başa çatdıqdan sonra, həmin sözlər özümüzünkiləşir və gündəlik ədəbi danışıq dilimizin bir hissəsinə çevrilir. Ümumiyyətlə, jurnalistikada bu cür proseslər cəmiyyətdə gedən tarixi, ictimai-siyasi, iqtisadi, elmi vəziyyətdən asılı olaraq tez-tez baş verir. Bu isə ona dəlalə edir ki, jurnalistika ictimaiyyətlə sıx bağlıdır və ondan kənarda mövcud ola bilməz. Amma elə sözlər və leksik birləşmələr var ki, dəyişməyərək olduğu kimi qalır.

XIX əsrin sonu XX əsrin əvvələrində türk (-mutlu, -nasılsan, -şimdi, -bakalım, -aşq, -bakan, -afandi, -işbu və s.), XX əsrin 20-ci illərindən həmin əsrin 90-cı illərinə kimi rus (-kommunist, -bolşevik, -kolxoz, -sovxoz, -selsovet, -obkom, -partkom, -Baksovet, -qorotdel, -sovmin və s.), müstəqillik dövründə isə ingilis (-hallo, -happily, -no, -okay, -mister, -lady, -book, thank you və s.) mənşəli və Qərbi Avropa yönümlü siyasi-iqtisadi (-inteqrasiya, -kommunikasiya, -parlament, -miqrasiya, -investitsiya, -referendum, -reklam, -kredit, -reytinq, -innovasiya, -alternativ, ipoteka və s.) məna kəsb edən sözlərin dilimizə daxil olması müşahidə olunmuşdur.

Müasir sivilizasiyanın tərəqqisi, yeni texnologiyaların tətbiqi, informasiya bolluğunun yaranması mətbuatın imkanlarını daha da artırır, onun miqyasını genişləndirir. Sözsüz ki, bütün bunların hamısı sözün və söz birləşmələrinin hesabına yaranır. Lakin yaranmış bu söz burulğanında ana dilini və onun tərkib hissəsi olan doğma sözləri unutmaq, onlardan az istifadə etmək, əcnəbi sözlərə üstünlük vermək, hətta yerli-yersiz necə gəldi istifadə etmək Azərbaycan dilinin unudulmasına, hətta yaddan çıxmasına səbəb ola bilər. Məşhur rus pedaqoqu Uşinisski demişdi: «Bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan ölüb itməz, amma dilini alsan silinib gedər ondan bir nişan qalmaz.» (91) Bu mənada çağdaş jurnalistikanın, həmçinin müasir jurnalistlərin çiyinlərinə məsuliyyətli bir vəzifə qoyulur ki, onlar da, bunu ləyaqətlə daşımalı və sabahkı nəsillərə şirinliyi ilə bərabər ötürməlidir. Əgər hər birimiz ana dilində düşünürüksə, hər birimizin daxili nitqi ana dilindədirsə, necə

ola bilər ki, biz beynimizi məcbur etdirərək, barmaqlarımıza impülüslar ötürərək, onları qəlbimizə yad olan sözləri deməyə və yazmağa məcbur edək?

XX əsrin ilk illərində, birinci rus inqilabı Qafqazda siyasi və mədəni intibaha, ictimai-iqtisadi zəmində yeni mətbuat orqanlarının yaranmasına münbit şərait yaratdı. Qabaqcıl ziyalılar bu imkandan məharətlə istifadə edərək folklorun yayılmasına, ədəbiyyatın inkişafına, əhalinin maariflənməsinə, ana dilinin təkminləşməsinə və s. xeyirxah işlərə xidmət etdiyi bir halda, eləlsri də tapıldı ki, bu pərakəndəlikdən istifadə edərək ana dilini korlamağa və cəmiyyətdə çaşqınlıq yaratmağa meyl göstərdilər. «Xeyli vaxtdır ki, dil məsələsi məhəlli-müzakirəyə qoyulub, onun üstündə məclislərdə, qəzet stunlarında və jurnallarda bəhs olunur. Kimi İstanbulda işlənən ədəbi dili tərif edib, onu sair yerlərdə işlənən türk dillərinə tərcih verir, kimi Azərbaycan türklərinin şivəyi-lisanını bəyənib, onun tərəfini saxlayır. Bir paraları da İbn-Yafəs kimi türklər üçün ümumi bir dil təsis etmək fikrindədir ki, hər yerdə o dildə danışılıb yazılsın.» (52,292)

Məlumdur ki, hər bir janr sözlə ifadə olunur. Lakin ana dilini nə jurnalistikanın tərəqqisinə, nə də ki, zamanın ixtiyarına buraxmaq olmaz. Bütün zamanlarda və bütün janrlarda ana dili öndə dayanmalıdır. Ana dili göz bəbəyi kimi qorunmalı, onun saflığı müdafiə olunmalıdır. Biz heç də, dilin zənginləşməsinin əleyhinə deyilik. Amma bu proseslər yalnız ana dilinin qanun və qaydaları çərçivəsində aparılmalıdır. Bəzi ifadəpərdazlar öz publisistik «məqalələrində» yuxarıda gətirdiyimiz məsəl kimi dilimizə yad olan xarici sözlər işlətməklə «jurnalist» olduqlarını göstərmək istəyirlər. Bu cür yanaşma həm oxucunu əsəbləşdirir, həm də onda, mətbuata qarşı kin yaradır. Anamızın öyrətdiyi və daxili nitqimizin formalaşdığı dil sevgi və məhəbbətlə qorunmalı, hifz edilməli, öyrənilməlidir. Mərhum şairimiz B. Vahabzadənin «Ana dili» şeiri bu mənada böyük əhəmiyyət kəsb edir. Şair yazırdı:

«Dil açanda ilk dəfə «Ana» söyləyirik biz,
«Ana dili» adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə,
İçirir ruhumuza bu dildə gilə-gilə.»

Əgər biz XX əsrin əvvəllərinə, Azərbaycan jurnalistikasının intibah dövrünə nəzər yetirmiş olsaq, ana dili ilə bağlı mübahisə və müzakirələrin şahidi olarıq. Ana dilinin öz təravətini və varlığını qoruyub saxlaması üçün ən çox mübarizə aparan «Molla Nəsrəddin» jurnalı olmuşdur. Jurnalın əsas və daimi mövzularından biri də ana dilinin varlığı, təmizliyi uğrunda mübarizə idi. İlk nömrələrindən, hətta «Sizi deyib gəlmişəm» adı ilə məşhur olan proqram məqaləsindən tutmuş, son sayına qədər «Molla Həsrəddin» Azərbaycan dilini xarici ünsürlərdən müdafiə etməyə bütün varlığı ilə çalışmışdır. «Dolaşıq yazılara, ərəb-fars təsirinə, azərbaycanlıların çətin mənimsədiyi ərəb əlifbasına qarşı sadə dil və yazını qoruyurdu... Jurnalda bu mühüm mövzuya, ana dilinə xor baxan, onu korlayan əllamə ziyalıları ciddi tənqid atəşinə tuturmuş və onların tənqidinə «Meymunlar», «Dil», «Pək eyi», «Zəncir», «Bizim obrazovannılar» kimi felyetonlar yazmışdır.» (93,38)

Jurnalistikanın inkişaf etdiyi Qərbdə, həmçinin Rusiyada artıq çoxdandır ki, jurnalistika dili formalaşıb. Ancaq nədənsə Azərbaycanda bu istiqamətdə iş aparılmır və yaxud bu proseslər çox ləng gedir. Hamıya yaxşı bəllidir ki, bədii, elmi, danışıq, diplomatik və s. dillər mövcuddur. Nə üçün Azərbaycanda publisistika (jurnalistika) dili formalaşmayıbdır? Bu məqamda Hotfrid Germanın fikiri çox maraqlıdır. O, deyirdi: «Yazıda iki iş xüsusilə çətindir-lüğəti və qrammatikanı yazmaq.» (194) Bəlkə elə buna görədir ki, Azərbaycanda jurnalistika dili indiyə kimi formalaşmayıbdır.

Hər şeydən öncə xarici sözlər dilimizə reallıqla birlikdə və yaxud işarə ilə gəlir. Bəzən bu dəbin (modanın) nəticəsində baş verir. Elə də olur ki, başqa formada, çox vaxt dil və mədəniyyətlərin qarşılıqlı prosesi zamanı alınır. Müasir dilimizdə çox az

söz tapmaq olar ki, ilk yarandığı formasını və mənasını qoruyub saxlamış olsun.

Müxtəlif dövrlərdə, Azərbaycan dilinin xarici sözləri mənimsəməsi xalqın tarixində əks olunub. Başqa ölkələrlə iqtisadi, siyasi, mədəni əlaqələr, həmçinin hərbi döyüşlər dilin inkişafında öz izini qoyur.

Yeni sözlərin əksəriyyəti elmin, texnikanın, mədəniyyətin, iqtisadiyyatın və başqa sənaye sahələrinin inkişafı ilə bağlıdır. Bu sozlərin çox hissəsi öz mahiyyətini itirərək həyatımıza sürətlə daxil olur və fəal lüğət ehtiyatına çevrilir. Məsələn, XX əsrin 60-ci illərində, kosmonavtika, kosmonavt, kosmodrom, kosmik görüntü, kosmik gəmi və bir çox kifayət qədər yeni söz və terminlər meydana gəlmişdir. Ana dilimiz bu sözləri tez bir zamanda qəbul etdi və onlar dilimizdə mütəmadi işlənməyə başladı.

Yeni sözlər müxtəlif formada gəlir: biri artıq dildə olan sözün nümunəsi əsasında yaranır-avtodükan, kinopanorama və s.; başqası isə bütünlükdə götürülür və yaxud iqtibas olunur. Üçüncüsü, semantik formada dəyişdirilir ki, bu da, onun çoxmənalılığını artırır, dili zənginləşdirir. Ola bilsin ki, alınmış söz yalnız nominativ (adlıq), həm də, ekspressivlik (mənalı, təsirli) funksiyanı yerinə yetirməsin. Bir çox sözlər əşyanın əlaməti, anlayışı və təzahüründən onun qiymətləndirilməsinə keçir. Məsələn, autsayder, bum, nokaut publisistik üslubda başqa cür dərk olunur.

Nə vaxt ki, hər hansı bir azərbaycanlı öz ana dilində «birja işbazı» və yaxud «kirayəli qatil» sözlərini eşidir, o zaman onun təfəkküründə müəyyən təsəvvür yaranır. Əgər ona «broker» və yaxud «killer» sözlərini demiş olsaq, sadəcə olaraq o, bunu zəif, heysiyyətdan məhrum olmuş, uzaq və şüurda heç bir məna oyatmayan fikir kimi qəbul edəcəkdir.

Əgər biz, müasir mətbuatı analiz etmiş olsaq, heç bir çətinlik çəkmədən orda çoxlu xarici sözlərdən istifadə olunduğunun şahidi olarıq. Bu gün Kütləvi İnformasiya Vasitələrində xarici sözlərin çəkisi həddən artıqdır. Azərbaycan jurnalistikasında,

hətta ərəb, fars və türk sözlərindən geniş istifadə edildiyi zamanlarda da, vəziyyət bu günkü qədər acınacaqlı olmamışdır.

XX əsrin sonu və XXI əsrin ilk on ili ərzində başqa dillərdən götürülmə və yaxud onların çalarlarını, incə xüsusiyyətlərini özündə əks etdirən sözlərin istifadə miqyası artmış, qələm sahibləri isə bu sahədə aktivləşmişlər.

Oliqarx-ölkənin hakimiyyətinə, siyasətinə və iqtisadiyyatına təsir göstərə bilən iri monopolist kapital nümayəndəsi deməkdir. Əvvəllər bu söz heç yanda, hətta qədim dünya tarixində istifadə olunmurdu. Yalnız Qədim Sparta dövründə bu söz şərikli hakimiyyət mənasını verirdi. Lakin çağdaş dövrümüzdə, əsasən də, son illər mətbuatda bu söz mütəmadi olaraq səslənir.

Fərz edək ki, son illər mətbuatda işlənən oliqarx sözü, ciddi demiş olsaq, Qədim Sparta dövründəki əhəmiyyətini kəsb etmir və yalnız bir qrup maliyyə-siyasət istismarçısı mənasında işlənir. Bu söz birləşməsi sovet dövrünə aid olan bütün dərsliklərdə-dövlət və hüququn əsasları, siyasi-iqtisad, yeni tarix və başqalarında mövcud idi, ancaq o xüsusi məna kəsb etmirdi və termin kimi vurğulanmırdı. Ola bilsin ki, bu söz hər hansı xüsusi bir işlə bağlı müəyyən yerlərdə işlənsin, amma fakt kimi cəmiyyətin şüurunda yer almamışdır.

XXI əsrin əvvəllərində, daha doğrusu son illərdə, Azərbaycanın maliyyə oliqarxiyasında bu cür müxtəlif məna daşıyan sözlərin kifayət qədər olması tez bir zamanda dildə, əsasəndə, jurnalist dilində öz əksini tapmışdır. Artıq bu söz Azərbaycan dilinin bütün qaydalarını qəbul etmiş və dilimizdə möhkəmlənə bilmişdir. Yada salmış olsaq ki, sovet dövründə hər hansı bir dövlət xadiminin və yaxud siyasətçinin reytinqi haqqında söhbət gedə bilməzdir. Demokratiyanın mövcudluğu, müstəqilliyin əldə olunması imkan verir ki, hər hansı bir şəxsin reytinqini aparaq. Sözsüz ki, bütün bu kimi amillər dilimizə yeni sözlərin gəlməsinə səbəb olur.

Son illər məişətimizə daxil olan «mobil» və «prodakşin» sözləri hamı tərəfindən çətinlik çəkilmədən işlənsə də, cəmiy-

yətin çox bir hissəsi bu sözlərin Azərbaycan dilində olan mənalarından xəbərsizdir. Halbu ki, «mobil» sözünün yerinə heç bir çətinlik çəkmədən «səyyar», «prodakşin» ifadəsinin əvəzinə isə «tamaşaya qoyma, istehsal etmə, səhnələşdirmə» söz və ya söz birləşmələrini işlətmək olar. Məlum məsələdir ki, əgər ana dilimizdə olan hər hansı bir söz uzun müddət istifadə olunmazsa və o gəlmə sözlə əvəzlənərsə, sözsüz, müəyyən zaman kəsiyindən sonra unudulacaq, yaddan çıxacaq, yadlaşacaq, arxaizmə çevriləcəkdır. Bu məsələdə ən böyük iş, həm də məsuliyyət jurnalistikanın üzərinə düşür.

JURNALİSTİKADA İNFORMASİYA AXTARIŞI

XX əsrin 90-cı illərinin əvvəlində müstəqilliyini yeni qurmuş Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələri haqqında qanunun mövcud olmadığı bir zamanda, informasiya almaq, hazırlamaq və yaymaq o qədər də asan və hamar deyildir. Ancaq zaman keçdikcə vəziyyət müsbət tendensiyaya doğru dəyişməyə başladı. Beləki, 1995-ci ilin noyabrında referendum yolu ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasında norma və prinsiplər (50-ci maddə) müəyyən olundu. «Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi İnformasiya Vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.» (9,21-22) Bu maddənin tətbiqindən sonra, yəni həmin vaxtdan etibarən, vətəndaşlar onlara informasiyanın verilməsini tələb edərkən bilavasitə Konstitusiyaya ictinad edirlər.

Qeyd etmək yerinə düşər ki, müəyyən olunmuş norma və qanunların olmaması jurnalist olmayan vətəndaşların, bəzən hətta jurnalistlərin özlərinin də, informasiya almasına mane olur və onların işini məhdudlaşdırırdı.

Azərbaycan Respublikasında 7 dekabr 1999-cu ldə qəbul

olunmuş «Kütləvi İnformasiya Vasitələri haqqında» Qanun jurnalistlərin hüquq və azadlıqlarını müdafiə edən, o cümlədən informasiya almaq, hazırlamaq, yaymaq hüquqlarını tənzimləyən yeganə hüquqi sənəddir. «Bu Qanun Azərbaycan Respublikasında kütləvi informasiyanın axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını, habelə mətbuatın, informasiya agentliklərinin, televiziya və radio təşkilatlarının, vətəndaşların tam, doğru-dürüst və operativ informasiya almaq hüququnun həyata keçirilməsinə yönəldilmiş fəaliyyətinin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir.» (180)

Lakin o da məlumdur ki, informasiya məkanına daxil olmaq, informasiya almaq və bununla baxlı bütün proseslərdə iştirak edən jurnalistlərin bir qayda olaraq hüquqları pozulur. İnzibati təşkilatlardan tutmuş kriminal elementlərə kimi hamı qəzet səhifələrində dərc olunan və arzu olunmayan, xoşa gəlməyən publisistik məqalələrə görə jurnalistlərə təzyiq göstərməyə səy edirlər.

Təsdiq olunmuş qanunlara görə jurnalistlər başqa vətəndaşlarla müqayisədə daha rahat, daha çox informasiya almaq hüququna malikdirlər. Hətta cəmiyyətdə belə bir mif, əfsanə dolaşır ki, guya jurnalistlər üçün ayrıca hüquq və qaydalar mövcuddur və bunun vasitəsi ilə onlar istədikləri informasiyanı ala bilirlər. Məhz, «dördüncü hakimiyyət» ifadəsi də, bu mənbədən qaynaqlanır.

KİV haqqında Qanunun birinci bəndində informasiyanı almaq, hazırlamaq, yaymaq və başqa proseslər çox dürüst və aydın verilibdir. Bu maddədə deyilir: «Kütləvi informasiya-axtarılması, əldə olunması, hazırlanması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudlaşdırılmayan, ümumi istifadə üçün nəzərdə tutulmuş mətbu, audio, audiovizual xəbər və digər məlumatlar» (180) hesab olunurlar. Jurnalistlər öz peşəkar fəaliyyətinə məhz, bu qanunlara əsaslanaraq yanaşmalı, hərəkət etməli və onun «sərhədlərindən» kənara çıxmamalıdırlar.

KİV-i haqqında qanunun 10-cu maddəsində yazılir: «Kütləvi informasiya azadlığından sui-istifadənin yolverilməzliyi Azərbaycan Respublikasının qanunvericiliyi ilə qorunan sirləri yaymaq, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla devirmək, dövlətin bütövlüyünə qəsd etmək, müharibəni, zorakılığı və qəddarlığı, milli, irqi, sosial ədavəti, yaxud dözülməzliyi təbliğ etmək, mötəbər mənbə adı altında vətəndaşların şərəf və ləyaqətini alçaldan şayiələr, yalan və qərəzli yazılar, pornoqrafik materiallar çap etdirmək, böhtan atmaq, yaxud digər qanuna zidd əməllər törətmək məqsədilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir.» (180)

İnformasiya almaq, hazırlamaq və yaymaq məsələsində jurnalistləri vətəndaşlardan fərqləndirən yalnız bir cəhət mövcuddur. Bu da, onların dövlət orqanları, ictimai təşkilatlar və birliklərin fəaliyyəti haqqında əməli, operativ, mötəbər, inanılmış, doğru, yoxlanılmış mənbələrdən informasiya ala bilmələridir. Bütün bunlar isə birbaşa onların peşəkarlığından irəli gələn amil kimi qiymətləndirilə bilər.

Bunlarla yanaşı, qanun jurnalistlərin də qarşısında müəyyən tələblər qoyur. Belə tələblər istər jurnalistlər, istərsə də mətbuat orqanları tərəfindən mütləq yerinə yetirilməlidir. KİV-i haqqında qanunun 4-cü maddəsində deyilir: «Kütləvi İnformasiya Vasitələrinin redaksiyaları öz fəaliyyətlərində obyektiv informasiyanın şəraitə uyğun mükəmməlliyinə, peşəkarlığa, hər kəsin doğru-dürüst informasiya almaq, fikir və söz azadlığı hüququna, vətəndaşların şəxsi həyatına hörmətlə, peşə etikasına əməl edilməsinə, pornoqrafik materialların istehsalı və yayımının yolverilməzliyinə əsaslanmalıdır.» (180)

Məsələyə bu cür yanaşma dövlət orqanları və onların məmurları üçün əlverişli hesab oluna bilər, çünki onlar informasiyanın yayılması prosesinə nəzarət etməklə bərabər, həm də onunla manipulyasiya edirlər.

Belə bir vəziyyətdə jurnalistlər «Kütləvi İnformasiya Vasitələr haqqında Qanun»a müraciət etməkdə davam edirlər. Çünki bu qanunda jurnalistlərin informasiya almaq hüquqlaı

ilə yanaşı, onların fövqəladə hallar zamanı (qəza, faciə, fəlakət və s.) informasiya məkanına daxil olmaq işini asanlaşdıran, həmçinin özlərini bəzi məqamlarda müdafiə edən bir çox maddələr də mövcuddur. Odur ki, hər bir jurnalist və yaxud jurnalist peşəsi ilə məşğul olmaq istəyən hər bir kəs «Kütləvi İnformasiya Vasitələri haqqında Qanun»u mütləq bilməli və özünün peşə borcunu yerinə yetirərkən ona istinad etməlidir.

Qanunvericilik informasiya almaq baxımından bir tərəfdən-dövlət orqanları (təşkilatlar, idarələr), ictimai birliklər, ikinci tərəfdən isə xüsusi təşkilatlar arasında kifayət qədər fərq qoyur.

Qanun dövlət orqanları və təşkilatları, ictimai birlikləri və onların məsuliyyətli şəxsləri qarşısında öz fəaliyyətləri haqqında informasiya vermək tələbini qoyur. Qanun informasiya verməyin bir neçə üsulunu müəyyən edir:

a).İnformasiya sorğusuna cavab;
b).Press-konferensiya keçirmək;
c).Statistik və arayış materiallarına əsaslanma;
ç).Ehtimal və başqa üsullardan istifadə;
d).Hər hansı bir təşkilat və yaxud ona tabe olan idarənin fəaliyyəti haqqında informasiya hazırlamaq.

Jurnalist, həmçinin şifahi formada sorğu ünvanlaya bilər. Bu KİV haqqında qanunda nəzərdə tutulubdur. Belə imkandan məhrum olan jurnalistlər başqa vətəndaşlar kimi bu və yaxud başqa təşkilat və müəssisələrin müəyyən etdiyi qaydaya tabe olmalıdırlar.

Qanuna əsasən cəmiyyət üçün açıq olan bütün dövlət informasiya mənbələrindən (bu qayda dövlət sirri sayıla biləcək informasiyalara şamil olunmur) fərqli olaraq, şəxsi təşkilatlar və insanlar haqqında informasiyanı yalnız onların icazəsi, razılığı olduqdan sonra yayıla bilər.

KİV-i haqqında qanun jurnalistlərə informasiyanı axtarmaq, istəmək, tələb etmək hüququ verir. Onlar müəllif və in-

tellüktual hüquqlar qorunmaq şərti ilə, sənəd və materiallarla (yuxarıda söylədiklərimiz istisna olmaqla) tanış ola, həmçinin onun surətini çıxara və nəşr etdirə bilərlər. Bu hal KİV-haqqında qanunun 11-ci maddəsində təsbit olunubdur.

Həmin maddədə deyilir: «İnformasiyanın elan edilməsinə yol verilməyən xüsusi hallar:

1).Şəxsin gizli saxlanmaq şərti ilə verdiyi məlumatı yayılan xəbər və materialda açıqlanmasına;
2).Adının bildirilməməsi şərtilə məlumat vermiş şəxsin kimliyini göstərməsinə;
3).Prokurorun və yaxud müstəntiqin icazəsi olmadan istintaq sirri hesab edilən faktların açıqlamasına;
4).Cinayət etməkdə təqsirləndirilən yetkinlik yaşına çatmayanların və yaxud qanuni nümayəndələrinin razılığı olmadan onların şəxsiyyəti barədə hər hansı məlumatı yaymasına yol verilmir.

Bu maddənin 3-cü bəndinin tələbləri jurnalistin müstəqil təhqiqat aparmaq hüququnu məhdudlaşdırmır.» (180)

Hərdənbir elə təsadüflər olur ki, jurnalistə sorğu nəticəsində almaq istədiyi informasiyanı əsaslandırmağı lüzum bilirlər və bunun üçün minnətdarlıq etməsini gözləyirlər. Bu isə jurnalisti qıcıqlandırır, bəzən də, sadəcə olaraq hirsləndirir. Həqiqətənmi jurnalist almaq istədiyi informasiyanı əsaslandırmalıdır? Əgər söhbət dövlət informasiya mənbəyindən gedirsə və bu informasiya xüsusi təyinatlı informasiya qrupuna aid edilmirsə, əlbəttə ki, yox...

ÜSLUBİYYAT

Jurnalistikada üslub məsələsi xüsusi əhəmiyyət kəsb edir. Haqlı olaraq belə hesab edirlər ki, sənətkar-jurnalistin bütün bacarıq və istedadı hər şeydən əvvəl onun üslubunda ifadə olunur. Çünki jurnalistin psixoloji tərzi və temperamenti özünü qa-

barıq formada ilk öncə onun uslubunda büruzə verir, təzahür edir.

Üslubun dolaşıqlığı, anlaşılmazlığı ideya, rəy, fikir, mülahizə və məntiqin qeyri-müəyyənliyinin əlamətidir. «Dili dolaşıq şəxsin fikri də dolaşıq» (52,294) olacaqdır. Dildə ibarəpərdazlıq etmək, fikri qəliz ifadələrlə izah etmək jurnalisti oxucu auditoriyasından ayrı salmağa xidmət edən amildir. Belə fəaliyyətin nəticəsində müəllif «yetim» qalar və onun üslubu məqbul sayıla və auditoriya tərəfindən qəbul oluna bilməz. «İbarəpərdazlıq fikrin boşluğuna və bir dərəcədə yoxluğuna dəlalət eləyir, doğru və səlamət fikirli adamların kəlamı həmişə aydın, açıq və düzgün olur. Ancaq sərsərilərin və müxtəlif-şüur kəslərin sözləri başsız və binasız olur ki, onları anlamaq qeyri-mümkündür.» (52,294)

Dil vasitələrindən məqsədyönlü və düzgün istifadə etməyə üslubiyyat (üslub) deyilir. Üslub dedikdə hər şeydən öncə gözümüzün qarşısında iki forma-ümumi və xüsusi üslublar canlanır. İctimai baxımdan istifadə olunan üslub ümumi, fərdi nöqteyi-nəzərdən istifadə olunan üslub isə xüsusi adlanır. (105)

Ümumi üslub ictimai xüsusiyyət, məzmun daşıdığından funksional üslublar ortaya çıxır. Funksional üslublar milli-ictimai məzmun daşıdığından onlar milli adət-ənənənin bütün sahələrini özündə cəmləşdirir. Məhz bu baxımdan funksional üslublar bir neçə növə bölünürlər və ədəbi dili təşkil edirlər. Bu təqdirdə ədəbi dilin bütün normaları funksional üslubların hamısı üçün məcburidir və inkaredilə bilməz. Ədəbi dil dedikdə, ilk öncə yadımıza düşən fonetik, leksik, qrammatik normalar olur. O ki, qaldı fərdi üsluba, yuxarıda söylədiyimiz kimi o xüsusi səciyyə daşıyır və adından da, bəlli olduğu kimi bir şəxsə və yaxud bir mətbuat orqanına aid olur. Buna görə də, hər bir yazıçının, şairin, jurnalistin özünəməxsus fərdi üslubu mövcuddur. Dilin üslub imkanları nə qədər genişdirsə, dilin özü də, bir o qədər zəngin və müxtəlif çalarlarla boldur. Əgər biz klassik Azərbaycan jurnalistikası tarixinə nəzər salmış olsaq görərik ki, istər ayrı-ayrı mətbuat orqanlarının «Əkinçi», «Molla Nəsrəddin»,

«Füyuzat», «Şəlalə», «İrşad», «Yeni iqbal», «Kirpi», istərsə də, ayrı-ayrı qələm sahibləri H. Zərdabi, F. Köçərli, Ü. Hacıbəyli, C. Məmmədquluzadə, Ə. Hüseynzadə, Ə. Ağayev, Ə. Topçubaşov, Ö. F. Nemanzadə və başqalarının hər birinin özünəməxsus üslubu, dili mövcud olmuşdur. Hətta bu gün aparılan elmi araşdırmalar zamanı hansısa mətbuat orqanını və yaxud qələm sahibini, ədibi onun üslubuna əsasən müəyyənləşdirmək mümkün olur.

Azərbaycan ədəbi dilinin funksional uslublarına-bədii, elmi, məişət, rəsmi, işgüzar, publisistik növləri aid etmək olar. Bu üslubların ayrı-ayrılıqda hər birinin özünəməxsus xüsusiyyətləri var. Jurnalistika tarixinə nəzər yetirmiş olsaq, asanlıqla bir üslubu digərindən ayıra bilərik. Bədii üslub obrazlığına, elmi üslub terminlərin istifadəsinə, rəsmi üslub xüsusi ifadələrinə, işgüzar üslub mahiyyətinə və s. fərqləndikləri halda publisistik üslub bunların hamısının toplusu halında çıxış edir. Hər bir şəxs fərdi olaraq həyatda daha çox publisistik üslubla rastlaşır.

«Abbasqulu ağa Bakıxanovun «Nəsihətnaməsi», Mirzə Fətəli Axundzadənin dərin məzmunlu komediyaları, Qasımbəy Zakirin məktubları, Hacı Heybətbəy Fədanın «Məkkə səfərnaməsi», Hacı Seyid Əzimin mövzun əşar və kəlamı, Həsənbəy Məlikzadənin ülum və fünunə dair yazdığı kitablar və siyasi məqalələr-cümləsi açıq və aydın dildə yazılmış əsərlərdir» (52,293) və onların hər birinin öz üslubu var.

Müasir zəmanədə istər qəzet və jurnal səhifələrində, istərsə də elektron kütləvi informasiya vasitələrində cəmiyyətin daha çox qarşılaşdığı üslub, həm də ədəbi dilin formalaşmasında və tərəqqisində əhəmiyyətli rol oynayır. Ona görə də, publisistik üsluba hər bir jurnalist daha diqqətli və daha məsuliyyətli yanaşmalıdır. Bu üslublar bir-birindən nə qədər fərqlənsələr də, onların hamısı ədəbi dilin tərkib hissəsini təşkil edirlər.

«Üslublar, həmçinin diferensiyaya (ayrılma, ixtisaslaşma), o cümlədən inteqrasiya (yaxınlaşma) prosesinə məruz qala bilər. Birinci halda ədəbi dil ixtisaslaşır (yəni, üslublar bir-birindən fərqlənir, ayrılır), ikinci halda isə onlar hamı üçün başa düşülən olur.» (105,194-211)

Dilin bütün uslubları arasında fərdi uslubun xüsusi çəkisi var. Demək olar ki, başqa üslublarda, rəsmi-işgüzar üslub istisna olunmaqla, fərdi üslub var və o duyulur. Fərdi üslub müxtəlif qələm sahiblərinin ümumi dünyagörüşü, təfəkkürü, düşüncəsi ilə qırılmaz tellərlə bağlıdır. Jurnalistika tarixinə nəzər salmış olsaq görərik ki, Firidun bəy Köçərli, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev və başqalarının hər birinin özünəməxsus fərdi dil üslubu olmuşdur. Qeyd etmək lazımdır ki, fərdi dil üslubunu ictimai-tarixi şərait yaradır və formalaşdırır. Fərdi üslub hər hansı bir şəxsin dünyagörüşü, həyat tərzi, yaşadığı dövr, əhvali-ruhijjəsi, qohumluq-qonşuluq və s. münasibətləri ilə, hətta ovqatla bağlı ola bilir.

XX əsrin əvvəllərində dil məsələsi məhəlli müzakirələrdə, məclislərdə, qəzet və jurnal səhifələrində müzakirə obyektinə çevrilmişdir. Kimi İstanbulda işlənən ədəbi dili, kimi ərəb və fars sözləri ilə zəngin olan Şərq dillərini, kimi rus dilini, kimi Avropa dillərindən nümunələr gətirirdi. Kimisi isə tamamilə yeni ümumi bir dili yaratmağı təklif edirdi. Belə bir çətin zamanda görkəmli qələm sahibləri sinələrini irəli verərək mübarizə meydanına atıldılar. İlk məqalələrdən biri publisist alim Firidun bəy Köçərli tərəfindən yazıldı və dövrün sayılıb seçilən mətbuat orqanı olan «Molla Nəsrəddin» jurnalının 1913-cü ilin payızında nəşr olunan sayında işıq üzü gördü.

Həmin məqalənin bir yerində ədib yazırdi: «Allah Əlibəy Hüseynzadəyə insaf versin. Kaş o alicənab İstanbulda rahat əyləşib, bizim şumbəxt Qafqaza təşrif gətirməyə idi. O, cənabın elm və kamalına sözümüz yoxdur. Sözümüz ondadır ki, elm və kamalından bizə bir bəhrə vermədi, ancaq dilimizə pozğunluq saldı, təzə dil gətirdi. Ətrafını bir dəstə meymunlar bürüdü və ona təqlid etməkdə bir-birinə macal verməyib, «böyük hünərlər» göstərdilər. Az vaxtın içində Qafqaz türklərinin dili osmanlı sözləri və istilahları ilə doldu: «işbu», «iştə», «şimdi», «şol», «əfəndim», «baqalım», «nasıl» sözləri qəzet sütunlarını doldurdu.» (53)

Uslub məsələsi jurnalistikada əhəmiyyətli yerlərdən birini tutur və xüsusi çəkiyə malikdir. Peşəkarın şəxsiyyəti hər şeydən öncə onun üslubunda ifadə olunur. Jurnalistin peşəkarlığını göstərən bütün priyom və vasitələr qələm sahibinin üslubunu müəyyən edən amil hesab olunur. Həmin vasitə və priyomların doğru və düzgün istifadə edilməsi müəllifin üslubunu müəyyən edir. Hər bir jurnalist cəmiyyətdə müxtəlif yer tutur və bir-birindən fərqlənir. Bununla belə, hər bir jurnalistin öz dəsti-xətti, öz üslubu olmalıdır. Bu jurnalistin meyarı kimi başa düşülə bilər.

Jurnalist mətni-bu özünün qanunauyğunluqlarına və xüsusiyyətlərinə uyğun qurulmuş xüsusi yaradıcılıq məhsuludur. Publisistik üslub bir-birinə əks cəbhədə duran iki vahid ideyaya, özünə xas olan-standart və ekspressiv (mənalı, təsirli) xüsusiyyətlərinə görə müəyyən olunur.

1.Publisistikada standartlığa meyillik, rəsmi-işgüzar və elmi üslubun ciddiliyinə və informasiyaya təşəbbüsü göstərir.

2.Publisistikanın canlı və maraqlı, anlaşıqlı və cəlbedici formada ifadə olunması, bədii ədəbiyyat və danışıq dilinə xas olma xüsusiyyətləri isə onu ekspressiv təmayüllü edir.

JURNALİSTİKADA ETİK DAVRANIŞ

Publisistin maraq mövqeyi jurnalist yaradıcılığının subyektiv başlanığıcının ümumi problemində nümayiş olunur. «Müəllif mövqeyi» anlayışının jurnalistikaya uyğun gəlib və yaxud gəlməməsi nə deməkdir? Bu ifadə KİV-nin nə dərəcədə obyektiv olmasını tələb edir, bunun ətfafında çoxlu danışıqlar aparir, ümumiyyətlə, bu jurnalistikanın etik kodeksində yazılıbdırmı? Mövqeyin ifadə olunması, jurnalist fəaliyyətini konkret janrla bağlayır və yaxud heç bir əhəmiyyət kəsb etmir. Müəllif öz fikrini ifadə etdiyinə görə ictimaiyyət qarşısında hansı məsuliyyəti daşıyır, bir sözlə, bu auditoriyaya lazımdırmı? Bu suallara cavab

vermək gündəmə gətirdiyimuz mövzunun əsas məqsədidir. (6)
Beləki, son vaxtlar «obyektiv jurnalistikanın» olub və yaxud olmaması ilə bağlı çoxlu fikirlər dolanır. Jurnalistlər kimin əqidəsini ifadə edirlər? Bir fikiri tam əminliklə söyləmək olar ki, bu gün mətbuat müəlliflərin subyektiv qiymətləri ilə çox zəngindir, hətta aşıb-daşır.

Jurnalistin peşəkar etikası: müəllif mövqeyi və subyektivlik

Etik mədəniyyət şüur və bilik, mövcud olan hər şey barədə təsəvvürlər, dəyərlər sistemi, əxlaqi davranış və münasibətlər, o cümlədən insanların mənəvi həyat və fəaliyyətinin ümumi məcmuəsidir. Etika insan və cəmiyyətin ruhi inkişafındakı keyfiyyət və nailiyyətlərin səviyyəsini müəyyən edən təkamül prosesidir. İnsanda mövcud olan maraq, təlabat, bilik və xüsusiyyətlər etik mədəniyyətin əsasını təşkil edir və bunun nəticəsində insanın cəmiyyətdə formalaşması baş verir. İctimai şüurun formalarından biri olan etik mədəniyyət insanların irsi keyfiyyət və tərbiyəsinin, həmçinin bütövlükdə ictimaiyyətin maddi rifahından asılıdır. Əgər biz məsələyə bu kontekstdə yanaşmış olsaq, müasir həyatda jurnalist peşəsinin etika ilə nə qədər bağlı olduğunun şahidi olarıq. Bilik, mədəniyyət, istək və arzu, tələb və maraq çağdaş dövrün əsas hissəsini təşkil edir, sözsüz ki, bunların hamısı mətbuatda öz təzahürünü tapır. Demək, jurnalist peşəsində etik mədəniyyətin meyarının nə qədər olması, cəmiyyətin etik mədəniyyətinin hansı səviyyədə olmasını müəyyən edən fakt kimi qəbul oluna bilər.

Azərbaycan Respublikasında qəbul olunan «Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Qanun»unda, dövlət qulluqçuları üçün etik davranış qayda və prinsipləri və onlara əməl edilməsi ilə bağlı mexanizmlər müəyyən edilmişdir. Bu prinsiplər mətbuata, o cümlədən, bu sahədə çalışan bütün işçilərə, şamil oluna bilər. Bu Qanunun 4-cü maddəsində «Vicdanlı davranış», 5-ci maddəsində «Peşəkarlıq və fərdi məsuliyyətin artırılması», 7-ci maddəsində «İctimai etimad», 9-cu

maddəsində «Mədəni davranış», 11-ci maddəsində «Qərəzsizlik» və başqa bu kimi mədəni keyfiyyətlərin hissələri fəlsəfənin «vicdanlı, dəqiq, qərəzsiz» qızıl qanununu təkrarlaması kimi də, başa düşülə bilər. Əgər bura «Kütləvi İnformasiya Vasitələri haqqında Qanun»un 4-cü maddəsinin «Jurnalist etikası» yəni, «peşə etikasına əməl edilməsi» bölməsini də əlavə etmiş olsaq, onda məsələnin nə qədər vacib olduğunun şahidi olarıq. Cəmiyyətin «güzgüsü» rolunu ifa edən mətbuat, əsasəndə, mətbuatın sütununu təşkil edən jurnalistlər etik normanın tələblərinə hamıdan çox maraq göstərməli və onların həyatda real qaydalara çevrilməsinə var gücləri ilə çalışmalıdırlar.

Etik norma və qaydaların dəyəri ondadır ki, bütün həqiqətlər, insan cəmiyyəti və onun varlığı, ictimai şüurda formalaşan əxlaq prinsipləri haqqında aksioloji ideyalar burda formalaşır. Etikanı, fərdlərin ehtiyac və tələbatları ilə xeyirxahlığı arasındakı harmoniya vasitəsi kimi nəzərdən keçirən Kant, «mənəviyyatın qorunması üçün Allahın mövcudluğu və ruhun əbədiliyinin qəbul edilməsini zəruri hesab edirdi.» (197)

Bu nöqteyi-nəzərdən çıxış edərək söyləmək olar ki, mətbuat və jurnalistlər, ümumiyyətlə, bütünlükdə jurnalistika etik norma və qaydalar çərçivəsində hərəkət etməlidir. Jurnalistika etikanın təbliğatçısı və təşviqatçısıdır, ondan kənarda mövcud deyil. Demək, jurnalistika etik qayda və normaların lokomotivi, daha doğrusu, ilhamrvericisidir.

Son zamanlar çoxları mətbuatın boş vədlər vermәsindən, jurnalistlərin qeyri-obyektivliyindən, həmçinin onların satqınlığı haqqında danışır, əlbəttə ki, bu kimi neqativ hallar oxucu auditoriyasının jurnalist-peşə sahiblərinə olan inamını sıfıra endirir. Bununla belə, azad və müstəqil mətbuat hər yerdə demokratik cəmiyyətin ayrılmaz hissəsi hesab olunur. Jurnalistlərin siyasi ədalətsizliyi və əvvəlcədən hasil olan qənatə gəlmə potensialı haqqında kifayət qədər söz-söhbətlər eşidilir. Bu məntiqə əsaslanaraq söyləmək olar ki, qələm sahibləri sadəcə olaraq peşəkar ədəb qaydalarını pozurlar. Bu halda, jurnalist etikasının əsas prinsiplərinə nəzər salmaq doğru olardı.

PEŞƏKARLIQ KODEKSİNİN JURNALİSTİKADA OBYEKTİVLİYİ HAQQINDA

Etika-bu insanların özlərinə bərabərləri ilə ünsiyyət qurmasına və əxlaq-ədəbin ümumi prinsiplərinə həsr edilmiş qərar, fəlsəfi elmdir.

Jurnalist etikası-anlayışı burda, jurnalist hərəkət tərzini öyrənmək, təcrübədə peşəkar standartlara uyğun tətbiq etmək və spesifik xüsusiyyətlərə xas olan ədəbi-əxlaqi seçim mənasını ifadə edir. Jurnalist etikasında qiymətləndirmə və əxlaqi prinsiplər sistemi, qaydalara əsasən, gündəlik mətbuatın fəaliyyətində meydana gələn problemlərin seçimi ilə birləşir.

«Etika» sözünün yunan dilindən tərcüməsi «adət, xasiyyət, meyar» mənasını verir. Müxtəlif elmi mənbələrin gəldiyi qənaəti ümumiləşdirmiş olsaq «etika» əxlaq, onun mənşəyi və inkişafı, insan davranışının norma və qaydaları, insanların özünə, ailəyə, bir-birinə, cəmiyyətə, vətənə, dövlətə və bütünlükdə bəşəriyyətə olan münasibəti və yaxud bu vəzifələr haqqında təlim deməkdir. Buna bahəm etika əsasən iki ölçüdə nəzərdən keçirilir: insan davranışının müəyyən qayda və normalarının cəmi olan normativ etika və əxlaqın fəlsəfi nəzəriyyəsi olan metaetika kimi. Bir çox etik təlimlər isə bunu əxlaqi və yaxud ilahi iradənin təzahürü və yaxud, insanın özünün yaradıcılığı kimi qiymətləndirirlər.

Müəyyən vəziyyələrdə qiymətləndirmə seçimi apararkən çox vaxt «doğrudur və yaxud doğru deyil» anlayışı, haqlı-haqsızlıq dərəcəsi ilə üzləşməli olan jurnalistə, bu məqamda seçim etmək çox çətin olur. Bu cür əxlaqi-mənəvi konfilikt daima baş verir, zaman-zaman toplanmış təcrübə bunun həllini öz əksini təsvir edən peşəkar əxlaqda tapır. Bu üsul «jurnalist etikası» anlayışında mövcuddur və xəbərlərin seçilməsində özünü bariz göstərir. O ki, qaldı «jurnalistikada etikaya», bu güman etmək, düşünmək, fikirləşmək, əxlaq, hərəkət tərzi kodeksi kimi anlaşılır, başa düşülür və qəbul olunur.

Spesifik vəziyyətlərdə qərarın qəbul olunması prosesinə jurnalist etikası şamil edilir, lakin burda, seçim fundamental qayda və prinsiplər əsasında aparılmalıdır. Etik normalarda yazılmış peşə qayda və prinsipləri ilə jurnalistlər razılaşmalıdır, çünki bu cür seçim mütləq lazımdır. Qərarın qəbul olunmasında düzgünlük və yaxud qeyri-düzgünlük dərəcəsini müəyyən etməkdə, təcrübədə, əxlaqi seçimdə bu prinsiplər jurnalistə nisbətən olsa da, azadlıq verir, beləki, həyatın bütün vəziyyətlərində əxlaqi prinsiplər tapmaq, reallığı əks etdirən qərarı vermək qeyri mümkündür. Bir çox etik norma və prinsiplər qanunda kodifiksasiya edilir. Bu halda dövlət öz vətəndaşlarından, onlar tərəfindən qəbul olunan konkret qayda və yaxud prinsiplərə riayət etməyi tələb edir. Jurnalist etikası isə daha çox fərdi azadlıq verir. (6)

Beləliklə, bu peşənin sahibi olan jurnalistlər, hardakı standart variantlar çoxdur, mütləq qaydalar bir o qədər azdır, etik və qeyri-etik əməllər arasında seçim edərkən mümkün olan bütöv spektr qərarlara malikdir. Bir çox tədqiqatçılar indiyə kimi mütləq qərara gələ bilmirlər ki, jurnalistin «etik» hərəkət tərzinin məğzini nə təşkil edir.

Jurnalistin etik hərəkət tərzini müəyyən edən bir sıra kodekslər mövcuddur. Onların hamısında əxlaqi və qeyri-əxlaqi hərəkətlər əsas yeri tutur. Başqa sözlə, kodeks mətbuatda, yalnız nəyi etmək və yaxud necə etmək qaydalarını yazmır və nəyi olmaz məfhumuna aksent etmir. Çağdaş dünya jurnalistikası ilə bir çox neqativ amillər uzlaşa bilməz. Ümumiyyətlə, mətbuat üçün qəbul olunmuş xartiyalardan belə nəticəyə gəlmək olar ki, informasiyanı nəşr etmək, onu cəmiyyətə açıqlamaq üçüncü şəxsin siyasi marağından asılı olmamalıdır. İmkan vermək olmaz ki, informasiya kampaniyasını təşkil edən konyektura qəsdən, məqsədyönlü şəkildə vətəndaşları və təşkilatları nüfuzdan və hörmətdən salsın. Yalan yolu ilə informasiyanın alınmasına, həmçinin, qorxutmaq və yaxud pulla almaq və yaxud öz tərəfinə çəkmək və s. bu kimi variantlara yol vermək olmaz. Müsahibin inamından, emosional vəziyyətindən istifadə edən jurna-

list, sonra onun dediklərini adekvat, eyni cür qiymətləndirməyi bacarmadığına görə, bundan öz məqsədləri üçün sui-istifadə edə bilməz və bu tamamilə mümkün hesab olunmur. Qəsdən çaxnaşma və təlaşa təhrik etmək, kütləvi narahatlıq və nizamsızlıq yaratmaq, nəqliyyat vasitələrinin hərəkətinin pozulmasını təşkil etmək və başqa bu kimi həyat üçün təhlükəli olan fitnə-fəsadlarla dolu informasiyanın geniş yayılmasına heç cür imkan verməklə olmaz. Ümumiyyətlə, peşə etik normalarının ümumi pozulmasına aşağıdakı məqamları şamil etmək olar: insanların informasiya almaq hüquqlarının pozulması, onların öz fikirlərini azad ifadə edə bilməməsi, həmçinin şəxsiyyətin şərəf və ləyaqətinə toxunulmada jurnalistlərin qəbahəti, günahı heç də, az deyil.

Lakin bu məsələyə real yanaşsaq, deyə bilərik ki, etik kodeks peşəkar jurnalistin mənəviyyatı, əxlaq normalarını qoruyub saxlaması, daha doğrusu, mövcud prinsipləri pozmaması üçün yazılır. Azərbaycanda peşəkar jurnalist etikası kodeksinin ilkin variantı ATƏT-in Bakı ofisi, Prezident Administratsiyası və Mətbuat Şurasının birgə iştirakı ilə hazırlanaraq 6 sentyabr 2010-cu ildə, ictimaiyyətə təqdim olunubdur. Bu sənədin qəbul olunması və qüvvəyə minməsi Azərbaycan jurnalistikasına əhəmiyyətli dərəcədə kömək edəcək, bir çox neqativ halları aradan qaldıracaq, çoxsaylı məhkəmə çəkişmələrinə son qoyacaq, ictimaiyyətlə jurnalistika arasında bir körpü rolunu oynayacaqdır.

JURNALİSTİKA VƏ İNTERNET

İnternet-müstəqil və müasir Azərbaycanda sürətlə tərəqqi edən, jurnalistikaya təsir və kömək göstərən əhəmiyyətli, eyni zamanda ucuz və güclü mexanizmdir. İnternet jurnalistlər və onların informasiya agentlikləri arasında rabitə qurmaq, həmçinin bu əlaqələrin möhkəmlənməsi üçün vacib işlər görür. İnternet, jurnalistlərlə onların informasiya mənbələrini birləşdi-

rir, inamlı və tez ünsiyyət qurmağa kömək edir, baxmayaraq ki, bu mənbələr arasında bir neçə min kilometr məsafə var. (89) Bu mexanizmin köməyi nəticəsində Azərbaycanın Kütləvi İnformasiya Vasitələri inkişafda olan elektron şəbəkə ilə xarici ölkələrlə qısa zaman kəsiyi ərzində rabitə yarada bilir.

Baş vermiş iqtisadi, siyasi və fors-major zamanı İnternet alternativ informasiya metodu kimi nümayiş olunur. Ağır iqtisadi problemlərlə üzləşən millətlərə, avtoritar rejimlərin hökm sürdüyü ölkələrə, ağır fövqəladə fəlakətlə üzləşən ərazilərə İnternet vasitəsi ilə xəbərlər çatdırılır, alınır, reklamlar nümayiş etdirilir, yeni maliyyə, texniki, sosial yardımlar göstərilir.

XX əsrin 90-cı illərinin əvvəllərində, Azərbaycanda İnternet vasitəsindən istifadə edən Kütləvi İnformasiya Vasitələri və İnformasiya Agentliklərinin sayı sıfıra bərabər idisə, XXI əsrin ilk on illiyində bu rəqəm inanılmaz həddə çatmışdır. Bu gün elektron xidmətlərindən istifadə etmə üç kateqoriyaya bölünür:

1.Modem ilə telefon nömrəsinə və mübahisəli yerli informasiya mərkəzinə qoşulan elektron elan lövhəsi;

2.Amerika Onlayn (America Online), Kompyuserv (Compuserv) və başqa elektron ticarət xidmətlərinə qoşulan qəzetlər;

3.WWW (World Wide Web) qovşağına əsaslanan İnternet elektron xidmətləri. Bu cür rabitənin əksəriyyətindən istifadə pulsuzdur, daha doğrusu, gəlirin çox hissəsi elektron vasitəsindən əldə edilir (lakin bir çox qəzetlər eksperiment xatirinə daha artıq sayda xidmətdən istifadə etmək üçün ödənişli vasitələrdən istifadə edirlər). (71)

İnternetin elektron şəbəkəsi informasiya ilə daha çox zəngindir. Odur ki, vaxt itirmədən bu şəbəkəyə qoşulmaq lazımdır. Məlum olduğu kimi bu gün İnternet Azərbaycanda jurnalistləri, jurnalistika sahibkarlığını informasiya ilə tam təmin edir, onun inkişafına böyük xidmət göstərir. İnternetə qoşulmamaq çox şey itirmək deməkdir.

JURNALİSTLƏRİN İNFORMASİYA İLƏ TƏMİN OLUNMA SİSTEMİ

Bu gün, Azərbaycanda baş verən hadisələr haqqında jurnalistləri informasiya ilə təmin etmək üçün kifayət qədər açıq və geniş sistem mövcuddur. Bu sistemin əsas formalarına aşağıdakılar daxildir:

1.Brifinq-hakimiyyət strukturları ilə kütləvi informasiya vasitələri işçilərinin birgə keçirdiyi, bu və yaxud başqa suallarla bağlı apardığı qısa müşavirə;
2.Prezentasiya-hər hansı dövlət, ictimai və özəl təşkilatların informasiya vermək üçün keçirdiyi, həmçinin aktual hadisələrlə bağlı və yaxud onların suallarını cavablandırmaq üçün təçkil olunan görüş;
3.Press-reliza-müvafiq olaraq müxtəlif mətbuat xidmətləri tərəfindən mətbuat üçün hazırlanmış, mövcud fakt və yaxud fəaliyyət dairəsini əhatə edən xüsusi informasiya;
4.Xüsusi informasiya bülleteni-bu və yaxud başqa fəaliyyət dairəsi haqqında cari hadisələri hazırlayan korporativ informasiya agentliyi.
5.Fövqəladə (fors-major) xəbər-faks və yaxud elektron poçt vasitəsi ilə kütləvi informasiya orqanlarına mətbuat katibliyi və yaxud mətbuat xidməti, o cümlədən müxtəlif idarələrin və ictimai təşkilatların mətbuat mərkəzləri tərəfindən verilən informasiya.

Bu sistemə daxil olan və yuxarıda adları çəkilən formalar Kütləvi İnformasiya Vasitələrinin redaksiyalarını işgüzar məlumatlarla təchiz edirlər. Sonra bu informasiyalar öz əksini dövri nəşr və efir jurnalistikasında tapır. Jurnalistlərin klub və cəmiyyətlərini ayrıca xatırlamaq daha yaxşı olardı. Faktiki olaraq onlar informasiya istehsalçısı hesab olunmurlar, amma əhə-

miyyətli məlumatların mübadiləsi və yayılmasına, həmçinin bu sahə üzrə müqavilə və kontraktların bağlanmasına imkan yaradırlar. Buna, təyin (vəkil) edilmiş və son illər liberallaşma nəticəsində sayı həndəsi tərəqqi hesabına çoxalmış xarici KİV-i birliklərinin timsalında nümunə göstərmək olar.

Müxtəlif informasiya kanallarından aydın olur ki, auditoriya ilə daha çox qarşılıqlı anlaşma yalnız o zaman baş verə bilir ki, onlar (jurnalist və auditoriya) vahid sistemin elementi kimi bunu birlikdə etsinlər. Məhz, diqqətə almaq lazımdır ki, insan və cəmiyyət eyni zamanda, bir neçə informasiya mənbəyinin təsiri altında olur, onlar gah bu mənbənin verdiyi informasiyanı təsdiq edir, gah da, onun doğru olmadığını vurğulayaraq inkar edir, nəticədə bir-birinə tamamilə zidd olan iki fikir formalaşır, şübhəsiz ki, KİV-nin bu cür məhsullarını qəbul edən auditoriya özündə qeyri-rahatlıq hiss edir, təlaş keçirir və hətta elə hallarda olur ki, tibbi köməyə ehtiyac duyulur.

Yüksək dərəcədə əhəmiyyətli olanı odur ki, bu gün jurnalistlərin dövlət orqanları, idarə və müəssisələrindən (dövlət sirri hesab olunmayan), o cümlədən ictimai təşkilat və birliklərdən, həmçinin vəzifəli şəxslərdən informasiya almaq hüququ qanunla tənzimlənsə də, həmişə buna nail olmaq mümkün olmur. Bu isə öz növbəsində informasiya boşluğuna və qeyri-obyektivliyə gətirib çıxarır.

BÜTÜN MÜƏSSİSƏ VƏ TƏŞKİLATLAR İNFORMASİYA MƏNBƏYİ KİMİ

Müasir zamanda informasiyanı əldə etmək, həqiqətin dəyişmə ampilitudasını müəyyən etmək, həyatın görünməyən tərəflərini oxucu auditoriyayasına olduğu kimi çatdırmaq mütləq hesab edilsə də, halbu ki, hər zaman buna nail olmaq qismət olmur, amma oxucu auditoriyası jurnalistdən bunu gözləyir. Lakin bu çatışmazlıq bir saylı problem olaraq Kütləvi İnformasiya Vasitələrində bu gün də, mövcuddur. Hər şeydən əvvəl,

«informasiya toplayıcısı» kimi cəmiyyətdə bu və yaxud başqa dövrlərdə baş vermiş hadisənin həqiqi məcmuəsini jurnalist öz-özünə mükəmməl təqdim etməyi bacarmalıdır.

Xoşa gəlməyən hadisə haqqında və yaxud xoşa gələn hadisə haqqında informasiyanı göstərmək üçün cəmiyyətdə müxtəlif «informasiya toplayıcıları» mövcuddur. Bununla belə, birincinin (polis, təcili yardım, yanğın, qəza, yol patrul xidməti, məhkəmə prosesi və s.) həqiqi səbəbləri insanlara yaxşı bəllidir və jurnalistlər tərəfindən əla mənimsənilib. O ki, qaldı məsələnin ikinci tərəfinə, dövlət və bələdiyyə idarələrinin xidmət sahələrində aparılan hesabatda, bu kiçik və yaxud böyük ölçüdə öz əksini tapır, yəni natamam olaraq qalır. Təəssüflər olsun ki, xoşa gəlməyən hadisələr, xoşa gələn hadisələr kimi operativ surətdə aparılmır. Elə buna görə də, istər paytaxt Bakıda, istərsə də, ayrı-ayrı şəhər və rayonlarda idarəetmə orqanlarının strukturunu təqdim etmək əhəmiyyətlidir. Müasir zamanda bu cür informasiyaları əks etdirən kifayət qədər dövri vərəqələr və dövri mətbuat orqanları nəşr olunur. Bu cür məlumat vərəqələri informasiya əldə etmək baxımından yaxşı vəsait hesab oluna bilər.

İNFORMASİYA AGENTLİYİ

Jurnalistlərin informasiya mənbəyi hesab olunan, öz spesifik xüsusiyyətlərinə və xüsusi gücünə görə informasiya agentliyi adlanan bu qurum haqqında ayrıca söhbət aparmaq daha əhəmiyyətli olar. Bu informasiya xidməti jurnalistlərə «xam, çiy», yeniliklər formasında hazırlanmış sərt, faktiki material verməklə jurnalist fəaliyyətini təmin edir, özləri isə oxucu auditoriyası ilə birbaşa əlaqəyə getmir.

İnformasiya agentliklərinin yaranması ikinci əhəmiyyətli innovasiya rabitəsi sayılır. Dünyada ilk informasiya agentliyi 1835-ci ildə Parisdə yaradılmışdır. Onun bünövrəsini «Havasın tərcümələr bürosu»nda fəaliyyətə başlayan Şarl Lui Havas qoyub. Onun əsas məqsədi xarici mətbuatı yerli dövri məlu-

matda gedən operativ informasiya ilə təmin etməkdən ibarət idi. Sonrakı mərhələdə Havasın informasiya agentliyi özünün geniş korrespondent şəbəkəsindən və xarici qəzetlərdən aldığı yenilikləri əvvəlcə Paris, sonra əyalət, daha sonra isə xarici qəzetlərə satmağa başlayır. Odur ki, dünyanın bütün jurnalistləri bu ideyaya görə Şarl Lui Havasa minnətdar olmalıdırlar. (166) O, riskə gedərək müxtəlif yerlərdə nümayəndəliyini yaratmış, əldə olunmuş informasiyanı qəzet və jurnallara satmişdır.

Böyük informasiya agentlikləri gücləndirilmiş formada, operativ (əməli) surətdə iinformasiyanı yaymaq məqsədi ilə bütün növ rabitə vasitələrindən istifadə edirlər. Bu gün dünyanın ən iri və ən qocaman (Almaniyanın Kasselya şəhərində 1849-cu ildə doğulan Piter Yulius Röyter Paris şəhərində verginin olmamasından istifadə edərək çap işinə başlamış, qəzet vərəqəsinin əsasını qoymaqla müxtəlif mövzuları əhatə edən xəbərlər, birja xronologiyası haqqında məlumatlar, hətta kübar dairələrə aid olan informasiyaları yaymışdır.) informasiya agentliklərindən biri sayılan «Röyter» informasiya əldə etmək üçün, nəinki özünün geniş korrespondent şəbəkəsindən, güclü kompüter sistemindən, hətta kosmik rabitədən də, istifadə edir. İnformasiyanın toplanması, işlənməsi, ötürülməsi böyük həcmli güclü kompüterlər vasitəsi ilə həyata keçirilir və fasiləsiz olaraq teletayp, yeniliklər bülleteni, press-reliza şəklində, həmçinin «Vaşinqton post» qəzeti kimi gün ərzində üç dəfə nəşr olunaraq dünyanın onlarla ölkəsinə müxtəlif dillərdə yayılır.

Beləliklə, informasiya agentliyi jurnalistlərə ən aktual və operativ sosial, siyasi, iqtisadi, mədəni, dini, hərbi, idman informasiyalarını çatdırır. Bununla informasiya agentlikləri mətbuat işçilərinin vaxt və maliyyə itkisini azaldır, korrespondentlərin müxtəlif coğrafi ərazilərə ezam olunmasını lüzmsuz edir, hakimiyyət dairələrindən yeni-yeni məlumatlar alır, «qaynar nöqtələrdən» və silahlı münaqişələr olan zonalarda baş verən son xəbərləri vaxtında və problemsiz çatdırmağa nail olur.

DÖRDÜNCÜ FƏSİL

BƏDİİ PUBLİSİSTİKA JANRLARI: İNKİŞAFI VƏ XÜSUSİYYƏTLƏRİ

«Bədii-publisistika janrı: inkişafı və xüsusiyyətləri» fəsli, bu janrın növlərinin ümumi analizinə, həmçinin onların hər birinin ayrı-ayrılıqda araşdırılmasına, o cümlədən onlarla bağlı misallara həsr olunur. Bədii-publisistika janrının özünü və növlərini bir qayda olaraq «müəllif» və yaxud «yazıçı» jurnalistikasına aid edirlər. (225) Bu janr hər şeydən əvvəl özünü əyanilik və bədiilikdə, mətnin dolğun, həyəcanlı və müəllifin ümumiləşdirilmiş dərin həqiqətində, əsasən də, onun dilində göstərir. Bütün bu məziyyətlərinə və keyfiyyətlərinə görə bədii-publisistika janrı jurnalist yaradıcılığının zirvəsi hesab olunur. Jurnalistin «yaradıcılıq fərdliyi mürəkkəb və çoxcəhətli, söz sənətinin spesifikliyi ilə bağlı anlayışdır. Bu anlayış həm ədəbi şəxsiyyətin dünyagörüşünü, təcrübə və istedadını, həm müşahidə aparmaq, faktı görmək, seçmək, duymaq və hiss etmək, əhvalatın iştirakçısı olmaq və ondan təsirlənmək, həm də zamanın ideya-estetik tələbləri səviyyəsində dayanmaq, həyatı canlı ifadə edə bilmək bacarıq və imkanını əhatə edir.» (37,78)

Bədii-publisistika janrı başqalarından ona görə fərqlənir ki, onda həm bədii, həm də publisistik amillər iştirak edir. Bədiilik-bu həqiqətin əyani, canlı, gözəl əks olunması, vəziyyət, proses, hadisə, əhvalat və yaxud faktiki olaraq baş vermiş və yaxud düşünülmüş, ehtimal olunmuş, uydurulmuş vaqiə və qəziyyənin modelləşdirilməsidir. Publisistika isə hər şeydən öncə pafos və birtərəflilik, sənəd, dəlil, fakt deməkdir. Burda nağıl etmə, rəvayət, təhkiyə zamanı yalnız güman və ehtimal etmə mümkün hesab olunur. Uydurmaya isə tamamilə yol verilmir.

Bir çox hallarda bədii-publisistikanı bədii ədəbiyyatın əkiz

qardaşı adlandırırlar. Bələki, publisistik növlər də, ədəbi növlər kimi ənənəyə söykənmiş, zaman-zaman tərəqqi etmiş, tarixin keşməkeşli proseslərindən müvəffəqiyyətlə keçmiş, yeni məzmun, forma, janr almışdır. Mirzə Fətəli Axundzadəyə görə əsas bədii ölçü «məzmun səhihliyi» və «ifadə gözəlliyi»dir. (192) Bunların bir-birini tamamlaması, ideyanın ictimai marağı ödəməsi, dövrün tələbinə cavab verə bilməsi deməkdir.

Bədii-publisistikanın kökündə pafos dayanır. «Pafos faktdır, hadisə və əhvalatdır, həyatın təhlilindədir, «ideya ehtirasla», «mənəvi varlığın bütün dolğunluğu və bütövlüyü ilə məftun» olmaqdadır.» (37,90) Qələm sahibi həyatda baş verən prosesləri öyrənəndə, onu yazası olduğu bədii-publisistik janrın mövzusuna çevirəndə, obraz yaradanda da «nə» ilə «necə»yə müraciət etməli olur. Bu sintezin nəticəsində müəllif hər hansı bir əhvalat, hadisə, proses, vəziyyətdən düşündürücü məzmun tapır. «Şəxsiyyət təkcə nə etdiyi ilə deyil, eyni zamanda necə etdiyi ilə səciyyələnir.» (37) Məhz, bu cəhətdən bədii-publisistika öz təsiri, emsionallığı, coşğuluğu, həyəcanlığı, doğruluğu, obyektivliyi, faktlara əsaslandığı üçün pafos yaratmaq gücünə malikdir.

Bədii-publisistika janrın növlərindən, onun hissələrindən, həmçinin onların həcmindən asılı olmayaraq yazılacaq əsərdə «zaman və məkan», «ruh və hərəkət», «həvəs və istək», «arzu və düşüncə» fəlsəfi fikirlərini masa üzərinə gətirir ki, bunlar da pafosla vəhdət təşkil edir və nəticədə jurnalist layiqli publisistik əsərin ərsəyə gəlməsinə nail ola bilir. Bu janrın tələblərinə uyğun olaraq əksər hallarda oçerk, esse, felyeton, pamflet, parodiya, satirik kommentariya, lətifə və bu qəbildən olan janr və növlər satirik-yumoristik tərzdə verilir. Bu müddəaya əsaslanaraq demək olar ki, bədii-publisistika janrının bu janr və növləri publisistik, bədii və satirik mahiyyətinə görə bir nöqtədə birləşirlər. Bu da, cəmiyyətin, ictimai-siyasi mühitin bütün nöqsanlarını, eybəcərlik, həmçinin çatışmazlıqlaqrını açıq-aydın göstərməyə imkan verir.

Bəzən elə olur ki, böyük həcmli bədii-publisistik əsərlərdə

bir pafosun xırdalıqları, incəlikləri başqasınınkına qarışır və əsərin mahiyyətini, onun təsirini, tərbiyəvi-idrak əhəmiyyətini artırır, dərinləşdirir, onu daha güclü edir. C. Məmmədquluzadə, M. Ə. Sabir, Ə. Haqverdiyev, Ü. Hacıbəyli, M. C. Paşayev, S. Rəhman, S. Dağlı, Ə. Sadığ, M. Dadaşov, T. Həsənov və başqalarının əsərlərində fikir sağlam və dərin məzmunlu gülüşlə ifadə olunur: yumor, oynaq və yumuşaq təbəssüm, inkaredici və öldürücü satirik pafosa qarışır. Burda, yumor nə qədər incə və ustalıqla verilirsə, satira bir o qədər kəskin və yandırıcı formada oxucuya çatdırılır.

Bədii-publisistika çox məqamlarda bədii ədəbiyyatla qoşa addımlayır. Bədii publisistika janrlarında verilənlər, ədəbiyyatda olduğu kimi məzmun və forma kateqoriyaları, onun obyektivliyini şərtləndirən vacib amillərdən hesab olunur. Məzmun və formanın hər birinin ayrı-ayrılıqda nə qədər mükəmməl olmasından asılı olmayaraq istənilən nəticəni müstəviyə gətirə bilmirlər. «Məzmun faktların, cisimlərin və əhvalatların daxili prosesini, onların mövcudluğunun əsasını təşkil edən başlıca cəhətləri ifadə edir. Forma isə faktın görkəmini, tərtibini və təşkilini-strukturunu göstərir.» (37,125) Bütün bunlara rəğmən bədii-publisistikada istiqamət və nişan verici funksiya, əsas və həlledici rol məzmun hesab olunur. Məzmun yaradıcı insanın idrakına, sənətkar duyumuna, istedadına, dünya görüşünə, həyat təcrübəsinə, bədii-estetik səviyyəsinə əsaslanan kateqoriyadır.

Bədii-publisistika janrının bütün növləri günün tələblərinə cavab verən ədəbi formadır. Cəmiyyətdə baş verən proseslər müəllifdə həvəs oyatmali, məzmun seçmək istedadını qabartmalı, bir sözlə onda ictimai sifariş yaratmalıdır. İstər bədii-publisistikanın mahir ustadı C. Məmmədquluzadə, istərsə də, ədəbiyyat aləmində söz sahibi olan H. Cavid ictimai sifariş əsasında yaradıçılıqlarını davam etdirmişlər. 1928-ci ildə keçirilən ədəbiyyat qurultayındakı çıxışında Hüseyn Cavid demişdir: «Mən sifarişlə yazıram.» (19) Sözsüz ki, böyük dramaturq burda «ictimai sifarişi» nəzərdə tuturdu. İctimai sifariş olma-

dan seçilən məzmun, yazılan bədii-publisistik əsər və yaxud ədəbiyyat nümunəsi nə cəmiyyətdə, nə dövri mətbuatda, nə də ki, tarixdə özünə yer tapa bilməyəcək, «yetim uşaq» kimi qapı və küçələri dolaşacaqdır. Jurnalistin «ən böyük məziyyətlərindən birisi onun mövzu seçmək bacarığıdı... Seçdiyi mövzu onu ilhama gətirməli, onun görüşlərini, duyğularını, dövrün ondan tələb etdiklərini, başqalarının hələ müşahidə etmədiklərini və yaxud müşahidə edərək bu barədə danışa bilmədikləri şeyləri oxucuya söyləmək imkanı yaratmalıdır.» (19)

Ola bilsin ki, məzmun və formanın hansının daha tez yaranması ilə bağlı sual ortaya çıxsın. Biz sadə bir anoloji müqayisə aparmaqla bu suala cavab tapmış olarıq. Bədii-publisistika janrının hər birinə fərdi formada yanaşdıqda, görərik ki, janrın növləri müxtəlif zaman çərçivəsində meydana gəlmişdir. Məsələn, epitafiya, lətifə, oçerk, daha qədim olduğu halda, felyeton və pamflet nisbətən yaxın keçmişə, oyun və zarafat janrları isə çağdaş dövrümüzə təsadüf edir. Demək forma daima tərəqqi edən bir kateqoriyadır. Məzmun isə, əksinə, mövcudluğu və reallığı tərənnüm edir. Bu nəzər nöqtəsinə istinad edərək söyləmək olar ki, məzmun əvvəl, forma isə sonradan yaranan strukturadır.

«Məzmun ilkindir, mütəhərrikdir, aparıcı kateqoriyadır. Məzmun həmişə müasirliklə, mütərəqqi fikirlərlə zənginləşir, tezdəyişir, yaradıcılıqda inkişaf tapır. Forma isə məzmundan asılıdır, onun mahiyyətində təzə məzmuna müqavimət göstərmək, varlığını sabit saxlamaq üçün mübarizə aparmaq xüsusiyyəti vardır. Müqavimət, çox zaman məzmunla forma arasında uyarsızlıq, ziddiyyət yaradır... Formanın geniş imkanlı olmaması, məzmunun hərtərəfli açılmasına, dinamikləşməsinə imkan vermir, durğunluq yaranır, fərdi yaradıcılığın inkişafı ləngiyir.» (37,136)

«Bədii-publisistik janrlarda bədii və publisistik təsvir vasitələrinin, obrazla anlayışın üzvi qovuşmasını, onların bir-birinin içərisində əriməsini müşahidə edirik. Bu janrlar həm anlayışa, həm də obrazlı təsvir vasitələrinə istinad edir ki, şəx-

siyyətin müsbət yaxud mənfi rolunu, bu və yaxud digər hadisənin səbəbini, ən başlıcası isə insanın mənəvi keyfiyyətini, onun psixologiyasını parlaq göstərməyə imkan verir. Dilin obrazlı vasitələrindən istifadə qəzet çıxışının emosional ifadəliliyini qüvvətləndirir.» (21,203)

Bədii-publisistika jurnalistikanın ümumi funksiyasını yerinə yetirərkən «sosial tipik xarakterlərin təsvirini verməklə, onun dünyagörüşünün yaranmasına kömək edir. Müasir dövrün vəziyyətinə, şəraitinə müraciət etməklə, diqqəti müasir xarakterlər üçün tipik olunanın üzərində cəmləşdirir: beləliklə, vəzifənin xüsusiyyəti ilə əlaqədar bədii-publisistikanın predmetinin xüsusiyyəti müəyyənləşir.» (122,296-300) Bu baxımdan bədii-publisistikanın bütün janrları arasında ümumilik həqiqətən mövcuddur.

Bədii-publisistikanın
aşağıdakı janrları var:

1.Oçerk.
2. Esse.
3.Felyeton.
4.Pamflet.
5.Parodiya (istehza).
6.Satirik kommentariya.
7.Həyat-məişət tarixçəsi.
8.Əfsanə.
9.Epiqraf.
10.Epitafiya (məzar kitabçası).
11Lətifə.
12.Zarafat.
13.Oyun.

1.OÇERK

Oçerk-məntiq, səmərəlilik, baxımlılıq, həyacan və bədii ifadə birləşməsinin, insan konsepsiyasının və yaxud ictimai həya-

tın müəyyən nöqteyi-nəzər baxışının həqiqiliyini təsvir etmək üçün istifadə olnan bədii-publisistik janrdı. (249) Bunu deməyə janrın elmi açılışı imkan verir. Oçerk-baş vermiş hadisə, insan və yaxud vəziyyət haqqında hekayədir. Jurnalistikadakı oçerk bədii ədəbiyyatda olan oçerkdən özünün həqiqiliyi və faktların ünvanlığı ilə fərqlənir. Jurnalistikada bu ən böyük bədii-publisistika növü olduğu halda, bədii ədəbiyyatda ən kiçik janr kimi qəbul olunur. (186)

Oçerk bədii-publisistika janrının bir növü kimi aydın, dəqiq yaranma tarixinə, həmçinin mənşə və törəmə məkanina malik deyil. Lakin buna baxmayaraq onunla bağlı kifayət qədər müxtəlif fikirlər mövcuddur. Bəzi mənbələrdə oçerkin XVIII əsrdə Avropada, bəzilərində oçerkin Rusiyada A. M. Qorki tərəfindən yarandığı göstərilir. Azərbaycan mətbuatında isə onun XX əsrin əvvəllərinə təsadüf etdiyinin güman etmək olar.

«Fransada, Almaniyada, İngiltərədə ümumxalq hərəkatına hazırlıq dövründə oçerklər yazılmış, onlardan bədii-siyasi forma kimi istifadə olunmuşdur. XIX əsrdə oçerk H. Veyert və V. Volf yaradıcılığının ayrılmaz hissəsinə çevrilmişdir. Onlar bu janrla həyatı inkişafda, insanları siyasi-mənəvi zənginləşmədə göstərmişlər. Ruslar bu kiçik forma ilə rus həyatının «fəryad edən» (181) ziddiyyətlərinə toxunmuş, faktlara ictimai-siyasi məna vermişlər. «Quberniya oçerkləri»ndə Saltıkov-Şedrin iki yüzdən artıq tip yaratmış, çinovniklərin, tacirlərin və mülkədarların rüşvətxorluğunu ifşa etmişdir.» (37,277) Yuxarıda qeyd etdik ki, oçerkin yaranmasında A. M. Qorkinin birbaşa əməyi var. Guya ki, Aleksey Maksimoviç Qorki (Peşkov) yazıçı həmkarlarından birinə məktub ünvanlayarkən «mətnin başlanğıcında, müəyyən olunmada, ədəbiyyatda məşhur olan «oçerk yazan» formasında olan sözü «dairəyə alan» fel kimi işlətməyi məsləhət bilibdir.» (82) Bu fikrin dəqiqliyini təyin etmək çətindir. Halbu ki, A. M. Qorkinin adlandırdığı «oçerk» sözü heç də, həmin zamanda yaranmayıbdır. Bu heç kimdə, şübhəlilik yaratmır. (185)

Oçerk nəyi ifadə edir? Hər şeydən öncə oçerk yazan, real

çəxsiyyəti və hadisə, vəziyyət, prosesi sistemli tədqiqat əsasında araşdırır və onlar haqqında fikir yaradır. Mühakiməyə, fikrə analiz yolu ilə müvəffəq olunduğu halda, nəticə məntiqlə başa çatır. Oçerk sözü eyni zamanda həqiqəti, sənədi, elmi və bədiilik baxımından dərk etmə kimi də duyulur. Təsadüfü deyil ki, oçerki bədii əsərlə, hətta nəqqaşlıq sənəti ilə də bərabər tuturlar. Oçerk sanki, sənətlə bədii surətin ümumiləşdirilmiş effektini verir. Hətta tarixçilər, bu gün başqa mənbələr əldə etməsələr də, belə, ötən illəri düzgün təsəvvür edə və qiymətləndirə bilirlər. «Bir xalqın publisistikasını öyrənmədən onun həqiqi tarixini, siyasi-ictimai fikrinin mərhələlərini və inkişaf səviyyəsini bilmək olmaz.» (125)

Oçerk Azərbaycan publisistikasına XIX əsrin sonlarından məlumdur. Azərbaycanda oçerkin ən yaxşı nümunələrini görkəmli publisist Firidun bəy Köçərli yaratmışdır. Onun «Məişətimizə dair», «Həqiqi gözəllik və hərəkətsiz nisfimiz», «Qaranlıqda qalanlarımız», «Dünyada bəla nədən törəyir?», «Müsəlman müəllimlərin hümməti» məqalələrini problemli oçerklər bölməsinə, «Qarabağda Cavanşir mahalının əhval və övzasına dair», «Köçərilərin övza və əhvalı» məqalələrini isə səyahətnamə oçerklər qrupuna daxil etmək düzgün olar. XX əsrin əvvəllərində Azərbaycanda başlayan azadlıq hərəkatının tarixində bədii-publisistika janrının, əsasəndə, oçerkin müstəsna xidməti olmuşdur. Yarandığı gündən oçerk inkişafda olmuş, insanları həyatın müxtəlif anları ilə tanış etmiş, yeni mütərəqqi fikirlər irəli sürmüş, obyektiv və subyektiv fikirlər arasında dialoq, paralel və müqayisələr aparmış, yaxın tariximizin əvəzsiz mənzərəsini yaratmışdır.

Yalnız səriştəli publisist, tədqiqatçı və nəcib, incə zövqə malik analitik öz fikir və mülahizələrinin doğruluğuna oxucu auditoriyasını inandira bilər. XX əsrin 20-ci illərindən sonra, yəni Azərbaycanın Rusiya tərəfindən ilhaq olunmasından bir müddət keçdikdən sonra Azərbaycan mətbuatında durğunluq dövrü başlasa da, təqribən 30-cu illərdə yenidən canlanma başlayır. Bu özünü S. Vurğunun «Fatma xala», M. C. Paşayevin

«Boy», «İşıqlı yollarda», «Sağlam yollarda», Ə. Məmmədxanlının «25 bahar», İ. Əfəndiyevin «Dalğalar səslənən yerdə», «Bataqlıq soldatları», «Yeni kənd, yeni adamlar», «Qubanın bağları», «Şamama Həsənova», «Sosialist şəhəri Sumqayıt», «Şöhrətli diyar», «Bizim adamlar», «Fədakər neftçi», İ. Şıxlının «Daşkəsən» və başqa qələm sahiblərinin yaradıcılığında göstərmişdir.

Oçerki əbəs yerə bədii-publisistika janrının «kralı» adlandırmırlar. «Oçerkdə faktiki material bədiiliklə verilir. (51) Burda, demək olar ki, hər şey real faktlara əsaslanır və statistik xarakter daşımayıb, bədii şəkildə ifadə olunur. Oçerki məqalədən ayıran onun bədiiliyi, təsvir vasitələridirsə, hekayədən ayıran xüsusiyyətləri faktiki materiala əsaslanması, uydurma xüsusiyyət və əhvalatdan uzaq olmasıdır. Oçerk müəyyən bir hadisəni xülasə halında bədii bəzək və boyalarla müəyyənləşdirən kiçik həcmli epik əsərdir.» (95,155) Biz oçerkə onun hazırlanması nöqteyi-nəzərdən yanaşmış olsaq, görərik ki, o ən çox zəhmət tələb edən bir sahədir. Hər bir qələm sahibi və yaxud jurnalist oçerk yaza bilməz. «Bu həqiqətən belədir. Jurnalist o vaxt yaxşı oçerk yaza bilər ki, o ixtiyarında olan sənət, peşə bacarığından və həqiqəti əks etdirən faktlardan, müxtəlif metodlardan səmərəli və layiqli istifadə edə bilsin.» (5)

Jurnalistin oçerk yazmağa hazırlaşərkən, məsələn, çıxış üçün mövzu tapması, uğurlu material toplaması, onları analiz etməsi hələ nəyəsə nail olmaq demək deyil. Əldə olan informasiyanı müəyyən olunmuş formada şüurun süzgəcindən keçirmək, onu təsəvvürdə lazım olan çərçivəyə salmaq və oxucu auditoriyası tərəfindən qəbul olunacağının mümkünlüyünə inandıqdan sonra bu prosesi həyata keçirmək olar.

Mahiyyət etibarı ilə oçerk başlanğıcda reportaj (əyani-bədii surətdə) və tədqiqat (analitik) informasiya janrının növlərində birləşir. Nəzərə almaq lazımdır ki, başlanğıcda reportajın «açılması» bədiilik metodunun üstünlüyü kimi hiss olunur. Eyni zamanda, müəllifin mövzunun görüntüsünə istinad və onun əlaqəsini müəyyən etməsi araşdırma, nəzəri metodun hakim olduğunu göstərir. Müvafiq olaraq işin gedişində onları tətbiq

etmə mövzunun əks olunmasını, əsasən bədii və yaxud nəzəri konsepsiyanı yaradır. Artıq bu və yaxud başqa konsepsiyanın çərçivəsində emprik faktlar toplanır və yaxud «emal» olunur. Məhz, adı çəkilən vəziyyət uzun müddət qəzet (jurnal) oçerkinin bədii əsərlərə və yaxud sənədli jurnalistikaya aid olması ilə bağlı qızğın mübahisələrin yaranmasına xidmət göstərmişdir.

«Oçerkin hazırlığı prosesində bu və yaxud başqa metodun üstünlük təşkil etməsi hər şeydən öncə «nişan alınmış hədəfdən» və mövzunun tədqiqat istiqamətindən asılıdır. Əgər tədqiqat zamanı mövzu hansısa problemli vəziyyətlə çıxış edirsə, onda onun araşdırılması üçün məqsədəuyğun nəzəri metod tələb olunacaqdır. Yox, əgər mövzu jurnalistin maraq dairəsindədirsə, onda xüsusiyyəti aşkarlamaq üçün bədii metod daha sərfəli olacaq. Çünki bu metod hər hansı bir insanın ləyaqətini, şəxsi psixologiyasını, hətta onun çatışmazlığını, o cümlədən oçerkin qəhrəmanının xarakterini müəyyən etməyə imkan yaradır. Bütün bunlara baxmayaraq, bir çox hallarda oçerkin başlanğıcında tədqiqat, nəzəri metod aparıcı rol oynayır. Lakin təqdim və təsəvvür etmə üçün «reportaj» başlanğıc üçün mütləqdir. Təsadüfi deyil ki, alman jurnalistikasında oçerk materiallarını «reportaj» («Reportage») adlandırırlar.» (162)

Əlbəttə, bunu bilə-bilə unutmaq olmaz ki, «intensivlik, gərginlik», bədii metod tətbiq edərkən konkret olaraq hər bir publisistik oçerkin planı da çox müxtəlif olur. Bu, başa düşüləndir. Çünki, o bədii səviyyədə bu və yaxud başqa oçerkdə özünü büruzə verəcəkdir. Təsvir olunan mövzuda ola bilsin ki, oçerk spektrinin bir hissəsi sənədlərə əsaslanan sırf faktlardan ibarət olsun. Əks tərəfdə olan hissəsində isə müəllifin şəxsi bədii yaradıcılığı üstünlük təşkil etsin. Bu hissələr arasında olan boşluğu kəmiyyət etibarı ilə çox böyük publisistika tutsun. Sözsüz ki, bu da, özündə sənədli-faktiki və bədii başlanığıcları ən müxtəlif «nisbətdə» birləşdirir. (51)

Bu dolğun, müasir oçerkə daha çox xas olan bir haldır, hətta bədiiliyə ziyan gətirmiş olsa, belə. Bu aydındır və ondan irəli gəlir ki, başlanğıc materialda, yəni fakt, xəbər, vəziyyət haqqın-

da oçerk yazan məlumat verir. Öz dramatikliyi, süjetin bağlılığı, sirrin açılması, fövqəlaliyi, həyacanlığı və s. baxımdan zəngin olan oçerk oxucunun diqqətini cəlb edir, ona bunları informasiya və ən maraqlı bədii əsər səviyyəsində çatdırmağı lazım bilir. Belə halda, bədii intensivliyin «emalı» başlanğıc informasiyada həddindən artıq çoxluq təşkil edir. Bu qəbildən olan tapşırıqlar əsasən bədii-publisistik və bədii planlar üçün səciyyəvi ola bilər. Buna görə də, tədqiqatçılar publisistik oçerki aşağıdakı hissələrə bölürlər:

a).Təsviri oçerk;
b).Portret oçerk;
c).Problemli oçerk.
ç).Səyahətnamə oçerki;

a).Təsviri oçerk

Təsviri oçerk başqalarından bir xətt üzrə nağıl edilməsi, hadisələrin xronoloji ardıcıllığına və tabeliliyinə görə fərqlənir. Amma süjet xətti olan oçerk-problemin qoyuluşu, qərar qəbul etmək və həyati hadisələrin toqquşmasından ortaya çıxan çətinliklərin əks olunması ilə səciyyələnir. Publisistik oçerk birinci, üçüncü və çoxlu şəxs tərəfindən rəvayət oluna bilər. Burda, müəllif bilavasitə oçerkin iştirakçısı, hətta qəhrəmanı səviyyəsində də, çıxış etmək imkanına malikdir. O, «kadr arxasında» olur. Onun nağıl etməsi «şəkil arxasından» aparılır və hadisə öz trayektoriyası boyunca tərəqqi edir. Müəllif müşahidəçi, seyriçi olmaqla bahəm, həm də əsas «qiymət verən», hakim rolunda çıxış edir. (51) Publisistik oçerkin nəsrində iki formadan istifadə olunur:

1.Kommunikativ (ünsiyyət)-klassik.
2.Estetik (bədii, gözəlikl).

İfadənin əsaslandığı əsas məntiq ondan ibarətdir ki, burda

klassik dilin bütün norma və qaydaları qorunub saxlanılır. Belə ifadə tərzi kommunikativ-klassik nəsrə aid edilir. O ki, qaldı estetik nəsrə, burda ifadə özünün yüksək emosionallığı və həyacanlığı, həmçinin parlaq təsvirin olması ilə fərqlənir. Oçerkdə həmçinin üç süjet olur:

1.Sadə süjet-hadisə həqiqi gediş üzrə verilir;

2.Məkan və zaman süjeti-burda hadisənin eyni məkanda, fərqli zaman ölçüsündə baş verdiyi göstərilir;

3.Portret süjeti-hadisə mənzərə, təbiət təsvirinin əhatəsində verilir ki, bu da çox vacib elementlərdən biri hesab olunur.

Bədii-publisistikanın başqa janrlarından fərqli olaraq yazılmış oçerklərdə müasirlik ruhu çox cüclüdür. Həyat həqiqətlərinə, real materiallara əsaslanan oçerklər obrazlılıq, ümumiləşdirmə, tipiklik kimi xüsusiyyətlər baxımından müəllif istedadı, zəhməti nəticəsində bitkin əsər səviyyəsinə kimi qalxa bilir. Başqa ədəbi janrlardan fərqli olaraq, oçerk həyat həqiqətlərini real və konkret faktlar üzərində qurur və təsvir edir. Ancaq bu, heç də o demək deyil ki, oçerk bədii ümumiləşdirmədən, süjet xəttindən kənarda qalır. Müəllif oçerk üzərində işləyərkən başqa ədəbi janrlara xas olan təsvir vasitələrindən bacarıqla istifadə etməlidir. Sənətkar, oçerk yazan əsəri yüksək bədii dildə yazmalı, hər bir qəhrəman və onların xüsusiyyətləri, o cümlədən fəaliyyəti haqqında söhbət açmağı, həmçinin portret-süjet formasından layiqincə bəhrələnməyi bacarmalıdır.

b).Portret oçerk

«Həyatın mənasını» bilmək, qavramaq, öyrənmək publisistikanın qəhrəmanının oxucu auditoriyası tərəfindən öyrənilməsinə xidmət göstərir. Bununla, oxucu həyata olan baxışını və yaxud başqalarının mövqeyini onunla müqayisə edir, həm də müəyyən mənada, özünün həyata istiqamət götürmək, təshih

etmək, həyat tərzini dəyişmək imkanına yiyələnmiş olur. Əks təqdirdə, müəllifin sadə xəbəri, məsələn, Əhməd Məmmədovun dəyərli məsləhəti, planı və yaxud yüksək ideallığı auditoriyanı maraqlandırmaz və kimsədə buna həvəs oyatmaz. Çox vaxt oxucu üçün xəbərin özü vacib deyil, əsas qəhrəmanın dəyərləri necə qoruması, çətinlikləri nə cür dəf etməsi, hansı səviyyədə mübarizə aparmaq iqtidarında olmasıdır. Bu cür hərəkət, mübarizə, rəftarın yazılması qəhrəmanın xüsusiyyətinin açılmasına və yaxud nümayiş etdirilməsinə gətirib çıxarır. Məhz, bu keyfiyyətlərinə görə oçerk auditoriya üçün maraqlı olur.

Uğurlu portret oçerkdə, qəhrəmanın xüsusiyyəti bayağılıq, adillik prinsipinə aid olmayan vəziyyətdə verilir. Bunun üçün çox vacibdir ki, müəllif qəhrəmanın həyat yolunu, baş verən qeyri-müəyyən prosesi, dramatik xarakterli məqamı, bir sözlə bütün «sahələri» göstərə bilsin. Burda qəhrəmanın xüsusiyyəti-bacarığı, istedadı, əmək sevərliyi, inad və mətanəti və başqa bu kimi dəyərli keyfiyyətlərini ön plana gətirmək lazımdır. Məhz bu nöqteyi-nəzərdən qəhrəmanın istədiyi hədəfə çatıb və yaxud çata bilməməsini görmək mümkündür və bu inandırıcı təsir bağışlayır. Əgər müəllif qəhrəmanın həyat yolundakı başlıca «sahələri» aşkar və müəyyən etmək imkanına nail ola bilmirsə, onun uğur qazanmasına ümid bəsləmək sadəlövlükdən başqa bir şey deyil.

Lakin bacarıqlı və istedadlı oçerk yazan bu cür şəraitdə maraqlı məqamlar taparaq vəziyyətdən çıxa bilir. Məsələn, jurnalist şərti və assosiativlik (yəni oçerkə özünün keçmiş maraqlı materiallarından birini daxil edir) metoduna müraciət edir. Təəssüflə qeyd etmək olar ki, bir çox hallarda daha çox portret oçerkin müəllifləri, xüsusi nə isə tapa bilmir və oxucuya sapa düzülmş, qəhrəmanın orta, gözə çarpmayan xüsusiyyəti ilə bağlı fikirlər ötürməklə işini bitmiş hesab edir. Bəzən isə elə olur ki, jurnalist sadəcə olaraq qəhrəmanın qısa bioqrafiyasını rəvayət etməklə kifayətlənir. Əlbəttə, bütün bunlar müəllifi maraqlandıran insan haqqında müəyyən məlumat verir. Amma bədii-publisistik baxımdan heç vaxt portret oçerk adlandırıla

bilməz.

Həqiqi portret oçerk bədii analiz zamanı meydana çıxır. Bu o vaxt baş verir ki, müəllif tədqiqatın bütün tərəflərinə (əxlaqi, intellektual, yaradıcı və s.) toxunmuş olsun. Yalnız bu halda, qəhrəmanın xüsusiyyətləri açılır və müsbət nəticə əldə olunur. Məsələn, İlyas Əfəndiyevin portret oçerklərini uğurlu portret oçerklər saymaq olar. Müasir Azərbaycan dövri mətbuatında bu cür oçerklərə olduqca az, səviyyəsi aşağı olanlara isə daha çox və tez-tez rast gəlmək mümkündür. Bu günkü portret oçerklərin qəhrəmanları əksər hallarda-siyasətçilər, deputatlar, vəzifə sahibi olan məmurlar, incəsənət və iş adamları, iqtisadiyyatçılar, bankirlər və s. olurlar. Jurnalistlər əsasən onların qısa tərcümeyi-halını və bəzi işgüzar xüsusiyyətlərini verməklə işini tamam hesab edərək oçerki yekunlaşdırırlar.

Yuxarıda söylədiyimiz bu cür publisistik yazılar Azərbaycan dövri mətbuatı üçün son dərəcə xarakterik bir hal alıbdır. Bu formada olan oçerklər bədii-publisistik və analitik, hətta informasiya janrlarının sərhəddində yerləşir. Belə yazılarda oxucuya mövzuda iştirak edən insanın yalnız əksi təqdim olunur. Mütləq parametr və keyfiyyətləri isə əsas məsələdən kənarda qalır. Odur ki, onları bədii-publisistik məqalədən daha çox korrespondensiya janrına aid etmək doğru olardı, nəinki oçerkə.

Qəhrəmanının mənəvi, əxlaqi və başqa cəhətlərinə müraciət etmədən yaxşı portret oçerk yaratmaq qeyri mümkündür. Amma ola bisin ki, müəyyən auditoriya üçün portretin yüksək olmayan mənəvi-əxlaqi dəyərləri yox, onun originallığı, qeyri-adiliyi, qəribəliyi, əsilliyi və s. əsas rol oynasın. Məhz, bu parametrlər oçerkin başlanğıcında oxucu auditoriyasının diqqətini cəlb edir. Bundan sonra diqqəti təsvir olunan şəxsiyyətin mənəvi-əxlaqi dəyərləri özünə yönəldə bilir.

Oçerkdə qəhrəmanın keyfiyyətlərinin bədii analizi müəllif-rəssamı bir neçə başqa istiqamətdə analiz aparmağa sövq edir. Məsələn, siyasi, işgüzar, intellektual və s. Müəllif-rəssam, müəllif-mütəfəkkir sanki bir nöqtədə bir-biriləri ilə dialoqa girirlər. Bədii metod müəllifə daha konkret surət yaratmaq-

da kömək edir. Ona müxtəlif, həmçinin təsadüfü, süni, yalançı məqamlardan azad olmağı, şəxsiyyətin mənəvi imkanlarını dərindən araşdırmağa əsas verir, nəinki siyasətçi, işgüzar, peşəkar və ş. olan insanların xüsusiyyətlərini və yaxud başqa bu kimilərin analizini.

Bədii analiz və başqa istiqamətli analizdən (məsələn, sənət, peşə) alınan fərqli nəticə, mövcud olan əxlaqi, estetik və başqa (yenə də sənət, peşə) dəyərlərlə əlaqə yaradaraq, insanlar və cəmiyyət arasında inkişaf zamanı həqiqi fərq kimi çıxış edir. Bəzən bu fərq qarşıdurma səviyyəsinə qədər yüksəlir. Bax, elə bu məqamda publisistikanın müəllifi baş vermiş münaqişəni «güclə» həll edə bilər. Bunun üçün o, bədii analizi siyasi məqsədə tabe etdirməlidir. Yalnız bu anda müəllif, bilərəkdən öz qəhrəmanının xüsusiyyətini «qabartmaq»la auditoriyanı inandırmaq üçün, əxlaqi baxımdan öz siyasi yerdəyişməsini edir.

Bu cür «güc, zor» gəlmə daha çox seçki kampaniyaları ərəfəsində aktual rol oynayır. Jurnalist materialının əsas obyekti isə yüksək mənsəb, mövqe uğurunda mübarizə aparan namizəd və yaxud namizədlər olur. Məlumdur ki, cəmiyyətin böyük hissəsi seçki kampaniyasında iştirak edən namizədin və ya siyasi təşkilatın proqramı və ideologiyası ilə tanış deyil. Lakin bəzi liderlər haqqında onlarda müfəssəl olmasa da, müəyyən qədər xəbər mövcuddur. Buna görə də, liderlərin diqqəti birinci növbədə mətbuata yönəlir.

Kampaniya prosesi zamanı KİV-i mahiyyət etibarı ilə bu və yaxud başqa ictimai xadimin tərəfini bədii vasitələrdən istifadə etməklə «neqativ» və yaxud «pozitiv» mənada zənginləşdirir. Məsələn, 1998-ci ildə Azərbaycanda keçirilən Prezident seçkilərində H. Əliyevin ağıl, bacarıq, istedad, xarakter nümayiş etdirməsi, N. Süleymanovun istehza və sarkazmla zəngin yumorla çıxış etməsi, İ. Qənbərin emosional, qeyri-ciddi, ümidsiz hərəkətləri KİV-də doğru, dürüst, qərəzsiz «qabardılmışdır.» Seçicilər H. Əliyevin simasında «bu günün xilaskarını, sabahın inkişafını», N. Süleymanovun hərəkətlərində «artistizm, yüngüllük», İ. Qənbərin timsalında «qeyi-reallıq, qorxaqlıq, bəlli ol-

mayan fon, qisasla yanan dolu gözlər, ümidsizlik, hiylə, keçmiş» gördükləri üçün özlərini aldada bilməzdilər. Sözsüz ki, burda KİV-nin işini kölgədə qoymaq olmaz.

Portret oçerk insan konsepsiyasını müəyyən olunmuş şəkildə öz nöqteyi-nəzərindən keçirir, qəhrəmanın daxili aləmini, onun sosial-psixoloji, fərdi və tipoloji xüsusiyyətinin xırdalıqlarını dəlil və sübutlarla araşdırır. Oçerk yazan elə bir şəxsiyyət axtarır ki, həyatda həqiqi sosial şəraitin bütün əsas vəziyyətini özündə cəmləşdirsin, həmçinin eyni vaxtda özünün xüsusiyyəti və original fikirləri ilə əks olunsun. Yalnız bundan sonra publisistə onun foto təsvirini vermək deyil, fərdi surətdə bədii-publisistik əksini yaratmaq qalır.

Bunu, sadəcə bir tərcümeyi-hal kimi qəbul etmək yanlış olardı. İnsanın həyatını, onun əxlaqi və başqa keyfiyyətlərini tamamilə açmaq portret oçerkin çərçivəsindən kənardır. Buna görə də, publisist anket məlumatlarını və yaxud qəhrəmanın əmək texnologiyası haqqındakı yazılarında dəyişiklik aparmalıdır. Portret oçerkin böyük bir qəzet səhifəsini tutması üçün, jurnalist oçerkin qəhramanını elə bir şəxsiyyət seçməlidir ki, o cəmiyyətdə kifayət qədər tanınan, vacib və məsul şəxs olsun. Çünki publisist öz qəhrəmanını xıda hissəciklərdən tutmuş ən mümkün ştrixlərinə kimi verir. Məhz, buna rəğmən çətin ki, oçerk yazan öz fikir və mülahizələrini 100-200 kompyutur sətrinə yerləşdirə bilsin. Burda janrın nisbi yığcamlığı, qəhrəmanın psixoloji analizi, problemin aktuallığı və publisistik işlənmə ahəngdarlıq təşkil etməlidir.

Jurnalistikanın obyektiv, qərəzsiz, düzgün olması, onu bir o qədər təhrifdən məsafədə saxlayır. Onun məqsəd və məramı çıxışlarında bədii vasitələrdən istifadə etməklə oxucu auditoriyasında doğruluq, gerçəklik, həqiqilik, mötəbərlik, yəqinlik, etibarlılıq yaratmaqdan ibarətdir. Amma təəssüflər olsun ki, bu günkü KİV-i bu reallıqdan uzaqda dayanır. Çünki bəzən, jurnalistə yuxarıda sadaladığımız müsbət tendensiyaları daima həyatda görmək və yaxud görməmək nəsib olmur.

Firidun bəy Köçərli.
Milli şairimiz Abbasağa Qaibzadə Nazir.

Hər bir millətin şan və şərafəti, dərəceyi-kəmalatı, adab və əxlaqı, maddi və mənəvi tərəqqisi ədəbiyyatından görünür. Avropa millətlərindən İngiltərə (?), Almaniya və Fransa dövlətlərinin ədəbiyyatı onların vəqə və hissiyyatını bəyan edir.

İran dövlətinin ən parlaq həşmətli və çükuhlu əsri, ən ali və sətli dövrü Firdovsinin, Xacə və Hafiz Şirazinin və Şeyx Sədinin zamanlarında idi ki, bu əsrlərdə farsların ədəbiyyatı uca məqama çatmışdı. Şeyx Sədi ... əleyhrəhlmənin əsrində onun hikmətamiz kəlamları sayəsində Şiraz əhli fələkə naz edirdi. Necə ki, şair deyibdir:

Seyyum Sədi ki, ta dəm zıdzi Şiraz,
Səid Şiraziyakra bər fələk naz.

Və biəkəs zəif və aciz halında baş-ayaq, cəhalətsə nadanlıq aləmində ömür keçirən miləl və əqvamın ədəbiyyatları dəxi öz şan hallarına müsafiə olmağa şübhə yoxdur. Bir qövm və tayfa nə qədər elm və mərifətdən bibəhrə olsa, bir o qədər də ədəbiyyatı zəif və bilməzliyi olacaqdır. Hətta çox tayfalar var ki, vəhşiyanə zindəganlıq edib, ədəbiyyat nə olduğunu bilməzlər. Bunların usum və maarifdən mütləq xəbərləri yoxdur və özləri də çox müddət əsr üzündə yaşamayıb puç və zaye olurlar. Və yainki sair müqtədir mədəniyyətli millətlərin təhtinüfuz və idarəsinə keçib müruri əyyam ilə öz adət və ayinlərini unudub onlar ilə qaynayıb qarışırlar və axırda bilkilliyə öz millətlərini itirirlər.

Pəs tərəqqi və təali fikirində olan və əbədi zindəganlıq arzusuna düşən qövi və millət gərəkdir ən əvvəl öz ana dilinin vüsət və qüvvət kəsb etməyinə çalışıb ədəbiyyati-milliyəsini asari-nəfisə ilə dövlətləndirsin.

Bizim Azərbaycan türkləri dəxi divani-yavaş öz ədəbiyyatları üçün bir cığır açmaq fikrinə düşüblər. Və onların arasında dəxi həqiqət nəsib ədiblər. Xoş təb şairlər və salamat məslək ər-

babi-qələmlər görünüb və görünməkdədir.

Azərbaycan türkləri Mirzə Fətəli Axundzadə, Qasım bəy Zakir, Kazım ağa Salik, Hacı Seyid Əzim Şirvani, Abbasqulu ağa Qüdsi, Mehdiqulu ağa Vəfa və sairləri kimi bir çox rəvan təb şairlər yetişibdir ki, bunları hansı bir millətin içində vücuda gəlmiş olsa idilər, o milləti (?) başı uca və özləri üçün həmişəlik əsale və şöhrət kəsb edirdilər. Və lakin bizlər qədrşünas olmadığımızdan onların hörmətini, izzətini və qiymətini bilmədik. Bizlərdən çoxu Zakir, Qüdsi və Salik kimi olduğunu bilir.

Hər bir əsrin üdəba və şüərası vəqtinin itazasınca fəsahət və bəlağət meydanında tovus təbini cövlana gətiribdir. İmdiki bu tərəqqi və hürriyyət zamanında cümlədən artıq hürriyyətə mədh edib onun vəqtində şeirlər toxuyan bizim yeniyetmə şairlər olubdur. Vəli cümləsi ağız-ağız verib hürriyyəti vəsf və zülal və istibdadı zəmi etməyə məşğul olub da millətin böyük fərdlərini, mühüm ehtiyaclarını və ayır yaralarını xatirələrindən bilmərrə çıxardıblar.

Həqiqət hala göz yumub xəyalət aləmində vücudu yox olan mövhumata məşğul olublar. Və osmanlı şairlərinə müqəllidlik göstərib yazdıqlarını öylə bir dolaşıq və nuribarə cümlələr vasitəsilə bəyan edirlər ki, kimsə başa düşmür. Hansı yol ilə getsən hürriyyətə vasil olarsan, əsl mənada hürriyyət nədən ibarətdir, hansı alat və əsbatilə onu kəsb etməkdə lazımdır, bu barədə bir söz də söyləməyiblər.

Cənab Abbas ağa Qaibzadə bu qism şairlərə əsla oxşamayır. Kəlamı açıq, zehni, kəşadə, mövhumat ilə işi olmayan, həqiqətnəvis bir şairdir. Onun əsl milli şair olmağına bir çox gözəl mövzun kəlamları şəhadət verir. Keçən oktyabr ayının 9-da Abbas ağa Nazirin təvəllüdündən altmış sənə tamam olduğu münasibətilə onun tərcümeyi halından və əsərlərindən bir para məlumat verməyi burada lazım gördük.

Abbas ağa təvəllüd edibdir tarixi-məsihiyyətini 1849-cu ilində, oktyabr ayının 9-cu günündə Qazax mahalının Salahlu qəryəsində. Nazirin atası mərhum Mirzə Nəbi əfəndi elm və fəzlətilə beynəlxas zəmanəsində şöhrət kəsb etmiş bir vücud idi və

özünün də mövzun təbi var idi. Necə ki, Nazir özü onun haqqında yazır: "Sahibi elm, əhli-fəzl və kəmal. Nitqi şirin və xoş, fəsih, məqal. Nükteyi-şeir və nəzmdən vaqif, rumuc və məsnayi-hikmətə arif. Təbi mövzun, nəzmi nur məzmun. Elmi dərya, sözüdür məknun..."

Nazirin anası Fəxrülnisa xanım şairi-binəzir Molla Vəli Vidadinin nəvəsidir ki, onun haqqında dəxi Nazir deyibdir: "Şairi-haqq süxən, riyadan uzaq, məsləki-təbən, ilticadan uzaq." Belə ki, təbiəti-şeiriyyə Nazirə valideyni tərəfindən irsə yetişibdir. Səkkiz sənə çatınca valideyininin təhti-tərbiyəsində nəşvü nüma tapıb, sonra məktəbə gedib təlim almağa başlayır. Və lakin müntəzəm məktəb ol zaman yox idi. Məktəb adında hücrələr çox idi.

Hücrələrdən vətən diyarında səf çəkilmişdi. Kür kənarında bu hücrələrin birində Mirzə Nəbinin Əmizadəsi imdiki Zaqafqaz müftisi Hüseyn əfəndi müdərrislik edirdi.

Şairin atası Fərzəndi-dilbəndini Əmizadəsinin təlim və tərbiyəsinə tapşırmışdı ki, ol vəqt qabil müəllimlərdən hesab olunurdu. Abbas ağa imdi də ustadi-möhtərəminin adəti zikri-xeyr ilə yad edib deyir:

Desə ustad kim ikinci ata,
Bu sözü etmə qism qəbul əsla.
Əvvəlinci ata de ustada,
Haqq və səyin həmişə sal yada.
Olmasa firqeyi-müəllim əgər,
Fərq peyvandan olurmuş bətər?
Kim bəni-adəmə verir təlim,
Kim edər elm və hikməti təhfim.
Olmasa elm və fəzl insanda,
Nə təfavüt onunla peyvanda?

Burada şair, elm və mərifətin tanındı və onların insana lazım olmağı barəsində mövzun və rəvan şeirlər vasitəsilə daha da gözəl sözlər söyləyib, şafi dəlillər gətirir ki, cümləsini qə-

zetə sütunlarında yazmağa yer yoxdur. (Məqaləni tərtib edən və araşdıran: Filologiya üzrə fəlsəfə doktoru-Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu).)

«Bu cür oçerkin mövzusunun əsasında şəxsiyyət dayanır və o, da çıxış edir. Burda publisistikanın mahiyyəti ondan ibarətdir ki, auditoriyaya oçerkdə çıxış edən qəhrəman haqqında müəyyən məlumat, anlayış verilsin. Jurnalist bu cür tapşırığı yerinə yetirərkən çalışır ki, ilk öncə başlıca məsələ ilə oxucunu tanış etsin, qəhrəmanın dəyərləri və öz fikir mövcudluğunu göstərsin. Çünki bu, hər bir insanın həyatında ən vacib elementlərdən biri hesab olunur.» (16)

c).Problem oçerk

Bu cür oçerklərdə mövzunun əks olunması üçün hansısa bir problemli vəziyyət çıxış edir. Məhz, elə bu problemin inkişafını müəllif proses boyu izləyir. «Özünün məntiqinə, cümlə qruluşuna görə problem oçerk analitik janrın məqalə növünə oxşayır. Hər şeydən əvvəl belə bir qənaətə gəlməyə əsas verən, problemli vəziyyətin əks olunmasında başlanğıcın üstünlük təşkil etməsidir. Həm məqalədə, həm də problem oçerkdə müəllif bu və yaxud başqa problemin əmələ gəlməsinin səbəbini izah edir və çalışır ki, prosesin inkişafını, o cümlədən onun həlli yollarını göstərsin.» (4,259-269) Müəllifin yazını hansı janra aid etməyə çalışmasından asılı olmayaraq çıxışın bir çox xüsusiyyətləri bəlli olur. Həmçinin, problem oçerki həm də problem məqalədən seçmək nisbətən rahat olur. Janrda ən vacib fərq ondan ibarətdir ki, problem oçerkdə problemli vəziyyətin inkişafı heç vaxt statistik qanunauyğunluğa və ya əvvəlcədən ictimailəşdirilmiş fikrə xidmət etmir, «boş yerdən» əmələ gəlmir. Lakin analitik janrin məqalə növünə bu məxsus və xas olan bir cəhətdir.

Problem oçerk yazıda arakəsmə rolunda çıxış edir və çalışır ki, konkret şəxsin üzərinə düşən öhdəliyi ləyaqətlə, şərəflə və nöqsansız, qüsursuz rəf etsin. Müəllifin bu və yaxud başqa fəaliyyət üzərində apardığı araşdırma əksər hallarda konf-

likt və münaqişələrlə, insanların maraqlarının toqquşması ilə müşahidə olunur. O, bu konflikt və münaqişələri, onların inkişafını izləyə-izləyə problemin səbəbini öyrənir. Oçerkdə münaqişənin inkişafına nəzarət edərkən, həm qəhrəman, həm də müəllif tərəfindən bir çox mümkün təəssüratın şahidi oluruq. «Problemin daxilinə nüfuz edən jurnalist problemlə bağlı daha tez-tez şüurunda təsəvvür yaradır, paralel aparır, mövzudan haşiyəyə çıxmağa çalışır. Bu isə oçerkdə adi priyomdur. Ancaq eyni zamanda problem məqalə üçün yersizdir. Problem oçerk yazarkən janrın ən xırda hissəciklərinə toxunmamaq, sonra uğursuzluqla nəticələnir. Yalnız problemin daxilinə dərindən bələd olmaq, aparılan araşdırmanın əsas vəziyyətini anlamaq və müvafiq formada onu yazmaq müəllifə oçerkində uğur gətirə bilər.» (4,269-270)

Problem oçerk özündə, iqtisadi, sosioloji, fəlsəfi, məhkəmə, dialoq və başqa bu kimi sahələri cəmləşdirir. Burda publisist rolunda konkret hər hansı bir sahə ilə bağlı peşəkar, mütəxəssis çıxış edir. Problemin bədii-publisistikada əks olunması, araşdırılması və mövzusu rolunda, həmin zaman kəsiyində cəmiyyətdə ən aktual olan problem ön plana gətirilir. Bu müəllifin konseptual monoloqu, vəziyyətə fərdi baxışı, münasibəti ola bilər. Problem oçerk yazan yalnız həyəcanlı, tətbiqi-təsviri vasitələrdən istifadə etməklə mövzunu işləmir, həmçinin prosesin surətini yaradır. Bu zaman birinci plana konkret şəxsiyyətin göstərilməsi yox, problemin elmi-publisistik tədqiqatı gəlir. Belə məqamda müəllifin fəaliyyəti aktivləşir və o, bir başa oxucu ilə dialoqa girir, sualın cavabını statistik fakt və rəqəmlər hesabına, əməliyyat aparmaqla verir. Bu cür oçerklərə mətbuat, əsasəndə, qəzet səhifələrində çox gec-gec rast gəlmək olar. Vəziyyət, hadisə, proses geniş, əhatəli formada verilərsə, o analitik janrın korrespondensiya və məqalə növünə oxşayacaq, hətta ola bilsin ki, ondan da böyük həcmdə alınacaqdır. Buna görə də, publisist-tədqiqatçı mütəxəssislər tərəfindən problem oçerkin jurnal və kitab publisistikasına daha çox yaxın olduğu söylənilir, nəinki qəzetə, dövri mətbuata.

Firidun bəy Köçərli.
Bir darülmüəllimin kifayətdirmi?

Hər sənə imtahan vəqtləri, avqustun axırına kimi Zaqafqaz darülmüəlliminin müsəlman şöbəsinə daxil olmaq üçün hər tərəfdən müsəlman şagirdləri cəm olurlar.

İmtahana gələnlərin ədədi ilbəil artıb çoxalmaqdadır. Və buna bir neçə səbəblər var. Əvvəla, darülmüəlliminin müddət təhsili (kursu) edadiyə məktəblərinin kursu kimi bir o qədər tul çəkməyir. Beşillik təhsildən sonra tələbə elmini tamam edib, müəllimlik şəhadətnaməsini alır və bu gündən özü üçün kəsbi-məat etməyə qadir olur. Və saniyən, darülmüəllimində şagirdlər padşahlıq xərcinə təlim və tərbiyə alıb öz valideyinlərini xərc və zəhmətdən azad edirlər. Bu cəhətə darülmüəllimini kasıb və fəqir adamlarına tərbiyə vermək üçün ən münasib bir məktəbdir. Bunlardan əlavə darülmüəllimınə imtahana gələnlərin ilbəil ədədinin artmasına ümdə səbəb camaatımızın iflətdən ayılıb elm və məyatətin qədr və qiymətini bilməkləridir. Bir vaxt var idi ki, müsəlmanlar öz övladlarının təlim və tərbiyəsinə artıq meyl və rəğbət göstərməyirdilər və hətta ibtidadə müsəlman şöbəni Qoridə açılanda müsəlmanları oxumağa həvəsləndirmək üçün şagirdlərin yol xərcini dəxi xəzinədən verirdilər. Amma imdi çoxları talibdir ki, öz xərclərinə də olsa, uşaqlarına tərbiyə versinlər. Və lakin yerin azlığından ona dəxil nail ola bilmirlər. Bu sənə müsəlman şöbəsində açılmış beş vakansiyaya əllidən ziyadə ərizə verilmişdir. Hər bir sanksiyaya on ərizə gəlir. Elm və mərifətdə olan bu qədər şövq və həvəsi imdiyə kimi biz müsəlman qardaşlardan görməmişdik. Bu isə şayani-diqqət və ümumi təbrikə layiq bir əlamətdir. Bir yerə on adam ərizə verir, yəni bir yerin, bir vakansiyanın üstə on nəfər elm və kamal təşnəsi olan cavanların arasında mübahisə və mücadilə vüqua gəlir. Bu on nəfərdən hansı birisi zirək və qüvvətli olsa, yəni hansı birisinin elm və biliyi artıq olsa, o yerə sahib və malik olur. Yerdə qalan doqquz nəfəri mərhum və məyus geri qayıtmağa məcbur olurlar. Beləki, əlli nəfər uzaq yerlərdən artıq zəhmət və cəfa çəkib

imtahana gələnlərin ancaq beş nəfəri padşahlıq xərcinə şöbəyə götürülüb, yerdə qalan qırx beş nəfər şagirdlər naəlac gərək evlərinə müraciət etsinlər.

Və lakin bunlardan bəziləri təlim alıb müəllim olmağa ziyadə şövqmənd almaqları cəhətdən öz xərclərinə darüımüəlliminə girirlər və onların biçarə ataları uşaqlarının arzusuna əməl edib çox vaqti özlərinin və əhli-əyalının əynindən və boğazından kəsirlər. Amma çoxları öz xərclərinə oxumağa bil külliyə qadir olmayıb ürəyi qəmli və gözü nəmli kuş qayıdırlar. Qəribə haldır. Elm və bilik axtaranlar, elm və bilikdən məhrum və məyus olurlar. Bu isə böyük zülm və ədalətsizlikdir. Bu ona bənzər ki, aclara yemək və susuzlara su verməyib, məhrum edəsən.

Cism və bədənə xörək və təmi lazım olan kimi ruhun dəxi qəzayə ehtiyacı var. O qəza da elm, mərifət və ədəbdən ibarətdir. Hər ikisinin təlim və tərbiyəsi bir dərəcədə lazımdır. Hərgah məhz bir bədəni bəsləyib, ruhu qəzasız və əqli tərbiyəsiz və biliksiz qoysaq onda insan ilə heyvanın arasında artıq bir təfavüt olmayacaqdır. Və bu qədər geridə qalmağımızın ümdə səbəbi ruh və əqli unudub ancaq bir cism və bədənə qulluq etməyimiz olubdur. Qayıdaq əsl mətləbə. Beş yerə əlli adamın ərizə verməyi buna şəhadət verir ki, bir darülmüəllimin bu halda bizə kifayət etməyir. Ona görə lazımdır ki, hər tövr olsa özgə bir darülmüəlliminin də açılmasına çalışıb səy edək. Və nə qədər bu işə tezcə iqdam etmək, bir o qədər bizim üçün xeyr və səlahətdir.

Hal hazırda hər şeydən artıq ehtiyacımız müəllimlərədir. Camaatımızın gözü açılmaqdadır. Hər tərəfdən məktəb və mədrəsə sədası eşidirik. Qürur və eyiblərimizin düzəlməyi, cəhalət cəngindən xilas olmağımız və cümlə yaralarımızın sağalmağı bağlıdır qaydalı məktəblərin açılıb çoxalmasına. İmdi tərəqqipərvərlər dövlətdən ümumi təlim tələb edirlər. Hər kəsə oxuyub təlim və tərbiyə almaq borc olur. Cümleyi-aləm öz səadət və rəfahətini elm və fünunda axtarır və bunların sayəsində böyük hünərlər göstərirlər. Belə olan surətdə biz müsəlmanlar övladımızın təlim və tərbiyəsi üçün mürəbbi və müəllimləri haradan axtarıb tapacayıq?

İldə beş-altı nəfər Qori və bir-iki nəfər İrəvan seminariyasından çıxan cocuqlar halımıza kifayət edəcəklərmi? və ehtiyacımızı düzəldə biləcəklərmi?

Əlbəttə yox. Pəvlazim və vacibdir müsəlman mərkəzlərinin birisində tezlikcə təzə bir darülmüəllimin açılsın. Və bu darülmüəllimin anladığımıza görə Dağıstana yaxın məhəllələrdə gərəkdir açılsın. Çünki orada məktəblər çox azdır və bundan əlavə Dağıstan, Kabarda, Çeçen əhalisi bu axır vəqtlərdə ayılıb, oxuyub tərbiyə almağa artıq həvəs göstərirlər. Belə ki, Qoridə müsəlman şöbəsində olanların ədədi ilbəil artıb çoxalır. Onların artmağı isə Zaqafqaziya əhlinin azalmağına bais olur.

Və bir də yaxşı olardı ki, İrəvan quberniyasının müsəlman camaatı öz tərəfindən lazım olan yerlərə ərizə verib vəsatət başlada idilər ki, İrəvan seminariyasında müsəlman şagirdləri üçün müəyyən 20 və 25 vakansiya həmişəlik qərardar olunsun. Çünki bu halda İrəvan quberniyasında müəllim sarıdan böyük ehtiyac var. (Məqaləni tərtib edən və araşdıran: Filologiya üzrə fəlsəfə doktoru-Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu).

Ədibin bu publisistik oçerki konkret problemə və onun həllinə həsr olunmuşdur. Məhz buna görə müəllif bunlara konkret başlıq verir. Problem oçerkdə sərlövhə elə diqqətlə seçilməlidir ki, o məqalənin əsas məğzini özündə ifadə etsin. Başqa sözlə, müəllifin şərhi ilə sərlövhə bir-birini tamamlamalıdır.

ç).Səyahətnamə oçerki

Səyahətnamə oçerki bir çox jurnalist janr və növləri (qeyd, korrespondensiya, icmal, hesabat) kimi ibtidai jurnalistika və onun mövzularının yarandığı zamana aid edilir. «Aydındır ki, səyahətnamə oçerki formasında olan oçerklərdə vəziyyət, hadisə, proses və vəziyyətin əks olunması demək olar ki, bədii ədəbiyyatda olduğu kimidir və yaxud buna çox yaxındır.» (186,5-27)

Səyahətnamə oçerki ən qədim oçerk forması hesab olu-

nur. Onun əsas xüsusiyyəti ondan ibarətdir ki, mövzunun öyrənilməsi müəllif tərəfindən yavaş-yavaş, ardıcıl olaraq həyata keçirilir. Həqiqətən publisist səyahət edərkən insanlara, onların məişətinə, yaşadığı əraziyə, sosial vəziyyətə baxır və onlar haqqında məlumatı bloknotunda qeyd edir və vəziyyəti öz fərdi müşahidə prizmasından keçirir. Müəllifin gözü qarşısında baş verən bütün çalarlar, adət-ənənə, mənəvi-əxlaqi dəyərlər, hətta ən xırda proseslər səyahətnamə oçerkinin spesifik xüsusiyyətləri sayılır. Burda portret və problem oçerkin bütün elementləri bir nöqtədə birləşir. Bu, heç də təsadüfü deyil: ona görə də ilk Azərbaycan oçerkinin mənbəyini bu janrın səyahətnamə növündə axtarmaq lazımdır. XIX əsrin axırı XX əsrin əvvələri sosial problemlərin canlandığı və ictimai münasibətlərin tərs mütənasib olduğu bir zamanda publisistikanın qarşısına baş verən və inkişafda olan proseslərin panoramasını göstərmək kimi vacib bir tapşırıq qoyulmuşdur.

Səyahətnamə oçerkinin ilk nümunələrini XX əsrin əvvəlində Azərbaycan mətbuatında «Qarabağda Cavanşir mahalının əhval və övzasına dair» və «Köçərilərin övza və əhvalı» məqalələrində görmək mümkündür. Müvafiq olaraq bu məqalələr «İrşad» (1906) və «Tərəqqi» (1909) qəzetlərində dərc edilmişdir. (155,303-317) Bu ənənə sovetlər dövründə İlyas Əfəndiyev, İsmayıl Şıxlı və başqaları tərəfindən davam etdirilmlşdir.

Bütün oçerklərdən fərqli olaraq səyahətnamə oçerki daha çox avantura, macəra süjeti üzərində qurulur. Onun avantura, macəra formasında təşəkkül tapması janrın aid olduğu xüsusiyyətlərdən irəli gələn amil kimi qəbul olunur. Səyahətnamə oçerki öz trayektoriyası boyunca baş verən bütün prosesləri, həmçinin jurnalistin həmin zaman daxilində keçdiyi şəhər, rayon, kənd, qəsəbə, kiminlə və yaxud kimlərlə görüşüb söhbət etməsi, lazım gələrsə söhbətin məğzi, o cümlədən gördükləri, eşitdikləri, rastlaşdığı faktlar, hətta yatmaq, istirahət, yemək mədəniyyəti kimi amillər bir süjet xətti kimi ardıcıllıqla izlənilir, əks olunur və müəllif tərəfindən qələmə alınır. Əlbəttə, yaxşı səyahətnamə oçerki heç də, jurnalistin gördüklərini olduğu

kimi ifadə etməsi ilə yekunlaşmır. Oçerkin dərc olunacağı mətbuat orqanı imkan verməz ki, jurnalist gördüklərini qurudulmuş tütün yarpağı kimi «sapa düzsün və palaz qulaq» (51) yazı ərsəyə gətirsin. Məsələnin bu cür inkişafı istedadlı jurnalist üçün böyük əhəmiyyət kəsb etmir. Odur ki, oçerk yazan səyahət zamanı ictimaiyyət üçün aktual olan və əhəmiyyət daşıyan məqamları önə çəkməli, mümkün qədər daha vacib məsələləri qabartmalı və onlar haqqında fikir formalaçdırmalıdır. Səyahətnamə oçerkinin yaranmasında müəllifin bədii yaradıcılıq qabiliyyəti mütləqdir. Əks təqdirdə səyahətnamə oçerki quru, maraqsız və mənasız alınacaqdır. Ola bilsin ki, yazılacaq səyahətnamə oçerki haqqında fikir müəllifdə yaradıcılıq səfərinə getməmişdən çox xeyli əvvəl formalaşsın. Ola bilər ki, oçerkin başlanığıc materialı üçün müəllifdə keçmiş müşahidələrindən, müxtəlif qəzet və dərgilərdən toplanmış informasiyalar olsun. Lakin onu da, nəzər diqqətdən kənarda qoymaq olmaz ki, jurnalist redaktordan müəyyən tapşırıq alsın və yaxud onda oçerki yazmaqla bağlı fikir hansısa faktın təsiri altında formalaşsın. Səyahətnamə oçerki daha ciddi və geniş informasiya materialının toplanması və mübadiləsi, həmçinin müəllif tərəfindən təshih olunaraq əsaslı formada dəyişməyə məruz qala bilsin. Bütün bu amillər jurnalistin əlinə düşən və yaxud sərəncamında olan informasiyadan asılıdır. Formalaşmış bu cür fikir gələcək oçerkin əsas ideyası üçün, ezamiyyət vaxtı toplanmış fakt və təsuratlar nəzərə alınmaqla yaxşı material olur. Yox, əgər onlar müəyyən olunmuş fikir çərçivəsindən kənara çıxırsa, sadəcə olaraq müəllif onu jurnalist bloknotuna qeyd edərək öz zamanı üçün kənara qoyur. Səyahətnamə oçerki və onun müəllifi ən müxtəlif hədəfi izləyə bilər. Məsələn, onun ezamiyyətdə olduğu şəhər, rayon, qəsəbə və kənddə əlillərin vəziyyəti ilə bağlı məsələ necə həll olunur, insanlar asudə vaxtlarını harda keçirir və yaxud sosial-məişət problemləri hansı səviyyədədir, kitabxanalar fəaliyyət göstərirmi (?) və s. Bunlar jurnalistə imkan verir ki, istənilən istiqamətdə öz hədəfini müəyyən etsin. Bu cür məqamlar olduqca çoxdur və onların hər birinin arxasında həm

müəllifi, həm də cəmiyyəti maraqlandıran çoxlu maraqlı anlar dayanır. Hər bir halda jurnalist səyahətnamə oçerkinin ona verdiyi imkanlardan məharətlə bəhrələnməyi bacarmalıdır.

Oçerkdən danışarkən, yuxarıda bədii-publisistika janrının bu növünün əsasən fakta və dəlillərə söykəndiyini vurğulamışdıq. Odur ki, oçerk yazan müəllif faktın və dəlilin üstünlüyündən «zaman və məkan» daxilində səmərəli istifadə etməklə bahəm, oçerkin dinamik formada inkişafına nail olmalıdır. Bu təqdirdə jurnalist oxucu auditoriyasını səyahətin bütün füsunkar gözəlliyi ilə özünə cəlb edəcək, həmçinin onu ezamiyyət, səyahət və axtarışın iştirakçısına çevirəcəkdir.

Firidun bəy Köçərli.
Qarabağda Cavanşir mahalının əhval və övzasına dair.

Əlli-altmış sənə (1855-1856-cı illər:- V. P.) bundan əqdəm Qarabağın şairi-bənaziri Qasımbəy Zakir təxəllüs Qarabağın çox yerlərini kəştgüzar edib Tərtərbasara ki,-ibarət ola Cavanşir mahalından,-səyahət qəsdi ilə gəlir. Bu ümidlə ki, orada onun könlü açılsın və bəlkə Bərdə şəhərinin sabiqdə olan rövnəq və abadlığından bir nişani-əlamət görə. Öz hiss və arzularını Zakir bu sayaq nəzmə çəkir:

O viladə bir mehriban görmədim,
Gəlmişəm indi də mehriban gəzəm.
Seyr eyləyim tamam Tərtərbasarı,
Varmı aşiqinə can qıyam, gəzəm.

Tülək tərlan ovlağıydı bu yerlər,
Bərdə torpağına eyləyim güzər,
Görün qalıbdırmı Şirindən əsər,
Baxam hər tərəfə, nigaran gəzəm.

Xosrov-pərvizin şanü şəvkətin,
Fərhadın ələmü qəmü möhnətin,
Şapurun çəkdiyi nəqşü surətin,
Arayıb-axtarıb bir zaman gəzəm.

Dolanıb sərasər Çarsubazarı,
Gətirəm nəzərə səmti-minarı,
Görsəm, xəbər allam bülbüli-zarı,
Hecə oldu ol gül, gülüstan, gəzəm.

Deyim hanı bunda gəzən gözəllər?
Teyhulu meşələr, sonalı göllər?
Çayın kənarında tikilən ellər?
Yoxdur heç birindən bir nişan, gəzəm.

Ol baş-başa verən sərvi pənalar,
Hər guşədən gələn sövrü sədalar,
Zərrin piyalələr, meyi-səhbalar,
Gərdişi-badeyi-ərğüvan gəzəm.

Bu minval ilə şikəstə Zakir Bülbüli-zardan əhval-pürsan olub deyir ki, bu diyarın adət və qanununu mən təvarixdə oxumuşam, onları xeyli müstəhsən yazıblar. Bayram gecələri Bərdə şəhəri səhərə kimi çıraqban olub, onları eyş-işrətdə keçiriblərmiş, əmirzadə və bəyzadələr boynu qiladəli səgi-şikar ilə ceyran ovuna gedirlərmiş. Böyüklər astanasında pəhləvanlar və qızmış dəvələr guşti tutarlarmış. Bir yandan cavahirfüruşlar, bir tərəfdən zərgərlər nazənin gözəllərə ziynət və yaraşıq əsbabı mühəyya edirlərmiş. Karvansaralarda və mehmanxanalarda səyyahlar, tacirlər, qələndərlər və hər qisim qəriblər gecələr sübhədək nəql və hekayələr söylərmiş. Aya, bunlardan indi də bir əsər varmı? Rücu edək şairin öz kəlamına:

Gecə-gündüz daim bangi-cərəsdən,
Qulaq tutulurmu sədadən, səsdən?
Bakıdan, Dərbənddən, Krım, Çərkəsdən
Gəlirmi mətai-bipayan, gəzəm.

Sayeyi-sərvdə məcməi-xuban,
Yenə əyləşirmi xoşdilü xəndan?
Yoxsa ki, onlara saqiyi-dövran
İçiribdir mey yerinə qan, gəzəm.

Nazəninlər ta tülui-afitab,
Oturub gecələr çəkərmi gülab?
Çeşmi-aşiq kimi fəvvarədən ab
Tökülürmü hövzə nümayan, gəzəm.

Müzəyyən məhəllələr və münəqqəş evlər irəliki halda durumu və onların içində yenə xanəndə və nəvazəndələr gözəl nəğmələr oxuyurmu? Töylələrdə köhlən atlar çığrışırmı? Hamamlarda sular fəvvarə edirmi və onlar əzəlki kimi şirin işləyirmi və onlara külli ağçalar sərf olunurmu? Teyhulu meşələrdə, güllü və sünbüllü bağçalarda seyr edənlər, qız-gəlinlər qaqqıldaşa-qaqqıldaşa gəzirlərmi, yoxsa onların heç birindən bir əsər yoxdur? Bülbülli-şikəstədil Zakir fəqiri bu xəbər ilə məyus və peşiman eyləyir.

Bülbüli-biçarə verdi xəbəri,
Dedi ki, qalmayıb şənlik əsəri,
Mən Zakirəm, onu görəndən bəri
Gərək cunun olub, biyaban gəzəm.

Hər kəs Zakirin bu kəlamını başdan ayağa diqqətlə oxusa və o, yazdığı yerləri seyr edib, oranın əzəlki şükuhlu halı ilə indiki pərişan halını nəzərə gətirsə bilaşübhə onun ürəyi qanla dolub, gözlərindən yaş tökülər. Necə ki, bülbüli-zarın verdiyi əhvali-pürməlal Zakirin halını pərişan edib, onu məcnun-sifət guh-biyabana salır. Keçmişdəki tərəddüd və abadanlıqdan, cah-calaldan, mal-dövlətdən, sövt-sədadan şair bir əsər görməyib, Qarabağın və xüsusən Cavanşirin övzasını özgə bir pərişan halda tapıb, əhvalatı, necə ki var, artıq məharətlə öz dostu-həqiqisi olan Mirzə Fətəli Axundzadəyə yazır və öz vilayətindən və müasirlərinin əxlaqü ətvarından və riştə-kirdarından söz açıb, onları birbəbir zikr eləyir və deyir:

Xəbər alsan bu vilanın əhvalın,
Bir özgədir keyfiyyəti-Qarabağ.
Həqdi, bundan əzəl görübsən sən də,
Hanı o qaidə, o qanun, səyaq?

Qüttaüttəriqin vüfuru vardır,
Yaylaqda, aranda qatar-qatardır,
Yenə tuthatutdur, apar-apardır,
Bizim başımızda çatladı çanaq.

Həddən aşıb büxl, həsəd, şərarət,
Yoldaş-yoldaşına eylər xəyanət,
Alimdə əməl yox, bəydə ədalət,
İşlərimiz olub saf gərdən-bucaq.

Təəccüb budur ki, necə ki, əlli sənə bundan əqdəm Qasımbəy Qarabağ əhlinin övsaf və əxlaqını nəzmə çəkibdir ki, demək olur ki, haman halda qalıblar, irəliki adət və qaydaları üzrə zindəganlıq etməkdədirlər. Zahirdə guya ki, bir azacıq tərəqqi ediblər, amma həqiqi və mənəvi tərəqqidən uzaqdadırlar. Burda Zakirin yazdıqlarını qoyub, öz hisslərimi və gördüklərimi söyləmək istəyirəm. Xeyli vaxtdan bəri Qarabağa ayağım düşməmişdi və onun övzayi-əhvalından xəbərim yox idi. Gürcüstanın ortasında zindəganlıq edib və onun ab-havasına və gürcülərin ayin və adabına və təriqü sülukuna adətkərdə olub, vətəni-məlufu bir növ xatırımdan kənar etmişdim. Nə qədər ki, Gürcüstan ab-havası xoşdur, bir o qədər də gürcülərin özü gözəl tayfadır. Qəribnəvaz, sadədil, eyş-işrət sevən, açıq-üzlü, şirin sözlü, halal, kin və kədərsiz nəcib bir millətdir. Bu axır vaxtlarda gürcülər tərəqqi yolunu tapıblar və aşkara irəli getməkdədirlər. Oktyabrın 17-sində elan olunan hürriyyət və azadəlik Qafqaziyada, demək olar ki, hamıdan ziyadə onları cünbüş və hərəkətə gətirdi və hətta onları cürbəcür iddialara saldı. O gündən bəri «Sağ olsun hürriyyət, sağ olsun ittihad, ittifaq, qardaşlıq və azadəlik» sədası kəndlərdə və şəhərlərdə böyükdən tutmuş xırda uşaqlara kimi hər bir sinfi-xəlqin dillərində cari olmaqdadır. Azadəlik sevən, qardaşlıq axtaran, ittihad və ittifaq arzusunda olan milləti kim istəməz, kim belə millətə afərin oxumaz?

Gürcülərin bu bəşaşətini, bu ali hisslərini və bu gözəl təmənnalarını görüb və hər gün kəndlərdən dəstə-dəstə gələn

rəiyyətlərin şəhər meydanında və Çarsoybazarda toplaşıb ruznaməyə diqqətlə qulaq asmaqlarını müayinə edib, qəlbim şad olurdu və öz-özümə deyirdim: Görəsən, aya, bizim müsəlmanlar da öz qonşuları gürcülər kimi bu fərəhəfza və həyatbəxş azadəlik xəbərini eşidib şadlıq edirlərmi və az-çox tərəqqi yoluna düşüblərmi? Onların da milliyyət hissi və qeyrət damarı ayılıbdırmı? Dövləti-əliyyəmizə düşən şuriş və inqilabdan, övzai-aləmdən və gərdişi-zəmanədən xəbərləri varmı? Nə haldadırlar və necə dolanırlar? Bu fikirdə ikən iş belə gətirdi ki, inqilab, iğtişaş mən olduğum şəhəri dəxi əhatə elədi və qulluq etdiyim darülmüəllimin və onun cünbündə olan müsəlman şöbəsi bağlandı. Şagirdlər dərsdən azad olub buraxıldı. Fürsəti qənimət bilib, mən dəxi Cavanşirə azim oldum, vətəni-məlufu ziyarət edib, qohum-qardaş, dost-aşna ilə görüşüb, şad və xürrəm oldum. Və lakin çox çəkmədi ki, biz də Zakir kimi arzularımıza nail olmayıb məyus qaldıq. Fərəh və şadlığımız qüssəyə mübəddəl oldu. Vətəndaşlarımın dünyadan bixəbər olmaqlarını, cəhalət və zəlalət dəryasında zar və zəbun qalmaqlarını müşahidə edib pərişanhal oldum. Onlarda nə hürriyyətdən bir xəbər, nə ittihad və ittifaqdan bir əsər görmədim. Hal-hazırda vüquə gələn iğtişaşdan və mühüm məsələlərdən onların əsla xəbəri yoxdur. Bir sayaq qəflət yuxusuna qərq olublar ki, bəlkə suri-İsrafil dəxi onları haman qəflət yuxusundan bidar etməkdə aciz qala. Burada mən biləks ittihad əvəzində ixtilaf, ittifaq yerində nifaq, qardaşlıq yerinə düşmənçilik, büğz və ədavət, hürriyyət əvəzində übudiyyət və dənaət görüb, ürəyim qəm və qüssə ilə doldu. Vətəndaşlarımın bu tərəqqi zamanında, bu telefon və bu elektrik əsrində ki,-sair miləl və əqvam artıq sürətlə irəli gedib özləri üçün ixtiyarlar və imtiyazlar axtarmaqdadırlar,-geridə qalmaqları və bir-birinin malına və canına düşmən olmaları məni heyrətə saldı. O Cavanşir ki, keçmişdə onun tərif və tövsifi və əhalisinin qeyrət və hünəri dillərdə söylənirdi, indi Qarabağın pərişan mahallarından birisi hesab olunur. O Cavanşir ki, onun qışı ilə yazında təfavüt yoxdur, havası mötədil, torpağı ziyadə bərəkətli və hər qisim məhsulat yetirəndir, turacın və qırqovulun vətənidir,

meşəli, bağlı Qarabağın ən dövlətli və ən səfalı bir mərkəzidir, heyfa ki, o Cavanşir elm və mərifətdən xali qalıbdır. Onun yetirdiyi məhsulat tamamən əcnəbilərin xeyir və mənfəəti üçündür. Cavanşirin ağazadə və bəyzadələri çox isə də, aralarında ittifaq, sülh və mehribanlıq yoxdur. İttifaq və mehribanlıq olmayan yerdə, əlbəttə, səlah və tərəqqi də olmaz. Və buna biz özümüz şahid olduq. Neçə dəfələr bəzi mühüm və lazımlı məsləhətlər üçün bəyzadə və xanzadələr və rəiyyət tayfasının ağsaqqalları bir yerə cəm olub, müşavirə və müzakirə etdilərsədə, axırda məniyyəti-qərəzi-nəfsi və mənfəəti-şəxsi ucundan aralığa ixtilaf saldılar. Birləşib, yekdil və yekcəhət olub, ümuni məsələlər irəli yetirmək əvəzinə neçə-neçə firqəyə bölünüb bir-biri ilə büğz və ədavət başladılar. İş yatdı, məsləhət pozuldu, millət və islamiyyət unuduldu. Fitnə və fəsad qalxdı, oğrular və yol kəsənlər ölkəni çapıb talan elədilər. Yenə Zakir əleyhirrəhmənin əlli sənə bundan əvvəl yazdıqları yadıma düşdü. Öz dostu Mirzə Mehdiyə belə yazmışdı:

Canə yetdim dərdü qəmi möhnətdən,
Qurtarmadım əndişədən, xiffətdən,
Başımı götürüb, bu vilayətdən
Getməliyəm bir diyara, əzizim!

Bizlər kimi bir-birinin bədxahı,
Tapılmaz, gəzəsən aləmi dahı,
Onun üçün qəzəb edib ilahı,
Xayinik aşnaya, yara, əzizim!

Yenə təzə oğurlanıb bir yabım,
Dəxi ziyanlığa qalmayıb tabım,
Budur sizə əvvəl-axır cavabım,
Bu işə eyləyin çara, əzizim!

Fəqir-füqəranın qoyunu, malı
Yarım saat deyil xətadan xalı,
Sakit etmişdiniz bu qiyl-qalı,
Yenə qarışıbdır ara, əzizim!

Filhəqiqə, Cavanşirdə oğurluq ziyadə şiddət edibdir və bu halda fəqir-füqəranın malı bir dəqiqə xətadan xali deyil. Nə divanda bir hökumət var ki, oğrulara tənbeh edə və nə camaatın özündə bir tədbir və səlah var ki, öz içlərində olan bəd və bihesab işlərə çarə qıla. Cavanşiri biz bu pərişan halda qoyub, yenə gürcülərin içinə qayıtdıq. Cavanşir bəlkə keçmişdə həqiqətən «Cavan şir» imiş, amma indi o «Cavan şir» «Qoca şir» olubdur ... (Məqaləni tərtib edən və araşdıran: Akademik Kamal Talıbzadə.)

Yeri gəldikcə səyahətnamə janrının elementlərindən məharətlə istifadə edən tənqidçi-publisist, məhz bu baxımdan «Qarabağ Cavanşir mahalının əhval və övzasına dair» məqaləsində maraqlı məqamları açıqlayır. Məqalədən aydın olur ki, Qarabağın Cavanşir mahalına səyahət edən publisist, bu səyahətdən pərişan olur və Qasım bəy Zakir yaradıcılığına müraciət edir. Qonşu gürcülərlə öz həmyerlilərini müqayisə edən ədib onların arasında böyük fərqin olduğunu görür. «Azərbaycan həyatında siyasi-ictimai durumun sabit qalıb dəyişmədiyini göstərmək üçün «əlli-altımış sənə bundan əqdəm» Qasım bəy Zakir «Bərdə şəhərinin sabiqdə olan rövnəq və abadlığından bir nişani-əlaməb» görmək qəsdilə Cavanşirə gəlir. «Qarabağın çox yerlərini keştgüzar edib» (125) orada könül açan bir şey görmür» və məyus olur. Beləliklə, müəllif janrının verdiyi imkanlardan məharətlə istifadə edərək əlli-altımış illik bir dövrün canlı salnaməsini bir səyahətnamə oçerkinin daxilində yaradır.

2.ESSE

Esse-sözü fransız dilində olan «essai», ingilis dilində olan «essay» və yaxud «assay» (188) məfhumlarından əmələ gəlmiş və mənası-təşəbbüs; sınaq, təcrübə; nümunə; oçerk deməkdir. Bu sözün latın dilində olan «exagium» sözündən törəməsi isə tərəzidə çəkmək mənasını verir. Esse janrının yaradıcısı fransız ədibi M. Monten hesab olunur. O, «Təcrübələr» (250) adlı

ilk essesini 1580-ci ildə yazmışdır. Esse müstəqil kompozisiyaya malik, həcmcə böyük olmayan-mənsur əsərdir. Hər hansı bir problemi müstəqil müzakirə və ifadə etmək baxımından esse çox əlverişli publisistik və tənqidi janr hesab olunur. Bu janr konkret səbəbi və yaxud sualı qəsdən, və yaxud müəyyən predmeti ətraflı müzakirə etməyə iddialı deyil və yalnız fərdi həssazlığa və düşüncəyə, mülahizəyə malikdir. Bir qayda olaraq esse hər hansı sözün subyektiv çalarını müəyyən edir və ola bisin ki, fəlsəfi, tarixi-bioqrafik, publicist, ədəbi-tənqidi, elmi-populyar, belletristik xarakter daşısın.

Müstəqil yaradıcılıq təfəkkürünü inkişaf etdirmək bacarığı və öz fikirini yazılı surətdə ifadə etmək essenin əsas məqsədidir. Esse yazmaq fövqəladə faydalıdır, beləki, bu müəllifə öz fikrini aydın və savadlı formalaşdırmaq, informasiyanı müəyyən quruluşa salmaq, analizin əsas kateqoriyalarından istifadə etmək, səbəb-istintaq əlaqələrini seçmək, müvafiq anlayış və nümunələri şəkillərlə vermək, öz nəticəsini arqumentləşdirmək; dilə, elmi üslubda yiyələnmək imkanı verir.

Esse bunları bacarmalıdır: problemin mahiyyətini aydın ifadə etmək, müstəqil surətdə analizi aparılmış bu problemi konsepsiya və analitik insturumentdən istifadə etməklə işə salmaq, problemin qoyuluşuna intizam çərçivəsində baxmaq, nəticə çıxarmaq və müəllifin mövqeyini ümumiləşdirmək. Spesifik intizam formasından asılı olaraq esseni bir çox dərəcə və yaxud təbəqələrə ayırmaq olar. Bir çox hallarda, bu öyrəndiyimiz problemdə mövcud olan statistik məlumatların, kütləvi informasiya vasitələrindəki materialların analizi və öyrənilən modeldən istifadə etmə, təklif olunan tapşırığın geniş verilmiş ideyasının təfsilatlı müzakirəsi, nümunənin yığcam və xırda hissəciklərinin təsviri, analizi və s. kimi qəbul olunur.

Essenin mövzusu yalnız müəyyən anlayışı ifadə etməklə kifayətlənməməlidir. Onun məqsədi-insanı dərindən düşünməyə məcbur etmək olmalıdır. Bu janrın mövzusu qarşısında duran məsələni əsaslandırmaq və sübut etmək üçün daxilində problemin sualını saxlamaq qabiliyyətinə malik olmalıdır. Məsələn:

«Əsəb sistemində psixika eynidirmi?», «Psixikanın başqa strukturunda kollektiv düşüncəsizliyi ayırmaq əlverişlidirmi?» və s.

Essenin strukturu-bu suala cavab və yaxud klassik sistemə əsaslanaraq mövzunun açılışı deməkdır. Bu quruluş aşağıdakı prinsiplər əsasında formalaşır:

Essenin növləri

Esse Azərbaycan jurnalistikasında son illər işlənən, ən gənc bədii-publisistik janrdır. Baxmayaraq ki, Avropa publisistikasına bu janr XVI əsrin sonundan məlumdur, hətta İngiltərədə xüsusi məşhurluq qazanmışdır. (166) Azərbaycanda esse ədəbiyyat janrı kimi qəbul olunduğundan, onu publisistika janrı kimi qəbul etməmişlər və bu səbəbdən də, onun Azərbaycan mətbuatına gəlişi bir xeyli ləngimişdir. Essenin ədəbiyyat janrı kimi qəbul olunmasında başlıca səbəb, fakt kimi təkrar çıxış etmək, təəssüratda təsvir yaratmaq, birlik formalaşdırmaq, düşünmək qabiliyyətinin olmaması və başqa bu kimi amillər əsas gətirilə bilər. Bununla belə, essedə müxtəliflik və ayrılmalar mövcuddur.

Başqa janrlarda olduğu kimi esse öz daxilində bir neçə növə bölünür. Bunlar aşağıdakılardır:

1.Ədəbi-tənqidi esse;
2.Fəlsəfi esse;
3.Təşkilatı-idarəetmə esse;
4.Elmi-publisistik esse.

Ədəbi-tənqidi esse-əsərin analizinə və yaxud yazıçının yaradıcılıq yoluna qətiyyən iddialı deyil, əksinə, müəllifin mövzuya baxışına ümumi, subyektiv mühakimə aparması ilə fərqlənir.

Fəlsəfi esse-məişət və ictimaiyyətin inkişafı, həyat və ölüm, həqiqəti bilmək və anlamaq, yaxşılıq və pislik haqqında özünüdərk, özündə düşünmə, fikirləşmə və s. təqdim etməkdir. Müxtəlif peşə sahibləri, müxtəlif təcrübə və mədəniyyətə malik

olan insanlar bütün bu problemləri müzakirə edir və müzakirə etmək iqtidarındadır. Bir çox yüzilliklər boyu bu proses fəaliyyət və mənəvi çərçivə miqyasında müzakirə edilmiş, antik dövrdən üzü bu yana fəlsəfə adlandırılmışdır. Buna görə də, fəlsəfi esse məişət və həyat bilikləri haqqında dərin, məzmunlu fikir ifadə etmə baxımından, dünyaya tənqidi-yaradıcılıq əlaqəsi və ilk öncə dünyaya sistemli baxış bucağından əhəmiyyətli dərəcədə fərqlənir.

Təşkilatı-idarəetmə esse-elmdə, müasir idarəetmə sistemində şəxsi metod əsasında fəaliyyətin rəsmi qiymətləndirilməsi deməkdir. Bu cür esselər, özündə mütləq qiymətləndirməni əvvəlcədən müəyyən olunmuş standartlara uyğun olaraq aparır bu və yaxud başqa əməkdaşın öz işini necə yerinə yetirməsini aydınlaşdırır. Onun əsas məqsədi fəaliyyətin yaxşılaşdırılmasına, həmçinin əməkdaşın əmək karyerasına uyğun şəkildə onun mükafatlandırılmasından ibarətdir.

Elmi-publisistik esseni-bəzən, sadəcə olaraq, publisistik oçerk adlandırırlar. Həqiqətən, ümumi mənbə baxımından bu iki janrda oxşarlıq çoxluq təşkil edir. Lakin daha azad, sərbəst nağıl etmə vasitəsi, publisistik danışıq tərzi, keçmişi yada salmaq, gələcəyə baxmaq və s. bu yarımnöv essenin əsas spesifik cəhətlərindən sayılır.

Ənənəvi dialoq forması, fəlsəfi baxış, fikirlərin çoxluğu, şübhəli və titrəyişli hərəkət, analizə meyllik, müyəssər olmaq və həyəcandan geri çəkilmək-bax budur elmi-publisistik essenin mahiyyəti, məğzi. Bu janra müraciət edən publisist güclü yaddaşa, zəngin biliyə, şüuraltı sonsuz əlaqəyə, möhkəm və davamlı nəfsə, elmi-nəzəri təcrübəyə və böyük həyat müşahidəsinə malik olmalıdır. Oxucu essenin müəllifindən birinci sətrdəcə mədəni, elmi, yaxşı və hərtərəfli biliyə malik olan, geniş, ətraflı, o cümlədən ümumi nəticə çıxarmağı bacaran jurnalist keyfiyyəti, həmçinin xüsusiyyətləri hiss etmə bacarığı tələb edir.

Müəllifin məişət haqqında yeni biliklərə doğru irəliləyişi, dünyaya münasibəti və intuisiyaya əsaslanması nəticəsində esse çox vaxt fabula və dialoqsuz qurulur ki, bu da onun möv-

zusunu təşkil edir. Esse yazan publisistin özünü azad ifadə etməsinə, ictimai fikrin səviyyəsi, istiqaməti, ölkədə hökmranlıq edən fəlsəfi konsepsiya, əsasən də, milli özünü dərk və onların əlamətləri təsir göstərir. Ona görə də, janrın bu növü müəyyən olunmuş ciddi çərçivə daxilində yerləşir. Müxtəlif şəraitdə essenin yaranması müxtəlif olur, çünki publisistin kabinetdə fikrə gəlməsi real həyatdakı vəziyyətdən, hadisədən və həyatın epizodlarından kəskin surətdə fərqlənir. Bununla belə, esse sənədli publisistika kateqoriyasına aid edilmir. O, sözün həqiqi mənasında cəmiyyətdə geniş fikir formalaşdırma, konkret nəticə hasil etmə, praqmatik faktlar sisteminə daxil olma və onlara əsaslanmağa cəhd etmir. Analitiklik etibarı ilə, esse gələcəkdə qarşısına aktual problemləri analiz etmə, təcili-təxirəsalınmaz qərarlar vermə kimi tələblər qoymur. Essenin marağı ictimai-məişətin qlobal problemlərini göstərmək, həmçinin onu mərkəzləşdirməkdən ibarətdir.

Müasir essedə məişətin üçlük-«insan, insanlıq, insaniyyət» (188) formasında işlənməsi və yaxud təsvir olunmasında aparıcı mövqe tutur. Bu, həqiqətən günün və sabahın qlobal problemidir. Əlbəttə, bu müddəaya müasir cəmiyyətin mənəvi və əxlaq kateqoriyası prizmasından baxmaq lazımdır. Belə olduqda essenin ifadə olunma manerasında üstünlük fəlsəfə, mədəniyyət, incəsənət və tarixə, bir sözlə, ictimai elmlər sahəsindəki mütəxəssislərə verilir.

Materiala dərindən nüfuz etmə və həqiqətən onun geniş işıqlandırılması publisistin ictimaiyyətin mənəvi dəyərlərini qəbul etməsi, dünyagörüşünün elmi səviyyəsi, insan bilik və nailiyyətlərinin ümumiləşdirilərək yekunlaşdırılması, natural və süni vasitələr arasında yaşamasından ibarətdir. Esse yazan özünün subyektivliyini, qlobal həyatda baş verənləri dərk etməyi, ictimaiyyətin sosial-psixoloji kəsiyini daima reklam etməyə çalışır. Bu, hərtərəfli əhatə olunan özəyin, faktın sındırıcı linzası, məhz, publisistin özü olur.

Əgər oxucu hiss etsə ki, müəllifin intellektual səviyyəsi onun intellektual səviyyəsindən aşağıdır, onda heç kim onu

esseni oxumağa məcbur edə bilməz. Əslində bu prinsip bütün janrlar üçün aksiomadır. Biz bilirik ki, mənəvi dəyərləri mənimsəmək, qavramaq yaradıcılıq xüsusiyyəti daşıyır. Hər kəs müəllifin yazdığını öz səviyyəsinə və dərk etmə qabiliyyətinə görə başa düşür, anlayır, onu öz prizmasının, həyatda qazandığı təcrübənin süzgəcindən keçirir, infiltrasiya edir. Əlbəttə ki, bu yaradıcı insanın qələminin və şüurunun işi, əməyi olmaqla bərabər həm də, oxucunun təfəkküründə özünə bir o qədər yer tapır. Bu məqamda esse iki müxtəlif istiqamətdə fəaliyyət göstərən insanın şəxsi yaradıcılığından-müəllifdən və oxucudan ibarətdir. Elmi, mədəni və təhsil səviyyəsi baxımından bu iki şəxsiyyətin bilavasitə əlaqəsidir ki, baş verənlər spesifik dialoqa girir, eyni zamanda mənəvi istehlak və mənəvi yaradıcılıq təsiri bağışlayır.

Stilistik fəndlər arasında mövcud olan «xəyali qabaqlama» essedə axırıncı yerdə dayanmır. O hər an, hər zaman fəaliyyətin, hərəkətin dəqiq sərhədini çəkməklə oxucunun nəzarətini daima baş verən hadisələrin üzərində saxlayır. Bütün vəziyyət, hadisə, proses, fakt sıxılır (preslənir), zamanla bərabər hərəkət edir, vahid boşluğa-zaman müstəvisinə dəvət olunur. Buna görə müəllif çalışır ki, onları məhdudlaşdırsın, «zaman və məkan» çərçivəsində versin. Bu isə real dünyanı incəsənət dünyasından ayıran, müəyyən edən sərhəddir.

Müvəqqəti çalarlar planı publisistə imkan verir ki, mövzuda əhəmiyyətli, zəruri məqamlara xüsusi diqqət yetirsin. Bəzən jurnalist ifadə zamanı yarım sözdə dayanır, təfsilatı ilə fikrini kommentariya və yaxud real fakt, vəziyyət, proseslə bağlı öz daxili aləmini analiz edir. Bu fənd, həm də jurnalistə şərait yaradır ki, o, essedə həyəcanlı-təsviri ifadə ilə müəllif və oxucu arasında effektli əlaqənin qurulmasını, həmçinin onlar arasında məcburi söhbətin yaranmasını təmin etsin.

Esse qəzet səhifələrində az təsadüf olunan qonaqdır. Baxmayaraq ki, bəzi analitik və bədii publisistik nəşrlər bu janrda yazılan materialları dərc edirlər. Azərbaycan mətbuatında bədii-publisistikanın esse növü XX əsrin ikinci yarsına təsadüf

edir və əsasən də, son 30-40 ildə daha çox çap olunur. Məsələn, «Ulduz», «Azərbaycan», «Qobustan», «Körpü», «Alatoran» dərgiləri bu sahədə kifayət qədər irəli getmişdir. Rahid Uluselin «Ey qəlbimin Qibləsi», «Sən və Qurğuşun» («Ulduz») fəlsəfi esseləri, Aydın xan Əbilovun «Cənnəti yerdə-ədəbiyyatda axtaranlar» («Ulduz»), Elmir Mirzəyevin «Toy» «Alatoran» və başqalarını misal göstərmək olar. Qeyd etmək lazımdır ki, esse daha çox kitab formasında olan bədii-publisistika janrına aid edilir.

Essenin quruluşu

Titul vərəqi.

Giriş-mövzunun mahiyyəti və əsaslandırılması bir neçə məntiqi və üslubi komponentin rabitəsindən asılıdır. Bu mərhələdə, sualların düzgün qoyuluşu vacib şərt hesab olunur, çünki tədqiqatın gedişi zamanı alınan cavablar verilən suallar əsasında formalaşır. Giriş üzərində işləyərkən bu cür suallar kömək ola bilərlər: «Nə üçün, bizim açmaq istədiyimiz mövzu indiki zamanda əhəmiyyət kəsb edir?», «Mən mövzunu bir neçə xırda mövzuya bölə bilərəmmi?», «Essenin daxilində işlədilən terminlərə aydınlıq gətirmək lazımdırmı?», «Mövzuda, mənim müzakirəmdə hansı anlayış cəlb edici ola bilər?». Məsələn, «Azərbaycanın iqtisadiyyatı müstəqillik dövründə: ənənəvi və yaxud komanda formasında» mövzusu üzərində işləyərkən onu aşağıdakı şəkildə xırda mövzulara bölmək olar: «Bu dövr üçün iqtisadiyyatın hansı xarakterik nişanələri mövcuddur?»

Əsas hissə-seçilmiş problemin əsas nəzəri cəhətləri və vacib sualların ifadə olunmasıdır. Bu hissə özündə arqument və analizlərin, həmçinin bu sual üzrə başqa arqument və mövqelərin nəticəsində inkişafı müəyyən edir. Essenin əsas mahiyyətini bunlar təşkil edir və əsas çətinliklər də, burda təqdim olunur. Buna görə də, essenin quruluşunun arqumentləşdirilməsinin həyata keçirilməsində yarımsərlövhə əsas əhəmiyyət kəsb edir; burda (məlumatlardan məntiqi istifadə etmə və yaxud ciddi müzakirə) təklif olunan arqument və analizi əsaslandır-

maq lazımdır. Harda ki, bunlar lazımdır, məhz orda da qrafik, diaqramma və cədvəl analitik insturument formasında istifadə oluna bilər. Sualın qoyuluşundan asılı olaraq analiz aşağıdakı kateqoriyaya əsaslanaraq aparılır:

Səbəb-ümumi nəticə, istintaq-əsas forma, məzmun-bütöv hissə, dəyişməzlik-dəyişkənlik.

Essenin qurulması zamanı yadda saxlamaq lazımdır ki, bir paraqraf yalnız bir fikiri, müddəanı qorumağa borcludur və müvafiq sübut, dəlil, o cümlədən qrafik və şəkilli materiallarla əsaslandırılmalıdır. Quruluş üslubu yaxşı yoxlanılmış hər hansı bir esse-arqumentlərlə ifadə olunmuş ən vacib məqamlar üçün yarımsərlövhədən istifadə edə bilir: görmək istədiyimizi qurmağa (ideya yaxşıdırmı sualına cavab verir) kömək edir. Belə yanaşma, indiki tədqiqatda müəyyən olunmuş dəqiq məqsədə nail olmaqda kömək edir. Yarımsərlövhələrdən effektiv istifadə etmək yalnız əsas punktu göstərmək yox, həm də suallarin işıqlandırılması deməkdir. Onların ardıcıllığı mövzuda məntiqin olub və yaxud olmadığını təsdiq edir.

Nəticə-mövzunun tətbiq olunduğu sahənin arqument və ümumiləşdirilməsi nəticəsində nişan verilən sahədir. Esseni yekunlaşdırmaq və yaxud bir daha izah etməyə çıxartmaq, onun əsas hissədə ifadə olunmasının əhəmiyyətini və ideyasını möhkəmləndirir. Nəticə çıxarmaq üçün təklif olunan metod: təkrar, şəkil, iqtibasın təsiri gücləndirilir. Essenin nəticəsi ona çox əhəmiyyətli, həm də əlavə dəyər verən element kimi başqa problemlər arasında əlaqə yaradır.

Esse hazırlamaq üçün lazım olan dəlil-sübutun strukturu

Dəlil və sübut hər hansı bir həqiqətə əsaslanan məntiqi anlaşmanın, qabaqcadan təyin olunmuş başqa həqiqətlə əlaqəsinin müzakirəsi nəticəsidə alınır. O qəti əminlik və məsləklə əlaqədə olsa da, onunla eynilik, oxşarlıq təşkil etmir: dəlil-sübut və yaxud arqument mütləq elmi və ictimai-tarixi təcrübə-

nin məlumatlarına əsaslanmalıdır. Qəti əminlik və məslək isə zehniyyətə, xurafata, siyasi-iqtisadi suallardan məlumatsız insanlara, dəlil və sübutun dərəcəsinə əsaslanır. Başqa sözlə, dəlil-sübut və arqument-bu faktdan, elmi məlumatlardan istifadə etməklə bizi danışığı aparılan mühakimənin həqiqiliyinə inandırmaq deməkdir. Hər hansı dəlil və sübutun quruluşu özündə üç əsas prinsipi birləşdirir: tezis, arqument və nəticə və yaxud qiymətləndirici mülahizə.

1.Tezis-bu vəziyyəti, mülahizəni sübut etməyi tələb edir.
2. Arqument-bu kateqoriyadan tezisin həqiqiliyini sübut etmək üçün istifadə olunur.
3.Nəticə-bu faktlara əsaslanan fikir və yaxud ideyadır.
4.Qiymətləndirici mühakimə-bu bizim məsləkimizə, etiqadımıza və yaxud nöqteyi- nəzərimizə əsaslanan fikir və ideyadır.

Adətən arqumentin özü də, üç qrupa bölünür. Bunlar aşağıdakılardır:

1.Təsdiqlənmiş fakt-həqiqi material və yaxud statistik məlumatlar. Fakt-bu fikiri aydınlaşdırmaq üçün qidalandırıcı mühit, onların əsasında isə-müxtəlif sahələr üzrə qanunu bilməkdir. Buna görə də, biz tez-tez qanunun fəaliyyətini həqiqi məlumatlar əsasında təsvir edirik.
2.Müəyyən etmə-əsaslandırma (arqument) prosesində, tezislə bağlı məfhumun (anlayışın) təsvirindən istifadə olunur.
3.Elmin qanunu və erkən sübut etmə nəzəriyyəsi də, dəlil və sübutun arqumenti kimi istifadə oluna bilər.

Essedə sübutetmə və rabitə növləri

Tezis və arqumenti məntiqi ardıcıllıqla yerləşdirmək üçün, mütləq onların arasında olan bağlılığı bilmək lazımdır. Mövcud rabitəyə əsasən fərz etmək olar ki, tezis və arqument arasında-

kı qarşılıqlı təsir birbaşa, dolayı və ayrıca olur. Birbaşa sübutetmə-tezisin həqiqiliyinin arqumentə əsaslanması deməkdir. Məsələn: biz məşğələyə getməli deyilik, çünki bu gün bazardır. Birbaşa sübutetmədə, texniki induksiya, deduksiya, analogiya və istintaq-səbəb arqument metodlarının tətbiqindən istifadə etmək olar.

İnduksiya-bizim, fakta əsaslanan prosesin nəticəsində çıxardığımız yekun qərardır. Öz mühakiməmizdə fərdiçilikdən ümumiliyə, təsəvvürdən təsdiqetməyə doğru hərəkət edirik. Induksiyanın ümumi qaydası elan edir: nə qədər ki, fakt böyükdür, arqument bir o qədər diqqət cəlb edəndir.

Deduksiya-ümumilikdə fərdiçiliyə doğru, iki dayaq üzərində qurulan ilk şərtdir ki, onlardan da biri daha çox ümumi xarakter daşıyır. *Məsələn, öz qarşısına səlis məqsəd qoyan və böhranlı vəziyyətlərdə ruhən və mənən ondan çıxmağı bacaran bütün insanlar böyük lider hesab olunurlar. Müasir dünyanın bir çox liderlərini-Amerikada Ruzvelti, Fransada Şarl De Qolu, Almaniyada Adenhaueri, Azərbaycanda Heydər Əliyevi buna misal göstərmək olar.*

Analogiya-müqayisəli müzakirə üzərində qurulan üsuldur. Analogiya təxmin edir ki, əgər **S** və **F** obyektləri bir çox əlamət və istiqamətlər üzrə eynilik təşkil edirsə, deməli onlar bir-birinə qohum və yaxud yaxındırlar. Bu növün bir çox əsas xüsusiyyətləri haqqında mütləq biliyə sahib olmaq lazımdır: aparılan müqayisənin istiqaməti gərək iki ən əhəmiyyətli hədd üzrə keçirilsin, əks təqdirdə biz, tamamilə mənasız, məntiqsiz, cəfəngiyyat nəticəyə gələ bilərik.

İstintaq-səbəb arqumentləri-bu və yaxud başqa hadisə, vəziyyət, proses, səbəbi arqumentin köməyi ilə (daha tez-tez qarşılıqlı asılılıqda olan hadisə, vəziyyət, proses) aydınlaşdırmaq.

Essedə həqiqi məlumat və başqa mənbələrə olan tələblər

Esse yazarkən empirik (təcrübəyə əsaslanan) məlumat və başqa mənbələr (əsasən oxuma keyfiyyəti) fövqəladə əhəmiyyət kəsb edir. Bütün həqiqi məlumatlar konkret məkan və zaman münasibətində olur. Buna görə də, ilk növbədə onlardan istifadə etməmişdən əvvəl baxmaq lazımdır ki, məkan və zaman tədqiqat aparmaq üçün bir-birinə nə qədər müvafiqdirlər.

Məkan və zaman spesifikasiyasına aid olan məlumatlara əsasən-qaydalardan birinə görə, ola bilsin ki, nəticə hədsiz ümumiləşdirmənin qarşısını alsın, məsələn, bir çox əhəmiyyətli baxışlara görə bütün cəhətlər (əgər siz belə düşünürsüzsə, onda bu mütləq sübuta yetirilməlidir, bu sübutsuz təsdiqlənə bilməz) fərziyyə ola bilər. Hər zaman həddən artıq eyniləşdirmədən qaçmaq olar, əgər yadda saxlasaq ki, esse çərçivəsində istifadə olunan məlumatlar əyani materialdır, son akt deyil, daha doğrusu, onlar arqument və mühakiməni təsdiq edir və şəhadət verir ki, müəllif məlumatlardan lazımınca istifadə edə bilir. Həmçinin yaddan çıxartmaq olmaz ki, mübahisəli suallara aid olan məlumatlar, həmişə şübhəyə məruz qalır. Müəllifdən müəyyən və yaxud qəti cavab gözləmirlər. Bu sualla bağlı həqiqi materialın mahiyyətini, məğzini mütləq başa düşmək və bunu essedə nümayiş etdirmək lazımdır. Esseni özü oxumayan müəllifin işinə istinad etmək, əsaslanmaq olmaz.

Esseni necə hazırlamalı və yazmalı?

Hər hansı bir essenin keyfiyyəti bir-biri ilə bağlı dörd tərkib hissədən ibarətdir. Onlar aşağıdakılardır:

-Başlanığıc material (ədəbiyyatda oxunan konspekt, mühazirə, diskussiya (müzakirə və mübahisə), şəxsi düşüncə və mülahizə, problem üzrə toplanmış təcrübə);

-Başlanığıcda mövcud olan işlənmiş materialın xüsusiyyəti (onun təşkili, arqumenti və əsası);

-Əsaslandırma (essedə irəli sürülən problemlə o nə qədər əlaqədədır);

-Əgər hər iki obyekt bir neçə parametrinə görə oxşardılarsa, onda analogiyaya əsaslanaraq təxmin etmək olar ki, onlar eyni xüsusiyyətə malikdir və aralarında qohumluq əlaqəsi mövcuddur. Həmçinin, onların bəzi xüsusiyyətləri haqqında düşünmək lazımdır. Essenin yazılma prosesini bir neçə mərhələyə bölmək olar: -Düşünmə-planlaşdırma-yazılma-yoxlama-düzəltmə.

Planlaşdırma-hədəfi müəyyən etmə, əsas ideya, informasiyanın mənbəyi, axır müddət və işi təqdim etmə.

Hədəf-hərəkəti müəyyən etməlidir.

İdeya-hədəf kimi, konkret və ümumi, daha doğrusu mücərrəd olmalıdır.

Düşüncə, duyma, nəzər salma və təqdim etmə, analogiya, birlik, fərziyyə, mühakimə, mülahizə, əsaslandırma, sübut etmə və s. formada ifadə olunmalıdır.

Analogiya-elementlərin arasında olan rabitənin əhəmiyyəti, ideyanı üzə çıxarmaq və yarananı təqdim etmək.

Birlik-mövzu və hadisənin qanunauyğun formada bir-biri ilə əlaqəsi.

Mühakimə-mülahizə, fikir, rəyin qısaca və dürüst ifadə edilməsi və sübut etmə.

Əsaslandırma-oxucunu tezisə, nöqteyi-nəzərə, mövqeyə inandırmaq üçün öz aralarında əlaqədə olan bir sıra mülahizə və mühakimə.

Mülahizə və mühakimə-suala cavabda məna kəsb edən ibarə və yaxud cümlə: həqiqət və yaxud yalan?

Dəlil, sübut, əsas-nəticənin əsla doğru olması və yaxud ehtimalın hər hansı bir hissəsinin əsaslandırılmasıdır. Etibarlı mənbəyə istinad və həqiqi müzakirəni aşkar etmə (qanun, qayda, aksioma və s.), sübuta yertirmə (birbaşa, dolayı, «əks təq-

dirdə», «istisna metodu» və s.), dəlil, sübut, əsas kimi faktdan istifadə olunur. Sadaladığımız ideyalar nəticəsində alınan siyahı, onlardan hansının əsas arqumentə ehtiyacı olduğunu müəyyən etməyə kömək edir. Məhz, bu yerdə essenin mövzusu, mənbələr, bizə lazim olan materialı harda axtarmağı söyləmiş olur. Adətən kitabxana, lüğət, məlumat kitabçası və İnternetdən istifadə edirlər. Mətnə yenidən baxma, onun keyfiyyətli və effektiv redaktə olunmasına olan oriyentasiyadır. Mətnin keyfiyyəti dörd əsas komponentdən: fikrin, ideyanın aydınlığı, məntiqliyi, savadlığı və ədəbiliyindən ibarətdir.

Fikir-bu yazılanın məzmunudur. Fikir, məslək, mülahizə və ideyanı aydın ifadə etmək istəyirsinizsə yığcam və anlaşıqlı formada onları ifadə etmək lazımdır, əks halda, nə demək istədiyinizi sizi əhatə edənlərə çatdıra bilməyəcəksiniz.

Aydınlıq-mətni başa düşmək üçün mümkünlükdür. Məntiqi ardıcıllıqla və diqqətlə seçilmiş sözlərdən, ifadə və qarşılıqlı əlaqəli abzaslardan, mətni aşkarlamaq üçün istifadə olunan vasitələrlə istəyimizə daha rahat nail ola bilərik. Qrammatikaya və yazı qaydalarına riayət etmək savadlılığı əks etdirir. Əgər buna şübhəniz varsa, dərsliyə baxın, lüğətlə düzəliş aparın və yaxud üslubu rəhbər tutun və yaxud yazı üsulu sizə xoş gələn adama yazdığınızı oxumağa verin.

Ədəb-bu yazılmış qaydadır. Qayda, müəllifin oxuculara ünvanladığı müraciətin strukturu, hədəfi, janrı ilə müəyyən olunur.

Essenin qiymətləndirilməsi

Essenin qiymətləndirmə meyarı onun konkret formasından asılı olaraq başqa şəklə salına və yaxud dəyişdirilə bilər. Bu zaman essenin dəyərinə olan ümumi tələb aşağıdakı meyarlarla qiymətləndirilir:

İnşanın janrı kimi esse məktəb həyatına fəal surətdə daxil olur. Bir çox ali tədris ocaqlarına buraxılış və yaxud qəbul imtahanlarında esse təklif oluna bilər. Bu bir mövzu kimi yalnız

Azərbaycan dili və ədəbiyyatı olan sahələrdə yox, həmçinin tarix və xarici dillər olan fakültələrdə də istifadə edilə bilər. Qrammatik və maraqlı esse yazmaq üçün bir neçə qayda və məsləhətə əməl etmək lazımdır ki, bununla da, abuturiyentləri yaddaş kitabçası tanış edir.

Esse janrı sərbəst yaradıcılığa meyillidir. Onun əsas incəliyi ondan ibarətdir ki, onu istənilən mövzuda və istənilən üsulda, daha doğrusu, nə haqqında və necə lazımdır yazmaq olar, axı esse müəllifin ideyalarının eşidilməsi, oxunması və baxılması deməkdir. Birinci planda esse-müəllifin şəxsiyyəti, onun ideyası, duyğusu və dünyaya münasibətidir. Bu, əsərin başlıca mexanizmidir. Lakin yadda saxlamaq lazımdır ki, sərbəst yaradıcılığa baxmayaraq, esse janrında yazmaq o qədər də asan deyil, çünki hər hansı bir problemə original və qeyri-standart baxış və yaxud ideya tapmaq olduqca çətindir. Ədəbi əsərin janrı kimi esse nədir? Bu böyük həcmdə olmayan maraqsız əsər, fərdi təəssüratı ifadə edən və yaxud müfəssəl məlumata iddia etməyən, sərbəst kompazisiyaya malik əsərdir. Esse fəlsəfi, tarixi-bioqrafik, publisistik, ədəbi-tənqidi, elmi-kütləvi və yaxud belletristik xüsusiyyətə və hər hansı bir subyektiv çalarlara boyanmış mövcud olan yeni sözdür.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu).
Bazar iqtisadiyyatı: korrupsiya və rüşvətxorluq.

Keçmiş SSRİ-nin iflasa uğraması, Azərbaycanın müstəqillik əldə etməsi, ölkənin sovetlər dövründə mövcud olan planlı iqtisadiyyatdan, bazar iqtisadiyyatına keçməsi nəticəsində respublikada çox böyük dəyişikliklər baş verdi. İqtisadiyyatın üç yüz altımış dərəcə dəyişməsi yalnız dövlət iqtisadiyyatına deyil, həmçinin mikro iqtisadiyyata, hər bir ailəyə, daha doğrusu bizim hər birimizə təsir göstərdi.

Biz azərbaycanlıların çox hissəsi, başqa xarici dövlətlərə nisbətən, daha çöx uşaqlı ailələrdə yaşadığımız üçün, bazar iqtisadiyyatı əsasən ailələrə öz təsirini əhəmiyyətli dərəcədə ya-

şatdı. Beləki, həm ölkənin xaricində, həm də ölkənin daxilində gedən bu prosesin təsiri ilk öncə cəmiyyətin bir hissəsi olan ailə yuvasında hiss olunmağa başladı. Əvvəl ki, quruluşda hər bir ailənin, hər bir kəsin mənzil, təhsil, səhiyyə və başqa bu kimi problemini həll edən planlı dövlətin yerinə, hər şeyi pul həll edən «vəhşi» kapitalizm, bazar iqtisadiyyatı gəldi. Bu cür iqtisadiyyat bir tərəfdən insanlara özlərini göstərməyə, nəyə qadir olduqlarını nümayiş etdirməyə imkan versə də, digər bir tərəfdən onların illərlə topladıqları əmanətlərin üstündən qara bir xətt çəkərək sıfıra endirdi, insanların əllərində olan pul kütləsi isə bir neçə saatın içərisində, hiperinfilyasiya nəticəsində dəyərsiz kağız parçasına çevrildi.

Əgər biz bu günkü gənc ailələrin vəziyyətinə nəzər salmış olsaq, görərik ki, onların hər birinin «start» mövqeyi fərqlidir. Kiminin heç bir problemi yoxdur və yaşamaq üçün kifayət qədər gəlir mənbəyinə malikdir. Kiminin isə nə yaşamağa mənzili, nə də ki, minumum yaşayış tərzini təmin etmək üçün gəlir mənbəyi var. Çoxlu boşanmalar, evlənməyənlər, olkəni tərk edənlər, cinayət əməlinə qurşananlar mövcuddur.

Məlumdur ki, planlı iqtisadiyyat dövründə ailənin əsas gəlir yeri onun əmək haqqı, kənd yerlərində isə becərdiyi təsərrüfat idisə, hal hazırda bu istiqamət çox müxtəlif, həm də, çox genişdir. Bu ilk baxışdan normal görünsə də, digər tərəfdən ürəkaçan hesab oluna bilməz. Çünki indi ki, şərait, bazar iqtisadiyyatı yalnız «start» kapitalı olanlar üçün sərfəlidir. Onlar özləri üçün kiçik müəssisədən tutmuş, mülk-əmlak bazarına, bank və böyük ticarət mərkəzlərinə malikdirlər. Sözsüz ki, bu da cəmiyyətdə balansı pozur, ümumiyyətlə, ictimaiyyət bir neçə sosial qrupa deyil, yalnız iki qrupa: varlı-kasıb təbəqəyə bölünür. Bu heç də, yaxşı tendensiya deyil, beləki, bu cür proses sonda sosial partlayışla nəticələnir-Suriya, Tunis, Rumuniya, Liviya, Misir və başqa bir çox ölkələrdə olduğu kimi.

Əlbəttə, «start» kapitalın olması heç də, bütün işlərdə və bütün başlamalarda uğurlu nəticə demək deyil, çünki heç kim, o cümlədən hər bir ailə maliyyə böhranından azad deyil və yaxud

sığortalanmayıbdır. Sözsüz ki, belə bir vəziyyətdə kapitalla yanaşı, ailədə təhsilli, dünyagörüşə malik, ağıllı, istedadlı və s. başqa amillərə malik üzvülərin olması əhəmiyyətli rol oynayır. Hər bir ailədə işləyənlərin sayı, bu məsələdə mütləq nəzərə alınmalıdır.

İctimaiyyətdə ən önəmli problemlərdən biri, bəlkə də, birincisi yalnız ailə üzvülərinin dövlət strukturularında çalışması və yaxud şəxsi bizneslə məşğul olması, və yaxud başqa sahələrdə işləməsində yox, yaşadığı cəmiyyətdə korrupsiya və rüşvətxorluq faktorunun olmasındadır. Bu cür neqativ tendensiyaların olması hər bir ailənin büdcəsinə, bəzi istisnalar olmaqla, iqtisadiyyatın formasından asılı olmayaraq dağıdıcı zərbə vurur.

Bəli, bazar iqtisadiyyatı hər bir ailənin qarşısında öz bacarıq və istedadını nümayış etdirmək üçün geniş meydan açır və «yaşıl» işıq yandırır. Bununla da, ailə büdcəsini yalnız əmək haqqı hesabına yox, hən də, şəxsi işgüzarlıq və bacarıq ilə artırmağa, problemləri həll etməyə imkan yaradır.

Bazar iqtisadiyyatında ailə büdcəsini nizamlamaq üçün yalnız gəlir mənbəyinə arxayın olmaq çıxış yolu sayıla bilməz. Məhz buna görə də, ailənin xərc hissəsinə də, bir o qədər diqqət yetirmək lazımdır. Ailə büdcəsinin gəlir mənbəyinə diqqət yetirəndə ailə üzvülərinin sayını ön plana çəkmişdik, deməkxərc hissəsində də, ailənin tərkibi sonuncu rolu oynamır. Ailənin xərcindən danışarkən, ilk əvvəl xərc hissəni kateqoriyalara bölmək lazım gəlir. Ərzaq, geyim, təhsil, səhiyyə, nəqliyyat, komunal və başqa xərclər bu kateqoriyanın əsas hissəsini təşkil edir. Yadda saxlamaq vacibdir ki, ailə üzvülərinin hər biri yaş həddinə və cinsi bölgüyə görə müxtəlif məbləğdə sərfiyyat edirlər. Ailənin gənc, orta və yaşlı nəslə aid olması önəmli faktdır. Beləki, gənc ailənin xərci daha çox, orta yaşa aid olan ailənin xərci nisbətən az, yaşlı təbəqənin xərci isə iki, hətta üç qat az ola bilər. Bu məsələdə, günbə-gün qiyməti artan mənzil və ərzaq mütləq nəzərə alınmalıdır.

Bir neçə il bundan əvvəl ki, ailə xərcini bu günkü ailə xərci ilə müqayisə etsək hiss olunacaq fərqi görmüş olarıq. Hər il qəbul olunan dövlət büdcəsində dövlətin bu prosesi diqqət mərkə-

zində saxladığı və onu balanslaşdırmağa çalışmasının şahidi oluruq. Vergilər də ilbə-il aparılan azaltmalar, kasıblara ünvanlı sosial yardımların təyin olunması, pensiya təqaüdlərinin artırılması, kənd təsərrüfatına subsidaların verilməsi və müxtəlif birdəfəlik köməkliklər dediklərimizə bariz nümunə ola bilər. Lakin burda ifratçılıqdan ehtiyat etmək lazımdır: axı «hər şeyi bölmək», onsuz da mümkün deyil.

Ailə, həmçinin bizim hər birimiz bazar iqtisadiyyatı şəraitində müəyyən çətinliklərlə üzləşirik. Bütün dünyanı bürüyən maliyyə böhranı az və yaxud çox miqdarda ölkənin iqtisadiyyatına təsir göstərir. Bunu hər bir ailə, hər bir kəs öz şəxsi büdcəsində hiss edir. Bütün bunlarla bərabər, ölkənin çiçəklənməsinin nişanələri özünü «orta təbəqə»nin çoxalmasında göstərir. Bu göstərici isə son iki ildə aparılan iqtisadi dəyişiklər nəticəsində yüksələn xətt üzrə inkişaf edir. Bunun bədbinlik və yaxud nikbinlikdən xəbər verməsini «əlahəzrət» zaman özü göstərəcəkdir... Əgər korrupsiya və rüşvərxorluq olmasa...

Essenin üslubu özünün əyani aforizm paradoksallığı ilə fərqlənir. Şəxsi dərketmənin təhlilini vermək üçün, mühiti öyrənmiş essenin müəllifi çoxsaylı nümunələr gətirir, cəmiyyətin verdiyi bütün imkanlardan istifadə edərək paralel müqayisə və analogiya aparır. Esse üçün qədərsiz bədii mənalıq üsulundan istifadə etmək xarakrerik haldır: alleqorik (kinayə) metafora (məcaz) və ibrətli hekayə, üsul və əlamətin esse ilə tutuşdurulmasıni burda maraqlı və zəngin görmək olar, əgər bilinməyən nəticə, gözlənilməyən dönüş və maraqlı qoşulma baş verərsə. «Danışıq quruluşuna görə esse-dinamik, növbə ilə bir-birini əvəz edən mübahisəli mülahizə, suallar, danışıq intonasiyası və leksikaya uyğun mexanizmdir. Esse janrının özünə məxsus xüsusiyyətləri və essenin sərlövhəsi mövzudan birbaşa asılı deyil: yalnız məzmunun işdə əks olunmasından başqa, o müəllifin fikirlərini ifadə edir, qismən və yaxud bütöv halda yola salma nöqtəsi olur. Bu halda toxunduğumuz problem müxtəlif tərəflərdən görünə bilər. Əgər ədəbi mövzuda olan yazıda, bədii

əsər şəxsi mülahizələrlə müzakirədə səmərəlilik baxımından mütləq üstünlük və yaxud uyğunluq təşkil edərsə, onda esse də, müəllifin mövqeyi parlaq təzahür etmiş olur. Əgər, ənənəvi yazıda, əsərin müəllifinin fərdi xüsusi üslubu və dili üstünlük təşkil edirsə, onda esse müəllifin fərdi üslubuna, janrın tələbinə uyğundur. Yox, əgər siz yeni, qeyri standart nə isə demək istəyirsinizsə, onda demək esse-bu sizin janrdır.» (188)

3.FELYETON

Felyeton janrının adı fransız sözü olan «feuille»dən götürülübdür ki, mənası «vərəq; vərəqə» deməkdir. (108) Vaxtilə vərəqə qəzetin əsas hissəsinə olunan əlavəyə deyilirdi. Bu əlavə qəzetin aşağı hissəsində yerləşdirilirdi və əsas hissədən enli qara xətlə ayrılırdı. Qəzetçilikdə, qəzetin bu hissəsini, yəni enli qara xətdən aşağıda olan sahəni çox vaxt «zirzəmi» adlandırırdılar. Burada yalnız müasir felyetona oxşar əsərlər yox, həmçinin bu günkü hesabat, resenziya, ədəbi icmal və s. adlandırılan ədəbi janrlar da yer alırdı. Tədqiqatçılar bu cür «zirzəmi»nin (30) XVIII əsrə aid olduğunu iddia edirlər. Zaman keçdikcə «felyeton» sözü mövzuya, haqqında danışdığımız janra mənsub olmağa başlayır.

Felyetonun tarixi, janr xüsusiyyəti, üslubu, növləri haqqında müxtəlif mülahizələr söylənilmiş, ətrafında ciddi mübahisələr getmiş olsa da, onun konkret tərifi verilməmişdir. Lakin bu, heç də o demək deyil ki, onun haqqında elmi fikir mövcud deyil və yaxud olmayıbdır. «Felyeton mənfi fakt və hadisələrin gerçəkliyinin komik mahiyyətini meydana çıxaran satirik bədii publisistik janrdır.» (69,60-62)

Felyetonun hansı janra aid olması daima yaradıcı insanlar arasında kanatın (burazın) müxtəlif istiqamətlərə dartılması ilə müşahidə olunubdur. Odur ki, bu janrın xüsusiyyətinə uyğun mülahizələri izləyən hər kəs bu kimi konsepsiyalarla rastlaşacaqdır: «Felyeton bədii janrdır, felyeton publisistik janrdır,

felyeton həm publisistik, həm də bədii xüsusiyyət daşıyan müştərək janrdır, felyeton bədii-publisistik janrdır. Felyeton janrı, təsadüfdən müxtəlif konsepsiyalı son dərəcə xarakteri daşımır. Əksinə, mətbuatın yaradıcılıq təcrübəsinə əsaslanan praktiki zəmin üzərində meydana çıxmış, şaxələnərək geniş yayılmışdır.» (32,33) Felyetonun özündə satirik notlar daşımasına baxmayaraq, o bədii-publisistikaya aid edilir. Çünki onda həm bədiiliyin, həm də publisistikanın təzahürləri daha güclüdür, nəinki satiranın özündə.

Azərbaycan mətbuatında bədii-publisistika janrının bu növünü yüksəklərə qaldıran «Molla Nəsrəddin»çilər, əsasən də, Cəlil Məmmədquluzadə-«Lağlağı», «Dəli», «Dəmdəməki», «Cırcırama», M. Ə. Sabir-«Hop-hop», «Ağlar güləyən», «Əbunəsr Şeybani», «Cingöz bəy», Əli Nəzmi-«Əlidəyənəkli», «Məşədi Sijimqulu», «Kefsiz», Ə. Haqverdiyev «Xortdan», «Ceyranəli», «Mozalan bəy», Ö. F. Nemanzadə-«Ümidvar», M. S. Ordubadi-«Hərdəmxəyal», B. Abbaszadə-«Hammal», Ü. Hacıbəyli-«-Filankəs», S. Mümtaz-«Xortdan bəy», Ə. Razi-«Dabanıçatdaq xala», «Heyvərə», Ə. Məhzun «Yetim cücə» və başqaları olmuşdur. (93) Yuxarıda adları çəkilən şəxslər «Molla Nəsrəddin» jurnalında fəal iştirak edərək öz satirik əsərləri ilə Azərbaycanda felyeton janrının başlanğıcını qoymuş, həmçinin Azərbaycanda bədii-publisistikanın yeni erasını yaratmışlar. Həmin illərdə «Molla Nəsrəddin» dərgisindən başqa bir çox mətbuat orqanlarında da, görkəmli publisistlərin felyetonları dərc olunurdu. «Şərqi-Rus»da Ö. F. Nemanzadənin «Xütbə və cümənamazı», «Həyat»da N. Nərimanovun «Həftə faydaları», «İrşad»da Ü. Hacıbəylinin «Ordan-burdan» ümumi başlıq altında, «Filankəs» imzası ilə çap etdirdiyi «Bir «başıqapazlı»nın söyləməyi», «Mühüm suallar və ələmli cavablar», «Qulaq ardına vurmaq» və s. felyetonlarını misal göstərmək olar. Bu ənənə sovet dövründə də, davam etmişdir. XX əsrin 20-ci illərində Azərbaycan sovet mətbuatında siyasi hadisələrə reaksiya göstərən ədib və publisistlər «Balaca felyeton»lar guşəsi yaratmaqla öz qələmlərini felyeton ədəbi mühitində sınayırdılar. Onların mütərəqqi fi-

kirləri sonralar «Qəza felyetonu» və «Kəndli felyetonu» adları altında verilmişdir. Mürtəd, Hacı Əqrəb, Babayi-Əmir, Tənbəl kimi gizli imzalarla onları Əliağa Vahid yazmışdır. «Bakinski raboçi» qəzetində həmin formada yaranan «Po şapke» rubrikasını Xlamidov aparmışdır. Həmin əsrin 30-cu və 40-cı illərində «Balaca felyeton»ların həm mövzu dairəsi, həm də yaradıcı heyətin tərkibi daha da genişlənir. M. S. Ordubadi, Əliağa Vahid, Əli Nəzmi, Əsəd Əyyubi, Məmməd Əkbər, Şəmsəddin Abbasov, Qulam Məmmədli, Sabit Rəhman, Seyfəddin Abbasov (Dağlı), Fazil Sadıqov və başqaları ardıcıl olaraq mətbuatda çıxış edirlər.

Onların ərsəyə gətirdikləri felyetonlar bir qayda olaraq epiqrafla «Kommunist», «Yeni yol», «Gənc işçi», «Bakinski raboçi», «Vışka» qəzetlərində müntəzəm olaraq dərc olunur. Həmin dövrdə, Azərbaycan mətbuatında M. S. Ordubadinin «Hərdəmxəyal» imzası ilə yazdığı «Professor və casus», «Sözdə sülh, işdə qan», «Avçarka», «Sancı», «Siz sözdə biz işdə», «Yalan fabrikası» adlı felyetonları son dərəcə əhəmiyyətli hesab olunurdu və öz dövrünə görə vacib yerlərdən birini tuturdu. Bu felyetonlar «Kommunist» qəzetində Ə. Əzimzadənin çəkdiyi karikaturaların müşayiəti ilə dərc edilmişdir. (93)

Həmin zamanın ən məşhur felyetonçuları sırasında yaradıcılığa 1926-1927-ci illərdə, «Molla Nəsrəddin» jurnalında felyetonla başlayan Sabit Rəhman, «Kommunist», «Ordu» qəzetlərində müxbir kimi çalışan və sonralar uzun müddət «Kirpi» satirik jurnalının Baş redaktoru olan, həmçinin «Adı sənin, dadı mənim», «Aydınlığa doğru», «Mənziliniz mübarək», «Təzə gəlin», «Kölgələr pıçıldaşır», «Bahar oğlu», «Məşəl», «Kəsil qapısı» kimi ictimai-siyasi maraq daşıyan əsərlərin müəllifi Seyfəddin Dağlı, «Avanqard» (1951-1952), «Kommunist») 1955-1990), «Həyat» (1990-1992) qəzetlərində on illiklər boyu müxtəlif vəzifələrdə çalişan və qələm işlədən, «Telepat» (1994) kitabında toplanmış «Fətinin fəndi, Cəlilin səddi», «Telepat», «Qara çanta», «Ağcaqanad», «Kəbin kağızı», «İyirmi bir cib» və onlarla duzlu-məzəli, ictimai əhəmiyyət daşıyan felyetonların müəllifi Əli (Məmişov) İldırımoğlu, Ə. Sadıq, C. Gözəlov,

T. Həsənov, M. Dadaşov və başqalarının adlarını çəkmək olar. Onların gündəlik adi hadisələri və onların ictimai əhəmiyyətini duyması, mənəvi-estetik mahiyyəti görmək bacarığı, faktı təhlil və ümumiləşdirmə qabiliyyəti publisistik yaradıcılığın spesifikliyi haqqında aydın təsəvvür yaradır. Lakin tam əminliklə demək olar ki, XX əsrin 80-ci illərindən, əsasən də, Azərbaycan müstəqillik qazandıqdan sonra bu janra tələbat tamamilə azalmış (daha doğrusu felyeton yazanlar yox olmuşdur), o qəzet və jurnal səhifələrindən çıxarılaraq «zirzəmiyə» atılmışdır. Sözsüz ki, felyetona olan bu qeyri doğma münasibət bir günün içində və təsadüfdən yaranmamışdır. Daha böyük anlamda, bu «enmə, düşmə, azalma» janrın fövqəladə xüsusiyyətləri ilə əlaqəli ola bilər.

Bu nəyə əsaslanır? İlk öncə qeyd etmək lazımdır ki, felyeton şər işə, yamanlığa gülmək vasitəsi hesab olunur. «Tənqidi gülüşün özünü bir çox cəhətdən yüngül, əyləncə gülüşündən, rişxənd, lağlağı, hırıltıdan ayırmağı bacarmaq lazımdı. Əsl tənqidi gülüş əsasında aydın ideal, məslək, ictimai-siyasi məna kəsb edən zəruri, mühüm ictimai bir mətləbi hədəf götürən gülüşün özündə bir ciddilik, fikir, məzmun olmalıdı və olmaya bilməz.» (94,176) Məhz, bu keyfiyyət və imkandan KİV-i uzun müddət, hətta on illiklər boyu səmərəli istifadə etməmişdir. Təəssüf hissi ilə qeyd etmək olar ki, bu günkü KİV-də məsələnin qoyuluşu tərsinə olduğundan felyeton janrına publisistlər arasında, ümumiyyətlə, mətbuatda maraq kəskin dərəcədə azalıbdır. Çünki təsisçilər, jurnalistlər (cəmiyyətdəki mənfi elementlərin bir hissəsi «demokratik» dəyərlərdən süni istifadə edərək öz mətbuat orqanlarını yaradır, mətbuat orqanları təsis edirlər) «oliqarxın, inzibatçının, hakimiyyət uğurunda «mübarizə» aparan bir qrup şəxsin, siyasətçinin maraq dairəsində» məhdudlaşaraq qalıb və yaxud onların «pul kisəsi»ndə asılı olubdur. Belə vəziyyətdə kiminsə cəmiyyətdə cərəyan edən mənfi və neqativ tendensiyalarını qələmə alıb, bu çatışmazlıqları felyetonun faktına çevirməklə, ondan təsiredici gülüş vasitəsi, felyeton kimi istifadə edərək oxucu auditoriyasınıa gətirə biləcəyi məntiqsiz,

daha doğrusu, gülünc görünür.

Digər bir tərəfdən isə son on ildə müxtəlif siyasi qruplar, yerribazlar, vəzifəpərəstlər, «biznesmen və işgüzarlar», istintaq-təhqiqat materialları ilə işləyənlər bir-birini «vurmaq», ləkələmək, etibardan salmaq və s. işlər üçün mətbuata fasiləsiz və zəngin materiallar ötürürlər ki, bütün bunların qarşısında felyetonun «zərbəçi» görünməsi ağla batan sayıla bilməz. (51) Yalnız həyatın normal ritimdə olması, əxlaqi-mənəvi dəyərlərin saflaşması, tərəqqi və təmayülün inkişafı ictimaiyyət arasında felyetona olan tələbatı artırar və o yenidən öz əvvəlki mövqeyini bərpa edər və möhkəmlənər.

Felyeton janrının azlığına əsas səbəblərdən biri də, müasir jurnalistikada yüksək səviyyədə felyeton yazıb ortaya çıxaran istedadlı, peşəkar publisist nəslinin olmamasıdır. Hətta felyeton janrını müasir zamanda kifayət qədər təmsil edən, nöqsansız və xətasız yazan tapmaq müşkül məsələdir demiş olsaq, məncə yanılmarıq. Əlbəttə, bəzi istisnalar olmaq şərti ilə...

1952-ci il iyulun 15-də «Kirpi» adlı jurnalın ilk sayı işıq üzü görəndə çoxları elə düşündülər ki, nəhayət «Molla Nəsrəddin»in yolunu davam etdirən bir dərgi yarandı. Bundan sonra felyeton, pamflet, parodiya, satirik kommentariyə və bədii-publisistikanın başqa janrları oxucuları dadlı-ləzzətli əsərlərlə təmin edəcək, nöqsanları təftiş edərək aradan qaldırılmasında müstəsna rol oynayacaqdır. «Kirpi» jurnalı öz məramını açıqlayaraq yazırdı: «Yazmağa sözümüz çoxdur, gülməyə, döyəcləməyə, ifşa etməyə o qədər adam var ki,...» (30) Düzdür, jurnalın nəşri bədii yaradıcılıqda, jurnalistikada yumor və satiranın canlanmasına yeni təkan verdi, yeni satirik qüvvələr yetişdi, amma nədənsə «Kirpi» «Molla Nəsrəddin»in yolunu gedə bilmədi, yəni ətrafına «Ağsaqqal» (yəni, C. Məmmədqulizadə:-*V. P.*) qədər sanballı qələm sahibləri toplaya bilmədi. Məhz, bunun məntiqi nəticəsində bədi-publisistika janrının əlvanlığı yüksəliş əvəzinə, enməyə meylilik nümayiş etdirdi. Jurnalın lazım olan zirvəni zəbt edə bilməməsində sovet totalitar rejiminin, ideya və «əməyini» danmaq «haqsızlıq» olardı.

Müasir publisistikada felyetonun gələcək qüsurları, hələ onun yazılma və hazırlanma mərhələsinə xeyli qalmış baş verir. Burda belə bir sual ortaya çıxa bilər. Felyetonun yazılması üçün hazırlıq mərhələsi nədən ibarətdir?

Onun ən başlıca atributu «felyeton» faktının tapılmasındadır. Bu ideyanın tapılması, axtarışı həmişə başa düşülən, dərk edilən deyil. Elə olur ki, çox vaxt müəllif satirik janr kimi bu növün spesifik xüsusiyyətlərini anlamır və onu tənqidi məqalə, replika və s. ilə eyniləşdirir. Əgər bu baş verirsə, onda hər hansı «qaynar» faktı fakt kimi qəbul edib felyeton yazılmasında istifadə etmək olmaz. «Tənqidi gülüşün adından da məlumdur ki, o mütləq məzmundan doğmalı, məna ifadə etməli, tamaşaçı və yaxud oxucunu düşündürməli, daha yüksək ideala çağırmalı, ruhlandırmalıdır. Deməli, harayasa ülvi məqsədlərə çağırmalı, yüksəltməlidir.» (94,177)

Felyeton üçün yalnız janrın tələblərinə cavab verən, hipertrofiya (həddən artıq böyümüş) forma çərçivəsi daxilində, həmin sinif üçün tipik vəziyyətə aid olan xüsusi fakt lazımdır. Beləki, bu gülüş üçün lazımi xüsusi fakt (məsələn, faciəvi hadisə nəzərdə tutulmur) çərçivə daxilində olmalıdır. Burdan başa düşülür ki, felyeton bir fakt üzərində deyil, onların cəmi formasında qurulur. Bu zaman ayrı-ayrı faktları bir-biri ilə bağlayan tipiklik səciyyəvi hal daşıyır. Fakt öz növbəsində satirik tipikləşdirmənin dayaq nöqtəsindən, müəyyən həyati vəziyyətin kiçildilmiş formasına gətirilə bilər. «Kifayət qədər düşünülməmiş məntiq, istintaq-təhqiqatın müxtəlif formaları, onun inkişafı və qiymətləndirilməsi arasında əlaqənin yoxluğu, nəticədə felyetonun nöqsanlı və qüsurlu alınmasına gətirib çıxarır. Bu janr jurnalist-publisistdən çox böyük əmək, xüsusi bacarıq, istedad, öz ustalığını daima təkminləşdirmək, yaxşılaşdırmaq və. s tələb edir.» (172)

Bədii-publisistika janrının felyeton növü, həmçinin başqa növləri dil səhvinə və yanlışlığına çox həssasdı. Bu onların oxucu tərəfindən daha tez hiss olunmasına və gözə dəyməsinə imkan yaradır.

Felyetonun müəllifi, cəmiyyətdə qeyri-adiliyi ilə hamıya görünən, lakin hamının görə bilmədiyi, daha doğrusu, əksəriyyət insanların duya bilmədiyi incə məqamları görmək və bədii vasitələrdən məharətlə istifadə etməklə gülünc üslubda, həm də təsirli formada mətbuat səhifəsinə çıxarmağı və oxucusuna çatdırmağı bacaran qələm sahibidir. Bu mənada felyeton təsirli vasitə olmaqla bahəm, özünəməxsus spesifik əlaməti, kompozisiyası, üslubu, xüsusiyyəti və çərçivəsi olan bədii-publisistik janrdır. Felyetonla bədii əsər arasında keyfiyyət baxımından kifayət qədər fərq mövcuddur və onları bu nöqtədə qarışdırmaq mümkünsüzdür. Bədii yaradıcılığın mahiyyətinə diqqət yetirmiş olsaq belə həqiqətin şahidi olmuş olarıq. Felyeton əsasən fakta əsaslanır və bədii-publisistik çalarlarla faktı təhrif etmədən verilir.

Felyeton janrının xüsusiyyəti və inkişafı ilə bağlı tədqiqatçılar arasında müxtəlif fikirlər formalaşıbdır. «Felyetonist olmaqdan ötrü yalnız ifşa etməyi bacarmaq kifayət deyil, həmçinin, müdafiəsinə qalxdığın işin mənafeyini tamamilə anlamaq, inandırıcı olmaq lazımdır.» (149)

«Felyetonda əsas cəhət mübarizədir. Publisistin silahını kəsərli edən və düşmənin obrazına son dərəcə ifadəlilik verən bədii elementlərə əsas yer verilməlidir. Onda obrazlılıq, mübarizə büsbütün siyasi vəzifəyə tabe olmalıdır.» (175,50-51)

«Felyeton öz inkişafında hansı yolla gedirsə getsin, qəzet səhifəsindən kənara çıxa bilməz, çünki onun əsas məzmununu təşkil edən günün mühüm faktı-bədii deyil, qəzet hadisəsidir. Bədiilik (həm də bir o qədər tam olmayan) burda yalnız dildə əxz olunan vasitədir.» (175,5)

Bu janrın xüsusiyyətini müəyyənləşdirməklə kifayətlənib işi bitmiş hesab etmək olmaz, onun janr əlvanlığının digər istiqamətlərinə nəzər salmaq mütləqdir. «Janr, məzmunun konkret strukturda təzahür forması, süjet və kompozisiya isə bu strukturu müəyyənləşdirən əsas faktor olduğundan, felyetonun süjet və kompozisiya xüsusiyyətini aydınlaşdırmadan, strukturarasına diqqət yetirmədən janr xüsusiyyətini tam dərk

etmək mümkün deyil.» (30,86)

Potensial felyetonçu felyeton üzərində işə başlayarkən, fakt və materialları seçərkən, yəni ilk addımdaca müəyyən çətinliklərlə üzləşir. «Çox vaxt elə olur ki, jurnalistin əlində faktlarla dolu çoxlu material olur. Onun bu faktların içində boğulub itməməsi üçün ən başlıcası lazım olan materialı düzgün seçməyi bacarmaq qabiliyyətinə malik olmasıdır. Məlumdur ki, felyeton faktlar üzərində qurulur. Bu onun möhkəm əsasını təşkil edir. Məhz, elə burda da, bu faktların felyeton üçün qorxulu olması gizlənir. Çünki fakt felyetonu boğa və onu korrespondensiyaya, reportaja çevirə bilər.» (147)

Cəlil Məmmədquluzadə.
Savad məktəbləri.

Mən bu məqaləni o qəsd ilə yazmıram ki, savad məktəblərinə əmələ və kəndlilərimiz həvəs göstərsinlər və həmin məktəblərə şövq ilə doluşub savad öyrənsinlər.

Niyə o qəsd ilə yazmıram?

O səbəbə o qəsd ilə yazmıram ki, hamısı birdir, mənim yazmağım, ya yazmamağım ilə fəhlə və kəndlilərimiz savad məktəblərinə savad öyrənməyə çox artıq həvəs etməyəcəklər.

Niyə etməyəcəklər?

O səbəbə ki, bizim indiki əsrin fəhlə və kəndlilərinin yüzdə doxsan doqquzu kablayı və məşədidirlər (şaxsey, şaxsey!) və məlumdur ki, nə kablayı olan adam savadın qədrini bilər, nə məşədi olan adam savadın qədrini bilər və haqqı da var bilməməyə; o səbəbə ki, nöhvəni növhəxan oxuyanda mənə ancaq sinə vurmaq lazımdır və dəxi burada savad oldu, olmadı, təfavüt eləməz (Əzmi-cihad etmisən, ey sərvərim!).

Keçək mətləb üstə.

Bir vaxt var idi ki, bütün Azərbaycan aləmi indiki kimi yenə savaddan-zaddan uzaq idi. Onda bəhanəmiz bu idi ki, Nikolay dayıoğlumuz qoymurdu oz dilimizdə açılışaq. Doğrudur, qoymurdu. Və bəlkə onun qoymamağındandır ki, indi fəhlə və kəndlilərimizin yüzdə doxsan doqquz hissəsi kablayı və məşədidir.

(Necə qan ağlamısan daş bu günə).

İndi də Şura hökuməti hər yanda ki, mümkündür və hər nə qədər mümkündür savad məktəbləri açır ki, savadsızlar orada müftəcə savad öyrənsinlər. Amma mən görürəm ki, mənim dostum fəhlə Kabla İmamqulu 22 yaşında, özü savadsız, gedib savad öyrənmir. Dünən onu küçədə gördüm, dedim:

-Hara gedirsən?

Dedi:

-Xorasana:

Soruşdum:

-Niyə?

Dedi:

-Ziyarətə (fəda olum sənə, ya imam Rza!).

İndi nə etməli? Bizim qarşımızda Xorasan və Məşhədi-müqəddəs kimi «Savad məktəbi» durub. Sən gündə min yerdə savad məktəbi aç, amma nə qədər ki, sənin indiki fəhlə və kəndlilərinin adı kablayı və məşədidir, - onlardan savad gözləmək olmaz, olmaz! (Çünki fikirlər müqəddəs zəhər ilə zəhərləniblər).

A kişi, çavuş carlıyır:

Hər başda var əlaməti-sövdayi- Kərbəla,

Görsün səfər tədarükünü, karvan gedir.

Hə, istəyirdim məqaləmi qurtaram, amma bir «mabəd» yadıma düşdü:

Hələ doğrudan da zarafat kənarda dursun. Biz ha deyirik: nə bilim savad məktəbləri, nə bilim elm-maarif ... Bayaq mən məşədi söhbətini zarafat babətindən ortalığa saldım. İndi gəl bir doğru danışaq. İndi ki, bizim qarşımızda Məşhədi-müqəddəs ilə Kərbəlayi Müəlla kimi möhkəm fanatizm qalaları durubdur, indi aya nə eləməliyik? Görək bunun müqabilində «Kommunist»in tədbiri nədir, «Yeni fikir» və «Gənc işçi»nin təklifi nədir?

Həyə məni deyirsən,-mənim ki, yaşadığımız əsrin qartlaşmış kablayı və məşədilərindən gözüm su içmir.

Yenə ümid cavanlaradır.

La hövlə vəla qüvvətən illah billahü əliyyül-əzim. (87) (Tərtib edəni və araşdıranı: Akademik Əziz Mirəhmədov.)

4.PAMFLET

Pamflet-«Yunan dilindən tərcümədə («pamm fhlego»), pamflet sözünün mənası «tez alovlanan, tez od tutan, tez alışan, tez yanan; alışqan» və yaxud «kül etmək, külə döndərmək, yandırıb məhv etmək» deməkdir.» (164) Bu məfhum mifoloji əsaslara söykənir və Olimp Allahlarının, hər şeydən öncə öz çox güclü və gurultulu şimşəyi ilə düşmənlərini vuran Zevisin hiddətlənməsi və hirslənməsini təqdim edir, həmçinin onlar haqqında olan ədəbi publisistik növ hesab olunur.

Başqa mənbələrdə isə pamfletin («pamphlet») ingilis sözü olması göstərilir və o mənaca ədəbi və yaxud publisistik əsərin müxtəlif növü və yaxud variantı kimi təqdim olunur. Onun əsas hədəfi, nişangahında din, hakimiyyət, ictimai-siyasi təşkilat, siyasi partiya, şirkət və kompaniya dayanır. «Pamflet süjetinin əsasını faktiki material təşkil edir. Lakin felyetondan fərqli olaraq burada konkret hadisə, tək bir adam deyil müəyyən ictimai-siyasi təbəqənin, sinfin, dövlət başçisinin mürtəce siyasi mövqeyi ifşa edilir.» (164) Buna görə də, pamflet tək bir şəxsə və yaxud ayrıca hadisəyə deyil, bütöv ictimai-siyasi qrupa, siyasi sistemə qarşı çevrilməsi və kəskin ifşa xüsusiyyətinə malik olması ilə səciyyələnir. Pamfletlə felyeton arasında janr fərqi məhz buradan irəli gəlir.

Felyetona nisbətən pamflet janrında fakt daha geniş miqyasda ümumiləşdirmə keyfiyyəti kəsb edir və onun arxasında nisbətən dar çərçivəyə sığan problem deyil, müəyyən ictimai-siyasi qüvvənin xüsusi cəhətinin tipik cizgisi durur. Beləliklə də, pamflet və felyeton süjetinin əsasında konkret fakt dursa da, janrın spesifik xüsusiyyətindən asılı olaraq müxtəlif funksional keyfiyyət qazanır və buna görə də bir-birindən fərqlənən müxtəlif vəzifəni yerinə yetirir». (32,79-80) Pamfletin qarşısında duran tapşırıq çatışmazlığa, eybəcərliyə, cəmiyyətdə mövcud olan nöqsanlara gülmək, o cümlədən neqativ halları ifşa etmək və bunlar barədə ictimaiyyəti məlumatlandırmaq və maarifləndirmək dayanır. Hər iki mənbənin pamfletlə bağlı

irəli sürdüyü ehtimallara hörmətlə yanaşmış olsaq görərik ki, məqsəd və məzmun eynidir. Jurnalistikada pamflet adı altında satirik əsər nəzərdə tutulsa da, bu müəllifin baxış nöqtəsindən asılı olaraq cəmiyyətdə baş verən hadisə, proses, vəziyyət, fakt və başqa tendensiyaların üzərinə işıq salmaq, onun qəhrəmanının (qəhrəmanlarının) ictimaiyyət üçün qorxu daşıyan bəla olduğunu göstərmək, o cümlədən təcvir etmək vasitəsi ilə gülmək və onlar haqqında fikir formalaşdırmaqdan ibarətdir.

Bir çox tədqiqatçılar pamfleti qədim yunan yaradıcılığı, əsasən də, Ezopun təmsilləri ilə əlaqələndirirlər. Bəziləri isə onun Roma dövründə mövcud olduğunu vurğulayırlar. Amma bunun dərinliyinə varmadan söyləmək olar ki, pamflet ən qədim zamanlarda mövcud olmuşdur.

Bədii-publisistika janrının ümumi xüsusiyyətləri pamfletin şiddətli, yandırıcı, acı istehza doğurmasında və ən əsası isə dəqiq olmasında özünü daha yaxşı göstərir.

Sonrakı tarixi mərhələlərdə pamfletdən XVII-XVIII əsrlərdə Avropada baş verən burjua inqilabları zamanı geniş istifadə olunub. Məsələn, İngiltərə inqilabı dövründə Miltonun (1608-1674) yepiskoplara qarşı ünvanlanmış pamfletləri müəllifə fövqəladə məşhurluq gətirib. Bu janr bir qədər sonra Svift (1667-1745), Yermond Bork (1729-1797), həmçinin XVIII əsrin maarifçiləri Volter və Didro, Siyesa, Kamilla Demulena, Morot və başqaları tərəfindən daha da inkiçaf etdırılmışdır. Lakin bütün bunlara rəğmən pamfletin banisi görkəmli Fransız alimi və filosofu Blez Paskal («Əyalətdən olana məktub») və ingilis yazıçısı Bernard Mandevilya («Etiraz edən arı pətəyi və yaxud doğru olan fırıldaqçı» hesab olunurlar. Rus mətbuatında pamfletin ilk yaradıcısı D. İ. Pisaryev sayılır. Azərbaycan mətbuatına gəldikdə isə deyə bilərik ki, XX əsrin əvvəllərində pamflet Cəlil Məmmədquluzadənin «Molla Nəsrəddin»i və Üzeyir Hacıbəylinin «Ordan-burdan»larının sayəsində təzahür etmişdır. Çünki hər iki ədibin pamflet janrına aid olan əsərləri onun tələblərinə cavab verir və mövcud ictimai-siyasi quruluşu qamçılayır.

Açıq tendensiya, kəskin satira, şübhəsiz, bədii gözəlliyi ııə

bahəm publisist üslubun nisbi üstünlüyü, müqəddiməsiz başlanğıc Üzeyir bəyin pamfletlərini felyetonlarından fərqləndirməyə imkan yaradır. Pamfletlərin bədii keyfiyyəti sırasında müqayisə üsulu xüsusilə diqqəti cəlb edir. Bir tərəfdən paralellər pamfletin mənimsənilməsini asanlaşdırmaqla bərabər, başqa bir tərəfdən publisist bədii üslubun nisbətini bərabərləşdirir; kinayə, sarkazm, işarə və eyhamlar isə həmin əsərlərə bir şirinlik, xoş ovqat gətirir və onların kəsərini bir neçə dəfə artırır.

Ü. Hacıbəylinin «Dayaq», «Pruşkeviç və Hacı Xudu» pamfletləri tənqid hədəfinin seçilməsi, açılan atəşin hədəfə düzgün dəyməsi, dilin həssaslığı, üslubun üstünlüyü, həmçinin özünəməxsus dadı və ləzzəti, həmçinin bədii çalarları ilə seçilirlər.

XX əsrin 40-cı illərinin ortralarından başlayaraq Azərbaycan publisistləri maraqlı pamfletlər yazmağa başlayır. Həmin pamfletlər daha çox «Ədəbiyyat qəzeti»ndə, əsasəndə «Kommunist» qəzetinin əlavə nəşr etdirdiyi «Aqitasiya vərəqəsi»ndə dərc olunur. O dövrün publisistlərindən Əsəd Əyyubinin «Dağlanmış eşşəklər», «Çəyirtkələrin aqibəti», Əvaz Sadığın «Ağ at və gic qurbağa», «Siçana dönmüş pişik», Qulam Məmmədlinin «Aş bəlası», Əziz Şərifin «Keçmə namərd körpüsündən, qoy aparsın sel səni», «Don çağırır», İ. Kərimovun «Agent kafedra arxasında» pamfletləri Azərbaycan sovet mətbuatında yaranmış nümunələr idi.

Bu gün Azərbaycan mətbuatının səhifələrində bədii-publisistika janrına, o cümlədən pamflet janrına da, felyeton kimi çox az təsadüf olunur. Nə beynəlxalq, nə də ki, daxili mövzularla bağlı pamfletlər gözə dəymir. Bunu, həm dövri mətbuatda fəaliyyət göstərən jurnalistlər «ordusunun» həmin səviyyəyə tam cavab verə bilməməsi, yazarların azadlıqlarının müəyyən çərçivə daxilində məhdudlaşdırılması, həmçinin jurnalistlərin sosial vəziyyətlərinin qənaətbəxş olmaması ilə əlaqələndirmək olar.

Daxili mövzulara aid pamfletin olmaması birbaşa siyasi

ab-həva, xüsusiyyət daşıyır. Söylədiklərimizə rəğmən pamfletə ehtiyacın olmaması fikrini qəti şəkildə demək, çox yanlış olardı. Çünki bədii-publisistika janrının bu növünə bütün zamanlarda ehtiyac olmuş, o əsrlərlə öz varlığını və keyfiyyətini qoruyub saxlamışdır. İnanırıq ki, vaxt gələcək pamflet yenə də, qəzet səhifələrinin bəzəyinə çevriləcəkdir. Məlumdur ki, pamflet bizə felyetonu xatırladır. Lakin bunların arasında kifayət qədər fərqin olması danılmazdır və onlar bizə bir ağacın ayrı-ayrı budaqları olduğunu sübut edir.

«Jurnalistin əlində iti satirik silaha çevrilən pamflet, müxtəlif metodlar vasitəsi və faktlar ilə bədii-publisistikada dərketmə yolu ilə keyfiyyətlə hazırlanır və nəticədə onun (jurnalistin:- *V. P.*) şəxsi mülkünə, əmlakına çevrilir.» (140) Janrın tədqiqatçıları pamfleti hər şeydən əvvəl gülüş, mübaliğə, istehza, rişxənd və başqa bu qəbildən olan ədəbi metodlara aid edirlər. Bu cür metoda yüksək səviyyədə malik olmaq, yaxşı pamflet yazmağa kifayət edir və əsaslı jurnalist təcrübəsinə ehtiyac duyulmur. Lakin bununla belə, jurnalistdən müəyyən qədər ədəbi istedad, həmçinin pamfletdə əks olunan sahəni yaxşı bilmək tələb olunur, sözsüzki, bu mütləqdir.

Pamflet əsasən siyasi çalarlar daşıyır, dövlətə və siyasi xadimlərə qarşı istiqamətlənmiş olduğu üçün onu əhali arasında maraqlı və məşhur edir. Aparılan analizlər göstərir ki, Mirzə Cəlil, Üzeyir Hacıbəyli, Ə. Sadıq, Əyyubi, Q. Məmmədli, İ. Kərimov və başqa publisistlətər mübaliğə, sarkazm, rişxənd, ironiya kimi metodları yaxşı bilmiş və onlara satirik görnüş əlavə etməklə keyfiyyətli əsərlər yaratmışlar.

Pamfletin süjet-kompozisiya xüsusiyyətindən danışərkən qeyd etmək lazımdır ki, pamflet hər hansı bir insan və yaxud konkret vəziyyət, proses, fakt demək deyil, o ümumiləşdirilmiş formada bütün bir cəmiyyətin ictimai-siyasi durumunu, dövlət və onun apardığı siyasi kursu müstəviyə gətirir və mövcud nöqsanları təftiş edərək eybəcərlikləri kəskin tənqid atəşinə tutmaq xüsusiyyətinə malik bədii-publisistik janrdır. Felyetonla pamflet arasında mövcud olan süjet-kompozisiya fərqi

burdan qaynaqlanır. Felyetonda fakt problemin anlaşılması üçün vasitəçi qismində çıxış edirsə, pamfletdə bu problemin həqiqiliyini təsdiqləyən arqument qismində çıxış edir. Deməli, felyetonda problem faktın arxasında, pamfletdə isə, əksinə, fakt problemin arxasında səngər qurur. Bunlar həm də, spesifik xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. «Pamfleti felyetondan fərqləndirərkən birincinin mövzusunu daima sosial komizm təşkil edir; pamfletist heç zaman öz qəzəbini elementar komizmə doğru çevirməz. İkincinin mövzusu isə əsasən elementar komizm və yalnız nadir halda sosial komizm təşkil edir.» (164,182-183)

Pamflet bədii-publisistikanın janrı olmaqla, həmçinin məzmun və forma əlamətlərini daşımaqla yanaşı «süjet və kompozisiyanın spesifikliyi-şəxsiyyətin siyasi simasını müəyyənləşdirən hadisə və faktlar arasındakı ən incə əlaqə və keçidi siyasi həssaslıqla duyub dərin təhlilin vasitəsilə ictimai qrupun, sinfin səciyyəvi cizgisini əks etdirən portret xarakteristikasının verilməsi, həmin şəxsiyyəti meydana çıxaran ictimai qüvvələrin bu əsas üzərində kəskin qəzəb, dərin nifrət və sarsıdıcı gülüşlə mühakiməsi, birbaşa ittihamların aparıcı rolu, ümumiləşmə miqyasının daha geniş plana malik olması ilə səciyyələnir.» (30,79)

Üzeyir Hacıbəyli.
Purişkeviç və Hacı Xudu.

Günlərin bir günü Purişkeviç ilə Hacı Xudu yatmışdılar. Purişkeviç Peterburqda yatmışdı. Hacı Xudu da öz evində yatmışdı. Bunlar bir-birilərini yuxuda gördülər. Hacı Xudu ayıq olduğu zaman Purişkeviç barəsində çox eşitmişdi ki, bu hərif müsəlmanların ziddinə gedəndir. Müsəlman xeyirxahı deyildir. Hətta bir jurnalda onun şəklini də hacıya göstərmişdilər. Amma hacı yuxusunda Purişkeviçə baxıb gördü ki, hərif çox da çirkin deyildir. Gözündə çeşmək, əynində yaxşı libası, bir göyçək adamdır.

Hacı Purişkeviçə dedi:

- Sən bir göyçək adamsan, amma sənin şəklini, nədənsə pis çəkiblər.

Purişkeviç Hacıya cavab verdi:

- Ke, ey nikbəxt, an nə şeklə mən əst,
Bəlakin qələm dəf kəfe doşmən əst.

Sonra Hacı yenə soruşdu:

-Bir də deyirlər ki, sən və sənin kimi adamlar biz müsəlmanlara zidsiniz, Müsəlmanların bədxahısınız.

Purişkeviç cavab verdi.

- Mən də bilmirəm, doğru deyirlər, yoxsa yalan. İstərsən mən də bir-iki kəlmə danışım, gör yalan deyirlər, yoxsa haqq danışırlar.

Hacı razı oldu və Purişkeviç başladı danışmağa.

P u r i ş k e v i ç - Mən istəmirəm ki, müsəlmanlarda qəzet oxusun.

H a c ı - Onu biz də istəmirik. Qəzet bizim şəriətimizdə haramdır.

P u r i ş k e v i ç - Mən istəmirəm ki, müsəlmanlarda teatr olsun.

H a c ı - Biz özümüz də istəmirik. Teatr şəriətimizdə haramdır.

P u r i ş k e v i ç - Mən istəmirəm ki, müsəlmanlarda musiqi çalmaq, şeir yazmaq və şəkil çəkmək işləri tərəqqi etsin.

H a c ı - O cür şeyləri biz özümüz də istəmirik. Onlar hamısı şəriətdə haramdır.

P u r i ş k e v i ç - mən istəmirəm ki, müsəlmanlar nemes dili, firəng dili, hesab, coğrafiya, hikmət, fəlsəfə, kimya, tarixi - təbiət, tarixi - bəşər, həndəsə, müsəlləcat və bu cür şeyləri bilsinlər.

H a c ı - Bu cür şeylərin hamısı küfrdür. Biz özümüz də onları istəmirik.

P u r i ş k e v i ç - Mən istəmirəm ki, müsəlmanlarda üsuli-cədid olsun.

H a c ı - Allah üsuli - cədid çıxardanlara lənət eləsin! O cür məktəblər hamısı bicxana yığıncağıdır.

P u r i ş k e v i ç - Mən istərdim ki, müsəlman məktəblərinin

hamısı ruhani məktəbləri olsun.

H a c ı - Əlbəttə, əlbəttə...Biz də onu istəyirik.

P u r i ş k e v i ç - Amma bu şərtlə ki, o məktəblərdə şəriətdən başqa özgə elimlər oxunmasın.

H a c ı - Allah atana rəhmət eləsin! Bəs biz dediyimiz nədir?

P u r i ş k e v i ç - Bəs belə!

H a c ı - Doğrudan deyirsən, yoxsa zarafat eləyirsən?

P u r i ş k e v i ç - Xeyir, doğrudan deyirəm.

H a c ı (şad və xürrəm) - Əlini mənə (ü r ə y i n d ə: zərər yoxdur sonra əlimi suya çəkərəm) (a ş k a r a) hər kəs sənə pis deyir, onun özü pisdir. Bu canım üçün, hərçənd sən urussan, amma bir çox müsəlmanlardan daha müsəlmansan! Təki müsəlmanların sənin kimi bədxahları çox ola!

P u r i ş k e v i ç - Arxayın ol, mənim kimilər çox-çoxdur! Amma müsəlmanların çoxu sənin kimi ola.

H a c ı - Arxayın ol, mənim kimilər çox-çoxdur!

P u r i ş k e v i ç - Bəs yerdə qalanlar?

H a c ı - yerdə qalanların hamısı babılardır.

P u r i ş k e v i ç - Bizim də yerdə qalanların hamısı cuhuddur.

Bundan sonra ikisi də yuxudan ayıldılar. İndi bir adam lazımdır ki, bunların ikisinin də yuxusunu yoza... (42) (Tərtib edən və araşdıran: pedaqoqika üzrə fəlsəfə doktoru Mirabbas Aslanov.)

5.PARODİYA (İSTEHZA-TƏQLİD)

Parodiya-bilərəkdən başqasının nadir cizgilərini təkrar edən, adətən çox məşhur əsər və yaxud əsərlər, həmçinin komik effekt yaratmağa hesablanmış incəsənət məhsuludur. (116) Bədii-publisistika janrının mənbəyinə müraciət etmədən parodiyanın mahiyyətini anlamaq qeyri mümkündür. Parodiya antik ədəbiyyat dövründən bəllidir və janrın ilk nümunəsi Batraxomiomaxiyadır. Bu surət Homerin «İliada»sının «Siçanlarla qurbağaların müharibəsi» bölməsində yüksək poetik üsulla parodiya olunur. Antik parodiyanın «Travestiya» və «Burleksika»

kimi növləri də, mövcuddur. Hal-hazırda parodiyanın jurnalistikaya yeddi kateqoriyası bəllidir: 1). Kinoparodiya; 2). Musiqili parodiya; 3). «Hökmdar qarşısında əyiləncə»li parodiya; 4). «Ulduz müharibələri»ni əks etdirən parodiya; 5). «Supermen» parodiya; 6). Real-şou parodiya; 7).Təqlidçilik-yamsılama parodiya. (116) Bunlara əsaslanaraq ehtimal etmək olar ki, parodiya incəsənətin ən qədim növlərindən biridir. Azərbaycanda təlxəklik, hoqqabazlıq, masqaraçılıq, oyunbazlıq və s. növlər ən qədim zamanlarda mövcud olmuş və parodiya yaradıcılığının ən əsas hissəsini təşkil etmişdir. Teatr yaradıcılığının bütün mərhələlərini, həmçinin inkişaf tarixini parodiyasız təsəvvür etmək olduqca çətindir. Parodiyadan siyasət, fəlsəfə, hətta mübahisədə məharətlə istifadə olunur. Fəlsəfə tarixindən bəllidir ki, Aristofan Evripidlə mübahisədə onun əsərlərini təqlid edərək bəhrələnmişdir. Parodiya, istehza-təqlid müasir yazıçı və publisistlərin əlində əsl «yaradıcı silah»a çevrilibdir. Əgər mövcud gündəlik həyatımızı diqqətlə izləmiş olsaq, görərik ki, parodiyasız nəinki «yüksək incəsənət», heç biz özümüzdə keçinə bilmərik. Bu gün parodiyanın bir çox adları məlumdur. Məsələn, «əzilib-büzülən, ədəbaz, ikiüzlü, riyakər, sürüşkən-sabun» və s. Zaman-zaman bu adların müxtəlif cür səslənməsinə baxmayaraq, mahiyyət etibarı ilə onlar öz dəyərlərini qoruyub saxlaya bilmiş və bir vacib amili meydana gətirmişdir ki, bu da janrın məğzini və mahiyyətini izah edir.

Jurnalistikada parodiyanın mövzusu qismində ən müxtəlif hadisə, vəziyyət, proses çıxış edir. Bu, ictimai-siyasi, dövlət xadimlərinin hərəkətləri, hansısa xalq ənənəsinə uyğun səhnəcik, hər hansı bir artistin yaradıcılıq üslubu, təfəkkür forması, dilin xüsusiyyəti, məşhur şəxsiyyətin xariçi görnüşü və s. ola bilər. Publisist, jurnalist, müəllifin parodiyadan istifadə etməklə mətbuatda çıxış etməsinə kömək edən əsas metodlar-hiperbola (mübaliğə), qrotesk, kinayə, litota, istehza, rişxənd və başqa ədəbi vasitələr hesab olunurlar. Parodiya yazan, geriliyin təzahürlərinə gülməyi bacaran sənətkarlar mübaliğədən daha səmərəli istifadə edirlər. «Mübaliğə və qrotesk qan qohu-

mudurlar. Mübaliğə qroteskə keçməyə də bilər: burada hadisə müəyyən ölçüdə böyüdülür. Lakin özünün zahiri görkəmindəki inandırıcılığı saxlayır. Qrotesk isə mütləq mübaliğə əsasında qurulur. Qrotesk varlığın həqiqi cizgilərini dağıdır, əşya və hadisənin bizə tanış olan görkəmini dəyişdirir, onu gözlənilmədən başqa bir istiqamətə yönəldir, həyatda həqiqətən mövcud olmayan əlaqələr yaradır.» (139,89) «Qrotesk komik şişirtmənin və kəskinləşdirmənin yüksək şəklidir... Qrotesk obrazın zahiri, şişirdilmiş, aydın cizgiləri vasitəsilə onun daxili məzmununu, təsvir olunan hadisənin mahiyyətini aşkara çıxarır.» (17,213) «Hiperbola isə mübaliğə və şişirtmə mənalarında işlənmişdir. Bədii məntiqdə onun vəzifəsi əşyanı, insanın meyl və münasibətlərini müqayisə yolu ilə böyütmək və canlandırmaqdır.» (37,193)

«Kinayəli nitq pozitiv təsviri, mahiyyət və münasibəti, fikir və düşüncəni fəal və təsirli ifadə edir. Fikir birbaşa söylənmir, şərhə, əhvalatı xırdalamağa ehtiyac qalmır. Mətləb, tərif, tənə, rişxənd, istehza və dolayı zarafat efemizm üsulu ilə açılır. Cəlil Məmmədquluzadənin «Danabaş kəndinin əhvalatları» povestində Zeynəbin hüquqsuzluğu, mühitin amansızlığı, Xudayar bəyin əhval-ruhiyyəsi kinayələrlə ifadə olunur: «Bu saat burada Xudayar katda ləzzətnən yıxılıb yatdı. Amma elə bu saat Danabaş kəndində üç yerdə matəm qurulubdu. Üçünə də, Xudayar bəy özü bais olubdur. Doğrudanda çox gülməli əhvalatdı və çox qəşəng əhvalatdı. Ondan ötrü qəşəng əhvalatdı ki, adam gülür, ürəyi açılır. Yoxsa nəyə lazımdır qəm və qüssə gətirən hekayət?» (37, 195)

Ironiya, sarkazm, daxili satirik monoloq, pamflet, parodiya, yumoristik-məzhəkəli tədarük, qrotesk-gülünc, biçimsiz, mübaliğəli portretlər və s. bütün bunlar «Molla Nəsrəddin» jurnalının bədii ifadə etmə vasitələrinin bir hissəsini təşkil edirdi.

Bu metodlar parodiyada təsviri canlandırma, dinamikləşdirmə, ümumiləşdirmə, fərdiləşdirməni dərinləşdirmək, bədiiliyi gücləndirmək və gözəlləşdirmək məqsədi üçün işlədilir. Elə olur ki, məcazın bu və yaxud digər növündən müxtəlif forma-

larda, az və ya çox istifadə olunur.

«Litota mübaliğənin, əşyanı böyütməyin və şişirtmənin əksidir. Burada müqayisə və qarşıdurma prosesində qəsdən predmetin, hadisə və əhvalatın ölçüsü, miqyası və əhəmiyyəti kiçildilir.

Döydü yaxış məni, döydü qar məni,
Bir qarışqa minsəm aparar məni. (189)

Litota mətndən kənarda dəyərini, təsirini və funksiyasını itirir.» (37,197) Parodiya çox böyük dəqiqlik, məharət, bacarıq tələb edən janrdır. Vəziyyəti olduğu kimi vermək, sözləri düzgün təkrar və tələffüz etmək, oxşarlıq, bənzərlik yaratmaq və s. bədii təqlidin ən başlıca məqsədidir. Əgər yuxarıda söylədiklərimiz parodiyada öz əksini tapmış olmasa, o təqdirdə parodiya və təqlid-istehza maraqsız, mənasız və keyfiyyətsiz alınacaqdır.

Parodiyanın inkişaf və xüsusiyyətlərinin bu günə kimi jurnalistikaşünaslıq elmi tərəfindən tədqiq olumaması və öyrənilməməsi həm jurnalistlər, həm də oxucular arasında kifayət qədər aydın təsəvvürün yoxluğu ilə nəticələnmişdir. Elə bu nöqteyi-nəzərdən parodiya öz əvvəlki mahiyyətini, gücünü, yerini itirərək əhəmiyyətsiz şit zarafatlar vasitəsinə çevrilmişdir, halbu ki, o da pamflet və felyeton kimi güclü mübarizə silahıdır. «Mənasız, boş səbəblərlə əlaqədar parodiyalar yaradılır. Siyasi həyatdan uzaq düşən xırda mövzuların, şöhrət kölgəsində rahat dincələnlərin, boş sözçülüyə, zahiri parıltıya uyanların isə gülüşlə mühakiməsi görünmür. Xaricin dərin məzmundan uzaq saxta bəzəyi, zahiri gözəlliyi qarşısında riyakarlıqla səcdə edənlərin nifrətlə damğalanması, sənətdə formalizmə, süniliyə qapılanlara istehza edilməsi hardadır?» (171,7)

Bədii-publisistikanın bu janrı XX əsrin 70-ci illərində bəzi publisistlər tərəfindən «sındırılaraq» özünə oxşamayan formaya salınmışdır. «Azərbaycan sovet mətbuatında nadir halda görünən parodiyalar yaxud «ədəbi felyeton» və yaxud «ironik resenziya» rubrikası ilə, bəzən isə ümumiyyətlə, rubrikasız dərc

edildiyi halda, bu janrla heç bir əlaqəsi olmayan materiallar «parodiya» adı altında oxuculara təqdim edilirdi. Janrın mahiyyəti, vəzifəsi və məqsədi haqqındakı yanlış təsəvvür o dərəcəyə catmışdır ki, atalar sözünü məqsədəuyğun tərzdə, təhrif şəklində ifadə edərək «çox oxuyan çox bilməz, çox danışan çox bilər», «Modabazın erkəyi dişisi olmaz», «Əkiblər yemişik, əkərlər yeyərik» və s. formada vaxtilə satirik jurnallarda «Parodiyalar» rubrikası altında dərc edilmişdir.» (158,7)

Bu da, ondan irəli gəlir ki, janr layiqli araşdırılmaların məhsulu olmamış və nəticədə müxtəlif xarici təsirlərə məruz qalmışdır. «Parodiya janrı Azərbaycan tədqiqatçılarının-həm ədəbiyyatşünas, həm də publisistikaşünasların diqqətindən kənarda qalmışdır. Onun haqqında bir-iki mənbədə son dərəcə ötəri məlumat verilir. Lakin təəssüf ki, həmin elmi məlumatların özündə termin dolaşıqlığına və nəzəri yanlışlığa yol verilmişdir. Parodiya «satirik ədəbiyyatın növlərindən biri, yaxud əsəri məsxərəyə qoymaq məqsədilə yazılan əsər; kinayəli nəzirə» kimi şərh olunur. Halbuki, parodiya növ deyil, janrdı, həmçinin, onu nəzirə ilə eyniləşdirmək düzgün deyildir.» (31,61) Gətirdiyimiz iqtibasın əsas məqamları ilə razılaşsaq da, onun son hissəsi ilə bağlı yeni fikirlər irəli sürmək olar. Beləki, parodiya dövri mətbuatda çox geniş istifadə olunan bədii-publisistikanın bir janrıdır və birbaşa publisistikaya xidmət edir. Çünki, parodiyanın yazılması üçün müəyyən hadisə və əsasın olması onun publisistik xüsusiyyətindən irəli gələn amildir. Həyatda baş verən mühüm siyasi-ictimai faktlarla həmahəng, həm də hadisə və əsasa malik olmaq bədii-publisistikanın bu janrının funksiyası ilə bağlı konkret vəzifəni yerinə yetirmək, onun xarakterini müəyyənləşdirir.

Parodiya bir bədii publisistika janrı kimi həm də, satirik kommentariyanı xatırladır. Düzdür, bunların hər ikisi bədii-publisistika janrına aid edilir. Amma ayrı-ayrılıqda bunların hər birinin öz hədəfi, öz metodu və qurülüşu mövcuddur. Buna görə də, parodiyanın müstəqil dövri mətbuat janrı kimi yaşamağa haqqı çatır. «İş ondadır ki, bu publisistik janrların məqsəd

və imkanları müxtəlifdir. Satirik kommentariyanın məqsədi müəyyən çatışmazlıqların bu və yaxud başqa formada tənqididir. Parodiya isə qarşısına bu cür məqsədi qoymur. O qarşısına vəziyyətin nə isə başqa formasını, təqlidçi üçün maraq doğuran, onun diqqətini cəlb edən variantını seçməklə həm də, onu yamsılamaq, əsərə öz nöqteyi-nəzərindən baxmaq tapşırığını qoyur. Məhz, bu təqlidçilik, yamsılamaq oxucuda gülüş yarada (və yaxud yaratmaya) bilər. Bu cür gülüşü tənqid ilə eyniləşdirmək, bərabərləşdirmək, əlbəttə ki, yanlış olardı.» (150)

Satirik kommentariya çatışmazlığın, nöqsanın yerini nişan verir, təqlid etmir və yamsılamır. Bunlar arasında olan ən başlıca fərqlərdən biri də, ondan ibarətdir ki, dövri mətbuat səhifələrində hər hansı vəziyyəti, prosesi, hadisəni (idman yarışlarını, məhsul yığımını, tibbi əməliyyatı və s.) vermək mümkündür. Təqlid etmək və yamsılamaq isə yalnız informasiya xüsusiyyətli vəziyyəti, prosesi (kitabı, tamaşanı, filmi və s.) müstəviyə gətirmək olur.

Yetişməkdə olan parodiyaçılar nəsli yüz illər boyu yığılıb miras qalmış çox zəngin tarixi irsdən yetərincə bəhrələnə bilmişər. İstər xarici qələm sahibləri (F. Rablen, S. Servantes, E. Rotterdamskiy, N. V. Qoqol, M. E. Saltıkov-Şedrin, M. M. Zoşenko, M. Zadornov və b.), istərsə də Azərbaycanın publisist və yazıçıları (Q. Zakir, C. Məmmədquluzadə, Ü. Hacıbəyli, S. Rəhman, S. Dağlı və b.), o cümlədən də təqlidçiliyin-yamsılamanın mahir səhnə ifaçıları (L. Abdullayev, B. Səfəroğlu, Ə. Ağayev, N. Zeynalova, S. Aslan, H. Bağırov, E. Zeynalov, İ. Namiq Kamal, T. Adıgözəlov və s.) bu janrdan layiqincə bəhrələnə bilmişlər.

Veydəddin Pirəliyev. (Vidadi Həsənoğlu).
Gizli məktub.

Xan, nökəri Murtuzu yanına çağırtdırır və deyir:

-Ə Murtuz! Sənə bir ciddi tapşırıq verəcəm. Gərək nə dil bilsin, nə dodaq.

Murtuz:

-Başına dönüm, ay ağa! Tikə-tikə doğrasalar belə, heç kimə bircə kəlmə deməram. Hətta üstümdən tank keçirdsələr də...

Xan:

-Onda dalısına diqqətlə qulaq as.

Murtuz:

-Asıram, başına dönüm...

Xan:

-Sənə bir məktub verəcəm. Bu məktubu aparıb Bakıda cənab Vəzirova çatdırarsan. Şəxsən özünə...Başqasına yox, çünki orda vacib və gizli məqamlar var. Bunu gərək heç kim bilməsin. İndi de görüm şəxsiyyət vəsiqən üstündədirmi.

Murtuz ciblərini eşələyir və nəhayət sağ qoltuq cibindən şəxsiyyət vəsiqəsini çıxardıb xana göstərir.

Xan:

-Al, bu min beş yüz manatdır. Cib xərcliyi üçün verirəm. Bayırda səni faytonçu gözləyir. Minib gedərsən yarmarkaya, yəni ticarət mərkəzinə. Yaxşı əyin-baş alarsan. Qalustuku yaddan çıxartma. Sonra yol üçün lazım olan xırda-mırdanı da, alarsan. Ordan da, birbaşa gedərsən hava limanına, faytonçu bilir, mən zəng edib tapşırmışam, təyyarəyə biletin hazırdır. Ora çatan kimi denən ki, bəs xan göndərən Murtuz mənəm. Başa düşdün.

Murtuz:

-Bəli! Başına dönüm. Hər şey aydındır, amma bir şey qaranlıq qaldı, ey.

Xan soruşur:

-Nə?

Murtuz:

-O təyyarə dediz ha, bax bilmədim o nə olan şeydir.

Xan:

-Bu çox vacib deyil, yerində səni başa salarlar. İndi al bu məktubu, bərk-bərk gizlət və mən deyən kimi get hazırlığıvı gör, yola hazırlaş. Bütün məlumatlar məktubun üstündə yazılıb. De get.

Murtuz xanın qarşısında baş əyə-əyə arxaya gedir. O qədər baş əyirki arxaya getməyini unudur və şapıltı ilə jurnal masası-

nın üstündən aşaraq döşəməyə dəyir. Buna acığı tutan xan qəmçisini çəkib Mirtuza bir-iki çəkir və köpək oğlu, köpək ... deyə-deyə onu söyür, bayıra qovur.

Bayıra qaça-qaça çıxan Murtuz üst-başını düzəldir. Məktubun və pulların yerində olduğunu yoxlayır.

Sonra özünü qapının ağzında dayanan faytona yetirib əyləşir və dərindən nəfəs aldıqdan sonra faytonçuya qışqıraraq,-ticarət mərkəzinə sür,-deyir.

-Murtuzun qışqırmağı faytonçunun xoşuna gəlmir və cavabında o, Murtuza deyir:

-Adə, Murtuz nə xoruz-xoruz danışırsan. Xanın qəmçısının izi köynəyində qalıb, amma mənə xoruzlanırsan.

Murtuz:

-Ə, nə olsun ki, bir anlıq məndə özümü ağa saydım da. Yaxşı sür...

Bir müddət keçəndən sonra onlar ticarət mərkəzinə yetişirlər. Faytonçu faytonu kənara verib saxlayır. Murtuz isə lovğalana-lovğalana mağazinləri gəzməyə başlayır. Sonra ayaqqabı, kostyum, köynək, qalustuk və birdənə də yol çantası alıb, aldıqlarını yığır onun içinə. Yol üstü eşitdiyi musiqi səsi onu başqa bir mağazinə sürükləyir. Ora girən Murtuzun gözləri dörd olur. O, yaxınlaşıb coxda böyük olmayan qara bir qutunu əlinə götürür, o yanına, bu yanına baxıb satıcıdan soruşur. Bu nədir?

-Satıcı qız cavab verir:

-Bu pleyirdir.

Murtuz çiyinlərini çəkərək, bir şey başa düşmədiyini bildirir. Onda satıcı pleyerin şnurlarını, yəni qulağa taxan hissəsini Murtuzun qulaqlarına taxır, sonra düyməni sıxaraq qapağı açıb ora bir kaseta qoyub örtür və başqa düyməni sıxır. Bu zaman Murtuzun gözləri kəlləsinə çıxır. O, qorxusundan qulağa taxanları dartıb çıxarır. Satıcı onun xam olduğunu görüb yaxşıca başa salır. Bu əşya Murtuzun çox xoşuna gəlir. Murtuz satıcıya pleyerin pulunu ödəyib alır və sonra qızdan üzqırxan istəyir. Qız da, deyəsən dünyanın altını-üstünü görən imiş. O dəqiqə, əlinə hərif düşdüyünü anlayır. Murtuza bir üzqırxan «jilet», bir köpüklü sabun «Beko», üçü birində olan «Dadlılar» çay və kofesi, ağız

sərinləşdirici bir blok «Dirol», çoxdan satılmayıb qalan «Killer» odekolonu, bir yaxşı bağlama «Pompers» və s. sırıyaraq yola salır.

Bazardan çox razı çıxan Murtuz faytona əyləşən kimi, faytonçu hava limanına istiqamət alır. Təxminən bir saatdan sonra faytonçu Murtuzu hava limanına düşürüb geriyə səmt alır. Çuxasını, papağını sahmana salan Murtuz yol çantasını götürüb camaatın girib-çıxdığı qapıya yanaşır. Elə bu vaxt bir nəfər ona yaxınlaşıb Murtuzmu olduğunu soruşur.

Murtuz:

-Hə, başına dönüm. Xanın göndərdiyi adam, Murtuz mənəm.

Həmin adam Murtuzun onun arxasınca gəlməsinə işarə edir və içəri keçir. Murtuz da onun dalınca uşaq kimi tələsə-tələsə gedir. İkinci mərtəbəyə qalxdıqdan sonra onlar bir otağa daxil olurlar. Həmin adam Murtuzdan şəxsiyyət vəsiqəsini alıb bilet dalınca gedir və Murtuza əynini dəyişməyi tapşırır. Bir xeyli vaxt keçdikdən sonra geri qayıdan adam Murtuzun əynini dəyişmədiyini görüb deyinir və ondan çarığı, çuxanı, papağı çıxardıb eleqantlı geyinməyi tələb edir. Ancaq Murtuz iki ayağını bir başmağa dirəyib etiraz edir.

Onda həmin adam masanın üstündəki telefonu götürüb Xanın telefonuna zəng edir. Xan xəttin o başında bəli, -deyə,- dillənir:

-Xan eşidir:

Bu an, hava imanının işçisi kim olduğunu deyib, qalan bütün əhvalatı Xana nəqil edir. Bundan hiddətlənən Xan dəstəyə Murtuzu çağırmağı əmr edir. Həmin adam dəstəyi Murtuzun qulağına tutan kimi Xanın səsini eşidən Murtuz sərçəyə dönərək qorxudan büzüşür:

-Baş üstə, baş üstə, baş üstə...qələt eləmişəm. Oldu, oldu,-deyərək,- çaş-baş qalır və dəstəyin ora-burasına baxır.

Həmin adam dəstəyi Murtuzun əlindən alaraq yerinə qoyur və ona tez soyunmasını təklif edir. Özü isə yol çantasında olanları masanın üzərinə boşaldır. «Pampers»i görən həmin adam gülüşünü zorla saxlayıb işin nə yerdə olduğunu anlayır və üstünü vurmur. Odur ki, «Pampers» bağlamasını açıb birini götürür və birtəhər Murtuza geyindirir və üstündəndə qalan paltarla-

rı. Sonda pleyeri onun çiynindən aşıraraq balaca düyməcikləri Murtuzun qulaqlarına taxır və ağzına bir neçə «Dirol» qoyaraq arxasına salıb təyyarəyə aparırı.

Əlbəttə, bütün bunlardan sonra Murtuz özünü itirmişdi. Həmin adam Murtuzu təyyarəyə mindirir və kəmərlərini bağlayır, bir şüşə də «Sirab» suyu verib təyyarəni tərk edir.

Qırx beş dəqiqədən sonra təyyarə uçuş zolağına çıxır və sürət yığmağa başlayır. Qorxudan şoka düşən Murtuz bu an Hamletin məşhur «Olum ya qalım» fikrini beyninə gətirərək hər şeyə dözəcəyini özü-özünə bildirir. Amma, təəssüflər olsun ki, bir azdan tab gətirə bilməyib çığırır və çarpayıda, iş-gücdən yorulub xorha-xor möhkəm yatan arvadı Hürnisəni elə bərk-bərk qucaqlayır, elə bərk-bərk qucaqlayır ki, az qalsın arvadın bağrı çatlasın...

6.SATİRİK KOMMENTARİYA

Satira sözü latın dilində olan «Lanx satura» məfhumundan gəlir və «meyvələrin nimçəsi» (onun Yunan-Roma yarımallahları və yarımheyvanları satirasına heç bir aidiyyatı yoxdur) mənasını verir. Roma satirasının banisi və ilk yaradıcıları Enni və Lutsilin olsa da, sonralar bu janrın Avropa klassizmini müəyyən etməsində Qaratsi, Persi və Yuvenalın böyük xidmətləri olmuşdur. Satira Rusiya imperiyasında XVIII əsrin ikinci yarsından təşəkkül tapmağa başlamışdı. (140) Azərbaycanda bu janrın ilk görünrüləri XIX əsrin ortalarına təsadüf edir.

Satira «birə kimidir: birincisi dişləyir, ikincisi millidir, üçüncüsü çox zaman ayaq altında olur.» (31) Bədii-publisistikanın bu janrı eyni zamanda tənqid silahı, həm də gülüş növü kimi başa düşülür və qəbul olunur. Başqa bir tərəfdən isə o bir çoxları üçün rahat deyiı. Elə olur ki, satiranı yumorla qarışıq salır və eyniləşdirirlər, əsla bu belə deyil. Yumor yumşaq gülüş olduğu halda, satira daha kəskin surətdə hər şeyin üstünü açmağa cəhd edır və iti ifşa etmə gücünə malikdir. Baxmayaraq ki, hər ikisinin mayasında gülüşə reaksiya, daha doğrusu gülüş

dayanır. (17)

Satiranın əsasını aşkarlıqla mahiyyət arasında olan uyğunsuzluq, pozulma təşkil edir. Yumorist üçün gülüş məqsəd olduğu üçün o, sadəcə olaraq tamaşaçını və oxucunu şadlandırmaq, əyləndirmək prinsipinə riayət edir. Onun zarafatı mərhəmətli, iltifatlı, rıtimli və həlim, xoşqəlbli olur. Satira isə bunun tam əksi olaraq insanın nöqsanını qamçılayır və qüsurlarını kəskin ifşa edir. Buna görə də, o sərt, qaba, ehtiraslı, qızğın və daha doğrusu, qəti olur. Satirik əsər ərsəyə gətirən publisist mütləq mübaliğəli, biçimsiz (qrotesk) metoddan istifadə edir. Öz obrazlarının bu və yaxud başqa mənada cizgilərini qüvvətləndirərkən müəllif onların mənasız, cəfəng halını nümayiş etdirmək imkanına malik olur.

Kommentariya bir metod kimi publisistikanın bütün formalarında istifadə olunur. Bu, korrespondensiya, məqalə, oçerk, icmal, xülasə, resenziya və s. ola bilər. Müəllifin mövzunu izah etməsi, təsviri və son nəticəni söyləməsində kommentariyanın rolu danılmazdır. Kommentariya metodu qəzetin əsasını, hətta tele və radio verilişlərinin zolaqlarını təşkil edir. Bu özünü onda göstərir ki, orda qoyulmuş müxtəlif publisistik yazılar bir başqasını «kommentariya» edir. Jurnalistikanın müstəqil növü kimi «kommentariya» sözü XIX əsrin ortaları XX əsrin əvvəllərində qısa analitik xəbər, korrespondensiya formasında istifadə olunmuşdur. Bu janrla müəyyənləşdirilmiş nəşrlər, ən vacib məlumatları (izah və müzakirə edilir, həmçinin açılır və aydınlaşdırılır) kommentariya edir.

Müasir zamanda kompleks jurnalist formaları arasında kommentariya əsas yerlərdən birini tutur. Məhz, onun köməyi ilə müəllif günün ən aktual məsələlərinə öz münasibətini bildirir, fikrini formalaşdırır, nöqsanları analizə edir, həmçinin proqnozun tərəqqisinə qiymət verir.

Kommentariyanın uğur qazanması, onun doğru qurulmasından və strukturundan asılıdır. Bu janrın qurulması üçün variantlar olduqca çoxdur. Amma bilmək lazımdır ki, kommentariyanın prinsipi birdır, yəni kommentariyada qoyulan problem

material aydın və başa düşülən olmalı, bunun üçün imkan və səbəb yaradılmalıdır. Bu da, oxucunu heç bir çətinlik çəkmədən kommentariyada gedən söhbəti anlamağa, baş verənləri görməyə, o cümlədən kommentatorun öz xeyrinə gətirdiyi arqument və qərarlarla tanış olmağa imkan yaradır. Publisistikanın bu janrının klassik quruluşu materialın «fakt-kommentariya» (4) sxemində olmasına gətirib çıxarır.

Bizim, satira və kommentariya haqqında qısaca məlumat verməyimizin məğzində, satirik kommentariyanın haradan yaranmasına olan işarə kimi başa düşülməlidir. Həqiqətdə, bu iki qohum metodun yaxınlaşmasından bədii-publisistikanın satirik kommentariya növünün (janr) ərsəyə gəlməsinin şahidi olduq. Sonrakı proseslərdə publisistik janrın, növün, yarımnövün, metodun əmələ gəlməsi və inkişafı haqqında həm tədqiqatçıların, həm də özümüzün subyektiv və obyektiv fikirləri, mülahizələri olacaqdır.

Janr «doğulur, inkişaf edir, mükəmməlləşir, kamilləşir, sonda öz məşhurluğunu itirir, parçalanır, dağılır, dəyişilir, səmərəlilik və məhsuldarlığından mərhum olur və adekvat dəyişməklə başqa janrla, zamana görə daha çox tələb olunan janrla əvəzlənir.» (159,6)

Satirik kommentariya özündə analitik kommentariyanın fenomenini daşıyır və onunla qohumluğunu təqdim edir. Özünün ölçüləri və kəskinliyi baxımından bədii-publisistika janrının bu növü daha çox analitik janrın kommentariya növünü xatırladır. Publisistika sahəsində çalışanlara yaxşı bəllidir ki, analitik janrın kommentariya növünü həm də, replika kimi qəbul edirlər. Lakin satirik kommentariya analitik kommentariyadan daxil olduğu janrın mövzu üstünlüyü, nişanələri, publisistik əsərlər ailəsinə aid edilməyi, müəllifin hədəfi aydın göstərməyi və onun diqqətini cəlb edən fenomenə gülməyi ilə fərqlənir. Jurnalist bu məqsədini reallaşdırarkən hər şeydən əvvəl bədii şüurun həqiqi metoduna müraciət edir. İlk növbədə müəllif bunun üçün satirik tipləşdirmə (bədii-surətin tipləşdirilməsini göstərir), ironiya, litota, hiperbolalaşdırmadan istifadə edir.

Əsasən, satirik kommentariya çağdaş zamanədə aktual və daha çox mənasız, cəfəng və yaxud müxtəlif siyasi xadimlərin, hakimiyyətin, idarə və təçkilat rəhbərlərinin ziyanlı hərəkətlərini izləmək məqsədi ilə dərc olunur və ictimai fikirdə müəyyən rezonansa səbəb olur. Satirik kommentariyanın mövzusu müəllifin diqqətini hər hansı bir vəziyyətə, əyani konkret hərəkətə, əngəl və «informasiya hadsəsi»nə deyil, (162) məsələn, bir və yaxud bir qrup insanın söyləməsinə cəlb edir. Son illər satirik kommentariya mətbuatın uğuru kimi qiymətləndirilir. Janrın fərqi ondadır ki, mövzuda insanların söylədiyi mülahizə, mühakimə başlıca rolda çıxış edir. Bu gün belə kommentariyalara xarici, mərkəzi, regional qəzet səhifələrində daha tez-tez rast gəlmək olur. Ənənəvi olaraq bu cür satirik kommentariyalar bir sxem üzrə qurulur. Əvvəlcə hər hansı bir siyasətçinin, tanınmış şəxsin, «qəhrəmanın» jurnalisti maraqlandıran ifadəsi verilir. Sonra isə həmin ifadəyə publisistin öz cavabı (şəxsi kommentariyası) gəlir. (140)

Satirik kommentariya «qohumluq» baxımından yalnız analitik kommentariyanın deyil, həm də felyetonun «qohumu» sayıla bilər. Bu ona görə belədir ki, felyeton və satirik kommentariya müəyyən olunmuş insanın nöqsanına, çatışmazlığına gülmək və müəyyən mənada bu səhvləri aradan qaldırmaq istiqamətində yazılır. Baxmayaraq ki, satirik kommentariya, əsasən, ironiya, gülüş, sarkazm vasitəsi ilə «yola verilir.» (162) Lakin dəyərli felyetonun başlıca metodu satirik tipikləşdirmədir. Başqa sözlə, felyetonda müəllif nadir və təkrar olunmayan hadisəni, «sifəti», tipikləşdirilmiş hadisəni hər addım başı, gözlənilməyən yerdə, həyatın hər hansı sahəsində gülüş nöqtəsinə çevirir.

Həyat hadisələrinin ictimailəşdirilməsi və ümumiləşdirilməsi səviyyəsində məsələyə nəzər yetirmiş olsaq görərik ki, satirik kommentariya felyetona uduzur. Lakin ifadə etmə, göstərmə vasitələrinin komplektləşdirilməsi, operativlik, praktiklik, çəldlik nəzər nöqtəsindən onu üstələyir. Bu da, ona bədii-publisistika janrının əvəzolunmaz statusu imkanı verir.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu).
Tülkünün canfəşanlığı.

Bizdə «sakitlik və sabitlik» hökm sürür. Bunu mən demirəm ha, bunu «rəhbərlər» deyir. Evdə işsiz, gücsüz oturmaqdan lap təngə gəlmişdim. Düşündüm ki, «şeytanın qıçını sındırım», bir şəhərə gəzməyə çıxım, görüm nə var, nə yox ... Qərara gəldim ki, son zamanlar «Milli Park» adlandırılan yeri yaman çox tərifləyirlər, özü də, mətbuatdada... Bir ora baş çəkim. Görüm doğrudanmı bu qədər tərifə layiqdir.

Metroynan gəlib çıxdım «İçərişəhər» stansiyasına. Keşdim onun arxa tərəfinə ki, dənizə tərəf gedim. Bir neçə addım getmişdim ki, qulağıma asta, həmdə ürəyəyatan musiqi səsi gəldi. Ayaq verib saxladım... Görüm bu səs hardan gəlir. Sağa baxdım, sola baxdım heç kim və heç nə yox idu. Səs isə irəlidən, ağaclar tərəfdən gəlirdi. Yavaş-yavaş o səmtə getdim. Bir az irəlidə, ağacların altında nə görsəm yaxşıdır, ... nə? Gördüm gözəl bir tülkü çox səliqəli, həm də dəbnən elə geyinib, keçinibdir ki, mənəm-mənəm deyən qız onun elədiklərini bacarmaz. Başı və şələquyruğu xüsusi gözəlliklə düzülüb-tumarlanıb, ayağında hündür, qara dərili, üstü ağ ayaqqabı. Əynində ipək parçadan hazırlanmş dörd tərəfi kəsik «mini yubka», kənarlarındakı krujeva, şəbəkə, azacıq görünən alt striptiz sinəsinə və ayaqlarına xüsusi gözəllik əlavə edir. O ki, qaldı daş-qaşa, bəzək əşyalarına, bunları görməyə iki göz istəyir... Bakının lap bərk gedən xanımı bunları almaqda, bəlkə də, çətinlik çəkərdi. Boynunda briliant və zümrüddən hazırlanmış boyunbağı, qulaqlarında və qollarında həmin dəstdən ibarət sırğalar, qol saatı, bilərzik, hələ heç ayağındakı brasletləri demirəm. Dodağına da mavi rəngdən bir boya çəkib ki, deyiləsi deyil. Bir sözlə canı yanmış başqa fıstırıxdır... Bax, buna deyərəm təbii gözəllik, özü də necə...

Hə, az qala əsas məsələ, musiqi yaddan çıxmışdır. Canıyanmış tülkünün gözəlliyi adamı valeh edirdi. Kişi deyilik, bəyəm?.. Sən demə musiqini çalan da, havasına oynayanda bu canı yanmış tülkücük özü imiş. Bəli! Bəli! And olsun ətrafda gəzənlərin ca-

nına. Onların canını çöldən tapmamışam ki, yalandan and içim. Boynuna asıb saksafono istədiyi havanı çalır... Kişi deyərəm ki, bütün bunlara tab gətirsin. Nə isə, bunlar bir yana. Tülküyə yaxınıaşıb soruşdum:

-Ay xanım! Bu nə fıstırıqdır, bu nə muzukadır, toydu, bayramdı, yoxsa başqa şey ...

Tülkü cavab verdi:

-Yox! Ay başına döndüyüm. Sən deyənlərin heç biri deyil.

Soruşdum:

-Bəs onda nədir?

Dedi:

-Srağagünü yanıma cücələrin ata-anası, Toyuq və Xoruz gəlmişdilər. Gileyləndilər ki, cücələr «Azadlıq» meydanında oynamaq istəyir, amma bilirsən də, ora bağlıdır, heç kimi qoymurlar. Bəs, biz də, cücələrin qarşısında qalmışıq gözü kölgəli. Nə olar bu işə bir əncam qıl. Mən də, çox fikirləşdim və söz verdim. Səhərisi günü də, gəldim merin yanına... Sağ olsun, sözümü yerə salmadı. İcazə verdi. Ancaq dönə-dönə tapşırdı ki, başqa cücələr olmasın ha... Yoxsa özün bilirsən də, tökərəm toyuqçuları, bir anın içində hamısını yığdıraram dama. Mən də, işimin ustası olduğumdan onu arxayın saldım. Bax, indi də, gedirəm kişini razı salım. Axı, biz Bakıda yaşayıŋq, şirinlikdən-zaddan verməliyəm, ya yox... Odur ki, özümə yaxşı maya buraxdım, təzə paltar və əşyalar aldım. Saksafonuda özümlə ona görə götürdüm ki, yaşlı kişidir, meri deyirəm ey, bəlkə əlindən bir iş gəlmir, heç olmasa çalıb könlünü alaram. Yoxsa elə bildin ki, mən də «Evrovijina» hazırlaşıram...

-Soruşdum ki, bəs sənin xeyirin nə olacaq, bu qədər ziyana və əlimyandıya düşürsən.

Tülkü qayıdıb mənə dedi:

-Rəhmətliyin oğlu, elə bil Marsdan bu gün gəlib. Gör məndən nə soruşur. Bəyəm bazar iqtisadiyyatında yaşamırıq. Sonda cücələri də, ata və analarını da, bəli, düz düşünürsən, elə ki, var... hə, mən yeyəcəm. Bu da, olacaq mənim xeyirim.

Soruşdum, axı sən iki əsir bunda əvvəl həccə getmisən, to-

yuq-cücəyə toxunmayacağın haqqında and içmisən. Bəs, bu əməllər nəyə gərək?

Tülkü dedi:

-Ay, rəhmətliyin oğlu nə olsun ki, həccə getmişəm, and içmişəm. Məmurların hamısı həccə gedib. Konstitusiya qarşısında da, and içiblər ... Nə olsun ki, ... hamısı da, özün yaxşı bilirsən, həm ondan edirlər, həm bundan edirlər, yeri gələndə lap vurub o yana da, keçirlər. İndi anladın, qədeş, mənim andımı və həccə getməyimi,-deyərək,- tülkü yanımdan ötüb merin binasına daxil oldu.

Mən, daha «Milli Parka» getməyib yazıq cücələrin dərdini çəkə-çəkə qayıtdım evə. Qorxdum ki, birdən «Milli Park»da ayı-zad olar, deməkolmaz da, basıb məni yeyər, uşaqlarım da ki, yetim qalarlar. Axı biz yeni zəmanədə yaşayırıq. Ona görə də, günah bu biçarə məmurlarda yox, elə zəmanənin, bəli, düz tapmısam, elə zəmanənin özündədir...

Əl-qərəz, bir gündən sonra bizim «baş» xəbərlərdən eşitdim ki, bir tülkü «Azadlıq» meydanında cücələri də, onların atası Xoruzu və anası Toyuğu da xüsusi qəddarlıqla yeyibdir! Yəni qanlarına qəltan edibdir. Cinayət Məcəlləsində belə bir maddə olmadığından, Tülkü yerindəcə cəzadan azad olunubdur. Düşündüm ki, bəlkə mer tapşırıbdır. Ola bilər də! Bura Şərqin qapısıdır. Dedim, bəlkə tülkünün saksofon çalması «kişinin» xoşuna gəlibdir. Qoca adamdır, özü də ürəyi yaman yumuşaqdır. Axı, bizdə hər bir vətəndaşın hüquqları, qanunlarla qorunur... Burda əsas odur ki, «sakitlik və sabitlik» hökm sürsün ...

Bismillahir Rəhmanir rəhim, eyləyib yerimdə oturdum. Və özümə söz verdim ki, heç vaxt meydana, parka, zada getməyim...

7.HƏYAT TARİXÇƏSİ

Həyat tarixçəsi-bədii-publisistika janrının bir növüdür və informasiya janrının qeyd növünün yarımnövü olan «mini tarixçə» növünə yaxın olsa da, ondan bəzi aspektlərinə görə fərqlənir. (157) Bu fərqlənmənin əsasını həyat tarixçəsi növü-

nün dolğunluğu, tərəflərin özünə münasib «açıqlıq» dərəcəsi, dil gözəlliyi, natiqliyi, bədiiliyi, canlılığı, şəkilliliyi, əyaniliyi və s. olması təşkil edir.

Avropa mətbuatında bu başlıq altında yazılar ilk dəfə «Merkure galant» («Ədəbi merkuri») jurnalında görünübdür. «Madama məktub» rubrikası adı altında verilən bu yazılarda Şarl Perronun «Yatmış gözəl» (162) nağılı dərc olunubdur.

«Mini tarixçə» növü müasir dövrdə geniş yayılmış və ailəvi oxu üçün nəzərdə tutulubdur. «Avropa standartlarına» uyğun formada dərc olunan belə dövri nəşrlər oxucuya az vaxt və güc sərf etməklə daha geniş və yığcam informasiya əldə etməyə kömək edir. Başqa sözlə demiş olsaq, bu cür qeydlər çoxda böyük olmayan informasiyalardan ibarət olmaqla, rəngli şəkillərlə müşayiət olunur. «Mini tarixçə» müstəqil publisistika növü olmaqla, əsasən, mövzunu hansısa ailə münaqişəsinə, sevgi macərasına, peşəkar və yaxud həyat intiriqasına, fitnə-fəsadına, insanlar arasındakı münasibətlərə və onların əks olunmasına yönəldir.» (162)

Həyat tarixçəsinə, daha doğrusu bu cür mövzu tipinə bədii ədəbiyyatın hekayə janrı uyğun gəlir. «Belə formaya oxşar olan publisistik məqalələrə qərb ölkələrinin dövri mətbuat səhifələrində daha tez-tez rast gəlmək mümkündür. Məsələn, dünyada məşhur olan və ailəvi oxunan «Riders daydjest» jurnalı.» (162)

İnsan həyatının hər hansı bir epizodu, müxtəlif vəziyyəti, toqquşması, çarpışması, yəni «insan məişətində» nə baş verə bilərsə hamısı həyat tarixçəsi növündə öz əksini tapa bilir. Həyat tarixçəsi bədii metodun köməkliyi ilə yaradılır, daha dəqiq demiş olsaq, bu cür mövzularda əsas rolu müəllifin fantaziyası oynayır. Həyatda olmayan, baş verməyən vəziyyətin üzə çıxmasını və yaxud real həyatda baş verən hadisəni insan yaradır, «emal» edir. «Başlanğıc materialı» (157) real mümkün vəziyyətə və yaxud konkret hadisəni bədii səviyyəyə (əyaniliyin yüksəlməsi, materialda kəskin toqquşma və çarpışmanın saxlanması, həmçinin əks olunan hadisələrin inkişafı və gözlənilməz məqamlar dayanır) çatdırır. Lakin jurnalistin yazdığı həyat ta-

rixçəsi şəxsi bədii əsərdən, daha doğrusu, yüksək enimliyi əks olunan hadisələrin sənədli xarakterliyi, süjetin sxemli şəkildə inkişafı, qəzet dilinə və nitqinə aid olan danışığı, həmçinin üslubun dayanaqlı olması ilə fərqlənir. Publisistikanın bütün janr, növ və yarımnövlərində bir yaxınlıq, qohumluq hiss olunduğu kimi, həyat tarixçəsi növündə də bu prinsip qaçılmazdır. Həyat tarixçəsinin informasiya janrının korrespondensiya növünə müəyyən yaxınlıqda olmasına baxmayaraq, özünün bədii-publisistik janra aid edilməsi üçün heç bir maneə yaratmır.

Hər şeydən öncə bu müəyyən etmə, müəllifin bədii əsər yaratmasında və onun əks olunmasında həqiqi tarixdən əsas, həm də səmərəli və keyfiyyətli silah kimi istifadə etməsi bacarığından irəli gəlir. Son illər bu janr Azərbaycan mətbuatında daha geniş təmsil olunmağa başlayıbdır. Bu məqsədlə açılan yeni dərgilər həm rəngarəngliyi, həm mövzu müxtəlifliyi, həmçinin oxucu auditoriyası toplamaq baxımından heç bir əziyyət çəkmir. Həyat-məişətin cürbəcür çalarları ilə zəngin olan dövri mətbuat orqanları heç bir çətinlik yaratmadan ailəlikcə oxunur və onda yaşından asılı olmayaraq hamı üçün kifayət qədər maraqlı tarixçələr dərc olunur. Bu siyahıda «Yuva» (2008), «Ailə və sağlamlıq» (2008), «Kəlam» (2009), «Körpəm» (2009) jurnalları aparıcı yer tuturlar. Mətbuat orqanlarının ad müxtəlifliyi, həmçinin bu adların məna çalarları onların rəngarənkliyindən xəbər verir. Alina Talıbovanın «Bakı Rages» (157) jurnalında poeziya formasında dərc etdirdiyi «Həyat tarixçəsi» söylədiklərimizə əyani sübut ola bilər.

Ramilə Həsənli.
Fala baxdıran iki dəfə sevinir...

«Qəşəng oğlan, utanma, yaxın gəl, falına baxım. Mən sənin üz cizgilərindən, hərəkətindən görürəm ki, özünü narahat hiss edirsən, özün haqqında bilmək istəyirsən? Görünür taleyinə biganə deyilsən. Yaxın gəl, haqqında sənə hamısını deyim»,-deyərək,-fala baxan oğlana müraciət edir.

Səbuhi metronun çıxacağında dayanmış qarabuğdayı qadına diqqətlə baxır. Öz-özünə düşünür,-deyəsən qaraçı deyil (qaraçılara o inanmır) və geyimi də, səliqəli, həm də, olduqca yaxşıdır. Kefinin yaxşı olması, digər bir tərəfdən də, qadının ona xoş münasibət bəsləməsi, Səbuhinin saqqızını oğurlayır. O, bir addım irəli gedərək əlini qadına uzadır və deyir: «Bax! Görüm mənim taleyimdə nə gizlənir?... Keçmişimdə nə olubdur?...»

Bəli, mənim qardaşım,-deyərək,-qadın mətləbə keçir. O, Səbuhinin sağ gözünün altındakı xalı nişan verərək fikrini ifadə etməyə başlayır. «Görünür sağlamlığınla bağlı problemin yoxdur. Təsadüf hallarda xəstələnirsən. O da ki, ötəri, yəni elə belə. Düzmü deyirəm? Allah sənə yalnız yaxşı sağlamlıq yox, həm boy-buxun, həm yaraşıq, həm də, yaxşı ağıl veribdir. Düzmü deyirəm? İndi əlinlə əlimin arasına kağız pul qoy və bərk sıx və saxla.»

Səbuhi əlini cibinə salır, pul çıxardır, bu onluq idi. O, qadının dediyi kimi pulu qadınla özünün əlinin arasına qoyur və əlini bərk sıxır. Bu zaman qadın onun üzünə baxaraq bərkdən deyir: «Çək əlini, pulunu da, götür. Onsuzda bundan artığını deyəsi deyiləm, götür pulunu, Allah xatirinə çıx get.»

Səbuhi geri çəkilir və dodaqaltı «başdan xarabdır, ya da ki, ağılı çatmır»,- deyərək-fikrə gedir və pulunu cibinə qoyaraq gül köşkünə tərəf addımlayır. O, sevgilisi ilə görüşə getdiyindən yaxşı bir gül çələngi bağladır və yenidən metronun girişinə daxil olur və kütlənin içərisində gözdən itir. Onu gözaltı nəzərlərlə izləyən fala baxan qadın başını bulayır, görünür öz hərəkətindən narazı qalmışdır. Axı, müştəri əldən çıxdı...

Artıq hava qaralırdı, metronun çıxışında adamlar azalır, işıqlar zəif yanır, birsözlə, fala baxan qadın da, deyəsən harasa getməyə hazırlaşırdı. Bu onun özünə əl gəzdirməsindən və uzaqda kiməsə işarə eləməsindən aydın duyulurdu. Elə bu zaman səkiyə bir xarici avtomobil yaxınlaşır. Fala baxan qadın maşına yaxınlaşaraq arxa qapını açıb əyləşir və qapını örtür. Avtomobil şəhərin mərkəzinə doğru istiqamət göyürür və bir müddətdən sonra gözdən itir.

Səbuhi «Fantanlar bağı»na gəlir. Yavaş addımlarla o, saat

tərəfə gedir. Bu zaman onun qarşısına hündür boylu, zövqlə geyinmiş, uzun saçları olan bir qız gəlir. Onlar salamlaşdıqdan sonra Səbuhi gül dəstəsini xanima təqdim edir və qısaca nə barədəsə danışırlar. Bundan sonra onlar dənizkənarı parka doğru qoşa addımlayırlar. Havanın xoş olması, hər tərəfdən yanan çıl-çıraqların şüası, insanların ahəstə gəzişməsi, səkilərdə olan yaşıl dibçəklər və hündür ağaclar elə bil ki, hamıya xüsusu ovqat bəxş edirdi. Səbuhi sevgilisi ilə qol-qola olaraq, danışa-danışa dənizkənarı parka çatırlar. Bir neçə metr getməmiş onların qarşısını bir qadın kəsir. Səbuhinin sevgilisini tərif edərək onun falına baxmağı təklif edir. «Gözəl qız! Sizin xoşbəxt olacağınız nur yağan simanızdan görünür. Amma bu xoşbəxtliyin nədən ibarət olduğunu mən deməsəm, çətin ki, siz buna nail olasınız. Qoy yaninizdakı oğlan əlini cibinə salıb məni sevindirsin. Ona da, deyəcəklərim var. Bu gün sənin üçün çox uğurlu gündür. Düzmü deyirəm?»

-Sevgilisi Səbuhinin qulağına pıçıldayaraq,-deyir,-bu hardan bildi ki, bu gün mənim üçün uğurlu gündür.

-Səbuhi sevgilisindən,-doğrudan günün uğurlu olub,-deyə,-soruşur.

-Hə, Səbuhi! Bu gün imtahandan beş almışam. Deyəsən bu hər şeyi yaxşı bilir. Gəlsənə falımıza baxsın.

Səbuhi sevgilisinin xətrinə dəyməmək üçün razılıq verir. Bu metronun qarşısındakı fala baxan qadın idi. Sadəcə olaraq o, əyin-başını, hətta saçını və gözünün rəngini də, dəyişmişdi. Buna görə də, Səbuhi onu ilk baxışdan tanımadı. O, isə Səbuhini çoxdan tanımışdı. Odur ki, bayaqkinin da, əvəzini çıxmaq arzusunda idi. Bütün «istedadını» nümayiş etdirən fala baxan Səbuhidən və onun sevgilisindən xırda-xırda düz 50 manat pul alır. Həmin ərazidən beş-on metr aralandıqdan sonra Səbuhi bunun metronun qarşısındakı qadın olduğunu anlayır və tez də, həmin yerə qayıdır. Artıq fala baxan qadın orda yox idi. Bax belə,-deyərək,- Səbuhi gülməyə başlayır və birazdan sevgilisi də, ona qoşulur. Onlar başa düşmüşdülər ki, qaraçı qadın onları ovsunlayaraq aldatmışdır.

Birdən onların hər ikisinə dəli bir gülüş gəlir. O ki, var qəş edib gülürlər və sonda hər ikisi söz verir ki, bir daha bu cür səhvə yol verməyəcəklər...

Deyilənə görə, fala baxdıranlar iki dəfə sevinirlər: bir fala baxan onlara xoş söz söyləyəndə, bir də ki, aldandıqlarını başa düşəndə, yəni itirdikləri pulun acısını yaşayanda. Bizim qəhrəmanlar kimi.

8.ƏFSANƏ

Əfsanə-şifahi xalq yaradıcılığının ən qədim janrlarından biri sayılır. Bədii-publisistika janrının bu növünü dastansız, qəhrəmannaməsiz təsəvvür etmək mümkün deyil. Əfsanə bir çox bədii-ədəbi əsərlərin əsasını təşkil edir. Bu növ, həmçinin dövri mətbuat səhifələrində mövcud olan bədii-publisistika janrıdır.

«Əsatir əfsanəyə, əfsanə də rəvayətə oxşamır. İnkişaf prosesində bunların biri, o birinə çevrilə bilir. Çünki bir ərazidən başqa bir əraziyə, bir nəsildən o biri nəslə keçəndə əsatir ya nəyisə itirir, yaxud yeni cizgi və əhvalatlarla zənginləşir, lakin özünəməxsusluğundan qismən uzaqlaşır. Əfsanələrdə məişət və dünyagörüş, tarixi şəxsiyyətlərin qəhrəmanlığı və sərgüzəştləri təsvir olunur.» (37,271) Burda «işıqla qaranlıq, xeyirlə şər, doğma ilə yad, düzlüklə əyrilik mübarizədə» (190) verilir.

Tarix boyu Azərbaycan xalqının çoxlu, həm də mühüm əhəmiyyət kəsb edən əfsanələri mövcud olub və bu gün də var. «Astiaq», «Tomris» bunlardan ən qədimidir. Əfsanələrdə «tarixi şəxsiyyətlərin fəaliyyəti, təbiətin müxtəlifliyi, zülmə və istismara münasibət bildirilir. Təhkiyə dinamik aparılır, hadisələr, münasibətlər böyüdülür, obrazlar və amal uğrunda mübarizə aparılır.» (37,272)

Bu məqamda ortaya belə bir sual çıxır. Əfsanənin mahiyyəti, məğzi nədir? Əfsanəni qiymətləndirərkən başlıca olaraq ilk növbədə onun dolğun və maraqlı tərəfləri götürülür. Onun dol-

ğun və maraq kəsb edən hissəsi ilə xəyal, xülya, uydurma, fantaziya və s. assosiasiya üzrə əlaqə yaranır. Həqiqətən, əfsanəni fantaziyasız başa düşmək qeyri mümkündür. Hamıya yaxşı bəllidir ki, insan real hadisəni olduğu kimi nağıl eyləyə bilməyəndə, özündən yeni «kəşflər», uydurmalar etməyə başlayır. Bütün bunlara rəğmən qeyd etmək olar ki, uydurma, fantaziya yaratmaqla sabit, dayanaqlı, möhkəm əfsanə yaratmaq olmur.

Yaxşı əfsanə özündə daha çox real tarixi hadisələri, faktları cəmləşdirir. Bu cür əfsanələr görkəmli sərkərdələr, qəhrəmanlar, fövqəladə və möcüzəli hadisələr, ecazkr təbiət haqqında formalaşır. Bir çox hallarda əfsanəni hər hansı bir şəxsiyyətlə (və yaxud şəxsiyyətlərlə) yox, həm də, konkret coğrafi yerlə, məkanla, hadisə və vəziyyət ilə bağlayırlar. Demək olar ki, həmişə başlıca (real və yaxud «uydurma») fakt kimi əfsanə açılmayan sirli hadisələrlə əlaqəli verilir. Buna görə əfsanənin mərkəzində həmişə çətin və çıxılmaz vəziyyətə düşən qəhrəman (və yaxud qəhrəmanlar), onun mübarizə aparması və faciəli şəkildə həlak olmasi yer alır. Lakin qəhrəman ölməsinə baxmayaraq özünü oxucuya canlı, sağ olan adam kimi xatırladır. Bu onun özünəməxsusluğundan irəli gəlir və onu bir növ nağıla yaxınlaşdırır.

Bəzən jurnalist-tədqiqatçılar, ədəbiyyatşünaslar, hətta oxucular arasında belə bir sual dolanır. Əfsanə mətbuatda hansı fuksiyanı yerinə yetirir? Bu suala, hansı prizmadan yanaşmağımızdan asılı olmayaraq söyləyə bilərik ki, burda bir aksioma tələb olunur. Birincisi, əfsanə oxucuları əyləndirmək işinə xidmət edir. İkinsisi, bu formada olan publisistika-auditoriyaya ideal mühit axtarışına daxil olmağa, ən çətin və vəhşi şəkildə olsa da belə insan fəaliyyətini romantika, poeziya ilə müşayiət etməyə, gündəlik maraqlı (və ya maraqsız) həyata nə isə əlavə etmək və yaxud onu doldurmaq, cürbəcür rəvayəti və «incə materiya»nı dərk etmək, müxtəlif nəsilləri birləşdirmək kimi imkanlar verir. Buna görə də, publisistikada əfsanəni, daha parlaq və geniş formada demiş olsaq, bilik və məlumat mənbəyi hesab edirlər.

Əfsanə bu məziyyətləri ilə bərabər həm də, insanlar üçün xarakter formalaşdıran publisistik növdür. Ola bilsin ki, kimin üçünsə o çəkinmə, ehtiyat, xəbərdarlıq funksiyasını, kimin üçünsə ilham, təhrik, cəsarət fuksiyasını yerinə yetirmiş olsun. Özündə olan nümunələr vasitəsi ilə əfsanə az-çox insan fəaliyyətinin və əxlaqının formalaşmasında son dərəcə mühüm və dəyərli rol oynayır. Mətbuat səhifələrində dərc olunan əfsanələr oxucular tərəfindən müsbət qarşılanır, onlara başqaları iıə mülahizə aparmağa və əlaqə yaratmağa yardımçı olur. Bu nöqteyi-nəzərdən baxaraq tam əminliklə demək olar ki, əfsanə bədii-publisistika janrının bir növüdür.

Ceyran Günəş.
Kir və Tomris əfsanəsi.

Rəvayətə görə, qədim zamanlarda Azərbaycanın ərazisində (indi ki, Qarabağda) döyüşkən, igid, cəsur massaget tayfaları yaşayırdı. Masagetlərə ağıllı, müdrik və bacarıqlı Tomris adlı bir qadın başçılıq edirdi. Günlərin bir günü, qonşu İranda yaşayan, zəmanəsinin qüdrətli sərkərdələrindən sayılan hökmdar Kir öz ərazilərini, şöhrət və gücünü daha da artırmaq məqsədilə massagetlərin yaşadığı ərazini ələ keçirmək üçün Tomrisə elçi göndərir, ona evlənməyi təklif edir. Hər şeyi düzgün ölçüb biçməyi, götür-qoy etməyi yaxşı bilən Tomris Kirin bu təklifinə rədd cavabı verir. Bundan pərt olan Kir çox bərk qəzəblənir və Tomrisə belə bir xəbər göndərir:

-«Bilin ki, mən qana sussamışam. Ya tabe olun, ya da sizi qan içində boğacam.»

Tomrisdən növbəti dəfə rədd cavabı alan Kir İran ordusunu massagetlərin üzərinə göndərir. Beləliklə, başda Kir olmaqla İran ordusu və massagetlərin başında Tomris olmaqla dəhşətli müharibə başlanır. Salnaməçinin qeydlərinə görə «döyüşdə üstünlük gah bu tərəfə, gah da o tərəfə keçirdi. Qışqırıq səsləri, atların kişnəməsi, tozun səmanı örtməsi, müxtəlif vasitələrlə yaradılan qorxunc səslər, yaralıların iniltisi tük ürpədici mənzərə

yaradırdı... Döyüşlərdən birində Kir hiylə işlədib Tomrisin oğlunu əsir götürür və elçilər vasitəsi ilə Tomrisdən onun şərtlərinə razı olmağı tələb edir.» Cavabında Tomris Kirə deyir:

-«Ey qaniçən, oğlumu qaytar, torpaqlarımı tərk et, yoxsa səni qanla doyduracağam.»

Lakin Kir qüdrətli və cəsur qadının sözlərinə əhəmiyyət verməyib müharibəni davam etdirir. Tomrisin oğlu isə ölümü şərəfsiz həyatdan üstün tutur və özünə qəsd edir. Bu xəbər ananı dəhşətə gətirir. Bütün gücünü səfərbər edən qadın qisas hissi ilə qoşunun önündə amansız döyüşə girir. Salnaməçinin qeydlərinə görə «səhər günəş çıxar-çıxmaz Tomrisin qoşunu hucuma keçdi. Dağ-dərə lərzəyə gəlmişdi. Massagetlər sanki at çapmır, onlar havada uçurdular. Atılan oxların çoxluğu səmada qorxunc bir mənzərə yaradırdı. Qılınc və qalxan səsindən qulaq tutulurdu. Tomris öz şücaətilə vuruşur, həm də orduya rəhbərliyi davam etdirirdi. Çaş-baş qalan İran ordusu qaçmağa davam edir, massagetlər isə onları qırırdı. Bu son döyüş oldu. Massagetlər İran ordusunu darma-dağın edərək qalib gəldi. Kir döyüş meydanında öldürüldü... »

Tomrisin göstərişi ilə Kirin başı kəsildi və qanla doldurulmuş tuluğa salınaraq Araz çayına atıldı. Bu dəhşətli mənzərəni seyr edən Tomris nifrətlə dedi:

-«Sən qana sussamışdın, indi iç doyunca.»

Dostu duz-çörəklə, düşməni qılıncla qarşılamağı bacaran Tomris haqqında söhbətlər qısa zaman ərzində bütün əyalətlərə yayılır və əfsanəyə çevrilir. Bu əfsanə bu gün də, öz mahiyyətini itirməyibdir.

9.EPİQRAF

Epiqraf-məfhumu iki mənada başa düşülür. Birincisi, o yunan dilində olan «epigrayh» sözündən götürülmüşdür. Mənası kitabə, daş-dəmir-ağac üzərində yazılmış yazı deməkdir. İkincisi, bir əsərin başında və yaxud onun ayrı-ayrı fəsillərinin

başında yazılan qısaca mətn-cümlə, zərb-məsəl, hikmətli söz, «nəfəslik» və s. kimi qəbul olunan yazıdır. Bədii-publisistikanın bu janrından söhbət açarkən biz diqqətimizi ikinci mənaya yönəldirik və söhbətimizi də, bu əsasda aparmalı oluruq. (162)

XIX əsrin birinci yarsında Avropada dəbə düşən bu janrdan geniş istifadə etməyə başlayırlar. Başqasının dəyərli fikirlərindən öz yazılarında məharətlə istifadə edən ədiblər arasında Monteskye, Byuffon, Russo, Bernarden-de Sen Pyer kimi isimlərin olması janrın həqiqətən üstünlük təşkil etməsindən xəbər verir. Avropadan Rusiyaya keçən epiqraf janrından dövrünün görkəmli ədibləri A. S. Puşkin «Yevgeni Onegin» poyemasının ikinci fəslində, N. V. Qoqol «Müfəttiş» komediyasında, L. N. Tolstoy «Anna Karenina» romanında, F. M. Dostoyevski «Karamazov qardaşları» və V. Q. Gertsen «Zəng» əsərlərində məharətlə istifadə etmişlər.

Sonradan bu janr Rusiya publisistikasından Azərbaycan mətbuatına keçmiş və ədiblərimiz tərəfindən ədəbiyyat və jurnalistikanın arsenalına qəbul olunmuşdur. Epiqrafdan müəllif adətən öz daxili aləmini gizlətmək üçün istifadə edir. Bu, əsasən o vaxt baş verir ki, publisist birbaşa hucuma keçmək istəmir, yəni «taran» etməkdən vaz keçir və dolayısı yola əl atır. Məhz bu məqamda, epiqraf ona kömək edir.

Epiqrafın nə olduğunu təsəvvür etmək istərkən ilk növbədə, bədii və elmi əsərlərin, həmçinin mətnin başlanğıcında yazılmış, çox da böyük olmayan (adətən bir neçə sətr) cümlə, zərb-məsəl və hikmətli sözləri nəzərdə tuturuq. Epiqraf həm nəsr, həm də nəzm formasında mövcuddur. Onun mənası hamı üçün əhəmiyyətli olan hansısa bir düşüncəni, əbədi həqiqəti, qanuni tələbi və başqa fikiri qısaca olaraq tərənnüm edir və epiqraf kimi qəbul olunur. Əgər epiqrafa məntiq nöqteyi-nəzərindən baxmış olsaq, görərik ki, müəllif kitabında və yaxud publisistik əsərində əsas fikir və tezisnən çıxış etdikdən sonra, əsərin xırda hissəciklərinə kimi açıqlayır, arqumentlər gətirir,

faktlara istinad edir, düşüncəsini iqtibaslarla müşayiət edir, bir sözlə, konkret həyat lövhələri ilə bədii hekayə, təhkiyə, əfsanə və rəvayətlə doldurur, onu formalaşdırır. Maraqlı faktdır ki, müəllifin seçdiyi epiqraf hardasa yazılmış əsərlə sıx və gizli tellərlə bağlanır, əlaqəli olur. Ədib və publisistlər öz aralarında epiqrafa həm də, «nəfəslik» (fortka) deyirlər.

Epiqraf xüsusi janr kimi dövri mətbuatın səhifələrində iştirak edir. Burda o, təqribən ədəbi-bədii və yaxud elmi yaradıcılıqda olduğu kimi eyni rolu oynayır. Onu analitik jurnalistikanın kommentariya və yaxud informasiya jurnalistikasının qeyd janrlarına qohum saymaq, həmçinin onların «klonu» hesab etmək olar. Epiqrafın kommentariyadan fərqi ondadı ki, adətən onda (epiqraf) sənədli fakt iştirak etmir. Elementar, bəsit, adi qeyiddən isə epiqrafı ictimailəşdirməyə tuşlanmış, nişan alınmış xüsusiyyət fərqləndirir.

Qısa aforizm şəklində olan bədii ümumiləçdirmə, eyniləşdirmə, yekun etibarilə hansısa məqalədə sanballı, məsələn, qəzet zolağında epiqraf kimi çıxış edir. O, həmçinin qəzetin həmin sayına müəyyən mənada çalar, avaz, informasiya verir.

Başqa janrların əhatəsində, o cümlədən bədii-publisistik janrda, ola bilsin ki, epiqraf daha nisbi, təvazölə, (hər şeydən əvvəl, onun köməkliyi ilə həll oluna biləcək məsələnin mühümlük dərəcəsi) adi görünsün. Bununla bahəm, bir çox hallarda bu janr kömək, etimad göstərmək baxımından çox yerində və zamanında olmuş görünür. Mümkündür ki, məsələn, qəzet zolağında veriləni dərk etmək, başa düşmək, bəzən isə bir fikirlə müxtəlif yönümlü materialı birləşdirməyə lüzum, ehtiyac yarandıqda bəhrələnmək, onları hər hansı vacib nöqteyi-nəzərin xeyrinə şahid kimi təqdim etmək, müəllifin və yaxud redaksiyanın mövqeyini, həmçinin qarşıya qoyulan problemi əks etdirmək, ictimaiyyətə çatdırmaq baxımından epiqrafın rolu danılmazdır.

Ramilə Həsənli.
Sevgi saatı.

Ey xoş ol günlər ki, mən həmraz idim cananilə,
Neməti-vəslin görüb, nazın çəkərdim canilə.

Təəssüflər olsun ki, bu belə deyil. Dahilərin dediyinin və yaxud mənim söylədiyimin doğru və yaxud səhv olduğunu dəqiqləşdirmək üçün Dənizkənarı bulvardakı və yaxud Fontanlar bağındakı saatın ətrafını bir müddət nəzər-diqqətdə saxlamaq kifayət edər.

Sevənlərin bir-birilə görüş yerini saatların olduğu yerdə təyin etməsi heç də, sadə təsadüfdən yaranmır. Onları həyatın gündəlik problemləri, yekrəng olması, yaranan tıxaclar, rəislərin göstərişləri, valideyinlərin tələb və tövsiyələri maraqlandırmır. Onlar mütləq sözləşdikləi vaxt, sözləşdikləri yerdə olmalıdırlar, əlbəttə, fövqəladə və fors-major hallar istisna olunmaqla. Çünki bu gəncliyin, sevən könüllərin, çırpıntı ilə döyünən ürəklərin tələbidir.

Diqqətlə baxmaq kifayətdir ki, görüş yerinə bir neçə anlıq tez gələn gənc necə də həsrətlə ətrafına, qolundakı saatına, telefondakı saata, başının üstündə qüllədə olan saata baxır, onları tutuşdurur, özünə təsəlli verir və sevgilisinin indicə görünəcəyini arzu edir. Bu anlar onun ömründən günümü, ayımı, ilimi aldığını söyləyə bilməsək də, ona çətin anlar yaşatdığını böyük inamla söyləyə bilərik.

Budur, gözlənilən məqam gəlib çatdı... Onlar bir-birinə qarşı necə də inamla addımlayırlar..., kənardakılar olmasa idi, bəlkə də, qaçardılar, hətta uçardılar. Səmimi salamlaşma, gül dəstəsi, utancaq baxışlar, əllərini-əllərinə vermək, qıyqacı baxışlar, isti gülüş və ta nələr, nələr... Bunların hamısı yalnız bir eşqin, bir sevgi-məhəbbətin cazibəsi, gücü ola bilər. Vərəqə yazılması mümkün olmayan bu anları yalnız bir ürək yaşaya, duya bilər. O ürək, sevənlərin ürəyidir.

Yuxarıda adını çəkdiyim həmin yerlər, Bakının ən gözəl, ən

rəngarəng, ən məşhur yerləri olduğunu söyləmiş olsaq, mübaliğəyə yol vermiş olmarıq. Paytaxtın bu məşhur yerləri Azərbaycanın hər bir guşəsində yaşayan minlərlə insanın ömür yaddaşına həkk olunubdur. Onlar burda öz xoşbəxtliklərini, öz gələcəyini, öz həyat peyklərini tapmağa nail olmuşlar.

Ətrafa fikir verin! Gözəl may axşamının, gül-cicək kollarının, rəngarəng işıqların müşayəti ilə nə qədər gənç qoşalaşaraq gəzişir, pıçıldşır, arzu və istəklərini bir-birinə çatdırır. Bəli, bu mənzərə ürək açandır. Ona görə ki, xalqın sabaha ümidi, inamı daha çoxdur. Biz artacağıq, çoxalacağıq, tərəqqi edəcəyik! Deмək xalqımızın gələcəyi, özüdə parlaq gələcəyi artıq bu üfüqlərdə görünür. Bunun üçün yaşamağa, yaratmağa, sevməyə, eşq qazanında bişməyə hər birimizin öz haqqı var.

Əziz oxucu! Siz də, buna qoşulun. Eşq-məhəbbət macarası özünü çox gözlətməyi xoşlamır. Yalnız bu təqdirdə hər tərəf yaşıl, mavi və işıqlı ola bilər. Bu arzulardan kənarda qalmayın ...

«Şiveyi-mehrü məhəbbət rəsmü rahimdir mənim.» (20)

Məqalənin əvvəlində və sonunda gətirdiyimiz hər iki iqtibasda bir daha epiqrafın müəllif fikir və arzularının gizli məqamlara toxunduğunun şahidi olduq. Arif insan məqalənin başlanığıcında epiqrafı, sonunda isə misranı oxuyarkən söhbətin nədən gedəcəyini yaxşı anlayır və bir daha sevginin, eşqü-məhəbbətin canlı naləsinə inandığını, onun bir hissəsi olduğunu gözəl başa düşür.

10.EPİTAFİYA

Epitafiya-yunan sözü olan «Epitafios» məfhumundan götürülmüşdür və «qəbirüstü» mənasını bildirir. Bu kiminsə ölümü münasibəti ilə hazırlanmış kəlam, ifadə və qəbirüstü yazı üçün istifadə olunan formadır.

«Qədim Yunanıstanda Vətən uğrunda şəhid olanın bir ili təntənəli surətdə qeyd olunardı və bu mərasimdə rəhmət duası oxunardı. Prosesin bu forması epitafiya hesab olunurdu.» (18)

Üslublaşdırılmış poeziyada epitafiya paneqrikə (mədhiyyəyə) və yaxud epiqramma (klassizm dövründə) oxşar satirik tərkibli müstəqil janrdır. «Qədim Yunanlarda epitafiya nəsr və yaxud nəzm şəklində qəbirüstü abidə də, ictimai binanın fasadında vurulmuş barelyef də, daş, dəmir, ağac lövhəcik üzərinə yazılaraq başqa yerlərdə vurulurdu. Antik poeziyada çoxda böyük olmayan şer parçaları, ifadələr hekzametr (yunanlarda şer vəzni) və pentametr (beştaktlı şer) formasında yazılırdı və nəticədə satirik məziyyət daşıyırdı.» (168)

Epitafiya əksərən, çox da böyük olmayan şer parçası ilə ifadə olunur ki, burda da adətən ölənə müraciət əsas yer tutur. Məsələn,

«Lazımsız mübahisələr qoy qalsın kənarda,
O, özü artıq hər şeyi sübuta yetirdi.
O, reallıqdan əl çəkib əbədi dağa getdi.
Bu sonsuz sərbəstlik və həm də ki, azadlıqdır,
Günahsızlığını ürəyinin əsri etdi.» (Naməlum)

Qəbirüstü yazı real olduğu qədər, saxta və yalan da, ola bilər. Mümkündür ki, dəfn olunmuş şəxslə onun baş daşına yazılan yazı arasında reallıq ya şişirdilmiş formada verilsin və yaxud düzgün əks olunmasın və yaxud qeyri dəqiqliyə yol verilsin. Avropa ədəbiyyatında epitafiya müxtəliflik baxımından antik epiqramma (Simonida Keossko, b. e. əvvəl V əsrdə), (166) daha sonralar isə ədəbi-bədii janr kimi orta əsrlərdə məşhurluq qazana bilmişdir. Avropa mədəniyyəti, ədəbiyyatı və incəsənətinin çiçəkləndiyi XV-XVI əsrlər, renessans və klassizm dövründə bu janr tərəqqi etmiş və bundan sonra yavaş-yavaş öz məşhurluğunu itirmiş, danışıqdan tamamilə çıxarılmışdır. Bu baxımdan janrın parodiya və satirik növləri uzun ömürlü olmuşdur. Belə növlər müasir zamanın epiqrammasından ğöz yaxınlığı ilə seçilir. Çağdaş dövrümüzdə epitafiyanın bədii mövcudluğu çox nadir və təsadüfü haldır.

Epitafiya nekroloq kimi dünyasını dəyişən insana ithaf,

həsr olunur. Ancaq nekroloqdan fərqli olaraq epitafiyada dünyasını dəyişən haqqında geniş informasiya verilmir. Beləki, nekroloqda ölən adamın dünyasını dəyişdiyi zamana kimi olan dövrü açıq şərh olunur, yəni onun xəstəliyi, həyat şəraiti, son anları barədə müfəssəl məlumat verilir. Həmçinin, onun yaxşı keyfiyyətləri, insanlara xeyirli münasibəti, dəyərli və təkrarolunmaz şəxsiyyət olması, o cümlədən yaradıcılığı, gördüyü işlər, cəmiyyətdə olan nüfuzu və hörməti, tutduğu mövqe, qiymətli ailə başçısı olması və bundan sonra da, xatirələrdə əbədi qalaçağı, bütün kriteriyaları haqqında məlumatlar verilir. Məhz, buna rəğmən nekroloq informasiya, epitafiya isə bədii-publisistik janrına aid edilir.

Materialın bu formada ifadə olunması, bizə, hüzn və dəfn mərasimində mərhumun yaxın və qohumları, həmçinin «ictimaiyyət təmsilçiləri» tərəfindən yazılmış çıxışı xatırladır. Hərgah ki, yazılmış materialın üstünlüklərindən danışası olsaq, deyə bilərik ki, mərhum üçün hazırlanmış çıxış hərtərəfli olur, o dünyasını dəyişən haqqında geniş və obyektiv məlumat daşıyır. O cümlədən, əgər epitafiya-monoloq şeir formasında ifadə olunursa, onda daha çox qiymətləndirici tərz, böyük təmkin və ardıcıl üslub əsas yer tutur və müəllifin yüksək coşğunluğu, təmtəraqı hesabına başa gəlir.

Epitafiya jurnalistika aləmində həm də, qiymətləndirmə, dəyərləndirmə janrı kimi qəbul edilir. Bu mənada, epitafiya bir çox başqa janrlarla, məsələn, kommentariya, tənqidi məqalə, resenziya ilə «bir cərgəyə» qoyulur.

Eh! Gözəl sevgilim!...
Sənsiz nə gecəm var, nə də gündüzüm,
Sənsiz bir qürbətdir, mənə bu dünya.
Gəzməyə halım yox, deməyə sözüm,
Bir sonsuz nifrətdir, mənə bu dünya. (V. Həsənoğlu.)

11.LƏTİFƏ (ANEKDOT)

Lətifə (anekdot) nədir? İnanıram ki, müasir zamanda bunu bilməyən insan tapılsın. Bu, ən geniş formada yayılmış, hazırcavablığı və ağıllığı (qısa zrafat, gözlənilməz tərkib, tez dəyişən sonluq, məntiq, mini hekayə) özündə əks etdirən, əsasən də, yaxın və yığcam adamların dairəsində əlaqə, ünsiyyət yaradan, hətta onsuz dialoqun təsəvvürə gəlməsi mümkün olmayan bədii-publisistik janrdı.

Lətifə-anekdot fransız dilində ki, «anecdote» (nağıl, hekayə, uydurma) və yaxud yunan sözündə olan «to avekdotos» (nəşr, elan, dərc edilməmiş) sözlərindən yaranmışdır. Biz isə bundan sonra, apardığımız araşdirmada doğma ana dilində səslənən lətifə məfhumundan bəhrələnəcəyik.

Arxeoloqların qazıntilar zamanı üzə çıxardığı və taixçilər tərəfindən araşdırılaraq ərsəyə gətirilən saxsı freska (divar naxışı) və əşyalar üzərində olan yazılardan məlum olmuşdur ki, ən qədim lətifələr Şumerlər tərəfindən yazıya alınmış və dövrümüzə qədər gəlib catmışdır. Tədqiqatlar sübut edir ki, bu lətifələrin tarixi b. e. əvvəl 1900-1600-cü illərə aiddi. Qədim Misir lətifələrinin birində deyilir: «Əgər faraon darıxırsa onu necə əyləndirmək olar? Gənc qıza balıq torundan hazırlanmış kostyum geyindirib, onu qayığa mindirmək lazımdır. Sonra isə bu qayığı suya braxmaq gərəkdir. Onda faraon da, mütləq balıq ovuna gedəcəkdir.» (166) Bu lətifənin 3000 ildən çox yaşı olduğu iddia edilir.

«Qeyd edək ki, müasir formada şərh olunan lətifə (XIX əsrin ortalarında), hər şeydən əvvəl real hadisələrə əsaslanmır və qeyri-adi, paradoksal, qəribə sonluğa malikdir ki, o da yumor effekti yaradır. Lətifə mahiyyət etibaı ilə təəccüblü, çox qəşəng, çox gözəl və yaxud əyləncəli, məzəli və yığcam ifadə olunan kiçik hekayədir.» (23)

Lətifələr yalnız onlara xas olan formada davam edir və sonda gülüş yaradır. Burda sözlə oyun, sözlərin müxtəlif anlayışda başa düşülməsi, assosiyası və əlavə biliklərə ehtiyacın olması:

sosioloji, tarixi, coğrafi, ədəbi və sair istiqamətlərdə hərəkət etmə, əhəmiyyətli rol oynayır. Odur ki, lətifələr bütün hadisə və vəziyyətlərə cavab verir.

Sözsüz ki, bütün lətifələrin müəllifləri var, lakin təəssüflər olsun ki, çox böyük hallarda onların isimləri məlum deyil və bu balaca və yığcam hekayələr ikinci, üçüncü... onuncu şəxslərin vasitəsi ilə nağıl olunur və yayılır. Dövlətin Kütləvi İnformasiya Vasitələrinə qarşı tətbiq etdiyi senzura nə qədər möhkəm və ciddi olarsa, lətifələr bir o qədər anonim-imzasız və adsız olacaqdır. İnsan fəaliyyətinin elə bir sahəsi yoxdu ki, oranı lətifə əhatə etməsin.

Lətifə insanlar arasında elə bir ünsiyyət vasitəsidir ki, müxtəlif xüsusiyyətə, təbiətə malik olan hər bir adam onu dinləməyə və zövq almağa hazırdı. Bu janr onu dinləyənlərə gülüş bəxş edir və onların çöhrəsində təbəssüm əmələ gətirir.

Bədii-publisistikanın janrları arasında lətifə həm özünün qədimliyi və həm də bütün zamanlarda məşhur, işlək janr olması ilə fəxr edə bilər. Azərbaycan mətbuatında lətifə janri keçmiş vaxtlardan «Molla Nəsrəddin»in adı ilə bağlı olmuş və bu sahədə özünə layiqli yer tutmuş, qədim və zəngin milli ənənə, Şərq çalarları onun əsas tərənnüm obyekti olmuşdur. Bununla yanaşı, Azərbaycanın qədim bölgələrindən sayılan Şəki, nəinki ölkəmizdə, hətta çox-çox uzaqlarda öz şirin, duzlu, məzəli, aktual, günün tələblərinə cavab verən lətifələri ilə şöhrət qazanmışdır. Şəkinin Bolqarıstanın Qabrovu vilayəti ilə qardaşlaşması Azərbaycanın beynəlxalq aləmdə lətifə ölkəsi kimi məşhurlaşmasından xəbər verir.

Bədii-publisistikanın bu janrı, Azərbaycanda ictimai-siyasi mübarizə, qadın-insan hüquq və azadlıqlarinin bərpa, haqq-ədalət prinsipinin bərqərar olması, xalqın özünü dərk etməsinin başlanğıcında durmuş və onun lokomotivi olmuşdur. Ümumiyyətlə, lətifə tibb elminin terapiya növü kimi qəbul oluna bilər. Bu, daha çox sağ qalmaq, sağalmaq, yaşamaq prinsiplərini özündə cəmləyir və məlhəm funksiyasını yerinə yetirir. Başqa bir tərəfdən isə var qüvvəsi ilə çalışır, qoçaq və fədakərcəsinə

mübarizə aparır.

Adətən bir qayda olaraq lətifənin qəhrəmanları ağıllı, müdrik, hazırcavab və yaxud qanmaz, kütbeyin, fərasətsiz, axmaq olurlar. Bu nöqteyi-nəzərdən bizim milli lətifələrimizdə azərbaycanlı mentaliteti, xüsusiyyəti, psixologiyası, həmçinin onun rəngarəng cizgiləri açıq-aydın görünür. Sözsüz ki, biz özümüz bu qrup insanların ümumiləşdirilmiş, eyniləşdirilmiş surətləriyik. Buna görə də, lətifə insanları qıcıqlandırmır, əksinə, güldürür. Çünki hər bir şəxs, nisbətən də olsa özünü lətifənin «qəhrəmanlarına» oxşadır, özünü orda görür və hiss edir, onlarla bir sırada dayanır.

Fikirləşmək, düşünmək, anlamaq üçün vaxt ayırmırıq, fərasətsizlik edirik və reallığa hucum çəkirik, cumuruq... Nəticədə səhvə, biabırçılığa və rüsvayçılığa şərait yaradırıq... Burda həm gülüş, həm qəbahət, həm günah, həm qüsur... və başqa şeylərlə qarşılaşırıq. Biz azərbaycanlılar lətifə üçün könlümüzü verməyə hazır olsaq da, onun özümüzə istiqamətlənməsinin tam əleyhinəyik. Amma lətifə danışmağa daima hazırıq-özüdə ikincidən sonra, üçüncüdən əvvəl.

Məlumdur ki, lətifələr müxtəlif olur. Məsələn, böyüklər, qadınlar, uşaqlar üçün, siyasi və s. Onları əxlaqi baxımından ədəbli, ədəbsız, biabırçı, heyvərə və sair kimi sintez edərək qruplaşdırmaq, toplamaq, cəmləmək olar. Bu günkü mətbuat səhifələrində, Şərqin müdrik ağsaqqalı «Molla Nəsrəddin»i, şəkililərin hazırcavab «Hacı dayı»sı və cənub bölgəsinin «Balaəmi»si əvəz edir. «Div», «Dovşan», «Leylək», «Hacıleylək», «Timsah» və s. canlılara həsr olunmuş uşaq lətifələrinə də çox tez-tez rast gəlmək olur. Lətifə janrına belə bir prizmadan yanaşmış olsaq, deyə bilərik ki, bunların hamısında gülüş, ironiya, sarkazm mövcuddur və hər birinin özünəməxsus sətraltı mənası var, yəni çəkic bir zindana vurur.

Lətifələrin mətbuat səhifələrində geniş yayılması üçün söz azadlığının, demokratiyanın böyük və mühüm rolu danılmazdır. Beləki, son yüz ildən artıq keçən bir zaman kəsiyində bunun nə olduğunu anlamağa kifayət qədər dəlil-sübut, həmçinin

imkan olubdur. XX əsrin əvvəllərində Çar Rusiyasının laxladığı, Azərbaycanda mətbuatın təşəkkül tapdığı bir zamanda «Molla Nəsrəddin», «Mirat», «Kəlniyyət», «Tuti», «Zənbur», «Tartan-partan», «Leylək», «Arı», «Məzəli», «Babayi-Əmir» və başqa bu kimi satirik qəzet və dərgilərin meydana gəlməsi bədii-publisistika janrının tərəqqisinə, o cümlədən onun lətifə növünə qol-budaq açmağa imkan vermişdir. Felyeton, pamflet, satirik kommentariya, parodiya, lətifə və başqa bu qəbildən olan bədii-publisistika janrlar ən geniş yayılan mətbuat nümunələri olmuşdur.

1918-ci ildə müstəqil Azərbaycan Demokratik Respublikasının yaranması mətbuatın qarşısında yeni geniş perspektivlər açmaqla yanaşı, həm də yeni tapşırıqlar qoymuşdur. Sözsüz ki, bütün nöqsan və eybəcərliklər, çatışmazlıq və qüsurlar bu janrın əsas movzusu və obyekti ola biler. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1920 ildə Azərbaycanın Rusiya tərəfindən ilhaq olunması mətbuatın qarşısına dəmir pərdə saldı. Yetmiş bir il «həbsxana» həyatı keçirən Azərbaycan mətbuatı, 1991-cı ildən sonra müstəqillik əldə edərək tam azadlığa çıxdı. Söz azadlığı mətbuatın inkişafını təmin edən əsas vasitələrdən biridir. Kütləvi İnformasiya Vasitələrinə senzuranın tətbiqi yalnız mətbuatın deyil, həm də cəmiyyətin bütün təbəqələrinin əl-qolunu buxovlayır. Düzdür, xalq tərəfindən mütəmadi sevilən lətifələr ən güclü və qorxulu senzuranın kəsə-kəs vaxtında, belə, mövcud olmuşdur. İnsanlar yığcam dairədə, inandıqları, yaxın və doğmalarının əhatəsində lətifə danışmağa və qulaq asmağa cəhd göstərirdilər. Lakin bu kor təbii və pərakəndə xarakter daşıyırdı.

Lətifənin uğurlu alınmasında onu danışan, nağıl edən, söyləyən şəxs aparıcı mövqe tutur. Məlumdur ki, lətifəni danışmaq, əsasəndə, onun effektli alınması üçün, əllərin hərəkəti və sifətin mimikası ilə onu müşayət etmək olduqca çətin və hər kəsə nəsib ola bilməyən əlamətdir. Bütün bunları məşhur aktyorların ifasında teatrda, mavi ekranda görmək və yaxud efirdə dinləmək daha məntiqli olur. Çağdaş dövrümüzdə İlham Namiq

Kamal, Yaşar Nuri, Telman Adıgözəlov və başqaları bu işin öhdəsindən layiqincə gələ bilirdilər. Odur ki, dövri mətbuatda yazılan lətifə radio, televiziya və teatr lətifəsinə uduzur.

Qəzet və jurnal səhifələrində lətifəyə rast gələndə, heç də demək olmaz ki, bu jurnalistika janrıdır. Günki, çox az hallarda jurnalistin yaradıcılığında bu janrın yer almasının şahidi oluruq. Əksər hallarda mətbuat orqanında dərc olunan lətifələr ya hansısa məcmuədən götürülür, ya da ki, oxucular onları redaksiyaya ünvanlayırlar. Hərdən elə olur ki, lətifənin bir hissəsi dəyişdirilir və onu müasir zamana uyğun çalarlar əlavə etməklə yeniləşdirirlər. Belə lətifələrə yurnalistikada «ikinci» növ lətifələr deyilir. Bu ondan xəbər verir ki, lətifənin orginal ədəbi hissəsi saxlanılmaqla, o dəyişdirilərək yeniləşdirilir. Amma bu yeni lətifə sayilmır, yəni «ikinci» növ olur. Yaradıcılıq nəticəsində işlənmiş bu cür əsər, ilk əsasını və janrın vacib elementlərini qorumaqla yaradılır. Müəyyən mənada, bunu şərti olaraq jurnalistin janrı adlandırmaq olar, bir sözlə lətifə onun «kök» adını daşısın.

Radio, televiziyanın efir və ekranında, qəzet və jurnalların başlanğıcında süjet xətti formasında çıxış üçün lətifələrdən geniş istifadə olunur. Bu cür qarışıq formadan jurnalist dairələrində, məsələn, reklam yaradıcılığında, «piar» əsərlərdə istifadə olunur.

Dövri mətbuat səhifələrində dərc olunan lətifələr müəyyən formada müəllifin özünün şəxsi senzurasından keçməlidir. Onda lətifələr, daha tez-tez rastlaşdığımız yığcam əhatə dairəsi və şəxsi münasibətlər üçün nəzərdə tutulmuş bəzi neqatıv əlamətlərdən, hər şeydən öncə-bayağı, kobud, şit, ədəbsiz və əxlaqsız ifadələrdən uzaq ola bilər. Bundan başqa, lətifə dərrakə, fikir, anlayış baxımından yeni və daha böyük oxucu auditoriyası üçün nisbi xarakter daşımalıdır. Ona görə ki, «saqqallı» (162) lətifə nəşr olunan mətbuat orqanını, bütövlükdə redaksiyanı hörmətdən, nüfuzdan, etibardan sala bilər.

Ceyran Günəş.
Lətifə çələngi.

Restoranda nahar edib çıxan müştəridən ofisiant soruşur:
-Nahar xoşunuza gəldimi?
-Əgər bulyon pivə kimi isti olsaydı, daha çox xoşuma gələrdi,-deyə,-cavab verir.

***

Kafeyə daxil olan müştəri ofisiantı yanına çağırır və kofe sifariş verir. Bir müddət keçdikdən sonra ofisiant kofeni gətirib müştərinin masasının üzərinə qoyur. Müştəri kofenin dadına baxan kimi əsəbləşir və ofisiantı yanına çağırıb deyir:
-Siz mənə nə gətirmisiniz? Kofe, yoxsa qab suyu?
Ofisiant cavab verərək deyir:
-Bəyəm siz fərqləndirə bilmirsiniz?
-Müştəri, yox,-deyə,- cavab verir.
Ofisiant cavabında deyir:
-Onda bunun nə əhəmiyyəti var ki,..

***

Dəmir yolu vağzalındakı restorana gələn müştəri ofisiantı yanına çağırıb hansı yeməklərin olduğunu soruşur. Ofisiant beş dəqiqə yeməklərin adını sadalayır. Amma müştərinin yadında yalnız kotlet qaldığından, onu da sifariş verir. Bir xeyli vaxt keçdikdən sonra ofisiant müştərinin sifarişini yerinə yetirərək yeməyi onun qarşısındakı masanın üzərinə qoyur və nuş olsun deyib gedir. Həvəslə yeməyə başlayan müştəri yeməyi tez yeyir və ofisiantı yanına çağırıb pulunu ödəyir. Bu zaman ofisiant müştəridən soruşur:
-Kotlet xoşunuza gəldimi?
-Kotlet xoşuma gəldi, amma həddən artıq balaca idi, -deyə, -müştəri cavab verir.
Ofisiannt müştəriyə cavab verərək deyir:
-Biz kotleti ona görə balaca hazırlayırıq ki, müştərilərin başı yeməyə qarışıb qatara gecikməsinlər.

* **

Restorana gələn müştəri ofisiantı yanına çağırıb deyir:

-Xahiş edirəm, mənə yaxşı ətdən hazırlanmış, yüngülvari qızardılmış, kifayət qədər yumşaq olan bir porsiya bifşteks gətirin. Daha yaxşı olardı ki, cavan dana ətindən olsun...

Bunu eşidən ofisiant nəzakətlə müştərini məlumatlandırır:

-Dananın cinsini və qan qrupunu da, desəniz daha yaxşı olardı...

* **

Sovetlər vaxtı Şəkidə zona müşavirəsi keçirilir. Bakıdan gələn Mərkəzi Komitənin katiblərindən biri çıxışında tez-tez amerikalılara çatmağı, hətta onları ötüb keçməyi əsas vəzifə kimi kənd təsərrüfatı işçilərinin qarşısına bir vəzifə kimi qoyur. Bu zaman zalda əyləşənlərdən biri əlini qaldırıb söz istəyir. Ona sözünü deməyə icazə verirlər.

O, deyir:

-Hörmətli cənab məruzəçi! Mən sizinlə tamamilə şərikəm ki, amerikalılara çataq, amma onları ötüb keçməyin tərəfdarı deyiləm.

Katib ondan soruşur:

-Nə üçün amerikalıları ötüb keçməyin tərəfdarı deyilsən?

O, cavabında deyir:

-Axı, onları ötüb keçsək şalvarımızın yamağı görünər... (zalı gülüş və qəh-qəhə bürüyür)

12.ZARAFAT

Zarafat nədir? Əgər bu sözə şərh vermiş olsaq, deyə bilərik ki, bu əyanilik baxımından kimisə aldatmaq məqsədi ilə yaradılmış gülüş vəziyyət, hərəkət və yaxud xəbər, məlumatdır. İstər publisistikada, istərsə də, insanlar arasında zarafat çox tez-tez rast gəlinən janrdır. Adətən lazım olan məqamda mətnə və yaxud mövzuya fraqment formasında zarafat əlavə edirlər. Bəzən elə hallar olur ki, qəzet və jurnal səhifələrində olan

zolaqlarda müstəqil janr kimi zarafatdan istifadə olunur. Bu anda masa üzərinə belə bir sual çıxır. Nə üçün, məhz zarafat bədii-publisistikaya aid edilir, başqa janrlara yox?

Burda, əsas məqsəd ondan ibarətdir ki, «zarafat» adlandırdığımız mövzu və yaxud mətn müəllifin fantaziya, xülya, güman və uydurmasının məhsulu kimi törəyir, başa düşülür. (162)

Müəllifin özünün iştirak etmədiyi, ancaq xəbəri danışıq və yaxud eşitmə nəticəsində üçüncü, dördüncü və sair mənbədən alması əsasında əsassız ehtimal, güman, xəyal və uydurma formasında yenidən qurması publisistikanın başqa janrları kimi istifadə olunur. Bu halda məlumatın, hadisənin, xəbərin əsasını dəyişə biləcək əsas təfsilat və təfərrüatları yox, ikinci dərəcəli xırdalıqları dəyişmək mümkün olur.

Əgər müəllif qarşısına oxucunu əyləndirmək məqsədi qoyursa, onda müəllif bunun xatirinə mistifikasiya, uydurma, yalana (zarafata) əl atmalı olur ki, nəticədə material başdan ayağa icad, ixtira, uydurma, qondarma olur. Əgər bu, doğrudan belədirsə, onu müstəqil jurnalistika janrına aid etmək olar. Qəzet və jurnal səhifələrində verilən zarafat hər şeydən əvvəl iki əsas məqsədi qarşısına qoyur və onları izləyir. Bunlardan birincisi oxucunu əyləndirməkdirsə, ikincisi oxucu ilə oynama kimi qəbul oluna bilər.

Uğurlu zarafat bu və yaxud başqa mətbuat orqanının hər bir oxucusu üçün nəzərdə tutulur, hesablanır ki, bunu da müasir jurnalistikada çox az, hərdən bir, nadir hallarda görmək mümkündür. Məsələ ondadır ki, bu janrdan istifadə edən publisist çalışır ki, oxucu onun istəyini tez anlaya bilməsin. O, bu məqsədini ört-basdır etmək üçün nisbətən daha doğru məqamlara toxunur və yaxud işıqlandırdığı mövzunun həqiqətə daha uyğun olmasına çalışır. Müəllif mövzunu inandırıcı vermək məqsədilə, bütün mümkün rəqəm, fakt, arayış, çıxarış, dosyelərdən istifadə edir və ictimaiyyətdə daha böyük nüfuza malik olan insanların fikirlərinə istinad edərək arqumentlər gətirir və bunların əsasında əsərini yaradır. Bu cür ədəbi priyomlar oxucu auditoriyasının mövzuya olan inamını artırır.

Bütün bunlarla yanaşı nəzərə almaq lazımdır ki, bu gün müasir radio dinləyicisi, televiziya tamaşaçısı, mətbuat oxucusu elə bir ölkədə, elə bir zamanda yaşayır ki, o müxtəlif istiqamətli ən inandırıcı, yaxud ağla gəlməyən, inanılmaz, fövqəladə xəbər və məlumatlara inanmaq məcburiyyətində qalır. Buna görə də, onlar jurnalistin «fantastik» fikirlərini, onun uydurma, xəyal və mistifikasiyasını gözləmədən ona təklif olunan informasiyaya inanırlar. Lakin elə oxucular da var ki, onları nəinki jurnalist fantaziyasına, hətta həyatda baş vermiş həqiqi hadisə və proseslərə inandırmaq, heyrətləndirmək, təəccübləndirmək qeyri-mümkün olur.

«Zarafat» janrı ilə bağlı gətirdiyimiz misal yuxarıda söylədiklərimizə tutarlı nümunə ola bilər. Bu yazıda, «Leyli və Məcnun» məhəbbət əfsanəsinin qəhrəmanları: Leyli və Məcnunun əslən Bakının «Şıx» çimərliyinə yaxın ərazidə doğulması, onların dəniz kənarında ilk dəfə görüşməsi, sonra sahildə dayanan qayığa minərək gəzintiyə çıxması və küləyin başlanması nəticəsində gedib Ərəbistan sahillərinə çıxması, həmçinin beynəlxalq axtarış nəticəsində tapılaraq geri qaytarılması, valideynlərinə verilməsi, bundan sonra onların nəsilləri arasında ədavətin yaranması, o cümlədən Leylinin başqasına ərə verilməsi və Məcnunun Xəzər dənizinin sahilində qumluqda həlak olması, orada dəfn olunması bildirilir. Bir müddətdən sonra Leylinin bu dəhşətli faciəni eşitməsi, Məcnunun qəbrini ziyarət gəlməsi və orada ürəyi partlayaraq ölməsi və hər ikisinin «Şıx» çimərliyindən təxminən on iki kilometr cənub istiqamətində, dənizin sahilində dəfn olunmalarının rəvayət edilməsi oxucularda müəyyən fikir formalaşdıra bilər. Məqalənin sonunda bunun elmi tədqiqatlar nəticəsində bu yaxınlarda kəşf olunaraq öz təsdiqini tapması fikrini söyləməyimiz, sözsüz ki, oxucunu sərbəst buraxa bilməzdı. Məqalənin sonunda bilərəkdən saxladığım telefon nömrəsinə olan çoxsaylı zənglər bu fikri söyləməyə bizə imkan vermiş və arqumentləri təsdiq etmişdir. İnsanlar zəng edərkən bunun həqiqətə nə qədər uyğun olması və məzarın harada yerləşməsi ilə daha çox maraqlanmışlar.

Məqalənin bir çox faktlar əsasında tərtib olunması, ona «zaman və məkan» anlayışından baxılması, müasir dövrlə əlaqələndirilməsi, təsdiqlənməsi və yeni formada verilməsi cəmiyyətdə birmənalı qarşılanmamışdır. Kimisi ona inanmış, kimisi tərəddüd içində qalmış, kimisi isə inanmamışdır. Yalnız müəyyən bir qrup oxucu yazını zarafat kimi qəbul etmişdir. Sözsüz ki, yazının gülüş günü hesab olunan 1 aprel tarixində dərc olunması, bu tarixi gözdən qaçırmayanlarda gülüş hissi oyatmış, onları əyləndirmiş və bunun bir zarafat olduğunu təsdiqləmişdir.

Jurnalist və publisistlər yaxşı bilirlər ki, ciddi yazılmış hər bir publisistik zarafatı bütün oxucular özləri üçün tamam aydınlaşdıra bilmirlər. Bu nöqteyi-nəzərdən zarafat yazan müəllif mətnin müəyyən yerlərində «mayak»lar (162) qoyur ki, bu da oxucuya məsələnin mahiyyətini müəyyən etməyə və onun daxilinə girməyə kömək olur və əsərin hansı məqsədlə yazılması haqqında fikir formalaşdırır.

Məsələn, «Leyli və Məcnun»: mistifikasiya və reallıq» adlı məqalədə müəllif onların, yəni Leyli və Məcnunun mindiyi qayığın külək vasitəsi ilə Ərəbistan sahillərinə gedib çıxmasını göstərir. Halbu ki, onda Volqa-Don kanalı yox idi, beynəlxalq axtarışa verilməsi həmin zaman kəsiyində mövcud deyildir. Bu həm məntiqi, həm də statistik baxımdan mənasız, həmçinin gülməli görünür və qəbul olunmazdır. Bu yalnız köhnə lətifələrdə olduğu kimi fabula, kalambur, cinas və sair nöqteyi-nəzərdən doğru ola bilər.

Burda bir məqamı xüsusi ilə qeyd etmək lazımdır ki, istifadə olunma göstəricilərinə görə mistifikasiya dövri mətbuat janrı olmaqla yanaşı, səsli-görüntülü elektron jurnalistikadan bir xeyli geri qalır. Bu ona görə belədir ki, hər hansı bir televiziya kanalı həqiqətə uyğun olmayan hər hansı hadisəni, həqiqətən olmuş hadisə kimi geniş göstərmək imkanlarına malikdir. Hadisəni məharətlə hazırlayıb həm göstərmək, həm də səsləndirmək istər-istəməz tamaşaçıda inam hissi yaradır. Digər bir tərəfdən tamaşaçının gözündən yayınan «mayak»lar bir daha

təkrarən göstərilmir və hadisələr müəyyən zaman kəsiyində ardıcıllıqla bir-birini əvəzləyir. Dövri mətbuatda isə bu prinsip tamamilə başqa formadadır. Beləki, oxucu mətni bir neçə dəfə oxuya, gözdən keçirə, mübahisə predmetinə çevirə bilər və publisistin qoyduğu «mayak»lar və yaxud istifadə etdiyi priyomlar vasitəsi ilə yazının zarafat olduğunu anlaya bilər.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu). Leyli və Məcnun: mistifikasiya və reallıq.

Bu yaxınlarda, Azərbaycan arxeoloqları, tibbi-ekspertiza komissiyası və ədəbiyyatşünas tədqiqatçılar uzun müddət birgə apardıqları elmi və fiziki əməyin sayəsində, əsrlərlə ictimaiyyəti, həmçinin fərdi qaydada hər bir kəsi düşündürən, maraqlandıran Yaxın Şərqin, o cümlədən Azərbaycanın ən qədim məhəbbət dastanlarından biri sayılan «Leyli və Məcnun» rəvayətinin doğruluğunu sübut edən faktlar və arqumentlər əldə etmişlər. Sevindirici haldır ki, dəlil və sübutlar bu böyük məhəbbət dastanının Bakı şəhərinin cənubunda, indi ki, «Şıx» çimərliyinə yaxın olan ərazilərdən birində olmasını təsdiqləyir. Bu maraqlı araşdırma ilə bağlı mətbuat klubunda filologiya elmləri doktoru, professor Qasım Əliyev, tibb elmləri doktoru, professor Mirzə Həmzəyev və tarix elmləri doktoru, professor Aydın Tağızadə birgə mətbuat konfransı keçirmiş və cəmiyyətə müfəssəl məlumat açıqlamışdılar.

Araşdırma ilə bağlı məlumat verən alimlər gətirdikləri fakt və arqumentlərin sırf elmi və tarixi əsaslar üzərində qurulduğunu kütləvi informasiya vasitələrinin diqqətinə çatdırarkən, subyektiv fikirlərdən yan keçməmişdilər. Mətbuat konfransını giriş sözü ilə açan filologiya elmləri doktoru, professor Qasım Əliyev demişdir: «Hamınıza yaxşı bəllidir ki, Azərbaycanda bizim eranın beşinci yüzilliyində ədəbi dil formalaşmış, o iri həcmli dastan, nağıl, poemalar qələmə almağa imkan vermişdir. Bircə onu demək kifayət edər ki, 1300 il bundan əvvəl yazılan «Kitabi-Dədə Qorqud» dastanı dünya ictimaiyyətinə bunun doğru olduğu-

nu sübut etdi. O ki, qaldı «Leyli və Məcnun» məhəbbət dastanının Yaxın və Orta Şərqdə belə geniş yayılmasına və məşhurlaşmasına, bunu o zaman ki, «İpək yolu»nun Azərbaycanın ərazisindən keçməsi ilə əlaqələndirmək daha düzgün olardı. «Leyli və Məcnun» poeması heç də, ilk vəziyyətində bizə gəlib çatan Nizami Gəncəvinin və Məhəmməd Füzulinin əsərləri səviyyəsində və həcmində olmamışdır. Əlyazması şəkilində çoxaldılaraq kiçik kitab formasına salınan bu məhəbbət əfsanəsi zamanının tacirləri tərəfindən alınıb uzaq ölkələrə aparılmış və başqa Qərb ölkələrindən gətirilən kitablarla bərabər gəlir məqsədi ilə satılmışdır. İstərdim ki, bir vacib məsələni sizin diqqətinizə çatdırım. Qeyd etdiyimiz kimi «Leyli və Məcnun» məhəbbət dastanı bizim böyük klassiklərimiz kimi başqa millətlərin ədibləri tərəfindən bu miqyasda, bu səviyyədə (yəni N. Gəncəvi və M. Füzulinin poemaları nəzərdə tutulur: V. P.) işlənməmiş, öz layiqli dəyərini tapmamışdır. Poemanın mövzusunun Azərbaycanla bağlı olması, azərbaycanlı N. Gəncəviyə və M. Füzuliyə əlavə güc, həvəs və maraq vermişdir ki, belə yüksək dünya səviyyəli əsərin ortaya çıxmasına nail olsunlar. Sonda demək istəyirəm ki, mövzunun mayasının Azərbaycan həyatından götürülməsi və azərbaycanlı şairlər tərəfindən işlənməsi əsərin yaranması ilə vəhdət təşkil etmiş, bu cür poemanın ərsəyə gəlməsinə səbəb olmuşdur.»

Mətbuat konfransının aparıcısı maraqlı və geniş məzmunlu fikirlər söylədiyinə görə professor Qasım Əliyevə minnətdarlıq etdikdən sonra, çıxış üçün sözü tarix elmləri doktoru, professor Aydın Tağızadəyə verir.

Çıxışına təbriklə başlayan Aydın müəllim deyir: «Hörmətli mətbuat işçiləri! Mən sadəlövhlükdən çıxışıma təbriklə başlamadım. Belə bir elmi araşdırmanın masa üzərinə gəlməsi üçün Azərbaycan elmini, bütövlükdə, ictimaiyyəti təbrik etməyə dəyər. İndi isə keçək əsas məsələyə və tarixi faktlara. Arxeoloji qazıntılar zamanı Leyli və Məcnunun məzarından çoxsaylı məişət, o cümlədən hər iki şəxsə aid olan bəzək-ziynət əşyaları tapılmışdır. Tapıntılar üzərində aparılan elmi tədqiqatlardan bəlli olmuşdur ki, bu əşyalar bizim eranın 640-650-ci illərini

əhatə edir. VII əsrə aid ərəb qaynaqlarında Azərbaycanla bağlı maraqlı bir məlumatda deyilir ki, beşinci ərəb xəlifəsi I Müaviyə (611-680) öz müşaviri Übeyd ibn Şəriyyə ilə söhbətində soruşur: «...Sən Allah, Azərbaycan haqqında əlaqəniz, təlaşınız və xatirəniz nədir? O, deyir (Ü.Şəriyyə cavab verir. -V. P.) «Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər.» Bu misalı mən ona görə gətirdim ki, çoxları elə bilir ki, poemada baş verən proseslər hansısa bir ərəb torpağında cərəyan edir. Bu tamamilə yanlış fikirdi. Çünki məzardan tapılan əşyalar bizə imkan verir ki, hadisənin Azərbaycanda, Bakı yaxınlığında baş verməsini əminliklə təsdiq edək. Doğrudur, bu iki növcavan arasında baş verən məhəbbət salnaməsində Ərəbistanın da, öz yeri var. Beləki, Xəzər sahilində ilk dəfə görüşən Leyli və Məcnun özləri də bilmədən sahildəki qayığa minirlər. Qəflətən başlayan külək gəncləri dənizin dərinliklərinə aparır. Bir neçə gün ac-susuz qalan və taqətlərini, həmçinin huşunu itirən Leyli və Məcnunun olduqları qayıq nəhayət ki, qumlu bir səhrada sahilə atılır. Burda, balıqçılıqla məşğul olan insanlar onları götürüb evlərinə aparırlar. Bir neçə gündən sonra onlar yavaş-yavaş özlərinə gəlməyə başlayır. Bu müddət ərzində uşaqlarının itdiyini güman edən Leyli və Məcnunun valideynləri Qırmızı Xaçın vasitəsi ilə Beynəlxalq Təşkilatlara müraciət edirlər. Təxminən bir neçə aydan sonra Ərəbistan çöllərində ərəb balıqçıları tərəfindən tapılan hər iki gənc Bakıda valideynlərinə təhvil verilir. Bundan əsəbiləşən Leylinin atası qızını tələm-tələsik başqasına ərə verir. Sonrası barədə Mirzə müəllim sizi məlumatlandıracaqdır.»

Aydın müəllimə öz təşşəkürünü bildirən aparıcı bu maraqlı yeniliklə bağlı mətbuat konfransını yekunlaşdırmaq üçün sözü tibb elmləri doktoru, professor Mirzə Həmzəyevə verir. Çıxışına sırf peşəkarlıq prizmasından yanaşan Mirzə müəllim deyir: «Hörmətli jurnalistlər və konfrans iştirakçıları. Məndən əvvəl çıxış edən natiqlər məsələnin tarixi və filoloji bölməsini olduqca dolğun və dürüst fakt və arqumentlərlə dəyərləndirdilər. Odur

ki, mən yalnız tibbi komissiyanın gördüyü işlər haqqında sizə məlumat verəcəm. Bildiyiniz kimi, bu böyük məhəbbət poemasının qəhrəmanları olan Leyli və Məcnunun eşq macərəsi faciəli sonluqla başa çatmışdır. Sevgilisinin (Leylinin: -V. P.) başqasına ərə verilməsinə dözməyən aşiq (Məcnun:-V . P.) bütün gecə və gündüzünü dənizin kənarındakı qumlu səhrada dolanmaqla keçirmişdir. İstirahətin və normal qidanın yoxluğu sonda onun ölümünə səbəb olmuşdur. Bundan xəbər tutan Məcnunun valideynləri oğlanlarını elə həmin yerdə də, dəfn etmişlər. Bir xeyli zaman keçdikdən sonra Leyli aşiqinin faciəli ölümündən xəbər tutmuş və qulluqçuları vasitəsi ilə onun dəfn olunduğu yeri öyrənmişdir. Günlərin birində imkan əldə edən Leyli evdən çıxmış və Məcnunun qəbrinin üstünə gəlmişdi. Qızmar günəş altında üzun müddət ah-fəğan eyləyən Leylinin ürəyi tab gətirməmiş və sonda o da, faciəli ölümün qurbanı olmuşdur. Məsələdən agah olan Leylinin yaxınları onu da, Məcnunun məzarının yanında dəfn etmək qərarını vermişlər. Sual oluna bilər ki, mən nə üçün və hansı əsaslara istinad edərək bunları söyləyirəm.

Məsələ ondadır ki, tarixçilər tərəfindən hər iki məzarın yeri müəyyən olunduqdan sonra bizim tibbi ekspertiza komissiyasına müraciət olunmuş və bizim iştirakımız ilə qəbrlər açılmış və oradan ekspertiza üçün lazım olan bütün nümunələr götürülərək elmi labarotoriyaya aparılmışdır. Əldə olunan nəticələr onların yaşını, boyunu, milliyyətini, hadisənin baş vermə tarixini, hər iki cavanın qidalanmadan əziyyət çəkdiklərini və onların hər ikisinin gün vurmadan dünyalarını dəyişməsini, həmçinin başqa informasiyaları əldə etməyə bizə kömək olmuşdur. Maraqlı haldır ki, indiki elmi nailiyyətlər məzardan tapılan və ikisinə malik olan zinət əşyalarının üstündə olan tər qatından kifayət qədər dəqiq məlumat almağa xidmət edir. Bəlkə 50-60 il bundan öncə belə bir nəticə əldə etmək çətin, həm də gülüş görünərdi. Amma müasir elmi nailiyyətlərin, nono texnologiyaların, o cümlədən yüksək kompüter texnikasının və kimyəvi

preparatların olması belə bir uğura imza atmağa bizə imkan vermişdir. Hal hazırda Leyli və Məcnunun məzarı «Şıx» çimərliyindən cənub istiqamətinə, təxminən 12 kilometr məsafədə yerləşir və onların qəbirüstü abidələri hazırlanır. İşlər tam yekunlaşdıqdan sonra hər bir şəxs oranı sərbəst ziyarət edə və daha ətraflı məlumat ala bilər.»

Mətbuat konfransının aparıcısı sonda hər üç alimə apardıqları çətin və məsuliyyətli işə, əldə etdikləri informasiyaya və bunları jurnalist həmkarları ilə bölüşdüklərinə görə səmimi minnətdarlığını bildirdi.

Qəzet müasir mətbuat orqanı və informasiya yayıcısı olaraq belə bir vacib məlumatı oxucularının diqqətinə çatdırmağı özü üçün vacib saymış, hətta bu sensasiyalı hadisə ilə maraqlananlar üçün, telefon nömrəsini saxlamaq qərarına gəlmişdir. Həmin nömrəni sizə təqdim edirik. (994-012)-999-98-97.

(*Z*A*R*A*F*A*T*)

13.OYUN

«Oyun» janrının dövri mətbuat səhifələrində möhkəmlənməsi, özünə yer tutması, uzun ömürlü olmasının əsas səbəbi kimi, bu janrın oxucu auditoriyasının əyləncəli informasiyaya olan tələbatını ödəməsi və oxucunun bu tələbata olan «susuzluğunu» tam təmin etməsi ilə bağlamaq olar. (162) Janrın «krossvord», «çaynvord», «tapmaca», «bağlama», «başsındıran» və sair bu kimi oyun növlərinə «qohum» olması oxucudan xüsusi hazırlıq, intellektual səviyyə, təcrübə tələb etmir. Lakin bütün bunlara baxmayaraq bu kimi oyun növlərinin arxasında duran, «gizlənən» açıqlama, məlumat, informasiya, həmçinin şirnikdirici, reaksiyatörədici səbəb, stimul yaratmaq üçün təklif olunan hədiyyə oxucuda bu janra olan marağı qoruyub saxlayır və o, təklif olunan oyun növlərinin cavabını tapmağa səy göstərir.

Oyun cümlədə bədii-fantaziyanın elementlərini özündə əks etdirdiyinə, həmçinin bu mənbədən qidalandığına və tərtib olunduğuna görə bədii-publisistika janrına aid olunur.

Bu janrdan daha geniş formada kütləvi nəşrlərin səhifələrində istifadə olunur. Əsasən, bunu onunla bağlayırlar ki, bu cür kütləvi informasiya vasitələrinin oxucuları öz «qızıl», dəyərli vaxtlarını oyunlarda qarşıya qoyulan problemlərin açılmasına, həllinə sərf edirlər. Bu janrın mütəmadi yer aldığı nəşrlər içərisində dövri mətbuatın xüsusi çəkisi var. Gündəlik kağız mətbuatında dərc olunan oyun növlərinin müxtəlif istiqamətli və müxtəlif biçimli olması xüsusi əhəmiyyət kəsb edir və janra təravət gətirir. Sözsüz ki, bu da oxucu auditoriyasının marağına səbəb olur və onun diqqətindən yayınmır. Janrın rəngarəngliyindən danışarkən onları sadalamamaq mənasız görünərdi. Məhz, bu məqsədlə onları sadalamaq qərarına gəldik. Bu istiqamətlər, məsələn, hər hansı bir bədii kitab (roman, poema, povest) və onun bütün elementləri (kompazısiya, süjet xətti, qəhrəmanlar, məkan, zaman və s.), böyük miqyaslı müharibə (dünya və vətəndaş, planetlər və sivilizasiyalar arası), flora və fauna (bütün canlı aləm), qitələr və materiklər, səyahətnamə, ictimai-siyasi vəziyyət, görkəmli şəxslər, həmçinin rəqəmlər və məchullar, o cümlədən həndəsi fiqurlar və s. ola bilərlər.

O ki, qaldı oyunun növlərinin hansı mətbuat orqanında və necə verilməsinə, bu ilk növbədə mətbuat orqanının cəmiyyətdə tutduğu mövqedən, onun hansı siyasi yönümlü olmasından, əsasən də, oyunu hazırlayan müəllifin qabiliyyəti, səriştəsi, bacarığı və intellektual səviyyəsindən və şəxsi fantaziyasından asılıdır. Bu mənada təcrübi baxımdan bir nümunəyə müraciət etməyə dəyər.

Ceyran Günəş.
Qeyri-adi nazirlər.

Azərbaycanda qeyri-adi, təəccüblü nazirlər çoxdur. Bunu hər bir azərbaycanlı öz şəxsi həyatında təsdiqləyə bilər. Azərbaycanda belə nazirləri «barmaqla» göstərirlər və ona görə də bütün reytinq cədvəllərində onların adları siyahının aşağı hissəsindən birinci yerdə olur.

Hörmətli oxucular! Məhz bunu nəzərə alaraq həmin nazir-

lərdən ikisi ilə bağlı olan «başsındırmanı» sizə təqdim edirik. Redaksiyamıza tez və düzgün cavab yazan oxucu xüsusi hədiyyə ilə mükafatlandırılacaqdır. Odur ki, diqqətli olun.

May ayının əvvəlində, Antikorrupsiya Komissiyasının sədri Əcəl Əcəlov nazır Əhmədli və nazir Məmmədlini onun yanında keçiriləcək müşavirəyə dəvət edir. Antikorrupsiya Komissiyasının sədri dəvət olunanların hamısının gəldiyini görüb müşavirəni açıq elan edir və söhbətə başlayaraq deyir:

-Hörmətli dostlar! Əgər yadınızdadırsa keçən görüşümüzdə, sizə dönə-dönə tapşırmışdım ki, rüşvəti az-az alın, çünki şikayətlər gedib Avropa Şurasına çıxır. Amma siz görünür bu işdən bir nəticə hasil etməmisiniz. Bu gün ki, yığıncağımız da, ona həsr edilibdir. Biz, bu günkü müşavirədə nazirlər Əhmədli və Məmmədlinin rüşvət alma məsələsini müzakirə edəcəyik. Odur ki, ilk sözü onların özlərinə verirəm. Qoy fikirlərini bildirsinlər. Buyur, Əhmədli, səndən başlayaq.

Əhmədli çıxışına başlayaraq deyir:

-Hörmətli sədr və cənablar! Keçən toplantıdan sonra, necə ki, cənab sədr tapşırmışdır, eləcə də etmişəm. Rüşvət almanı iki dəfə azaltmışam.

Sədr:

-Buna necə nail olmusan?

Əhmədli:

Əvvəllər hər gün rüşvət alırdım. İndi isə yalnız həftənin tək günləri rüşvət alıram, bazar günü istisna olmaqla.

Sədr:

-Bəs, yuxarının «planını» necə, vaxtlı-vaxtında ödəyirsənmi?

Əhmədli:

-Bəli, cənab sədr! Qəbul olan günləri, qəbula gələnləri normadan iki dəfə çox qəbul edirəm.

Sədr üzünü komissiyanın üzvünə tutaraq deyir:

Ədmədlidən olan şikayəti konkret açıqla.

-Baş üstə,-deyərək,-komissiya üzvü ayağa qalxır, qarşısındakı qovluğu eşələyərək ordan bir vərəqə götürür və ona baxaraq deyir:

-Bu ilin 5-i, 7-si və 9-u yanvar tarixlərində Əhmədlinin rüşvət almağı barədə komissiyaya şikayət daxil olubdur.

Sədr:

-Əhmədli, bəs buna nə deyəcəksən?

Əhmədli əlini kostyumunun döş cibinə salaraq ordan bir təqvim çıxarır və təqvimə baxaraq deyir:

-Sizin dediyiniz həmin günlər, tək günlərdən əvvəl, bazardan isə iki, dörd və altı gün sonraya düşür. Deməli mənə aid deyil. Məncə burda bir yanlışlıq hiss olunur.

Sədr söhbətə qarışaraq Əhmədliyə oturmağı buyurur və Məmmədliyə durmağı təklif edir və ona da eyni cür müraciət edir, necə ki, Əhmədliyə etmişdir. Məmmədli də ayağa qaxaraq Əhmədli kimi eyni fikirləri bildirir. Ancaq fərq onda olur ki, Məmmədli Əhmədlidən fərqli olaraq bazar günü istisna olmaqla həftənin cüt günləri rüşvət aldığını söyləyir. Onda sədr komisiyanın üzvünə Məmmədliyə qarşı olan ittihamları səsləndirməyi rica edir. O, ayağa qalxır və əlindəki kağıza baxaraq dodağının altında mızıldanır:

-Əlimizdə olan məlumatlara görə Məmmədli fevralın 1-i, 3-ü və 5-i tarixlərində rüşvət alıb. Xahiş edirəm buna öz münasibətini bildirsin:

Məmmədli Əhmədlidən aldığı təqvimə baxaraq deyir:

-Bu şikayətin mən heç bir aidiyyəti yoxdur. Çünki siz hamınız bilirsiniz ki, mən rüşvəti yalnız cüt günləri alıram. Ancaq sizin dediyiniz günlər tək günlərə təsadüf edir. Həmin günlər müvafiq olaraq bazardan iki, dörd, altı gün əvvələ düşür.

Hamıya oturmağı təklif edən sədr yığıncağı yekunlaşdıraraq deyir:

-Görünür vətəndaşlar yanlışlığa yol veriblər. Əsas məsələ ondadır ki, siz yanlışlığa yol verməyin. O təqdirdə məsələni həll etmək çətin olar. Hamınıza yaxşı işlədiyinizə görə öz adımdan, həm də «yuxarının» adından (barmağını yuxarı istiqamətləndirir) təşəkkür edirəm. Sağ olun, gələn görüşlərədək.

Hörmətli oxucular! İnanırıq ki, müşavirənin gedişini diqqətlə izlədiniz və kimin kim olduğunu, həmçinin müşavirədə səsləndirilən rəqəmləri, o cümlədən vəziyyəti yaxşı yadınızda sax-

ladınız. Odur ki, bizim sualımıza diqqətlə qulaq asın və cavab yazın.

S u a l : Hər iki qeyri-adi nazirin qəbul günlərinin hansı ilə təsadüf etdiyini, həmin aylarda onların neçə gün rüşvət aldığını, bu günlərdən neçəsinin bazardan əvvələ, neçəsinin bazardan sonraya və nəhayət həmin ilin bütünlükdə neçə rüşvət günündən ibarət olduğunu tapın? Rüşvətin ümumi məbləğini hesablayıb bizə cavab yazın.

«Başsındırma»nın cavabını iki həftədən sonra qəzetimizdən öyrənə bilərsiniz. Bir daha yadınıza salırıq ki, tez və düzgün cavab yazanı «Riyaziyyat klubu»nun xüsusi hədiyyəsi- «paltaryuyan» maşın və 25 kiloqramlıq «OMO» yuyucu tozu gözləyir. Uğurlar olsun! Oyunçu aparsın!..

BEŞİNCİ FƏSİL

İNFORMASİYA JANRLARI: NÖVLƏRİ VƏ XÜSUSİYYƏTLƏRİ

Xronikal informasiya-nə, harada, hansı, haçan, nə vaxt, nə zaman, haçan gələcəksən suallarına cavab verir və 2-15 sətr həcmində yazılır. Xronikal informasiya elektron kütləvi informasiya vasitələrində-televiziyada qaçan zolaqlar formasında, internet səhifələrində yarım və bir sətr həcmində verilir. Xronikal informasiya əsasən rəsmi və yaxud qeyri-rəsmi mətbuat orqanlarının birinci və yaxud ikinci zolağında dərc olunur. Xronikal informasiya yığcam olduğuna görə onun dili-kitab, üslubu-quru, kənar və rəsmi olur. Bu janrın özünəməxsus spesifik əlamətləri var. Onlardan biri təbliğat və təşviqatdır. Müxtəlif informasiyanın qısa formada oxucu və yaxud dinləyiciyə onu yormadan ötürülməsi, müəyyən zaman kəsiyindən sonra sintez olunmağa başlayır və fikir formalaşdırır.

Geniş informasiyanın həcmi 30-150 sətr arasında olur ki, bu da təxminən 1-5 səhvəni təşkil edir. O xronikal informasiyadan yalnız həcminə görə yox, həm də kommentariya olunmasına görə fərqlənir. Kommentariya-əldə olan faktı geniş aydınlaşdırma, izah etmə, onun anlaşılan və yaxud anlaşılmayan tərəflərini başa salma yolu ilə jurnalistin öz baxiş prizmasından çıxış edərək təfsilatı ilə oxucuya çatdırılması deməkdir. Kommentariyanın hal baxımından aşağıdakı növləri olur:

1.Geniş kommentariya-faktı müfəssəl izah etmək;

2.Mütəxəssis kommentariyası-fakt peşəkarcasına daha səlahiyyətli, səriştəli, etibarlı adam tərəfindən kommentariya olunur;

3.Zidd fikirli kommentariya-fakt bu sahə üzrə olan müxtəlif fikirli mütəxəssislər tərəfindən şərh və izah olunur,

fikir mübadiləsi aparılır;

4.Sinxron kommentariya-fakt və mövzuya danışıq aparılan zaman jurnalist tərəfindən aydınlıq gətirilir;

5.Təfsilatlı kommentariya-faktın ən xırda hissəciklərinə kimi aydınlıq gətirilir, müfəssəl məlumat verilir.

Geniş informasiyada, yəni aparılan dialoqda əlavə olaraq mövzunun qəhrəmanı iştirak edir, aidiyyatı olan əşyayi-dəlillər, həmçinin başqa hissəciklər və s. istifadə olunur.

«Yenilik», «informasiya xəbərləri», «qaçan sətrlər» elementi, «qaynar xətt» və s. fakt, hadisə, proses, vəziyyət və xəbərin qısa formada ifadə olunaraq operativ verilməsi informasiya deməkdir. Burda informasiyanın həcmi 5-10 sətr təşkil edir.

Replika publisistikada janr növü olmaqla yanaşı, həm də, bir neçə məna kəsb edir. Replika-1).Etiraz, atmaca; 2).Pyesin gedişində aktyorun cümləsinin son sözü; 3).Musiqinin başqa pərdədə və yaxud başqa səslə təkrar edilməsi kimi üç müxtəlif fikri ifadə etməsinə baxmayaraq, jurnalistikada janr olmaq etibarı ilə etiraz, atmaca formasına daha yaxındır və bu anlamda işlənir. Hər hansı bir şəxsin çıxışına qısa, emosional, həyəcanlı verilən cavab replika sayıla bilər. Replikanın əsas xüsusiyyətini əhval-ruhiyyə təşkil edir. Janrın bu növünə daha çox elektron kütləvi informasiya vasitələrində, canlı dialoqda rast gəlmək mümkündür.

Məsləhət forma etibarı ilə sual-cavab janrının «qohumu» hesab olunur. Bunların arasında yalnız bir fərq var ki, o da, sualın olmamasındadır. Hər bir halda, bu dar-spesifik xüsusiyyətə malik olan informasiya janrıdır. Məsələn: «Bağbanlara məsləhət», «Həkim məsləhəti», «Qadınlara məsləhət» və s. Bu janrın həcmi 80 sətrdən çox olmur.

Portret məqalələr jurnalistikanın informasiya janrları arasında özünəməxsus yer tutur. Elmi ədəbiyyatda bu qəbildən olan yazılara nekroloq və yaxud yubiley məqalələri də deyilir. Portret oçerklərin həsr olunduqları insanlar cəmiyyətdə kifayət qədər tanınmış olurlar. Məqalədə jurnalistin qarşısında,

onların tarixi xidmətləri haqqında aydın məlumat vermək kimi məsul vəzifə dayanır. Portret janrın tələblərinə riayət olunmaqla yazılan məqalələrin hər biri təsvirin dərinliyi, dəqiqliyi, həmçinin illüstrativliliyi ilə diqqəti cəlb etməlidir. Bu cür məqalələr Kütləvi İnformasiya Vasitələri, o cümlədən həm elektron, həm də qəzet və jurnal üçün məqbuldur və bugün də, öz əhəmiyyətini itirməyibdir. Nekroloq dünyasını dəyişən şəxsin həyatından parçalar verməklə onunla vidalaşmaq və kədərlənmək anlayışını verir. Bu janrın həcmi 150 sətrdən artıq olmur.

İnformasiya janrına aid olan mövzular kəmiyyət baxımından Kütləvi İnformasiya Vasitələrinin əsas informasiya axınını təşkil edir. Dövri mətbuatda, o cümlədən bütövlükdə, kütləvi informasiya vasitələrində, bu cür mövzular əməli olaraq informasiyanın əsas aparıcısı qismində çıxış edir və auditoriyaya imkan verir ki, özünəməxsus surətdə daima cəmiyyətdə baş verən əhəmiyyətli və maraqlı hadisələri izləsin, onların monitorinqini aparsın və yaxud həqiqətdə həmin sahələri diqqət mərkəzində saxlasın. Hərtərəfli və sıx aparılan monitorinq informasiya xəbərlərinin müxtəlif formalı olmasına yardımçı olmaqla bərabər, həm də onların öyrənmə predmeti olmasını təmin edir.

İnformasiya janrının aşağıdakı növləri mövcuddur:

1.Qeyd.
2.İnformasiya korrespondensiyası.
3.İnformasiya hesabatı.
4.İnformasiya müsahibəsi.
5.Blits-sorğu.
6.Sual-cavab.
7.Reportaj.
8.Nekroloq.

1.QEYD
Ümumi xüsusiyyətlər

Qeyd jurnalistikanın ən qədim növlərindən biridir. O öz növbəsində geniş informasiya sayılır. Lakin qeyd iki-üç cümlə-

dən ibarət olan qısa xəbər formasında da, ola bilər. Qeyd hadisənin tarixi və inkişafını özündə əks etdirdiyi halda onun həcmi 30-70 xətt həcmində olur. *Xronikal* və *geniş* informasiyadan fərqli olaraq *qeyd* müəllifin imzası ilə fərqlənir. Beləki, onun əsasını oxucunun məktubu təşkil edir. Əgər informasiyada mütləq zaman faktdırsa, qeyddə faktın özü müxtəlif zaman ölçüsündədir. Bu janrdan daha çox sovet dövründə, əsasən də, İkinci Dünya müharibəsi zamanı geniş istifadə olunubdur. Bu isə onun yığcam və aydın üslubda olması ilə əlaqəlidir. (162)

Janrın müəyyən olunması baxımından «qeyd» mövzuda olan ümumiləşdirilmiş surətlə əlaqələndirilir və çox da, böyük olmayan ölçüsü ilə mövzuda müəyyən olunmuş nəticəni ifadə edir. Əgər, bu cür materialda məlumatın əldə olunduğu mənbə xatırlanırsa, o çox qısa olur: adətən bunun öyrənilməsi üçün dərin analiz aparılmır və hansı vasitə ilə bu informasiyanın alınması materialda şərh olunmur və müəllifin emosionallığına ehtiyac duyulmur. Bunun öyrənmə prosesi açıqlanmır və o öz normasında müşayiət olunur və s. Qeyd üçün əsas, öyrənilmiş materialın qısa şərhinin izah olunmasıdır. «Hər hansı bir hadisə, xəbər, informasiya, vəziyyətin olması və yaxud olmaması haqqında insan fikrinin «siqnal» şəklində verilməsi qeydin əsas xüsusiyyətidir. Nəzərə almaq lazımdır ki, bu hadisə, xəbər, informasiya, vəziyyət və insanın şəxsi keyfiyyətləri auditoriya üçün «yenilik» kimi çıxış etməlidir.» (115) Möhtəməl, mümkün olan informasiya oxucuya artıq məlum olan informasiyadan çox üstündür. Nə qədər ki, qeyd qısa, yəni tələb olunan çərçivə həddində olarsa, yeniliyin qiyməti bir o qədər artacaqdır. İnformasiya özündə nə əks etdirir? Sualına belə cavab vermək olar-onun əsasını, məzmununu, mahiyyətini təşkil edən «nəticədir.» (115)

Yuxarıda qeyd etdiyimiz kimi, insanın dünyada baş verən proseslərə münasibəti, oriyentasiyası, o cümlədən özünün müxtəlif istiqamətli tələbatını ödəməsi üçün hərtərəfli informasiyaya ehtiyacı var. Çünki bu insanı hər hansı bir hadisə və prosesi düzgün qiymətləndirməyə, hadisənin inkişaf istiqamə-

tini müəyyən etməyə, faktın özünün doğruluğuna, gələcək durumuna və onun normalar çərçivəsində müvafiq formada təyin olunmasına, həmçinin bəzi variantlar baxımından, sözsüz ki, həm də auditoriyanın, yeri gələrsə, istifadə etməsinə gətirib çıxara bilər.

Müxtəlif istiqamətli informasiya hər hansı bir informasiyanın kombinasiya edilməsi (məqsəd yönümlü və yaxud öz-özünə) nəticəsində törəyir. Əsasən də, fakt (həqiqət yönümlü informasiya), norma (normativ, sərəncam, əmr formalı informasiya), proqram (proqramlı, məsləhət verici informasiya), ehtimal, fərz etmə, təsəvvür, güman (proqnoz, ehtimal, preventiv-qoruyucu) və sair bu kimi informasiyalarda. Qətilik, müəyyənlik, konkretlik, dəqiqlik təsvir olunan qeydlərdə, sadaladığımız informasiya növləri üstünlük təşkil edə bilər, ümumiyyətlə, onlarda bir növ informasiya olur. Nəticədə nisbətən müxtəlif formalı, böyük məzmunlu qeydlər əmələ gəlir. Məhz, bu baxımdan qeyd şərti olaraq aşağıdakı hissələrə bölünür:

a).Faktla olan informasiyalı qeyd;
b) Ehtimalı mümkün olunan informasiyalı qeyd;
c).Preventiv (qoruyucu, qabaqlayıcı) informasiyalı qeyd;
ç).Qiymətləndirici informasiyalı qeyd;
d).Normativ informasiyalı qeyd;
e).Proqram informasiyalı qeyd. (195,155-168)

Yaxşı olardı ki, yuxarıda adlarını çəkdiyimiz qeydin hər bir hissəsi haqqında ayrıca, müfəssəl söhbət açaq və fikir mübadiləsi aparaq.

Fakta əsaslanan informasiya qeydi

«Faktlar, həmçinin başqa cür biliklər, həqiqətin tanınma mərhələsində müxtəlif metodlarla müəyyən olunur.» (102,69) Jurnalistikada daha tez-tez fakt adı altında hər hansı bir hadisə, vəziyyət, proses, xəbər başa düşülür.

Həqiqətdə bu, yəni fakt, daha geniş məna ifadə edir. İnformasiyada mümkün olan ən müxtəlif hadisələri, istər bu informasiya, istərsə də əyanilik və konkretlik baxımından olsun, birləşdirir. Nəzərə almaq lazımdır ki, bəzən hadisənin, xəbərin, vəziyyətin özü və başqa proseslər fakt adlandırılır. Bu zaman faktın ontologiya (varlıq haqqında metafizik fəlsəfi nəzəriyyə) planı haqqında danışılır. Jurnalist üçün fakt-hər şeydən əvvəl bu həqiqi məlumatdır ki, hər hansı bir hadisənin (əyanilik və yaxud ideallıq, həmçinin informasiya sırasına görə) indiki və yaxud keçmiş zamanda olmasına baxmayaraq real olduğunu təsdiq edir.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu).
«Şər».

2010-cı ilin aprelin ayının 18-də, Akif və Səməd qardaları həyətlərində yetişdirdikləri pomidoru şəxsi maşınlarının yük yerinə yığaraq satmaq üçün Bakı şəhərinə yollanırlar. Maşında 500 kiloqram yük olduğundan onlar çox da böyük olmayan sürətlə irəliləyirlər. Səhər, erkən yola çıxan qardaşlar üç saatdan sonra Hacıqabula çatırlar. Ac olduqlarından maşınlarını yolun kənarındakı yeməkxananın qarşısında saxlayıb içəri daxil olurlar. Onların çörək yeməyi və çay içməyi təxminən 40 dəqiqə çəkir. Bayıra çıxan Akif və Səməd hərəyə bir siqaret yandırıb maşına yaxınlaşanda, maşının yanında bir polis avtomobilinin və iki polis nəfərinin dayandıqlarını görürlər. Onlar heç nə olmamış kimi (həqiqətən bu belədir) öz maşınlarına yaxınlaşanda polis onların qarşısını kəsir və deyir:

-Maşının sahibi kimdir?

Akif və Səməd cavab verərək bizik,-deyirlər. Polis onlardan avtomobilin və özlərinin sənədlərini istəyir. Onlar tərəddüd etmədən sənədləri polisə təqdim edirlər. Polis sənədlərə baxdıqdan sonra onları qatlayıb çantasına qoyur və deyir:

-Sizin avtomobildə narkotika var. İstəyirsiniz bir neçə nəfər yoldan keçən saxlayıb protokollaşdıraq.

Akif və Səməd:

-A kişi, nə danışırsınız. Narkotika hara, biz hara...

Bu məqam ikinci polis onlara yaxınlaşlb deyir:

-Sizə deyirlər maşınınızda narkotika var... Deməк var. Biz istədiyimiz maşından narkotika nədi, istəsək silah, lap adam ölüsü də çıxardarıq...

Bir-birinə baxan Akif və Səməd işin nə yerdə olduğunu, şərə düşdüklərini anlayıb, başlayırlar polislərə dil-ağız eləməyə. Ancaq polislər sözlərindən geri dönmürlər. İşin böyüyüb acınacaqlı hala catmaması üçün Akif və Səməd pomidorun hamısını polis maşınına yükləyirlər və ciblərində olan cəmi 230 manat pulu da, çıxardıb polislərə verirlər. Polislər buna inanmayıb özləri onların ciblərini yoxlayır. Həqiqətən pulun bu qədər olduğunu görən polis kapitanı iki yüz manatı götürür və yerdə qalan otuz manatı Akif və Səmədə qaytarır ki, yolda yanacaq alsınlar. Bir sözlə onlara «yazıqları» gəlir. Bundan sonra polis kapitanı, Akif və Səmədin maşınında olan narkotikanı götürmək üçün çavuşa göstəriş verir. Çavuş baş üstə,-deyir-və qabaq qapını açaraq sürücü oturacağının altından içində narkotika olan kisəni götürür.

Sonra polislər «Uazikə», yəni «bobikə» minib öz istiqamətlərinə, Səməd və Akif qardaşları isə kor-peşiman «Qaz -24»ə minib geriyə, evlərinə, Ağdaşa qayıtmalı olurlar...

Bu qeyddə müəllif qəti və konkret hadisə haqqında danışır. O, iştirakçıların adlarını, hardan olmalarını, maşınların markasını, hadisənin baş verdiyi yeri, həmçinin polislərin rütbələrini və s. konkret faktları göstərir. Əlbəttə, «faktı» şüurun məhsulu kimi quraşdırmaq olar. Bu cür publisistika nümunələrinə mətbuat səhifələrində tez-tez rast gəlinir, əsasən də (əksəriyyət hadisə və informasiyalar uydurma, qondarma, güman olur) «sarı mətbuatda». (162)

Ehtimalı mümkün olan qeydlər

Ehtimalı mümkün olan informasiya özünə fikir, güman, fərziyyə, təxmin və yaxud felin indiki və keçmiş, həmçinin gələcək

zamanında hər hansısa bir yekun, məcmuə daxil edə bilər. Fərziyyə, təxmin, güman, təsəvvür, ehtimal ola bilsin ki, mülahizə, mühakimə, hökm formasında hər hansı bir əşyanın və yaxud hadisənin doğru, gerçək, həqiqi informasiya olmasına söykənsin. Ola bisin də, ümumiyyətlə, hər hansı bir reallıqdan məhrum və müxtəlif faktlardan uzaq olsun, onlara əsaslanmasın.

Gələcəyə aid olan təsvir, təxmin, fərziyyə, güman, ehtimal və s. proqnoz adlandırılır (latın dilindən tərcümədə proqnoz-qabaqcadan görmə, gələcəyi görmə kimi qəbul olunur). Əvvəlcədən qeyd olunduğu kimi proqnozlar müxtəlif cür olurlar. Dərəcəsinə və əsaslanmasına görə onlar ciddi, ağır və təmkinli hesab oluna bilər. Hər hansı bir ehtimala görə onların reallaşdırılması «proqnozun» faktından, həmçinin onun məşhur olmasından asılı olur. Nə qədər ki, proqnozda «tanınmamışlıq» çoxluq təşkil edəcəkdir, oxucu auditoriyası bir o qədər hadisələrin davamı haqqında düşünəcək və səbirsizliklə onun kulminasiya və yaxud açılışını (razvyazka) gözləməli olacaqdır. Əgər təsəvvür etmiş olsaq ki, proqnozun müəllifinə bütün faktlar bəllidir (çox çətin ki, bu mümkün olsun), hətta belə bir anda o daima proseslərin gedişini düzgün «saya» bilmir. Nəticədə, «bərabər fəaliyyət» göstərənlər onlara müxtəlif təsir və nüfuz göstərir. (102)

Fərziyyə, güman, fikir, təxəyyül, təsəvvür, niyyət və s. felin keçmiş zamanına aid oluna bilər. Ancaq bu zaman kəsiyində adətən onları proqnoz adlandırmırlar. Ona görə ki, niyyət, məram və məqsəd başqa hadisələrə nisbətən əvvəldən görünən, duyulan və hiss olunan deyil. Çünki bu artıq baş vermiş, olmuş, keçmiş hadisə, xəbər, informasiya və məlumatdır. Odur ki, onları mənasız, baxımsız, ölçüsüz və məntiqsiz dəyərləndirirlər. Bu cür hadisələri daha tez-tez təsəvvür, niyyət, güman adlandırırlar və keçmişə ünvanlanmış hipoteza hesab edirlər. Lakin bütün bunlara baxmayaraq elə hipoteza da mövcuddur ki, o öz-özlüyündə gələcəyi təmsil edir. Əgər əvvəlcədən hər hansı bir hadisəni nəzərdə tutan, birinin digərinə əşyavi-dəlil baxımından çoxsaylı müxtəlif oxşarlıqları mümkündürsə bunları variant,

şayiə, rəvayət adlandırırlar. Aşağıda qeyd janrının bu hissəsinə aid olan bir misalı nəzərdən keçirmiş olsaq bunun doğruluğunu isbat etmiş və nəyə qadir olduğunu öyrənə bilərik.

Ramilə Həsənli.
Görünməmiş siyasət.

2001-cü ilin Prezident seçkiləri ərəfəsində Xəzər dənizinin Azərbaycana aid olan sektorunda dərin, həm də neft və qazla zəngin olan çox böyük karbohidrogen quyusu qazılmağa başlamışdır. Ancaq İran tərəfi bu kəşfiyyat işini ləngitmək və quyuya şərik olduqlarını əsas gətirməklə qazma işlərinin getdiyi əraziyə bir neçə zirehli hərbi gəmi, həmçinin çoxlu sayda dəniz piyadası çıxartmışdır.

Azərbaycanın sərhəd qoşunları İran hökumətinin əsassız manevrlərinin qarşısını almaq üçün planda nəzərdə tutulan tədbirlərə başlamış və həmən Ali Baş Komandana məlumat vermişdir. Ali Baş Komandan xəbəri alan kimi Azərbaycan və onun beynəlxalq maraqları naminə bir qrup general, zabit və mütəxəssislərlə, o cümlədən Müdafiə Naziri və Baş Qərargah rəisi ilə birlikdə vertolyot vasitəsi ilə hadisə yerinə gəlmişdir.

Ali Baş Komandanın göstərişinə əsasən İran hərbi hissələrinə hava hücumundan və zirehli hərbi gəmilərdən atəş açılmışdır. Qarşı tərəf də, eyni vasitə ilə cavab vermişdir. Ancaq bu atışma cəmisi bir neçə dəqiqə baş vermiş və İran hərbi hissələri geri dönərək öz əvvəl ki, mövqelərinə qayıtmışlar.

«Bi-bi-si» radiostansiyasının verdiyi informasiyaya görə İran hərbi gəmisindən atılan mərminin biri Azərbaycanın Ali Baş Komandanı-Prezidenti, həmçinin yüksək çinli hərbi komandirləri olan vertolyota dəymiş və onun daxilində olan bütün insanlar həlak olmuşdular. Prezident seçkilərinə üç gün qalmış bu hadisə haqqında informasiya Azərbaycan cəmiyyətini şok vəziyyətinə salmışdır. Başqa mənbələrdən verilən xəbərlər fakt qıtlığından bir-birindən seçilir, bir-birini təkzib edirdi. Nəhayət ki, iki gündən sonra «AzTV» daha dəqiq məlumat yaymağa nail

olur. Məlumatda deyilir: «İran gəmisindən atılan mərmi qonşu gəminin göyərtəsində yerləşən təlim-məşq vertolyotuna düşmüş və nəticədə yaxınlıqda olan Ali Baş Komandanın vertolyotu da, nisbətən zədələnmişdir. Artıq hər şey normasındadır və Ali Baş Komandan bu gün səhər saatlarında paytaxta qayıdıb və saat 8-00 radələrində başlayan Prezident seçkilərində iştirak etməyə hazırlaşır.»

Bir-birinin ardınca başqa-başqa efirlərdən, televiziya kanallarından və müxtəlif informasiya vasitələrindən, o cümlədən dövri mətbuatdan verilən xəbərlər Azərbaycan ictimaiyyəti tərəfindən fərqli formalarda qarşılanmış və vətəndaşlar seçki məntəqələrinə axışaraq bir gün əvvəl həlak olması xəbərini eşitdikləri Prezidentliyə namizədə səs verməyə başlamışlar...

Ehtimalı mümkün olan bu qeyddə Azərbaycanın ictimai-siyasi həyatında bir neçə il əvvəl baş vermiş hadisə öz əksini tapır. Aparılmış, həmçinin düşünülmüş informasiya nəticəsində Prezidentliyə namizədin seçki reytinqi bir neçə dəfə yüksəlir və nəticədə o, tam üstünlüklə qalib gələrək növbəti dəfə Prezident seçilir. Hipotezanı təsdiq edən faktın yaranması bu prosesdə həqiqi fakta çevrilmiş olur.

Proqnozdan fərqli olaraq mümkündür ki, həm hipoteza, həm variant hansısa hadisəyə yox, fakta istiqamətlənmiş olsun.

Preventiv (qoruyucu, qabaqlayıcı) qeydlər

Preventiv informasiya söylədikdə, bu məfhumun nəzarəti altında əvvəlcədən «planlaşdırılmış» və yaxud daha böyük ümidlərlə baş verə biləcəyi yüksək dərəcədə yaxın zamanda, o cümlədən ən yaxın zaman kəsiyində gözlənilən hadisə, məlumat və informasiyalar nəzərdə tutulur. Preventiv informasiyanı ehtimal, güman, mümkünlük baxımından müxtəlif formalı və istiqamətli saymaq olar. Lakin o, sahib olma, malik durma baxımından xüsusi cizgiləri ilə seçilən özünəməxsus müstəqil və sərbəst informasiya formasıdır. (162)

Bəzən Kütləvi İnformasiya Vasitələrinin bir çoxunda gələcəkdə veriləcək informasiya müəyyən olunmuş mövcud formada, son dərəcə üstün tutulur, birsözlə, «güclü» şəkildə reallaşdırılır. Bu cür informasiyalar özlüyündə faktın mümkünlüyünü, həmçinin faktın mümkünlüyünün insan təcrübəsində dəfələrlə təsdiqlənməsini və sınaqdan çıxmasını sübut etmiş olur. Məsələn, əgər eyni formatlı ev tikilirsə və tikinti üçün lazım olan tikinti materialları, texnika və işçi qüvvəsi varsa, deməк həmin ev müəyyən olunmuş zamanda tikilib istifadəyə veriləcəkdir.

Hərdən elə olur ki, preventiv informasiyada mövcud olan bu cür üstünlüklərin olması, onu bir çox jurnalistlər tərəfindən xüsusi olaraq faktoloji qrupa aid etməklə nəticələnir. Amma sözün əsl mənasında bu qəbildən olan informasiyalar mümkünlük (yəqinlik), həqiqilik (qabaqlayıcı, qoruyucu,) təxminilik (təqribilik) və əvvəldə ki, kimi (keçmişdə ki, kimi) fakta daxil oluna bilməz.

Preventiv informasiyanı (başa salmaq, izah, ifadə, bəyan etmək, anlatmaq) fakt kimi hesab etmək olmaz. Çünki fakt-bu artıq baş vermiş, artıq mümkün olan və həyatda öz yerini tutan hadisə, məlumat, informasiyadır. Hətta bunun gələcəkdə mümkün ola biləcək dərəcəsi həddən artıq çox olmuş olsa da, bəzi mətbuat orqanları bu məqamları öyrənir və əsas götürərək baş vermiş hadisə ilə baş verə biləcək hadisə arasında fərq qoymurlar. Ola bilsin ki, gündəlik baş verən proseslərin ümumi fonunda, jurnalist yaradıcılıq fəaliyyətində faktroloji amili irəli çəkməklə məsələnin mahiyyətini daha çox hesaba alsın. Əlbəttə, bütün bunların hamısı təbii və adi görünə bilər. Bu baxımından, preventiv və faktlı informasiya arasında müxtəlif mövcudluq və yaxud həqiqilik mümkündür. Bütünlükdə, preventiv məlumat özünün «möhkəmlik» dərəcəsi baxımından başqa təxmini, təqribi (ehtimal, güman) və başqa qabaqcadan təyin olunmuş (qismət) hadisələri ötüb keçir. Hərdən preventiv xəbər, informasiya və məlumatı təxmin, ehtimal, güman və s. kimi adlandırırlar. Bu doğru deyil. Ən azı ona görə ki, güman, ehti-

mal gələcək hadisədir və preventiv informasiya kimi nəzərə alına bilər. Lakin «fərziyyə, təxmin, güman, niyyət» (mümkünlük, ehtimal informasiyası) və «preventiv (qabaqlayıcı, qoruyucu) informasiya» bir-birinin oxşarı, bənzəri deyil. Təxmin, güman, ehtimal preventiv informasiya ilə tam ölçüdə üst-üstə düşmür. Ona görə ki, artıq deyildiyi kimi, onlar bu və yaxud başqa məqama nisbətən gələcək hadisəyə oxşayır və tarixi baxımdan onu əks etdirir. Preventiv informasiya yalnız gələcək, baş verə biləcək hadisənin hər hansı bir vəziyyətinə baxır. Bütün bunlardan başqa, preventiv informasiya daima gələcək hadisənin baş verə biləcəyinə daha çox dərəcədə əsaslanır və bununla da, o böyük inam və ehtimal doğurur, inandırır, əsaslandırır, nəinki, güman, ehtimal, və s.

Ceyran Cünəş.
Azərbaycanda ilk Muğam Mərkəzi olacaq.

Bakının dəniz kənarı Milli Parkında üç il əvvəl, yəni 2005 ci ilin avqustunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və YUNESKO-nun baş katibi Koişiro Matsuranın iştirakı ilə Beynəlxalq Muğam Mərkəzinin bünövrəsi qoyulmuşdur. Artıq həmin vaxtdan üç ilə yaxın bir dövr keçir. Muğam Mərkəzində tamamlama işləri aparılır. İnşaatçıların 16 oktyabr 2008-ci il tarixində verdikləri açıqlamaya görə hər hansı bir fövqəladə hadisə baş verməsə tikinti işləri planda nəzərdə tutulduğu vaxtda başa çatdırılacaqdır. İndiyə kimi Azərbaycanı bütün dünyada təmsil edən muğam üçün bu cür möhtəşəm Muğam Mərkəzi olmamışdır. Bu tədbir YUNESKO tərəfindən müsbət qarşılanmış və açılışda dünya mədəniyyət mərkəzinin yüksək səviyyəli nümayəndələrinin iştirak edəcəyi gözlənilir.

Mərkəz özünün bənzəri olmayan nadir səyyar telefon sistemi, kompüterlə idarə olunan işıq effekti və füsungar səhnəsi, görkəmli muğam ustalarının büstləri ilə bəzədilmişdir. Mərkəzi-foye, sərgi və bir neçə məşq zalı, beş ulduzlu mehmanxana

və restoran kompleksi, yaraşıqlı kino zalı, moda-salonu, müasir sistemli avtomobil dayanacağı, maqazin və kiçik kafe və sair müxtəlif xidmət sahələrindən ibarətdir.

Özünün hərtərəfli peşəkar xidməti, memarlıq və şəhərsalma adətləri nöqteyi-nəzərindən başqa mədəniyyət sahələrindən fərqlənən və həddən artıq gözəlliyə malik olan Muğam Mərkəzinin dənizin kənarında, Milli parkda salınması qədim Bakı şəhərinə yeni və müasir, əsrarəngiz mənzərə bəxş edəcəkdir. Öz gecələri ilə sayılıb-seçilən Bakı şəhərinin gecə gözəlliyini, bu mərkəzin açılışından sonra təsəvvür etmək olduqca çətin, həm də şərəfli hesab oluna bilər.

Ümidvar olmaq istəyirik ki, Muğam Mərkəzinin bu yaxınlarda həyata vəsiqə verən açılışı yalnız Bakı və bakılıların deyil, həm də Bakı şəhərinə qonaq gələn hər kəsin, turistlərin və qonaqların zövqünü oxşaya biləcəkdir. Əmin olmaq istərdik ki, açılışdan sonra Bakının gündüzü də, gecələri kimi yaraşıqlı, nadir və qonaqpərvər olacaqdır.

Qədim Bakı şəhərinin tarixi abidələri ilə paralel görünən bu mərkəz, mövcud gözəlliyə bir qədər də qərb ədviyyatı qataraq onu ətirli və təravətli edəcəkdir. Azərbaycana, Bakıya, Milli Parka, Muğam Mərkəzinə gələn hər bir kəc bu gözəllikdən bir parça götürəcək və özü ilə əbədi olaraq aparacaq, dünyada bərabəri olmayan bu diyarı və onun sülhsevər, qonaqpərvər, istiqanlı insanlarını daima xoş məramla xatırlayacaqdır. Muğam Mərkəzinin vaxtında açılışı həm də, siyasi məqsəd daşıyır. Odur ki, gəlin bir qədər də səbirli olaq və zamanı tələsdirməyək...

Bu yazının və yaxud preventiv qeyidin yazılmasında müəllif hansı məqsədi qarşısına vəzifə olaraq qoymuş və nəyə nail olmaq istəmişdir? Aydındır ki, qeyddə tikinti işlərinin uğurlu getməsi xəbər verilir və bildirilir ki, tikinti nəzərdə tutulan zamanda yekunlaşacaqdır. Yox, əgər hər hansı bir hadisə və yaxud səbəb ucbatından tikinti işləri vaxtında icra olunmasa, məhz mətbuat onda hay-küy salmağa başlayacaq, müxtəlif fərziyələr söyləyəcəkdir. Nəticə etibarı ilə deyəcək ki, görürsünüzmü bu

qədər var-dövlətin qarşısında ölkə üçün əhəmiyyət daşıyan bir mərkəzi vaxtında tikib başa çatdıra bilmədilər. Bu mənada, məqalədə göstərilən vaxtla tikintinin gecikməsi arasında mövcud olan yalan üzə çıxacaqdır. Preventiv qeydin məqsədi isə bundan ibarətdir ki, həm özünü sığortalasın, həm də hadisələri qabaqlasın.

Qiymətləndirici informasiya qeydləri

Məlumdur ki, qiymət özündə subyektə, qiymətləndirilən predmetə olan münasibəti (jurnalistə və yaxud başqa adama) ifadə edir. Bu münasibət bir predmetin başqası ilə müqayisəsi zamanı və yaxud həmin predmeti qiymətləndirən zaman ortaya çıxır və müxtəlif meyarlarla-keyfiyyət, tələbat, maraq, norma, nümunə, standart, qayə və s. ölçülür. İnformasiya baxımından çox tez-tez hallarda müxtəlif hadisələr haqqında olan məlumatlar (kitab, film, qəzet, jurnal, pyes, yarış və s.) qiymətləndirici xarakter daşıyır, bir sözlə, qiymətləndirilmənin predmetinə çevrilir. Sirr deyil ki, qiymətləndirilmə həyatda olan hər bir şeyə, maddədən tutmuş informasiyaya kimi şamil oluna bilər. (162)

Ceyran Günəş.
Turşumuş sifətlər.

Milli Məclisə keçirilən seçkilərlə əlaqədar jurnalistlər arasında sözün həqiqi və məcazi mənasında «müharibə» gedir. Mətbuat Şurasının dəhlizində üz-üzə gələn, bir-birini tanıyan, vaxtı ilə dostluq əlaqəsində olan jurnalistlər, indi nəinki əl verib görüşürlər, hətta heç salamlaşmırlar da... Bir çoxunun qəzəblə dolu baxışları adamı mat-mətəl qoyur, heç özün də bilmirsən ki, hara düşmüsən. Nə baş verir? Bura Azərbaycandı, yoxsa Amerika cəngəlliyi, sözün məcazi mənasında...

Onlar özləri bir-birinə elə yarlıqlar yapışdırıblar ki, heç adamın dili də gəlmir səsləndirsin. Necə deyərlər az danışmaq

qızıldırsa, danışmamaq lap briliyantdır,rəhmətlik Molla Nəsrəddin,- demişkən. Özü də ən «yüksək» əyarlı...

Mediya nümayəndələrinin öz aralarında belə ölüm-dirim savaşına qoşulmağının bir səbəbi var. O da, bundan ibarətdir ki, seçkilərdə daha «yaxşı» nəticə göstərib «əməkdar jurnalist» adına layiq görülsünlər. Hələ ki, «döyüşlər» davam edir... Allah bu jurnalistləri pisindən saxlasın...

Gətirdiyimiz bu misaldan aydın görünür ki, jurnalistlər arasında seçki qabağı baş verən vəziyyəti, prosesi qiymətləndirmək üçün qeyd janrının qiymətləndirici informasiya növündən istifadə olunmuşdur.

Normativ informasiyalı qeydlər

Normativ informasiya ictimai-sosial qrup, ayrı-ayrı şəxslər tərəfindən ünvanlanan tələbləri özündə təqdim edir. İctimai norma müxtəlifdir. Onları təsis edilmiş təsnifatından asılı olaraq bu və yaxud başqa tiplərə aid etmək olar. Məsələn, onlar siyasi, iqtisadi, texniki, mənəvi, tibbi və s. ola bilərlər. İnsan üçün normanın dəyəri sadəcə olaraq onun məhdudlaşması, fəaliyyətinin «hissələrə» bölünməsi, tənzimləyici funksiyanın yerinə yetirməsi ilə deyil, həmçinin normativ tələblərin icra olunması zamanı da, gözləmək olar. Yalnız bu təqdirdə, ictimai həyatı qaydaya salmaq, özünün tələbatını yerinə yetirmək, prosesdə vətəndaşların dövlət və yaxud başqa vətəndaşlarla təsadüfi, qərəzsiz «toqquşmasının» qarşısını almaq mümkün olar. (162)

Bu nöqteyi-nəzərdən çıxış edərək demək olar ki, Kütləvi İnformasiya Vasitələrinin informasiya istehlakçısını aşağıdakı planda olan məlumat maraqlandıra bilər:

1.Normanın qorunub saxlanması və onun müasir oxucu tərəfindən yerinə yetirilməsi və başqa insanların da, buna riayər etməsi;

2.Cəmiyyət tərəfindən normanın qorunması və yaxud

pozulması necə qarşılana bilər;

3.İctimai həyatda yeni normanın əmələ gəlmə prosesi haqqında.

Ramilə Həsənli.

Sürət məhdudiyyəti kimə xeyir verəcək?

Yeni ayın əvvəlindən etibarən, Azərbaycanin Binə-Bakı avtomobil yolunda 90 km/saat sürət həddi götürüləcəkdir. Yaxın vaxtlarda bu hədd 120 km/saat-a qədər artırılacaq. Onsuz da, sürücülərin çoxu, əvvəl olduğu kimi bu sürət həddinə əməl etməyəcəklər. Necə sürürdülərsə, elə də davam edəcəklər. Çünki onlar bundan əvvəl də, sürət həddinə qoyulan qadağanı saymırdılar və istədikləri kimi hərəkət edirdilər. Amma bir əhəmiyyətli yeniliyi qeyd etmək yerinə düşər. Bu yenilik ondan ibarətdir ki, Binə-Bakı aeroport yolu «Maqistral» yol statusuna aid hesab olunacaqdır ki, bu da, sürəti 50 km/saat-dan az olan nəqliyyat vasitələrinə burda hərəkət etməyə icazə verməyəcəkdir. Bunlar avtobus, motosikl, traktor və s. ola bilər. Yük maşınları yalnız iki sağ xətlə hərəkət edə bilərlər. Qeyd edək ki, gediş və gəliş hərəsi 5 xətdən ibarət olmaqla, maqistral yol 10 zolaqdan ibarətdir. At arabası və bu qismdən olan qeyri nəqliyyatın yola çıxması tamamilə qadağan olunacaq. Yolun müəyyən yerlərində dayanıb istirahət etmək, həmçinin nasazlıq olduqda dayanmaq üçün xüsusi «ciblər» nəzərdə tutulur. Bu yolda, həmçinin hər kilometrdən bir telefon aparatları da quraşdırılıbdır ki, texniki və başqa servis xidmətləri ilə əlaqə saxlamaq mümkün olsun.

Bu qeydin tərkib hissəsini təşkil edən normativ tələb göründüyü kimi texniki xarakter daşıyır. Bəzi məqamlarda bunu yol hərəkəti qaydalarına da, aid etmək olar. Çünki burda sürücülərdən müəyyən tələblərə əməl etmələri rica olunur, o cümlədən müəyyən qadağalar da nəzərdə tutulur. Mətnin normativ informasiyaya aid olmasını, onun tərkibində olan tələb, qadağa, icazə, məsləhət, məlumat və s. bu kimi amillərin olma-

sı təsdiqləyir. Yazıda bu cür «mayakların» verilməməsi, onun normativ informasiyaya aid olmadığına dəlalət edər. Odur ki, bu işarələr mütləqdir və onlar kursiv verilməlidir. Bu məqalədə biz bilərəkdən onların altından xətt çəkdik. Qəzet məqaləsində buna ehtiyac yoxdur.

Proqram informasiyalı qeydlər

Proqram informasiyalı qeydlər hərəkətin konkret gedişində hər hansı bir məqsədə çatmaq üçün müəyyən olunmuş ardıcıllıqla aparılan fəaliyyətin yekunu hesab olunur. Proqram informasiyalı qeyd, adətən hansısa himayəçi, tərəfdar tərəfindən kiçik bir məsləhət, tövsiyə, zəmanət formasında verilir.

Ramilə Həsənli.
Ehtiyat igidin yaraşığıdır.

Nə vaxt ki, Şamaxı dolaylarında qarın yağması nəticəsində vəziyyət acınacaqlı hal alır, bu barədə KİV-də ətraflı məlumat verilir. Çünki tələb olunan normaların yerinə yetirilməməsi, ilin bu zamanında burda qəzaların daha çox baş verməsinə səbəb olur. Qış mövsümündə dolaylarda baş verən hadisələrin əksəriyyəti qarın birinci-üçüncü günlərinə təsadüf edir. Elə buna görə də, sürücülərə ehtiyatlı olmaq, sürəti azaltmaq, şinləri dəyişmək, əyləc sistemini yoxlamaq kimi kompleks tədbirlər həyata keçirmək məsləhət olunur.

Həmçinin sürücülərə məsləhət olunur ki, onlar bir-birilərinə qarşı ehtiyatlı, təmkinli və diqqətli olsunlar. Çalışsınlar ki, gecənin qaranlıq vaxtı dolaylarla hərəkət etməsinlər. Təhlükəli hal müşahidə olunduqda dərhal Dövlət Yol Patrul xidmətinin əməkdaşlarına xəbər versinlər. Təhlükədən yayınmaq üçün maşının şinlərinə xüsusi dəmir zəncir taxmağı unutmasınlar.

Hörmətli sürücülər! Bununla siz həm özünüzü, həm də başqalarını qəzadan və qorxulu hallardan müdafiə etmiş olarsınız. Axı sizi evdə gözləyirlər. Hamınıza yaxşı yol arzulayırıq!

Bu proqramlı informasiyada beş əsas məsləhət verilir: 1).Şinləri dəyişmək; 2).Əyləc sistemini yoxlayıb normalar çərçivəsinə salmaq; 3).Xüsusi dəmir zəncirlərdən istifadə etmək; 4).Havanın qaranlıq vaxtı dolaylarla hərəkət etməmək; 5).Bir-birilərinə qarşı təmkinli olmaq.

Bütövlükdə bunlar, kiçik bir proqramlı informasiyanı təşkil edir. Bu cür proqram xarakterli informasiya daşıyan qeydləri, jurnalistikada standart formalı proqram informasiyalı qeydlər hesab edirlər.

Bəzən proqram informasiyalı qeydləri normativ informasiyalı qeydlər ilə eyniləşdirirlər. Bu tamamilə yanlış fikirdir. Çünki normativ informasiyalı qeydlər həm tələb edir, həm, nümunə göstərir, həm də cəzalandırır. Proqram informasiyalı qeydlərdə isə bu cür tələblər yoxdur. Burda əsas prinsiplər tövsiyə, məsləhət üzərində cəmləşir və yaxud qurulur.

1.Norma bir tələbdir, bütün vəziyyətlərdə onu yerinə yetirmək lazımdır və o birmənalı olaraq qəti (amiranə) xarakter daşıyır.

2.Onun yerinə yetirilməməsi, irəlidə dediyimiz kimi, müəyyən sanksiyaların tətbiqi ilə nəticələnə bilər.

Proqram göstərir ki, o uğur qazanmaq üçün atılan addımlardan hesab olunur və məsləhət, tövsiyə xarakteri daşıyır. Həmçinin, elə olur ki, daha effektiv proqramı müəyyən bir şəraitdə bir neçə dəfə yerinə yetirmək təklif olunur. Bu cür proqramlar standart (bir tipli, şablon) proqram adlanır. Əgər standart proqramın yerinə yetirilməsi tələb kimi qarşıya qoyulursa və müəyyən sanksiyalarla müşayət olunursa, demək o normaya, yəni normativ informasiyalı qeydə çevrilir.

Qeydin janr növləri

Bu və yaxud başqa konkret qeyd müxtəlif janr yaradan faktların nəticəsi kimi qiymətləndirilə bilər. Başqa cür demiş olsaq, o ən real, müxtəlif nöqteyi-nəzəri (müxtəlif mövzuları) təsvir

edir. Buna görə də, ümumi planda qeyd adlandırılan, daha yaxın və konkret müzakirədən keçən, o cümlədən özünü təsdiq edən hər bir qeyd növünə əminliklə jurnalistikanın müstəqil janrı (əlbəttə ki, qeydin ümumi xüsusiyyətləri çərçivəsində) demək olar. (162) Bu mənada, qeydin müxtəlif növləri mövcud olur ki, onları da, qeydin janr növləri adlandırırlar. Odur ki, müasir dövri mətbuatın səhifələrində daha tez-tez görünən və rast gəlinən qeyd növlərinə nəzər yetirək və onlar haqqında fikir mübadiləsi aparaq. Qeydin aşağıdakı janr növləri mövcuddur:

a).Faktlarla zəngin olan qeydlər;
b).Anons;
c).Annotasiya;
ç).Mini-resenziya;
d).Bilits-portret;
e).Mini-xülasə;
ə).Mini-tarixçə;
f).Mini-məsləhət.

Faktlarla zəngin olan qeydlər

Qeydin bu növü, əgər belə demək mümkünsə, dövri mətbuatda nəşr olunan informasiya axınının əsasını təşkil edir. Bu cür qeydin tərkib hissəsini faktiki informasiya (təsvir etmə) tutur. Onları müstəqil janr növü kimi predmetin özünəməxsus formada təsvir olunmasına əsaslanaraq qəbul etmək mümkündür. Öz-özlüyündə faktlarla zəngin olan qeyddə, adətən müxtəlif faktlar, həmçinin bu və yaxud başqa fəaliyyət dairəsinə aid olan işin vəziyyəti çıxış edir.

Ceyran Günəş.
Artıq ərzaq oğurlayırlar.

Bir günün ərzində Abşeron rayon polis şöbəsi evlərdən oğurluq edən üç cinayətkarı yaxalamağa nail olmuşdur. Əvvəlcə, polis əməkdaşları avtobus dayanacağında dayanan bir nəfə-

ri saxlamışlar. Onun özünü şübhəli aparması polis işçilərinin diqqətindən yayınmamışdır. Ona yaxınlaşan polis əməkdaşları ilk öncə ondan şəxsiyyət vəsiqəsini tələb etmişlər. Tərslikdən gəncin üstündə onun şəxsiyyətini təsdiq edən heç bir sənəd aşkar edilməmişdir. Əksinə, axtarış zamanı onun üstündən xeyli miqdarda qızıl-ziynət əşyaları tapılmışdır. Bundan şübhələnən polis işçiləri gənci şöbəyə gətirməli olmuşlar. Məlum olmuşdur ki, ev oğurluğu ilə bağlı polis şöbəsinin növbətçi hissəsinə şikayət daxil olubdur. Evindən oğurluq olan şəxslə polisin yaratdığı əlaqədən sonra bəlli olmuşdur ki, qızıl-ziynət əşyaları həmin şəxsə məxsusdur. Aparılan profilaktik tədbirlər nəticəsində oğurluq edən gəncin, bu işdə əli olan digər iki tərəfdaşı da, saxlanılaraq şöbəyə gətirilmişdir. Oğurluq əşyaların qalan hissəsini götürmək məqsədi ilə istintaq-əməliyyat qrupu yaradılmışdır. Oğurluq əşyaların gizlədildiyi yerə baxış keçirərkən polis əməkdaşları gördüklərindən mat-mətəl qalmışlar. Beləki, oğrular nəinki bahalı ziynət və geyim əşyalar, həmçinin bir neçə bərni (şüşə banka) xiyar-pomidor turşusu, toyuq və ət, ərinmiş yağ, kolbasa və digər ərzaq məhsulları da, həmin evdən oğurlamışlar. Aparılan istintaqdan bəlli olmuşdur ki, indi oğrular evlərdən yalnız qiymətli əşyalar yox, həmçinin ərzaq məhsulları da, oğurlayırlar. Odur ki, hörmətli vətəndaşlar soyuducunuzun qapısına kilid vurmağı unutmayın!!!

Bu cür qeyddə olan informasiya iki mühüm məsələni masa üzərinə gətirdi:-birincisi, qiymətli əşyaların, ikincisi, ərzaq məhsullarının oğurlanmasını. Bu cür məlumatlar yalnız faktoloji xüsusiyyət daşıyır. Lakin bununla bahəm, müxtəlif xəbərlərlə zəngin olan qeydlər də, mövcuddur və onlar faktoloji informasiya ilə zəngin olan qeydlər bölməsinə aid edilirlər.

Anons

Bu informasiya janrı, gələcəkdə özündə baş verə biləcək bütün mümkün sərgi, konsert, idman və başqa mədəni tədbirləri qabaqcadan təqdim edərək qeyd yaradır. «Anons» sözünün

mənası ingilis dilində olan «announce» məfhumundan götürülmüş, «xəbər, məlumat, bildirmə», «xəbər ver, elan et, bildir», «elan, bildiriş» kimi müxtəlif formalarda işlənir. (162) Bu janrın operativ (əməli), canlı, cəld hərəkətləri nəticəsində, məlumatlar anons formasında ictimaiyyətin diqqətinə çatdırılır. Anons olmadan çağdaş cəmiyyəti, o cümlədən mətbuatı təsəvvür etmək çətindir. Beləki, hər şeydən öncə KİV-i anons vasitəsi ilə mümkün olacaq tədbirlər haqqında auditoriyaya geniş məlumat verir və onları (vətəndaşları) bu mədəni tədbirlərdə iştirak etməyə dəvət edir, ictimai həyatı canlandırır, insanlarda bu tədbirlərə maraq (əlbəttə ki, yalnız bu sahədə yox) oyadır.

Ceyran Günəş.
Müstəqillik günündə məişət avadanlıqları sərgisi.

Azərbaycanda hər il may ayının 28-i Müstəqillik Günü kimi qeyd olunur və bu münasibətlə müxtəlif mədəni tədbir, sərgi və konsertlər keçirilir. Bu il də, istisna təşkil etmir. Beləki, bu il mayın 25-dən 30-na kimi müstəqilliyin 20 illiyi ilə əlaqədar olaraq Heydər Əliyev adına İdman-Konsert Kompleksində dünyanın qabaqcıl firmalarının Beynəlxalq Məişət Əşyaları Sərgisi keçiriləcəkdir. İştirakçılar arasında yaxın və uzaq xaricdən, Avstraliya, Cənubi Koreya, Yaponiya, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, İspaniya, İsveç, ABŞ, Kanada və bir çox başqa ölkələrin və onların təxminən 400-ə yaxın şirkət və firmalarının iştirak etməsi tədbirin miqyasından xəbər verir. Bunların arasında, Azərbaycanı təmsil edən 60-dan yuxarı təşkilat da, var. Min kvadrat metrlərlə sahəni əhatə edən müxtəlif ölçülü stendlər sərgiyə gələnlərə ilk əyani məlumatı verir. Maraqlıdır ki, sərgidə nümayiş etdirilən məişət əşyalarının açıq satışı da, təşkil olunacaqdır. Sərginin açılışı mayın ayının 25-nə planlaşdırılır. Tədbirdə Azərbaycan Respublikasının Prezidentinin iştirakı gözlənilir. Qonşu dövlətlərdən də, sərgiyə böyük maraq var. Açılışdan sonra möhtəşəm konsert proqramı ilə yanaşı lotereya oyunu keçiriləcəkdir.

Anons elana yaxın olmasına baxmayaraq jurnalistikada müstəqil janr kimi istifadə olunur. Baxmayaraq ki, onlar arasındakı fərq o qədər də böyük deyil, amma fakt ondan ibarətdir ki, elan və anons hər biri ayrı-ayrılıqda mövcuddur. Elan yalnız nə?, harda?, nə isə baş verəcək kimi xəbər, bildiriş verməklə işini tamamlanmış hesab etmir. Beləki, o eyni zamanda artıq baş vermiş və yaxud həmən baş verəcək hadisə, vəziyyət, proses haqqında məlumat verir. (Məsələn: «Bu ev icarəyə verilir. Xəstəxana keçən ayın 24-dən təmirlə əlaqədar işləmir. Sənədlərin qəbulu üçün müdriyyətə müraciət edin.» (162) Bundan başqa, elan ancaq təmiz fayda və mənfəət güdmək məqsədi izləyir, o qətiyyən hansısa xırda hissəciklərin ifadə olunmasına, «tədbirin» tarixinə, onun səbəblərinə, keçirilmə şərtinə və sair iddiaçı qismində çıxış etmir.

Anons reklamın mövzusuna daha yaxındır. Lakin reklamdan fərqli olaraq anons öz qarşısına «tədbirə» daha çox tamaşaçı dəvət etmək, onun bütün əhəmiyyətini və xırdalıqlarını söyləmək və sair bu kimi məqsədlər qoymur. Anonsun əsas məqsədi hadisənin tarixi və onda iştirak edən tərəflər, həmçinin onun ən vacib anları və mərhələsi haqqında məlumat verməkdən ibarətdir.

Annotasiya

Qeyd yanrının annotasiya növü ingilis dilində olan «Annotate» sözündən götürülüb və mənası «göz qoymaq, göz yetirmək» deməkdir. Qeydin bu növü informasiya mətnləri dərəcəsinə aiddir ki, predmetin təsviri artıq baş vermiş informasiya (hər şeydən öncə bu kitab, məqalə və sair ola bilər) hadisəsidir. Bu cür nəşrlərin məqsədi heç də, auditoriyanı yenicə çapdan çıxan kitabla, onun sayı ilə tanış etmək funksiyasını daşımır.

Annotasiyada əsasən fenomen və onun «qovşağı» (onun adı, müəllifi və müəllifləri, nəşri və yaxud tərtibatçısı, mövzusu, məzmunu, yaranması, nə üçün yarandığı) haqqında informasi-

ya verir. Annotasiya ixtisaslaşdırılmış dövri nəşrlərə aid olan janrlardan biri hesab olunur. Bu janrın nəşrinə dövri mətbuat səhifələrində, həmçinin onun başqa formalarında daha tez-tez rast gəlmək olur.

Ceyran Günəş.
«Firidun bəy Köçərlinin publisistikası» haqqında.

2011-ci ildə, Firidun bəy Köçərlinin anadan ilmasının 150 illiyi ərəfəsində, ilk dəfə olaraq «Firidun bəy Köçərlinin publisistikası» adlı monoqrafiya işıq üzü gördü. Monoqrafiyanın müəllifi filologiya üzrə fəlsəfə doktoru Veydəddin Pirəliyevdir. Monoqrafiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Azərbaycan və Dünya ədəbiyyatı kafedrası»nda hazırlanıb. Aparıcı müəssisə qismində Bakı Dövlət Universitetinin «Klassik Azərbaycan ədəbiyyatı kafedrası» çıxış edir. Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda müdafiə olunub. Dissertasiya Şurası akademik B. Nəbiyevin rəhbərliyi altında keçirilibdir. Kitabın elmi redaktoru filologiya elmləri doktoru, mərhum professor Xeyrulla Məmmədov olubdur. Rəylər isə filologiya elmləri doktoru, professor H. Qasımov, filologiya elmləri doktoru, professor Ə. Saraclı (Məmmədli) və filologiya elmləri doktoru, professor Q. Namazov tərəfindən verilib. Kitab bu sahə üzrə çalışan və yaxud elmi araşdırma aparan maqistr və doktrantlar üçün yaxşı vəsait ola bilər. Kitabda Firidun bəy Köçərlinin indiyə kimi dərc olunan publisistik məqalələri ilə yanaşı, dərc olunmayan publisistik əsərləri də, hərtərəfli tədqiq olunmuşdur.

Bəzən annotasiyanı mini-resenziya da adlandırırlar. Bununla razılaşmaq qeyri mümkündür. Ona görə ki, hər bir resenziyanın, o cümlədən mini-resenziyanın məqsədi tamamilə başqadır, nəinki annotasiyanın.

Mini-resenziya

Mini-resenziya özündə qiymətləndirici qeydi ifadə edir. Onun predmeti (kitab, kinofilm, pyes və s.) informasiya hadisəsidir. Bu tip janrın məqsədi oxucuya tanış olduğu müəllif və yaxud oxuduğu kitab, baxdığı film, dinlədiyi əsər haqqında çox təsirli məqamları söyləmək və qısa şərh verməkdən ibarətdir. (162) Biz analitik resenziya haqqında analitik janrlarda məlumat verəcəyik. Mini-resenziya adından göründüyü kimi həmin janrın mini formasını təşkil edir. Fərq ondadır ki, mini-resenziya informasiya xarakteri daşıyır və buna görə də, informasiya janrına aid edilir.

Mini-resenziya qiymətləndirici informasiya olduğu üçün onun müəllifinə əsər haqqında isbatedici mülahizələr söyləmək, faktlara istinad etmək lazım gəlmir. Burda, sadəcə olaraq müəllif oxucuya öz emosiyasını (hiss, həyəcan, təəssür və s.) çatdırır və ən yaxşı halda oxucu auditoriyası ilə öz fikirlərini bölüşür.

Ramilə Həsənli.
Volfqanq Lotsun «Şampanda casus» əsəri.

Bu yaxınlarda Volfqanq Lotsun «Şampanda casus» əsərini oxudum. «Gizli qovluq» seriyasına daxil edilən və İsrail kəşfiyyatından bəhs edən bu kitab bir oxucu kimi məndə xüsusi fikir formalaşdırdı, hiss, həycan, emosiya əmələ gətirdı.

Kitabda, Volfqanq Lots özünü şampan şərabının həvəskarı, atların mükəmməl bilicisi, eyni zamanda İsrail kəşfiyyatının qeyri-leqal kəşfiyyatçısı kimi qələmə verir. Müəllifin əsas məqsəd, Mossadın ərəb ölkələrində apardığı gizli işin mükəmməlliyi, o cümlədən Misir kəşfiyyatı və onun generallarının bacarıqsızlığı, həmçinin özünün uzun illər apardığı və müvəffəqiyyətlə yerinə yetirdiyi əməllər haqqında oxucuda fikir formalaşdırmaqdan ibarətdir.

Belə demək mümkünsə, müəllif öz istəyinə nail olur. Onun

dörd il, Misir generalları, dövlət məmurları və elitar təbəqəsi arasında olması, hədiyyələr və rüşvət alması, eyni zamanda kəşfiyyat məlumatları toplayaraq Mossada ötürməsi, sözsüz ki, Lotsdan böyük ustalıq tələb edirdi. Nəhayət ki, bir neçə illik gərgin və məhsuldar işdən sonra Misir kəşfiyyatı sabiq SSSİ-i dövlətinin köməyi ilə Lotsun əməllərini ifşa edir və o, iflasa uğrayaraq məhkəmə qarşısında dayanır.

Bu gün Volfqanq lotsu hər yerdə oxuyurlar, onu zəmanənin etalonu sayırlar, hətta əfsanəvi casus Ceymis Bonda oxşadırlar.

Dünyada geniş yayılmış kəşfiyyat mövzusu müəllif tərəfindən məharətlə işlənilibdir. Bütün süjet xətti boyu nə siyasi ritorikaya, nə də ki, kəşfiyyatla bağlı müxtəlif terminlərə və xüsusi söz birləşmələrinə rast gəlinmir. Bu da, əsərin oxucu tərəfindən sakit və rahat oxunmasına, problemsiz başa düşülməsinə imkan yaradır. Kitabın dili sadə, üslubu qəbul olunandır. Ümumiyyətlə, əsər lazımsız gedişlərdən azaddir. Hər bir kəsə əsəri oxumağı məsləhət bilirik.

Bu əsəri qiymətləndirərkən üç əsas fakta diqqəti yönəltmək lazım gəlir. Birincisi, dünya ədəbiyyatı, jurnalistikası üçün «köhnə» hesab olunan kəşfiyyat mövzusunun məharətlə işlənməsi. İkincisi, bütün süjet xətti boyu müəllif bir dəfə də, olsun artıq ad, artıq kəlmə işlətmir. Əsər mahir ustanın rəndəsindən çıxan taxtanı xatırladır. Üçüncüsü, əsərdə müəllifin mövqeyini təsdiqləyən hər hansı lazımsız bir fakta rast gəlinmir.

Blits (qısa) -portret

Blits-portret-bu janrı informasiya nəşrlərinin başqa növlərindən ayırıb, predmeti özünəməxsus təsvir etdiyinə görə müstəqil janr kimi qəbul etmək olar. Auditoriyaya insan və onun şəxsiyyəti haqqında ilk qısa məlumatı vermək üçün bu növ nəşrlərdən istifadə olunur. «Blits-portret» adı, geniş mənada, xüsusi predmetin təsviri ilə insanı tanışlığa hazırlayır. Qeyd adlı bu cür janrın mövcudluğu həm jurnalist, həm də,

auditoriya üçün əhəmiyyətlidir. (162) Bunu bilmək, jurnalistə «blits-portret» janrında informasiya materialı hazırlamaq, onu aydınıaşdırmaq və yazmaqda mütləq kömək olur. Auditoriyaya isə «blits-portret» sərlövhəsi adı altında söhbətin nədən getdiyini, onun düzülüşünü göstərir.

Ramilə Həsənli.
Mətbuat yazır.

Məsələn, götürək elə, nazir müavini Nağı Vəliyevi. Çox məşhur adamdır, elə deyilmi? Qüvvətli, güclü, əli hər yerə çatan, hər işi bacaran adamdır. Onun itigörən, ayıq nəzarəti altında dövlətin yüzlərlə bağ evləri, nazirliyin çoxsaylı avtomobil parkı, onlarla avtomobili, saysız-hesabsız dövlət mülki, aviakompaniya «Azərbaycan», ta nələri, nələri ... var. Ümumiyyətlə, bunların hamısı çoxminlik məmur ordusunun rahatlığı və qayğısı üçündür. Kim Nağı müəllimi tanımır! Gözəl rəhbər, əla işçi, dövlətin və xalqın qayğısına qalan insandır. Ağıllıdır, yaraşıqlıdır, hündür boyludur ... Ömrünün çox hissəsini bu vəzifədə fəda edibdir... Soruşacaqlar, kimin üçün işləyib Nağı Vəliyev? Cavab sözsüz ki, birmənalı olacaq, bəyəm bizim xalqı tanımırsınız. O dəqiqə söyləyəcəkdir: «Onlar yeyib içir, piy bağlayır... Xalq isə acından ölür... Canları çıxır, heç olmasa əmək haqqını artırmırlar. Belə də, haqsızlıq olar?» Bax beləcə, xalqın səsi məmurların adi günlərini kommentariya edir.

Bu blits-portretdən görünür ki, dövlət məmurlarının xarakteri aydın verilir. Ən əhəmiyyətli məqamlar, fəaliyyət dairəsinin müəyyən anları xırda cizgilərlə, özü də qısaca təqdim olunur. İlk tanışlıq üçün bu həm jurnalistə, həm də auditoriyaya kifayət edir. Bununla material tamamilə öz funksiyasını yerinə yetirir və müstəqil informasiya janrına malik olduğunu sübut edir.

Mini-xülasə

Bu modeldə olan materiallar özündə həqiqi (fakta əsaslanan) qeydləri ifadə edir. Qeyd janrının müstəqil informasiya növünə aid edilən «mini-xülasə» predmetin özünəməxsus təsvirinin nəticəsidir, yəni bu cür predmet mümkün hallarda yalnız bir hadisə, proses, vəziyyəti yox, bütünlükdə onların toplusunu (yığma) təşkil edir. Nəzərə almaq lazımdır ki, bunu mini-xülasənin müəllifi özü müəyyən edir. Məsələn, müəllifin nöqteyi-nəzərinə görə ən diqqətəlayiq və maraqlı hadisənin hansı zaman kəsiyində baş verməsi, müəllifə çıxışını bu çərçivə daxilində qurmağa imkan verir. Lakin jurnalist hər hansı bir hadisəni başqa əsaslara, uyğunlaşmaya (mövzu baxımından) görə birləşdirə bilər. Ola bilər ki, toplu üçün xülasənin başqa əsas fenomeni tapılsın.

Mini-xülasənin müəllifi nəşr üçün seçdiyi hadisələrin təsvirini və onların arasında olan rabitəni təfərrüatı ilə açmağı qarşısına məqsəd qoymur. O, çalışmır ki, bu cür nəşrlərdə, işıqlandırılan fenomenlərin arasında olan rabitəyə əsaslansın və bunu doğuran qanunauyğunluğu müəyyən etsin. Onun əsas məqsədi baş vermiş hadisələr arasında olan oxşarlıq haqqında xəbər vermək, həmçinin müəyyən zaman kəsiyi ərzində baş vermiş hadisə haqqında oxucuya məlumat verməkdən ibarətdır.

Ceyran Günəş.
Bir gündə dörd avtomobil qəzası.

Noyabr ayının 18-i Bakı şəhərində baş vermiş dörd ağır yol qəzası ilə yadda qaldı. Məhz həmin axşam yağan güclü yaxış bu hadisələrin baş verməsinin əsas səbəbkarı hesab oluna bilərdi, lakin çoxsaylı ölüm halları, o cümlədən qəzaya düşən avtomobillərin yararsız vəziyyətə düşməsi baş vermiş bütün hadisələrdə sürətin həddən artıq yüksək olması əsas səbəb kimi göstərilir. Metronun «20 yanvar» stansiyasının üstündəki körpüdən aşan «Mersedes»də iki

nəfər, H. Əliyev prospektində yaşayış binasına çırpılan «Toyota-Prado» avtomobilində beş nəfər, Füzuli meydanında idarəetməni itirib işıq dirəyinə çırpılan «Jiquli» maşınında üç nəfər və «N. Nərimanov» metrosunun yanında yük maşını ilə toqquşan «Opel» markalı avtomobildə iki nəfər dünyasını dəyişmişdir. Bundan başqa həmin qəzalar nəticəsində doqquz nəfər yaralanmışdır ki, onlardan da, dördünün vəziyyəti ağır hesab olunur. Dünyasını dəyişən on iki nəfərdən dördü qadın, ikisi uşaq, üçü orta yaşlı kişi, üçü isə təqaüd yaşlı insanlardır. Bütün qəzaların səbəbi Dövlət Yol Patrul Xidmətinin müstəntiqləri tərəfindən araşdırılır. İstintaq başa çatdıqdan sonra baş vermiş hadisələrə hüquqi qiymət veriləcəkdir.

Heç bir çətinlik çəkmədən görmək mümkündür ki, material informasiya xarakteri daşıyır. Burda, bir axşamda, Bakı şəhərinin müxtəlif yerlərində baş verən dörd avtomobil qəzası ümumiləşdirilir, onlar arasında olan bağlılıq göstərilir və toplum halında auditoriyaya çatdırılır. Mini-xülasə məhz bu ölçülərinə görə qeyd janrının başqa növlərindən fərqlənir. Hər şey yığcam, informasiya aydın, hadisələr arasında əlaqə, cəm şəkildə çatdırılma, bir sözlə əsil «Mini-xülasə.

Mini-tarixçə

Hal hazırda ailəvi oxu üçün yazılan qeydin bu tipi (forma, model, nümunə) dövri mətbuatda geniş yayılmış və «Avropa standartlarına» (oxucuya qısa zaman kəsiyi ərzində, az bir vaxt və qüvvə sərf etməklə istədiyi məlumatı almaq təklif olunur) uyğun olaraq hazırlanır. Başqa cür demiş olsaq, bu cür qeydlər təxminən çox da böyük olmayan informasiyaya hesablanır və rəngli foto şəkillərlə müşayət olunur.

Müasir mini-tarixçəyə oxşayan yazılar ilk dəfə 1677-ci ildə De Vize tərəfindən Fransada dərc olunan «Merkure galant» jurnalında dərc olunmağa başlayır. Auditoriyanın bu cür yazılara

böyük marağı olduğunu görən De Vize dərgidə «Madama məktub» rubrikasını açır və mütəmadi olaraq Kral ailəsindən, gübar cəmiyyətindən, həyat problemlərindən, ümumiyyətlə, ailə münasibətlərindən yazılar dərc etdirməyə start verır.

Mini-tarixçə hər hansı bir ailə, məhəbbət, peşəkar və yaxud başqa həyat, intriqa, fitnə, fəsadlar və qarşılıqlı münasibətlər əsasında formalaşan müstəqil janrdır.

Ceyran Günəş.
Toy olsun...

Əhməd həyat yoldaşını qarşılamaq üçüm dəmir yolu vağzalına daxil olanda gecədən xeyli keçmişdir. Təxminən 15-20 dəqiqədən sonra «Moskva-Bakı» sürət qatarının gəlməsi gözlənilirdi. Təmiz hava almaq üçün o, həyətə çıxır və cibindən siqaret qutusunu çıxardır və birini damağına qoyaraq yandırır. Siqareti yarı eləməmiş stansiya dispetçerinin gur səsi eşidilir: -«Moskva-Bakı» sürət qatarı qəbul olunur və birinci yola, birinci platformaya verilır. Siqareti zibil qabına atan Əhməd gül dəstəsini sinəsinə sıxaraq iri addımlarla 7 saylı vaqona yaxınlaşır. Gözləri vaqonun qapısında həyat yoldaşını axtarır. Bu zaman o, gördüklərinin yuxu olduğunu düşünür. Həyat yoldaşını başqa bir kişi müşayət edirdi. Əhməd onlara yaxınlaşır və həyat yoldaşından soruşur:

- Sevda bu kimdir?

Sevdanın cavabı özünü çox gözlətmir.

-Ərimdir,- deyə,- cavab verir.

Gül dəstəsi əlindən yerə düşən Əhməd nə demək istədiyini bilmir. Sevda isə qol-boyun olaraq yanındakı kişi ilə oradan uzaqlaşır. Əhməd isə onlara baxaraq gülümsəyir və,-toyunuz mübarək olsun!-deyir.

Biz də, yeni evlənənləri təbrik edirik!

«Mini-tarixçə» tipinə aid olan publisistik məqalələrin əsas məqsədi auditoriyanı əyləndirmək, onlara maraq doğuran in-

formasiyanı vermək, həmçinin yaxınları ilə bərabər bu məlumatları müzakirə etmək imkan yaratmaqdan, ümumiyyətlə, «insanı maraqlandıran» qeydlər verməkdən ibarətdir. Odur ki, hər bir ailədə, insanların cəmləşdiyi yığıncaqda və sair bu kimi yerlərdə informasiya janrının «Mini-tarixçə» növü maraqla qarşılanır və müzakirə olunur. (162) Janrın bu növü insanlara cəmiyyətdə baş verən dedi-qodu və hadisələri çatdırmaqla üç əsas məqsədə xidmət etmiş olur. Bunlardan birincisi-əyləndirmə, ikincisi-maarifləndirmə, üçüncüsü-informasiya verməkdən ibarətdir.

Bu cür informasiya növünün auditoriya tərəfindən müsbət qarşılanması və oxunmasının vacib səbəblərindən biri onun həcminin qısa, yığcam və adam yoran olmamasındadır. Juxarıdakı misalda söylədiyimiz bütün parametrlərdən aydın görünür ki, dediklərimiz doğrudur və başqa sübuta ehtiyac yoxdur.

Tam qətiyyətlə deyə bilərik ki, XVII-XVIII (166) əsrlərdə Fransada yaranan və sonradan geniş vüsət alan «Mini-tarixçə» müstəqil informasiya janrı olan qeydin bir növü kimi özünü təsdiqləyə bilmişdir.

Mini-məsləhət

Mini-məsləhət elə bir informasiya növüdür ki, özündə yalnız qeydi təqdim edir və onun əsas tərkibi proqramlı informasiya mənbəyindən əmələ gəlir.

Ceyran Günəş.
Biz bildiklərimizi bölüşürük.

Düyü kömək edər. Əgər sup və yaxud borş, ümumiyyətlə, sulu yemək bişirərkən təsadüfən duzunu çox atmısınızsa bundan ötəri narahat olmağa dəyməz. Təxminən 25-30 kvadrat santimetr ölçüdə təmiz ağ parça götürün və arasına yarım stəkan düyü əlavə edərək bağlayın. Sonra həmin bağlamanın bir ucunu qazanın qulpuna bağlayın, digər ucunu, yəni düyü olan hissəsini,

qazana salıb qapağı örtün. Həmin düyü bağlaması qazanda 15-20 dəqiqə qaynadıqdan sonra onu qazandan xaric edin. Sizin, yeməyin duzluğu ilə bağlı probleminiz geridə qalacaqdır.

Nanə hər şeyə dərmandır. Payız mövsümündə çöxlu nanə alın, onu yuyub təmizlədikdən sonra açıq havada suyu çəkilənə kimi saxlayın. Sonra nəm olmayan nanəni yaxşı hava işləyən qaranlıq yerdə tənzifin arasında yerləşdirin. Hər 3-5 gündən bir onu yoxlayin və çevirin. Nə vaxt ki, nanənin tam qruduğuna əmin oldunuz, o zaman onu ovxalayaraq və yaxud xırdalayıcı maşından keçirərək, hətta onu kofe üyüdən elektrik maşınında un halına düşənə kimi üyüdə də bilərsiniz. Üyüdülmüş nanəni tam quru olan şüşə qaba yerləşdirib bərk bağlayın ki, hava çəkib xarab olmasın. Nanə ədviyyət kimi həm milli mətbəxdə geniş işlədilir, həm də əsəb sakitləşdirici, yuxu gətirici və həzm prosesini yaxşılaşdırıcı məlhəm kimi də, çay halında dəmlənərək təbabətdə, o cümlədən məişətdə istifadə olunur.

Mini-məsləhət jurnalistikanın informasiya janrına aid edilir. O auditoriyanı məlumatlandırmaq üçün istifadə olunur. Bu janr məqsədinə çatmaq üçün analizə, arqumentlərə, sübut etməyə və s. variantlara yer vermir, sadəcə olaraq məsləhətlə bağlı informasiyanı oxucuya ötürür. Oxucuların verilən mimi-məsləhətlərə inanıb və yaxud inanmaması məsləhəti verənin nüfuzundan və nəşrin cəmiyyətdəki mövqeyindən çox asılıdır. Janrın analizi göstərir ki, adətən mini-məsləhətlər bu sahənin mütəxəssisləri tərəfində verilir. Çünki həmin insanlar konkret sahələr üzrə daha böyük biliyə və təcrübəyə malikdirlər. Sözsüz ki, başqa istisnalar da, burda əhəmiyyətli rol oynayır.

Ancaq elə hallarda olur ki, insanlar mini-məsləhət verdikləri sahənin mütəxəssisi deyillər. Sadəcə olaraq hansısa təsadüf və yaxud həyati məsələdə rastlaşdıqları təcrübəni oxucu auditoriyası ilə bölüşürlər.

Hər şeydən öncə belə məsləhətlər məişət xarakteri daşıyır. Necə ki, yuxarıda biz misallar gətirmişik. Məsləhətin müəllifi özünün naşılığı ucbatından həmin məsləhətdən istifadə edən

oxucuya müəyyən mənada, ziyan vura bilər. Odur ki, oxucu məsləhət verənin peşəkarlığına diqqətlə yanaşmalı və kifayət qədər ehtiyatlı olmalı, məsləhətə əməl etməzdən öncə öz yaxın əhatəsi ilə əlaqə saxlamalı, məsələni dəqiqləşdirməlidir, yəni «yüz ölçüb, bir biçməli»dir.

Lakin elə mini-məsləhətlər də mövcuddur ki, onların insan sağlamlığı baxımından heç bir təhlükəsi yoxdur. Bizim yuxarıda verdiyimiz nümunədə ki, məsləhətlər kimi. Elə mütəxəssislər var ki, onlar daima mətbuatda çıxış edir, dəyərli məsləhətlər verir və onların adı geniş oxucu kütləsinə yaxşı tanışdır. Belələrini el arasında, hətta «məsləhətçi» adlandırırlar. Mini-məsləhət insan cəmiyyətinin bütün sahələrini əhatə edə bilər.

Qeyd janrının strukturu

Qeyd janrının strukturu haqqında (onun janr müxtəlifliyindən asılı olmayaraq) müxtəlif münasibətlərdən danışmaq olar. Bunların içərisində daha böyük əhəmiyyət kəsb edən ümumi plandan biri qeyddə olan faktın mənbəyindən düzgün istifadə etmə və onun strukturu haqqında müfəssəl müzakirədir. Əgər belə demək mümkündürsə, qeydin hazırlanmasında əsas səbəb faktın olmasıdır. Məhz, bu vəziyyətdən çıxış edərək onun strukturunun iki əsas tipini seçmək olar.

Birinci tip. Qeydin strukturunda sualların ardıcıl cavablarla ifadə olunması birinci tipə aiddir. Biz bunu Nə olubdu?, Harda?, Nə vaxt?, Niyə?, Necə? və sair suallarda görürük. Jurnalistin sahib olduğu və istifadə etdiyi çıxışın məqsədindən, həmçinin informasiyanın həcmindən asılı olaraq, bu suallar müxtəlif cür düzülə, onlar az və yaxud çox ola bilərlər. Lakin hər bir halda onlar jurnalistə məlum olan hadisənin (xəbər, fəaliyyət, mühakimə, fikir, mülahizə) təsvirinə xidmət edir. Bu zaman xəbərin məğzi qısa təsvir olunursa, demək mətnin tipi müəyyən olunubdur və bunu da, xronika və yaxud salnamə adlandırırlar. Əgər qeydin məzmununu faktın ifadə olunması təşkil etmirsə (və yaxud fərziyə, ehtimal, güman) onda fəaliyyətin qiyməti,

norması, proqram (plan) strukturu, həmçinin strukturunun qiyməti, norması və proqram özü əks olunacaqdır.

Ceyran Günəş.
Yeni cəmiyyət.

Bu günlərdə Xırdalan şəhərində yeni cəmiyyət yaradıldı. Cəmiyyət QHT-ı kimi müstəqil fəaliyyət göstərəcək. Cəmiyyətin əsasını şəhərdə fəaliyyət göstərən şəxsi müəssisələrin rəhbərləri təşkil edir. Birsözlə, sahibkarlardan ibarət olan bu cəmiyyətin məqsədi sərbəst ianələr hesabına şəhərin küçə və prospektləri, park və uşaq meydançaları və bu kimi obyektlərin qurulma və abadlaşdırılmasına xidmət göstərəcəkdir. Cəmiyyətin açılışı münasibəti ilə təşkil olunan ilk yığıncaqda 170 min manatdan artıq vəsait toplanmışdır. İşə yeni ilin ilk günlərindən başlanması nəzərə alınıb. Bu müddət ərzində görüləcək işlər müəyyən ediləcək, tədbirlər planı hazırlanacaqdır. Ümumi səsvermə yolu ilə Tofiq Heydərov cəmiyyətin sədri seçilib.

Bu qeyddən görünür ki, hər şey suallara cavab üzərində qurulubdur. Harda?, Necə?, Kim?, Cəmiyyətin məqsədi nədir?, Kimlər iştirak etdi? və s.

İkinci tip. Bu qeyddə əsas fakt bir cür (ilk hadisə) formada izah olunur. Hər şeydən çox, o bir növ ümumi hadisə ilə bağlanır. Bu cür qeydin mövzusu özündə yalnız mətbuatda çıxış etmək üçün lazım olan konkret hadisənin məzmununu yox, həm də, artıq auditoriyaya məlum olan fikrin, başqa informasiyanın təsviri ilə bağlıdır. Müvafiq olaraq bu cür qeydin məntiqi strukturu daha mürəkkəb görünür.

Bu strukturun «aparıcı hissəsi» tez-tez özündə konkret faktın ümumi mühakiməsinin inandırıcı epizodunu ifadə edir, yəni jurnalistə məlum olan fakt, auditoriyaya ümumi məlum həqiqətin növbəti arqumenti kimi təqdim olunur. Bu halda, müəllif yalnız faktı təsvir etmir, eyni zamanda auditoriyaya bu həqiqətin mövcudluğunu yada salır və yaxud mövzuda onu başqa formada şərh edir. Belə olduqda mühakimənin əhəmiyyəti ya qey-

din əvvəlində, ya da ki, qeydin axırında verilir. Başlanığıc fakt deyilənin ümumi təsdiqinə münasibətdə arqument funksiyasını yerinə yetirir. Sonrakı halda isə fakt müəllifin ümumi fikrinə münasibətdə xidmətçi rolunda çıxış edir.

Ceyran Günəş.
Günahkar kimdir?

Belə bir atalar sözü var: «Özgə ağrısında, başqasını öyrətmək olmaz.» Məhz, bu ideyadan irəli gəlir ki, bakılıları və şəhərin qonaqlarını şəxsi və ictimai maddi əşyalara vicdanla yanaşmağı öyrətmək olmur.

Beləki, həmin gün keçirilən bayram tədbirlərində polisə, Mingəçevir şəhərindən gələn şəhərimizin qonağı, 52 yaşlı bir kişi müraciət etmişdir. Mürsəl adlı bu kişi polisə tükürpədici, başına gələn hadisə haqqında məlumat vermişdir. O, əvvəlcə özünün əlil olduğunu söyləmiş və bununla ürəyi soyumamış, şalvarının balağını qaldıraraq ayağının bir hissəsinin protez olduğunu göstərdikdən sonra dərdini açıqlamışdır. Mürsəl kişinin sözlərinə görə, təxminən bir saat bundan əvvəl keçmiş «Qələbə» kinoteatrının yanında tanımadığı bir nəfər gənc onun yanından qaçıb keçərkən, əlində olan çantanı alaraq gözdən itmişdir... Hər şey bir yana qalsın, çantanın içində onun müalicəsi üçün lazım olan sənədlər, o cümlədən 700 manat pul olmuşdur. Oğru hələ tapılmayıb. Axtarışlar davam edir.

Bu qeydın birinci cümləsi ümumi tezisdir, yəni «başqasının ağrısında hələ heç kim ağıllanmayıb...» Qalan hissə isə müəllifin gətirdiyi arqumentlərdən ibarətdir. Bilmək lazımdır ki, gündəlik jurnalistika təcrübəsində arqument və mühakimə arasında ciddi hədd qoyulmur, adətən onlar sinonim kimi istifadə olunur. Janrın strukturunda həddin qoyulması özünü tamamilə doğruldur. Çünki o çoxsaylı məqamlardan biri hesab olunur, özünə informasiyanı daha dəqiq və məntiqlə təqdim edir. Şübhəsiz ki, bu cür oxşar əməlli məlumatların olması jurnalistə imkan verir ki, desin: mətbuat yalnız «fakt» dərc etmir. (162)

Qeydə olan tələblər

Qeyd həqiqətən əsas informasiya növüdür. Auditoroyanı dünyada baş verən informasiya ilə çevik və cəld təmin edən bir mexanizmdir. Ən vacib «yeniliklər» haqqında rabitə vasitəsi olarar çıxış edir. Jurnalistlərdən qeydi hazırlayərkən əsasən əməli-zərurilik tələb olunur. Auditoriyanın maraqları ilə az əlaqəsi olan xəbərlər haqqında qeyd, daha doğrusu, qeyri-aktual qeyd çətin ki, onların diqqətini cəlb etsin. Artıq oxucuya məlum olan xəbərlər haqqında qeyd, daha doğrusu, operativ (əməli) surətdə olmayan qeyd əhəmiyyətsiz hesab oluna bilər.

Madam ki, dünyada həddən çox hadisələr icra olunur, onlar haqqında mütləq, o cümlədən bütöv halda maksimum informasiya vermək lazım gəlir. Lakin həyatda «ölçüsüz» nəşrlər yoxdur. Qəzet səhifəsinə daha çox məlumat yerləşdirmək olar, buna görə də, «azqabaritli» nəşrlərə tələbat artır. Qeyd tələbatına görə mövcuddur. Burdan isə, qeydə növbəti tələb əmələ gəlir-*dəqiqlik, müxtəsərlik və ifadəlik.* (13)

Qeyd etmək olar ki, bəzi müəlliflərin səyi, təşəbbüsü, əgər belə demək mümkünsə, özünü buna bənzər standart tələblərə «bağlamamaq» və bayağı olmayan qeyd yazmaq arzusunu həmişə reallaşdırmır. (4)

Qeydi «başlanğıc, ilk, əsas» informasiya janrı adlandırmaq olar. Qaydalara əsasən onun xarici nişanələri var: bunu deməyə, informasiya materialının həcmi və onun daha aşkar gözə çarpan formada olması imkan verir. Auditoriyanı təmin etmək üçün, janr yaradan səbəblərin informasiya nəşrində «genişlənmə» dərəcəsindən asılı olmayaraq, təsvir olunan predmetin xarici cizgilərinə xas, lakin daxili mahiyyəti etibarı ilə onun əlaqələrinə nüfuz etməyən hissəsi ən əhəmiyyətli informasiya sayılır.

2.İNFORMASİYA KORRESPONDENSİYASI

Korrespondensiya elə bir janrdır ki, fəaliyyətinə yeni başlayan və zəif hesab olunan jurnalistlər öz qeydlərini ona çevirərək ondan bəhrələnmək istəyirlər. Lakin həqiqətdə, korresponden-

siya qeyddən informasiyanın çoxluğuna və həcminin böyüklüyünə, həmçinin süjet xəttinin genişliyinə, xırda hissəciklərin açılmasına, o cümlədən proqnozun verilməsinə görə fərqlənir və bu baxımdan onun həcmi 50-100 xətt arasında dəyişir.

İnformasiya korrespondensiyası, mövzunun daha geniş və xırdalıqlarına kimi işıqlandırılması baxımından qeyd janrından əhəmiyyətli dərəcədə fərqlənir. Bu cür mövzu ilə adətən hansısa nadir hadisə, vəziyyət, əhvalat çıxış edir. Bununla belə, buna oxşar janrlar özünə yalnız mövzunun faktoloji təsvirini deyil, eyni zamanda, sərəncam, əmr etmə, proqnoz, qiymətləndirmə və s. bir çox başqa elementləri də, daxil edə bilir. İnformasiya korrespondensiyasının müəllifi öz qarşısına təsvir olunan mövzular arasında rabitənin olmağını və onun nəticəsinə daxil olmaq tapşırığını qoymur. Onun üçün əsas-hadisənin üzdə olan bir neçə parametrinin təsvirını xəbər verməkdir.

Ceyran Günəş.
Məktəblilərdən dondurma düzəltmək istədilər!

Görəsən indiki məktəblilər daha nələr fikirləşib tapmırlar... Gah görürsən ki, müəllimin stulunun üstünə yapışqanlı kağız qoyurlar, gah görürsən ki, başqasının çantasına pişik balası yerləşdirirlər, gah da görürsən ki, məktəbin sanitar qovşağında olan su kranlarını bağlayıb açarlarını özləri ilə götürürlər. Bu hadisələr getdikcə ciddi xarakter almağa başlayır...

Elə bir neçə gün bundan əvvəl, Bakının Yasamal rayonunda, Mirəli Seyidov küçəsində yerləşən 159 saylı məktəbin tinində, yaşları təxminən 16-17 olan üç oğlan uşağı pusquda dayanıb şagirdlərin tənəffüsə çıxmalarını gözləyirdilər. Zəngdən sonra məktəbin həyətinə çıxan bir qrup şagirdə yaxınlaşan həmin üç oğlan onların üstünə əllərində olan ağ-sarımtıl toz ovuntusunu səpərək qaçıb aradan çıxdılar. Üst-başını təmizləyən şagirdlər zəng çalındıqdan sonra sinifə daxil olurlar. Dərsin 15 dəqiqəsi keçdikdən sonra həmin şagirdlər növbə ilə özlərini pis hiss etdiklərini bildirir, kimi başını, kimi boğazını, kimi qarnını tut-

maqla özlərində ağrı hiss etdiklərini deyirlər. Məsələdən agah olan sinif müəllimәsi yubanmadan məktəbin direktoruna məlumat verir. Sinifə gələn direktor tələsik təcili yardıma və polisə zəng vuraraq baş vermiş hadisə ilə onları xəbərdar edir.

Bir neç dəqiqədən sonra həm təcili tibbi yardım, həm də, polis maşını məktəbin həyatinə daxil olurlar. İlk tibbi baxışdan sonra 7 şagird təcili tibbi yardım maşını ilı Bakı şəhər Mərkəzi Klinik Xəstəxanasının toksikologiya şöbəsinə yerləşdirilir. Onlar xəstəxanaya yerləşdiriıən zaman özlərini yaxşı hiss etmiş, heç bir xoşagəlməyən hadisə qeydə alınmamışdır. Polis isə istintaq işilə məşğul olmağa başlamış, paltarlarda olan toz ovuntularından analiz üçün nümunələr götürmüşdülər.

Analizin nəticəsində məlum olmuşdur ki, uşaqların üstünə səpilən toz ovuntusu dondurma istehsflında istifadə olunan zərərsiz qida məhsuludur. Yaxşı ki, bu hadisə məktəbin dərs sistemini iflic vəziyyətinə salmamışdır. Uşaqlar xəstəxanadan evlərinə buraxılmışdılar. Hal hazırda polis üç nəfər oğlanın axtarışını davam etdirir və inanır ki, gec-tez həmin gənclər tapılacaq, öz layiqli cəzalarını alacaqlar. Onların məsuliyyətdən yayınıb cəzasız qalmaları mümkün deyil.

İnformasiya korrespondensiyası öz mahiyyəti etibarı ilə reportaj janrına yaxındır, lakin bəzi səbəblərə görə onunla eynilik təşkil etmir və elə hesab olunmur. Məsələ ondadır ki, korrespondensiyanın müəllifi (necə ki, yuxarıda baxdığımız mövzunun müəllifi kimi), adətən hadisənin baş verdiyi zaman həmin yerdə olmur. Bundan başqa o, hadisəni tamamilə təsvir etmək, onu emosional, həyəcanlı, təfsilatlı şəkildə yazmaq (çox hallarda hadisə zamanı və yaxud hadisədən sonra orda olmadan bunu etmək mümkün deyil) tapşırığını qarşısına məqsəd kimi qoymur.

Bundan əlavə, reportaj baş vermiş hadisəni yazmaq üçün (çox hallarda qeyri-adi) daha əlverişlidir. Korrespondensiya isə daha tez-tez adi hadisələri yazır, əlbəttə ki, yalnız onları yox, həmçinin hansısa müəyyən çərçivədən, hüduddan kənara

çıxmayan vəziyyəti, prosesi və s. Korrespondent üçün başlıca amil-işin mahiyyətini ifadə etməkdir. Reportyor (müxbir) üçün ən əsas, işin mahiyyətini təsirli, əyani, həyacanlı vermək lazımdır ki, reportajı oxuyan auditoriyada hadisənin yerində olmaq effekti, təsiri hiss olunsun. (162)

3.İNFORMASİYA HESABATI

Hesabat-hər hansı bir keçmiş hadisənin, tədbirin, binagüzarlığın toplanmış, cəmlənmiş halda verilməsi deməkdir. Hesabat elə, hesabat olaraq qalır. Əsasən, təntənəli mərasimlərdən-qurultay, təqdim etmə (prezantasiya), mətbuat konfransı, simpozium və başqa əhəmiyyətli tədbirlərdən sonra yazılır. Hesabatda əsasən şəxslərin çıxışları, həmçinin faktlar-rəqəmlər ardıcıllıqla sadalanır. İnformasiya hesabatının həcmi 50-300 sətr arasında dəyişir. Hesabat özünün ifa tərzinə, rəsmiliyinə və ardıcıllığına görə başqa janrlardan fərqlənir. Onun dili və üslubu-rəsmi və işgüzardır. Məhz, bu xüsusiyyətlərə malik olduğuna rəğmən onun aşağıdakı növləri mövcuddur:

1.Vasitəsiz (birbaşa) hesabat;

2.Heç kimin iştirakı və kommentariya olunmadan hadisə yerindən verilən hesabat; baş vermiş siyasi görüş haqqında hesabat-rəsmi məlumat-nağıl etmə;

3.Kommentariyanın elementləri ilə olan hesabat-fikir, xəyal, düşüncə;

4.Geniş kommentariya ilə müşayət olunan ətraflı, müfəssəl, geniş hesabat.

Bu janrın publisistika modelinə daxil olmasının əsas səbəbi «informasiya hesabatı» kimi müstəqil, o cümlədən mövzunun təsvir olunmasında xüsusi keyfiiyyətlərə malik olmasıdır. Bu cür hesabatlarda, informasiyanın mübadilə formasında yekunlaşmasında, elə hadisənin özü çıxış edir. Bu, bütün mümkün olan konfrans, iclas, simpozium (beynəlxalq müşavirə), seminar, yığıncaq və s. spektrə daxil olan bütün formaları əhatə edir.

Buna görə də, onların gedişi özündə müxtəlif məlumatı, planı, məramı, qərarı və sair təqdim edir, KİV-nin auditoriyası üçün mümkün olan maraqlı hədəfi seçərək (hərçənd ki, auditoriyanı iclas, konfrans, simpozium, seminar, yığıncağın gedişi zamanı müxtəlif tərəflər maraqlandıra bilər) yeni «məhsul» hazırlayır.

Ramilə Həsənli.
Yaşayarıq, görərik...

Bakı şəhər İcra hakimiyyətində, meriya ilə Nəqliyyat nazirliyinin birgə iclası keçirilmiş və aşağıdakı məsələlər müzakirə olunmuşdur.

1.55 kilometrlik Bakı ətrafı dairəvi maqistiral yolun çəkilməsi və şəhərin daxilindən çıxan bütün istiqamətlərin bu yola birləşdirilməsi məsələsi irəli sürülmüşdür.

2.1990-cı ilə kimi olan nəqliyyat vasitələrinin, o cümlədən Rusiya istehsalı olan avtomobillərin Bakı şəhərində istifadəsi, həmçinin Bakı şəhərinə daxil olmasının qadağan edilməsi müzakirə olunmuşdur.

***Dairəvi yolun Beynəlxalq tələblərə cavab verməsi üçün bu yol ən azı 8-10 zolaqdan ibarət olmalı, müasir işıqlandırma sistemi qurulmalı, xətlər tələblərə uyğun olaraq rənglənməli və s. Bütün baş verə biləcək təhlükəsizlik tədbirlərini nəzərə almaqla, mümkün kommunikasiya xətləri maqistiral yolun üstündən və yaxud altından (keçid vasitəsi ilə) keçməli, yaşayış məntəqələrindən yola birbaşa çıxış olmamalıdır;**

***Dairəvi yolun üzərində qurulacaq çoxsaylı sərnişin və texniki dayanacaqların yolun gediş hissəsindən kənarda qurulması mütləq layihəyə salınmalı, konkret ölçülər göstərilməli və bu məcburi xarakter daşmalıdır;**

***Texniki təmir məntəqələri, yanacaq doldurma stansiyaları, avtomobil yuma mərkəzləri və sair məişət xarakterli obyektlər əsas yoldan 40-50 metr aralıda qurulmalı, heç bir güzəştə gedilməməlidir.**

Bütün tələblərə cavab verən, Beynəlxalq səviyyəli yolun in-

şasından sonra, Bakı şəhərinin mərkəzi küçələri yüklənmədən azad olacaq, gediş-gəliş normaya düşəcək, işıqforların yoxluğu fasiləsiz hərəkəti təmin edəcək və nəticədə hamı razı qalacaq, hətta ekologiya nazirliyi də...

Bu gün Bakı şəhərində, Dövlət Yol Polis İdarəsinin informasiyasına görə 1 milyondan artıq avtomobil hərəkət edir. Onların üçdə bir hissəsinin istismar tarixi 20 ildən çoxdur. İl ərzində Bakıda istismar müddətini başa vurmuş 35-40 min avtomobil sıradan çıxır ki, bu da xüsusi formada utilizasiya tələb edir. Bunun üçün mövcud qanunvericilikdə dəyişiklər olunmalı və dəmir emal edən yeni iri müəssisə tikilməlidir...

Bu informasiya hesabatına əsaslanaraq söyləmək olar ki, Bakı şəhər İcra Hakimiyyətinin Nəqliyyat nazirliyi ilə birgə keçirdiyi iclasda müzakirə olunan problemlərin məcmuəsi burda qıca və aydın şərh olunub, həmçinin kifayət qədər informasiyanı özündə cəmləyibdir. Misal gətirdiyimiz hesabatı istənilən həcmdə vermək mümkündür. Ancaq biz burda şablonçuluqdan uzaq olmağa üstünlük verdik. Nəzərdə tutulan, görülməsi planlaşdırılan məsələlərin mövzuda yer alması onun informasiya hesabatı olmasından xəbər verir. Burda, informasiya hesabatının müəllifi iclas zalının möhtəşəmliyini, çıxış edənlərin cəmiyyətdə tutduğu mövqeyi, çıxışların istiqamətini və sair başqa məqamları işıqlandırmağı qarşısına məqsəd qoymur. Jurnalistin məqsədi yolun layihəsi ilə bağlı bütün informasiyanı toplamaq və onun haqqında oxucu auditoriyasına təfərrüatlı hesabat verməkdən ibarətdir.

Hər hansı bir hesabatın müəllifi, əgər yazacağı mövzunun tədbirində iştirak edibsə və bu yazıda tədbirdə iştirak edənlər haqqında ətraflı məlumat vermək istəyirsə o, mütləq həmin şəxslərin adını, soyadını, cəmiyyətdə tutduğu mövqeyi, vəzifəsini və s. dəqiqləşdirməli, doğru-dürüst hesabat verməlidir. İnformasiya hesabatında qəbul olunan qərar və yaxud planlaşdırılan tapşırıq haqqında müəllif yoxlanılmış məlumatlara əsaslanmalı, onları doğru ifadə etməlidir. Bu cür dəqiqlik jur-

nalisti mümkün olan və yaxud ola biləcək bütün problemlərdən sığortalayır, informasiyanın təhrif olunmasına, həmçinin müəllifin auditoriya qarşısında gülünc vəziyyətə düşməsinə imkan vermir.

4.İNFORMASİYA MÜSAHİBƏSİ

Müsahibə jurnalistin faktı, hadisəni, xəbəri işıqlandırmaq məqsədilə subyektin özü haqqında danışığa və yaxud ikinci şəxslə dialoq qurmasına deyilir. Müsahibənin həcmi mövzunun aktuallığından asılı olaraq dəyişə bilər və onun konkret çərçivəsi müəyyən olunmayıbdır. Müsahibədə subyektin tərcümeyi-halı haqqında qısa məlumat verilir, bu da oxucuya, dinləyiciyə və tamaşaçıya əlavə məlumat verməklə, həm də, onda müsahibəyə maraq oyatmağa xidmət göstərir.

Bir çox məqalələrin yaranmasında müsahibə metodunun tətbiq olunması, özündə müsahibə prosesinin reallığını qəti müəyyən edir və yaxud müsahibə xüsusi olaraq sual-cavab forması üzərində qururlur. Nəticədə «müsahibə»nin janr kimi ayrılması baş verir. Əgər bu cür məqalənin müəllifi, qarşısına qoyduğu müsahibəni olduğu kimi, yəni heç bir kommentariyadan istifadə etmədən auditoriyaya çatdırmaq istəyirsə, o zaman heç bir tərəddüd etmədən birmənalı şəkildə demək olar ki, jurnalist informasiya məlumatı yaradır. Jurnalistin həmsöhbəti öz aksentini nə?, harda?, nə vaxt? sualları üzərində qurursa, böyük inamla söyləmək olar ki, bu informasiya müsahibəsidir. Yox, əgər müsahibə götürən və yaxud həmsöhbət (müsahibə verən) suallara cavabı «genişləndirib» niyə?, hansı formada?, bu nə deməkdir?, nə üçün və başqa bu kimi sualları müstəviyə gətirməklə aparırsa, nəticədə analitik informasiya meydana gəlir. (162)

Bir çox mütəxəssislər müsahibəni müstəqil janrlar bölməsinə aid etdiyi halda, başqa bir qrup mütəxəssislər onda informasiya janrının çalar və xüsusiyyətlərini görürlər. «Müsa-

hibə-bu ictimaiyyəti maraqlandıran sualın jurnalist tərəfindən konkret şəxsə və yaxud bir qrup şəxsə verilməsi nəticəsində alınan cavabdır. Söhbət zamanı jurnalistin qısa və aydın suallarla kifayətlənməyib, əksinə, həmsöhbəti ilə mübahibə aparması və onun cavabını kommentariya etməsi bu fikri təsdiqləmiş olur.» (193) Bu cür müsahibələr analitik müsahibə hesab olunur.

Bir çox alimlərin tədqiqatına əsasən «müsahibə iki qrupa bölünür: Birinci qrupa: müsahibə-informasiya, müsahibə-mülahizə (fikir, rəy); ikinci qrupa: müsahibə-emosiya (həyəcan) və müsahibə-sosioloji sorğu aid edilir.» (193)

İnformasiya müsahibəsinin irili-xırdalı aşağıdakı növləri mövcuddur:

1.Müsahibə-monoloq;
2.Müsahibə-dialoq (klassik müsahibə);
3.Eksklyuziv müsahibə;
4.Müsahibə-xəbər;
5.Müsahibə-şəkil;
6.Ekspress müsahibə;
7.Blits-müsahibə;
8.Press-konfrans, brifinq (kütləvi müsahibə);

Ramilə Həsənli.
Aktyor və onun düşüncələri.

Sizin sevdiyiniz yemək?
-Kartof qızartması, yumurta ilə...
Sevdiyiniz içki?
-Çay, limonla.
Neçə yerdə eviniz var?
-Üç yerdə.
Üç ev nəyinizə gərəkdir?
-İkici övladlarım üçündür. Biri isə mənimlə qarımındır.
Neçə avtomobiliniz var?
-Hələ ki, ikidənə...

İki avtomobil nəyinizə gərəkdir?

-Biri işə getmək, digəri isə gəzmək, bayram, təntənəli mərasimlər üçün.

Hansı kinoya baxmağı xoşlayırsınız?

-Doktor Aybolit.

Sevimli telekanal və verilişiniz hansıdır?

-İdman Azərbaycan, futbol və güləş.

Hobbiniz nədir?

-Maraqlı kitablar oxumaq.

Bu mətndə müsahibə aparan və müsahibə verən, yəni jurnalist və onun həmsöhbəti qarşıya qoyulan suallardan kənara çıxmadılar. Müsahibənin «quru» və rəsmi alınmasına baxmayaraq, biz informasiya müsahibəsinin bütün mümkün olan parametrlərinə cavab ala bildik. Nəticədə, müsahibin nə xoşladığını, neçə evi və abtomobili olduğunu, nə üçün onlardan istifadə edəcəyini, sevimli televiziya kanalını və verlişini, hobbisini və s. öyrəndik. Bura müsahibin tərcümeyi halını əlavə etmiş olsaq, müsahibə tam görkəmini almış olar.

Çağdaş dövrümüzdə, Azərbaycan mətbuatında daha çox geniş müsahibələrə rast gəlirik, nəinki qısa və yığcam. Bəzən elələrinə də rast gəlirik ki, sualın həcmi yarım səhifə təşkil edir, cavab isə bir sözdən ibarət olur. Bu suala həcminin böyüklüyünə baxmayaraq, ritorik sual demək olar, çünki cavab elə sualın daxilində olur. Bəzən də elə olur ki, verilmiş suala müsahibə verən istədiyi kimi uzun-uzadı, məntiqsiz və mənasız cavab verməkdə davam edir, hətta müəllifin özü də, başını yelləməklə həmsöhbətini bu dəstəkləyir. Nəticədə, jurnalist tərəfindən qəzet səhifəsində lazımsız «palazqulaq» müsahibə dərc olunur. Sualın və yaxud cavabın həcmindən asılı olmayaraq informasiya müsahibəsi qarşısına yalnız bir məqsəd qoyur, auditoriyanı daha çox informasiya ilə təmin etmək. Burda kommentariyaya və yaxud analitik təhlilə ehtiyac yoxdur. Əks təqdirdə bu informasiya müsahibəsi yox, Allah bilir nə olacaqdır. Elə buna görə də, informasiya müsahibəsində jurnalist kommentariyasından

və analitik təhlildən söhbət gedə bilməz. Əsas məsələ, oxucuya müəllifin qarşıya qoyduğu mövzu haqqında ətraflı informasiya verməkdən ibarətdir. Hansısa analizə yol vermək olmaz. Çünki informasiya müsahibəsinin öz forma və metodu, həcmi mövcuddur. Əks təqdirdə biz informasiya müsahibəsi deyil, analitik müsahibə əldə etmiş olarıq. (193)

5.BLİTS (QISA)-SORĞU

Sorğu-iki bioloji orqanizm «cimbioz» kimi, bir-birindən asılı olan jurnalistika və sosiologiyanın vəhdətindən yaranır. Sorğu bir və yaxud bir neçə xüsusi seçilmiş sualın, məsələnin, mövzunun kollektiv təqdim olunmasından irəli gəlir. Onun həcmi 150 sətrdən artıq olmur.

Xatırlatmaq yerinə düşərdi ki, bir çox müstəqil xüsusiyyətlərə malik olan bu janr informasiya almaq baxımından müsahibəyə oxşayır. Lakin müsahibədən fərqli olaraq, bu janrın məqsədi öz xüsusiyyətlərinə görə bir-birindən fərqlənən bir neçə (hərdən çoxlu) suala eyni bir şəxsdən və yaxud daha çox şəxsdən jurnalistin cavab almağa çalışmasından ibarətdir. Əgər müəllif bir nəfərdən soruşursa, onda bu sorğu öz-özlüyündə müsahibəyə çevrilir. O məqalələr ki, sorğunun gedişində öz müəyyənliyini nümayiş etdirir, onlar sorğunun müstəqil janrına aid edilirlər. Bu cür janr qrupunun yaranma sxemi həm də, müsahibə janr qrupunun yaranma sxemı kimidir. Müasir mətbuatın səhifələrində qarşılaşdığımız məqalələr, sorğunun gedişinin ifadə olunması zamanı qurulur və məqsədi də, ondan ibarətdir ki, auditoriyaya baş vermiş hər hansı bir üstün tutulan vəziyyətin müzakirəsi haqqında qısa məlumat versin. Belə məqalələr oxuculara, adətən «Blits-sorğu» rubrikası, və yaxud sərlövhəsi adı altında verilir.

Blits-sorğuda ən önəmli və başlıca məsələlərdən biri zamana qənaət, sual və cavabların lakonik olması və ümumiləşdirilmiş nəticə əldə etməkdən ibarətdir.

Bu cür rubrikalar oxşar, bənzər geniş sorğulu məqalələri bir-birindən ayırmaq və məlumatı daha dərindən tədqiqata cəlb etmək üçün tətbiq edilir ki, nəticədə analitik janrın xüsusiyyətlərinə aid edilən forma alınır. Ancaq bu janr xüsusiyyəti və qarşısına qoyduğu tələblər baxımından analitik janra yox, informasiya janrına aid edilir.

Ramilə Həsənli.
Tələbələrin blits-sorğuya cavabı.

Siz yenidən birinci kursa başlamış olsaydınız, hansı dəyişiklikləri görmək istəyərdiniz?

İmtahanlar kompüterlə aparılsın.
Qruplarda tələbələrin sayı azı iki dəfə azaldılsın.
Dostlarımız daha mehriban və doğma olsunlar.
Dərslər daha mükəmməl, müasir beynəlxalq sistemə uyğun aparılsın.
Rüşvətxorluq və qohumbazlıq aradan götürülsün.
Tələbələr yataqxana və daha mükəmməl kitabxana ilə təchiz olunsunlar.
Əyləncəli və intellektual tədbirlərin sayı artırılsın.
Müəllimlər tələbələrlə mehriban rəftar etsinlərlər.
Təcrübi məşğələlər süni xarakter daşımasın və imkan daxilində xarici ölkələrdə keçirilsin, həmçinin təqaüdlər artırılsın.
Lazımsız dərslər aradan çıxarılsın və müəllimlərin öz kitablarını tələbələrə məcburi satması yığışdırılsın.

Aparılan sorğuda 10 nəfər dördüncü kurs tələbəsi iştirak etdi. Onların eyni suala yığcam və qısa cavabları məsələyə tam aydınlıq gətirmiş oldu. Yəni, onlar öz arzu və istəklərini bildirməklə həm neqativ halları üzə çıxardılar, həm də qarşıda duran məsələlərə münasibətlərini açıqladılar. Tam əminliklə deyə bilərik ki, misal gətirdiyimiz blits-sorğu informasiya xarakteri daşıyır.

6.SUAL-CAVAB

Sual-cavab-1.Oxucuların sualına mütəxəssisin və yaxud redaksiyanın cavabı. 2.«Pinq-ponq», prezentasiya (təqdim etmə) zamanı şəxsin və yaxud şəxslərin məşhur adam haqqında söylədiyi fikirlər. Qəbulda olduğu kimi, çox vaxt bu mərasim söhbət və yaxud müsahibə ilə yekunlaşır. Bu janrın həcmi 20 xəttdən çox olmur. (162)

Bu formada olan nəşrlər oxucunun sualına jurnalistin və yaxud hər hansı bir səlahiyyətli şəxsin cavabının birləşməsi nəticəsində yaranır. Ola bilərmi ki, bir sərlövhə altında olan materialda, iki müxtəlif mövzu, daha doğrusu, iki ayrı-ayrı müəllifin yazdıqları birləşsin? Sözsüz ki, bu suala cavab birmənalı olmayacaqdır. Axı, KİV-də çalışan işçilərin çoxu yaxşı bilir ki, bu cür nəşrlərin səhifələrində lap qədim zamanlardan belə forma mövcud olubdur. Onlar jurnalistlərin gündəlik həyatında müəyyən olunmuş «Suallara cavab» rubrikası adı altında olmuşdur. Lakin söhbət burda, bu növ nəşrlərin informasiya janrlarından birinə ayrılması ilə bağlıdır. Onlar lazım gəldikdə qeyd dərəcəsinə gətirilir. Ardıcıllıqla bu yol ilə getmiş olsaq, publisistikanın hər hansı bir növünü qeyd dərəcəsinə gətirmək mümkündür. Əgər bu zaman, «suallara cavab»da hansısa bir spesifik xüsusiyyət mövcuddursa, onda böyük inamla onu müstəqil janra aid etmək olar. Bu cür xüsusiyyətlər isə dövri mətbuatda mütəmadi mövcud olmuş və bu gün də, var. Onların ən əsasını sual və cavabların qırılmazlığı və vəhdət təşkil etməsidir. Məsələn, qəzetimizə Gəncə şəhərində yaşayan Ə. Mərdanov tərəfindən belə bir məktub daxil olubdur. Cənab Ə. Mərdanov yazır:

-*«Milli Məclisin deputatları, Azərbaycan Respublikasının Baş Prokurorundan Milli Məclisin sabiq sədri Rəsul Quliyevlə bağlı qaldırılmış cinayət işinə aydınlıq gətirilməsini xahiş etmişdilər. Deyə bilərsinizmi, bu işlə bağlı istintaq gedir, yoxsa ona xitam verilibdir?»*

Azərbaycan Respublikasının Baş Prokurorluğunun mətbuat xidməti telefonla bizə məlumat verərək dedi:

-«Azərbaycan Respublikasının Milli Məclisinin sabiq sədri Rəsul Quliyevlə bağlı cinayət işi, onun respublikadan kənarda yaşaması ilə bağlı müvəqqəti olaraq dayandırılıbdır. Hal hazırda heç bir istintaq tədbirləri görülməsə də, işə də, xitam verilməyibdir.»

Əgər sual yoxdursa, sözsüz ki, cavabda olmayacaqdır. Başqa cür demiş olsaq, «sual-cavab» müasir dövri mətbuatın bir çox informasiya janrları arasında bir növ «siam əkizləri» rolunu oynayır. Onların bir-birindən ayrı düşməsi, adətən qəzet səhifələri üçün zərər gətirir. Sual və cavabın bir yerdə olması hansısa informasiya birliyindən, sual və cavabın vəhdətindən və onların əhəmiyyətindən xəbər verir. Bu cür cavab müstəqil qeyd kimi dərc oluna bilər, lakin unutmaq lazım deyil ki, bu zaman oxucunun marağı nəşrə kifayət qədər aşağı olacaqdır.

Demək olar ki, jurnalistikanın bu janrından bütün mətbuat orqanları istifadə edir, ancaq bunu Azərbaycan KİV-də qənaətbaxış hesab etmək olmaz. Cəmiyyətin maarifləndirilməsinə böyük ehtiyacın duyulduğu bir zamanda, bu janrın imkanlarından geniş istifadə olunmalıdır. Müstəqil Azərbaycanın həyatında baş verən mütərəqqi dəyişikliklər, yeni-yeni qanunvericilik aktlarının qəbul olunması, iqtisadi-sosial proqramlarla bağlı verilən fərman, sərəncam və qərarların daima dərc olunması və diqqət mərkəzində saxlanılması KİV-dən, ən azı, bunu tələb edir.

Sual-cavab janrının yığcam olması həm redaksiya, həm də, oxucu auditoriyası üçün əlverişli hesab oluna bilər. Onlar qəzet səhifələrində başqa informasiya janrlarına nisbətən daha az yer tutur, oxucular tərəfindən çox vaxt aparmadan rahat oxunur, böyük güc sərf olunmur, adamı yormur, yaddaşa yaxşı həkk olunur, psixoloji baxımdan insanların maariflənməsində müstəsna rol oynayır, birsözlə, beyinlərdə «fotolaşır.» (4)

Məlum olduğu kimi «sual-cavab» mövzusunun birinci hissəsi cavabda gedəcək danışığa, mövzuya sərhəd verir. Buna görə də, cavab həmişə özünün «məcburiliyi», tapşırılması ilə fərqlənir. Bütün bu sadəliyə baxmayaraq, müəyyən olunmuş

suala cavab vermək hər vaxt jurnalistə nəsib olmur. Bu əsasən o zaman baş verir ki, jurnalistin sərəncamında kifayət qədər informasiya yoxdur. Bu nöqteyi-nəzərdən cavab hissə həmişə sualla uzlaşmır, üst-üstə düşmür. Məntiqli və məzmunlu rabitəsizlikdən yan keçmək üçün jurnalistlər məqalənin hər iki hissəsində, yəni sual-cavab bölmələrində korrektə etməli olurlar, bu əsasən sual hissəyə daha çox aid edilə bilər. Bununla onlar özlərində olan informasiya ilə verilən sual arasında rabitə yaradır, balanslaşdırmaya nail olurlar. (162)

Sual-cavab formasında olan mövzuya jurnalistlər yalnız oxucu məktubları onları məcbur etdiyi zaman deyil, eyni zamanda, başqa məqsədlər üçün də, müraciət edirlər. Hərdən elə olur ki, jurnalistin özündə dərc olunmaq üçün yaxşı informasiya var və onu oxucu auditoriyasına çatdırmaq lazımdır. Deyək ki, Rəsul Quliyevlə bağlı yuxarıda verdiyimiz açıqlamadakı kimi. Əgər redaksiya onda olan cavabları müstəqil qeyd formasında çap etdirərsə, qəzet əvvəlcədən hasil olan qənaətə görə şübhə altına alınacaqdır.

Hamıya yaxşı bəllidir ki, jurnalistikanın öz qayda və qanunları var. Hər hansı bir məqalə, o da qala ki, əməli informasiyaya, bu zaman mütləq «informasiya bəhanəsi» lazım gəlir. Belə hallarda, imkan var ki, xüsusi «mütəşəkkil» oxucu məktubunun köməyi ilə bu tələbat yerinə yetirilsin. Bəzən problemi başqa cür də, həll etmək olur: jurnalist müstəqil formada düşünərək özündən sullar uydurur və onu redaksiyaya kənardan daxil olduğu kimi qələmə verir. Sonra isə onlara cavab hazırlayır. Əlbəttə, bu cür addım kifayət qədər qəbahətli hesab olunur, amma bununla belə, fakt ondan ibarətdir ki, bu metod («mütəşəkkil» oxucu məktubu) müasir jurnalistikada qələm sahibləri tərəfindən geniş istifadə olunur.

7.REPORTAJ

Reportaj-hadisə yerindən operativ və aydın «ötürülən» xəbərdir. Janrın ən əsas spesifik xüsusiyyəti-«iştirak etmək effek-

tidir.» (212) Bu o zaman baş verir ki, dinləyici, oxucu, tamaşaçı baş vermiş hadisəni müxbirin gözü ilə görə bilir. Müəllif hadisənin bilavasitə iştirakçısı olduğu üçün bütün dinləyici, oxucu, tamaşaçını baş verənlərlə bağlamağı bacarmalıdır. Reportajın əsasən iki növü mövcuddur. Onlar aşağıdakılardır:

1.Faktlarla dolu hadisə-xəbər xronoloji ardıcıllıqla (həmçinin hadisəyə kimi və yaxud hadisədən sonrakı məlumatları ayrıd etmə) verilir.

2.Tematik (mövzular)-xəbər hadisənin istənilən yerindən verilə bilər. Burda geniş və müfəssəl kommentariyaya icazə verilir.

Reportajın üslubunda və dilində iki başlanığıc ola bilər: 1). sənədli; 2). bədii. Onlar ideal balans formasında olmalıdır. Bu, janrın jurnalistə olan əsas tələblərindən biri, daha doğrusu, birincisidir. Beləki, əgər reportajda bədii dil üstünlük təşkil etmiş olsa, onda o belletristik, sənədlilik üstünlük təşkil etmiş olsa quru və maraqsız alınacaqdır. Odur ki, bu prinsip (balans) mütləq gözlənilməlidir.

«Reportaj» məfhumu XIX əsrin birinci yarsında, latın sözü olan «reportare» sözündən əmələ gəlmiş və «ötürmək», «xəbər vermək» mənasını bildirir.» (12,33-62) Buna görə də, reportaj informasiya janrına aid edilr.

İlk əvvəl reportaj janrı oxuculara məhkəmə proseslərinin gedişi, parlament müzakirə və mübahisələri, müxtəlif iclaslar və sair haqqında məlumat verməklə nəşri təqdim edirdi. Sonralar bu qəbildən olan «reportj»lar «hesabat» adlandırılmağa başlandı. Bir qədər irəli gedərək deyə bilərik ki, XX əsrin 20-ci illərindən sonra Azərbaycanda «reportaj»ı başqa cür adlandırmağa başladılar. O özünün forma və məzmununa görə müasir oçerkə daha çox oxşayırdı. Görkəmli qərb reportyorlarından hesab olunan Con Rid, Eqon Ervin Kiş, Ernest Xeminquye, Yulius Fuçik və başqaları bizim anlayışımıza görə, daha çox oçerkçi idilər, nəinki, reportyor. Hal hazırda avropalı jurnalist reportaj haqqında danışırsa, demək o, bizim anlamımıza görə oçerkdən

danışır. Qərb dünyasının oçerki, məhz onların nəzər-baxışı ilə, bu günkü Azərbaycan reportajının genetik sələfi və yaxın «qohumu» hesab oluna bilər. Azərbaycanın reportaj nəzəriyyəsində, qərb tədqiqatçılarının nəzəri fikirlərindən istifadə edərkən, bunu mütləq yadda saxlamaq lazımdır.

Reportaj janrı canlı və açıq-aydın olaraq hadisə yerindən verilir. Janrın əsas və spesifik xüsusiyyəti ondan ibarətdir ki, oxucu, dinləyici və tamaşaçı baş vermiş hadisəni jurnalistin gözü ilə görür. Müəllif özü bilavasitə hadisənin iştirakçısıdır və ora, yəni hadisə yerinə oxucunu, dinləyicini və tamaşaçını cəlb edir. Odur ki, reportajda emosiya, nida, həyacan və subyektivlik başlıca yeri tutur. Bu nöqteyi-nəzərdən reportaj janrı aşağıdakı hallara bölünür:

1.Faktlarla dolu-hadisə xronoloji ardıcıllıqla verilir. (Həmçinin burda, hadisəyə kimi olan ardıcıllıq, hadisədən sonrakı ardıcıllıqdan fərqlənir.)

2.Tematik mövzular üzrə plan-hadisə haqqında xəbər bu və yaxud başqa yerdən başlayaraq genişlənə və müfəssəl kommentariya oluna bilər.

3.Səhnə effektləri-yerin relyefini göstərmək məqsədi ilə. Bu zaman reportaj planlaşdırılmamış yerdən verilir. (238)

Reportaj bütün zamanlarda jurnalistlərin ən sevimli janrı olub. Bir çox reportyorlar «reportajın şinelindən» çıxaraq sonralar tanınmış qələm sahibinə çevrilə biliblər. Bu cür yazıçıların şöhrəti ilk öncə repotajda parlamışdır.

Janrına aid edilən məqalənin özünəməxsusluğu, ilk növbədə mövzuda müşahidə və müəyyən etmənin tətbiqi, onun açılması və gedişi nəticəsində yaranır.

Ramilə Həsənli.
Yaxşı saatsazı gündüz çıraqla axtarsan...

Bakı şəhərinin mərkəzi, Hüsü Hacıyev küçəsi, Mərkəzi Univermağın yanı, iki mərtəbəli qədim binanın birinci mərtəbəsin-

də çox zövqlə bəzədilmiş, əhaliyə yarım əsrdən çox bir müddət ərzində xidmət göstərən, bütün bakılıların yaxşı tanıdığı saat emalatxanası özünün dəyişməz mahir ustası Məmməd əmi Əhmədovla daima müştərilərin yolunu gözləyir və onlara müasir səviyyədə xidmət göstərməyə hazırdır.

Emalatxananın daxilində, çoxda böyük olmayan meydançada günün istənilən vaxtında kifayət qədər adam görmək mümkündür. Müştərilərin arasında, ağ xələtdə cavan bir qız hərlənir və onların suallarını cavablandırır və sifarişləri qəbul edir, kimlərə isə artıq təmirdən çıxmış caatlarını qaytarır ... Gözəl ədası, danışıq tərzi, yüksək mədəniyyəti, incə müşahidə qabiliyyəti, təkrar olunmaz xüsusiyyəti ilə gələnləri valeh edən bu qız Məmməd əminin emalatxanasına xüsusi yaraşıq verir.

Piştaxtanın arxasında, hündür kürsüdə əyləşən Məmməd əmi isə gözünün üstündə, alnına xüsusi kəmərlə bərkidilmiş bir neçə müxtəlif ölçülü optik böyüdücüləri sağa-sola, yuxarı-aşağı hərəkət etdirməklə öz peşəsi ilə məşğul olur və hərdən bir zalda olanlara da, göz ucu baxmağı unutmur.

Saatlarının təmir olunmasından böyük zövq alan müştərilər, belə demək mümkünsə, öz sevinc və fərəhlərini gizlədə bilmir, Məmməd əmiyə və xanım-qıza təşəkkür edərək emalatxananı tərk edirlər.

Düşünürəm ki, bu möcüzəli emalatxana və onun dəyişməz ustası olan Məmməd əmi, həmçinin insanlara xoş münasibət göstərən xanım-qız haqqında hələ danışacaqlarımız var...

Beləki, xanım-qıza yaxınlaşıb salam verdikdən sonra əlimdəki bağlamanı masanın üzərinə qoyub açıram. Oradan, təqribən 80-dən çox yaşı olan, işləməyən, o cümlədən xarici görünüşünü çoxdan itirən bir divar saatı çıxardıram və xanim-qıza təqdim edirəm. O, isə öz növbəsində, saatı silir, baxmayaraq ki, onu bura gətirməmişdən öncə evdə yaxşı təmizləmişdim, sonra böyük əda-bərkanla Məmməd əmiyə təqdim edir. Məmməd əmi saatı gözdən keçirdikdən sonra sahibinin kim olmasını soruşur. Mən,-deyərək-ustaya yaxınlaşıram. O, məni süzdükdən sonra deyir: «Görünür babangildən qalıbdır. İndi bu saatlardan yox-

dur. Çox heyif, yaxşı saatdır. Neçə vaxtdır ki, işləmir?..»

Çoxdandır, usta,-deyərək-cavab verirəm.

O isə cavabında deyir: «İki həftədən sonra gəlib apararsan. Allah qoysa işləyər.»

İki həftədən sonra mən yenidən saat emalatxanasına gəldim. Qəbzi xanım-qıza təqdim etdim. O, qəbzə baxdıqdan sonra,-hazırdı,-dedi və piştaxtanın arxasından saatı götürüb masanın üstünə qoydu. Mən isə saatı gördükdən sonra mat-mətəl qalmışdım. Saatın işləməyi kənara qalsın, o elə bir vəziyyətə salınmışdır ki, sanki zavoddan indi çıxıbdır. Saatı götürüb, haqqını ödəyib Məmməd əmiyə və xanim-qıza təşəkkürümü bildirib evə gəldim.

Babamdan yadigar qalan, görünməyən bir yerdə olan divar saatı indi evimizin ən yaxşı əşyasına çevrilməklə, divarda ən yaxşı yeri tutur.

Məhz buna görə də, həmin emalatxananın telefon nömrəsini Sizə də verirəm: 941-89-89. Emalatxana hər gün səhər saat 11-dən, axşam saat 20-dək işləyir. İnanıram ki, ora təşrif buyursanız razı qalacaqsınız. Onlar nahar fasiləsində də, işləyirlər. Çünki bizim üçün, daha doğrusu, Sizin üşün çalışırlar. Buyura bilərsiniz...

Göründüyü kimi əsas-xəbər insanların saat emalatxanasına gəlməsi mövzuda iri planda göstərilir. Bu ona görə baş verir ki, saatsazın yanına gələnlər bütün texnoloji prosesdən razı qalırlar və onlara burda hər şey təfsilatı ilə çatdırılır. Emalatxanada gedən prosesin və orda təsvir olunan hər şeyin müəllif tərəfindən mövzuda xırda hissəcillərinə kimi qeyd olunması, jurnalistin buradakı xidmətdən layiqincə bəhrələnməsi və razı qalması ilə birbaşa bağlıdır.

Hər bir reportyorun borcudur ki, hər şeydən əvvəl, auditoriyaya prosesin getdiyi yer və orada baş verənlər haqqında təfərrüatlı məlumat versin, yəni şahidin (reportyorun) gözü ilə xırda hissəciklərinə kimi bütün vəziyyəti təsvir etsin, daha doğrusu, «iştirak etmək effekti» yaratsın. (207) Bu, daha böyük öl-

çüdə o zaman baş verə bilər ki, jurnalist vəziyyət, xəbər haqqında konkret, əyani auditoriyaya nəşr vasitəsilə olanları danışsın. Bu mənada, yuxarda gətirdiyimiz misalda müəllif reportajın bütün incəliklərinə kimi toxunur, müfəssəl məlumat verir, yəni o (reportyor) saat emalatxanasının yerləşdiyi yer, oranın xarici görnüşü, içərdəki vəziyyət, saatsaz, xanım-qız, müştərilər, insanlarda olan xoş təsurat, yüksək mədəniyyət, birsözlə hər şey haqqında danışır. Bütün bunlar oxucuya imkan verir ki, guya özü orda olmuş və baş verənləri gözü ilə görmüşdür.

Reportyor üçün yalnız hər hansı bir xəbəri olduğu kimi təsvir etmək əhəmiyyətli deyil, ən əsası ondan ibarətdir ki, oxucu mövzuda söhbətin nədən getdiyini dərk etsin və bu onda baş verənlərə şərik çıxmaq, mütəəssir olmaq, həyəcan keçirmək və s. motivləri oyatsın. (212) Bunu müxtəlif yollarla həyata keçirmək olar. Daha çox bu məqsədə iki üsulla çatmaq mümkümdür. Birincisi-xəbərin dinamikasını ifadə etməklə. Bu o halda baş verir ki, təsvir olunan xəbər sürətlə inkişaf edir, müəllifə isə yalnız bu inkişafı göstərməkdən başqa ayrı əlac qalmır. Ancaq elə də, olur ki, hadisə, vəziyyət, xəbər qeyri-müəyyən, kifayət qədər sabit, çox ləng və sönük tərəqqi edir. Bu halda, müəllifə hadisənin daxili dinamikası və yaxud müəllifin həyəcanının dinamikasını ifadə etmək, onun vəziyyət ilə tanışlığından irəli gələn «səthi nəticə» kömək edir. Bizim yuxarıda saat emalatxanasından gətirdiyimiz misalda, müəllif mövzunu daha aydın, daha geniş, insanların sevinc, fərəh və həyəcanını daha effektiv, o cümlədən bədii ifadələrdən məharətlə istifadə etməklə genişləndirə, bir qədər də, gücləndirə və rəngarəng edə bilərdi. Sadəcə olaraq müəllif yer məhdudiyyətini nəzərə almışdır.

Reportajı əyani təsvir metodundan istifadə etmə nöqteyi-nəzərinə görə bir çox başqa janrlarla yaxınlaşdırmaq olar, əsasəndə, bədii-publisistika ilə. Lakin reportajda əyanilik yalnız informasiya funksiyası daşıyır. Bu funksiya konkret hadisə, vəziyyət və başqa proseslər haqqında xəbərin yerinə yetirilməsindən ibarətdir. Deyək ki, oçerkdə əyani təsvir hər şeydən öncə ümumiləşdirmə, tiplər üzrə təsnifat məqsədi izləyir. Analitik

janrda isə əyani hissələr «bəzək-düzək», «canlandırma» (238) yaratmaqla ciddi insanlar üçün istifadə olunur. Buna görə də, auditoriyanın müəyyən hissəsi üçün müəllifin fikir və düşüncələri dərk edilmir və mənimsənilmir.

8.NEKROLOQ

Bir çox qəzet və jurnallar belə spesifik xüsusiyyətli publisistik informasiyalara öz səhifələrində yer verirlər. Qeyd etmək lazımdır ki, belə yazılar qəzet və jurnal səhifələrində çox tez-tez olur. Onu da demək vacib olardı ki, bu cür informasiyalar dövri mətbuatın yarandığı gündən indiyə kimi davam edir. Bu janr nekroloq adlanır. Nekroloq janrının özünəməxsusluğuna əsaslanaraq ehtimal etmək olar ki, bu fakt kimi hər hansı bir insanın ölümünü ifadə edir. Bu cür publisistik məqalədə əsas fikir, kriminal nəticəsində öləndən fərqli olaraq, hər şeydən öncə oxucu auditoriyasına, cəmiyyətə daha çox tanış, məşhur olan insan haqqında olur və bu janr vasitəsilə dünyasını dəyişən haqqında məlumat verilir.

Bütün bunlarla yanaşı nekroloqda ölənin qısaca bioqrafiyası-onun doğulduğu yer, tarix, hansı ailədən çıxması, işlədiyi yer, tutduğu vəzifə, qazandığı nailiyyətlər, dövlət təltifləri, ictimiyyət arasında olan nüfuzu və sair xəbərdə yer alır. Bəzən nekroloqda ölümün səbəbi və ölənin harada dəfn olunması haqqında məlumatlar verilir. Adətən, nekroloq ölənə həsr olunan vida nitqi, kədər və qəmgin ifadələrlə yekunlaşır.

Firidun bəy Köçərli.
Vəfati-şair.

Bu günlərdə «Məlumat» ruznaməsinin axırıncı nömrələri yetişdi. Bəradərim Səhhətin verdiyi «Qara xəbəri» oxudum. Bir neçə dəqiqə gözlərimə qaranlıq çökdü, bilaixtiyar qəzetə əlimdən yerə düşdü. Bu xəbər milli şairimiz Mirzə Ələkbər Tahirzadə Sabirin vəfatı xəbəri idi. «İnnalillahi və innaileyhi raciun».

Bəli, ölüm allah əmridir. Hər yaranan öləcəkdir. Hər kəs ki, bu dünyaya qədəm qoyubdur, gərəkdir getsin! Bizim əziz və istəkli şairimiz Sabir dəxi çox zəhmətdən, cismani və ruhani əziyyətlərdən və küdurətlərdən sonra gözəl canını can yaradana təslim elədi. Mərhum ölüb getdi. Amma çox həsrət ilə getdi və özü ilə bahəm axirət evinə böyük arzularını və gözəl fikirlərini apardı.

Sabir getdi,-bizi dəxi sinəsi dağlı və ürəyi qəmli, həsrətdə qoydu. Mərhumdan bizim böyük təmənnalarımız var idi. Onun lisanından təzə sözlər, təzə fikirlər eşitmək istəyirdik. Vəli, çox əfsus ki, əcəldən macal olmadı və Sabir həsrət ilə gedib, bizi də həsrətdə qoydu.

Mərhumun tərcümeyi-halı və asarı haqqında gələcəkdə əhəmiyyətli məlumat yazmağı möhtərəm oxucularımıza vədə veririk. Onun məndə bir çox nəzmən və nəsrən yazılmış məktubatı var ki, cümləsi mənim məhəlli-iqamətim olan Qori şəhərində qalıbdır. Allahdan Borjom seyfiyyəsinin basəfa bir küncündən Sabirin ruhi-pakinə salamımı yetirib, əhl-əyalına və xiş-əqrəbasına sərsəlaməti verirəm. (Tərtib edən və araşdıran: Akademik Kamal Talıbzadə.)

Gətirdiyimiz bu misalda vəfat edənin kimliyi, cəmiyyətdə olan nüfuzu, ziyalılar tərəfindən hörmətlə qarşılanması, əzab-əziyyətli bir ömür sürməsi və bir çox başqa əlamətlər lakonik formada, nekroloq janrının tələblərinə uyğun şəkildə verilibdir. Yazının müəllifi hörmətli oxucularına gələcəkdə M. Ə. Sabir haqqında daha ətraflı və müfəssəl məlumat verəcəyini vəd edir. Məqaləyə diqqətlə fikir vermiş olsaq görərik ki, publisistin oxucuya çatdırdığı məlumatlar informasiya xarakteri daşıyır. Məhz, buna görə də, nekroloq informasiya janrına aid edilir.

ALTINCI FƏSİL

ANALİTİK JANRLAR: XÜSUSİYYƏTİ VƏ YARANMA SƏBƏBLƏRİ

İctimai həyatın bütün sahələrində fəal cərəyan edən və cəmiyyətin inkişafına təsir göstərən-hadisə, xəbər, proses, vəziyyət və bunlarla bağlı nəzəri və təcrübü problemlər analitik jurnalistikanın ***predmeti (mövzusu)*** ola bilər. (203)

İctimaiyyətin inkişafı üçün effektiv yollar axtarmaq, lazımı sualları müstəviyə gətirib həlli mexanizmini müəyyən etmək və göstərmək analitik jurnalistikaya xas olan xüsusiyyətlərdi. Problemi təyin etmək, hadisələrin inkişafını şərtləndirmək və vəziyyəti dəyişmək, həmçinin cəbəbi, əsası, marağı, müxtəlif sosial güclərin fəaliyyətini öyrənmək, o cümlədən müasir əks qütblü tendensiyaların inkişafını, müasirliyini, düzgünlüyünü və müxtəlif ideyaları əsaslandırmaq nöqteyi-nəzərdən bütün söylənilənlərin hamısı analitik jurnalistikanın çiyinlərində öz doğru yerini tapır.

1.Səbəbi açmaq istedadı. Mətndə olan müddəa, tezis, arqument, müəllifin qiyməti və sair;

2. İlk planda tanınma və dərk etmə prosesini təqdim etmə bacarığı dayanır. Buna görə də, inandırıcılıq və sübutluluq üçün müəllifin məntiqi dəqiq və aydın olmalı, izləmə, həmçinin təqdim etmə düzgün müəyyən olunmalıdır.

3.Bütün üsul və tanınmanı geniş təqdim etmək üçün:

-tutuşdurma (müxtəlif məqamları aydınlaşdırmaq məqsədi üçün bütün məlum olanlar qarşı qarşıya qoyulur və nəticə çıxarılır);

-oxşarlıq-bənzərlik (oxşarlığı aydınlaşdırmaq məqsədi

üçün qarşılaşdırma metodundan istifadə olunur);

-qiymət (müvafiklik idealına əsasən əşyanın yoxlanması);

- detallaşdırma (ən dəyərli xırdalıqlara, təfərrüatına kimi üzə çıxarmaq);

-aydınlaşdırma, izah (istintaq-səbəb əlaqələrini yaratmaq məqsədi);

-qabaqcadan demə (hipotenuza qurma);

-ümumiləşdirmə (hadisələr üzrə işin ümumi halqasını müəyyən etmək).

4.Analitik jurnalistikada əlaqə düşünmə səmtinə yönəlir. Çünki müsahibə mətnində hər şey nəzərdə, fikirdə tutulur.

5.Materialın əyani surətdə öyrənilməsi üsulu: həmsöhbətdən informasiyanın izahat vasitəsi ilə əldə olunması.

6.Həqiqət, gerçəklik analitik jurnalistikanın inkişaf və dinamikasında əks olunur. (223)

Yalnız analitik janrlar oxucu auditoriyayasına istintaqla əlaqəli təsdiqlənmiş, inkişafı proqnozlaşdırılmış, planlı fəaliyyətə söykənən, mövzuda əks olunan geniş və açıq şərh, fakt, izah təqdim edə bilər. Auditoriyanın sosial yönümlüyünü və məlum informasiyanın qiymətini inkar etmədən tam məsuliyyətlə deyə bilərik ki, analitik jurnalistika bu sahədə aparıcı rol oynayır.

Analitik janrlar aşağıdakılardı:

1.Analitik hesabat.
2.Analitik korrespondensiya.
3.Analitik müsahibə.
4.Analitik sorğu.
5.Söhbət.
6.Kommentariya.
7.Sosioloji xülasə (nəticə).
8.Anket.
9.Monitorinq.

10.Reytinq.
11.Resenziya.
12.Məqalə.
13.Jurnalist təhqiqatı.
14.İcmal .
15.Kütləvi İnformasiya Vasitələrinin xülasəsi.
16.Proqnoz.
17.Variant.
18.Eksperiment (təcrübə, sınaq).
19.Məktub (epistolyar).
20.Açıq etiraf (tövbə).
21.Rəy (məsləhət), tövsiyə.
22.Analitik pres-reliz.

1.ANALİTİK HESABAT

Hesabat-baş vermiş hər hansı bir hadisə, qəziyyə, tədbir, binagüzarlıq haqqında toplanmış material deməkdir. Analitik hesabat informasiya hesabatından tamamilə fərqlənən bir janrdı. Prinsip etibarilə əldə olunmuş faktlar yoxlanılır, güclü və zəif yerləri araşdırılır, fakt, dəlil, sübutlar tutuşdurulur, kommentariya edilir və nəticə çıxarılır. Bu janrın həcmi baş vermiş hadisənin və yaxud keçirilən tədbirın miqyasından, həmçinin iştirak edənlərin sayından asılı olaraq müəyyənləşir və təxminən 300 xətt təşkil edir. Hesabatın bir neçə növü məlumdur. (202) Bunların ardıcıllığı aşağıdakı kimidir:

1.Birbaşa hesabat-hadisə və yaxud tədbir yerindən heç bir kommentariya olmadan, bilavasitə ötürülən informasiya;

2.Rəsmi hesabat-keçirilmiş siyasi görüş haqqında məlumat;

3.Düşünülmüş hesabat-əsaslanmış və kommentariya ilə verilən hesabat;

4.Geniş hesabat-verilən məlumatı geniş izahla müşaiyət edən kommentariya;

5.Dil və üslub hesabatı-rəsmi-işgüzar.

Analitik hesabat publisistik vasitə olaraq jurnalistikanın ən qədim janrlarından biri hesab olunur. Onun müxtəlifliyi özünü əvvəlcə informasiya hesabatında büruzə verir. Bu janr yaxın keçmişdə şah, çar, imperator, kral və bu qəbildən olanlar tərəfindən fərman və göstərişlər, yaxın keçmişdə isə şifahi xəbər, məruzə, qurultay və parlament iclasları, brifinq və konfranslar üçün çıxış formasında nəzərdə tutulmuşdur. Hal-hazırda hesabat adlandırdığımız janr vaxtilə «reportaj» (xəbərlər) funksiyasını daşısa da, zaman-zaman o dəyişmiş və müasir oçerk və reportaj formasına düşmüşdür. Analitik hesabat jurnalistlər tərəfindən qeyd, reportaj, korrespondensiya kimi də, istifadə və yaxud onlarda əks olunur. Lakin bütün bunlar müstəqil janr kimi onun jurnalistikada olmasınin üzərinə kölgə salmır. (241)

Çağdaş jurnalistikada hesabat janrı çox fəal istifadə olunur. Müxtəlif çalarlar baxımından hesabat bu gün analitik hesabat kimi öz təsdiqini tapa bilmişdir. Onu «böyük qardaşından», yəni informasiya hesabatından nə ayırır və yaxud nə birləşdirir?

Beləki, informasiya janrlarının elan olunmasında əsas diqqət konfransın, iclasın gedişinə istiqamətləndirilir, yəni kimin necə çıxış etməsi, nə deməsi, hətta necə deməsi və bunun necə olması, auditoriya tərəfindən nə cür qarşılanması və sair haqqında xəbər verilir, bir sözlə, predmetin xarici tərəfi işıqlandırılır.

Analitik hesabatın predmeti isə tamamilə başqadır. O çıxışın, nitqin, məruzənin daxilinə, onların bağlılığına nəzər diqqəti cəlb edir və bu hissələri əks etdirir. Predmet müxtəlif janrların əks olunma bucağını çıxışlardan alır və bu məqsədə xidmət edir. İnformasiya hesabatının məqsədi auditoriyanı konfransın, iclasın və sairin gedişi haqqında məlumatlandırmaq olduğu halda, analitik hesabat tamamilə başqa cür çıxış edir.

Analitik hesabatın üstünlük verdiyi əsas istiqamət bu və yaxud başqa çıxış, məruzə, dinləmələr arasında olan bağlılığı göstərmək, qiymətləndirmək və bu çıxışlarda başlıca, həm də real vəziyyəti, prosesi ön plana çəkməklə şəhər, rayon, kənd, qəsəbənin ümumi mənzərəsini, həmçinin orda mövcud olan

vəziyyəti işıqlandırmaq, auditoriyaya bu barədə müfəssəl məlumat verməkdən ibarətdir.

Analitik hesabat konfrans, qurultay, iclas iştirakçılarının çıxışını auditoriyanın diqqətinə çatdırmaqla onlar arasında «körpü» yaradır, real vəziyyət haqqında oxucuları həmin zaman çərçivəsində məlumatlandırır, yəni onları həyatda baş verən və yaxud verə biləcək məqamlarla tanış edir. (203) Bununla belə, analitik hesabatı hazırlayan müəllif informasiya hesabatını hazırlayan müəllifdən fərqli olaraq, öz qarşısına bütün məlumatlar və yaxud çıxış edənlər haqqında hesabat vermək tələbini qoymur. O, sadəcə olaraq öz baxış bucağını ən vacib məsələlər üzərində cəmləyir və öz nöqteyi-nəzərindən daha çox maraq doğuran çıxış və real işləri analiz edir, əsas bağlılıqları və məqsədləri ön plana çəkir, bütün bunlar haqqında auditoriyaya məlumat verir.

Ola bilsin ki, seçim məruzələrin mövzu, mətləb vahidliyi baxımından aparılsın və yaxud başqa meyarlar əsas götürülsün. Bu cür seçim aparmaq jurnalistin səlahiyyət dairəsinə aid olan bir işdir. Bu məqamda müəllif geniş təsnifat imkanına malik olur və hadisələrin gedişinə öz prizmasından yanaşır. Mümkündür ki, jurnalist diqqətini hər hansı bir məruzəçinin çıxışı üzərində kökləsin və bu mövqedən real problemləri şərh etsin, qiymətləndirsin. Öz-özlüyündə, istər-istəməz analiz aparılarkən müəllif məruzəçinin çıxışından kənara çıxmalı olur. Bu isə bizə analitik hesabatı, informasiya hesabatından fərqləndirməyə, həmçinin dəyərləndirməyə imkan verir.

Amma bu, heç də o demək deyil ki, analitik hesabatın müəllifi çıxış edən iştirakçının məruzəsinin forma və məzmununu dəyişsin, onu istədiyi kimi oxucu auditoriyasına çıxarsın. Jurnalist məruzəçinin çıxışını aydınlaşdıra, müzakirə, şərh, izah və ondan bəhs edə bilər. Ancaq bu elə bir formada olmalıdır ki, oxucu auditoriyası müəllifin fikirlərini forumda çıxış edən iştirakçının fikrindən seçə bilsin və baş verən mənzərə haqqında özündə obyektiv fikir formalaşdırsın.

Toplantıda iştirak edən jurnalist, məruzəçinin real proses,

problem və real vəziyyətdən çıxış etməsini, problemə aydınlıq gətirmək istəyini, həmçinin vəziyyətin aktuallığını və onun qiymətləndirilməsini, o cümlədən prosesin inkişafı, həmçinin proqnozlaşdırılmasını, onların planlı, düşünülmüş, proqramlı şəkildə fəaliyyətini əlaqələndirməyi bacarmalı, öz diqqətini bu istiqamətə yönəltməlidir. Yalnız bu halda, jurnalist toplantının gedişinə, məruzəçilərin çıxışına, problemin həlli ilə bağlı təklif və real məsələlərə öz münasibətini bildirə və oxucunun diqqətini lazimi istiqamətə cəlb edə bilər. Məhz bu təqdirdə, analitik hesabatın növünü-*izahatlı hesabat, qiymətləndirici hesabat və yaxud proqramlı hesabat* (241) olmasını təyin etmək mümkündür.

Ramilə Həsənli.
Polislər mafiyaya qarşı (Rus dilindən tərcümə).

Helsinki şəhərində, Avropa İttifaqı ilə Rusiya arasında mütəşəkkil cinayətkarlığa qarşı mübarizə mövzusunda keçirilən konfransda Birləşmiş Avropanı Avropolun koordinatoru Yurqen Ştorbek və Finlyandiyanın Daxili İşlər naziri Kari Xyakyamies təmsil etdiyi halda, Rusiyanın böyük nümayəndə heyətinə Rusiyanın Daxili İşlər naziri Vladimir Ruşaylo rəhbərlik edirdi.

İki gün ərzində, konfransda Avropanı və Rusiyanı təmsil edən iki yüzdən çox ekspert-müstəntiqlər, prokrotura işçiləri, vergi polisi və gömrükçülər mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin bütün mümkün olan üsullarını müzakirə etmişdilər. Konfrans iştirakçıları qeyd etmişlər ki, cinayətkarlar miqrasiya prosesində öz ölkələrini çox geridə qoymuşlar.

Çeçenistan mövzusu bütün beynəlxalq görüşlər üçün o qədər ənənəvi hal alıbdır ki, Qərbin və Rusiyanın nümayəndə heyətləri, həmçini Finlyandiyanın Daxili İşlər naziri «Çeçenistan mövzusunun konfransın gündəliyinə salınmaması haqqında» xüsusi sənəd yaymışdır. Lakin buna baxmayaraq Çeçenistan mövzusu Rusiya tərəfindən masa üzərinə gətirilmişdir.

Vladimir Ruşaylo Rusiya siyasətinin Çeçenistana münasibəti mövzusunda deklarasiya ilə çıxış edir. O, danışıqlar zamanı cinayətkarlığın əsas istiqamətləri siyahısına, avropalılar tərəfində qeyd olunan-korrupsiya, çirkli pulların yuyulması, narkotika ticarəti və qanunsuz emiqrantların göndərilməsi, bir də insan alveri məsələsini daxil etmək təklifini irəli sürür. Vladimir Ruşaylonun bu təşəbbüsü çərşənbə günü Finlyandiyanın və Rusiyanın Baş nazirləri Paavo Lippontnom və Vladimir Putin arasında baş tutmuş 45 dəqiqəlik telefon danışığının məntiqi davamı olur. Fin həmkarına zəng edən Rusiyanın Baş naziri Çeçenistandakı vəziyyətlə əlaqədar olaraq Aİ-nın növbəti dəfə qəzəb nümayiş etdirməsindən narazı olduğunu, o cümlədən həm də burda məskunlaşan yalnız qaçqınların əziyyət çəkdiyini deyil, həmçinin 200-dən artıq rusiyalı və xarici vətəndaşların oğurlanaraq pul almaq məqsədi üçün girov saxlanıldığını bildirmişdir.

Avropalılar hesab edirlər ki, girov-spesifik Qafqaz biznesidir, Çeçenistan isə Avropadan olduqca uzaqda yerləşir, odur ki, bu növ cinayətkarlıqla mübarizəni birgə proqrama salmamaq olar.

Çeçenistanda baş verən real insan alverini cinayətkarlığın ən vacib fəaliyyət növləri sırasına salmaqdan Avropolun boyun qaçırmasının mənbəyində, konfransın qeyri-rəsmi görüşlərində qərb siyasətçiləri bunun mümkünsüzlüyünü öz ölkələrində olan ictimai diqqətlə əlaqələndirirdilər. Bütün bunların kökündə Qafqazda cərəyan edən olduqca çətin vəziyyətin təsviri və orda baş verənlər dayanırdı. Çeçenistanda insanların oğurlanmasındakı çoxillik təcrübə, həmçinin döyüşçü dəstələrin Dağıstana hucumu müharibənin başlanmasına start verdiyi üçün bu məsələ bilərəkdən ikinci plana keçirilirdi. Burda başlıca məqsəd qərb informasiya kampaniyalarını-«pis» Moskva və əzab-əziyyət çəkən Çeçen xalqı fikrindən yayındırmaq idi.

Ekspertlərin müşavirəsi bağlı qapılar arxasında keçirilmiş, konfransın yekun sənədinə rəngarənglik xatirinə «gücləndirmək» və «fəallaşdırmaq» kimi ümumi ifadələr əlavə etməklə iş tamamlanmışdır. Ancaq konfransın fəaliyyətində bəzi konkret

formula, xülasə nəzərə çarpırdı, görünürdü.

Konfrans göstərdi ki, hələ siyasətçilər və məmurlar beynəlxalq cinayətkarlığa qarşı mübarizədə müvafiq qanun və effektiv vasitələrədən istifadə etmək haqqında düşünürlər, gözləmək isə Avropa polislərini və onların Rusiyalı həmkarlarını təngə gətiribdir. Konfransın yekununda hazırlanmış sənədin məsləhət bölməsində maraqlı ifadəni oxuyuruq: «Hətta beynəlxalq vasitənin yoxluğu şəraitində, əməli olaraq beynəlxalq əməkdaşlıqdan istifadə etmək mütləqdir. Bir çox problemlərin öhdəsindən gəlmək olar, bunun üçün formal, əgər lazımdırsa, kooperasiyanın qeyri formal mexanizmi hərəkətə gətirilməlidir.»

Avropolun şefi Yurqen Ştorbek öz çıxışında konfrans iştirakçılarına müraciət edərək bildirmişdir ki, gələcək kooperasiyanın əsasını məxfi informasiya mübadiləsinin dəyişdirilməsi təşkil edəcək. «Avropolun əsas dəyəri özündə təhlükəsizliyi təmin etməkdir-biz kəşfiyyat informasiyasının məxfi saxlanılmasına həssaslıqla zəmanət verə bilərik və buna borcluyuq. Bu isə bir-birimizə inam yaradar, dövlətə olan inamı artırar və dövlət müstəqilliyi maneəsini dəf etməyə imkan verər.»

Öz növbəsində Finlyandiyanın Daxili İşlər naziri auditoriyaya yada salmağa çalışmışdır ki, peşəkar həmrəylik milli «hissdən» daha əhəmiyyətlidir: «burda siyasətçilər deyil, öz işini peşəkarları toplaşıblar.» ... Bir neçə il bundan əvvəl eston polisinin rəhbərlərindən biri ilə olan görüşümdən bir epizodu danışacam.

O zaman Estoniya ilə Rusiya arasında əməkdaşlıqdan söhbət gedə bilməzdi. Kim kimə çox zərər vururdusa o, böyük vətənpərvər hesab olunurdu. Bax, bu eston hüquq qoruyucusu öz kabinetinin qapısını kip bağlayıb və mənə onun adını mətbuatda açıqlamamağı qadağan edərək bildirir ki, şəxsən ona cinayətkarlığa qarşı mübarizədə Rusiya ilə əməkdaşlıq yaxşı kömək edir.

Mən ondan soruşuram-Sizin dövlətlər arasında «hüquqi kömək haqqında qanun qəbul olunub?»

«Yox, qəbul olunmayıb,-sözlərini diqqətlə tələffüz edən, şkaf

formasında olan pribalt mənə cavab verir. Sözünə davam edərək o, deyir: «Sadəcə olaraq mən hələ rus dilini yadırğamamışam və vaxtilə milis məktəbində bir yerdə oxuduğum uşaqların telefonu olan köhnə kitabçamı tapıb onlarla əlaqə yaradıram.»

Beləki, bütün Avropada hamının işi, mənim eston həmsöhbətim kimi gətirməmişdir ki, gənclik illərində milis məktəbində oxusunlar və qeyri rəsmi formada Aİ-ı ilə Rusiya zabitləri arasında rabitə yaratsınlar. Bütün mafiyanın acığına onlar daha tez-tez və mütəmadi görüşəcəklər. Avropol artıq qırxdan çox ölkənin polis kompüter sistemi ilə reqistr yaradıbdır. Avropa təklif edir ki, iki il müddətində, cinayət aləmində baş verənlərin hamısının: mafiya qruppaları, onların liderləri, ümumiyyətlə cinayətkarlığa dair xüsusi kompüter informasiya bankı yaratsın. Konfransın yekun bəyamnaməsində belə,- deyilir. «Qərara alınmışdır ki, rusiyalı milislərin bu qiymətli daxıla daxil olunması müzakirə olunsun.»

Çirkli pulların yuyulması, qeyri-leqal miqrasiya, avtomaşınların qaçırılması və narkotika-bu Rusiyadan Avropaya istiqamətlənmiş qılıncdır və bütün xahişlər bu sahələr üzrə, əsasən, Rusiya nümayəndələrinə ünvanlanmışdır. O cümlədən, Mockva qanunsuz pulların leqallaşdırılması ilə bağlı qanunun qəbul olunmasını tezləşdirməyə razılıq vermişdir. Bundan başqa konfransın iştirakçıları qərara almışdılar ki, dünyanın başlıca maliyyə «paltaryuyanı» hesab olunan offşorlara qarşı birgə əməkdaşlığı və təzyiqi artırsınlar.

Rusiya tərəfi ikili faktura ilə mübarizədə avropalılara kömək məqsədilə müraciət etmişdir. Avropadan import olunan əmtəənin əsas hissəsi Rusiyaya Finlyandiyadan daxil olur və adətən yüklər saxta fkturalarla sərhəddi keçir. Fin və başqa qərb firmaları iki zərf faktura yazırlar. Birində, yükün sayı və qiyməti düzgün yazılır. Bu Finlyandiya tərəfi üçün nəzərdə tutulur. İkincisində isə rəqəmlər kifayət qədər aşağı yazılır ki, bu da Rusiya gömrükçüləri üçün nəzərdə tutulur. Nəticədə dövlət büdcəsi miliardlarla dollar itki ilə qarşılaşır, amma təəssüflər olsun ki, Finlyandiya tərəfi bu vəziyyət ilə mübarizə aparmır. Finlyan-

diya qəzetləri bunu izah edərək yazırlar ki, bu cür münaqişə qanunlar və milli maraqlar arasında baş verir. İkiqat faktura, Finlyandiyadan gələn əmtəənin yüksək səviyyədə qalmasına kömək edir. Pulların itirilməsi isə bu Rusiya tərəfinin problemi olaraq qalır.

Avropa və Rusiyanın mütəşəkkil cinayətkarlığa qarşı apardığı mübarizənin ilk nəticələri 2000-ci ilin may ayında təhlil olunacaqdır.

Əgər bu məqaləyə yuxarıda sadalanan faktlar nöqteyi-nəzərindən fikir vermiş olsaq, görərik ki, analitik hesabatln bütün normaları burda öz əksini tapır. Mövzunun müəllifini başlıca olaraq konfransın harda keçirilməsi, kimlərin çıxış etməsi, onda hansı sualların müzakirə olunması maraqlandırır. O ki, qaldı necə müzakirə olunur, müxtəlif suallara cavab necə verilir və sair analitik hesabatın işi deyil. Analitik hesabatın tələbinə uyğun olaraq müəllif mövzunun analizini aparır və nətəicəni gündəmə gətirir.

Müəllifin mövzunu geniş müzakirəyə çıxarması, mövcud halda olduğu kimi, həmçinin buna oxşar məqalələrdə də, yazının analitik olduğunu təsdiqləyir. Analitik hesabatın məqsədi yalnız bundan ibarət deyil. O, müxtəlif istiqamətli fikir aparanlar arasında əlaqə, bir sözlə, «körpü» qurur.

2.ANALİTİK KORRESPONDENSİYA

«Rusiya mətbuatında jurnalistlər korrespondensiya sözünü XVIII əsrdən başlayaraq istifadə etmışlər. Lakin bilmək lazımdır ki, görəsən həmin dövrdə qəzet və jurnalların səhifələrində uzun müddət istifadə olunan korrespondensiya məfhumu publisistik məqalə (məktub, qeyd, hesabat və s.) kimi başa düşülmüş və qəbul olunmuşdurmu? Yalnız XIX əsrin sonlarında korrespondensiyanı publisistikanın bir janrı kimi qəbul etməyə başlamışlar. Bu janrın adı altında müəyyən olunan publisistik məqalələr belə, yəni korrespondensiya formasında

olur.» (12,18-38)

Bizə yaxşı bəllidir ki, XX əsrin əvvəllərində Azərbaycanda mətbuatın sürətlə inkişafı və çiçəklənməsi bir başa Rusiya mətbuatının və orada baş verən ictimai-siyasi proseslərin təsiri altında meydana gəlmişdir.

Siyasi baxımdan Rusiyanın təsiri altında olan Azərbaycanda bunu başqa cür anlamaq sadəlövlük olardı. Çox mümkündür ki, korrespondensiya bir publisistika ifadəsi, janrı kimi həmin zaman kəsiyində Azərbaycan mətbuatına transfer olunmuşdur.

Zaman keçdikcə beynəlxalq aləmdə dünyaya olan baxış və nəzər bucaqları dəyişmiş, cəmiyyətdə, o cümlədən jurnalistikada tərəqqi baş vermiş, yeni janrlar və onların pöhrələri əmələ gəlmişdir. Getdikcə inkişafda olan korrespondensiya janrı dəyişikliklərə məruz qalmış, nəticədə informatik korrespondensiya və analitik korrespondensiya formasında iki publisistik cəbhəyə bölünmüşdülər.

Yuxarıda söylənilənlərə və gətirilən arqumentlərə əsaslanaraq birmənalı şəkildə deyə bilərik ki, korrespondensiya janrı Azərbaycan mətbuatında XX əsrin ilk onilliyində görünməyə başlamışdır.

Analitik korrespondensiyanın predmeti hər hansı bir vəziyyət, proses və yaxud hansısa fenomen (obyektiv varlıq, subyektiv hadisə)-müstəsna, xariqüladə, görünməmiş hadisə ola bilər. Bu baxımdan korrespondensiya reportaj, hesabat, informasiya korrespondensiyası və sair bu kimi janrlarla yaxınlıq təşkil edir. Amma bu, heç də o demək deyil ki, onlar analitik korrespondensiya ilə eynidirlər. Analitik korrespondensiya yuxarıda adını çəkdiyimiz jurnalistika janrlarında «iştirak etmə» dərəcəsinə, o cümlədən mövzuda janr yaradan səbəb və amillərin olmasına görə də başqalarından fərqlənir. (241)

Məsələn, reportajın məqsədi-əyani, «canlı» əks olunmadan keçir. Məhz buna görə də jurnalist çalışır ki, reportaj üçün material toplayarkən hər şeyi öz gözü ilə görsün. Nəzarət etmə, baxma, görmə onun əsas metodu hesab olunur. Bu amillər yoxdursa, demək reportaj da yoxdur. Hesabatın məqsədi-«in-

formasiya hadisəsini» (çıxış, məruzə, hesabat) yalnız dəqiq əks etdirməkdən, onu olduğu kimi ardıcıl verməkdən ibarət deyil, hətta və həm də bu məqamda çıxış və yaxud məruzənin ayrı-ayrı fraqmentlərini analizdən keçirməklə də, ifadə oluna bilər. O ki, qaldı informasiya korrespondensiyasına, bu nəinki reportajda olduğu kimi dəqiq xəbərə, «canlı» nəzarətə, həmçinin baş verən hadisə haqqında geniş və müfəssəl danışığa ehtiyacın olmasını ön plana çəkir. (202)

Analitik korrespondensiyanın məqsədi isə tamamilə başqadır. O özündə, hadisə, vəziyyət, problem və s. haqqında məlumat saxlayır. Mümkündür ki, bu «canlı» nəzarət, məruzənin hər hansı bir fraqmenti və aparılan danışıq, söhbət haqqında açıq və geniş məlumatdan ibarət olsun. Lakin informasiyanın və yaxud məlumatın özü bu janrda əsas hesab olunmur. O yalnız informasiyanın və yaxud məlumatın başlanığıcı kimi qəbul oluna bilər. Bu cür təqdim olunma, analitik korrespondensiyanı reportaj, hesabat və informasiya korrespondensiyasından fərqləndirir. (203)

Hadisə, problem, vəziyyət, proses, xəbərə və sairəyə bu prizmadan yanaşma, onun qiymətləndirilmə, proqnozlaşdırılma və inkişafının əsas səbəbini aydınlaşdırır. Məsələnin belə formada və istiqamətdə inkişaf etməsi analitik korrespondensiyanın müəllifini-analiz, sintez, induksiya, deduksiya və başqa nəzəri metodlardan istifadə etməyə təhrik edir.

Müasir analitik korrespondensiyanın iki tərkibli (vəziyyət haqqında məlumat (+) üstəgəl onun yönəldilməsi) olması onu korrespondensiyanın başqa janrları ilə yaxınlaşdırır. Qeyd etmək lazımdır ki, analitik korrespondensiya ilə kommentariya arasında kifayət qədər fərq var.

Bu onunla bağlıdır ki, auditoriya üçün vəziyyət, problem haqqında veriləcək xəbərin ilk mənbəyi korrespondensiyada müəllifin özü olur. Məhz, yurnalist hadisə yerindən baş vermiş vəziyyəti iştirakçı və şahidlərin fikirlərinə və öz şəxsi müşahidələrinə əsaslanaraq təsvir, şərh edir. Kommentariya isə, həmişə oxucu auditoriyasına artıq məlum olan (məsələn,

əməliyyat xəbərləri) informasiyanı publisistik formada çatdırır. Bu cür kommentariya zamanı müəllif daha çox başqa məlum faktlara və yaxud nisbətən ümumi fikrə, ictimaiyyət arasında məşhur olan hər hansı bir şəxsin verdiyi qiymətə, həmçinin ekspert-mütəxəssis rəyinə əsaslanaraq yekun xülasə şəklində söyləyir.

Analitik korrespondensiya, həmçinin məqalədən də, fərqlənir. Məqalənin məqsədi-ictimaiyyətin həyatında, onun fəaliyyət dairəsində baş verən hadisə, vəziyyət, problem, proses haqqında gedən müzakirələrə əsaslanır. Əslində bu informasiyalar elə bir vəziyyət, proses və problemi əhatə etməlidir ki, onlar cəmiyyətin və yaxud hər hansı sosial bir qrupun marağını təşkil etmiş olsun. Ona görə də, məqalənin əsasını, onun predmetini ayrı-ayrı faktlar yox, qanunauyğun istintaq-səbəb əlaqələri, faktlar və xəbərlər tutur. Müzakirənin gedişi zamanı təsdiq olunanları əsas götürən müəllif, müxtəlif faktlarla onlar arasında əlaqə yaradır ki, bu da həyatın «üz təbəqəsində» əmələ gələn vəziyyət, hadisə, problemlə qanunauyğunluq təşkil edir. (241) Bununla da, onu doğuran səbəblər birbaşa nəzarətdən kənar çıxmır və örtülü qalır. Bu zaman müzakirə olunan hadisə, vəziyyət, problem haqqında gətirilən faktlar ümumi müzakirə üçün arqument rolunu oynayır və həmin səbəbləri, həmçinin qanunauyğunluğu doğurur. Bu nöqteyi-nəzədən çıxış edərək deyə bilərik ki, analitik korrespondensiyanın əsasını, mərkəzi predmetini bir əsas fakt təşkil edir. Bütün yerdə qalanlar, misal və hissəciklər «köməkçi» funksiyasını daşıyır və onun hərtərəfli işıqlandırılmasına xidmət edir. Əsaslandığımız həmin qayda analitik korrespondensiya ilə məqalə janrının «sərhəddinə» (202) aydınlıq gətirməklə, onun yerini müəyyən edir. Analitik korrespondensiya janrına aid olan xüsusiyyətlər və nişanələr onu başqa janrlardan fərqləndirməyə imkan verir.

Analitik korrespondensiya-çoxları həqiqətən janrın aşkar təyin olunmasından qaçır. Ona görə ki, korrespondensiya janrı şəffaflığı xoşlayır. Qarışıqlıq olduğu halda, korrespondensiya öz effektivliyini itirir və öz məcrasından kənara çıxır. Korrespon-

densiyada ən azından, üç janrın-reportaj, kommentariya və nəticənin elementləri birləşir. O, həcm etibarilə 150 sətrdən ibarət olur.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu). Şimşəyin qarşısında baş əymək lazımdırmı?

Axşam yaxınlaşırdı. Artıq Günəş öz «yuvasında» gizlənmişdir. Bir neçə dəfə idi ki, anası Səbinəyə,-bəsdir işlədin, evə get, mən də indi gəlirəm,-deyirdi. Amma nədənsə Səbinə anasını eşitmək istəmir və elə hey,-deyirdi,-görmürsən anacan, gündüzlər necə isti keçir, heç olmasa qoy indi boctanı lazımınca sulayaq. Doğrudan da, bostanda iş başdan aşıb daşırdı. Bir tərəfdən də bu ilki istilər. Az qalırdı adamın ciyərini «bişirsin». Şəkidə bu cür istilərin olmasını heç ahıllar da, xatırlamırlar...

Elə bu məqam Qozlu dağının (xalq arasında belə deyilir) üstündə qara buludlar peyda oldu, sərin külək əsdi. Yaxınlıqda olan qonşular bir ağızdan Səbinəyə,-bax, bostanı sulamaq istəyirdin, indi yağış yaxşı sulayar,-dedilər. Onlar sözlərini deyib qurtarmamış güclü şimşək çaxmağa başladı. Göyün üzünü qara buludlar aldı. Hamı bir anlığa mat-mətəl qaldı. Birdən şimşək onların yanında gurladı. Elə bil ki, mərmi partladı. Toz dumana qalxdı. Bundan sonra nəyin baş verdiyini Səbinə xatırlamır. Sanki sonrakı həyat bir neçə saatlıq onun yaddaşından silindi. Yoxmuş kimi...

Əlbəttə, nəyin baş verdiyini, onun başına nə iş gəldiyini Səbinəyə qonşuları və anası bir neçə gündən, qızcığaz özünə gəldikdən sonra söylədilər. Ümumiyyətlə, söyləməyə elə çox xəbər də, yox idi. Çünki hər şeyin bir anın içində baş verdiyindən, heç onlar da anlaya bilməmişdilər ki, nə olubdur. Yalnız yadlarında qalanlar: güclü partlayış səsi, toz dumana qarışır, tozanax vintvari şəkildə göyə qalxaraq yox olur, hava açılır və onlar yerdə Səbinəni huşsuz vəziyyətdə uzanmış görüb onun üstünə axışırlar. Qızını cırılmış paltarda, ölü vəziyyətində görən ana huşunu itirərək göyərti ləkinin üstünə yıxılır. Çaş-baş qalmış qonşuların

bir hissəsi Səbinəyə, bir hissəsi isə anasına yardım etmək üçün onların üstünə cumurlar. Hay-küyü eşidib qonşuluqdan qaçıb gələn keçmiş hərbiçi qadınlardan tez su gətirmələrini və hər iki huşsuz qalmış ana və qızın ürək nahiyəsini masaj etməyi tapşırır. Özü isə evinə qaçaraq dərmanlar olan çantasını götürərək tez də, geri qayıdır və yardım etməyə başlayır. Bu keçmiş polkovnik Əhməd kişi idi. O, ordudan tərxis olunduqdan sonra kənddə yaşamağa üstünlük verdiyindən doğma kəndinə qayıtmış, atasının mülkündə yaşamağa başlamışdı. Anaya və qızına tibbi yardım göstərən Əhməd kişi eyni zamanda qonşulardan qəsəbəyə zəng edib «Təcili yardım» çağırmağı da, unutmur. Onun təkidi ilə zəng olunduqdan iyirmi dəqiqə sonra həkim briqadası özünü xəsarət alanlara yetirirlər. İlk yardımdan sonra özünə birinci olaraq Səbinənin anası Səmayə xanım gəlir. Bir neçə dəqiqədən sonra Səbinənin də nəbzində döyünmə hiss olunmağa başlayır. Qızında dəyişikliyin olduğunu görən Səmayə bir balaca toxtamış kimi olur və evdən ədyal gətizdirib Səbinənin üstünü örtür. Qızcığaz özünə tam gəlmədiyi üçün həkim briqadası onu «Təcili yardım» maşınına qoyaraq rayon xəstəxanasına aparırlar...

Müalicə şöbəsində yerləşdirilən Səbinənin üzərində xəstəxananın ən yaxşı həkimləri çalışırdı. Hətta telefon vasitəsilə Bakı ilə əlaqə yaradılmşdı. Lazım olan məsləhətlər mərkəzdən gəlirdi. Lakin bütün səylərə baxmayaraq Səbinənin yaşayıb yaşamayacağı sual altında idi. Artıq həkimlər bu barədə qızın valideyinlərini də, xəbardar etmişdilər. Bütün kənd camaatı isə bu məsələ ilə bağlı ağır sarsıntı keçirmişlər və mütəmadi olaraq xəstəxana ilə əlaqə saxlayıb Səbinənin sağlamlığı ilə maraqlanırdılar.

Bütün gecəni çıxılmaz vəziyyətdə keçirən Səbinə hamının gözləmədiyi halda səhər saat doqquz radələrində gözlərini açır və harda olduğunu bilmir. Anasını yanında gördükdən sonra dərindən nəfəs alır. Sonra isə dahiyanə,-görünür mənim vaxtım hələ çatmayıbmış, demək hələ yaşamalıyam,-deyir. Sonra anasından harda olduğunu, nə üçün bura gətirildiyini, ümumiyyətlə, nə baş verdiyini soruşur. «Ola bilməz! Bu mümkün deyil! Nə

şimşək! Hər halda məni Günəş şüası vurubdur»,-deyərək hamının sözünü qəti olaraq kəsir. Güzgüyə baxan Səbinə, birdən sağ qulağının yanından üzü aşağı vintvari formada uzanan qırmızı karandaş xəttinə oxşayan və ayağının altına qədər uzanan şimşəyə oxşar xətti görür və valideyinləri ilə bərabər məhz bundan sonra qorxu hissi keçirir.

-Allahın cəzasıdır? Və yaxud nişan?-deyir.

Birsözlə azərbaycanlıların mifologiyasında şimşək, ildırım daha dərin və böyük məna, qeyri-mütəşəkkil qüvvə anlayışı kəsb edir, nəinki adi təbiət hadisəsi...

Kəndə qayıdan Səbinənin ətrafına yıxışan qonşuları ona olanlar haqqında bildikləri məlumatı verəndə o, gülümsəyərək bunlardan xəbərsiz olduğunu bildirir.

Qonşuların nə hiss etdin və yaxud nə gördün sualına cavab verən Səbinə bunları deyir:

-Mən gözəl bir məmləkətdə idim. Hər tərəf bağ-baxça, şəlalə, oxuyan quşlarla əhatə olunmuşdum. Elə bir gözəllik idi ki, indi təsəvvürümə gətirə bilmirəm. Mən qayıtmaq istəmirdim. Dedilər ki, hələ sənin vaxtın deyil. Bu cür həyatı əvvəlcə qazanmaq lazımdır, sonra isə yaşamaq. Ora çox xoşuma gəldi. Heyif ki, yaşamağa qoymadılar ...

Bu hadisə ilə bağlı Şamaxı rəsədxanasına müraciət etdik. Ordan bizə dedilər ki, bu günə kimi elm şimşəyin insana bağlılığına dair heç nə bilmir və bu barədə heç nə deyə bilmərik. O ki, qaldı müəyyən olunmuş yerə, binaya, ağaca, saraya və sairəyə, yunan mifologiyasına əsaslansaq deyə bilərik ki, Zeves belə yerlərə həsəd apardığına görə o yerlərə daima göy cisimləri göndərir, bununla isə hər şey aydındır: şimşək və yaxud ildırım yüksək keçiriciliyi olan torpaqları seçir. Deməkolar ki, Səbinəgilin bostanına şimşək daha tez-tez gələcəkdir. Yuxarıda qeyd etdiyimiz kimi hələ ki, elm bu təbiət hadisəsinin qarşısında acizdir. Yalnız deyə bilərik ki, şimşək ən hündür yeri seçməyi xoşlayır və ona baş əyməyənləri öz yerinə otuzdurur... Odur ki, şimşək çaxanda onun qarşısında baş əyməyi unutmayın!

Bu materialın əsasını qeyri-adi təbiət hadisəsi tutur. İnsanın şimşək tərəfindən zərbə alması, onun xilas olması və ətrafında cərəyan edən proseslər məqalənin əsas hissəsini təşkil edir. Bu cür publisistik yazını yazan jurnalist bütün məqamlardan: xəsarət alandan, onun valideyinlərindən, iştirakçı-xilaskar həkimlərdən və s. başqalarından aldığı məlumatlardan istifadə edir. Burda jurnalist yalnız hadisənin yazılması ilə kifayətlənmir. Müəllif baş verən hadisə haqqında səbəb-istintaq analizi aparır və bunlara cavab axtarır. Nə üçün şimşək Səbinəni vurdu və yaxud onların bostanına düşdü? Nə üçün Səbinə sağ qaldı? Nə üçün şimşək daha çox adamı vurmadı? və s.

Bu cür publisistik məqalənin əsas xüsusiyyəti onun emosional dildə, canlı və bundan başqa, hadisənin əyani təsvirini verməsindədir. Burda belə bir sual ortaya çıxa bilər: ola bilməzdi ki, bu mövzunu reportaj janrına aid edək?

Əlbəttə, bunu belə etmək ehtimal oluna bilər, əgər müəllif şəxsən baş verənləri izləmiş olsa və yalnız baş verən hadisənin dərinliyinə varmadan, səbəb-istintaq analizi aparmadan məqaləni yazsa. İkinci bir tərəfdən isə, reportaj əvvəlcədən tədbirin, prosesin, vəziyyətin bəlli olduğu yerdən birbaşa aparılır. Ancaq bu məqamda hadisə bir anın içində, gözlənilmədən, təsadüf nəticəsində baş vermişdir. Beləki, reportaj üçün heş bir hazırlıq görülməmişdir.

Bununla belə qeyd etmək lazımdır ki, jurnalistika təcrübəsində bu cür «incə» məqamlara həmişə toxunulmur və canlı yazılmış korrespondensiya çox vaxt «reportaj» rubrikası altında dərc olunur. Bu isə yuxarıda qeyd etdiyimiz amillərin əksini təşkil etdiyidən, səriştəsizlik nəticəsində baş vermiş hal kimi qəbul oluna bilər. (241)

3.ANALİTİK MÜSAHİBƏ

«Müsahibə janrı jurnalistin mövzu formasında, «təhkimolunma» nəticəsində, bu mövzu ilə bağlı müəyyən olunmuş həqiqi informasiyanı almaq üçün istifadə olunan metodudur.»

(153,3-27) Həqiqətdir ki, bu səbəbə görə onu müsahibə janrina aid edirlər. Bu informasiyaya əsaslanan və tədqiqat zamanı emprik metod tətbiq etmək nəticəsində alınan janr hesab olunur.

Müsahibə janrı öz formasına görə mütəxəssislər arasında fikir ayrılığına səbəb olur. Bəziləri bu janrı müstəqil, digərləri isə çərçivə daxili informasiya janrı kimi qələmə verirlər. Jurnalistin ikinci şəxslə dialoqunu «həqiqət axtarışı» kimi qiymətləndirənlər də az deyil. Müsahibədə jurnalist sualların qoyuluşunda özünə qarşı məhdudiyyət tətbiq etməlidir. Janrdan bəhrələnmək istəyən jurnalistin sualları aydın, dəqiq və məntiqliyi ilə bərabər, həmçinin yoruculuqdan uzaq və yiğcam olmalıdır. Yalnız bu təqdirdə, jurnalist istəyinə çata, qarşısına qoyduğu məsələnin dərindən açılmasına nail ola bilər. «Bu janrda həqiqət haqqında məlumatın, müəllif tərəfindən müəyyən olunmuş suallar verməklə alınması, müsahibə metodunun əsas formasıdır. Müsahibə nəzəri əsaslara deyil, empriklik metoduna söykənir.» (153,3-27) Elə bu səbəbdən də, ehtimal olunur ki, müsahibə janrı informasiya janrına aiddir. Empiriklik metodunun tətbiqi nəticəsində alınmış araşdırmalar buna əsaslanır. Dialoq metodu əsasında formalaşan bu cür publisistik müsahibə sual-cavab üzərində qurulur. Buna görə də, mövzuda əsas yer tutan hissə müsahibə janrı adlanır. Baxmayaraq ki, konkret olaraq bunları-informasiya və yaxud analitik janra aid etmək olar.

Əgər informasiya müsahibəsi fakt haqqında özündə məlumatı daşıyırsa Kim?, Nə?, Harda?, Nə vaxt? və sair suallara cavab verir, analitik müsahibədə isə, hər şeydən əvvəl müəllif öz sualları ilə müsahibə verəni faktı analiz etməyə istiqamətləndirir. Bu məqsədlə suallar elə formalaşdırılmalıdır ki, hadisə, vəziyyət, prosesin ən xırda hissəcikləri sintezdən kənarda qalmasın və məsələyə aydınlıq gətirilsin. Məsələn, jurnalist ölkəni əhatə edən qrip epedemiyası ilə bağlı səhiyyə nazirindən müsahibə alacaqsa o, suallarını peşəkarlıqla analitik müsahibə əsasında əvvəlcədən qurmalı və «proqramlaşdırmalıdır». (241) Bu təqribən aşağıdakı formada ola bilər:

-Siz necə düşünürsünüz, ölkə üçün bu nə deməkdir?

-Vergi ödəyicilərinə bu neçə milyon manata başa gələcəkdir?

-Sizcə qripin bu cür kütləvi yayılmasının səbəbi nədədir? Hansı sənəd, rəqəm, fakt və s. sizin proqnozunuzu təsdiqləyə bilər?

-Kim buna görə cavabdehlik daşıyır və məsuliyyətə cəlb olunacaqdırmı?

-Bu proses sonrakı mərhələdə necə inkişaf edəcək? Fəsadları necə ola bilər?

-Sizin proqnozların hansı əsası var? Sadə insanlar nə etməlidir? və s.

Müsahibə verənin bu qism suallara öz bilik və düşüncəsini səfərbər edərək cavab verməsi, məsələnin düzgün araşdırılmasına, problemə düzgün proqnoz və qiymətin verilməsinə, bir sözlə, publisistik məqalənin yaxşı alınmasına, o cümlədən oxucunun bütün prosesləri ardıcıl izləməsinə, arqument və faktları müəyyən etməsinə kömək edir. Belə müsahibədə, analiz elementləri çoxluq təşkil edir və məqalənin analitik publisistik formaya düşməsinə səbəb olur.

Doğrudur, hərdən elə olur ki, müsahibə verən proses, vəziyyət, hadisə haqqında müəllifin dolayı yollarla verəcəyi cualları gözləmədən ardıcıllıqla məlumat verir, analiz edir. Bu o vaxt baş verir ki, müsahibə verən bunda maraqlı olsun. Belə müsahibə analitik publisistikanı hazırlayan müəllifin işini nisbətən yüngülləşdirir. Analitik müsahibənin həcmi 300, informasiya müsahibəsinin həcmi isə 120-150 sətrdən artıq olur. Yaddan çıxartmaq olmaz ki, janrın müstəqil və yaxud çərçivə daxilində olub olmaması, əsasən, aparılan müsahibənin tərkibi, mövzusu, miqyası və bir çox başqa amillərdən asılıdır. Bu baxımdan müsahibəni dörd hissəyə bölmək olar:

1.Müsahibənin ictimai fikirdə yarada biləcəyi rezonans;

2.Müsahibədə iştirak edən fərdlərin və yaxud fərdin dünyagörüşü;

3.Müsahibədə iştirak edən tərəflərin (bir neçə jurnalist

və yaxud bir neçə müsahib) sayı;

4.Jurnalistin və mətbuat orqanının (jurnalistin və mətbuat orqanının reytinqi) marağı.

Bu vəziyyətdə jurnalist, suallarını məhdudlaşdırmadan yığcam, aydın və anlaşılan şəkildə müsahibinə ünvanlayır, həmsöhbəti ilə mübahisə aparır və onun cavabını şərh edir. Belə olduğu məqamda jurnalistin hansısa çərçivə haqqında düşünməsindən söhbət gedə bilməz. Lakin bir faktla razılaşmamaq jurnalistin imkanları xaricindədir ki, bu da, zamandır...

Aparılan tədqiqatlardan sonra alimlər belə bir qərara gəlmişlər ki, müsahibəni iki qrupa bölmək olar:

1.Soruşan müsahibin-jurnalistin xüsusiyyəti, xasiyyəti və keyfiyyəti;

2.Soruşulan müsahibin-qəhrəmanın xüsusiyyəti, xasiyyəti və keyfiyyəti.

Burda birinci qrupa müsahibə-informasiya və müsahibə-fikir; ikinci qrupa isə müsahibə-emosiya, hiss və müsahibə-sosial sorğu aid edilə bilər.» (193)

Müsahibə başqa empirik metodlar kimi yekun informasiyanı almaq üçün istifadə olunur ki, bu da yalnız informasiyanın hazırlanmasına deyil, həmçinin analitik informasiyanın ərsəyə gəlməsinə xidmət edir. Amma bəzən elə olur ki, faktın özü kölgədə qalır. Müsahibə metodu ilə alınan informasiya ola bilsin ki, dəyişdirilsin və bu formada təqdim olunsun. Məsələn, qəzet və jurnal səhifələrində korrespondensiya, hesabat, replika, məqalə və s. kimi. Bu, ona dəlalət edir ki, belə metod tətbiq etməklə informasiya toplamaq, hələ avtomatik müsahibə janrının yaranması demək deyil. Mövzunun özünü aydın göstərməsində «gediş» metodunun tətbiq olunması nəşrin formasını, yəni onun dialoq və yaxud sual-cavab şəklində olmasını müəyyən edir.

Aparılan müsahibədə mövzunun üstünlük təşkil edən nişanələrinin olması, onun müsahibə janrı adlandırılmasını tə-

min etmiş olur. Lakin müsahibənin hansı janr qrupuna, konkret olaraq-informasiya və yaxud analitik hissəyə aid edilməsi müsahibənin mövzusu, məzmunu, həcmi, əhatə dairəsi, həmçinin müsahibənin ifadə formasından asılı olur. Əgər informasiya müsahibəsi özündə yalnız fakt haqqında məlumat daşıyırsa və Kim?, Nə?, Harda? suallarına cavab verirsə, analitik müsahibə janrı bunlardan başqa faktı saxlayır və analiz edir, həmçinin bu məqamda Niyə?, Hansı formada?, Bu nə deməkdir? və sair suallara cavab verir. Analitik müsahibədə müəllifin vəzifəsi ondan ibarətdir ki, öz sualları ilə mövzunun analiz olunması istiqamətində əsaslı iş görsün və bununla da müsahibədə aparıcı şəxsə çevrilsin.

Bu məqsədlə suallar elə formalaşdırılmalıdır ki, hər hansı bir vəziyyət, hadisə, problem və prosesin əsas və əlaqələndirici məqamları işıqlandırılsın, mövzuya aydınlıq gətirilsin.

Kənd təsərrüfatı nazirindən müsahibə alan jurnalist, müsahibə zamanı hər hansı bir problemlə və yaxud gözlənilmədən baş vermiş hadisə (əhaliyə mənşəyi bəlli olmayan xaricdən gətirilmiş buğda toxumunun və yaxud keyfiyyətsiz mineral kübrələrin satılması) ilə qarşılaşmış olarsa, sözsüz ki, çıxışını analitik müsahibənin formasına uyğun olaraq proqramlaşdırmalı və suallarını bu istiqamətdə qurmalıdır:

-Necə düşünürsünüz, bu bizim respublika üçün nə deməkdir?

-Neçə milyon manata bu hadisə vergi ödəyicilərinə başa gələcəkdir?

-Bu hadisənin baş verməsinə nə səbəb olmuşdur?

-Kim bunun üçün məsuliyyət daşıyır və onun cəzası nədən ibarət ola bilər?

-Sonrakı mərhələdə bu proses öz inkişafını necə tapacaq?

-Sizin proqnozlarınız nə qədər əsaslı hesab olunur?

-Bununla bağlı nazirlik hansı tədbirləri həyata keçirir və yaxud keçirəcəkdir?

-Sadə adamlar, təsərrüfatda çalışanlar nə etməlidirlər ki, itkinin miqyasını qismən də olsa azaltmaq mümkün olsun? və s.

Bu cür suallar müsahibə verəni öz bilik və fikirlərini açıqlamağa sövq edir və bununla müsahibəni gələcək nəşrin predmetinə çevirir. Nəticədə, sanballı analitik müsahibə masa üzərinə gəlir. Hadisə, problem, proses, vəziyyətin bu formada müzakirə olunması sonda istintaq-səbəblərin üzə çıxması ilə yekunlaşır. Bu isə, hadisə, problem, proses və vəziyyəti qiymətləndirmə, proqnozlaşdırma və inkişaf etmə trayektoriyasına nəzarət etmək imkanlarını asanlaşdırır, həmçinin söhbət haqqında arqumentləri müstəviyə gətirir. Belə formada qurulan müsahibələrin mövzusu daha maraqlı və «canlı» olmaqla bərabər, həm də analiz elementlərinin yetərliliyinə, o cümlədən müsahibənin analitik olmasına həqiqətən nöqtə qoymuş olur.

Əlbəttə, bəzən elə olur ki, müsahibə verən şəxs jurnalistin istiqamətləndirici suallarını gözləmədən hadisə, problem, proses və vəziyyət haqqında kifayət qədər ətraflı informasiya verir və məsələni analiz edir. Lakin anlamaq lazımdır ki, bu cür müsahibə yalnız müsahibə verən şəxsin maraqları çərçivəsində baş tutur. Elə də olur ki, müsahib hər şeyi olduğu kimi, xırda detallara qədər təfsilatı ilə danışır və bu faktları söhbətin işıqlandırma predmetinə çevirir. Sözsüz ki, bütün bunlar gələcək analitik müsahibənin müəllifinin, yəni jurnalistin işini asanlaşdırır, ona yardımçı olur. Bu məqamda jurnalistdən böyük təcrübə, peşəkarlıq və ayıqlıq tələb olunur ki, müsahib onu öz arxasınca aparmasın, əksinə, müəllif müsahibi öz arxasınca daşısın və onu suallarının əsrinə çevirsin.

Ramilə Həsənli.
Elan olunmamış müharibənin balası.

Təxminən on gün bundan əvvəl Adil Məhərrəmovun anası Gültəkin Məhərrəmova yaşadığı Tərtər rayonunun polis şöbəsinə oğlunun yoxa çıxması ilə bağlı müraciət etmişdi. Onun əlində bu məsələ ilə bağlı inandırıcı əsas var: artıq iki aya yaxındır ki, oğlundan heç bir xəbər yoxdur, yəni onun son telefon zəngindən sonra. Ananın dediyinə rəğmən, oğlu zəng edəndə telefonda

ermənı səsləri eşidilirdi və oğlu onun suallarına tam cavab verə bilmirdi, həmçinin danışıq çox qısa olmuşdur. İşin təfərrüatları ilə yaxından tanış olan tanınmış vəkil Zeynal Zeynalov məsələ haqqında müxbirin suallarına cavab verərkən bunları demişdir:

Müxbir:-Gəlin əvvəlcə Adil Məhərrəmovun itkin düşməsi ilə bağlı rəsmi məlumata istinad edək. Hüquqi baxımından bu vəziyyət necə görünür və yaxud necə başa düşülür?

Vəkil-Bunu kommentariya etmək çox çətindir. Çünki Tərtər rayonunun bir hissəsi müharibə zonasına daxildir. Artıq neçə ildir ki, erməni işxalçıları ölkəmizə qarşı elan olunmamış müharibə aparır. Uzun müddətdir ki, müharibə zonası ermənilər tərəfindən mütəmadi olaraq müxtəlif silahlardan atəşə məruz qalır. Elə olur ki, kənd təsərrüfatı işləri ilə məşğul olan həmyerlilərimiz təsadüf nəticəsində və yaxud havanın dumanlı olması şəraitində yollarını azaraq düşmən tərəf keçirlərlər. Sözsüz ki, bu da onların əsir götürülməsi ilə yekunlaşır. Məlumdur ki, qüvvədə olan Azərbaycan Konstitusiyası vətəndaşların öz ərazisində sərbəst hərəkət etməyinə imkan verir. Amma təəssüflər olsun ki, düşmən tərəf bizim konstitusiyaya məhəl qoymur. Bunu BMT, ATƏT, Avropa Şurası və başqa beynəlxalq təşkilatlar da yaxşı bilir. Ancaq bütün bunlar öz bəhrəsini vermir. O ki, qaldı Adil Məhərrəmovun itkin düşməsinə, bunu hüquq müstəvisində araşdırmaq lazımdır. Bu işə məhkəmə qaydasında baxılmalı, lazım gələrsə beynəlxalq təşkilatlara müraciət olunmalı, itən şəxsin müdafiəsi və geri qaytarılması təmin olunmalıdır. Burda ixtisaslaşmış hüquqşünasın köməyinə ehtiyac duyulur.

Müxbir:-Hansı prinsiplərə əsaslanaraq məsələyə, nisbətən, olsa da aydınlıq gətirmək oları?

Vəkil:-Burda hər şey gün kimi aydındır. Əgər itkin düşənin meyiti və yaxud hər hansı bir əşyası tapılmayıbsa və yaxud onu heç kəs görməyibsə demək o, əsir düşübdür. Görünür Adil Məhərrəmov əsir düşən kimi düşmən tərəfi ona yaxınlarına zəng etmək üçün bir imkan yaradıblar və bundan sonra təkrara yol verməyiblər. Əsir düşənə bir zəngə icazə beynəlxalq norma-

lara uyğun gəldiyi üçün verilib. Odur ki, «Qızıl Xaç»ın Bakı ofisinə Adil Məhərrəmovun əsir düşməsini müəyyən və onu müdafiə etmək üçün müraciət olunmalıdır.

Birincisi, hamıya bəllidir ki, ermənilər beynəlxalq hüquq normalarına necə «yaxşı» əməl edirlər?

İkincisi, bunu, yəni Adil Məhərrəmovun əsirlikdən azad olmasını yalnız beynəlxalq təçkilatların köməyi ilə həll etmək mümkündür.

Üçüncüsü, bu məsələni tez reallaşdırmaq lazımdır. Çünki ay yarımdan sonra Azərbaycan və Ermənistan Prezidentlərinin Praqada görüşü gözlənilir. Bu görüşə kimi məsələyə aydınlıq gətirilməlidir ki, o gündəmdə olsun.

Müxbir:-Ola bilərmi ki, bəzi insanlar Adil Məhərrəmovun əsir düşməməsinə başqa çalar versin və yaxud onun yaxınlarını başqa istiqamətə yönəltmək istəsinlər?

Vəkil:-Hər şey mümkündür. Amma mənə elə gəlir ki, heç kimə qulaq asmadan hüquqi yol ilə məsələnin aydınlaşdırılmasına çalışmaq lazımdır. Yalnız bundan sonra hansısa variant haqqında düşünmək olar. Deməli, ilk növbədə Adil Məhərrəmovun sağ-salamat və harda olmasını müəyyən etmək vacibdir. Müxtəlif fikir və variantlar burda heç bir hüquqa söykənmir. Onu da, yadda saxlamaq lazımdır ki, Adil Məhərəmov mülki vətəndaşdır, hərbiçi deyil. Ututmaq olmaz ki, Azərbaycan dövləti indiyə kimi bütün vətəndaşlarını əsirlikdən xilas etməyə çalışıb və məlum olanların hamısını da, azadlığa qovuşdurubdur.

Vəziyyət nə qədər acınacaqlı olsa da, xilas üçün ümidlər ondan da, çox olmalıdır. Bu məsələdə son işıq yeri hələ bağlanmayıb. Deməli, ehtimal böyükdür...

Müxbir:-Adil Məhərrəmovun yaxınları bildirdilər ki, onların hüquqi məsələlərdən anlayışı olmadığı üçün nə etmək lazım olduğunu bilmirlər. Onlara bu baxımdan hüquqi yardım göstərmək olarmı?

Vəkil:-Bir vəkil kimi insanların qarşısında söz verirəm ki, bu məsələdə Adil Məhərrəmovun yaxınlarına bütün hüquqi yardım heç bir təmmanə olmadan bizim tərəfimizdən göstəriləcək.

Vətəndaşlarımızı düşmən əsirliyindən azad etmək biz vəkillərin əsas vəzifəsidir.

Vəkil Zeynal Zeynalovun geniş müsahibə verməkdə əsas məqsədi xalqı hüquqi baxımdan maarifləndirmək idi. Vətəndaşların hüquqi normalarla daha geniş və ətraflı tanış olması gələcəcəkdə baş verə biləcək analoji hadisələr zamanı insanların işini asanıaşdırmış olar. Beləliklə, müsahibənin müəllifi müsahibə ünvanladığı suallara birmənalı olaraq qısa cavab deyil, daha dolğun, geniş, dərin mənalı, arqumentlərə əsaslanan, analiz edən analitik cavab almış olur. Elə buna görə də, bu cür müsahibələr analitik xarakter daşıyır və analitik müsahibə hesab olunur.

4.ANALİTİK SORĞU

Analitik sorğu janrının informasiya sorğu janrı ilə bir çox oxşarlıqları var. Bu oxşarlıq hər şeydən öncə, hər iki janrın, daha doğrusu, bu janrlardan istifadə etməklə ərsəyə gələn məqalələrin mənbəyində özünü büruzə verir. Hər iki janr əsasən jurnalistin suallarına cavab üzərində qurulur. Bu və yaxud digər janrlarda olduğu kimi mövzunun strukturu, jurnalistin «yelpik» (241) kimi «müsahib»inə ünvanladığı suallara aldığı cavablar əsasında formalaşır.

İnformasiya sorğu janrına aid olunan məqalədən fərqli olaraq, analitik sorğu janrını təşkil edən məqalədə daha geniş kommentariyadan istifadə olunur ki, bu da əsasən analitik janrın xüsusiyyətlərinə daxil edilir. Bu yalnız «kumulyativ effekt» (203) (toplanma) nəticəsində, yəni bir suala müsahibin müxtəlif formalarda verdiyi çoxsaylı cavabların toplanmasından alınan təfsilatlı vahid cavab formasında mümkün olur. Ancaq bununla belə analitik sorğu janrını kommentariya janrına aid etmək olmaz. Həmçinin bu janra müsahibə janrını da əlavə etmək olmaz, çünki orda da, müsahibə verənin dediklərinə jurnalist kommentariya vasitəsilə müdaxilə edərək öz nöqteyi-nəzərini

ifadə edir. Müsahibə janrını analtik sorğu janrına oxşadan cəhət ondan ibarətdir ki, burda jurnalistin məqaləsi müsahibinə verilən suallar əsasında yaranır, ancaq bu heç də informasiyanın tərkibinə görə yox, kommentariya edənin qiymətləndirməsi əsasında formalaşır. Analitik sorğu daha çox siyasi partiyaların təsis etdikləri mətbuat oqanlarında, dövlət qəzetlərində dərc olunur. Jurnalistlər bu janra hər hansı bir məşhur iş adamının, cəmiyyətdə kifayət qədər tanınmış siyasətçinin və yaxud ictimaiyyətə yaxın olan şəxslərin fikirlərini və yaxud baxış bucaqlarını təqdim etmək üçün müraciət edirlər. Analitik sorğunu bir çox başqa dövri mətbuat orqanları böyük məmuniyyətlə dərc edirlər.

Bir çox hallarda analitik sorğunun dərəcəsini sualların düzgün formada qoyuluşu müəyyən edir. Əgər jurnalist, təxminən, müsahibinə belə bir sualla müraciət etsə: «Siz açıq havada gəzməyi sevirsiniz?» və yaxud «Siz kitab oxumağı xoşlayırsınız?», ehtimal etmək olar ki, cavab «bəli» olacaqdır. Jurnalistikada bu cür suallara ritorik suallar deyilir. Sözsüz ki, verilən belə cavablardan heç vaxt səviyyəli analitik mövzu yaranmayacaqdır. Buna görə də, müsahiblə analitik sorğu apamazdan əvvəl jurnalist onun kimliyini, peşəsini, cəmiyyətdəki yerini və bir çox bu kimi başqa amilləri nəzərə almalı, sorğuya tutarınca hazırlaşmalı, ritorik suallardan uzaq olmalıdır. Bu cür hallarda, respondentə aparılan sorğunun mövzusuna uyğun olaraq elə suallar vermək lazımdır ki, müsahib sorğu əsasında qoyulan mövzuya ətraflı cavab versin, məsələləri analiz etsin, fikrini sistemləşdirsin və jurnalist tərəfindən etiraz olunduqda cavabını əsaslandıra bilsin və s. Əlbəttə, müsahibə elə suallar ünvanlamaq lazımdır ki, onu coşa gətirsin, onun ixtisasına, peşəsinə uyğun olsun, onda sorğuda iştirak etməyə həvəs oyatsın və onu sorğuya «qoşsun.» (202) Yalnız bu halda, oxucu auditoriyasını maraqlandıran analitik sörğu əldə etmək mümkündür. Məsələn, idmançıya siyasətlə, musiqiçiyə mətbəxlə, dövlət xadiminə şou-biznesl ə və s. bağlı suallar ünvanlanarsa heç vaxt keyfiyyətli analitik sorğu almaq mümkün olmayacaqdır.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu). Yeni parlment xalqın xoşuna gəlirmi?

Parlamentə keçirilən bütün seçkilər hansı ölkədə olmasından asılı olmayaraq həmişə Prezident Administratsiyasının «ciddi» nəzarəti altında aparılmışdır. 2009-cu ildə Türkmənistan parlamentinə keçirilən seçkilər də, istisna təçkil etmirdi. Bunu parlamentin yeni üzvülərinin hansı siyasi partiyaya mənsub olduqları tamamilə sübut edir. Bu cür mexanizm Türkmənistan üçün adi haldır və artıq aksiomaya çevrilib və cəmiyyət tərəfindən sükutla qarşılanır. Hətta beynəlxalq təşkilatlar, həmçinin onların göndərdikləri müşahidəçilər də, bu prinsipə öyrənişli hesab olunurlar. Parlamentin belə tərkibdə olması, Prezident Administratsiyasını tam qane edir və onun möqeyini daha da möhkəmləndirir. Seçdiyimiz mövzu ilə bağlı «Yeni Parlament Sizi qane edirmi (?)» sualına Türkmənistan parlamentinin Mətbuat Xidmətinin rəhbəri Ənvər Abbasbayev və yeni seçilən deputatların bir neçəsi cavab verirlər:

-Ənvər Abbasbayev (Mətbuat Xidmətinin rəhbəri): «Mənə elə gəlir ki, səsvermənin nəticəsi Prezidentin, yaxşı mənada, xoşuna gəlib. O, hələ səsvermə zamanı qeyd etmişdir ki, parlament yaxşı, həm də işgüzar olacaqdır. Bunu Prezident səsvermə zamanı söyləmişdir. Odur ki, bu hala təəccüblənmək lazım gəlmir. Prinsip etibarilə qarşıya qoyulan məqsədə nail olmuşuq, necə deyərlər, hədəf dəqiq vurulubdur. Beləki, parlamenti dörd siyasi partiya və bitərəflər təmsil edirlər. Ümumiyyətlə, demokratik ölkələrdə olduğu kimi seçki keçirmişik.»

-Əhməd Nuruşqaldı (Bitərəflərin nümayəndəsi): «Bu məsələ ilə bağlı Türkmənistan Prezidenti öz fikrini bildiribdir. Mənim nöqteyi-nəzərimə görə parlamentin əsas hissəsini mərkəzçilər tutur. Bu çox yaxşı haldır. Çünki əvvəl ki, parlamendə kimi istəsən tapmaq olardı. Ona görə də, bəzi vacib qanunların qəbul olunmasında müəyyən problemlər yaranırdı. Əgər bu parlamentin tərkibi də, əvvəl ki, kimi olsaydı, onda biz Prezidentin qarşıya qoyduğu məsələlərə nail ola bilməzdik. Əlbəttə ki, bu

inkişafa, irəli getməyə mane olardı.»

-Ramazan Temirzayev (İqtidarın nümayəndəsi): «Yeni parlament mütləq prezidentin xoşuna gələcək. Müxalifət və solçular demək olar ki, bu parlamendə yox səviyyəsindədir. Demək biz, prezidentlik müddəti ilə bağlı sualı bir dəfəlik ortadan qaldıra biləcəyik. Bu da, məni çox sevindirir. O ki, qaldı xalqın bununla əlaqəli fikrinə, bu bir o qədər də əhəmiyyətli deyil. Çünki xalq öz mandatını bizə verib. Biz də, Prezidentə öz sədaqətimizi nümayiş etdirməliyik. Bu bir saylı, həm də çox vacib olan amildir.»

-Salman Mahmudverdiyev (Müxalifətin nümayəndəsi): «Əlbəttə bu parlament prezidentin «xoşuna» gələcək. Çünki onlar kimi istəyirdilərsə, onlar da bu parlamentə düşüblər. İndi nə istəyirlər hamısını həyata keçirə biləcəklər. Lap istəsələr Türkmənistanın adını dəyişdirib başqa bir ad qoya bilərlər. Bəli, bəli mən bunu tam əminliklə deyə bilərəm. Artıq pərdəarxası danışıqlardan sızan məlumatlar bunu deməyə əsas verir. Onlar Prezidentin xoşuna gəlmək üçün, nəinki onun dediklərini yerinə yetirəcəklər, hətta lazım gəlsə qul kimi fəaliyyət göstərməyə, onu bellərində gəzdirməyə hazır olacaqlar. Sağlıq olsun, görərsiniz... Onların fikirindən hələ çox şeylər keçir, lap elə bizi birdəfəlik sıxışdırıb çıxatmaq da ... »

-Səfərmurad Kanışbaldı (Kommunistlərin nümayəndəsi): «Bunların hamısı vaxtilə kommunist idi. İndi dönüb «demokrat» olublar. Amma dindirəndə ağızlarından kommunist alovu püskürür. Onlar modabaz qızlar kimi, kiminsə xoşuna gəlmək istəyirlər. Sabah hakimiyyətə başqası gəlsə və yeni partiya yaratsa hamısı bu partiyanı atıb ora axışacaqlar, heç indi ki, iqtidara, salam verməyəcəklər. Çünki mən onların əksəriyyətini yaxşı tanıyıram. İngilis bayrağı ilə onlarda bir fərq yoxdur. Külək hansı tərəfdən əssə, onlar da, əks tərəfə əsəcəklər. Bu isə parlamentdən yaxşı nə isə gözləməyə imkan vermir. Deyəsən, biz yenidən avtoritarizmə yuvarlanacağıq. Görünür onun üçün çox «darıxmışıq». Allah pisindən qorusun ...»

-Ramazan Nurmuxammedov (Liberal-demokratların nümayəndəsi): Mənə elə gəlir ki, bu gələcək üçün bir dərs olacaq.

Bu günkü parlamentçilərin dizləri o qədər jumuşaqdır ki, istənilən vaxt qatlanacaq və onlar iqtidarın xoşladığı vəziyyətə düşəcəklər. Bu isə o deməkdir ki, çox çəkməz onlar Türkmənistanı diz çökdürərlər. Uzun müddət kommunistlər ölkənin başına nə istədilər onu gətirdilər. Hələ də, Türkmənistan özünə gələ bilmir. İndi də, yalançı demokratlar, vətənpərvərlər və s. Bax!.. Gör ölkə nə kökdədir?... Nə normal elm və təhsil, nə normal səhiyyə sistemi, nə də ki, qənaət bəxş edən məhkəmə və hüquq orqanları var. Hamısı cürümüş oduncağa oxşayır. Bir balaca ağırlıq olan kimi yatacaqlar aşağı. Hələ ki, hamı «saraya» doğru gedir. Zözün açığı nə parlament, nə də ki, onun deputatları mənim könlümü açmır. Bu gələcək uçrumun başlanığıcı ola bilər.

Göründüyü kimi müəllif bir neçə siyasətçiyə eyni cualı ünvanladı və onların fikirlərini qələmə aldı. Burda suallara verilən cavablar bir o qədər əhəmiyyətli deyil. Əsas analitik sorğunun düzgün qürulmasıdır. Məhz buna görə də, bu publisistik məqaləni analitik janra aid etmək olar. Ona görə ki, verilən suallara alınan cavablar ardıcıllıq təşkil edir və ideyalar bir-birini tamamlayır, onların arasında rabitə yaranır. Burda müxtəlif mövqelərin olmasına baxmayaraq, hər kəsin mülahizəsi dəqiq fakt və arqumentlərə əsaslanır. Müəllifin sübut olunan müzakirəsi, onun tədqiqatı və analizi imkan verir ki, bu cür məqalələri analitik janrlar qrupuna məxsus edək.

5.SÖHBƏT

Söhbət müsahibə və sorğu janrları ilə bərabər jurnalistikada analitik janrların ən əhəmiyyətlilərindən biri sayılır. Dialoq zamanı, daha doğrusu, «çoxməntiqlik» (202) metodu vasitəsi ilə alınan informasiyadır. Söhbət janrı dövri mətbuatda kifayət qədə geniş və uzun müddət istifadə olunanlardan biridir. Bu, jurnalistika janrlarını yaxşı bilən təcrübəli jurnalistə məlumdur. Məsələn, söhbət «dairəvi masa arxasında» sərlövhəsi adı altında uzun zaman ərzində «Kommunist», «Azərbaycan gənc-

ləri» (sovet dövründə) və başqa nəşrlərdə istifadə olunmuşdur. Hal hazırda bu başlıq altında yazılara «Azərbaycan», «Xalq qəzeti», «Respublika», «Müsavat», «Azadlıq» və sair mətbuat orqanlarının səhifələrində rast gəlmək mümkündür.

Bəzən söhbət janrını müsahibə janrı ilə eyniləşdirirlər. Ancaq bu eyniləşdirmə heç bir fakta əsaslanmır, baxmayaraq ki, bu janrlar arasında müəyyən oxşarlıq, ümumilik duyulur. Bu hər şeydən öncə onların cüttərkibli olmasından irəli gəlir. Onun bir hissəsi söhbətin bir iştirakçısına (müsahibə), ikincisi-ikinciyə, jurnalistə «aiddir.» (162) Həm söhbətdə, həm də müsahibədə fikir və replika mübadiləsi var. Lakin janrlar arasında kifayət qədər əhəmiyyətli fərq mövcuddur. İlk növbədə onlara, yəni jurnalistə-müsahibə və jurnalistə-həmsöhbətə ayrılan rol sonda müsahibə və söhbətin mövzusuna öz zəruri təsirini göstərir. Əgər jurnalist müsahibə götürən tərəf kimi yalnız suallarını verirsə və bu suallara müsahib cavab ünvanlayırsa, bu məqamda sonuncu məqalənin əsas xüsusiyyətini, istiqamətini, məğzini təşkil edir, müsahibənin formalaşmasında aparıcı rol oynayır.

Gələcək mövzunun yaranmasında jurnalist-həmsöhbətlə bərabər hüquqa malikdir və onunla kommunikativ akta əsasən partnyor olur. Buna görə də, sual-cavab formasında fikir, düşüncə mübadiləsi aparmaq müsahibəyə xas olan əlamətdir. «Bərabərhüquqlu», bərabər qiymətli replikaya malik fikir və düşüncə mübadiləsi aparmaq isə söhbət janrına məxsusdur. Jurnalist müsahibə götürən zaman o yalnız suallarını müsahibinə unvanlaya, onun fikirlərini istiqamətləndirə bilər. Bəs, bu məqamda məqalə öz real məzmununu saxlayacaqdırmı? Bu məsələyə faktoloji, qiymətləndirici və yaxud başqa əks olunma nöqteyi-nəzərindən yanaşmaq lazımdır.

Müsahib nə qədər çalışsa ki, obyektiv olsun, bu mümkün olmayacaqdır, çünki o, hər ehtimala qarşı məsələyə öz nöqteyi-nəzərindən, öz maraq dairəsindən, öz mövqeyindən, onda olan faktdan, bilikdən, təqdim etmədən, stereotipdən, istiqamətdən və s. yanaşacaqdır. Məhz, buna görə də müsahib məsələyə özü istədiyi kimi baxacaq və danışığı predmetin ona

sərf edən tərəfinə çəkməklə korreksiya edəcək, ona əks olan məqamları ötürəcəkdir. Söhbətin ikinci iştirakçısının da, öz şəxsi mövqeyi var və gələcək çıxışında predmeti öz istədiyi şəkildə mühakimə edəcək, yəni ona sərf edən formada danışacaqdır.

Beləliklə, söhbətdə (müsahibədə) predmeti birtərəfli «monistik» formada müzakirə etmə istər-istəməz özünü çoxtərəfli, (polifonik) çoxsəsli formada göstərəcəkdir ki, bu da şübhəsiz söhbətin obyektivliyini, həmçinin düzgün işıqlandırılmasını artıracaqdır. (203)

Predmetin müzakirəsi həmən həllini tapmadıqda və yaxud uzandıqda söhbət analitik janr olaraq prosesə müdaxilə edir, məsələni hərtərəfli, dərindən, arqumentlərə və təcrübəyə əsaslanan formada öz baxış bucağından həll edir, «preparat halına» salır. (241) Belə üsluba görə söhbət əvəzolunmaz janr hesab olunur. Bu zaman, həmsöhbətin mövqeyi nə qədər təzadlı olarsa, onların «həqiqəti qazmaq», (162) üzə çıxarmaq səyi və təşəbbüsü bir o qədər yüksək olacaqdır. Bu cür priyom, şübhəsiz məqalənin daha maraqlı və cazibədar olmasına gətirib çıxarır. Söhbət zamanı janrın ən vacib məqamlarından biri isə ondan ibarətdir ki, həmsöhbətlər (opponentlər) proses zamanı bir-birinin nöqteyi-nəzərinə hörmət və ehtiramla yanaşsın, həmçinin əksiltmə, kiçiltmə, alçaltma kimi cəhdlərdən yan keçsinlər, o cümlədən «çəki və ağırlıqlarını» (202) yoxlamağa meyl göstərməsinlər. Əks təqdirdə söhbət anlaşılmaz həddə catacaq və heç bir nəticə əldə etmək mümkün olmayacaqdır.

Söhbət janrı proses zamanı, sual verərkən jurnalistdən kifayət qədər yüksək səlahiyyət, peşəkarlıq və başqa müsbət keyfiyyətlər tələb edir. Analitik söhbət müsahibə janrı kimi birtərəfli formada «informasiyanın mənbəyinə» sualları ünvanlamaqla tamamlanmış hesab oluna bilməz. Burda həm də, predmetin müzakirəsi zamanı müəyyən olunmuş normaları nümayiş etdirmək lazımdır.

Söhbətin ən vacib amillərindən biri isə, onda iştirak edənlərin say tərkibinin konkret müəyyən olunmamasıdır. Burda qarşıya qoyulan mövzu ilə bağlı iki, üç, beş-on adam iştirak edə

bilər. Bu cür formada qurulan söhbət həm geniş, həm anlaşıqlı, həm aydın və aşkar olur. Nəticədə analitik söhbət ərsəyə gəlir. Söhbət həm də, jurnalistin fəallığı etibarılə müsahibə janrından fərqlənir. Janrda jurnalist aparıcı şəxs qismində iştirak etdiyinə görə onun sözlərinin həcmi 1:4 nisbətində olur. Söhbətin mütləq tələblərindən biri də, iştirak edən jurnalistin qarşıya qoyulan mövzu ilə bağlı, ümumiyyətlə, bu sahə üzrə yaxşı mütəxəssis olmasıdır.

Ramilə Həsənli.
On iki illik təhsil.

Qəzetimizin müxbirinin Təhsil nazirliyinin şöbə müdiri Xalidə Vəliyeva ilə, son zamanlar cəmiyyəti maraqlandıran və kifayət qədər söz-söhbətə səbəb olan, günün ən vacib məsələsi sayılan «Orta təhsilin on iki ilə qədər artırılması» ilə bağlı söhbəti olmuşdur.

***Müxbir*-Xalidə müəllimə! Siz nazirlikdə əyləşmisiniz və sırf idarəetmə prosesi ilə məşğulsunuz. Demək olar ki, məktəbdən müəyyən məsafədə dayanmısınız. Şagirdlər on birinci sinifə qeyri sabit gəlirlər. Siz inanırsınız ki, orta təhsilin müddəti on iki ilə qədər artırılsa davamiyyət yaxşılaşacaq? Mən şəxsən buna inanmıram.**

***Xalidə xanım* -Bilirsiniz, qeyd edim ki, mən məktəbdən uzaqda yox, onun daxilindəyəm. Özüm də, jyuxarı siniflərə dərs deyirəm. Əgər orta təhsilin müddəti on iki ilə qədər artırılsa, zəif oxuyan şagirdlərin çoxu onuncu sinifdən çıxacaq və təhsillərini peşə məktəblərində davam etdirəcəklər. Nəticədə, on iki illik təhsilə şagirdlərin, heç də çox hissəsi getməyəcək. Sözsüz ki, bunların da əksəriyyətini təhsildə fərqlənənlər, daha doğrusu yaxşı oxuyanlar təşkil edəcəkdir.**

***Müxbir*-Nazirlik bu proqramı həyata keçirməzdən öncə, işsiz qalan müəllimlərin taleyi haqqında düşünübdürmü? Mən dərs yükünün azalmasını nəzərdə tuturam. Çünki hal-hazırda dərs saatı kifayət qədər olan müəllimlər var. On bir və on ikinci siniflərin sayı azaldıqda, sözsüz ki, müəllimlərin dərs yükü aza-**

lacaqdır. Bu da, ilk növbədə əmək haqqının azalmasına, daha doğrusu müəllimlərin sosial vəziyyətinin ağırlaşmasına gətirib çıxaracaqdır. Bu məqamda onların aqibəti necə olacaq? Əvvəlcə gərək bu istiqamətdə addım atılaydı, elə deyilmi?.. Sonrası da, qısa müddət ərzində təhsil sistemində həddən artıq *çox* eksperementlər aparılır, yeni normalar tətbiq olunur. Bütün bu və yaxud bu kimi tədbirləri birmənalı şəkildə alqışlamaq, sadəlövlükdən başqa bir şey olmazdı... Elə düşünürəm ki, burda uşaqların psixologiyası mütləq nəzərə alınmalıdır.

Xalidə xanım-Birincisi, dövləti orta məktəbi bitirənlərin kəmiyyəti yox, keyfiyyəti maraqlandırır. İkincisi isə, dövlət təqaüdləri artırmaqla 65 yaşına çatan müəllimlərin bu problemini demək olar ki, həll edibdır. Üçüncüsü, odur ki, dövlət mütəmadi olaraq təqaüdləri artırır və bunu davam etdirir. Əminəm ki, bu proses zamanı heç kimin hüququ tapdalanmayacaq, əksinə, müəllimlər vaxtında təqaüdə çıxmaqla istirahətlərini təmin edə biləcəklər. Bu isə onların səhhətlərinə müsbət təsir göstərəcəkdir.

Müxbir-Birdən attestat almaq, ali məktəblərə getmək istəyənlərin sayı çox oldu. Onda necə olacaq? Müəllimləri hardan tapacaqsınız? Sonrası da, şagirdlərin hüququ və fiziki durumu nəzərə alınmalıdır. Elə deyilmi... Yoxsa mən yanılıram... Azərbaycan Respublikasının Konstitusiyası hər bir vətəndaşın orta və ali təhsil almasına, həmçinin əmək fəaliyyəti ilə məşğul olmasına zəmanət verir. Bu yeni ekesperement, insanların konstitusiya ilə təsbit olunan hüquqlarını pözmurmu? Yaxşı olardı ki, ilk oncə müəllim hazırlayan ali təhsil müəssisələrində yerlər məhdudlaşdırılardı, keyfiyyət yüksəldilərdi, nəinki orta məktəblərdə. Mənсə, bu prosesə yuxarıdan başlanılsa idi daha effektiv olardı... *Mən fikirimdə yanılmıram ki?*

Xalidə xanım--Xeyr! Siz yanılmırsınız... Məlumat üçün deyim ki, Təhsil nazirliyi bu işlə bağlı artıq üç ildir monitorinq aparır və respublikanın 100-dən çox məktəbində şagird, müəllim və valideyinlər arasında sorğu keçirib. Digər bir tərəfdən isə, Avropda aparılan təcrübə bunu deməyə bizə əsas verir. Sonrası

da, respublikaya yeni texnologiyalar gətirilir və yeni iri sənaye müəssisələri yaradılır, sözsüz ki, bu obyektlərdə işləməyə savadlı və bacarıqlı kadrlar yetişdirmək lazımdır. Məhz bununla bağlı yeni peşə məktəbləri açılır. Bu, gələcəkdə həm işsizliyin qarşısını alacaq, həm də, Azərbaycanın neftdən asılılığını minumuma endirəcək, insanların sosial durumunu yaxşılaşdıracaqdır. Odur ki, düşünülmüş addımlar atılmalı, gələcək öyrənilməli və irəli nikbin əhval-ruhiyyə ilə baxmaq lazımdır.

Müxbir-Vallah, sözün doğrusu heç bilmirsən nəyə inanasan, nəyə yox? Amma açığını deyim ki, bu məsələ ilə əlaqədar mənim şübhələrim öz yerində qalır. Axı, biz nə üçün o dəqiqə Avropa prinsiplərini ortaya atırıq və onu tez bir zaman kəsiyi ərzində ölkəmizdə tətbiq etmək istəyirik. Bəyəm biz təcrübə üçün yaranmışıq? Bəs insan düşüncəsi, şüuru, dərketməsi hanı... Sonrası da, Avropa bu vəziyyətə yetişmək üçün uzun yol qət edibdir. Biz isə, atalar məsəlində olduğu kimi: «Nə yoğurduq, nə yapdıq, hazırca kökə tapdıq.» Yaşayarıq görərik...

Xalidə xanım-Həqiqətə, doğruluğa, tərəqqiyə və insan zəkasına inanmaq lazımdır. Ümidsiz və yaxud bu günün tələbləri ilə yaşamaq olmaz. Artıq zəmanə də, o zəmanə deyil. Xalqın firavan yaşaması üçün daima inkişaf, iqtisadi tərəqqi və nono texnologiyalar və onlara yiyələnmək gərəkdir. Attestatlı, diplomlu savadsızlar «ordusuna» yox deməyin vaxtı çoxdan çatıbdır. Bax, elə sovetləri də, bu arxayınçılıq, avtoritarizm iflasa uğratdı...

Müxbir-Sözsüz, mən də yeniliyin, yaxşı və sağlam cəmiyyətin tərəfindəyəm. İstəyirəm ki, vətənimiz qüdrətli, müasir, inkişaf etmiş olsun, amma birtərəfli və bir xətli islahatları xoşlamıram. Mən hər şeydə, çox variantlığın tərəfini tuturam. O ki, qaldı demokratiyaya və yaxud avtoritarizmə-bunların hər ikisi boş şeydir. Bunlar sadəcə olaraq fəlsəfə və politologiya termini olmaqdan başqa bir şey deyil. Müasir cəmiyyətdə hər şey qanunlarla nizamlanmalı, hər bir vətəndaş da, qanun çərçivəsində hərəkət etməlidir. Belə olduğu halda, yuxarıda adlarını sadaladığımız terminlərin heç birinə ehtiyac duyulmayacaqdır. Bu istər hökumət, istərsə də vətəndaşlar tərəfindən olsun. Bu mənim şəxsi

fikirimdir...

***Xalidə xanım*-Çünki siz də, biz də, ümumiyyətlə, cəmiyyətimiz də, uzun illər standart formada yaşayıb, fikir mübadiləsi aparmayıb, qoyulmuş dırnaqarası qanunları pozmağa cəhd göstərib, necə ki, atalar misalında deyilir: «Ver yeyim, ört yatım. Gözdə canım çıxmasın!» Bu təkcə sizin və yaxud bizim günahımız deyil. Bu ictimaiyyətin və baş verən siyasi təlatümlərin günahıdır. Kim çalışıb bu problemdən tez yaxa qurtarsa, o da udmuş olacaqdır. İnanıram ki, biz sizinlə, bütövlükdə Azərbaycan bu çətinliklərdən uğurla çıxasaqdır.**

***Müxbir*-Dəyərli söhbətə görə sizə öz təşəkkürümü bildirirəm.**

***Xalidə xanım*-Çox sağ olun!**

Müzakirə olunan mövzu həmən və birmənalı şəkildə izah olunmaya gəlməyəndə, söhbət analitik janr olaraq hərtərəfli, düşünülmüş, sakit, arqumentləşdirilmiş formada düz istiqamətə yönəlir və öz axarı ilə gedir. Bu zaman həmsöhbətin mövqeyi nə qədər təzadlı, ziddiyyətli olarsa «həqiqətin açılmasına» (162) daha çox imkan yaranar və bu söhbətin maraqlı olmasına gətirib çıxarar. Həmsöhbətlərin biri-birilərinin nöqteyi-nəzərinə hörmət, ehtiram və düşüncə ilə yanaşması söhbətin çox vacib elementlərdən sayılır. Opponenlərin baxış bucağına kinayə və yaxud replika ilə yanaşma əks təqdirdə mənasız və məntiqsiz söhbətə gətirib çıxarda bilər, nəinki, yaxşı, normal, effektiv söhbətə.

Söhbət janrı sual verməda jurnalistdən kifayət qədər yüksək peşəkarlıq, bilik, səriştə və dözümlük tələb edir. Çünki söhbət müsahibədən fərqli olaraq yalnız «informasiyanın mənbəyinə» sual ünvanlamaqla tamamlanmır. Jurnalist həm də, müzakirə olunan mövzunu yaxşı bildiyini və bu barədə kifayət qədər məlumata, həmçinin təcrübəyə malik olduğunu nümayiş etdirməlidir.

6.KOMMENTARİYA (ŞƏRH)

Kommentariya jurnalistikanın müsahibə janrının metodu kimi ola bilər. Bir metod olaraq kommentariya jurnalistikanın bütün formalarında istifadə olunur: qeyddə-başqasının fikir və istəyini iqtibac formasında izhar etmək ya da ki, müxtəlif haşiyələr vermək üçün. Kommentariya, korrespondensiya, məqalə, qeyd, rəy, oçerk, xülasə, icmalda predmetin təsvir olunmasını göstərmək və son fikir söyləmək üçün müəllif tərəfindən istifadə olunan janr-metoddur. Hətta ola bilsin ki, kommentariya metodu qəzet-jurnal sütunlarının və radio-televiziya verlişlərinin əsasını təşkil etsin. Bu, o zaman baş verir ki, publisistik məqalənin və yaxud verlişin tərkibində qoyulan əsas məsələlərdən biri, o birini «kommentariya» (162) etsin.

Jurnalistikada müstəqil janr olaraq «kommentariya» sözü iyirminci yüzillikdə istifadə olunmağa başlanmışdır. Bu janrın əhatə dairəsinə düşən əhəmiyyətli mövzular istər-istəməz «kommentariya olunma» (izah edilir, müzakirə olunur, şərh verir, aydınlaşdırılır) tələb edir. Hal hazırda kommentariya əsas jurnalistika kompleksləri arasında öz layiqli yerini tutur. Onun köməyi ilə müəllif günün aktual xəbərlərinə öz münasibətini bildirir, onunla bağlı tapşırıqları formalaşdırır, problemi müxtəlif cəhətlərdən analiz edir, çatışmazlıq və yaxud nailiyyətlər haqqında fikir söyləyir, həmçinin onu qiymətləndirir və gələcək tərəqqisi barədə proqnoz verir. Kommentariyanı informasiya janrından fərqləndirən əsas cəhət onda analizin mövcud olmasıdır. Məqalə, xülasə, icmal və başqa analitik janrlardan kommentariyanı fərqləndirən başlıca səbəb, adətən artıq oxucu auditoriyayasına məlum olan hadisəni analiz etmək və bu analizin nəticəsində üstün cəhətləri əks etdirməkdir.

Kommentariya bir jurnalistika janrı olaraq Avropada XIX əsrin ikinci yarısında, XX əsrin əvvəllərində o zaman üçün geniş yayılmış qısa analitik xəbər, kristala çevrilmlş korrespondensiyaya oxşar formadan yaranmışdır.

Bu proses müxtəlif informasiya janrlarının yaranması ilə

paralel olaraq inkişaf etmiş və bu günkü, başa düşdüyümüz formaya gəlib çatmışdır. Kommentariya və informasiya janrları həmişə olduğu kimi bu gün də, yüksək əməli janr kimi gündəlik xəbərləri əks etdirir və hətta onları qabaqlayır. Bu günkü kommentariya aşağıdakı məqsədləri izləyir:

-İctimai həyat üçün ön plana çıxan ən əhəmiyyətli yeni faktlarla oxucu auditoriyasının diqqətini cəlb etmək və onu qiymətləndirmək;

-Kommentariya olunan hadisə və yaxud xəbəri başqa proseslər ilə əlaqələndirmək və onun səbəbini ortaya çıxarmaq;

-Kommentariya olunan hadisə və ya xəbərin inkişaf proqnozunu formalaşdırmaq;

-Hüquqi baxımdan başqa misallarla baş vermiş hadisə və xəbəri mütləq əsaslandırmaq və məsələnin həllini göstərmək.

Qeyd etmək lazımdır ki, kommentariya yalnız yeni hadisə, xəbər, prosesə reaksiya vermir. Kommentariya, həmçinin keçmiş hadisə, xəbər, prosesə də münasibət göstərir, onun bütün problemlərini fəal işıqlandırır və aktual faktları müzakirə edir. Bu gün bir çox televiziya kanallaınrda həftə ərzində baş verən əsas xəbər, hadisə və informasiyanı həftənin sonunda kommentariya ilə auditoriyaya təqdim edirlər.

Yuxarıda qeyd etdiyimiz kimi kommentariya həm də previntiv (qoruyucu, qabaqlayıcı), qabaqcadan düşünmə (sezilmə) və ictimaiyyəti labüd, zəruri məsələlərə hazırlamağa xidmət edən janrdır.

Kommentariya janrının vəzifəsi onun mövzusu ilə ayrılmaz surətdə bağlıdır. Kommentariyanın mövzusu haqqında sualı, akademik hesab etmək olmaz-çünki o gündəlik jurnalist təcrübəsindən irəli gəlir. Bu metod gələcək çıxışı müəyyən etməyə və onun mövzusunun yaranmasına aydınlıq gətirir. Kommentariya müəyyən olunmuş, tapılmış mövzular arasındakı əlaqədən danışır. Onun köməyi ilə həll olunan suallar, hadisənin aşkar olunmasına istiqamətlənən məqsəd və tapşırıq əməli surətdə

izah olunur, hərəkəti oyadır və canlandırır. Vahid qrupda cəmləşmiş, sonsuz kommentariya olunan müxtəlif formalı konkret problemlər ola bilsin ki, bir sıra geniş miqyaslı tipik suallarla əhatə olunsun: yeni xüsusiyyətli və yaxud keyfiyyətli faktlar, həmçinin onun qiyməti haqqında; mövcud olan şərait, şərt, səbəb haqqında; paralel və presedentlərlə bağlı suallar haqqında; hadisəni (faktı) kommentariya edən iştirakçıların fəaliyyətinin məqsədi, səbəbi, planı haqqında; kommentariya olunan hadisənin ardıcıllığı, o cümlədən kommentariya olunan faktda meyl, təmayül, cəmiyyətin inkişaf qanunauyğunluğu özünü göstərir və bu faktın daxilində olan ziddiyyət və təzadlar haqqında; kommentariya olunan faktdan irəli gələn konkret vəziyyətin yolu və metodu haqqında; faktın doğruluğu, gerçəkliyi, həqiqiliyi haqqında; informasiya xəbərlərinə məxsus olan məşhur analoji: Nə? Harda? Nə vaxt? Necə? sualları, həmçinin kommentariyaya məxsus: Nə (Kim) Həqiqətən? Hansı vəziyyətdə? Niyə? Kimə faydalıdır (xeyirlidir)? Vəziyyət necədir? Nə etmək? Necə yaxşıdır? Hansı fərq və ziddiyyət (təzad) mövcuddur? İnkişafın istiqaməti özünü necə göstərir? Onun taktikası və strategiyası necədir? və sair sualları müəyyən edir.

Həm kommentariyanı, həm də başqa bir materialı hazırlayarkən jurnalistin ilk atacağı birinci addımın məqsədi faktı müəyyən etmək olur. Ona görə də, müəllif suallara özü aydın cavab verməyi bacarmalıdır. Həmin suallar aşağıdakı kimi ola bilər:

-Hansı hadisəyə mən cavab verməliyəm? Oxucuya nəyi söyləməli və hansı biliyi verməliyəm? Hansı hissiyyat oyatmalıyam?

-Gələcək çıxışımla bağlı mövzu ilə, məndə hansı bilik və məlumatlar var?

-Opponentimin mənə qarşı hansı narazılığı baş verə bilər? Məqalədə onları necə nəzərə almaq lazımdır?

Müəllifin fikiri nə qədər aydın, dürüst olsa, onun məsələnin həlli ilə bağlı qarşıya qoyduğu suallar və bu suallara verdiyi ca-

vablar bir o qədər dəqiq və inandırıcı olacaqdır.

Məqsəd və sualların qoyuluşu nə qədər aydın olsa, müəyyən nəticəyə yönəlmiş informasiyanın toplanması da, bir mövzu ilə sıx bağlı, dərin düşüncəli və nəhayət, materialın yazılması üçün rahat və inamlı olar. Formanın bütün elastikliyinə baxmayaraq kommentariya nisbətən möhkəm, davamlı struktura malikdir. Beləki, kommentariyada hər hansı bir sualı sübut və dəlillərlə müzakirə etmək, təsdiqləmək strukturu var. Bu, janrın predmeti, funksiyası və məzmunu ilə müəyyən olunur. Yeni hadisənin, xəbərin kommentariyasının müzakirəsi zamanı o daha geniş surətdə auditoriyaya məlum olan ümumi proses, vəziyyət və məsələ ilə bağlanır. Nəticədə yeni hadisə, xəbər, prosesin şərhi həyata keçirilir, izah olunur və qiymətləndirilir. Müvəffəqiyyətli kommentariya həmişə yaxşı məntiqi nəticə ilə yekunlaşır. Kommentariya edilən və kommentariya olunan fakt, onun detalları, təfsilatı müəllif tərəfindən irəli sürülən tezisə və yaxud onun düzgün nəticəyə gəlməsinə xidmət edir. Kommentariya aşağıdakı fəndlərin köməyi ilə həyata keçirilir:

-Başlanğıc və kommentariya olunan faktlar (məsələn, hadisə və prosesin tarixindən əvvəlki xəbər) arasında əlaqənin hazırlanması;

-Sualların qoyuluşu üçün kommentariya olunacaq xəbərin nişanə və əlamətlərinin hissəcikləri;

-Analogiyanın işlənməsi, faktların tutuşdurulması, onların qarşılaşdırılması, məsələn, presedentlər;

-Kommentariyada paralellərin aparılması; -müzakirə olunan hərəkətin ziddiyyətli və yaxud təzadlı olması, onların müqayisə edilməsi, qarşı-qarşıya qoyulması üsulu və tərzi qaydaları;

-Mətnin təfsir, izah, şərh olunması (sənədlərin aydınlaşdırılması, opponentin dili və sübutlarının aydın dildə «tərcüməsi»).

Bu və yaxud başqa analitik qaydalar fərdi və yaxud kombinasiya (quraşdırılmış) olunmuş formada qəbul olunur. Onla-

rın seçimi konkret dəlillərlə sübut olunmuş müzakirə və lazimi sualların qoyuluşu zamanı baş verir. Hansı qaydadan istifadə olunmasına baxmayaraq, kommentariya bir sıra tipik struktur elementləri (kommentariyanın əsas hissəsi) qoruyub saxlayır:

-Kommentariya olunan xəbər, hadisə, proses və onlar haqqında məlumat və kommentariyanın həlli forması;

-Kommentariya olunan fakt və fikrin, detalların ifadə olunması;

-Bu hadisə, proses, xəbərlə bağlı ortaya çıxan sualların dürüst ifadə olunması;

-Müəllifin təsvir olunan hadisədə əks olunanlara münasibəti, tezislərin dürüst ifadə olunması və yaxud mövzunun əvvəlində və yaxud sualın qoyuluşundan dərhal sonra kommentariya olunan hadisədənin əsas məğzi.

Kommentariyanın quruluşu janrin mahiyyətindən irəli gəlir və onun bütün struktur elementləri-biri digərini şərtləşdirir. Məhz buna görə də, onların hamısı kommentariyada mütləq olmalıdır. O bu məqamda uğursuzluğa düçar ola bilər. Əgər kommentariya olunan mövzuda başlanğıc fakt olmazsa, o auditoriyaya məlum deyilsə, onda qoyulmuş suallar havadan asılı vəziyyətə düşür, danışıq isə, ən yaxşı halda, auditoriyaya məlum olmayan hər hansı bir hadisə haqqında, ümumi nöqteyi-nəzər sərgiləyir. Bu o zaman baş verir ki, kommentator auditoriyanın diqqətini cəlb etmək üçün çıxışına faktla başlayır, bu isə kommentariya olunan hadisəni əks etdirməyən faktdır.

Kommentariyada səhv o zaman baş verir ki, komentariya olunan mövzu ilə sualların qoyuluşu bir-birilə bağlı olmur. Bu zaman müəllifin müzakirə etdiyi problem ya auditoriyaya məlum deyil və yaxud auditoriyaya çox gec çatır. Ona görə də, bütün mümkün imkanları, struktur və elementləri səfərbər etmək lazımdır ki, auditoriya problem və prosesin həllində fəal iştirak etsin, düzgün düşünsün. Əgər müəllif özü kommentariyanın məqsədini, sualların planlı qoyuluşunu anlamırsa, onda hesab etmək olar ki, jurnalist, ümumiyyətlə, hər hansı bir hadisəni,

prosesi kommentariya etmir, sadəcə olaraq müəyyən faktlar haqqında xəbər verir. (241)

Dəqiqlik, zərurilik, aktuallıq sualların keyfiyyətli qoyuluşunda əsas rol oynayır. Onlar arqumentlərin keyfiyyətinə, kommentariya olunan fikirə və fakta təsir göstərir. Əsaslandırılmış xülasə, kommentariya olunan fikir faktın keyfiyyətindən çox asılıdır. Beləki, keyfiyyətsiz fikir və fakt heç vaxt əsaslandırılmış nəticə verə bilməz.

Yaxşı kommentariyada aydın fikir olmalıdır. Əgər bu yoxdursa, müəllifin fikirlərinin ardıcıllığı, qoyuluşu auditoriyanı kifayətləndirə bilməyəcək. Yəni, kommentariyadan çıxan və müəyyən məqsəd üçün auditoriyaya yönəldilmiş impuls zəif olacaqdır. Əlbəttə, bu heç də o demək deyil ki, nəticə nəsihətverici formada ifadə olunsun. Mümkündür ki, ideya öz-özlüyündə müəllifin məntiqi fikirindən və təqdim olunan faktların əlaqəsindən irəli gəlsin. Məsələn, auditoriya imkan verir ki, müstəqil olaraq son sözü müəllif desin: «nəticə şübhəsizdir» və yaxud «kommentariya lüzumsuzdur.» (162)

Kommentariyanın texnologiyasına mövzunun sərlövhəsinin əlamət və nişanələri, xüsusiyyətlərinin müzakirəsi də, daxildir. Kommentariyada uğurlu sərlövhə, başqa bir mövzunun sərlövhəsində olduğu kimi, publisistikanın xüsusiyyəti haqqında siqnal verir. Sərlövhə kommentariyanın düzülüşu və üsulu ilə sıx əlaqədə olur. Bu məqamda, sulların tez-tez qısa tərtib olunması haqqında danışıqlar gedir; sual cümləsinin və yaxud tezislərin şəxsi istifadə olunmasının səciyyəsi ifadə olunur. Bəzən sərlövhə özünə daha az-maraq kəsb edən başlıca arqumentləri daxil edir. Sərlövhə, həmçinin müəllif tərəfindən işlədilə bilən kommentariyanın başlıca üsullarından birini, məsələn, müqayisə etmə, tutuşdurma, qaş qoyma kimi özünü göstərə bilər.

Kommentariyada dolğun, maraqlı sərlövhə hər şeydən öncə hadisə, vaqiə, qəziyyəni və yaxud onunla bağlı vəziyyət, proses, meyl, ideya, qayə, tapşırığın həlli yollarını, qiymətini əks etdirir. Ola bilər ki, sərlövhə kommentariyada polemik məqsədə yönəlsin və yaxud mövzu ilə bağlı əlaqəni ifadə etsin. Deməli,

kommentariyada şərti olaraq təsvir edilən əsas vəziyyətin hazırlanması funksional asılılıqla bağlıdır. Onlar birbaşa janrın tapşırığından irəli gəlir, onun daxili məntiqinə əsasən sübutlu, dəlilli müzakirənin nəticəsində müəyyən edilir. Bu kommentatorun (şərhçi, izahçı) məntiqi hərəkətinə qarşı yüksək məntiqi ideya tələb edir. Əgər kommentariyanın sürətlə hazırlandığını nəzərə almış olsaq, böyük inamla deyə bilərik ki, bu müəllifdən özünə yüksək nəzarət, praktiklik, cəldlik, peşəkarlıq, fərdiçilik və özünü təkmilləşdirmək kimi bacarıqlar tələb edir.

Kommentariyanın müvəffəqiyyət qazanması hər şeydən artıq onun düzgün qurulmasından asılıdır. Kommentariyanın quruluşunu müəyyən edən çox saylı variantlar mövcuddur. Lakin onun vacib bir prinsipi olmalıdır-yalnız kommentariya olunan problemin, publisistikanın quruluşunun aydın olmasına kömək etməlidir. Oxucuya imkan yaradılmalıdır ki, xüsusi səy və qüvvə sərf etmədən söhbətin nədən getdiyini, həmçinin kommentatorun öz mövqeyinə hansı arqumentləri gətirdiyini, o cümlədən hansı çıxış yolu təklif etdiyini, hansı qərar irəli sürdüyünü və s. görsün, anlasın. Bu janrın klassik formada quruluşu materialda «fakt-kommentariya» sxemi əsasında yerləşdirilir. (203)

Kommentariya-bu heç də, o demək deyil ki, çətin faktı publisistika baxımından incəliklərinə kimi araşdırıb şərh verəsən. Amma vacib odur ki, baş vermiş hadisəyə, fakta, vəziyyətə jurnalist öz fikirini bildirməli, onları müşayət etməli, oxucuda və dinləyicidə prosesə inam yaratmalı, onları kifayət qədər məlumatlandırmalıdır. Bu janrın həcmi təxminən 150 sətrə kimi ola bilər.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu).
Əmək haqqı yaxşıdır, təqaüd ondan da, yaxşıdır.

Azərbaycanda əmək haqqı üzrə dövlət borcu 1 iyul 2009-cu ilə kimi 0,6 mln. manata enmişdir. Bu haqda Milli Məclisdə çıxış edərkən Baş nazirin müavini Əhməd Bədəlov məlumat vermişdir. Onun sözlərinə görə, əmək haqqı üzrə olan borc orta hesabla

təxminən iki aya bərabərdir, lakin elə komitə, təşkilat, nazirlik və rayonlar var ki, bu nisbət ya az, ya da ki, bir qədər çox təşkil edir.

Milli Məclisdə çıxış edən Əmək və Əhalinin Sosial Məsələlər Komitəsinin sədri Cahangir Əlizadə söylədi ki, «təqaüdlər və sosial yardımlar üzrə olan borc 5,0 mln. manata yaxındır ki, ümumiyyətlə, bu da heçnə deməkdir. Bizim hesablamalarımıza əsasən növbəti ayda təqaüd və yardımlar üzrə borc tamamilə aradan qaldırılacaqdır. O ki, qaldı əmək haqqı üzrə olan borca, bu haqda Baş nazirin müavini məlumat verdi. Həqiqətən, təxminən iki ay müddətinə, bir az çox, bəlkə də az vaxta bu problem öz həllini tapacaqdır. Bildiyiniz kimi neftin qiyməti Dünya Birjasında xeyli artıb, sözsüz ki, bu da Azərbaycanın gəlirlərini artırır. Nazirlər Kabineti mətbuat tərəfindən nə qədər tənqid olunsa da, onun işini müsbət saymaq olar. Çünki onlar artıq dünya bazarında baş verən böhrandan özlərini sığortalaya biliblər...»

Milli Məclisdə çıxış edən İqtisad-Siyasət Komitəsinin sədri Natiq Qurbanlı bunları bildirdi: «Mən çıxışıma başlamazdan öncə diqqətinizi bir məsələyə yönəltmək istəyirəm. 1 yanvar 2009-cu ilə dövlət borcu, əmək haqqı və təqaüdlərlə birlikdə iki milyard manata yaxın idi. Bu gün isə bu rəqəm demək olar ki, 3,5 dəfə azalıbdır. Demək vəziyyət heç də pis deyil, əksinə, yaxşılığa doğru gedir. Bu isə ona dəlalət edir ki, maliyyə və iqtisadi strukturlar normal işləyir. Baxın, təqaüd və yardımlarla borc məsələsində olan problem yox səviyyəsindədir. Bütün bunlarla yanaşı yeni iş yerlərinin açılması, ölkəmizdə vüsət alan quruculuq-abadlıq işləri, aqrar sektorda imperiyadan qalan köhnə kənd təsərrüfatı texnikasının tamamilə dəyişdirilməsi, əmək haqqı, təqaüd və yardımların artırılması və s. işlərin heç də pis olmamasından xəbər verir. Ötən 2008-ci ilin eyni vaxtı ilə müqayisədə, 2009-cu ilin 6 ayı ərzində büdcəyə mədaxil 2 dəfədən çox artıbdır. Mən Maliyyə, Gömrük, Vergilər və İqtisadiyyat nazirliklərinin işini kafi qiymətləndirirəm.»

Sonra öz təkliflərini səsləndirmək üçün Əmək və Əhalinin Sosial Məsələlər Komitəsinin sədri Cahangir Əlizadə tribuna-

ya qalxır və çıxışına başlayır: «Mən Baş nazirin müavini və İqtisad-Siyasət Komitəsi sədrinin çıxışlarını diqqətlə izlədim və bəzi məsələləri özüm üçün araşdırdım. Araşdırmadan sonra qərara gəldim ki, həqiqətən Azərbaycanda iqtisadi vəziyyət ürək açandır. Heç bir tənəzzüldən söhbət gedə bilməz. Həyat tərzi günbə-gün yaxşılaşır. Ancaq yaddan çıxartmaq olmaz ki, infilyasiya öz sözünü deyir, yəni vətəndaşların «pul qabına» təsir göstərir. Odur ki, əmək haqqlarının və təqüdlərin artırılmasını təklif edirəm...»

C. Əlizadənin çıxışından sonra Həmkarlar Təşkilatının sədri, Milli Məclisin üzvü Manaf Dadaşov çıxış üçün spikerdən söz istəyir və fikrini açıqlayaraq deyir: «Mən də, çıxış edən həmkarlarımla tam razıyam, Azərbaycanda iqtisadiyyatda yüksəliş hiss olunur. Bu yaxşı tendensiyadır. Amma mən də, özümdən əvvəl çıxış edən Cahangir Əlizadənin fikirlərini dəstəkləyirəm. Nəqliyyatda gediş haqqının və bəzi kommunal xərclərin artması fonunda əmək haqqı və təqaüdlər cılız görünür. Odur ki, əmək haqqları və təqaüdlərin artırılmasına ehtiyac duyulur. Təklif edirəm ki, bu məsələ nəzərə alınsın, konkret qərar qəbul olunsun.»

İclasın sonunda deyilənlərə öz münasibətini bildirən Milli Məclisin sədri dedi: «Çıxış edənlər Azərbaycanın iqtisadiyyatındakı mövcud vəziyyətlə baxlı fikir mübadiləsi apardılar və təkliflərini səsləndirdilər. Mən də, müzakirələr nəticəsində deyilənlərlə tamamilə şərikəm. Əmək haqqlarının və təqaüdlərin artırılmasını dəstəkləyirəm. Bununla bağlı, bu yaxınlarda Prezidentin yanında keçirilən Nazirlər Kabinetinin içlasında cənab Prezident özü təkli vermişdir. Odur ki, səlahiyyətli komitələrdən bununla bağlı qanunu hazırlamağı xahiş edirəm. Maliyyə nazirliyinin fikir və təklifləri mütləq nəzərə alınmalıdır. Çünki «pul» ondadır...»

Bu kommentariyanın strukturunda əsas nəticə ondan ibarətdir ki, bütün vacib komponentlər mövcuddur. Bu da, oxucuya qarşıya qoyulan məsələnin daxilinə nüfuz etməyə imkan

verir. Mövzuda məsələnin qoyuluşu özünəməxsus formada verilir və məntiqə əsaslanır. Başlanığıcda üstüörtülü verilən problem getdikcə açılır, əsas müzakirə obyektinə çevrilir və müsbət sonluqla yekunlaşır.

7.SOSİOLOJİ XÜLASƏ

Son illər Azərbaycanda dərc olunan dövri mətbuat orqanlarında sosioloji xülasənin bir jurnalistika janrı kimi çox istifadə olunmasının əsasında, müstəqillik, çox partiyalı siyasi sistem, demokratik dəyərlərin tərəqqisi, konstitutsiya ilə ictimaiyyətə verilən söz azadlığı, həmçinin vətəndaşların özlərini sərbəst hiss etməsi dayanır. Son iyirmi il ərzində, Azərbaycanın ictimai-siyasi həyatında cərəyan edən coşqun proseslər, əhali arasında permanent (davamlı) olaraq müxtəlif anketlərin doldurulması, müsahibələrin alınması və s. nəticəsində «sosioloji xülasə»nin miqyası genişlənmişdir.

Sosioloji xülasə jurnalistikanın o janrlarındandır ki, hər hansı bir sosioloji tədqiqat onda qısa şəkildə ifadə olunur. Adətən bu janrda, xülasənin müəllifi göstərilmir. Hər şeydən öncə, bu növ publisistikanın analitik başlanığıcında, aparılacaq tədqiqatın məzmunu təmin olunur. Bunu həqiqi analizin əldə olunmasına yönəldilmiş taktiki gediş kimi başa düşmək lazımdır. Sosioloji xülasənin müəllifi sübut və dəlilləri olduğu ardıcıllıqla, yəni tədqiqatın özündə ifadə olduğu kimi deyil, müəyyən formada əlaqələndirməklə və yaxud sosioloji məlumatı əlavə kommentariya etmək yolu ilə, həmçinin xülasədə predmetin təsvir olunmasını analitik fikirin dərəcələrindən biri kimi verə bilir.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu).
Heyvanlar fraksiyası.

Bu il keçirilən parlament seçkilərində iqtidar, müxalifət və bitərəflərin fraksiyaları müvafiq olaraq «Aslanlarlar», «Dovşanlar» və «Tısbağalar» bayrağı altında çıxış edərək üç hissəyə bö-

lünmüşlər ki, bu da meşədə yeni seçiləcək parlamentə, «heyvanlar» fraksiyasına böyük maraq oyatmışdır. Aslanların iki yüzü əhatə edən «Aslanrlar» qrupunun parlamentdəki özəyinə Super Aslan, dovşanların min üç yüz səsini əldə edən «Dovşanlar» qrupuna Dəmir Daş və meşədə yerdə qalanların bilinməyən say tərkibini təmsil edən bitərəflər, yəni «Tısbağalar» qrupuna Zirehli Maşın rəhbərlik edirdi.

168 deputat kürsüsündən 98-ni mənimsəyən «Aslanlar» çox böyük üstünlük əldə etmişlər. Bu siyahıda 50 yeri «Tısbağalar», yəni bitərəflər, cəmisi 20 yeri müxalifəti təmsil edən «Dovşanlar» fraksiyası əldə etmişdir.

«Aslanlar» fraksiyasına çox adlı-sanlı şəxslər daxildir. Bura sabiq kommunist-ayılar, hiyləgərlik idman növü üzrə dünya və Avropa çempionları-tülkülər, keçmiş SSRİ-nin «əmək veteranları», indiki «Ağacdələn»lər, «Yarasa»lar və sair «tanınmış» mətbuat orqanlarının jurnalistləri, o cümlədən «Tutuquşu»lar, elmlər doktoru və professor «Dələ»lər, pullu biznesmenlər, yırtıcılar, həmçinin Meşə-Dağ Aparatının məsul işçiləri-«Saxsağan»lar daxildilər. Onların böyüyünün 93, kiçiyinin isə 18 yaşı olardı ki, bu da orta hesabla 55,5 yaş deməkdir. Bir sözlə «Aslanlar» fraksiyasının özəyini «super aslanlar» təşkil edir. O ki, qaldı «Dovşanlar» fraksiyasına, burda vəziyyət ürəkaçan deyil. Onlar meşə ictimaiyyətinin orta-aşağı təbəqəsini təşkil edir və onlarda orta yaş həddi 34-ə yaxındır. Əksəriyyəti dəlmələrdə qalan, günorta yeməyi yerinə «ağacdələnin» tıqqıldısına qulaq asan bu qrupu sosial zəiflər təşkil edir. O ki, qaldı «Tısbağalar» fraksiyasına, yəni bitərəflərə, onların vəziyyəti heç də acınacaqlı deyil. Orta yaş həddi 49 olan bu qrup «Aslanlar» fraksiyasının tör-töküntüləri hesabına yaxşı yaşayirlar. Onların həyatları da, 100 faiz təhlükədə deyil.

«Aslanlar» fraksiyası meşənin mərkəzində müasir tipli bir neçə talada yaşayırlar və parlamentin yığıncaqlarına «BMV», «Toyota», «Mersedes» və s. bahalı «xod gedən» maşınlarla gəlirlər, geyim-kecimlərinə də ki, söz ola bilməz, hamısı «Uolt-Disney»dəndir. Elə bil dünən axşam Belçikadan, «Paris-Tbilisi»

təyyarə reysi ilə gətirilib. Hərəsinin də bir neçə «Gecə hərəmxanası», «super-cəngəllikləri», «Tala-Yuva Tikmə Kompleksləri» və ta nələri var ki, sadalamaqla tükənməz...

O ki, qaldı «Dovşanlara» yuxarıda qeyd etdiyimiz kimi şəhərin kənarınd «şanxay» deyilən yuvalarda kirədə qalırlar ki, pulunu vaxtında ödəməyəndə, yuva sahibləri onları tutub yeyirlər. Ərzaqı taladakı balaca köşklərdən nisyə götürürlər ki, acından ölməsinlər... Pulunu da, verə bilməyəndə, aqibətləri yuxarıdakı kimi olur. Avtobusa minib parlamentə gəlmirlər ki, 80 qəpiyə qənaət etsinlər. Amma həftədə bir cüt ayaqqabı dağıdırlar...

Bu mənada «Tısbağaların» vəziyyətini qənaətbəxş hesab etmək olar. Onlar talanın mərkəzində yaşamasalar da, özlərinin bina evləri var. Geydikləri pal-paltar xarici model olmasa da, heç olmasa Maştağa və Balaxanıda tikiləndir, yəni təzədir. Tısbağalar kimi yavaş getmələrinə baxmayaraq, başları «yaxşı» işləyir, hərəsi dövlətin bir işində vəzifə sahibidirlər. Ta başqaları kimi ərzağı nisyə götürmürlər.

«Aslanlar» fraksiyasına daxil olanların hamısı «Çil-çıraq» adasında villalar tikdiriblər. Çünki onlar bu adadan olduqlarına görə yaxşı yaşamalı, yüksək vəzifələrdə işləməlidirlər. İndi bu meşədən, bu adadan olmaq moddadır. Bu mənada, «Dovşanlar»ın bəxti heç gətirməyibdir. Onların bir çoxu «Duzlu», qalan bir hissəsi isə «Qazlı» dərədəndir. Danışıqlarında özünəməxsus şivələri var deyənə başqa yerə qeydiyyata düşə bilmirlər. Lap nə qədər rüşvət versələrdə, belə...

«Tısbağalar» fraksiyasının bəxti burda da gətiribdir. Onlarla heç kimin işi yoxdur. O ki, qaldı «Dovşanlar»a, qarşıda nə isə yaxşı bir şey görünmür. Çünki son məlumatlara görə «Aslanlar»la «Tısbağalar» gizli danışıq apararaq bir siyasi blok halında birləşməyə qərar veriblər. Sözsüz ki, bu da «Dovşanların» çoxda yaxşı olmayan durumunu bir xeyli pisləşdirəcəkdir.

Sonda onu qeyd etmək istəyirəm ki, «Xüsusu torpaqlar haqqında» və «Təhsil haqqında» yeni qanunların qəbul olunmasında «Dovşanlar» fraksiyasının istəkləri nəzərə alınmayacaqdır. Çünki parlamendə çoxluq təşkil edən «Aslanlar» fraksiyası

«Tısbağalar» fraksiyasının köməyindən layiqincə «bəhrələnəcəklər»...

Cəmiyyətdə apardığımız sosioloji sorğuya əsasən «Aslanlar»-73%, «Tısbağalar»-19%, «Dovşanlar»-8% səsə malikdirlər. Hal hazırki material analitik publisistikanın başqa janrlarından nə ilə fərqlənir? Birnicisi, təsvir olunması ilə. İkincisi, bu cür mövzu üçün kütləvi formada hadisə mövcuddur-seçki öncəsi və yaxud seçkidən sonrakı yeni siyasi vəziyyəti oxucuya çatdırmaq üçün. Üçüncüsü, lazım olan informasiyanı əldə etmək metodu baxımından sosioloji sorğu əhəmiyyətlidir.

Bu cür publisistik yazıda yeni siyasi qruplar, onun səciyyələndirilməsi haqqında yoxlanılmış fəal məlumatlar əks olunmuşdur. Lakin bütün bu tələblərə və formaya baxmayaraq indiki publisistik məqalə elmi publisistika hesab oluna bilməz.

Sosioloji xülasə qəzetin auditoriyasına informasiyaya uyğunlaşmaqda, həmçinin elmi tədqiqatın nəticəsini gözləmək və ifadə etmək imkan verir. Bununla belə, onun məzmun baxımından nə qədər mürəkkəb olması və hansı metodla tez-tez həyata keçirilməsi göstərilmir. Məhz bu cəhətlərinə görə qeyd etmək olar ki, sosioloji xülasə bəzi dərəcələrinə əsasən məşhur-elmi janra yaxınlaşır. Məşhur-elmi janr elmdə qazanılan elmi nailiyyətləri təbliğ etmək üçün istifadə olunur, çünki siyasi qüvvələrin yerləşdirilməsi və yaxud siyasi qüvvələrin xüsusiyyəti və s. haqqında danışmaq onun səlahiyyətlərinə daxil edilmir. Özünün dərəcəsinə, «geniş açılmasına», mürəkkəbliyinə görə müəyyən (bəzi) xülasələr bir-birindən kifayət qədər fərqlənir. Lakin bütün bunlara baxmayaraq onlar vahid janr qrupunda birləşirlər. (162)

8.ANKET

Anket-onun nəticələri, ümumiləşdirilməsi və xülasə ilə təmin olunması deməkdir. Kollektivin bu və yaxud başqa problemə öz münasibətini bildirməsi üşün nəzərdə tutulan ən yaxşı vasitədir. Bu janr siyasi, iqtisadi və sosial məsələlər üzrə ümu-

mi rəy almaq və yaxud real vəziyyəti öyrənmək, həmçinin qiymət vermək baxımından daha məqsədə uyğundur.

Anket informasiya toplamaq, müşahidə etmək, müsahibə almaq, sorğu keçirmək və s. jurnalistika janrları ilə yanaşı anketləşdirmək metodu kimi istifadə olunan janrdır. Bu metod jurnalistikaya sosiologiya elmindən gəlmiş və müəyyən olunmuş geniş dairədə suallar vasitəsilə məlumat əldə etmək üçün istifadə olunur. Anket doldurmaq yolu ilə alınan informasiya işlənilərək təkminləşdirilir və nəticədə özünün xüsusi cizgilərinə məxsus müstəqil publisistik məqalə alınır.

Bu janrın anket kimi adlandırılmasında, informasiyanın anket metodu ilə alınmasının, yəni metodun özünün «anket» adlandırılmasının janr yaradan fakt kimi əsas rolu var. Başqa cür demiş olsaq, müsahibə yanrı müsahibə adlandırıldığı kimi, anket janrı da, metodun adından istifadə olunmaqla «anket» adlandırılır və bu formada analitik jurnalistikada istifadə olunur. (202)

Anketləşdirmə jurnalistin ixtiyarına kifayət qədər mürəkkəb, həmçinin müxtəlif formalı informasiya (material) verir. Bu cür xüsusiyyət minimum iki faktla izah olunur:

Birincisi, anketləşdirmə özündə olduqca çox müxtəlif forma və yönümlü, həmçinin istiqamətləndirilmiş və yaxud hadisəni hər tərəfli öyrənmək üçün lazım olan sualları cəmləşdirir ki, bu da anketləşdirilmiş hadisəni (şəxsi) diqqət mərkəzində saxlayır.

İkincisi, anketləşdirmə zamanı jurnalist verdiyi suallara çoxsaylı (onlarla) cavab alır. Nəticədə jurnalistin əlinin altında çox maraqlı və böyük həcmdə müxtəlif yönümlü və formalı informasiya toplanır. Bu isə jurnalistdən onları sahmana salmağı və yaxud cavabları yoluna qoymağı tələb edir. Məhz, bunun məntiqi nəticəsində jurnalistin konkret strukturaya malik orginal məzmunlu əsəri ərsəyə gəlir.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu).
İkili standart.

Məktəblilər arasında mütəmadi sorğu keçirən dövri mətbuat orqanlarından biri, paytaxtın MN saylı orta məktəbində, şagirdlər arasında «Dağlıq Qarabağ problemi və onun səbəbləri» mövzusu ətrafında sorğu keçirir. Məktəblilərə (25 şagird) hər biri 20 sualdan ibarət olan anget paylanılır və onlardan irəli sürülən suallara konkret cavab vermələri xahiş olunur.

1. Dağlıq Qarabağ konfiliktinin arxasında nə dayanır?
2. Kimlər üçün bu müharibə maraqlıdır?
3. Hansı məqsəd əsas götürülür?
4. Din burda rol oynayır, ya yox?
5. Bu torpaqlar həqiqət də, kimə məxsusdur?
6. Haqq, ədalət kimin tərəfindədir?
7. Ermənilərin planları nədən ibarətdir?
8. Nə üçün dünya birliyi bu haqsızlığa göz yumur?
9. BMT öz qətnamələrinin yerinə yetirilməsinə nə üçün çalışmır?
10. Rusiyanın Azərbaycana qarşı iddiasının əsasında nə dayanır?
11. Azərbaycanın haqq səsini aparıcı dövlətlər nə üçün eşitmirlər?
12. NATO BMT-nin tələbi ilə sabiq Yuqoslaviyanı bombaladı. Bəs
Ermənistana niyə o konteksdən yanaşmır?
13. Ermənilər Qafqazda yerli xalqdır, yoxsa gəlmə?
14. Nə üçün İran Ermənistana kömək edir?
15. Türkiyənin bölgədə ki, mövqeyi?
16. ABŞ Azərbaycana dəstək verirmi?
17. Qərbi və Cənubi Azərbaycan torpaqları kimlər tərəfindən işğal olunubdur?
18. Problemin həlli uzunmu çəkəcək?

19.Konfiliktin açarı harda gizlənir?
20.Torpaqlarımızı hansı vasitə ilə azad etməliyik?

Anket vasitəsilə qarşıya qoyulan bu suallara cavab verən 25 şagirdin hamısı demək olar ki, öz cavablarında fikir birliyi nümayiş etdirmişlər. Ancaq bununla belə, bəzi suallarda tam aydınlıq, qətiyyət, digər bir tərəfdən isə sualların bir hissəsi ritorik cavab tələb etdiyi üçün fikir müxtəlifliyi nümayiş olunmamışdır.

Dağlıq Qarabağ konfiliktinin arxasında nə dayanır? sualına cavab verən M. Əhmədov konkret olaraq Rusiyanın Zaqafqaziyanı, o cümlədən yenidən Azərbaycanı ilhaq etmək marağında olduğunu vurğulamışdır.

Haqq və ədalət kimin tərəfindədir? sualını cavablandıran C. Sultanlı hamıdan fərqli olaraq Azərbaycanın tarixinə ekuskurs edərək sübuta yetirir ki, nəinki Dağlıq Qarabağ, həmçinin Ermənistanın bu gün qurduğu «dövlət» tarixi Azərbaycan ərazilərində yerləşibdi. O, məsələyə daha kəskin yanaşaraq yalnız Dağlıq Qarabağ ərazisini deyil, həm də, Qərbi Azərbaycan torpaqlarının qaytarılmasını gələcək plan kimi qarşıya qoyur. Haqq və ədalətin tamamilə Azərbaycanın tərəfində olduğunu bildirir.

Nə üçün İran Ermənistana kömək edir? sualını cavablandıran Könül Vəliyeva yazır: «İran Ermənistana ona görə köməklik göstərir ki, çünki onun özü də Cənubi Azərbaycanı işğal edibdir. Azərbaycanın müstəqilliyi, iqtisadi və hərbi yüksəlişi İranı çox narahat edir. Onlar yaxşı bilirlər ki, gec-tez haqq-ədalət öz layiqli yerini tutacaq. Məhz buna görə də, İran Ermənistana kömək edir, təlaş keçirir.»

Konfiliktin açarı harda gizlənir? sualına şagirdlərin hamısının cavabı, demək olar ki, üst-üstə düşmüşdür. Onlar konfiliktin «açarının» Rusiyada, daha doğrusu, Kremldə olduğunu qeyd etmişlər.

Sonuncu suala şagirdlər tərəfindən verilən cavab həm humanizm, həm də vətənpərvərlik baxımından böyük önəm kəsb edir. Cavabların oğlanlar və qızlar tərəfindən eyni cür qiymətləndirilməsi Azərbaycan xalqının əzim və iradəsindən, həmçinin

onun sülhsevərliyindən xəbər verir. Torpaqlarımızı hansı vasitə ilə azad etməliyik? sualına cavab belə olmuşdur: «Əvvəlcə güc tətbiq etmək lazım deyil. Neçə ildi ki, Azərbaycan münaqişənin sülh yolu ilə həllinə çalışır və bunu bütün görüşlərdə gündəliyə gətirir. Amma nədənsə Ermənistan bu variantdan qaçır və problemin həllindən yayınır. Müharibə nəticəsində çoxlu dağıntılar olur, insanlar məhv edilir, əlil olur, çoxlu sayda qaçqın və s. kimi lazımsız problemlər ortaya çıxır. Əgər nəzərə alsaq ki, müharibədən sonra çoxlu fəsadlar yaşanacaq, onda bu müharibənin miqyasını təsəvvürə gətirmək o qədər də çətin olmaz. Hələ biz müharibəyə hansı dövlətlərin qoşulacağını, onun genişənəcəyini və s. görünməz məsələləri demirik. Birinci Qarabağ müharibəsindən nə qədər insanın əziyyət çəkməsi, evlərin dağılması hamıya yaxşı bəllidir. İkinci Qarabağ müharibəsi, əgər olarsa, daha böyük və daha dəhşətli olacaqdır. Ancaq bütün bunlara rəğmən biz torpaqlarımızı hansı yolla olursa-olsun azad edəcəyik. Biz buna həm mənəvi, həm maddi, həm fiziki, həm siyasi, əsasəndə, hərbi baxımdan tam hazırıq. Ali Baş Komandanın bir əmri bizi hərəkətə gətirəcəkdir.»

Şagirdlərin cavabları arasında bir planetdə, qonşuluq münasibətində yaşamağımıza işarə edənlər də var idi. Lakin bir neçə nəfər var idi ki, birbaşa müharibə ab-həvvası ilə yaşayır, qana qan deyərək şəhdlərimizin intiqamını almağa üstünlük verirlər. Əlbəttə bunların hamısı başa düşüləndir. Torpaqları işğalda olan xalqın balalarının bu cür düşünməyə tam haqqı və ixtiyarı var. Bu reallıqdır və buna praqmatik nöqteyi-nəzərdən yanaşmaq lazımdır...

Hal hazırda «anket» jurnalistika janrı olaraq bir çox qəzet və jurnalların səhifələrində özünə yer alır. Birincisi, janrın məşhurlaşmasında onun nisbətən çətin, həmçinin vacib olması əhəmiyyətli rol oynayır. İkincisi, anket janrının geniş yayılması, onun auditoriyanın tələblərini yerinə yetirməsi, yəni cəmiyyətdə baş verən hadisə, vəziyyət və proseslər haqqında dolğun, həmçinin obyektiv informasiya verməsi əsas yer tutur. Üçün-

cüsü, ondan ibarətdir ki, anket nəticəsində ictimaiyyət hər hansı bir sosial qrup və yaxud mövcud vəziyyət, proses, durum haqqında dəqiq məlumat əldə edir və buna əsaslanaraq baş verənləri düzgün qiymətləndirir, analiz edir və bu istiqamətdə öz hərəkətini qurur. Anketin həcmi təxminən 150 sətr olur.

9.MONİTORİNQ

Monitorinq-hadisə, fakt, vəziyyətin dinamik inkişafını göstərməklə bərabər, onun ardıcıllığını qəti müəyyən etməli, həm də, müəllif və yaxud mütəxəssis tərəfindən ətraflı kommentariya ilə müşayət olunmalıdır.

Monitorinq müasir dövri mətbuatın səhifələrində ən geniş yer alan janrlardan biridir demiş olsaq mübaliğə etmiş olmarıq. Bu sərlövhə, fəsil, sütunun adı altında dərc olunan publisistik yazılar sosioloji tədqiqatlar nəticəsində meydana gəlir. Həyatda baş verən hadisə, vəziyyət və prosesləri öyrənmək baxımından monitorinqlərin aparılması lazım gəlmişdir. Məhz bunun məntiqi nəticəsi kimi həmin addan da, jurnalist janrı, «monitorinq» yaranmışdır. Monitorinq sistemli şəkildə baş verən hər hansı bir hadisəni, vəziyyəti, prosesi «izləmək», onun ölçülərini, fəaliyyət dairəsini və s. öyrənmək üçün istifadə olunan jurnalist janrıdır. Tədqiqat anında müxtəlif hadisələr və onların xüsusiyyətləri monitorinqin predmeti ola bilər. Monitorinq analitik janrın hesabat, korrespondensiya, müsahibə növlərinə nisbətən, bizə daha yaxın olan dövrə aid edilir, yəni «cavandır.» (162)

Monitorinq zamanı, əsasən statistika, kontent-analiz (məsələn, müəyyən zaman kəsiyi ərzində hər hansı bir qəzetin səhifəsində, müəyyən bir siyasətçinin adının neçə dəfə hallanmasını hesablamaq) və s. müxtəlif metodlardan fəal istifadə olunur. Monitorinq hər hansı bir hadisənin, hər şeydən öncə statistik kəmiyyətin cəmini, həmən aşkar etməyə imkan verir. Predmetin əsas göstərilən xüsusiyyətləri- təsvir olunma

metodu, hədəfi-məqsədi həqiqətən publisistikanın hazırlanmasında ortaya çıxır və «monitorinq» anlayışını, məfhumunu müəyyən edərək onun «elçisi, müvəkkili» qismində iştirak edir və müstəqil jurnalistika, mətbuat janrının yaranmasına səbəb olur. (241)

Ramilə Həsənli.
Azərbaycan seçki ərəfəsində.

2010-cı il 23 oktyabr tarixində siyasətçilərin və siyasi partiyaların adları «Əmək» qəzetində 1230 dəfə səslənmişdir. Bunlardan «Real»ın payına 492-si düşür ki, bu da, mərkəzi mətbuatın verdiyi siyasətçilərin və siyasi partiyaların ümümi sayınna 40 %-ni təşkil edir.

«Əmək» qəzetinin səhifəsində partiya siyahısına görə adları hallalanların reytinqində «Yurd»çular 369 dəfə ilə ikinci yerdə gedirlər. Onların mətbuatdakı reytinqi 30 %-ə bərabərdir. Bu siyahıda göstərilən adlar arasında partiyanın adı 120 dəfə mənfi, 169 dəfə pozitiv, 80 dəfə bitərəflər tərəfindən hallanmışdır. Onların ardınca siyahıda «Turan» gedir ki, bunlardan da 60-ı mənfi, 53-i pozitiv və 133-ü isə bitərəfdir. Dördüncü yerdə «Xəzər»-lilər gedir, onların adları «Əmək»ın səhifələrində cəmisi 123 dəfə xatırlanıbdır. Bu faiz hesabı ilə 10%-ə bərabərdir. Beləliklə, 41-i müsbət, 34-ü pozitib, 48-i bitərəf olan bu partiyanın adı ümümən 123 dəfə çəkilmişdir.

Ümumiyyətlə, «Əmək»ın səhifələrində reytinq cədvəli aşağıdakı formada alınmışdır:

1.«Real» - 40 %;
2.«Yurd» - 30%;
3.«Turan» - 20%;
4.«Xəzər» - 10%.

Mətbuatda reklam olunmaq üçün yuxarıda adları sadalanan siyasi partiyalar təqribən yüz min manatdan çox pul xərcləmiş-

lər. Burda, siyasi partiyalar öz mövqelərini, yəni mütənasibliyini qoruyub saxlamışlar. Ən çox adı hallanan «Sünbül» çörək firmasının Baş direktoru Gülmirzə Məmmədli liderlik edir. O, «Real» partiyasında aparıcı qüvvə hesab olunur.

Monitorinq hər hansı bir hadisə və prosesin müəyyən olunmuş formada vəziyyətini öyrənməyə istiqamətlənmiş mətbuat janrıdır. Bu imkan verir ki, belə materialları (tədqiqat) analitik janra aid edək.

Çünki monitorinq kifayət qədər zəhmət, əmək və xüsusi sosioloji hazırlıq tələb edən janrdır. Tələb olunan monitorinqi, həqiqi tədqiqatı yalnız peşəkar sosioloq yüksək səviyyədə apara bilər. Jurnalistlər bu cür tədqiqatların aparılmasında peşəkar kimi yaxından iştirak edə bilərlər. Təəssüflər olsun ki, onlar çox zaman öz mətbuat orqanlarının monitorinqini aparmaqla məşğul olurlar. Bu janrın həcmi təxminən 100 sətrə qədər ola bilər.

10.REYTİNQ

Reytinq-əhəmiyyətinə görə, həmçinin müxtəlif göstəricilərin ardıcıllığına və sıra ilə düzülüşünə deyilən məfhumdur. Bu janr məlumat, idman, musiqi və sair yarışlarda, o cümlədən siyasətçilərin cəmiyyətdə tutdtqları mövqeyi müəyyən etmək üçün istifadə olunur.

Janrın adı ingilis məfhumu «rating» sözündən əmələ gəlir ki, Azərbaycan dilinə tərcümədə «qiymət qoyma, qiymət, fikir, rəy», «təsnifat, təsnif, təsnif etmə» mənalarını verir. (202) Dövri mətbuatda özünəməxsus nəşri müəyyən edən, əsas janr yaradan faktor kimi reytinq janrına aid olunur və məqsədyönlü çıxış edir. Bu cür nəşrlərin məqsədi oxşar hadisələri əhəmiyyətinə, konkret nişanələrinə görə müəyyən formada «düzməklə» yekunlaşır. Hər şeydən öncə bu cür məqsədə analogiya və müqayisə aparmaq hesabına nail olmaq olur. Reytinqi yaradan hadisə ən müxtəlif-iqtisadi, maliyyə, siyasi, mədəni, idman və

sair fəaliyyət dairələrinə aid ola bilər. Bu janr adətən həm ixtisaslaşdırılmış (xüsusi), həm də ictimai-siyasi nəşrlərdə dərc olunur. Reytinqə istər qəzet və jurnal səhifələrində, istərsə də tele-radio efirlərində rast gəlmək mümkündür. Bu janrın məşhurlaşmasında əsas səbəb KİV-i auditoriyasının bu gün üçün aktual, prioritet və yaxud onların fəaliyyət dairəsi üçün əhəmiyyətli olan ən vacib informasiyaları almasıdır. Məsələn, seçicilərə çox lazımdır ki, bilsinlər, hansı siyasi xadim liderliyi qoruyub saxlayır və yaxud hansı siyasətçi autsayderidir. Əmanətçilər üçün vacibdir ki, hansı bank daha ümid vericidir və yaxud hansını yaxın zamanda «alt-üst» olmaq, «bankrot» təhlükəsi gözləyir. Musiqi sevənlər üçün maraqlıdır ki, hansı müsiqi qrupu bu gün daha məşhurdur və s.

Reytinq anlayışı Azərbaycanın dövri mətbuatinda XX əsrin 30-cu illərində mövcud olmasına baxmayaraq, ondan bir o qədər də istifadə olunmurdu. Bu janr əsasən XX əsrin 80-ci illərinin ortalarından gündəmə gəlməyə başladı və getdikcə aktiv istifadə olunaraq bu günkü səviyyəsinə çatdı və həmin zamandan etibarən mütəmadi olaraq qəzet və jurnal səhifələrini bəzədi. Əlbəttə, bu fikirləri Qərb mətbuatına aid etmək olmaz. Çünki reytinq məfhumu, yuxarıda qeyd etdiyimiz kimi, ingilis linqivistikasına məxsusdur. Bu janr Qərbdən Rusiyaya, ordan da bir çox başqa publisistik janrlar kimi Azərbaycana keçmişdir. İkinci Dünya müharibəsindən sonra Azərbaycanın dövri mətbuatında müasir reytinqə oxşar yazılar, sosiolizm yarışlarına həsr olunmuş məqalələr yazılırdı. Həmçinin kənd təsərrüfatı ilə əlaqəli məlumatlar: sosiolizm yarışında yerlərin bölüşdürülməsi, dənli bitkilərin səpilməsi, taxıl biçininin gedişi haqqında və s. məlumatlar bunu deməyə bizə imkan verir. Bu yönümlü məqalələr daima mərkəzi və rayon qəzetlərinin əsas səhifələrində yer alırdı ki, bunları da, reytinq kimi qəbul etmək olar.

Bir sözlə, hal hazırda reytinq ən müxtəlif fəaliyyət dairələrinin «dərinliklərinə», hətta o yerlərə ki, iyirmi il bundan öncə onun haqqında düşünmək, açıq danışmaq və yaxud təfsilatlı məqalə yazmaq olmazdı. (162) Ancaq müasir zamanda reytinq

və reytinqə oxçar publisistik məqalələr praktiki və əməli olaraq dövri nəşrlərin səhifələrindən düşmür. Maraqlı haldır ki, çağdaş zəmanədə yalnız reytinqin özü məşhurlaşmayıb, həm də onun mövzu və müzakirə dairəsi genişlənibdir.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu).
Təntənəli mərasim.

Bu dəfə ki, mərasim Xəzər dənizinin sahilində, gözəl yaz təravətli aprel ayının sonuncu şənbəsində, möhtəşəm «Yaşıl teatr»da keçirilirdi. Hər tərəf çil-çırağa dönmüşdür. Səhnə xüsusi dizayn ilə hazırlanmış, rəngarənk işıq sistemi, çox jumuşaq səs akustikası, aşağıda isə çalxalanan dəniz ləpələrinin üzərinə düşən işıq çalarlarının oynaması və hiss olunan su parıltısı, duyulan dəniz küləyi bu axşamı seyr etməyə gələnlərə, həmçinin mərasimin iştirakçılarına təkrarolunmaz zövq verirdi. Hamının gözü səhnəyə dikilmişdir. Bir-biri ilə astaca danışanların xışıltısı eşidilirdi. Birdən xışıltı kəsildi və «Yaşıl teatr»a sükut çökdü. Səhnədə mərasimin aparıcıları Səxavət və Nigar göründülər. Hamı səbirsizliklə bu müğam axşamının başlanmasını gözləyirdi. Müxtəlif nominasiyalar üzrə kimin ilin qalibi elan olunacağı bu axşam bəlli olmalı idi. Təntənəli giriş sözündən sonra, nəhayət ki, iştirakçıların çıxış etmə ardıcıllığı elan olundu.

«Segah» muğamı ilə açılışa 60-ların nümayəndəsi, daima qara kostyum, ağ köynək və bəzəkli qalustukda olan Arif Babayev başladı. Gözəl musiqi kompazisiyası, gözəl avazla oxunan «Segah» muğamı, dəniz küləyinin sərin mehi ilə elə bil ki, tamaşaçılara lay-lay çalırdı. Sükutu mahnının qurtarmasından sonra eşidilən davamlı alqış sədaları pozdu.

İkinci olaraq səhnəyə 70-lərin təmsilçisi, boz kostyumda, **amma qalustuksuz, ağ köynəyə və milli papağa üstünlük verən Ağaxan Abdullayev addımladı. Musiqiçilər ilə bərabər yerini tutan xanəndə tarın və kamançanın müşayəti ilə «Zəminxarə» muğamını ifa etməyə başladı. Salonda əyləşənlər sükuta qərq olaraq xanəndəni dinləyir, onun avazından, səsinin məlahətindən**

məmun görünürdülər. Bu muğam da, şux təsniflə alqış sədaları altında yekunlaşdı.

Sonra söz 80-lərin bayraqdarı kimi tanınan və milli geyimə daha çox müraciət edən, özünəməxsus balaca qavalı ilə seçilən Alim Qasımova verildi. Xüsusi boğazlar, bərabəri olmayan improvizasiya, döyüş ruhu yaradan «Caharcah» muğamı insanları sanki göyün yeddinci qatına qaldırır, onları ilahi bir qüvvə ilə dialoqa cəlb edirdi. Xanəndənin improvizasiya etdiyi anlar tamaşaçılar sanki, bir anlıq yuxudan ayılır və həmən də, musiqinin ardınca yenidən İlahi dərgahına yollanırdılar. Sükut bu dəfə də, sürəkli alqışların sədası nəticəsində pozulur.

Növbə iştirakçi, 90-ların Məcnunu, müasir və milli geyim kompazisiyasına müraciət edən Mənsum İbrahimov çatdı. Xanəndənin yumşaq, ürəyə yatımlı, aydin eşidilən, fövqəladə səsinin sədaları altında «Şahnaz» muğamı eşidildi. Aydın diksiya, insan qəlbini riqqətə gətirən avaz, muğamın tələbinə uyğyn təbəssüm, gah zilə qalxma, gah da bəmə enmə hamıya şirin ovqat bəxş edirdi. Salondakıların gurultulu alqışları söz deməyə ehtiyacın olmamasından xəbər verirdi.

Mərasimi Nəzakət Teymurova, Aygün Bayramova, Zabit Nəbizadə, Firuz Səxavət, Könül Xasıyeva və başqaları davam etdirdilər. Konsert də, Azərbaycan xalqının milli və mənəvi sərvəti hesab olunan bütün muğamlar səsləndi. Xanəndələrin gözəl ifaları ilə bərabər onların geyimləri də diqqəti cəlb edirdi. Müasir və milli dizayn elementləri xüsusi zövqlə bir-birinə elə kobinasiya olunmuşdur ki, bunların içində xoşagəlməyən nə isə tapmaq qeyri mümkün idi.

A. Babayev, A. Abdullayev, A. Qasımov, M. İbrahimov ilin qalibləri, yerdə qalan iştirakçılar isə müxtəlif nominasiyalar üzrə mükafatlara layiq görüldülər. Sonda aparıcılar-Səxavət və Nigar bütün oxuyanların cəmiyyətdəki reytinqini açıqladılar. Bundan sonra mərasim bağlı elan olundu.

Yuxarıda təqdim etdiyimiz reytinqi «sadə» adlandırmaq olar. Ona görə ki, o xüsusi hazırlıq, qətiyyətli ölçüb-biçmə tələb

etmir və xüsusi faktlara, mütəxəssis rəyinə, cəmiyyəti həddən artıq maraqlandıran hadisələrə həsr olunmayıbdır. Amma bununla belə, bu cür publisistik məqalələr reytinqin fəaliyyət dairəsinə, reytinq isə analitik janr bölməsinə aiddir.

Dövri mətbuatda reytinqi həcminə görə də, müəyyən etmək olur. Onun həcmi on-iyirmi yazı xətti, ola bilsin ki, bütöv bir qəzet səhifəsini, hətta 100 sətri təşkil etsin.

Bu məqamda çox vacib olan bir nöqtəyə diqqəti yönəltmək lazımdır ki, reytinq seçki öncəsi mübarizədə cəmiyyətin şüuruna təsir və yaxud manipulyasiya etmək üçün yaxşı vasitədir. Prezident kürsüsü, deputat yeri və bələdiyyə seçkiləri ərəfəsində siyasi liderlərdən hansının reytinqinin necə qalxıb düşməsini göstərən KİV bu janrın vasitəsi ilə ictimaiyyətin və yaxud hələ də, öz seçimini müəyyən etməyən və yaxud bu məsələdə tərəddüd edən, həmçinin psixoloji baxımdan zəif olan seçicilərə istədiyi təsiri göstərməklə bərabər, onları lazım olan namizədə səs verməyə sürükləyir.

Bu cür reytinqlı məqalələrin dərc olunması, şübhəsiz ki, başqa dairələrə də öz təsirini (məsələn, idman həvəskarları istəyirlər ki, sevimli komandalarında indiki zamanda lider olan oyunçuları görsünlər və yaxud musiqi həvəskarları reytinqin təsiri altında həmin zaman üçün daha çox məşhur olan müğənninin və yaxud qrupun albomlarını almağa səy edirlər) göstərir. Belə məqamda reytinq reklam rolunu oynayır. Amma reytinq reklamdan fərqli olaraq mütəmadi öz əmtəəsini (malını) auditoriyaya təqdim etməyə çalışmır. Reytinqi reklam ilə eyniləşdirmək tamamilə yanlış fikirdir. Bu janr bir dəfə nəşr olunur, reklam isə eyni qəzetdə və yaxud ekran və efirdə, fasilələrlə eyni yerdə bir neçə gün, bir neçə dəfə və daha artıq ola bilər. Reklam əmtəəni (malı) təbliğ edir və onun məkanı sərhədsizdir.

Həmin şirkət eyni malı nə qədər istehsal etsə və harada satsa reklam da, bir o qədər davam edəcəkdir. Lakin reytinq tamamilə başqadır. O müxtəlif siyasi xadim və yaxud namizədin reytinqinin (birinci yerdə olan axırda və yaxud axırda olan birinci yerdə ola bilər) aşağı-yuxarı olmasından, seçkinin müd-

dətindən, həmçinin yerindən asılı olaraq dəyişir və müəyyən zaman çərçivəsində yaşayır.

Nəyə əsaslanaraq reytinqi analitik janrlar qrupuna aid edirlər (?) sualının cavabı aşağıdakı kimi olacaqdır:

Birincisi, reytinqin hazırlanması prosesində «sıralanmaya» üstünlük verilir. Öz-özlüyündə reytinq müqayisəli analizlə ifadə olunur. Bu analizin gedişi zamanı hadisənin müxtəlif tərəfləri tədqiq olunur, onun inkişafı proqnozlaşdırılır və s. Nəticədə özünəməxsus qabiliyyətə və aydın xüsusiyyətə malik olan publisistik məqalə alınır ki, bu haqda da, biz yuxarıda danışmışdıq.

İkincisi, reytinqin tərtib olunması çox məsuliyyətli işdir. Buna görə də reytinqlə, ilk növbədə onunla xüsusi biliyə, böyük həcmli lazimi informasiyaya, həmin fəaliyyət dairəsi üzrə geniş təcrübəyə və daima işin gedişini nəzarətdə saxlaya bilən jurnalist məşğul olmalıdır. Daha ciddi reytinq bir qayda olaraq, ayrı-ayrı mütəxəssislər tərəfindən deyil, əsasən, ekspert qrupu və yaxud müəyyən olunmuş mərkəz və institutlar tərəfindən hazırlanır. (162)

11.RESENZİYA

Resenziya-bədii ədəbiyyat, incəsənət və elmin müxtəlif sahələrində istifadə olunur. Bunu həm də, görülən işə verilən qiymət kimi səciyyələndirmək mümkündür. Resenziya janrı hər hansı əsərin arqumentlər əsasında tənqidinə xidmət göstərir.

Etimoloji baxımdan resenziya latın zözündən əmələ gəlibdir. «Recensio» sözü tərcümədə «baxış, qiymət, rəy, xəbər vermə, bildirmə» (68) mənalarını ifadə edir. «Demək olar ki, resenziya-bu janrın əsasını bədii ədəbiyyat, incəsənət, elm və s. haqqında fikir, qiymət, rəy (hər şeydən öncə tənqidi planda) təşkil edir.» (68,3-5) Hansı formada resenziyanın (rəyin) verilməsindən asılı olmayaraq, əsas mətləb resenziya verənin tədqiq olunan əsərə olan münasibətindən yaranır. Resenziyanı başqa qəzet janrlarından fərqləndirən başlıca prinsip ondan

ibarətdir ki, bilavasitə onun predmeti qismində oçerk, korrespondensiya, reportaj, şəkil (təsvir) və s., informasiya müstəvisində isə-kitab, tamaşa, kinofilm, televiziya verlişi, kitabça və s. çıxış edir.

Resenziya bir qayda olaraq bir-iki əsərə baxmaqla, qarşısına daha mürəkkəb tapşırıqlar qoymur və onlara müəyyən olunmuş çərçivədə qiymət verir. Əgər jurnalist dərin analiz nəticəsində cəmiyyəti maraqlandıran daha vacib problem irəli sürürsə, onda onun əsəri resenziya yox, ədəbi-tənqidi məqalə və yaxud incəsənət tədqiqatı hesab oluna bilər, necə ki, biz bunu Firidun bəy Köçərlinin Nəriman Nərimanovun «Nadanlıq» (251,35) əsərinə yazdığı resenziya-məqalədə gördük.

Məsələ ondadır ki, əsərə resenziyanın verilməsi ilk növbədə müəllifin maraq dairəsindədir və onun üçün qiymətlidir. Aydındır ki, resenziya yazan müəllif əsərdə baş verən hadisələri, onun həyati və elmi, həmçinin bir çox incə çalarlarını özünün diqqət mərkəzində saxlaya bilməz, çünki buna həm də KİV-in məhdudlaşdırılmış imkanları yol vermir. Ona görə də, əsasən daha çox məşhur tamaşa, kitab, filmlər və cəmiyyətin maraq dairəsinə düşmüş «qalmaqallı, rüsvayçı» (68) əsərlər haqqında resenziya yazılır. Birinci, resenziya qarşısına daha vacib məsələni izləmək məqsədini qoyur və auditoriyaya onun diqqətini cəlb edən və yaxud əhəmiyyətsiz olması barədə məlumat verir, o cümlədən çalışır ki, əsərin əhatə dairəsini anlatmaqda oxucuya kömək etsin.

Resenziyanın hər bir oxucuya, dinləyiciyə, tamaşaçıya çatması üçün onun məzmunu və forması aydın və hər kəs üçün başa düşülən olmalıdır. Bunun üçün resenziya yazan əsərlə dərindən tanış olmaqla bərabər, həm də onu yaxşı analiz etmək metoduna sahib olmalı, əsəri öyrənməli, resenziyanın qarşıya qoyduğu tələblərə cavab verməli və ən vacibi isə yazılan əsərin dilini bilməlidir.

Resenziya yazan üçün əsas tapşırıq-resenziya yazılan əsərdə vaqif və tanış olmayan, həmçinin görünməyən məqamları üzə çıxarmaqdır. Müəyyən fəaliyyət dairəsinə (ədəbiyyat, teatr

həyatı, incəsənət və s.) aid xüsusi biliyə malik olmayan üçün isə bunu etmək çox çətindir. Belə bir biliyi adi həyat təcürbəsi və yaxud intuisiya əvəz edə bilməz. Jurnalistin ehtiyatında xüsusi biliyin yükü nə qədər çox olarsa, onun hazırladığı resenziyanın peşəkarcasına hazırlanması ehtimalı bir o qədər böyük olar.

Resenziyanın əsasını analiz təşkil etdiyindən, o hərtərəfli və kifayət qədər obyektiv olmalıdır. Bu janrın müəllifi əsəri analiz edərkən elə bir məqamı görməlidir ki, o «mərkəz» funksiyasını yerinə yetirsin və onun sonrakı fikir və mülahizələri, yazılan resenziyanın ətrafında «fırlansın.» (68) Çox tez-tez hallarda resenziya yazan müəllif öz diqqətini personajların hərəkəti və əsərin süjet xətti üzərində cəmləşdirir. Bu əsas məqsəd olmamalıdır. Bu, yalnız o halda mümkün ola bilər ki, hekayə üzvü surətdə analizin planına daxil olsun, məhz belə məqamda onu əsaslandırmaq yerinə düşər. Xüsusi ilə, bu o zaman uğursuz alınır ki, auditoriya resenziya yazılan əsərlə yaxşı tanışdır və söhbətin nədən getdiyini çox gözəl bilir.

Müasir mətbuatda yayılan resenziyalarda daha çox görmək mümkündür ki, resenziya yazan əsərin hansısa bir tərəfini araşdırır, məsələn, yalnız mövzunu və yaxud müəllifin ustalığını və yaxud rejissorun işini və yaxud ifaçıları və s. və i. Bu günkü dövri mətbuatda rast gəlinən rezenziyaların çox bir hissəsi naşı adamlar tərəfindən yazılır və oxucu auditoriyasını qane etmir. Bu həm təbii, həm də təəssüfləndirici hal kimi qəbul olunmalıdır. Təbiidir ona görə ki, oxucu auditoriyasını qane etmir, təəssüfləndiricidir ona görə ki, ədəbi tənqidin layiqli davamçıları yetişmir... Belə halda, yəni layiqli ədəbi tənqidin olmadığı bir zamanda həm ədəbiyyat, həm də jurnalistika uçuruma yuvarlanmağa meyilli olur. Aksiomadır ki, ədəbi tənqid olmayan yerdə nə söz, nə incəsənət, nə teatr, nə də ki, yazı sənəti tərəqqi edə bilməz.

Üzeyir Hacıbəyli.
Vətən dili.

«Vətən dili» üsuli-sövti üzrə tərtib olunmuş təlim kitablarının anası mənziləsindədir. Otuz sənə (1880:- V. P.) bundan qabaq bizim məktəblərdə müəyyən bir üsuli-təlim və qanuni-tədris olmadığı halda «Vətən dili» vücuda gəlib, məktəblərimizi işıqlandırdı, maarif işlərimizin rövnəq tapmasına səbəb oldu.

«Vətən dili» hər yerdə rəğbət və hörmət kəsb edib, sürətlə intişar tapdı. Müəllifi-kitab cənab Çernyayevski sabiqdə Zaqafqaziya seminariyasının cünbündə olan müsəlman şöbəsinin naziri idi, türk dilini yaxşı bilirdi və özü də mahir və qabil pedaqoqlardan birisi hesab olunurdu. «Vətən dili»ni elə asan və sadə türk dilində tərtib qılıbdır ki, məktəb uşaqları onu artıq şövq və həvəslə mütaliə edirlər. Onda dərc olunan təmsilat və hekayələr nəinki xırdaca uşaqları həvəsləndirir hətta, onların valideynini xoşhal edib, artıq şövqlə onların mütaliəsinə qulaq asmağa rəğbətləndirir.

Yeddinci çap gözəl şəkillər ilə müzəyyəndir. Kitabçanın hürufatı aydın və kağızı əladır. Qiyməti isə baha deyil-35 qəpikdir. «Vətən dili»nin həmin çapı Zaqafqaziya seminariyasının elmi-ilahi müəllimi olan məşhur pedaqoq və yazıçılarımızdan möhtərəm Firidun bəy Köçərli cənabları tərəfindən islah edilib, gözəl surətə salınıbdır.

Firidun bəy cənabları kimi üsuli-tədrisə və ədəbiyyata mükəmməl surətdə aşina olan bir zatın iştirakı «Vətən dili»nin faydalı və lüzumlu bir kitab olduğunu təmin edir. (42) (Tərtib edən və araşdıran: pedaqoqika üzrə fəlsəfə doktoru Mirabbas Aslanov.)

Məqalədən görünür ki, onun müəllifi Ü. Hacıbəyli diqqətini A. O. Çernyayevskinin «Ana dili» dərsliyinə yönəldib və kitabın tanınmış pedaqoq Firidun bəy Köçərli tərəfindən islah olunduğunu vurğulayır. Müəllif bir çox başqa tendensiyalara toxunmaqla bu resenziyanı daha geniş və daha ətraflı verə bilərdi.

Amma o buna lüzum görməmiş və yığcam şəkildə dərslik, onun müəllifi və islah edəni barədə məlumat verməklə kifayətlənmişdir. Burda, resenziya janrının məzmun, forma, metod və həcmi ilə bağlı qarşıya qoyduğu tələblər gözlənilmişdir. Doğrudur, istisna hallarda resenziyanın həcmi kifayət qədər sanballı, yəni 250 sətr ola bilər. Bu, mövzunun əhatə dairəsi və müəllifin mövzuya baxış bucağından asılıdır.

Məhz, bu nöqteyi-nəzərdən rus tənqidçisi V. Q. Belinskinin mövqeyi rezenziyanın tələbləri ilə üst-üstə düşür və əhəmiyyətli hesab oluna bilər. O, yazırdı: «Hər bir incəsənət əsərinə mütləq tarixi, müasirlik, müəllifin (rəssamın, rejissorun və s.) cəmiyyətə münasibəti və həmin dövrün özünün yanaşması mövqeyindən baxılmalıdır; ola bilsin ki, bu onun həyatını, xüsusiyyətini, vücudunu aydınlaşdırmağa xidmət etsin. Başqa bir tərəfdən isə, incəsənətə olan estetik tələbi gözdən qaçırmaq olmaz. Deyə bilərik ki, əsərin estetik əhəmiyyətinin dərəcəsi ilk növbədə tənqidə borcludur.» (181)

Həqiqətən, bir çox hallarda analizin çərçivəsi süni surətdə daraldılır, bu isə öz növbəsində ictimaiyyət arasında resenziyanın «çəkisini» kəskin şəkildə aşağı salır. Resenziyanın nəşrə hazırlanması zamanı resenziya müəllifi tarixi, psixoloji, sosioloju analizin elementlərini fəal surətdə cəlb etməlidir. Sözsüz ki, bu elementlərin tətbiq olunması resenziyanın daha fəal, daha dəyərli olmasına gətirib çıxarır.

Resenziya yazan hansı yol ilə getməsindən asılı olmayaraq, onun çıxışının əsas hissəsini hər hansı bir fikir, əqidə, ideya təşkil edir. Resenziya sözün həqiqi mənasında, müəllifin əsas ideyasının arqumentləşdirilmiş müzakirəsinin isbatıdır. Bu müzakirənin əsasında, yuxarıda dediyimiz kimi, xarici sxemin qiyməti dayanır. Yada salaq ki, xarici qiymət sonrakı ardıcıllıqla qurulur: «**B** yaxşı, ona görə ki, **D**-yə çatmağa kömək edir» və yaxud «**B** pis, ona görə ki, **D**-ni yaradır.» (162)

Yazıçının və yaxud rəssamın əsərini müzakirə edən resenziya müəllifi müəyyən tədqiqata əsaslanaraq onu pis və yaxud yaxşı kimi qiymətləndirə bilər. Bu tədqiqat müxtəlif cür ola

bilər: reallıq haqqında oxucuda düzgün təsəvvür yaratmadan, müəyyən təşəkkül əmələ gəlmədən, tamaşaçıda pis zövqün olması, aşağı marağın oyanması və s. və i. Məhz, tədqiqat həmin «D»-dir ki, xarici qiymətin məntiqi sxemində mövcuddur.

Xarici qiymətin birinci hissəsi («B yaxşı ...») məntiqi planda resenziyanın tezisi kimi çıxış edir-ola bilsin ki, onu əsas tezis kimi dəyərləndirsinlər. Əgər, müzakirə kifayət qədər mürəkkəb formada olsa və özünə nə isə əlavə tezis (ikinci dərəcəli) qoşsa, bu özünü tamamilə doğrultmuş olar. Bu halda tezislərin mahiyyəti-resenziya müəllifinin apardığı həmin tədqiqatların nəticəsidir. Eyni zamanda, onlar müəllifin dünyagörüşü və onun bu problem üzrə məlumatlılığı və nöqteyi-nəzərində əks olunur. Adətən bütün tezislər açıq və yeni fikir, ideyalarla zəngin olmur. Lakin buna baxmayaraq onların hamısı tezis kimi qəbul oluna bilər, çünki mövzuda bir əsas tezis var ki, yerdə qalanları ona «işləyir.» (162) Buna görə də, əlavə tezislər əsas tezisin arqumenti rolunda çıxış edirlər.

Resenziyanın əsasını təşkil edən xarici qiymətin ikinci hissəsi (« ...o səbəbə, D-yə çatmağa kömək edir») resenziyanın əsas tezisinin xeyrinə arqument kimi qiymətləndirilə bilər. Əsas tezisin əsaslandırılması onun arqumentlərinin dolğunluğu, kifayətliyi və kerçəkliyindən asılıdır. Resenziyanın arqumenti nə ola bilər? Bu müəllifin-biliyi, zəngin təcrübəsi, incə həyati müşahidəsi; resenziya yazılan əsərin məzmunu, ondan parçalar və onun forması, başqa insanların, mütəxəssis və ekepertlərin bu əsərə münasibəti; əsərin nəşrinin məntiqi tədqiqidir. (68)

Resenziyanın müəllifləri öz nöqteyi-nəzərlərini (baş tezis), fikir və ideyalarını ifadə etmək üçün çalışırlar ki, daha çox, həm də tez-tez əyani misallara (şəkillərə), arqumentlərə əsaslansınlar. İlk baxışdan belə düşünmək olar ki, bu çox yaxşıdır-nə qədər əyani misallar (şəkillər) çoxdursa, bir o qədər müəllifin ideyaları əsaslı və bir o qədər də, resenziya maraqlıdır. Amma həqiqət də, bu belə deyil, həddən artıq əyani misalların (şəkillərin) çox olması resenziyanın özünə ziyan vurur. Beləki, misalların çoxluğu müəllifin auditoriyaya çatdırmaq istədiyi ideya

və fikirlərə «kölgə» salmış olur. Resenziyaya hazırlığın getdiyi an müəllif çox tez-tez hallarda başqa məntiqi səhvlərə yol verə bilər.

Dövri mətbuatda nəşr olunan resenziyalar müəyyən tipoloji təsnifata və yaxud əsaslara görə qruplarda birləşdirilə bilər. Aşağıda belə bir tipoloji təsnifat təklif olunur:

1.Həcminə görə resenziyanı iki qrupa bölmək olar: böyük (qrand-resenziya) və kiçik (mini-resenziya). Böyük, geniş resenziya, müstəsna hal olaraq, hər şeydən öncə, xüsusi qəzet və yaxud jurnal nömrəsinin məğzi ola bilər. Böyük həcm müəllifə imkan verir ki, tədqiq etdiyi mövzunu dərindən və hər tərəfli əhatə etsin. Adətən bu cür resenziyanı, oxucu auditoriyasının nüfuzunu qazanmış, sabit ictimai-siyasi və fəlsəfi-əxlaqi düşüncəyə malik olan alim, ustad, qocaman tənqidçilər hazırlayırlar.

2.Mini-resenziya hal hazırda daha çox yayılıbdır, nəinki, geniş. Təqribən həcmi bir yarım kompüter vərəqi olan resenziyalar informasiya janrına aid edilir və müəllif tərəfindən oxuculara yalnız oxunan kitabın və yaxud baxılan kinonun qısa icmalı formasında təqdim olunur. Əgər mini-resenziya bu və yaxud başqa əsəri özündə yığcam, məzmunlu, arqumentlərlə əhatə olunan analiz əsasında ifadə edirsə, demək, belə əsərləri analitik janra aid etmək olar. Kiçik həcm müəllifə fikrini genişləndirməyə, yada salmağa, şəxsi təəssüratlar yaratmağa, haşiyədən kənara çıxmağa imkan vermir.

3.Qrand-resenziya isə, hər şeydən öncə yazanın şəxsiyyətini «təqdim etmə»yə xidmət göstərir. Mini-resenziyada tənqidçinin fikri qısa həcmli və çox dəqiq olmalıdır. Məhz, buna görə də, çox da böyük olmayan resenziya oxucu auditoriyası tərəfindən bir nəfəsə oxunur.

4.Analiz olunmuş əsərlərin sayına görə resenziyaları monoresenziyalara və poloresenziyalara bölmək olar. Nəşrlərdə birinci forma ilə, yani monoresenziya ilə bir əsər analizə olunur, lakin ehtimal olunur ki, müəllif müqayisə

aparmaq üçün başqa əsərə də müraciət edə bilər. Monoresenziyada müqayisə olunan materialın həcmi çox da böyük olmur. Amma poliresenziyada iki və yaxud daha çox əsərin təhlili aparılır. Adətən bu cür prosesdə biri başqası ilə müqayisə olunduğu üçün daha çox yer aparır. Monoresenziyada, əksərən, müəllif analiz etdiyi yeni əsərlə artıq auditoriyaya bəlli olan əsərin müqayisəsini verir. Ancaq poloresenziyada müqayisəli analiz yalnız yeni yaranmış əsərlər və yaxud auditoriyaya az məlum olan ya da ki, tamamilə məlum olmayan əsərlər arasında aparılır.

5.Mövzularına görə resenziyalar-ədəbiyyat, teatr, kino, jurnalistika və s. qruplara bölünürlər. Son zamanlar cəmiyyətə yaxşı tanış olan məşhur resenziya tipləri ilə multiplikasiya, reklam, teleresenziya və başqa kliplər də nəşr olunur. Bunu son vaxtlar animasiya və sənədli filmlərin, televiziya verlişləri və s. həyatı əks etdirən dramatik münaqişələrin, həmçinin reklam «məhsul»larının sürətlə artması ilə izah etmək olar.

6.Ehtimal olunur ki, bu və yaxud başqa tip resenziyaların hazırlanmasında, müxtəlif dərəcəli çətinliklərin öhdəsindən gəlmək mümkündür. Kino və teatr resenziyaları ən çətinlərindən hesab olunur. Beləki, ədəbiyyat və təsviri əsərlərdə tənqidçi özü müstəqil surətdə bu nümunələrlə olur, amma kino, teatr, televiziya, konsert və sair fəaliyyət növlərində müəllifdən başqa burda rejissor, aktyor, musiqiçi, müğənni, tərtibatçı və bir çoxları iştirak edirlər. Məhz, tənqidçinin ustalığı və peşəkarlığı burda üzə çıxır. Müəllif ifaçı kollektivin işini bütünlükdə və yaxud hər birini fərdi formada, ayrı-ayrılıqda bir resenziya daxilində qiymətləndirməlidir. Bu cür vəziyytlərdə tənqidçinin qarşısında çox çətin bir iş dayanır ki, onun da öhdəsindən gəlmək asan deyil. Burda tənqidçinin (müəllifin) qarşısında, rejissor ideyaıarı ilə yaradıcılıq xüsusiyyətlərini birləşdirən məqsədyönlü birgə analiz dayanır. Proses sonrakı mərhələdə bir az da çətinləşir, beləki, resenziyanın müəllifi öz qarşısına ədəbi əsərin ilk mənbəyi ilə

ekranlaşdırılmış və yaxud teatra uyğunlaşdırılmış variantları müqayisə etmək tapşırığını qoyur. Bütün üç və yaxud dörd «lay, qat»ı bu cür resenziyada (ilk mənbə, ona uyğun pyes, rejissor interpretasiyası (izahı), müəllif ifasının teatrda həyata keçirilməsi) vermək çox da, asan olmur. Sintez üsulunda olan janra uyğun əsərə (teatr, kino, ifaçılıq sənəti) yaxşı resenziya yazmaq və onu hər tərəfli qiymətləndirmək tənqidçinin peşəkar bacarığından irəli gəlir. Məsələn, Cəlil Məmmədquluzadənin «Ölülər» əsərini qiymətləndirərkən «uzun-uzadı uzunçuluq» etməyə lüzum yoxdur, çünki onlarca tamaşaçı nəsli görmüş auditoriyaya və hər bir məktəbliyə bu əsər yaxşı bəllidir. (68)

Kimin üçün resenziya yazılır (?) sualına birmənalı cavab yoxdur. Bir tərəfdən hər şeydən öncə tənqidi araşdırmaq rəssama lazımdır. Ona görə ki, öz yaradıcılığını, öz baxış bucağını düzgün müəyyən edə bilsin. Bunun üçün ona kənardan bir nəfər lazımdır ki, əsərlə bağlı fikirlərini çatdırsın. Belə bir adam resenziya müəllifi ola bilər. Digər bir tərəfdən isə oxucu və tamaşaçı, rəssamın onlara təklif etdiyi əsəri araşdırmaq istəyir. Amma həyat təcrübəsi göstərir ki, oxucu və tamaşaçı üçün yazmaq işin-bir tərəfi, müəllifə və yaxud başqa tənqidçi üçün yazmaq isə işin-ikinci tərəfi hesab olunur.

Bəzən elə olur ki, xırda detallarına kimi aparılan araşdırma geniş kütlə üçün həm maraqlı, həm də aydın deyil. Lakin elə də ola bilər ki, böyük auditoriya üçün hesablanan əsərin resenziyası peşəkar tənqidçi üçün (elə müəllifin özü üçün də) çox səthi alınsın. Sadə və mürəkkəb yazmaq, həm geniş auditoriya, həm tənqidçi, həm də əsəri analiz edən müəllif üçün çox maraqlıdır. Yalnız tənqidçinin dərin xüsusi biliyinə və təcrübəsinə əsaslanan rezenziya məşhurlaşa və şöhrət tapa bilər.

Bir çox ədəbiyyatçıların və jurnalistlərin fikrincə son vaxtlar tənqidçilər demək olar ki, heç nə yazmırlar. Bunu onunla əlaqələndirirlər ki, başqalarında yeni ideyalar əmələ gəlməsin. Resenziya tez-tez amansız kinayə formasında ifadə olunur. Ona

görə də ehtimal etmək olar ki, bu şəxsi əsərin, ideya və fikrin olmamasından irəli gəlir, nəinki, peşəkar nəşrdən. Eyni zamanda, tənqidçinin nüfuzu hər şeydən öncə yazılan resenziya işinə olan prinspial münasibətdən, obyektiv yanaşmadan, arqumentlərə söykənən analizdən əmələ gəlir. Sözsüz ki, bunu gənc jurnalistlərə xatırlamaq yerinə düşər.

12.MƏQALƏ

Məqalə-analitik jurnalistikada ən əsas janrlardan biri hesab olunur. «Məqalə» anlayışı etimoloji baxımdan latın dilində olan «artikulus» sözündən əmələ gəlmiş və ilk başlanığıcdan «oynaq, bənd», «üzv», «bütövün hissəsi» kimi mənaları vermişdir. (153) Nə üçün qəzet və jurnal səhifələrində nəşr olunan bütün mövzular «məqalə» adlandırılır? Təsadüfü deyil ki, kiçik xəbərlər istisna olmaqla, qəzet və jurnal səhifəsindəki böyük məqalələr, hətta başqa janrlarda hazırlanmış bütün yazılar məqalə adlandırılır.

Məqalə jurnalistikada daha tez-tez istifadə olunan janrdı. Jurnalistikanın bir janrı olaraq məqalə əşyanın və ya faktın dərin analiz olunmasına, xüsusiyyətlərin üzə çıxarılmasına xidmət edir. Faktın və yaxud hadisənin qanunauyğun formada, üstüörtülü şəkildə inkişaf etməsi, o cümlədən vəziyyətin hər tərəfli araşdırılması, səbəbiyyət-istintaq əlaqələrinin qurulması bu janrın əsas keyfiyyətidir. Məqalə həcm baxımından 200 sətrdən artıq olur.

Nə vaxt ki, söhbət tam müəyyən olunmuş «məqalə» janrından gedir, o zaman bu adın əhatə dairəsinə hadisə, proses və vəziyyəti analizə etmək düşür. Bu məqsədlə məqalədə hansı mövqeni tutmaq, izləmək, özünü necə aparmaq və yaxud belə bir hadisəni, belə bir prosesi necə aradan qaldırmaq kimi vacib məsələlər ön plana keçir.

«Daha dəqiq demiş olsaq, məqalə hər şeydən öncə aktual məsələləri, ictimai əhəmiyyət daşıyan proses, vəziyyət, hadisəni

və onunla idarə olunan qanunauyğunluqları analiz edən analitik janrdır.» (12,33-62) Predmetin məqalədə analitik müzakirəsi elə bir dərəcədə aparılmalıdır ki, oxucular bu nəşrdən istifadə edərkən prosesin sonrakı mərhələsi haqqında onları maraqlandıran suallar üzərində düşünə bilsinlər. Beləliklə, məqalənin xüsusi funksiyası haqqında danışmaq olar. Məqalə oxucu auditoriyasına ictimai, həmçinin şəxsi əhəmiyyət kəsb edən aktual proses, vəziyyət, hadisə, onun səbəb-istintaq əlaqələri, o cümlədən nəşr olunan predmetin təsvir olunması, fəaliyyəti, əlaqəsi haqqında məlumat verir və oxucu düşüncəsinə aydınlıq gətirir. Bundan əlavə, məqalə auditoriyanın diqqətini o tapşırığa, problemə cəlb edir ki, hadisənin təsvir olunması zamanı aktual olan vəziyyətə bu və yaxud başqa iştirakçıların strateji və taktiki maraqlarını göstərsin. Uğurlu məqalə aktual vəziyyət haqqında real təsəvvür yaradır və əvvəlcədən keyfiyyətli ideya, impuls yaratmaq üçün təcrübəyə əsaslanan ölçü hazırlayır. «Düzgün, doğru» məqalə hər zaman təsvir olunan predmetlə və onun müəyyən xüsusiyyəti ilə əlaqədə olur.» (241)

Hal hazırda mətbuatda məqalə janrının nisbətən daha dayanaqlı növləri təzahür edir. Bunlar aşağıdakılardır:

a).Ümumtədqiqat məqaləsi;
b).Taktiki-analitik məqalə;
c).Polemik (müqayisəli) məqalə.

a).Ümumtədqiqat məqaləsi

Bu qrup nəşrlərə bütün və geniş suallara cavab verən, ümumi mənanı analiz və kəsb edən məqalələr daxildir. Məsələn, müəllif cəmiyyətdə bu gün mövcud olan siyasi istiqamətli mövzular, respublikanın iqtisadi tərəqqisini əks etdirən statistik məsələlər, əxlaqi-mənəvi dəyərlərin səviyyəsini müzakirə edən söhbətlər, həmçinin din ilə dövlətin əlaqələri, o cümlədən ölkənin xarici dövlətlərlə olan münasibəti və bir çox başqa işlərdən danışa və məqalə yaza bilər.

Bu cür məqalələr ümumiləşdirmənin yüksək səviyyəsinə, müəllifin qlobal fikirlərinə əsaslanaraq nəşr olunur. Ümumtədqiqat məqalələri müasir ictimai həyatın müxtəlif qanunauyğunluqlarını, tendensiyasını, çağdaş cəmiyyətin inkişaf perspektivlərini öyrənmək məqsədini qarşısına qoyur. Sovet dövründə olan təcrübəyə əsaslanaraq demək olar ki, həmin zaman kəsiyində jurnalistikada (publisistikada) ümumtədqiqat məqalələri nəzəri təbliğat məqalələrinə uyğunlaşdırılmışdır və qlobal problemləri həll etməyi qarşısına məqsəd qoyurdu və hər şeyi marksizm-leninizm dialektikası mövqeyindən analiz edirdi.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu .
Rusiya və Cənubi Qafqaz: dünən, bu gün, sabah.

Rusiya dövlətinin Cənubi Qafqazda apardığı siyasi kursu yalnız iqtisadi əlaqələrlə bağlamaq və yaxud ölçmək yanlışlığa səbəb ola bilər. Rusiyanın Cənubi Qafqaz-Azərbaycan, Gürcüstan və Ermənistan (Qərbi Azərbaycan) ilə olan münasibətlərinin tarixi dayaqları və özünə məxsus xüsusiyyətləri mövcuddur. Bunlar heç də, dəqiq ölçü çərçivəsinə sığmır və onun öz konkret meyarları var. Bu iki geocoğrafi region arasında gedən proseslərin təməli bizi ilk öncə X əsrin əvvəllərinə, yəni slavyanların Azərbaycana hucumuna, XVIII əsrin iyirminci illərinə və Birinci Pyoturun (1672-1725) çarlığı dövrünə aparır. Bu məqamda, bir vacib amili qeyd etmək lazımdır. Sözsüz ki, bütün bu proseslər bölgədə yaşayan çox milli etnos və aborogenlərin, mədəni, dini, psixoloji durumu və tarixi ilə bağlıdır.

Keçmiş post-sovet, totalitar-kommunist rejimi altında yaşayan ölkələrdə olduğu kimi, Sovet terminologiyası ilə danışığımızı davam etdirmiş olsaq, Zaqafqaziya Respublikaları müstəqillik qazandıqdan sonra, onların milli-dövlətçilik və xarici siyasətində müəyyən maraqlara səbəb olan mənfi və müsbət nişanələr meydana gəlmişdir. Əlbəttə, bunların hamısı sabiq rejimim miras qoyduğu neqativ hallardan irəli gəlirdi. Başqa sovet respub-

likalarının bir çoxuna nisbətən, bu proses Cənubi Qafqaz ölkələrində etnik qarşıdurma və ekstremizm meyllərinin güclənməsi ilə baş tutdu və tarixin çarxını başqa istiqamətə yönəltdi. Proseslərin inkişaf dinamikası və ssenarisində müəyyən fərqlər olsa da, onların hamısında Kreml «mətbəxinin» ab-həvvası, resepti hiss olunurdu. Münaqişə ocaqlarının sönməməsi, əksinə, güclənməsi və daha uzun müddətli olması, hətta bu gün davam etməsi, bu məsələlərdə Rusiya faktorunun «aparıcı» rol oynadığını çoxdan sübuta yetirmişdir.

1988-ci ildə SSRİ Dövlət Təhlükəzizlik Komitəsinin hazırladığı və Azərbaycanın Sumqayıt şəhərində və Dağlıq Qarabağ Muxtar Vilayətində «uğurla» həyata keçirdiyi ekstremist yönümlü planın əks-sədası qısa zaman kəsiyində Gürcüstanın-Cənubi Osetiya və Abxaziya bölgələrinə, Moldovanın Dnestryanı regionuna, Özbəkistanın Fərqanə vilayətinə və Qırğızıstanın Oş şəhərinə yayıldı. Belə demək mümkünsə, Azərbaycanın Sumqayıt şəhəri və Dağlıq Qarabağ vilayəti baş verə biləcəg milli qarşıdurmaların episentri oldu. Sabiq SSRİ-nin ortaya atdığı bu qanlı qarşıdurmalarin sükanı, onun süqutundan sonra Rusiyanın və onun yeni «demokrat» rəhbərlərinin əlinə keçdi.

Bu istiqamətdə, Rusiya rəhbərliyi heç də sələflərindən geri qalmaq istəmirdi və Birinci Pyoturun siyasi kursuna sadiq olduqlarını və bu məfkurəni həyata keçirməkdə utanmadan fəallıq nümayiş etdirirdilər. Bu məqamda azərbaycanlıların bir aforizmini qeyd etməmək günah olardı: «İlanın ağına da nəhlət, qarasına da.» Odur ki, Rusiyanın Cənubi Qafqaza, əsasəndə, Azərbaycana qarşı apardığı geosiyasi kursun arxasında uzun əsrli bir tarixi istək dayanır. Karnaval şənliklərində ayının sifətini dovşan maskası ilə örtmək içtirakçılarda gülüş doğurduğu kimi, həm də qorxulu məqamlar sərgiləyə bilər.

Bu gün istər geosiyasi, istərsə də geocoğrafi baxımdan, nəinki Rusiyanın, dünyanın bir çox ölkələrinin maraqları məhz, Cənubi Qafqazda toqquşur. Bütün bunlar Rusiyanı qıcıqlandırır və onu fəal olmağa, bu ərazilərə təzyiqini artırmağa sürükləyir. Rusiyanın proseslərə bu mövqedən yanaşması regiona xoş gələcək,

işıqlı sabah arzulamır, əksinə... Bu məqamda yenə də, bir aforizmi xatırlamaq yerinə düşər: «Qurdla yoldaş oldunsa, gərək ağacı əlindən yerə qoymayasan!»

XX əsrin son dekadasında Rusiyanın bir başa müdaxiləsi və iştirakı ilə bütün münaqişə ocaqlarında müvəqqəti olaraq atəşkəs rejimi bəyan olundu, proseslər bəlli olmayan zamana kimi donduruldu. İqtisadi cəhətdən kifayət qədər gücə malik olmayan Rusiya dövləti, bununla gözləmə mövqeyinə üstünlük verdi və problemlərin onun xeyrinə həll olunmasını özü üçün sərfəli olan vaxta kimi təxirə saldı. Bu Qərb dövlətlərinin məğlubiyyəti kimi dəyərləndirilə bilər. Çünki Rusiyanın daxilində, əsasəndə, Şimali Qafqaz regionunda baş verən proseslər Cənubi Qafqazda münaqişələrin başa çatdırılmasına münbit şərait yaratmışdı. Belə bir vəziyyətin yenidən və nə vaxtsa təkrarlanacağına ümid bağlamaq sadəlövlükdən savayı bir şey deyil.

Digər bir trəfdən Rusiyanın «fasilə» götürməsi Azərbaycan üçün də, əlverişli görünə bilər. Bu vaxtdan səmərəli istifadə edib xaricə çıxış əldə etmək, iqtisadi və mədəni inteqrasiyanı həyata keçirmək, hərbi gücü müasir əsaslar üzərində qurmaq önəmli sayıla bilər. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycan fasilədən yetərincə bəhrələndi və 1994-cü ilin sentyabrında «Əsrin müqaviləsi» adlı neft kontraktını imzaladı. Əsrin kontraktının bazasında «Bakı-Tbilisi-Ceyhan» neft kəmərinin imzalanması, həyata keçirilməsi və karbohidrogenlərin ixracı uğurlu siyasətin məntiqi nəticəsi hesab oluna bilər. Əvvəlcə «Əsrin müqaviləsinə», sonra «Bakı-Tbilisi-Ceyhan» neft kəmərinə, ardınca Bakı-Tbilisi-Qars dəmiryoluna və başqa vacib layihələrə ironiya və qısqanclıq ilə yanaşan Rusiya əldən verdiyi səhv üçün çox heyifsiləndi. Odur ki, «Nabukko» qaz kəmərinin çəkilməsinə var gücü ilə mane olmağa çalşır və bu istiqamətdə müəyyən «uğura», hələ ki, nail ola bilir. Lakin iqtisadi və siyasi proseslər yerində saymır, davamlı tərəqqi edir: elə yeni sazişlər və layihələr kimi.

XXI əsrin başlanğıcı özü ilə müəyyən fəsadlar gətirdi. Terror dalğası bir çox aparıcı dövlətləri, o cümlədən Rusiya və ABŞ-ı

əməlli başlı sirkələdi. Rusiyanın bir çox şəhərlərində, əsasəndə, Moskvada yaşayış evlərinin partladılması, Şimal dənizində hərbi nüvə təchizatlı gəminin suya qərq olması, Sayan-Şuşinski Elektrik Stansiyasının partladılması və 11 sentyabr 2001-ci ildə ABŞ-ın Nyu-York şəhərində 100 mərtəbəli iki binaya və Pentaqonun hərbi qərargahına təyyarələrin çırpılaraq pardladılması dünya ictimaiyyətini şoka saldı. Ümumi bəla ilə mübarizə aparmaq məqsədi ilə antiterror koalisiyası yaradıldı. Çox maraqlıdır ki, bir çox terror qruplaşmalarını yaradan və onları müasir hərbi avadanlıqlarla, həmçinin maliyyə ilə təchiz edən böyük dövlətlər bu hadisələri «dünyanın bəlası adlandıraraq ona qarşı bəşəriyyəti birgə mübarizə aparmağa səslədi.» Təəssüf hissi ilə əlavə edə bilərik ki, Ermənistanı özünün fort-postu hesab edən Rusiya erməniləri terrordan, ekstremzimdən yayındırmağa səy göstərmir, əksinə, onlar üçün «çətir» funksiyasını yerinə yetirir...

Rusiyanın «dovşana qaç, tazıya tut» deməsi dünya birliyinə yaxşı bəllidir. Onun bütün məsələlərə ikili standartlardan yanaşması heç kim üçün sirr sayıla bilməz. Ancaq digər tərəfdən isə Rusiy istəyir ki, hamı onlara, yəni ruslara inansın. Bu mümkündürmü? Suala cavab vermək məqsədi ilə misallara müracıət etməli olacağıq. Amma mən siyasi mədəniyyət naminə sabiq SSRİ respublikalarına yox, tamamilə başqa dövlətlərə üz tutmaq qərarına gəldim. Son iyirmi ildə, Rusiyanın «dovşanı tazıya tutdurmasının» hamımız şahidiyik. Əfqanıstan, İraq, Serbiya, Liviya, indi növbə Siriyanın, daha sonra isə İranın olacaqdır, sözsüz... Bu təqdirdə Rusiyaya inanmaq olarmı?...

Almaniyada «üçüncü reyxin» məhvindən sonra dünyada Almaniya dövlətinə və almanlara inam sıfıra bərabər idi. Bu gün biz bunun tamamilə əksini görürük. Bəs, səbəb nədir? Əlbəttə ki, alman xalqına və Almaniyanın siyasətçilərinə, onların gətirdiyi yeni siyasi kursa, yeni ab-həvaya olan inam... Almaniyanın sabiq siyasətçilərindən biri olan Hans Ditrix Qenşer bu fikiri təsdiqləyərkən demişdir: «Bizim xarici siyasətimiz ona görə millidir ki, biz Avropa siyasəti yeridirik.» (201) Onlar tarixi qonşuları olan Polşa, Çexiya, Fransa, Avstriya, Belçika, Hollandiya

və başqaları ilə yaxşı qonşuluq münasibətləri qura bilmişlər, hətta Hitler Almaniyasının yerinə dünya ictimaiyyətindən üzür istəmiş, təzminatlar ödəmişlər. Acı həqiqətdir ki, Rusiya hələ də Birinci Pyoturun «Okeandan okeana» siyasətini dəstəkləyir və bu siyasi kursu həyata keçirməkdə maraqlı görünür. Halbu ki, dünyanın siyasi arenasında oyunlar yeni norma və qaydalar əsasında aparılır. Pyotr siyasətinə bənzər siyasi kurs aparan bizim mənfur qonşularımızın «dənizdən dənizə» siyasəti də, məhz bu mənbədən bəhrələnir. Necə ki, bir aforizmdə deyilir: «atı, atın yanına bağlayarsan, həm rəng olmasa da, həm xasiyyət olar.» Hətta belə bir təsürrat yaranır ki, görəsən bu «şüar» ruslara aiddir, yoxsa ermənilərə və yaxud da, Birinci Pyoturun özünə... Bəlkə, «cənab» Pyotr özü də erməni olub, amma erməni «tarixçilərinin» bundan deyəsən xəbərləri yoxdur...

Bu gün, rusların milli baxımdan özlərinə yaxın saydıqları «slavyanlar»-belarus, ukrayna, serb, bolqar, slovak, çex və xorvat xalqları onlardan kənar olmağa çalışır, Qərbə meyl göstərirlər. Bu Rusiyani narahat etsə də, o bunu büruzə vermir. Rusiya bu gün iqtisadi baxımdan dirçəlməyə başlayır və yenidən hərbi potensialını artırır, «muskullarını» nümayiş etdirməyə çalışır. Rusiyanın fort-post saydığı Ermənistana bir neçə milyard dollarlıq təmmanəsız silah-sursat verməsi həmin qaynaqdan bəhrələnir.

Əhalisinin sayı durmadan azalan, qonşuları ilə isti münasibətdə olmayan Rusiyanı sabah nə gözləyir? Həqiqət naminə söyləyə bilərik ki, bu sualın ritorik cavabı yoxdur...

Rusiya birdəfəlik və birmənalı şəkildə bilməli və anlamalıdır ki, qonşuları dəyişmək olmur. Onlarla yaxşı münasibət qurmaq daha vacibdir, çünki bütün zamanlarda güclü hərbi potensiala malik olmaq mümkün deyil. Bunu tarix dəfələrlə təsdiqləyibdi. Fransanın sabiq Prezidenti Şarl De Qol demişkən: «Çoğrafiyanı dəyişmək olmaz, amma geosiyasi kursu olar.» (82)

O ki, qaldı Azərbaycana, o müstəqil dövlət kimi Rusiyanın qorxusunu hələ bir neçə on illiklər hiss edəcəkdir, necə deyiblər: «İlan vuran ala çatıdan qorxar». Tarix müəllim olmasa da, tarixdən dərs almaq hamıya lazımdır!..

Ümumtədqiqat məqaləsi janr etibarı ilə çox çətindir. Ona görə ki, o sadəcə olaraq konkret hər hansı bir problemlə bağlı bilik tələb etmir, o həm də, mövcudluğu baxımından şərt qoyur və nəzəri izah tələb edir. Bu isə yalnız təcrübəli analitik-jurnalistin işi ola bilər. Yenicə fəaliyyətə başlayan jurnalist öz diqqətini ümumtədqiqat analitik məqalənin ən vacib hissəsinə cəmləşdirsə, daha effektiv məqalə yarada bilər. Əvvəlcə jurnalist nə etməlidir?

Məqalənin hazırlığına başlayarkən jurnalist müəyyən etməlidir ki, onun fikirincə, yazacağı məqalənin mövzusu müasir cəmiyyətin inkişaf etməsi üçün qlobal sualdır və bu diqqətə layiqdır. Bir sözlə müəllif öz çıxışının əsas tezislərini formalaşdırmalıdır. Bunun üçün o, gələcək çıxışının predmetinə aid olan fəaliyyət sahəsi haqqında mövcud olan obyektiv qanun və qanunauyğunluqlardan istifadə etməyi bilməlidir. Məhz, onlar haqqında müzakirə məqalənin əsas tezisləri ola bilər. Jurnalist mütləq baxmalıdır ki, həmin fəaliyyət sahəsində mövcud olan və ona lazım olan qanun və qanunauyğunluqlar məqalədə müzakirə olunan konkret fenomena nicbətdə özünü necə göstərəcək, yəni formalaşdırılmış tezisləri müasir aktual təcrübə ilə əlaqələndirmək gərəkdir. Bu təcrübə haqqında məqalədə olan müzakirə, irəli sürülən tezislərin xeyrinə arqument ola bilər.

Məqalə janrının mövcud modelinə ümumi struktur tələbi belədir: məqalə aydın konseptual (ümumi təsəvvür) xəttini qoruyub saxlamağa borcludur. Bu xəttin daha qəliz, daha sıx və daha qatı faktlar arasında itməsinə imkan verməк olmaz. Müəllif özünün aydın, dəqiq fikirini inkişaf etdirməyı bacarmalıdır ki, oxucuya vəziyyətin siyasi, iqtisadi və yaxud başqa tərəflərini çatdıra bilsin. Hadisə, proses və vəziyyətin qiymətləndirilməsi zamanı jurnalistin tətbiq etdiyi metodlar oxucu auditoriyasına aydın olmalıdır. Bu, auditoriyaya ümumi hadisənin əhəmiyyətini düzgün qəbul etməkdə kömək edir və özü üçün davranış, hərəkət xəttini təkminləşdirir. Belə tapşırığı yerinə yetirən gənc jurnalist müəyyən düzəlışlərə müntəzəm riayət etməlidir.

Məqalə əsasən üç hissəyə bölünür: başlanğıc, əsas hissə, nəticə.

Hər bir hissə üçün müəyyən olunmuş tələblər mövcuddur. Onlar aşağıdakı ardıcıllıqla aparılır. Məqalənin başlanğıcında, üçdə bir hissədə ekcpozisiya (bir növ giriş) ifadə olunur. Oxucuya aktual imkan verilir ki, bilsin: niyə mövcud vəziyyət analiz olunur (?), niyə o cəmiyyət üçün əhəmiyyətlidir (?), niyə onu həll etmək lazımdır (?) və s. Bir halda ki, vəziyyətin başa düşülməsi aktual problem və tapşırığın dərk olunması və onun törəməsindən asılıdır, onda bu problem və tapşırığın vəziyyətlə bağlılığını göstərmək lazımdır. Auditoriyanı problem, tapşırıq, həmçinin mövcud vəziyyət və şəraitlə tanış edən müəllif, sonrakı mərhələdə problem və tapşırığın nə üçün baş verməsi, o cümlədən bunun hansı qüvvələrin maraqları dairəsində həll oluna biləcəyi suallarını verə bilər. (Məsələn: «**A** tapşırığı **B**-nin xeyrinə necə həll oluna bilər ki, əgər şərait **D** hələ yaranmayıb?» Və yaxud «Necə **A** tapşırığı **B**-nin maraqları çərçivəsində həyata keçə bilər ki, **C**-nin aqibəti bəlli deyil?» (153) Əlbəttə, bu düsturu məqalədə stereotip istifadə etmək olmaz. Həm dolğun və maraqlı, həm də başqa münasibətlərdə hər bir konkret məqalə tamamilə original olmalıdır.

Beləki, hər bir vəziyyət, proses, hadisənin özünün daxilində bir ziddiyyət mövcuddur. Bu isə, sözsüz onun doğru, dürüst, xeyrli olmasına, hər hansı bir məqsəd və tapşırığın qoyuluşuna, həmçinin, həlli yollarının tapılmasına əks reaksiya verməmiş olsun. Bu nöqteyi-nəzərdən müvafiq sual-şübhəni formaya salaraq birbaşa və yaxud dolayısıilə auditoriyaya ünvanlamaq olar. Belə sual nəinki bağlı, həm də açıq şəkildə (bir neçə sual cümləsi kimi) verilə bilər. Sualların qoyuluşunda müəllif təcrübəyə arxalanmalıdır, bu isə oxşar məqamlarda hər şeydən çox yenidən yaradır.

Məqalənin əsas hissəsində, müəllif ola bilsin öz baxışını vəziyyətin həll olunmasına mane olan faktlar üzərində cəmləşdirsin və çalışsın ki, tapşırığın indiyə kimi həll olunmamasına ay-

dınlıq gətirsin. Bununla bahəm jurnalist göstərə bilər ki, hansı yolla istəyinə nail oldu və yaxud ona yaxınlaşdı və bunun üçün hansı konkret addımlar atmaq gərəkdır. Hərəkətin ardıcıllığına nail olmaq kifayət qədər mürəkkəb bir prosesdir, buna görə də, müzakirə zamanı diqqəti kələfin ucunu itirməməyə və nəşrin auditoriyanın başa düşə biləcəyi səmtə yönəltmək lazımdır.

Əsas hissədə, vəziyyətin analiz olunması ilə müqayisədə nəticə sintezləşdirmə xüsusiyyəti daşıyır. Sonrakı mərhələdə vəziyyətin dəyişməsi özündə nəyi cəmləşdirdi, hansı qüvvələrin hərəkəti, hansı yeni problem və tapşırıqların həlli yollarını aydınlaşdırdı? Həmçinin, ola bilsin ki, məqalənin sonunda jurnalist auditoriyaya vəziyyətin yaxşı istiqamətə dəyişməsi üçün istinad etsin. Anlaşılandır ki, təcrübəli jurnalust problemli məqalənin hazırlanmasında həmişə öz yaradıcılıq potensialına arxalanır və tapşırığın həllini tapır. Lakin bununla bahəm bir çox nəşrlərdə məhz, məntiq üstünlük təşkil edir.

b).Taktiki-analitik məqalə

Məqalənin bu növü hər şeydən öncə sənaye, iqtisadiyyat, kənd təsərrüfatı, sahibkarlıq, mədəniyyət, elm, təhsil, biznes, maliyyə və başqa bu kimi aktual olan praktiki problemlərə müraciət edir. Belə məqalələrdə bu və yaxud başqa fəaliyyət, istehsalat sahələrini əhatə edən, praktiki tapşırıq, konkret problem, xəbər, hərəkət, vəziyyət və s. analiz olunur. Müəllif taktiki-analitik məqalədə bu və yaxud başqa istehsalat, müəssisə, sosial sahələrdə yaranan problemlərin araşdırılmasını öz qarşısına məqsəd kimi qoyur, vəziyyətin səbəbini üzə çıxarır, qiymətləndirir, onların inkişaf tendensiyasını müəyyən edir, bu yolda qarşıda duran başqa tapşırıqları imkan düşdükcə effektiv həll edır və konstruktiv məsələləri cəmiyyətin mühakiməsinə təqdim edir.

Əgər ümumitədqiqat məqaləsinin müəllifi «ölkə», «dünya», «planet», «ictimai quruluş», «siyasət», «iqtisadiyyat», «xalqın rifahı», «parlament qərarları», «beynəlxalq müqavilələr»,

«ölkələr arası qarışıqlı əlaqələrin tendensiyası», «sivilizasiya» kimi bu kateqoriyadan olan fikirlər haqqında düşünürsə, taktiki-analitik məqalənin müəllifi ərsəyə gətirəcəyi əsərdə «istehsal sənayesinin tapşırığı», «maşın parkı», «müəssisələr arasında əlaqə», «sənayedə yaranan vəziyyət», «zavodun yenidən qurulması planı», «AC-nin gəliri», «qiymət qoyulma», «təsis etmə», «sahibkarlar», «kollektivdə olan ab-hava» və s. kateqoriyalara daxil olan söz və söz birləşmələrindən istifadə edir.

Problemli məqaləyə hazırlıq, arzu edilənlə mümkün olan arasında mövcud olan real münaqişəni, vəziyyəti öyrənmə anından başlanır. Jurnalist qarşısında duran problemli ziddiyyəti dərk etdiyi zaman, onda olan məlumatla onu maraqlandıran hadisə haqqında təsəvvür, tərəflərin mövcud hadisəni bilməmələri zərurətindən yaranır. Bu ziddiyyət ilk əvvəl müəllifin problemi formalaşdırmasında təsvir olunur.

Jurnalist tədqiq etdiyi predmeti nə qədər çox bilirsə, işıqlandırdığı fəaliyyət sahəsində də, bir o qədər ixtisaslı olmalı və bunu «özünün mövzusu» hesab etməlidir. Bu zaman müəllifin maraqlı və məntiqli problemli məqalə əldə etmək şansı və ehtimalı bir o qədər çox olacaqdır. Problemin düzgün qoyuluşu həqiqi biliyin əsasında baş verə bilər. Əgər jurnalist ölkədə olan müasir vəziyyət haqqında məlumatlı deyilsə və iyirmi-otuz il əvvəl ki, biliyə əsaslanırsa, o, belə bir sual verə bilər: «Nə üçün yenidənqurma iflasa uğradı?» (1985), yəni onda problem haqqında doğru təsvir olmayacaqdır. Jurnalisti maraqlandıran konkret problemi seçmək, ilk növbədə auditoriyanın tələb və marağına uyğun olan aktual problemli məsələ olmalıdır ki, həm jurnalist, həm də məqalə yekunda onun üçün «işləsin.» (12)

Mövcud olan problemli vəziyyətin analizinin gedişi zamanı problem dəqiqləşdirilir. Bunun üçün isə müvafiq informasiyalar əldə etmək lazımdır. Hadisədə axtarış konkret fəaliyyət göstərən şəxsin üzə çıxarılması ilə başlanır. Onları müəyyən etdikdən sonra verilə biləcək suallara cavab axtarmaq prosesi ön plana keçir. Kim tərəfindən nə təşəbbüs olub (olacaq)? İştirakçılar hansı sosial qrupa aid edilirlər? Onlar hansı məqsə-

di güdür? Hansı vəziyyətdə onlar hərəkət edir? İctimai tələblə iştirakçıların şəxsi maraqları arasında hansı ziddiyyət var? Bu zaman hansı problem yaşanır? İştirakçılar buna necə reaksiya göstərirlər? Hansı üsul və metod tətbiq olunur? Kimlərlə və kimin əksinə onlar hərəkət edirlər? Nə üçün belə hərəkət edirlər, başqa cür yox? Bütün bunlar nə ilə nəticələnə bilər? Cəmiyyət üçün bu nə deməkdir? Vəziyyətdən çıxış yolu kimi nə başa düşülür? Bu kimi informasiyanı alan müəllif, gələcək çıxışı üçün əsasən ilk növbədə problemin müzakirəsini formalaşdırır.

Müasir jurnalistikada kifayət qədər çox məqalə görmək olar ki, problemli statusuna namizəddir, amma təəssüflər olsun ki, bu heç də belə deyil. Bəzən onlarda danışıq elə suallar üzərində gedir ki, cəmiyyətin diqqətini cəlb etmir və yaxud mövcud vəziyyətdə «problem yaradan» təsiri bağışlayır. Belə hallarda, qarşıda problemin bu cür formalaşması dayanır: «Necə qarayanız olmaq olar?», «Nə üçün Samir Bağırov cəmiyyətin xoşuna gəlmir?», «Nigar Camaldan necə avtoqraf almaq olar?» və i. Hərdənbir xülasə edilmiş fikir (formula) yalançı problemi inikas (əks olma) edir. «Nə üçün başqa planetdən olanlar yerdəkilərlə əlaqəyə getmir?», «İnsanları necə xoşbəxt etmək olar?», «Ömürlük mühərriki necə düzəltmək olar?» (12) və i. Jurnalistlər bu cür «problemləri» «ideyalı problem» adlandırırlar. (212)

Problem həmişə cəmiyyət və ictimaiyyətin tapşırıqları həll etmək üçün qarşıya qoyduğu tələblərlə bağlıdır. Problem nə qədər çox insana aid edilirsə, onun əhatə dairəsi nə qədər geniş olursa, bir o qədər insanı özündə birləşdirir və daha ciddi, təmkinli jurnalistin diqqətini cəlb edir.

Jurnalist mühitində belə bir fikir dolaşır ki, problemin düzgün qoyuluşu, demək olar ki, onun yarısını həll etməyə bərabərdir. Əlbəttə ki, bu həddən artıq şişirdilmiş bir nöqteyi-nəzərdir. Daha dəqiq demək olar ki, problemin qoyuluşu ilə onun düzgün həlli şərtləşdirmədən asılıdır. Problemin jurnalist tərəfindən həlli-onun formulasının daxilində yerləşir. Bu həmin suala cavab kimi qəbul oluna bilər. Bunun üçün lazım olan mütləq biliyi, müxtəlif metodlarla almaq olar-həm empirik (təcrübi), həm də

nəzəri. Bütün bunlar problemli çıxışın əsas məqsədinin müvəffəqiyyətinə tabedir:

1.Problemli vəziyyətin təsviri və qiymətləndirilməsi;
2.Problemi yaradan səbəbin (manea, əngəl, tapşırıq) aydınlaşdırılması;
3.Problemin aradan qaldırılması üçün proqramı müəyyən etmək və çıxış yolları axtarmaq, yəni hərəkəti dürüst ifadə etmə.

Diqqətdən qaçırmaq lazım deyil ki, təsvir etmə adı altında jurnalistikada müşahidə etmənin nəticəsini qeydə almaq, müsahibə, söhbət, jurnalist tərəfindən sənədlərin öyrənilməsi, yəni empirik tədqiqatın nəticəsi, lazım gələrsə onların qruppalaşdırılması və tipoloji təsnifatı başa düşülür. Bu analiz olunan predmetə insan tərəfindən verilən qiymətdir. Tez-tez hallarda müəllif vəziyyətin təsviri və qiymətləndirilməsinə özünün problemli çıxışı ilə başlayır.

Firidun bəy Köçərli.
Məişətimizə dair. (Dinmə ver.)

Heç bir vergi və xərac adamı artıq incitməz. Əgər xərc verən adam bilə və yəqin edə ki, o verdiyi xərc, ondan bir zakonun hökmü ilə ya ümumi bir qayda və qanun gücü ilə alınır, yəqin edə ki, bu vergiyə hamı şərikdir və o pulu ki, verir ya padşahlıq xəzinəyə ümum dövlətin və millətin nəfi üçün daxil olacaqdır, ya içində olduğu camaatın işlərinə sərf olunacaqdır.

Yol açmaq, körpü saldırmaq, məktəb və məscid bina və təsis etdirmək kimi və ya ətrafında olan füqəra və məsakinin rəfi, ehtiyacı üçün işlənəcəkdir. Bu qism vergilərdən heç bir kəsin haqqı və ixtiyarı yoxdur boyun qaçırsın və şikayətçi olsun.

Əgər biz müsəlmanlardan zəkavatı zorla tələb etsələr ki, onu verməkdən xeyli zamandan bəridir ki, tark (tarək) ... olmuşuq, borcluyuq dinməz, söyləməz verək.

Bu barədə ah və zarə etməyə və şükvə qılmağa haqqımız yoxdur. Çünki zəkvat quranin hökmü ilə ümuri-məmləkətin səlah və müsəlman millətlərinin asayiş və fəlahı üçün qoyulmuş ümumi bir vergidir.

Amma bir qism vergi dəxi vardır ki, qanun və qaydadan xaricdir. Və xilafi əql və vicdan və ədalət olduğundan, adama ziyadə ağır gəlir və onu qəlbən o qədər incidib mütəqəyyir hal edir ki, bütün dolanacağı zəhəralud olur.

Bu vergi cəbr və zorən icra olduğu üçün müstəhəqqinə yetişməyir. Birisi zəhmət çəkib qazanır, yığır, qeyri birisi heç bir iş görməyib, əmək sərf etməyib onun zəhmətinin səməri ilə nəftərdar olur. Bu ittifaqlar camaatımızın qeyri-müntəzəm və məişətimizin pozqun və biqaidə olmağına şəhadət verir. Bu vergi quldurların bıçağı boğaza diriyib "dinmə ver!" vergisi qəbilindəndir.

Möhtərəm "Tərəqqi"nin 27-ci nömrəsində Bakı şəhərində çari olan qətl və qarətlərə çarə aramaq və əlac tapmaq üçün şəhər idarəsinə cəm olan əşxavın məsləhət və məşvərətini oxuduq. Burada Kərbəlayi Cahangir Zeynalov cənabları danışdığı sözlər diqqətimizi cəlb etdi. Kulubda bir şəxs qumar oynayıb öz pulunu uduzur. Gəlib özgə bir şəxsdən neçə dəfələr dalbadal pul alıb onu da uduzur. Pul tələb olunan şəxs dinməz, söyləməz hər səfərdə iki yüz-üç yüz manat cibindən çıxarıb öz ortaq qardaşına verdiyi kimi ona verir, verməyə də bilməz can qorxusu zarafat deyil. Xilafi rayincə bir söz desə küçəyə çıxan kimi gülləni başına çaxacaqdır.

Bu qəribə əhvalatı oxuyanda Qazax uyezdində Şıxlı və Salahlu camaatının çarəsiz bir bəlaya kiriftar olmaqları yadıma düşdü. Necə ki, Bakı dövlətlilərinin ixtiyarı o yerin qoçularının və canilərinin əlindədir, habelə bu halda Salahlu, Şıxlı camaatının ixtiyarı "Qara yazı" meşəsini qoruyan strajinilərin və uryadniklərin yəd təsirindədir.

Bakıda can qorxusu var isə Salahlu və Şıxlıda dəxi mal və məvaşi qorxusu var. Məlumdur ki, fəqir-füqəra üçün mal da can kimi şirindir. Mal olmayandan sonra can da rahat olmaz. Güzə-

ran təng keçəndə fəqir və yoxsulluq ucundan adam candan dəxi bizar olur.

Kufiyyəti-hal bu qərar, üzrədir. Kür çayının yaxasında Qarayazı meşəsinin müqabilində iki böyük kənd var. Şıxlı və Salahlu. Bu kəndlərin əhli tərəkəmə (köçəri) olduğuna binaən əksəriyyən maldarlıq ilə güzəran edirlər.

Və qədim zamandan bəridir ki, iki-üç ay yay fəslindən savayı ki, bu vəqtləri yaylağa köçürlər, ilin doqquz ayını bunların malı Qarayazı meşəsinin bir hissəsində olub otu-ələfi ilə dolanır və camaat özü meşənin odunu ilə nəfebərdar olurdular.

Amma yeddi-səkkiz il bundan əqdəm knyaz Qalisinin hökmü ilə ildə bir-iki dəfə ov etmək xatirəsi üçün əhalinin ixtiyarından meşə alındı.

Bu xüsusda o ildə şikayət olundusa da şikayətə qulaq asan olmadı. Camaatın ah və naləsi yerdə qaldı. Və onun haqqında böyük ədalətsizlik olundu və hal hazırda olunmaqdadır.

İmdi meşənin külli ixtiyari demək olar ki, qarovulçuların əlindədir. Bu qaçaqlar ildə iki-üç dəfə hər iki kəndin əhalisini məxfi sağıb mallarını meşədə xəlvət otarmağa izin verirlər.

Məlum ola ki, keçmiş Qarayazı meşəsi bir çox yerlər ilə Salahlu ağalarının babalarına mütəlləs (?) imiş ki, onlar Gürcüstan padişahları tərəfindən tamami Qazaq mahalında vəkillik edərlərmiş. Və mahalın külli-ixtiyarı onların əlində imiş. Və lakin müruri-əyyamla bu ixtiyar əldən gedibdir. Və meşə ilə belə Gürcüstsnın sol tərəfində olan çox xali yerlər və yataqlar ixtiyarlarından çıxıbdır.

Müsəlmanların işi hər yerdə belədir. Aqibətəndisi və durbin olmuyub bu günkü rizələrinə qənaət edib, sabah allah kərimdir deyib gələcək fikrinə düşmədikləri kimi Salahlu ağalarının əvvəlki babalarından qalan və vaqe əmlak nəslən bəd nəsl sahiblik etmək qeydinə düşməyib böyük iflət ediblər.

İmdi nəsl artıb çoxalıb və əldə qalan cüzi mülk onların azacıq ehtiyatlarını dəxi ödəmir. Bu halda ağaların aba və əcdadlarına mütləq olan meşə də mallarını otarmağa, onun qurumuş və çürümüş odununu yandırmağa ixtiyarları yoxdur.

Tamami ixtiyar necə ki, yuxarıda ərz olundu. Uryadnukin və strajniklərin əlindədir. Bunlar kefləri istədiyi taksanı təyin edib hər kəsin səcri (qara malı) hesabınca ildə neçə dəfə mal sahiblərindən pul alırlar. Bu şərtlə ki, verilən pulun əvəzində qəbz tələb olunmasın. Bu verginin barəsində heç bir kəsə bir söz söylənməsin. Meşəbəyi və ya revizor meşəyə nəzarət etməyə gələn zaman mallar pəyədən dışarı çıxmasın. Və mümkün olduğu qədər heyvanları gecələr otarıb gündüzlər damlarda saxlasınlar. Rus çinovniklərinin gözünə görünməsinlər. Və hər şeydən müqəddəm pul tələb olunduğu əsnada bilatəxir toplayıb dinməz-söyləməz versinlər. Bu vergi, Bakı milyonçularının vergisinə çox oxşayır. Hər ikisi «dinmə, ver» qismindədir. Təfavüt ancaq burasındadır ki, Bakı milyonçuları vardan verirlər, biçarə rəiyyət tayfası borca-xərcə düşüb yoxdan verir. Əgər onlardan birisinə bu təklif ağır görünsə və cənab uryadnikin xahişini əmələ gətirməsə onda onun malları atlar döşündə iyirmi verst və daha ziyadə Akstafaya naçalnik hüzuruna qovulacaqdır. Bu heyndə heyvanlardan arıq olanı Kürü keçəndə soyuqlayıb yolda yorulub qalacaqdır. Boğaz olanı vaxtsız buzov salacaqdır. Bir neçə müddət Akstafada ac qalacaqdır. Bunlardan əlavə mal başı hər heyvana sahibindən məxsusi cərimə (ştraf) alınacaqdır. Əlbəttə, bu qədər ağır zərərdən xilas olmaq üçün mal sahibi uryadnikin təmənnasını əlavə gətirməyi, yəni onun ovcuna xəlvətcə malın birisinin qiymətini basmağı eyn məsləhət bilib işi sülh ilə qurtarır. Burada demək olur ki, «nə şiş yanır, nə kabab!»

Bakı milyonçuları canlarından qorxub, onlardan bac və xərac alanların adlarını açmadıqları kimi Şıxlı və Salahlu şenliyi dəxi hər qism şərü şıltaqdan qorxub qarovulçuların onların başına gətirdiyi «tənbəki oyunu»nu bir kəsə açıb deməzlər. Çünki aqibəti xeyir deyil! Əgər iş açılıb şikayətə düşsə, şəhin və istintaq olunsa, pul verənlərin heç biri narazılıqdan rüşvət verib heyvan otardıqlarını boynuna almayacaqdır. Və bəlkə cümləsi danıb and içəcəklər ki, nə uryadnikə, nə strajnikə bir qəpik də verən olmayubdur. Buna ümdə səbəb əlbəttə avamlıqdan törənən qorxu və vahimədir.

Rus qulluqçuları böyüyündən tutmuş kiçiyinə kimi müsəlmanların canında olan bu qorxunu yaxşı bilirlər. Müsəlmanların «psixologiyasına» kamalınca bələd olublar. Onlar yəqin biliblər ki, müsəlmanları heç zadın üstündə dolaşdırmaq su içməkdən asandır.

İş bərkə düşəndə onlar özləri bir-birinin ayağından çəkəcəkdir. Necə ki, qoyun sürüsündən biri-ikisi xəndəyə düşəndə yerdə qalanları da onların üstünə sıçrayıb yek digərini xıncıyır və tələf edir. Ona binaən kefləri istədiyi kimi müsəlmanlar ilə rəftar edirlər. Və onları yaxşıca soyurlar.

Bizə təəccüb gələn bir şeydir. Salahlu ağalarının içində qabil, zirək, iş bilən və bacarıqlı adamlar çoxdur. Əksəri rusca bilir, rus zakonundan xəbərdardır. Hər yerdə hər sahib mənsəbə öz dərdlərini və ehtiyaclarını dil və yazı vasitəsilə izhar etməyə qadirdilər.

Aya səbəb nə olub ki, bu möhtərəm şəxslər camaatın belə bir fəna halına bir tədbir çəkməyiblər.

Və imdiyə kimi, «Qarayazı» meşəsini ki, onların dolanacağı üçün ən mühüm məsələlərdən birisidir həll etməyiblər. Lazım olan məqamlara da şikayət edib işi bir qaydaya salmayıblar. Erməni tayfasının milyonlarca zəbt olunan kəlisa (kilsə) və monastr əmlakı və mal-dövləti geri verildikdə, iki kəndin mal və məvaşisi dolanmağa kifayət edən qədər Qarayazı meşəsinin bir hissəsi verilməzmi? Əlbəttə verilər. Və lakin hər işin aşırılması himmət, qeyrətə bağlıdır. O da ki, müsəlmanlarda yoxdur. (Tərtib edən və araşdıran: Filologiya üzrə fəlsəfə doktoru Veydəddin Pirəliyev.)

Məqalədə ən vacib məsələlərdən biri də, səbəbləri üzə çıxarmaqdan ibarətdir ki, müasir şəraitdə janrın daha yaxşı inkişafına təsir göstərə bilsin. Əgər səbəb onların təsir dairəsindən kənardadırsa, onda onlar nəzəri maraqları ifadə edəcəkdir. Jurnalistika üçün aktual əməli (praktiki) problemlə məşğul olmaq, hərtərəfli analizin zidiyyətli və gərəksiz olmasından xəbər verir.

Çox tez-tez lazım gəlir ki, problemli vəziyyətin inkişaf proqnozunu verək. Məhz proqnoz, tədqiq etdiyimiz hadisənin gələcək halı haqqında «model»i verir. (241)

Hərdənbir taktiki-analitik məqalə özünə proqram hərəkətləri daxil edir ki, bu da, cəmiyyətdə vəziyyəti dəyişə bilər. Ciddi proqramı həmin fəaliyyət dairəsinə müvafiq olan mütəxəssis tərtib edə bilər. Bu halda jurnalist yalnız həmin proqramı yaxşı öyrənib, sonra onun haqqında auditoriyaya məlumat çatdırar. Amma bəzən elə olur ki, jurnalist məqalədə müzakirə olunan sualla bağlı öz fikirlərini açıqlayır. Belə olduğu halda, adətən müəllif «bu səbəb ilə» bağlı qısa fikir söyləməklə çıxışını məhdudlaşdırır. Məsələnin öz həlli isə təşkilat, idarə və müəssisələrin müvafiq xidmətlərinin üstündə qalır.

ç).Polemik (müqayisəli) məqalə

Bir çox nəşrlər polemikanı daha tez-tez çap edirlər. Onların əksəriyyəti cəmiyyət üçün böyük əhəmiyyət daşıyan müqayisəli problemi günün vacib məsələsinə çevrildiyi bir zaman, polemik məqaləyə müraciət edirlər. KİV-nin çoxunda polemik fəallıq işin «qızğın» çağında, hər hansı bir seçki kampaniyasının başlanığıcında baş verir. Bu cür polemik məqalələrin dərc olunması üçün, adətən siyasi, dini və s. cərəyanın təmsilçiləri üçün bilavasitə bəhanə olur. Bu məqamda polemik məqaləni yazan jurnalistin, onu nəşrə hazırlayan mətbuat orqanının məsələyə öz münasibəti də, kifayət qədər əhəmiyyətli rol oynayır.

Polemik məqalənin məqsədini dərk edən müəllifə, bu iki cür görünür:

Birincisi, müəllif ilk öncə öz qarşısında tapşırıq görür-sonra o, mübahisəli sualı öz şəxsi mövqeyinə uyğun əsaslandırmalı, problemi necə gördüyünü, onun yaranma səbəbini, həlli üsulunu, qiymətini bildirməlidir.

İkincisi, ona öz opponentinin mövqeyini mütləq təkzib etmək (və yaxud yalanını çıxarmaq) imkanı verilir. Bu təbiidir və ola bilməz ki, fakt və misalların məzmununa, həmçinin məqalə-

nin məntiqi strukturuna təsir göstərməsin. Adətən, istifadə olunan fakt və misalları elə toplayırlar ki, o yalnız müəllifin mövqeyini təsdiqləyir. Məqalənin başqa növlərinin müəlliflərindən fərqli olaraq, burda jurnalist özünün tezislərinin əksinə olan fakt və misallar tətbiq edir və bu zaman o, öz çıxışına başqa filosofun mövqeyini daxil edə bilməz. Onun çıxışı ziddiyyət və təzad doğurmur, çünki bu polemik məqalənin prinsipal tələbidir.

Müəllif tərəfindən məqsədin özünəməxsus şəkildə dərk edilməsi, polemik çıxışın məntiqi strukturuna original formada daxil olur. Burda isbatedici müzakirə bir tərəfdən müəllifin çıxışında olan əsas tezisin arqumentləşməsinin xeyrinə, digər tərəfdən isə opponentin çıxışında yer alan tezis və arqumentlərin təkzib edilməsi əsasında formalaşır. Geniş yayılmış polemik çıxışın əsas tələblərindən biri də, mütləq əsas qanunu bilmək və ona riayət etməkdən ibarətdir. Bu cür yanaşma KİV-nin köməyi ilə mədəni polemik ünsiyyət quran cəmiyyətə xas olan bir xüsusiyyətdir.

«Onlar özlərində nə təmsil edirlər? Qaba formada demiş olsaq, bu cür qanunlar-polemikanın iştirakçılarına həqiqəti axtarmaqda kömək edən yekun tələbdir.» (116,5-57)

Belə bir axtarışa oriyentasiya (istiqamət, meyl)-başlanğıc, əsas qanundur ki, onu da daima nəzər-diqqətdə saxlamaq lazımdır. Necə ki, ta qədimdən bu günə kimi gəlib çatan bir aforizmdə deyilir: «Mübahisədən həqiqət doğar.» Əgər polemik nəşrdə həqiqəti axtarmağa istək və yaxud bacarıq yoxdursa, onda buna heç başlamaq da lazım deyil. Jurnalist tərəfindən oxucu auditoriyasının mühakiməsinə verilən mübahisə qanuni kompleks xarakter daşıyır və bütün əsər boyu təkminləşmiş məntiqi normadan əmələ gəlir. Kommunikativ təsirə inandıran qayda, öyüd, əxlaq, tərbiyə və həqiqət, düzlük, gerçəklik tələb edir.

Madam ki, polemika jurnalist çıxışlarında mübadilə kimi axır, onda bu qayda onun hər bir ayrı-ayrı iştirakçısına, hər şeydən öncə isə polemik məqalənin məzmun və formasına olan

tələbdir. Burda tələb özünəməxsusdur. Özünəməxsusluq isə yuxarıda söylədiyimiz kimi, onunla nəticələnir ki, məqalənin müəllifi çalışır opponentin mövqeyini təkzib və özünün fikirlərini təsdiq və isbat etsin. Ola bilsin bu və yaxud başqa polemik əsərdə təsdiqin və təkzibin nisbəti müxtəlif olsun. Həm onun, həm də bunun (təsdiq və təkzib) mətndə iştirakı mütləqdir. Buna görə də, mahir polemikaçı borcludur ki, yaratdığı polemik əsərdə həm təsdiq və həm də, təkzib olsun.

Hər bir halda, polemik mətn əsas fikrin (əsas tezis) mütləq dürüst ifadəsi ilə başlanır. Bundan sonra müəllif çıxışında, polemik kampaniyanın gedişində həm mövcud, həm də sonrakı mərhələlərdə əsas fikri (tezis) qoruyub saxlayır. Bu fikir mətndə müstəqil bir cümlə şəklində, qısa və dürüst ifadə oluna bilər. Ola bilsin ki, bu işarə etmə, kinayə, söz atma formasında və yaxud artıq şərait, vəziyyətlə bağlı məlum məqaləyə əsaslanmaqla baş versin. Əsas odur ki, mövcud məqalədə fikir oxucu auditoriyası üçün aydın və başa düşülən olsun. Bu tələb, əhalinin maddi vəziyyətinin aşağı düşdüyü, qəzet və jurnalları almaq imkanlarının məhdud olduğ bir zamanda, xüsusəndə, indi daha aktual olaraq qalır.

Sonrakı tələb isə arqumentin (dəlil, sübut) çıxışın əsas tezisinin xeyrinə olmasıdır. Bu tapşırığı yerinə yetirmək, bir çox səbəblərə görə, polemikaçı üçün çətindir. Bunlardan biri və ən əsası, arqument, sübut və dəlil axtarmaqdır ki, bu da hər bir jurnalistə yaxşı bəllidir. Arqument, sübut, dəlil o vaxt bu cür çıxış edir ki, o mətndə jurnalistin fikrini təsdiq edir. Buna kimi onlar adətən jurnalist üçün fakt rolunu oynayır. Ciddi polemika, sözsüz ki, ciddi fakt tələb edir. Bu qəbildən olan faktları isə müasir zamanda səliqə və diqqətlə gizlədirlər və yaxud mətbuat üçün onlar əlçatmaz olur. Ciddi faktın, adi faktdan nə ilə fərqləndiyini oxuculara açıqlamağa lüzum yoxdur, çünki onlar bunun nə olduğunu çox yaxşı bilirlər. Bir var dəlil, sübut fikrin təsdiqlənməsində istifadə olunur, bir də var ki, dəlil və sübuta istinad edəsən, əsaslandırasan. Məsələn, Camaləddin həyatı bahasına boğulan uşağı xilas etdi.

Lakin arqument, inandırıcılıq, sübutluq adətən oxucu auditoriyasında ciddilik dərəcəsindən asılı olmayaraq fakt kimi qəbul olunur. Burda, çox əhəmiyyətli məqamlardan biri faktın hansı mənbədən törəməsidir. Polemikada əsas, sübut, dəlil özünü tez-tez göstərir:

a).Müəllifin şəxsi müşahidələrinin nəticəsində bu və yaxud başqa hadisə, vaqiə haqqında müzakirə;
b).İnformasiya üçün jurnalistin müraciət etdiyi başqa şəxs, şahid;
c).Müzakirə olunan məsələ ilə bağlı məlumatları özündə əks etdirən sənəd.

Təəssüf edici haldır ki, bir çox jurnalistlər arqument, sübut, dəlil kimi istifadə etdikləri faktın törəmə «incəlıklərinə» məhəl qoymur, onun orbitinə daxil olmurlar. Bütün bunlarla bahəm, əldə olunan elmi məlumatlara əsaslanaraq deyə bilərik ki, birinci pillə, auditoriyanın böyük əksəriyyəti üçün daha qüvvətli hesab olunan arqument, sübut, dəlil və yazılı sənədlərdir. Onun ardınca ikinci yeri şahid ifadələri (əsasən auditoriya üçün cəmiyyətdə avtoritet, nüfuzlu, hörmətli hesab olunan şəxs) tutur. Üçüncü planda isə, jurnalistin şəxsi müşahidələri dayanır. Əgər bu məqamlar qəzet səhifələrində mübahisə etmək istəyənlər tərəfindən də, nəzərə alınsa, onda onların auditoriyanın gözü qarşısında açmaq istədikləri həqiqət oxucu üçün bir qədər şübhəsiz və aydın görünər. (203)

Polemik məqalədə «faktın məzmunu» əhəmiyyətli rol oynayır. Bəs jurnalistin faktı, həqiqi fakt sayılırmı? Yoxsa bu məfhumun arxasında fikir, rəy, mülahizə, ehtimal, qiymət və s. dayanır? Hamıya yaxşı məlumdur ki, jurnalistikada fakt möhkəm və dəqiq bilik, həmçinin dünyada mövcud olan real hadisə deməkdir. Fakta münasibətdə qiymətləndirmə bizim üçün yaxşı və yaxud pis mənada onun mövcudluğunu təsdiqləyir. Obyektiv oxucular üçün ən böyük inandırıcı qüvvə faktdır. Buna görə mahir polemikaçı, şübhəsiz, çalışmalıdır ki, onun ifadə etdiyi

faktın məzmunu əsasən sənədlərə, hər şeydən öncə yenə də, sənədlərə əsaslansın və öz təsdiqini onlarda tapsın. Ancaq o da məlumdur ki, real, müasir jurnalistika təcrübəsində bu həmişə mümkün olmur.

Jurnalist adi (polemik olmayan), birdəfəlik çıxış hazırlayanda hansı tip arqumentdən istifadə edir sualına birmənalı cavab vermək olar. Lakin bu elə bir böyük əhəmiyyət kəsb etmir. Başlıcası odur ki, mətn maraqlı və inandırıcı olsun. Yox, əgər jurnalist hər hansı bir sualla bağlı mübahisəyə girişirsə mümkün və mütləqdir ki, o, seçdiyi arqumentləri diqqətlə, əsaslı, incəliyinə kimi dərk etsin və öyrənsin. Bu zaman mətnə elə arqumentlər tapılıb salınmalı və təqdim olunmalıdır ki, onların inandırıcı, həmçinin təsdiqləyici qüvvəsi opponentin sübut və dəlillərindən güclü və yaxud ötərli olsun. Amma təəssüflər olsun ki, yuxarıda qeyd etdiyimiz amillər bir çox polemikaçılar tərəfindən həmişə nəzərə alınmır, bu cür münasibət onların publisistik mübahisədə qalib gəlmək ehtimal və şansını kifayət qədər azaldır.

Polemikanın gedişində həqiqətin uğurlu axtarışı, onun gələcək əsas məqsədi, polemikanın iştirakçılarının həmrəy mexanizm qurmasından asılıdır. Ola bilsin ki, bu tələb real görünməsin və polemikanın ruhuna uyğun gəlməsin. Yalnız insanların bir-birini başa düşməyə meyl göstərməsi, diqqətdən qaçan «doğrunu» saxlamağa kömək edir. Təəssüf edici haldır ki, qəzet səhifələrinin «döyüş meydanlarında», hərdən elə polemikaçıları müşahidə etmək olur ki, səmimi olaraq (ürəkdən) inanırlar ki, «son məqamda» onlar həqiqətə malikdirlər. Əgər bu belədirsə, həqiqəti müəyyən etmək naminə, həmrəylik axtarmaq mübahisənin iştirakçılarını az maraqlandırır. Polemikaçı sadəcə olaraq hamıya «öz inanılmış» (241) nöqteyi-nəzərini zorla qəbul etdirmək istəyir. Burda aydın görünür ki, polemikaçı nə olursa olsun bütün gücünü öppönentin üzərində qələbə çalmağa sərf edir. Axı o, həqiqəti müdafiə edir! Lakin opponent, nə üçünsə bunu başa düşmək istəmir. Bu məqamda ona göstərmək lazım gəlir ki, onun özü, yəni opponent nəyi ifadə edir? Və

bunu ona göstərirlər də...

Yunan filosofı Qorqiy «Yelenaya mədh» nitqində belə bir fikri təsdiqləyərək demişdir: «Söz-böyük hakimiyyətdir, bədəncə kiçik və gözəgörünməzdir.» (14)

13.JURNALİST TƏHQİQATI

Jurnalist təhqiqatı-ən qaımaqallı hadisələr, kriminal xəbərlər, ən vacib məsələlər haqqında jurnalistin müvafiq xidmət orqanlarından və mütəxəssislərdən müxtəlif vasitələrlə ardıcıl topladığı fakt və proseslər barəsində yazılan hekayədir. (63)

Azərbaycan mətbuatında, ümumiyyətlə, jurnalistika elmində «jurnalist təhqiqatı» kifayət qədər az ömür yaşamasına baxmayaraq, həqiqətdə bu janr çoxları tərəfindən jurnalist tədqiqatı ilə səhv salınır və onun sinonimi kimi qəbul edilir. Bu planda jurnalist təhqiqatı, ictimai həyatın müxtəlif problemləri ilə bağlı olan analizi, hər şeydən öncə, analitik məqalə, oçerk, felyeton janr nəşrinə hazırlıq mərhələsi üçün materialların toplusunu özündə ifadə edir. (74) Yalnız XX əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq zəif addımlarla Azərbaycan jurnalistikasına daxil olan jurnalist təhqiqatı bu gün özünün formalaşma mərhələsini yaşayır. Baxmayaraq ki, jurnalist təhqiqatı Qərb jurnalistikasında çoxdan mövcuddur və jurnalist nəşrlərində müəyyən rol oynayır.

Müasir jurnalist təhqiqatını başqa jurnalist nəşrlərinin janrları ilə müqayisə edərkən, məsələn, məqalə, korrespondensiya, oçerk və s. və i. onda bu janrlarla qohumluq əlaqəsi yaradan cizgiləri görmək mümkündür. Birsözlə, doğma jurnalist təhqiqatını başqa janrlarla qarışıq salmaq qeyri məqbuldur. Jurnalist təhqiqatı xüsusi janr olaraq, təsir altında törəmə, keyfiyyət, məqsəd, informasiya alma metodu, xüsusən, alınan materialın ifadə olunması kimi özünəməxsus xüsusiyyətləri var.

Adətən jurnalist təhqiqatının predmeti daha çox «çığıran, çağıran» (205) neqativ hadisələr olur ki, onları da, görməmək

qeyri mümkündür. Əgər bu cür neqativ hadisələr-hansısa müəyyən olunmuş insan qrupu və yaxud onların səhvi, başısoyuqluğu və səhlənkarlığının hərəkəti olursa, onda bu insanlar bir qayda olaraq baş vermiş hadisənin mənbəyini, səbəbini gizlətmək üçün lazimi ölçü qəbul edirlər.

Hər şeydən əvvəl jurnalist təhqiqatının məqsədi və nəticəsi, baş vermiş hadisənin mənbəyini (kökünü), səbəbini müəyyən etmək, gizli qalan tərəflərini tapmaq, göstərmək və hadisənin mexanizmini hərəkətə gətirən konkret əməli üzə çıxarmaqdan ibarətdir. Jurnalist-təhqiqatçının verdiyi əsas sual: niyə?, bu janra aid olan və əhəmiyyətsiz olmayan daha bir sual: necə? olur. Bununla belə, adətən təhqiqatda, ikinci suala cavab ən az vaxt (təhqiqatın gedişində) və (nəşrin özündə) ən az yer aparır. (205)

Nə qədər ki, müxtəlif cinayət və vəziyyətlər də, sirli hərəkətlər diqqətlə, incəliklə gizlədilir, məlum məsələdir ki, bu təhqiqatın işini bir o qədər çətinləşdirir. Bunun üçün, jurnalist informasiya almaq məqsədi ilə, bir tərəfdən ona yaxın olan müstəntiq, cinayət axtarışı müfəttişi ilə, başqa bir tərəfdən-tədqiqatçı alimlə, əgər söhbət tarixi təhqiqatdan və yaxud ötüb keçmiş məşhur köhnə işdən gedirsə, əlaqə qurmaq metodundan istifadə edir. Hər şeydən öncə, bu yaxınlaşma hər xırda işə diqqət yetirmək, hadisələr arasında olan rabitəni son dərəcə dəqiqliklə öyrənmək, onları aydınlaşdırmaq, həmçinin baş verənləri göstərmək baxımından jurnalist üçün geniş imkanlar yaradır və onu doğru istiqamətə yönəldır. (63)

Belə bir izlə getmək bir çox hallarda oxucu, dinləyici və tamaşaçını öz arxasınca aparır. Bu hərəkət, qaranlıq labirintdə qarşılıqlı əlaqədə olan faktların yol göstərəni, həmçinin alınmış materialın düzgün ifadə olunmasında əsas vasitəçi olur. Bu isə hər bir jurnalist təhqiqatına detektiv çaların verilməsini qaçılmaz edir. Bədii-ədəbiyyatda olan detektivdə müstəntiq kələfin ucunu açdıqca faktın üz qatında yeni-yeni qəhrəmanlar peyda olur, ancaq jurnalist təhqiqatında bu tamamilə fərqlidir, beləki, burda jurnalistin ünsiyyət saxladığı insanlar, ona informasiya

verənlər çox tez-tez yada salınmır, əksinə, onların adı xatırlanmır. Məlum məsələlərə görə informasiya mənbəyinin gizli (konfidensiyal) saxlanılması daha çox halda qaçılmaz olur. Lakin başqa nəşrlərdə informasiya mənbəyinin gizli saxlanılmasına ehtiyac lazım gəlmir və adətən xüsusi məna kəsb etmir.

Bir çox jurnalist təhqiqtlarının labüd cizgilərindən biri də, müəllifin özünün bir çox hallarda həmin hadisələrdə iştirak etməsi və bunun haqqında mətbuat orqanlarında söhbət açmasıdır. Təhqiqatın gedişi haqqında ətfaflı danışmaq, bu yolda hansı maneələrin ortaya çıxması, prosesin hansı açıqlama, hərəkət, emosiyalarla müşayət olunması kimi vasitələri verməklə müəllif aşkar, inandırıcı, təsirli şərait yaradır. Bu da, mövcud janrı başqa yanrlardan fərqləndirir, məsələn, məqalədən. Bu yerdə deмək olar ki, jurnalist təhqiqatı öz xüsusiyyətlərinə görə hüquq-mühafizə orqanlarının apardığı təhqiqat formasına yaxınlaşır. Belə bir prosesi aparan jurnalist mütləq dəlil və sübutun qeydinə qalmalıdır, çünki o, öz çıxışını bu əsaslar üzərində qurur. Məlumdur ki, təhqiqatın predmetinə yaxın olan dairədən alınan etibarlı, həqiqi informasiya, dəlil və sübut daha qiymətli hesab olunur.

Başlanığıc informasiyanın bir hissəsini jurnalist açıq mənbə hesab olunan qəzet və jurnal səhifələrindən, tele-radio efirindən, kitabxana, kompüter və İnternet portallarından ala bilir. Bütün hallarda başlanığıc informasiya yararlı ola bilər, məsələn, ola bilsin ki, jurnalist sonrakı dəlil, sübut və sənədlərin yerini və onları harda axtarmağın daha sərfəli olmasını nişan versin. Əlbəttə, konkret məlumatın əsas həcmini, bilavasitə təhqiqatın predmeti ilə birbaşa bağlı və qüvvədə olan informasiya mənbəyi, həmçinin öyrənilən vəziyyətin daxil edilməsi çətin və böyük zəhmət sərf etmək nəticəsində mümkün olur.

Təhqiqatın gedişi zamanı jurnalist məlumat almaq üçün ən müxtəlif metodlara-müşahidə, müsahibə, sənədlərin analizi və s. və i. vasitələrə əl atır. Bunların arasında, ən məhsuldar olan metod jurnalistin öz «peşəsini dəyişməsidir.» (74) Müəllif müəyyən bir müddətə maqazində satıcı, bazarda yük daşıyan,

xəstəxanada santexnik, idarədə bağban və s. işləyə bilər. Şübhəsiz ki, ən ciddi, ən incə, ən diqqətlə gizlədilmiş məlumatı almaq üçün. Daha dəqiq dəlil və sübutlu materiallar isə yalnız hüquq-mühafizə orqanlarında ola bilər. Bu cür təhqiqat jurnalistdən həmin orqanlarla və yaxud onların işçiləri ilə sıx təmasda olmağı tələb edir. Bu əlaqənin rəsmi və yaxud şəxsi olması təhqiqatın mövcud vəziyyətindən asılıdır. Qaydalara əsasən polis və prokuratura alınmış məlumatların yayılmasında maraqlı deyil, çünki bu cinayətin açılmasına neqativ təsir göstərə bilər. Bundan başqa, əlavə səbəblərin də mövcudluğu mümkündür. Məsələn, hüquq-mühafizə orqanları istintaqın sonunda ala biləcəkləri «şöhrəti» jurnalistlərlə bölmək istəmir və yaxud məsul şəxslərin təhqiqatın nəticəsində maraqları olur. Bəzi hallarda isə hüquq-mühafizə orqanlarında korrupsiya hallarının olması burda öz neqativ rolunu oynayır.

Buna görə də, jurnalist ona lazım olan mütləq məlumatın çox hissəsini yalnız qeyri-rəsmi formada-öz tanışları, hüquq-mühafizə orqanlarında işləyən dostları, qohumları və başqa yollarla almalıdır. Bu isə təhqiqatın işini çətinləşdirə bilər, ona görə ki, jurnalistin açmaq istədiyi zəncirin həlqələri həmişə istənilən nəticəni vermir. Məhz, belə olduqda jurnalist mütləq və yalnız ona aydın olan, əsaslı dəlil, sübutlara söykənən, həmçinin aça biləcəyi sahə haqqında ətraflı və geniş informasiyaya malik olduqdan sonra gəldiyi nəticəni söyləyə bilər, əks təqdirdə, hazırladığı materialın daxilində nöqsan və ziyandan başqa bir şey olmayacaqdır. (205)

Təhqiqatı aparan jurnalistə lazımdır ki, özü üçün qanun-məsləhət qəbul etsin. «Heç bir oğurluq sənəd... İnformasiya üçün heç bir ödəniş... Hər hansı bir əraziyə icazəsiz daxil olmaq, təsadüf hallar istisna olunmaqla, bu halda jurnalist məhkəmə qarşısında dayanmağa hazır olmalıdır. Ən əsası isə heç bir şəraitdə ... informasiya mənbəyini açıqlamamalıdır.» (63)

Axırıncı vəziyyət tələb edir ki, jurnalist onun tərəfindən alınan bütün sənədləri (məktub, maqnitofon yazısı, fotoqrafiya və s.) çox möhkəm və inanılmış yerdə qorusun. Onlar heç bir hal-

da hakimiyyət dairələrinə təqdim oluna bilməz, istisna olaraq, sənədi jurnalistə verən şəxsin icazəsi olarsa.

Jurnalist təhqiqatı göstərmək istədik də, mütləq yadda saxlamalıdır ki, «əhatə olunmayanı əhatə etmək» (63) olmaz. Əhatə olunmayan-bu həmin «çığıran» faktdır ki, ictimai həyatda, təəssüflər olsun ki, həddən çoxdur.

Əgər jurnalist öz təhqiqatının pedmeti qismində yalnız onların ən fəal olmayanını bacarıb müəyyən edə, öz qüvvəsini real qiymətləndirə, imkanlarını düzgün seçə bilsə, ideyalarını uğurla həyata keçirməkdə şansı bir o qədər böyük olar, bu isə doğru haldır. Jurnalistin öz imkanlarını həddən artıq qiymətləndirməsi, jalnız tapşırığın yerinə yetiriməməsinə deyil, həm də, onu bir peşəkar kimi hörmətdən, nüfuzdan sala bilər və apardığı təhqiqat işinin ədalətli bərqərar olmasına zərər vurar.

Hər hansı bir cinayətkarın «fəaliyyəti» ilə maraqlanan jurnalist, onun təhqiqatını apardığı zaman kifayət qədər çoxlu açıq neqativ faktlarla üzləşəcəkdir. Ola bilsin ki, təhqiqatın əsasını təşkil edən bu faktlar ən müxtəlif planlı olsun və təhqiqatçını müəyyən qədər əsas yoldan kənara çəksin. (74) Təhqiqatçının təcrübəli və bilikli olması, bu məqamda öz sözünü deyir və jurnalistin köməyinə çatır.

Hökumət məmurunun korrupsiya ilə əlaqəsini yoxlayan jurnalist təhqiqat zamanı öyrənə bilər ki, həmin məmur mənəvi pozğunluq və əyaşlıqla məşğul olur, həyat yoldaşını və uşaqlarını döyür və yaxud narkotik maddələrdən istifadə edirmi? Müəllif auditoriyaya mütləq əsas məsələ-məmurun korrupsiya əlaqələri haqqında danışmalı, köməkçi məlumatları kənara qoymalıdır. Məhz onlar-onun çıxışının əsas predmeti olmaqla bərabər, həmçinin mütləq hərtərəfli baxılmalı, müzakirə olunmalı və sübut edilməlidir. O ki, qaldı başqa xoşagəlməyən, çirkin faktlara, onlar jurnalistin tamamilə başqa, yeni bir çıxışının mövzusu ola bilər.

Jurnalist-təhqiqatçı bilməlidir ki, onun öz mövzusunda söhbət açdığı şəxs mümkün olan bütün vasitələrlə, həmçinin məhkəmənin köməyi ilə müdafiə olunmağa çalışacaq, odur ki,

bu prosesə o, həmişə hazır olmalıdır. Buna görə də, təhqiqatın müəllifi çalışmalıdır ki, onun ehtiyatında dərc olunmuş faktlardan əlavə, onun doğruluğunu təsdiqləyən başqa əsaslar-sənədlər, sübut, dəlil və s. olsun. (162)

Bu janrın həcmi 200 sətr, bəzi hallarda isə bundan da, artıq ola bilər.

Ramilə Həsənli.
Taun yaxınlıqdadır (Rus dilindən tərcümə).

Rusiyanın «Sobesednik» qəzeti özünün 1999-cu il tarixli 9-cu sayında, Rostov vilayətinin Obliviska stanitsasında (kazak kəndi) epidemiyanın bir çox qeyri-adi əlamətləri haqqında yazmışdır. Epidemiyanın bir sıra nişanələri, insanların təbiət kataklizminin (təbiətdə və cəmiyyətdə baş verən kəskin dəyişmə) qurbanlarına çevrilə biləcəyi haqqında adamı düşünməyə məcbur edir, sözsüz ki, burda insan əlinində-bioloji silahın olması da, istisna edilmir. Əgər, rəsmi məlumatlara inamış olsaq, bu cür «oyuncağın» ölkədaxilində olması və hətta ola biləcəyi qeyri-mümkün hesab olunur. Tanınmış ekoloq, doktor Lev Fyodrov hesab edir ki, bizim hərbiçilər (Rusiya nəzərdə tutulur:-R. H.) bioloji silahın hazırlanması və təkmilləşdirilməsi prosesini heç vaxt dayandırmayıblar.

Bioloji müharibəni biz artıq aparırıq.

Bax bu, çox təəccüblüdür!

-Mən demirəm ki, onlar bununla məşğul olmayıblar,-bizi işin gedişi ilə Fyodrov tanış edir. -Bax onlar bioloji silahı eksperimentləşdirə-eksperimentləşdirə hərbi arsenala qəbul etmədilər, 1969-cu il hadisələrindən sonra isə onların işi tamamilə dayandırıldı. Onda tətqiqat mərkəzlərindən birində virus axını baş verdi və qoyun sürüsü məhv oldu. Böyük qalmaqal yaşandı və proqramı yığışdırdılar. Doğrusu amerikalılar, nəinki bioloji döyüş sursatı yaratmadılar, onu konveyr üsulu ilə istehsal etmədilər, hətta anbarlaşdırmadılar. Amma biz burda bütün pla-

netin önündə, irəli getdik: döyüş sursatı istehsal xətti qurduq və anbarlaşdırma ilə məşğul olduq. Qısa formada demiş olsaq, sadəcə olaraq biz böyük miqyaslı bioloji müharibəyə hazırlaşdıq və dünyada onu aparmağa hazır idik. Hətta apardıq da ... Bu cür işlər 1926-cı ildən gec olmayaraq başlamışdır, onda Qırmızı Ordunun Hərbi-Kimyəvi İdarəsi daxilində birinci xüsusi laboratoriya əmələ gəldi. 1936-ci ildə, yeni silahın tətbiq olunması ilə bağlı taktiki-metodik birinci qoşun təlim-məşqi keçirildi. Həmin zamndan etibarən, bizim ordunun silahlanması üçün ilk nümunələr-taun xəstəliyini oyadan, sibir xorası və tulyameriyanı yayan viruslu silahlar qəbul olundu. Bax, elə axırıncını da, 1942-ci ildə, Rostov çöllərində yerləşən Paulyusun ordu qruppasına qarşı döyüşlərdə istifadə olunmuşdur. Taun xəstəliyini və sibir xorasını yayan viruslu silahı buraxmağa cəsarət etməmişlər-bu əsil ağılsızlıq olardı və çox böyük ərazini əhatə edərdi, həmçini cəbhənin hər iki tərəfini cənginə alardı. Onlar sadəcə olaraq düşmənin canlı qüvvəsinin təxminən 10%-dən artığını məhv etmək gücünə malik olan tulyameriya epidemiyasını yaymaqla kifayətlənmişlər. Virusun daşıyıcıları qismində gəmiricilərdən istifadə olunmuşdur.

İlk növbədə alınan uğur, son dərəcə heyrətləndirici və sarsıdıcı olmuşdur: Paulyusun əsgərləri Volqaya çatmadan dəstə-dəstə, yığın-yığın sıradan çıxırdı, odur ki, gələcəyin feldmarşalı özünün Stalinqrada olan sürətli sıçrayışına fasilə verməli oldu. Bizimkilər bundan layiqincə yararlana bilmədilər: xəstəlik cəbhə xətti boyunca əks tərəfə keçdi, artıq sovet əsgərləri lazareti (hərbi xəstəxana) doldururdu.

Yeri gəlmişkən, qeyd edək ki, artıq XX əsrin 70-ci illərində sovet alimləri gen mühəndisliyinin köməyi ilə müəyyən qaydada tulyameriya bakteriyasını «tərbiyə etmək» bacarığına nail oldular: ölümün səviyyəsi onda 100%-ə çatmışdır, yeni üsul üstəlik məşhur antibiotiklərə də qarşı dayanırdı ...

İkinci dünya müharibəsinə kimi SSRİ-də hərbi-bioloji hazırlanma mərkəzi yalnız Kirovda (Rusiya) yerləşirdi, lakin 1946-cı ildə Sverdlovske (Rusiya, indiki Yekatrinburq:-R. H.) şəhərində

növbəti mərkəz inşa olunur: nəhəng yeraltı dəhlizdə yerləşən bioistehsal döyüş sursatı təchizatı ilə məşğul olan sex və xəttlər açılır. İndi acınacaqlı hala düşmüş bu istehsal sahəsi 19-cu hərbi şəhərcik kimi, heç kəsə lazımsız yer kimi qalıbdır. Daha bir mərkəz Zaqorsk (Rusiya) şəhərində təşkil olunmuşdur: həmin mərkəz virusologiya və zəhərli maddəli silahlar üzrə ixtisaslaşdırılmışdır. Lev Fyodorov hesab edir ki, bizim bütün hərbidə istifadə olunan hemmoroy-qızdırma titrətməsi və həyacan bioloji silahı məhz bu inistitutun işinin nəticəsidir.

Əsas hadisələr 1972-ci ildə cərəyan etməyə başlayır. Bu zaman SSRİ bioloji silahların işlənməsi, sınağı və istehsalını qadağan edən konvensiyaya qoşulur. Eyni zamanda süni gen yaradılır. Onda bizim poqonlu bioloqlar Sov. İKP MK-ə müraciət ünvanlayırlar. Müraciətin məğzi: əgər genetikanı hərbi mikrobiologiyaya tətbiq etsək, onda bizim düşmənlərimizin ağlına gəlməyən güclü silah almış olarıq.

Görünür zülal düşmənin beyninə təsir etmişdir.

Bununla bahəm həmin zaman Leninqradda zülal və peptonlarla məşğul olunurdu: belə hesab edilirdi ki, onların köməyi ilə insanların psixikasını idarə etmək mümkün olar. Sözün həqiqi mənasında bu tədqiqatın əsas məqsədi idi: hər hansı bakteriya üçün-sibir xorası və yaxud taun həyat fəaliyyəti prosesində zülal ifraz edər ki, o da öz növbəsində düşmən əsgərinin beyninə təsir göstərər. Bu zaman elə bil ki, ikiqat zərbə alınır: nəticədə insan immunitetinə təsir göstərən botulizm zəhəri və yaxud kobra zəhəri, yaxud başqa zəhər ifraz olunur, bunlar sənin düşməni öldürücü bakteriya ilə təchiz etməyindən sonra baş verir.

Həmin zaman bioloji silah istehsal edən zavodlarla ciddi məşğul olmağa başladılar. Birinci Kirov vilayətində, Omutninski şəhərində, silah-surcat zavodu tikdilər. Yeri gəlmişkən, bakteriya üzərində çox maraqlı bir iş aparıldı, bu bakteriya insanları sıradan çıxartmırdı, lakin acgözcəsinə düşmənin texnikasını və yaxud yanacağını «yeyirdi». Belə bir mikrobu buraxırsan və o insandan başqa hər şeyi, əsasəndə, dəmiri və yanacağı yeməyə başlayır. Məsələn, izolyasiyanı yeyib dağıdır və nəticədə qısa qa-

panma baş verir və düşmənin bütün aparaturası sıradan çıxır.

1989-cu ildən məxfi örtük səpmə işi başlayır: Leninqrad İnstitunun direktoru Paseçnik İngiltərəyə qaçır. Onda Tetçer və Koll Qorbaçova sərt başağrısı yaratdılar. O, məcburiyyət qarşısında təftiş olunmaya razılıq verir. Nəticədə, bizim davakarlar bir balaca sakitləşdilər. Elə ki, SSRİ iflasa uğrayır hərbi-bioloji sistemin iyerarxiyasında ikinci şəxs olan Alibek Alibekov ABŞ-a qaçır. Burda Yeltsen cəngələ düşür və 1992-ci ilin aprelində fərman verir: «başa düşürsən, hucum xarakterli bioloji silah üzrə iş dayandırılsın.» Bununla da, biz faktiki olaraq bioloji hucum müharibəsinə hazırlaşmağımızı etiraf etdik. Lakin iş dayandırılmadı ...

Yolxucu xəstəlik mikroblarını nəşdən əldə edirdilər.

Maraqlıdı ki, bizim mülki geyimdə olan bioloqlarımız hansı yollasa ekzotik xarici xəstəliklərin virusu ilə təchiz olunurdular? Lev Fyodorov inanır ki, bunun üçün bizim kəşfiyyatçılara son dərəcə təşəkkür etmək lazımdı. Deyək ki, 70-ci illərdə (XX əsr) görünməz cəbhənin döyüşçüləri Hindistanda xalis, təbii çiçək epidemiyası əldə etmişlər.

Amma bu gün ən ciddi silah babasil qızdırması əsasında hazırlanır: ebola, marburqa, passa, boliviya və s. Problem ondadır ki, onların hamısı yadellidir. Bizim özümüzdə konqo-krım var idi, ancaq nədənsə bizim hərbiçiləri əcnəbi hərbi keyfiyyətlər cəlb edirdi. Məhz, buna görə də, kəşfiyyat orqanları onları əldə etmək tapşırığı alırlar. Əmr verilir və yerinə yetirilir. Boliviya titrətmə qızdırması məxfi yolla ABŞ-dan gətirilir. Marburqa titrətmə qızdırmasını AFR-dən «əldə edirlər»: alman alimləri bu virusu Cənubi Afrikda aşkar edirlər və ona qarşı vaksin üzərində böyük zəhmət sərf edirlər. Lakin facia baş verir: yoluxma nəticəsində prosesin bir neçə iştirakçısı vəfat edir. Bizim kəşfiyyatçılar gizli olaraq yoluxma nəticəsində ölən almanların məzarını açırlar və nəşdən nümunələr götürüb SSRİ-yə gətirirlər. Lakin çox mühüm virusun üzərində daha iyirmi il tərləməli olurlar. Burda da, facia işin gedişinə kömək edir: 1988-ci ilin aprelində bu problemin üzərində işləyən mikrobioloq Ustinov ölür. Artıq

onun ölmüş bədənindən ürək bulandıran virus götürülür və E adı altında kodlaşdırılaraq 1990-cı ildə Sovet Ordusunun silah arsenalına daxil edilir...

Rostov vilayətində baş verən hadisə, bizim mülki geyimli bioloqlarımıza dəlil-sübutlu belə bir sualı verməyə imkan yaradır. Nə üçün onlar bu qədər vaxt ərzində titrətmə qızdırması üçün vaksin hazırlamayıblar? Prinsip etibarı ilə, bizim bədbəxtçiliyimiz yalnız onda deyil ki, hansısa əcnəbilərin gözündə pis görünürük. Bu birinci dəfə deyil ki, biz bunu yaşayırıq! Amma yaşayacağıqmı, əgər əlimizlə hazırladığımız epidemiya sınaq şüşəsindən çıxıb özünü yaradanları məhv etsə?

Bu məqalənin nəşri üçün səbəb Rusiyanın Rostov vilayətində baş verən müəmmalı epidemiyanın gözlənilmədən əhali yaşayan ərazini cənginə alması olmuşdur. Lakin çıxışın predmetı tamamilə başqa problemdir. Əsasən-bu bioloji silahın hazırlanması üçün aparılmış proses, bəlkə indi də, Rusiyada aparılan elmi-tədqiqat işləri haqqında məxfi məlumatdır. Göründüyü kimi predmet çox zəruri və vacib bir məsələdir. Həmçinin bu cür işlər əsaslı surətdə bütün ölkələrdə gizlədilir. Əldə olan belə predmetin tərkibində jurnalist təhqiqatının nişanələri açıq-aydın görünür.

Bu və yaxud buna oxşar predmet haqqında hər hansı informasiyanı almaq üçün çox böyük qüvvə, vasitə və metod lazımdır. Həqiqətdə jurnalist bunlara malik deyil. Beləki, bir çox xarici kəşfiyyat orqanlarının əldə edə bilmədiyi bu cür informasiyanı müəllif yəqin ki, müstəqil surətdə əldə edə bilməz. Belə informasiyanı harda və necə almaq haqqında jurnalist mövzuda məlumat vermir. Oxucu yalnız bir informasiya mənbəyi tanıyir- Lev Fyodorov, halbu ki, onun iş yeri, vəzifəsi və hətta mövcudluğu barədə heç bir xəbər verilmir. Bu cür «məxfilik» mövzunun xüsusi xarakterə malik olmasına işarə verir və onun jurnalist təhqiqatına aid olduğunu təsdiqləyir.

Bu mövzu artıq başqa mətbuat orqanlarında dərc olunubdur. Paseçnik və Alibekovun xəyanəti məlum olduqdan sonra

«Taun yaxınlıqdadır» öz məxfiliyini real formada itirmiş olur. «Qanun plyus» qəzeti «Sobesednik» qəzetində nəşr olunan bu məqaləni dərc etməklə öz oxucularını məlumatlandırmaq məqsədi daşıyır və bu mövzunu gündəmə gətirməklə vətəndaşları diqqətli, həmçinin ehtiyatlı olmağa səsləyir. Misal gətirdiyimiz bu mövzu danılmaz jurnalist təhqiqatı olmaqla bərabər, həm də maraqlı, həmçinin bu gün üçün çox aktual olan bir mövzudur. Bunun üzərində düşünməyə dəyər ...

14.İCMAL

Bu janr jurnalistlər tərəfindən ixtira və yaxud icad olunmaylbdır. İcmal dövri mətbuatın yaranmasından çox xeyli əvvəl meydana gəlmiş janr hesab olunur. Gerçəkıiyi, həqiqəti təsvir edən icmalın formasına, metoduna və üslubuna oxşar və məxsus olan nümunələrə biz hələ, «Plutarxın mətnlərində (I-II əsr), daha sonra çinli Van-An-Xinin (XI əsr) didaktik (nəsihətedici) icmallarında, həmçinin Montenyenin «Təcrübələrində» (XVI əsr) və Luis Sebastyan Mersenin «Parisin icmalı» kitabının «Fəsillər»ində rast gəlirik. (166) Məhz, sonuncunu jurnalist icmalının banisi hesab edirlər, beləki, özünün on iki cildlik nəşrinin bir neçə ilk «Fəsillər»ini Luis Sebastyan Mersen əvvəlcə dövri mətbuatda dərc etdirmişdir.

Tam məsuliyyətlə demək olar ki, icmal jurnalistlər tərəfindən hər gün gərgin və qızğın istifadə olunan icmal janrına aid edilə bilməz. Lakin o başqa janrlar kimi analitik jurnalistika üçün çox vacibdir. (162) İcmal bir çox qəzet və jurnallarda dərc olunur. Azərbaycan radio və televiziyalarının əsas proqramları müvafiq rubrika və sərlövhələrlə daima öz auditoriyasını məlumatlandırır, onlara bir-birindən maraqlı verlişlər bəxş edirlər. Təəssüflə qeyd etmək olar ki, bunu dövri mətbuata şamil etmək olmaz. İcmal janrina dövri mətbuatda çox az rast gəlmək olur ki, onlar da, bəzən janrin tələblərinə cavab vermir.

İcmal jurnalistikanın janrları içərisində başqalarından

fərqlənən və daha az istifadə olunan növdür. Bir qayda olaraq müəyyən zaman daxilində baş vermiş ictimai-siyasi və mədəni hadisələr-idman yarışları, siyasi toplantılar, seçkiqabağı kampaniyalar və s. haqqında informasiyalar icmallarda ümumiləşdirilir, onların inkişaf mərhələsi verilir. Bəzən bunu hesabat janrına aid edirlər. İcmal mövzusuna, əhatə dairəsinə, faktların sayına və bir çox başqa atributlarına rəğmən böyük və yaxud yığcam ola bilər. Qeyd etmək lazımdır ki, icmalı hər bir jurnalist ərsəyə gətirə bilmir. Çünki icmal göründüyü qədər asan, o cümlədən də, bir o qədər çətin publisistik janrdı. Azərbaycan publisistikasında ilk dəfə olaraq onun nümunəsini tənqidçi-alim Firidun bəy Köçərli yaratmışdır. Görkəmli ədib 1903-cü ildə «Şərqi-Rus» qəzetinin 17-18-ci saylarında «Allah bəndəsi» imzası ilə Azərbaycan qəzetlərinin ötəri icmalını vermişdir. Amma publisist alimin Azərbaycan jurnalistikasının otuz illik dövrünü əhatə edən «Azərbaycan dövri mətbuatının qısa icmalı» məqaləsi daha samballı nümunə sayıla bilər. Məqalədə ədib milli dövri mətbuatın «Əkinçi», «Ziyayi-Qafqaziyyə», «Kəşkül», «Şərqi-Rus» və birinci rus inqilabından sonrakı mərhələlərini aşkarlayır, onların ideya istiqaməti, naşir, mühərrir və müəllif heyəti haqqında bilgi verməyə nail olur. Beləliklə, bir qəzet məqaləsində dövri mətbuatın otuz illik inkişafının mürəkkəb mənzərəsini yaradır. Həmin məqalənin sonunda ədib yazırdı: «Əgər bu qəzet də, (ədib «İrşad» qəzetini nəzərdə tutur:-*V.P.*) işin əvvəlində öz fəaliyyətini dayandırmağa məcbur olsa və qol-atmadan solub məhv olsa, onda çətin ki, bundan sonra bir kimsə Azərbaycan dilində qəzet nəşr etməyə cəsarət edə...Simaları hələ tam müəyyənləşməmiş gənc Azərbaycan jurnalları-«Dəbistan», «Rəhbər» və «Füyuzat» haqqında rəyi xüsusi məqaləmizdə verəcəyik.» (191) İcmalın həcmi 100-250 sətr arasında müəyyənləşir.

İctimai-hadisənin vahid formada, əyani işiqlandırılması və icmalçının proses və vəziyyətin dərinliyinə nüfuz edən fikri və rəyidir. İcmal janrını müəyyən edən əsas nişanələr, sözsüz ki, bunlar hesab oluna bilər. Hansı xüsusiyyətlərinə görə icmal jur-

nalistikanın başqa janrlarından fərqlənir və onun özünəməxsusluğu nədədir? Bu icmalın gedişində, funksiya və predmetin təsvir olunmasında açıq-aydın müəyyən olunur. Təhlil, görünənləri müşahidə etmək və ətraflı düşünmək (bu heç də, həzz almaq, tamaşa etmək deyil) icmalın başlıca vasitəsi deməkdir. İcmalda jurnalistin mövqeyi aydın görünür. İcmalçı borcludur:

1.Auditoriyada maraq oyatmaq, ona cəmiyyətdə baş verən proses, hadisə, vəziyyət haqqında danışmaq;

2.Əsas nöqteyi-nəzəri müdafi etmək və ***onu vətəndaşların «şəxsi strategiyasının» təkminləşdirilməsinə kömək etməyə yönəltmək;***

3.Vəziyyət, proses, hadisənin məğzini tutmaq və ondakı zidiyyətləri göstərmək;

4.Ümumi tərəqqinin gedişində, əsas məqsədin bağlılığını aydınlaşdırmaqla proses, vəziyyət və hadisənin inkişaf xəttini müəyyən etmək;

5.İctimai problemin praktiki həllinə kömək etmək.

Janrın bu funksiyaları icmalın mövzusunun əsas cizgilərini təsvir, həmçinin müəyyən etməkdə yardımçı olur. Onun məğzini siyasi, iqtisadi, sosial yönümlü hadisə və onların inkişaf tendensiyası, o cümlədən, həyat tərzi, insanlararası münasibət və bir çox başqa suallar təşkil edir. İcmalın mövzusu fəlsəfə, tarix, ədəbiyyat tərəfindən əxz edilmiş ideyalar ola bilər. Zaman və məkan və yaxud müşahidə etdiyimiz hadisənin tematik (mövzu) bağlılığını icmalın predmeti üçün material saymaq olar. İcmalın işıq üzü görməsində, ciddi dövri məqamların (gündəlik, həftəlik, aylıq) olması, heç də təsadüfi deyil. Onlar həyatın müəyyən olunmuş bir dövrünü və yaxud cəmiyyətin başqa fəaliyyət sahəsinin yekununu özündə cəmləşdirir. Məhz, göstərilən əsas əlamətlər və bağlılıq imkan verir ki, icmalı jurnalistikanın başqa janrlarından, məsələn, məqalədən fərqləndirmək olsun.

«Kommentariyanın mövzusunun predmetini təşkil edən müxtəlif vaqiə və hadisədən fərqli olaraq, icmal üçün vaqiə və

hadisə ona görə əhəmiyyətli hesab olunur ki, müasir sosial münasibətlər üçün heç şeydən asılı olmayan qarşılıqlı əlaqə onlar (proses, hadisə, vəziyyət) üçün öz-özlüyündə nə qədər qiymətli və simptomatikdir; onlar konkret müəllif ideyasının cəmiyyət üçün nə qədər məna kəsb etdiyini nümunələr şəklində təsvir və izah edir.» (202)

İcmalın əsas metodu, cəmiyyətdə baş verən prosesi, əmələ gəlmiş problemləri, toplanmış vəziyyətdə «zaman və məkan» fəlsəfi kontekstində dərindən müzakirə etmək və auditoriyaya bu faktların yekun nəticəsi haqqında məlumat verməkdən ibarətdir. Hadisənin icmalını verərkən, müəllif onun xarici və daxili mahiyyətinin xüsusiyyətləri haqqında auditoriyaya mütləq ideya verir.

İdeyanın özünü qabaqlayan düşünülmüş dəlil və sübut və yaxud arqument öz təsirli təfərrüatları ilə dayaq nöqtəsi funksiyasını yerinə yetirir. Məntiqi dəlil-sübutun fəal istifadə olunduğu məqalədən fərqli olaraq, icmalda hər şeydən öncə təsirli nümunələr, mətnə konkret əyanilik verən təfsilatlar işlədilir.

Bu, ilk əvvəl o zaman baş verir ki, icmalçı öz nəzər-diqqətini ümümi qiymət kəsb edən problemlərin üzərində cəmləsdirmək istəyir. Auditoriyanın diqqətini cəlb etmək üçün jurnalist tamamilə konkret faktlara əsaslanır, əyani vasitələrdən istifadə edir, təfərrüatlar üzərində bir xeyli dayanır və sonra onlardan tez ayrılaraq fikirlərini ümumiləşdirməyə tələsir. Buna görə də, icmalçı xüsusi istedada, geniş məlumata, incə zövqə, yüksək müşahidə qabiliyyətinə, həmçinin hədəfi böyütmək və yaxud kiçiltmək mənasında həyatın mikrosurətini vermək istedadına, birsözlə, «optik şüşəyə» malik olmalıdır. (241)

Tez-tez hallarda icmalçı müxtəlif misalları umumi fikir altında birləşdirməyə çalışır, bu isə icmalın sərlövhəsinin formalaşmasında özünü göstərir. Məsələn, onlar belə səslənə bilər: «Böyük şəhərdə nə baş verir?», «Şəkiyə bir səyahət?», «Nə sevindirir?», «Düzgünlük, həyatın mənasıdırmı?», «Sevgi izah olunmalıdırmı?», «Dağılma və saxlama haqqında nə demək olar?», «Axtaranlara inam varmı?», «Bu dünyanın insanları

kimdir?» və s.

Beləki, icmal müəyyən olunmuş dövriliklə nəşr olunur, sözsüz ki, bu da özünü onun seçimində, xüsusiyyətində, dərin analiz olunmasında göstərir. İcmal nə qədər böyük fasilə (gec, aramla) ilə nəşr olunsa, onun müəllifinin bir o qədər auditoriya üçün informasiya axınında maraqlı fakt tapmaq, onu analiz etmək və ümumiləşdirmək imkanı yaranır. Bununla bahəm, icmal nə qədər gec nəşr olunsa, onların arasında fasilə nə qədər böyük olsa, auditoriya artıq icmalçının verə biləcəyi hadisə haqqında Kütləvi İnformasiya Vasitələrindən (reportaj, korrespondensiya, hesabat və s.) kifayət qədər məlumat almış olacaqdı. Bu ehtimalla demək olar ki, kifayət qədər vaxtı olan icmalçı bu müddət ərzində baş verən hadisələri dərindən fikirləşmək, analiz etmək və maraq doğuran faktları üzə çıxarmaq, sonra onları rabitələndirmək və ümumiləşdirmək yolu ilə auditoriya üçün məlum olmayan, onun diqqətini cəlb edən icmal hazırlaya bilər.

Ümumiyyətlə, icmalçı olmaq mümkün deyil. Çünki hədsiz-hüdudsuz olanı dərk etmək olmaz. Bu janrda «işləyən» hər kəsin mütləq öz «icmal çarxı» olmalıdır ki, onda öz yaradıcılıq taxçasını görsün. Əks təqdirdə, jurnalist əvəzedilməz olmağa borcludur və yaxud demək olar ki, əvəzolunmaz bilicidir. Nə qədər ki, icmalın sahəsi dardı, bir o qədər dərin material hazırlamaq mümkündür. İcmalın nəşrini oxucu auditoriyası zamanında necə gözləyirdisə, bugün də, axırıncı yenilik kimi onu gözləyir. Çünki həmin zamanda, həm dövri mətbuat, ümumiyyətlə, informasiya almaq imkanları məhdud, həm də oxumağı bacaran az idi. Çağdaş zamanədə isə həyat sürətlənir, hadisələr fasiləsiz öz axarı ilə gedir. Yeniliklər törəməyə başlayan kimi də, həmin sürətlə köhnəlir. Bu gün ki, icmalçı adətən ən son hadisələri müzakirə etməyə macal tapır. Sözsüz ki, bu məqamda icmalçı yalnız bəzi hadisələri dərin analiz etmək bacarığına malikdir. Yerdə qalan əksər hadisələrə jurnalistin nə istedadı, nə də ki, vaxtı imkan vermir. Bu, jurnalist-analitiki dərin ixtisaslaşmaya təhrik edən səbəblərdən biridir. Hərdən icmalçı-jurnalis-

tin adını bilmək kifayətdir ki, onun nədən yazdığını anlayasan.

Dünyada baş verən çoxsaylı hadisələr həmişə insanı düşündürür. Bütün bunlar icmalın mövzusu üçün nə qədər əhəmiyyətlidir?» sualı öz aktuallığını qoruyub saxlayır. Bununla belə, real çətinlik başqa məsələdə-ictimaiyyəti maraqlandıran, düşündürən ən əhəmiyyətli mövzunu tapıb seçməkdədir. Yalnız baş vermiş hadisədə icmal üçün nəyin qiymətli olduğunu, simptomluğunu (əlamətini) və yaxud işarəsini (siqnalını) bildikdən sonra icmalı uğurla yerinə yetirmək olar. Simptom, işarə-həmişə gözdən qaçmış, fikirdən yayınmış hansısa bir əlamətin yerini nişan verməklə yeni ideyanın əmələ gəlməsinə təkan verir ki, bunun özü də qanunauyğunluq hesab oluna bilər. Hadisədə nəzərə çarpan nişan, verilən əlamət, işarə, siqnal həm effektli, həm də aydın olur ki, nəticədə yeni fikrin, yeni ideyanın törəməsinə səbəb olur. Ola bilsin ki, nəzərdən yayınan simtom və işarələr təcrübəsiz baxış üçün heç bir əhəmiyyət kəsb etməsin. Təcrübəli icmalçı hörümçək toru kimi axan faktların içərisində içmal üçün yararlı olan məqamı mütləq görməli, onun qızıl tozu kimi qiymətli olan simptomik faktlarından maksimum yararlanmalıdır. İcmalçının baxışı, sosial mövqeyə yanaşma nöqteyi-nəzəri şiddətlənməli, daima hadisə və faktları öz baxış dairəsində saxlamalıdır. O ki, qaldı icmalçı haqqında fikir bildirməyə, kimin doğru və yaxud kimin səhv mövqe tutduğunu söyləməyə, onu müəyyən bucaq altından qiymətləndirməyə, məncə ehtiyac yoxdur, çünki burda hər iki fikir səhvdir. Beləki, hər bir kəs, o cümlədən jurnalist-icmalçı konkret hadisə haqqında şəxsi münasibətini açıqlaya bilər. Bu cür fikri, marağında olan hansısa bir siyasi partiya və yaxud bir qrup söyləyə bilər. Burda ən vacib və əhəmiyyətlisi odur ki, jurnalist-icmalçının mövqeyi, fikri oxucu auditoriyası üçün açıq və aydın, üslubu rahat olsun. İcmalda jurnalistin mövqeyi və fikri onun «simasıdır.» (202)

Firidun bəy Köçərli.
Azərbaycan dövri mətbuatının qısa icmalı.

Otuz il bundan əvvəl Bakıda türk dilinin Azərbaycan ləhcəsində nəşr olunmağa başlayan «Əkinçi» (1875-1877) birinci müsəlman qəzeti idi. Bu qəzetin banisi keçmiş müsəlman pedaqoqu və hazırda məşhur ictimai xadim olan Həsənbəy Məlikov idi. Qayğısız və heç bir şeyin fikrini çəkməyən, «xoş keçmişin» ənənələri əsasında tərbiyə alan, hər cür yeniliyə qarşı fanatik münasibət bəsləyən Zaqafqaziyada yaşayan azərbaycanlıların o zamankı geri vəziyyətini nəzərə alaraq, əlbəttə, «Əkinçi» qəzetinin böyük müvəffəqiyyət qazanacağını gözləmək olmazdı. Həqiqətən, qəzet ilk nömrələrindən soyuq və qeyri-səmimi qarşılandı. Cəmiyyətin bəzi təbəqələri isə qəzetə güclü düşmən müqaviməti göstərdi. Redaktorun işgüzar və məzmunlu məqalələri, istedadlı şair Hacı Seyid Əzim Şirvaninin müsəlmanları fəal və mənalı həyata səsləyən gözəl şeirləri ucsuz-bucaqsız səhrada yüksələn fəryadı xatırladırdı, cavabsız qalan bir çağırış idi. Bundan əlavə, cənab Məlikov ehtiyatsızlıq edərək öz qəzetində vaxtsız olaraq dini şəbehlər (şaxsey-vaxsey) məsələsinə toxundu və bununla da şiəlik tərəfdarlarının qızğın hiddətinə səbəb oldu. Hər tərəfdən redaktorun üstünə məzəmmət və biabırçı həcvlər yazılmağa başladı. Şuşa şairləri həcvlər yazan başqa şairləri bu cəhətdən xeyli geridə qoydular. Hadiyul-Müzəllin (Epiqonçu mürtəce Qarabağ şairərindən biridi.) adlı birisi Qarabağdan redaksiyaya redaktorun adına biabırçı söyüşlər göndərdi. Cənab Məlikov bu həcvi «Əkinçi»də (Əslində bu qəzetin adı «Ziyayi-Qafqaziyyə»di:-V. P.) dərc etdirərək ona diqqəti cəlb edən aşağıdakı qeydi verir: «Cənab Hadiyül-Müzəllin Qarabağinin aşağıda zikr olunan həcvini onların xahişinə müvafiq tamam çap elətməyə izn olmadı... Amma o cənab və onu fitləyən əşxaslar məyus olmasınlar ki, belə kamallı söz pünhan qalacaq. Fikrim budur ki, bizim Zərdab kəndində, Qarabağın sərhəddində bir daş qoydurub, onun üstə zikr olan həcvi tamam qazdıram ki, gələcəkdə bizim evladlar o yadigara baxıb bilsinlər ki, mən bu zəhmət ilə millləti-islamı qəf-

lətdən ayıltmaq istəyən vaxtda necə nadanlara rast gəlmişəm.»

Üç il ərzində qəzetdə dərc edilmiş mühüm materiallardan görünür ki, onun əsas məqsədi faydalı kənd təsərrüfatı biliklərini həm nəzəri, həm də əməli cəhətdən ölkənin əhalisi arasında yaymaqdan ibarət olmuşdur. Aqronomiya sahəsində yaxşı mütəxəssis olan və sadə xalqın dilini bilən Həsənbəy Məlikov qəzetin hər nüsxəsində kənd təsərrüfatının müxtəlif sahələrinə dair çoxlu maraqlı və faydalı məqalələr dərc etdirirdi. O, eyni zamanda, elmi məlumatları asan bir şəkildə, sadə və anlaşıqlı bir dildə oxuculara çatdırmağa yüksək məharət göstərirdi. Bizim fikrimizə görə, bu məqalələr indi də öz əhəmiyyətini itirməmişdir. Əgər onlar müəyyən bir sistem halına salınıb Azərbaycan dilində nəşr edilən dövri jurnallarda çap olunarsa, kəndlilərə fayda verə bilər.

Lakin «Əkinçi» öz oxucularını bu cür gözəl materiallarla təmin etməsinə və ümumiyyətlə, ayıq və mənalı istiqamətinə baxmayaraq o, uzun müddət davam edə bilmədi və əhatə olunduğu nadan, qaranlıq mühitlə ağır mübarizədə öz fəaliyyətini dayandırdı.

«Əkinçi»dən sonra Tiflisdə bir-birinin ardınca «Ziyayül-Qafqaz» və «Kəşkül» adlı iki Azərbaycan qəzeti nəşr edilməyə başladı Bu qəzetlərin müəssisləri Ünsizadə qardaşları-Hacı Seyid əfəndi və Cəlal əfəndi idi. Onlar çox bacarıqlı və Şərq dillərini yaxşı bilən adamlar olsalar da, qəzet nəşr etmək kimi çətin və mürəkkəb işi aparmağa hələ qəti hazır deyildilər. Bunun nəticəsində tez bir zamanda «Ziyayül-Qafqaz»ın nəşri dayandırıldı və onun əvəzinə Cəlal əfəndinin «Kəşkül»ü çıxmağa başladı. «Kəşkül» də «Ziyayül-Qafqaz» kimi hazırlıqsız adamların əlində idi və o, çox səliqəsiz və müəyyən istiqaməti olmadan nəşr edilirdi.

«Kəşkül»də, məsələn, M. F. Axundzadənin tərcümeyi-halı ilə bir sırada müxtəlif zarafatlar, lətifələr və ağla sığmayan gülməli məlumatlar dərc edilirdi. Bəzən qəzetin bir neçə nömrəsində dalbadal Dağıstan və Çeçen xarabalıqlarından redaksiyaya göndərilən ərəb dilində yazılmış uzun, heç bir ciddi əhəmiyyəti ol-

mayan məqalələr çap olunurdu. Dini-əxlaqi məsələlərin müxtəlif sahələrindən bəhs edən və dil cəhətdən anlaşılmaz olan bu məqalələrin əksəriyyəti, yəqin ki, yalnız onların müəllifləri üçün çap edilirdi. Bu çür hikmətləri anlamağa hazır olmayan oxucuların əksəriyyətinə isə fikir verilmirdi. Öz-özlüyündə məlumdur ki, xalqın ehtiyac və tələblərini inkar edən və zamanına cavab verməyən «Kəşkül» kimi mətbuat orqanı geniş yayıla bilməzdi və o, keçən əsrin 90-cı (XIX əsr nəzərdə tutulur:-V. P.) illərinə qədər güc-bəla ilə öz acınacaqlı fəaliyyəini davam etdirərək nəşrini dayandırdı.

«Kəşkül» qəzeti bağlandıqdan sonra Zaqafqaziya müsəlmanları on-on beş il öz ana dilində mətbuat orqanından məhrum qaldı. Bir neçə şəxsin Azərbaycan dilində qəzet çıxarmaq təşəbbüsü hökumət tərəfindən rədd edildi. Hökumət nə səbəbdəb isə azərbaycanlılar arasında maarifin yayılması sahəsində məhsuldar işi ilə tanınan və səsli metod ilə savad təlimi üçün birinci dəfə Azərbaycan dilində dərslik tərtib edən Zaqafqaziya müəllimlər seminariyasının müsəlman şöbəsinin keçmiş inspektoru, əməkdar müəllim Çernyayevskinin də xahişini rədd etmişdi. Lakin Qafqazın başqa xalqlarından geridə qalan və mədəniyyəti zəif inkişaf etmiş azərbaycanlılar yaxşı bir mətbuat orqanına hamıdan çox ehtiyac hiss edirdilər. Beləliklə, əgər «Ziyayül-Qafqaz» ilə «Kəşkül»ü ictimai mətbuat orqanı deyil, müvəffəqiyyətsizliyə uğramış şəxsi ticarət müəssisəsi hesab etsək, onda məlum olur ki, Qafqaz müsəlmanları 25 il ərzində mətbuat vasitəsi ilə öz ehtiyac və tələblərini müzakirə etmək, məktəb işini yaxşılaşdırmaq və ümumiyyətlə, öz həyatlarını irəli aparmaq imkanından məhrum edilmişlər. Bu müddətdə rus təbəəliyində olan çoxmilyonlu müsəlman əhalisi üçün yalnız Baxçasarayda «Tərcüman» («Perevodçik») adlı həftəlik bir qəzet nəşr olunmuşdur. Baş senzor və şərqşünas cənab Smirnovun ciddi nəzarəti ilə nəşr edilən və kiçik formatda rus dilində tərcüməsi ilə birlikdə çıxan bu qəzet də Rusiya müsəlmanlarının bütün tələblərinə cavab vermək imkanına malik deyildi. Bundan əlavə, Krım tatarlarının dilində çıxan «Tərcüman», xüsusən, əvvəllər

hamı tərəfindən başa düşülmədiyi üçün Zaqafqaziyada geniş yayıla bilmədi. Hazırda «Tərcüman» həftədə üç dəfə çıxır. Onun məzmunu xeyli yaxşılaşmış və dili Azərbaycan dilinə uyğunlaşdırılmışdır. Belə ki, indi qəzet az-çox savadı olan azərbaycanlılar tərəfindən asanlıqla oxunur. Ədalət tələb edir ki, «Tərcüman»ın redaktoru cənab Qaspirinskinin xidməti xüsusilə qeyd edilsın. Həyatının ağır şəraitdə keçməsinə baxmayaraq o, 25 il ərzində rus müsəlmanlarının maariflənməsi sahəsində qızğın enerji ilə işləmiş və indi də işləməkdədir.

1903-cü ildə bizim möhtərəm publisistimiz Məmmədağa Şahtaxtinski uzun əzab-əziyyətdən sonra Tiflisdə Azərbaycan dilində «Şərqi-Rus» adlı qəzet nəşr etməyə icazə alır. Bu qəzetin meydana gəlməsi nəinki yalnız Zaqafqaziyadakı azərbaycanlıları, hətta bütün Rusiya müsəlmanlarını sevindirdi. Hər tərəfdən redaksiyaya təbrik məktubları gəldi. 25 il əvvəl çox səylə «Əkinçi» qəzetinin redaktorunun adına deyilən mənasız və təhqiramiz həcvlər indi gənc «Şərqi-Rus» və onun redaktoru M. Şahtaxtiniskinin adına yazılan tərifli himnlərlə əvəz edildi. «Allah bəndəsi» (Bu imzanın sahibi Firidun bəy Köçərli idi:-V. P.) adlı birisi «Şərqi-Rus»un 17-ci nömrəsində ondan əvvəl çıxan Azərbaycan qəzetlərinin ötəri icmalını verib, müsəlmanları yeni qəzeti müdafiə etməyə çağırmışdı. O, azərbaycanlılar arasında nəşriyyat işinin çətinliyini, yeniliyini, nə yaxşı mətbəələrin, nə mürəttiblərin, nə də iş bilən əməkdaşların olmadığını nəzərə alaraq ilk vaxtlar «Şərqi-Rus» oxucularını qəzetə iltifatla baxmağa və əlbir olaraq onu möhkəmlətməyə çağırmışdı. Həqiqətən də, qəzetin işi ilk əvvəllər elə bil yaxşı getdi, onun yalnız Zaqafqaziyanın müxtəlif yerlərində deyil, bütün imperiyanın Kazan, Orenburq, Ufa, Peterburq, Moskva, Zakaspi vilayəti, Türküstan, Vladivostok və başqa yerlərində də abunəçiləri var idi.

Lakin yaxşı nəzəriyyəçi olan cənab Şahtaxtiniski təcrübədə özünü doğrulda bilmədi. O, qəzet işində tam təcrübəsiz olduğunu göstərdi. Ən başlıcası isə, cənab Şahtaxtiniski xalqının mənəvi inkişafını nəzərə almadığı üçün ciddi səhvə yol verdi və öz qəzeti vasitəsilə tərtib etdiyi yeni əlifbanı yaymağa çalışdı. O, bununla

özünə və qəzetinə qarşı ümumi narazılıq oyatdı. Düzdür, bütün müsəlmanlar tərəfindən qəbul edilmiş ərəb əlifbası müsəlman dünyasında tərəqqiyə ciddi surətdə maneçilik törədir və əsaslı dəyişikliyə ehtiyac vardır. Lakin bütün məsələ köhnə, əsrlərlə işlənən əlifbanı ləğv edib, onun əvəzinə daha əlverişli və daha mükəmməl əlifba təqdim etməkdədir. Cənab Şahtaxtiniskinin əlifbası isə heç bir xüsusi məziyyəti ilə fərqlənmirdi və o, başdan ayağa yöndəmsiz və mürəkkəb hərflərdən ibarət idi. Hamı tərəfindən ən əlverişli hesab edilən ərəb rəqəm işarələri cənab Şahtaxtiniskinin əlifbasında sait rolunu oynayırdı. Bu əlifbanın nöqsanları və yaramazlığı barədə mən elə o zaman, 1902-ci ildə Tiflis qəzetlərinin birində çox müfəssəl danışmışam. Cənab Qaspiriniski də öz «Tərcüman»ında bu əlifbaya qarşı çıxmışdı. Göründüyü kimi, sonralar cənab Şahtaxtiniski özü də əlifbasının tələb olunan vəzifələrə cavab vermədiyini anladı və yavaş-yavaş qəzetindən bu məsələni çıxartdı. Lakin o, bu qənaətə çox gec, «Şərqi-Rus» öz əvvəlki nüfuzunu itirdikdən sonra gəldi.

Lakin bununla bərabər qəzetin bağlanmasına başqa səbəblər də olmuşdu. Məsələn, bizim fikrimizcə, gənc «Şərqi-Rus»a «Kaspi» qəzetinin o zamankı əməkdaşlarının hucumları və «Tərcüman»ın arasıkəsilməz iradları əsassız idi. Bizə məlum olduğu kimi, bütün bunların nəticəsində, cənab Şahtaxtiniskiyə böyük pula, əməyə və mənəvi əzablara oturan «Şərqi-Rus», nəşrinin ikinci ilində öz fəaliyyətini dayandırmağa məcbur oldu.

Keçən 1905-ci ilin payızında, təxminən 17 oktyabr manifesti ərəfəsində Bakıda həftəlik «Həyat» qəzeti çıxmağa başladı. Deyəsən, «Həyat» ona qədər nəşr edilmiş Azərbaycan qəzetlərinin hamısından ən mötəbəri idi. Onu müsəlmanların ən yaxşı ədəbi qüvvələri-Əlibəy Hüseyzadə ilə Əhmədbəy Ağayev birlikdə redaktə edirdilər. Qəzetin böyük formatı, yaxşı kağızı, gözəl və aydın çapı, ən başlıcası isə əməli və dərin məzmunlu məqalələri oxuculara yaxşı təsir bağışlayırdı. Lakin qəzet 3-4 ay çıxdıqdan sonra Əhmədbəy Ağayev ondan ayrıldı və Bakıda öz «İrşad» qəzetini təsis etdi. Əhmədbəyin getməsilə «Həyat»da işlər zəfləməyə başladı. Qəzet yavaş-yavaş canlı və maraqlı orqan-

dan darıxdırıcı və qeyri-həyati sxolastik gündəliyə çevrilməyə başladı, ən vacib məsələlərə isə diqqət yetirilmədi ... Qəzet dil cəhəttən də getdikcə yerli azərbaycanlılar üçün çətin və anlaşılmaz oldu. «Həyat»la əməkdaşlıq edən şəxslər öz yazılarında İstanbulda təhsil almış qəzetin redaktoru Əlibəy Hüseynzadənin üslubuna səylə təqlid etməyə başladılar. Lakin bu təqlid çox gülünc nəticələr verdi. «Həyat» qəzetinin bağlanmasının səbəbləri haqqında öz mülahizələrimizi biz «Znaniye» qəzetinin 6-cı nömrəsində ayrıca danışmışıq.

Hazırda bütün Qafqazda Azərbaycan dilində yalnız bircə «İrşad» qəzeti nəşr edilir və o da maddi cəhətdən çox böyük ehtiyac və kəsir içindədir.

Kədərlə bu qəmli faktı qeyd etmək lazımdır ki, hələ xalq kütlələrində qəzet oxumaq ehtiyacı yaranmamış və onlarda ictimai məsələlərə qarşı bir laqeydlik və etinasızlıq hiss olunmaqdadır. Bizim juxarıda göstərdiyimiz səbəblərdən başqa, bu axırıncı məsələ də, şübhəsiz, «Əkinçi», «Kəşkül», «Şərqi-Rus» və «Həyat» qəzetlərinin bağlanmasına mühüm təsir göstərmişdir.

«İrşad» qəzetinin fəaliyyətini davam etdirmək üçün onun redaktoru və naşiri Ağayev lazımi miqdarda abunəçi toplamaq üçün Qafqazı səyahət etmişdir. Bu yolla abunəçi toplamaq, əlbəttə, çox adama qəribə və qeyri-adi şey kimi görünəcək, lakin başqa xalqlardan təhsil və mədəniyyətcə geridə qalmış müsəlmanlar arasında isə çap işinə yardım etmək bu ən düzgün və bəlkə də, yeganə vasitədir. Yaxşı əməkdaşlar heyəti və Ağayev kimi təcrübəli publisistin rəhbərliyi altında nəşr edilən «İrşad» ən canlı, məzmunlu və gözəl mətbuat orqanıdır. Bu qəzet ictimai həyatın inkişafını açıq gözlə izləyir və onun səhifələrində Rusiya müsəlmanlarının həyatında az-çox əhəmiyyəti olan məsələlər diqqətlə və hərtərəfli müzakirə edilir. Odur ki, bütün vasitələrlə bu qəzetə yardım etmək mədəni müsəlmanların üzərinə düşür. Əgər bu qəzet də işin əvvəlində öz fəaliyyətini dayandırmağa məcbur olsa və qol-budaq atmadan solub məhv olsa, onda çətin ki, bundan sonra bir kimsə Azərbaycan dilində qəzet nəşr etməyə cəsarət edə...

Simaları hələ tam müəyyənləşməmiş gənc Azərbaycan jurnalları-«Dəbistan», «Rəhbər» və «Füyuzat» haqqında rəyi xüsusi məqaləmizdə verəcəyik. (52) (Tərtib edən və araşdıran: akademik Kamal Talıbzadə.)

Auditoriya icmalçıdan nə gözləyir? Demək olar ki, icmalçının nə demək istədiyi auditoriyaya çoxdan məlumdur. Burda oxucunu verilən xəbərlərdə anlaşılmayan nə isə başqa bir şey maraqlandırır. Sözsüz ki, bu verilən icmalın, hadisənin məğzi, mahiyyəti, mətləbi və sair ola bilər. Analiz olunan vəziyyəti araşdırmaq üçün icmalçıya aşağıdakı sualları vermək lazım gəlir:

1.Məlum hadisəni (vəziyyəti) nə yaradır? Aydındır ki, icmalçı bir deyil, bir həftə, bir ay daxilində baş vermiş bir neçə hadisə (vəziyyət) haqqında danışa bilər. Bu nöqteyi-nəzərdən deyə bilərik ki, əgər jurnalist hər bir hadisənin yaranma səbəblərini yazmış olsa, onda icmalın həddən böyük alınmasına şahidlik etmiş olarıq. Əlbəttə, müəllif hər bir halda baş vermiş hadisənin törəmə səbəblərini öyrənməli və müzakirə etməlidir. O, əmindirsə ki, onlardan bir neçəsinə, nisbətən də, olsa auditoriyanın cavabı artıq var, onda icmalçı onları işçi qaydasında özü üçün qısaca və dürüst ifadə edir. Yəni, baş verənləri anlamaq üçün müəllif prosesdə hər bir hadisənin səbəbini zəncirvari cavab kimi qurmalıdır. Sözün həqiqi mənasında, bu jurnalistin icmalını vermək istədiyi hadisənin istintaq-səbəb materialları arasında rabitənin yaranmasına gətirib çıxarmaqla, həm də ona kömək edəcəkdir.

2.İcmalı verilən hadisələrin əhəmiyyəti nədir? Cəmiyyətin müxtəlif tərəflərinə, ayrı-ayrı insanların həyatına və yaxud qruplara o necə təsir edir? Adətən bu planda olan suallara cavab ən yaxşı halda, təcrübədə hər bir icmal, əgər, başa düşüləndirsə, o analitik çıxış hesab oluna bilər, nəinki, ətraflı hazırlanmış informasiya toplusu.

3.İcmalı hazırlanan hadisə və yaxud vəziyyət necə in-

kişaf edəcək və yaxud bununla əlaqəli nə etmək lazımdır? Bu sual icmalçı üçün daha çətindir. Çünki bu suala cavab verməyə çalışarkən, icmalçılar tez-tez yalnız kiminsə fikirlərinə deyil, həm də, idraka, təmayülə, qanunauyğunluğa, onları idarə edən xəbərlərin törəməsinə və proqnozlara söykənirlər. Məhz bu halda, jurnalisti çox vaxt hansısa sahədə və yaxud keçmişdə baş verən vəziyyəti, analoji hadisənin inkişafını bilməsi xilas edir. İcmalçının peşəkarlıq dərəcəsi hər şeydən əvvəl, belə demək mümkünsə, icmalın «düzülüşündə», onun üslubunda özünü göstərir.

Bu zaman yalnız onun icmalının dil xüsusiyyətləri deyil, həm də, müəllifin yaradıcılığında özü haqqında «ideyalılıq» nümayiş etdirən, öz nuru ilə onun hər çıxışını işıqlandıran leytmotivi (ana xətt) və bir də ola bilsin ki, icmalçının ixtiyarından kənar hər şeyin auditoriyaya aydın olmasıdır.

Şübhəsiz ki, icmalın dil tərəfi, müəllifin yaradıcılığında üslub formalaşdıran əsas faktorlardan hesab olunur və onun öyrənilməsi yenicə fəaliyyətə başlayan jurnalistdən xüsusi diqqət tələb edir.

15.KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN XÜLASƏSİ

Jurnalistikada «xülasə» sözü yekun, müzakirə, xüsusi növ informasiyanın əldə olunması, öyrənilməsi mənalarında işlədilir. Kütləvi İnformasiya Vasitələrinin xülasəsi dedikdə, hər şeydən əvvəl, nəşrin xüsusiyyətlərini öyrənmək, ədəbilik, nəşriyyatın yaradıcılıq fəaliyyəti, tele-radio proqramları və yaxud auditoriyanı nəşrin məzmunu, forması ilə tanışlıq məqsədi ilə edilən köməklik nəzərdə tutulur.

KİV-nin başlanğıc icmal forması onun xülasəsi olubdur. Bu janrın əmələ gəlməsi qəzet hasilatının genişlənməsi, müxtəlif formalı qəzet və jurnalların başa düşülməsi təşəbbüsü, onların

necə, nə üçün, nə yazdığını öyrənmək və oxucuya bu barədə məlumat verməklə bağlı olan prosesdir. Əldə olan məlumatlara görə əvvəllər mətbuatın xülasəsi, ictimai formada, həyatda KİV-nin rolu və imkanları, həmçinin onlarla öz müasirlərini tanış etmək üçün başqa-başqa tədqiqatçılar, alimlər tərəfindən işlənib hazırlanırdı. 1676-cı ildə alman ilahiyyatçısı Aqasfera Friçin nəşrdən çıxan «Yeni qəzet» (166) kitabı bu janrin bünövrəsi hesab oluna bilər.

Nəşrin, qəzetin lazımlı və yaxud lazımsızlığını müzakirə edən icmalçı, bütünlükdə onlardan götürülmüş ayrı-ayrı hissələri kommentariya vasitəsilə ifadə edərək onu oxucu auditoriyasının ixtiyarına verir. Artıq sonrakı mərhələdə, mətbuat səhifələrində xülasə dövri görünməyə başlayır. Aərbaycanın jurnalistika tarixindən bu cür xülasələr bizə yaxşı tanışdır. Sovet dövründə mətbuatın xülasəsi ən çox istifadə olunan janrlardan biri idi. Xülasə başqa janrlar kimi dərc edilən nəşrlərin informasiya siyasətinə fəal təsir göstərirdi. İcmalçılar xülasə hazırlayarkən mütləq ona partiya nöqteyi-nəzərindən yanaşmalı idilər, çünki onlar (həm jurnalistlər, həm nəşrlər) ciddi və möhkəm ideoloji platformanın, senzuranın nəzarəti altında idilər.

Xülasənin müəllifi nəşrin siyasi ardıcıllıq səviyyəsinə, cəmiyyətin təsərrüfat fəaliyyətinin başlıca məqamlarına, onları tədqiq etmək, qabaqcıl fikirləri aşkarlayıb üzə çıxarmaq, yaymaq, çıxışında tənqid və özünütənqidə, arqument və faktların növbəliyinə, nəşrin dili və üslubu, həmçinin oxucuda yaradacağı maraq və ondan alacağı cavab və sair bu kimi amillərə istinad edirdi və mütləq bu nöqtələrə diqqət yetirməli idi.

«Xülasənin müəllifi tərəfindən öhdəlik səviyyəsində yerinə yetirilən bu cür tələblərə, bütünlükdə, jurnalistikaya ictimai həyatın mərhələlərində, kütləyə təsir və cəmiyyətdə cərəyan edən proseslərə nəzarət funksiyasını icra edən alət kimi baxılırdı.» (81,9) Xülasəni nəşr edən qəzetlər yalnız özündən «aşağı» qəzet və jurnalları müzakirə edə bilərdilər. Məsələn, mərkəzi nəşrlər bütün qəzetləri-vilayət, şəhər, rayon və s. tənqid edə

bilərdilər. Bütün bunların hamısı totalitar sovet rejimi dövründə mövcud idi. Hal hazırda Azərbaycan KİV-i, o cümlədən jurnalistlər tamamilə başqa bir vəziyyətdə, başqa bir şəraitdə fəaliyyət göstərirlər, nəşrlər arasında «subordinasiya» deyilən məfhum artıq iyirmi ildən çoxdur ki, müasir Azərbaycan mətbuatda yoxdur. Dövri mətbuat televiziya və radio, radio-televerlişlər isə dövri mətbuat haqqında xülasələr hazırlayıb ictimaiyyətə təqdim edirlər. Xülasədə və yaxud hər hansı bir nəşrdə jurnalistlərin ideoloji platformaya əsaslanmasının özü də, bu gün müxtəlif çalarlar daşıyır. Mətbuatda siyasi plüralizm kütləvi informasiya vasitəsi orqanının təsisçisinin real fikirləri, ümumilikdə, nöqteyi-nəzəri ilə məhdudlaşır. Xülasə dərc olunan orqanın xüsusiyyətinə, həmçinin jurnalistin rolunun dəyişməsinə, cəmiyyətdə olan reaksiya öz təsirini göstərir. Ümumiyyətlə, bu reaksiya vacib sayılmır.

Bununla bahəm, xülasənin müəllifi, xülasəsini dərc etdirdiyi mətbuat orqanının fikrinə əsasən, onları təhqir etdiyinə və yaxud mənəvi ziyan vurduğuna görə, ən azı, ittiham olunaraq məhkəmənin qarşısında dayana bilər. Bu və yaxud başqa faktlar icmalçının diqqətini KİV-nin fəaliyyətində olan bəzi məqamlara istiqamətləndirir. Jurnalistin xülasəni yazmazdan öncə qarşısına qoyduğu səciyyəvi tapşırıq, məqsəd, nisbətən, hətta müəyyən mənada, xülasənin sabit və dayanaqlı növ olmasına təsir göstərir.

Məlum məsələdir ki, hal hazırda iqtisadi çətinliklərlə bağlı əhalinin əksər hissəsi gündə dörd-beş və daha artıq qəzet və jurnal ala bilmir. Məhz bu məqsədlə, əhalini müxtəlif televiziya və radio verlişləri informasiya ilə təmin etmək üçün öz üzərlərinə böyük bir öhdəlik götürürlər. Bununla belə, icmalçı «prezentasiya»nı (202) yeni işıq üzü görmüş mətbuat orqanına və yaxud artıq oxucu auditoriyasına tamamilə çoxdan bəlli olan qəzet və jurnala həsr edə bilər.

Məsələnin birinci hissəsində, yeni qəzet və yaxud jurnalın bütün bir sayı haqqında adi söhbət gedir, amma elə ola bilər ki, icmalçı problemin həllinə kompleks yanaşsın və bu zaman jur-

nalın bir neçə sayını xülasə-prezantasiya hazırlamaq üçün istifadə etsin. Buna görə qarşıya bir məqsəd qoyulur-yeni nəşrin xüsusiyyətlərini, həmçinin onun dəyərini və çatışmayan cəhətlərini göstərmək. İkinci hissədə isə, xülasənin müəllifi auditoriyanı daha vacib və maraqlı informasiya ilə təmin etmək üçün, öz nöqteyi-nəzərindən irəli gələrək müxtəlif nəşrlərə müraciət etməyə çalışır.

Bir çox hallarda, bu cür nəşrlər icmalçı tərəfindən bir vacib nişanə üçün-forst-major və həyəcanlıq dərəcəsinə görə seçilir. Nə qədər ki, nəşr fövqəladə və həyacanl olacaqsa, onun KİV-nin xülasəsinə düşmək ehtimalı bir o qədər yüksək sayılacaqdır. Adətən bu cür xülasələri müəllif əsasən sensasiya ilə başlayır. Bu isə oxucu auditoriyasının diqqətini həmin mətbuat orqanına daha çox cəlb edir. Yalnız bundan sonra jurnalist başqa yenilikləri açıqlayır.

Xülasənin analitik başlanığıcı onunla nəticələnir ki, müəllif səbəbin dərinliyini açmağa çalışır və bununla ilk baxışdan cəmiyyətin müxtəlif dairələrində baş verən, «qovuşmayan» sensasiya törədir. Buna görə KİV-nin xülasəsi analitik janr olaraq, annotasiya yeniliklərindən, həmçinin onların informasiya seçimindən fərqlənir.

Ceyran Günəş.
Özünüzü oxumağa hazırlayın.

«Qələm dostları» qəzeti.

Azərbaycanda Nizami Gəncəvi haqqında hamı kifayət qədər məlumatlıdır. Elə bir şəhər, kənd, qəsəbə, məhəllə tapılmaz ki, bu dahi insan haqqında bilməmiş olsun. Onun haqqında qalın-qalın, cilid-cilid kitab, memuar, monoqrafiya, oçerk, hekayə, müxtəlif ölçülü nəzm və nəsr əsərləri yazılıbdır. Kitabxanaların zirzəmisində, evlərin çardaqlarında hələ də, nəşriyyatın bağı açılmayan kitab bağlamaları, o cümlədən çoxsaylı rəssamların, həmçinin xalqın istedalı insanlarının müxtəlif əşyalar üzərində

(kağız, ağac, dəmir, parça, qranit və s.) yaratdıqları Nizami portretlərini, hələ küçə, prospekt, metro, kino-konsert salonlarını demirəm, mövcuddur. Amma təəssüflər olsun ki, bu günkü gənclər Nizami yaradıcılığına, ümumuiyyətlə, bədii kitablara soyuq münasibət nümayiş etdirirlər. Məhz buna görə də, kitabxana və evlərdə vərəqlənməyən yığın-yığın kitablar toz altında qalır.

«Qələm dostları» qəzeti «Nizami haqqında naməlum xatirələr» sərlövhəsi adı altında Elman Türksoyun və Fəridə Abbaszadənin «Məhəbbət və şeir» oçerkini nəşr etdiribdir. Konfrans zalında tənqidçilər öz peşəkar problemlərini müzakirə edirlər; görünür tənqidçilərin problemi az deyil və işləri asan getmir. Bu günlərdə Əli Caminin «Ölüdən yeni xəbər» adlı qəşəng və zərif essesi, Əhməd Sarılının «Məhəmməd Füzuli yaradıcılığında metamorfoz şəhvət məsələsi» adlı məhəbbət hekayəsi, Gültəkin Hacılının isə «Abidələrin daş yaddaşı» adlı elmi əsərləri nəşr olunmuşdur.

«Yeni ədəbiyyat xülasəsi» bölməsi.

Qəzetin incəsənət bölməsində, Ernst Qombrixin Abi Varburqun ikona məktəbinə həsr olunmuş və daha böyük əhəmiyyət kəsb edən maraqlı işi yer alır. Varburq hüquqi və elmi nöqteyi-nəzərdən keçici dövrə aid olan münasibəti həm mənəvi, həm də gübar transformasiyası baxımından, ancaq canlı yazılmış şəkillərdən öyrənmişdir. O. V. Budnitiski namünasib düşkünlükdən Nina Berberovu faşistlərə kömək etməkdə (o, Parisin işğalı zamanı oranı tərk etməmişdir, əksinə, hamını ora dəvət edirdi) günahlandırırdı. 90-cı illərin mədəniyyəti haqqında İlya İlin «postmodernizm» fəlsəfi fikiri ətrafında dolanaraq müzakirə (yaxşı olardı, əgər başa düşülsəydi ki, o «modernizmdən» nə ilə fərqlənir) edirdi.

«Ədəbi bonsay üslubu» bölməsində Yaponiyanın müxtəsər ekzotik gözəlliyi və «Biblioqafiya-monoqrafiya» bölməsində dərin fikirlərlə dolu monoqrafiya verilir. Əsasən axırıncıda, Andrey Seryoqinin A. Nikolyukinin «Rozanov haqqında» kitabına

resenziya oxumaq üçün məsləhət görünür. Hekayə ilə həddən artıq maraqlananlara məsləhət görünür ki, özlərini hazırlasınlar.

«Ədəbi hadisələr» qəzeti.

Qəzetin bu sayı ənənəvi alınmadı, ona görə ki, nəşr onu təşkil edən kiçik janrlara həsr olundu. Məsələn, Süleyman Sani Axundovun «Nağılları»na və s. Çoxsəhifəli, qalın jurnallar nəşr etdirən Nəsimi Cavadlı bu dəfə erməni vəhşilikliklərini əks etdirən «Quba qəbiristanlığı» adlı biblioqrafik hekayə nəşr etdirdi. O, bir neçə il bundan əvvəl Xocalı faciəsini əks etdirən «Xocalı harayı» adlı biblioqrafik hekayə çap etdirmişdi. İstər son, istərsə də əvvəl ki, hekayəsində onun əsas məqsədi erməni faşizmini bütün reallığı ilə, faktlara istinad etməklə dünya ictimaiyyətinə çatdırmaq mümkün olsun.

Bu sayda publisist Əzim Hüseynlinin «Şüşa dağları», İldırım Cəbiyevin «Kəlbəcərdən gələn səda», Fikrət Babazadənin «Təbrizdən Dərbəndədək» və bir çox nağıl etmə formasında kiçik həcmli əsərlər yer almışdır.

Gənc qələm sahiblərinin müasir mətbuatın çətinlikləri və şövqləndirici tərəfləri haqqında bəzən ironiya ilə, bəzən də reallığı əks etdirən ştrixlərlə yazdıqları çoxda böyük olmayan yazılar qəzetin maraqlı alınmasında müstəsna rol oynamışdır. Qəzetin tənqid bölməsində, Azərbaycanın bu günkü ədəbiyyatı haqqında dəyərli fikirlər söylənilmiş, müxtəlif tövsiyyə və məsləhətlər verilmişdir.

Gətirdiyimiz misallar bir daha göstərdi ki, qəzetin bu sayı oxucuları həmin zaman kəsiyində müxtəlif mətbuat orqanlarında dərc olunan informasiyalarla tanış etməkdən ibarət olmuşdur. Dərin analiz aparmadan üç müxtəlif yönümlü ədəbi-bədii mətbuat orqanından misal gətirməklə müəllif qısa xülasə verdi. Burda əsas məsələ oxucu auditoriyasına çoxsaylı məlumat verməkdən ibarətdir ki, onun da öhdəsindən xülasə müəllifi məharətlə gəldi. KİV-də xülasə onu hazırlayan jurnalistin özündən

asılı olaraq böyük həcmdə də, işlənilə bilər. Beləki, müəllif xülasəyə üç, beş, on və yaxud istədiyi qədər başqa mətbuat orqanlarından informasiya cəlb etmək iqtidarındadır. Jurnalistin əsas məqsədi, oxucuların diqqətini müxtəlif istiqamətli nəşrlərə cəlb etməkdən ibarətdir. Ən əhəmiyyətlisi ondan ibarətdir ki, xülasə-təqdim etmə (prezantasiya) oxucu auditoriyasına ümumi məlumat verməklə bahəm, həm də mətbuat səhifələrində çıxış edən müəlliflər haqqında kifayət qədər məlumat verir.

a).Tematik (temalar, mövzular üzrə) xülasə

Xülasə ictimaiyyətdə müəyyən olunmuş səs-küylü mövzuları işıqlandırmaq üçün nəzərdə tutulub. Müasir zamanda, Prezidentin fərman və sərəncamları, Milli Məclis tərəfindən qəbul olunan qanunlar, Nazirlər Kabinetinin qərarları, yuxarı vəzifələrə təyinat və yaxud ondan azad etmə, seçkilərin nəticəsi, fövqəladə və qalmaqallı hallar, səs-küylü cinayət işləri və s. belə mövzulardan hesab olunur.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 2163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Dövlət Miqrasiya Xidmətinin strukturu»nda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.

18 aprel 2012-ci il.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 2163 nömrəli Sərəncamı (Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007, №5, maddə 500; 2008, №11, maddə 970; 2009, №12, maddə 1053, 2011,№7, maddə 699) ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin strukturu»nda aşağıdakı dəyişikliklər edilsin:

1.3-cü hissədə «strukturuna» sözü «sisteminə» sözü ilə əvəzlənsin.

2.3-cü hissədə aşağıdakı məzmunda birinci bənd əlavə edilsin: «Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti».

İlham Əliyev.
Azərbaycan Respublikasının Prezidenti.
Bakı şəhəri, 18 aprel 2012-ci il.

Tematik xülasə bu və yaxud buna oxşar hadisələrin mərkəzi nöqtəsi hesab olunur və onun ətrafında mətbuatın icmalı qurulur. Müxtəlif nəşrləri və yaxud tele-radio verlişləri cəlb edən müəllif, istəyir ki, onların köməyi ilə auditoriyaya bütün baş verənlər haqqında təfərrüatlı məlumat çatdırsın və onların təsəvvüründə hadisələrin təsvirini yaratsın, o cümlədən oxucu və dinləyiciləri müxtəlif fikir, qiymət və mövqelər ilə tanış etsin. Kütləvi İnformasiya Vasitələrinin mövcud hadisələrə münasibəti məhz bundan ibarətdir. Bu cür xülasə auditoriyaya az-çox, kifayət qədər hadisələrin səbəbi, daxili və xarici «yayı» haqqında anlayış verir. KİV-i tərəfindən «məzəmmət» olunan hansısa hadisəni müxtəlif tərəflərdən şərh edir. Bu növ xülasə özündə daha böyük ölçüdə analitik nəşrin cizgilərini saxlayır, nəinki, xülasə-prezantasiya. (203)

b).Ünvansız xülasə

Bu cür xülasə, tematik xülasədə olduğu kimi mətbuatda daha qızğın müzakirə olunan bir və yaxud bir neçə mühüm mövzuları diqqət mərkəzinə çıxarır. Amma qeyd etmək lazımdır ki, tematik xülasədən və xülasə-resenziyadan fərqli olaraq ünvansız xülasə xüsusi bir əlamətə malikdir. Bu əlamət ondan ibarətdir ki, janrın bu növü konkret olaraq bir nəşr və yaxud radio-teleproqramın xülasəsinə əsaslanmır, istinad etmir. Bütünlükdə müəllif üçün əhəmiyyətli odur ki, kütləvi informasiya vasitələrində müzakirə olunan bu və yaxud başqa mövzu

haqqında onların verdiyi qiyməti, rəyi izləsin. Bəzən müəllif öz məqsədinə nail olmaq üçün problemin aşkarlanması prinsipini irəli sürür və bununla da, müəyyən zaman ərzində (həftə, ay, il və s.) daha böyük ölçüdə, ölkə və yaxud hətta dünya mətbuatını həyəcanlandıran, təşvişə salan məsələlərdən danışır. (202)

Bunun sayəsində müəllif mətbuatın özünü maraqlandıran problemlər, xüsusilə, mətbuatda işıqlandırılması haqqında kifayət qədər təfsilatlı kommentariya ilə danışa bilir. Müəyyən mənada bu, KİV-nin ünvansız xülasəsini icmal janrına yaxınlaşdırır. Xülasənin məzmununun mətbuata «bağlılığı»nı adətən müəllif, ümumiləşdirilmiş formada həyata keçirir. Məsələn, «Sol mətbuat hesab edir ...», «Azərbaycanın sağ təmayüllü mətbuatı inanır ...», «Azərbaycanın Kütləvi İnformasiya Vasitələri aşağıdakı problemlərə diqqəti ...», «Bütün dünya mətbuatı bu məsələ ilə bağlı ...» və s. Bü cür əsaslanma müəllif üçün çox xeyirlidir, çünki o, həm məzəmmətdən, danlanmadan, həm də konkret KİV-i tərəfindən onların mövqeyini təhqiq etmək, pozmaq mənasında günahlandırılmadan özünü sığotalamış olur. Bunnla da, ünvansız xülasə növü müəllifə imkan verir ki, KİV-nin diqqətini cəlb edən daha vacib problemlərə özünün «qlobal görmə» qabiliyyətini nümayış etdirsin və onlar haqqında lazımi fikir söyləsin. (241) Eyni zamanda, auditoriyanın hüququ var ki, bu cür xülasələrə müəllifin şəxsi ideyası kimi baxsın və ona mütləq formada öz nəzər-diqqətini yönəltməsin.

Yaxşı olardı ki, xülasənin hazırlanması zamanı jurnalist müəyyən qanunlara riayət etsin. Birincisi, mövzu seçmək baxımından öz çıxışının məqsədini düzgün müəyyən etsin, işıqlandırılacaq dairənin suallarını dəqiqləşdirsin. Beləki, məsələn, tematik xülasəni yazmaq üçün jurnalist mütləq bilməlidir ki, onun tərəfindən cəlb olunan mövzu dövri mətbuatın nəşrləri arasında hansı yeri tutur. Bu zaman jurnalist hər şeydən öncə onun məzmununa, ölçü etibarı ilə isə həm böyük, həm də ən kiçik nəşrdə olmasına diqqət yetirməlidir. Bütün bunlar bu və yaxud başqa nəşrin konkret suallarını daha dəqiq qiymətləndirməyə imkan verir.

Nəşri öyrənən zaman jurnalist hər hansı bir səhv, mətbəə xətası və s. aşkar edə bilər. Əgər onlar təsadüfi xarakter daşıyırsa, onları əyani hissə kimi istifadə etmək olar, lakin əsas vasitə kimi bunların üzərində jurnalist öz çıxışını qura bilməz. Müəllif çalışmalıdır ki, mütləq artıq və yaxud əsaslanmayan təəssür, emosiya və həyəcandan yazacağı xülasədə bəhanə kimi istifadə etməsin. Xülasə müəllifinin hüququ var ki, söhbət gedən mövzuda öz fikir və ideyasını müstəviyə gətirsin, amma bütün bunlar konkret arqument və faktlara söykənməli və xülasə bunlar üzərində qurulmalıdır. Əks təqdirdə o yersiz, gərəksiz və məntiqsiz, birsözlə, artıq görünəcəkdir.

16.PROQNOZ

Proqnoz-hər hansı bir vəziyyətin statusu, onun inkişafı və nəticəsi haqqında əvvəlcədən xəbər vermək, fikir irəli sürməkdən ibarət olan analitik janrdı. (152) Proqnozun konkret həcmi olmur. Bu baxımdan o sərbəstdir.

«Proqnoz» janrının inkişafı, onun təşəkkül tapması son on illiklər ərzində davam edir və bu formalaşma cəmiyyətdə baş verən islahat prosesləri ilə birbaşa bağlıdır. Gələcəkdə nəyin baş verə biləcəyini öyrənmək, bizi qarşıda nəyin gözlədiyini bilmək və bütün bunlara vaxtında, həmçinin hərtərəfli hazırlaşmaq proqnozun ortaya çıxmasına səbəb olmuşdur. Belə bir halda, jurnalist heç vaxt ictimai həyatı, bütünlükdə cəmiyyəti maraqlandıran, onun bu günü, sabahı və gələcəyi haqqında gedən söhbət və proseslərdən kənarda qala bilməz. Bəzən «proqnoz» jurnalistlər arasında mifik məna kəsb edən bir məfhum kimi qarşılanır və belə bir formada, ifadə olunur: «Kimin qəlbində Müqəddəs Allah varsa, o da yaxşı proqnoz verə bilər.» (152) Müəllifin bu istedada malik olması bir çox hallarda auditoriyanın köməyinə çatır və ona öz fikirləri düzgün qurmaq və cəmləməkdə kömək olur. Proqnozun düzg və yaxud səhv olması ictimaiyyət üçün bir o qədər də, əhəmiyyətli rol oynamır, burda əsas odur ki, insanlar bu proqnozların məntiqi nəti-

cəsi olaraq baş verə biləcək hadisəyə əvvəlcədən hazırlaşırlar. Bu isə, bir çox hallarda onları baş verə biləcək xəta və bəladan uzaq edir. Bununla bağlı xalq arasında atalar sözü də mövcuddur. Aforizmdə deyilir: «Kim xəbərdar olubsa-o da, silahlanıbdır.» (152)

Proqnoz qabaqcadan xəbər vermə və yaxud gələcək haqqında fikir, mülahizə, mühakimə deməkdir. Proqnozun düzgün çıxması, «qabaqcadan xəbər vermə» adlanır. Bəzən jurnalistlər «proqnoz» məfhumunu, «hipoteza» (fərziyə, ehtimal, güman) sözü ilə əvəz edirlər. Görəsən bu sözlər eyni qiymətə malikdirmi? Əlbəttə ki, yox. Niyə? Ona görə ki, bu sözlər qismən üst-üstə düşür. Həm hipoteza, həm də proqnoz bir çox hallarda gələcəyə aid hansısa hadisə kimi baxıla bilər. Lakin ona, həm də keçmiş zaman kimi müraciət etmək olar. Proqnoz isə həmişə yalnız gələcək bu və yaxud başqa hadisə ilə bağlıdır. Bunlardan başqa, *proqnoz həmişə artıq baş vermiş hadisənin gələcək vəziyyətini nəzərdən keçirir.* Ondan fərqli olaraq, hipotezada söhbət heç zaman baş verməyən və yaxud hal hazırkı zamanda baş verməyən hadisədən gedə bilər. Tamamilə doğru olmaz ki, proqnozu rəvayət, şayiə, xəbərlə eyniləşdirək və yaxud onlar arasında öxşarlıq axtaraq. Rəvayət, şayiə, xəbər-hadisənin inkişafını mümkün edən variantdır. Rəvayət, şayiə, xəbərin köməkliyi ilə adətən artıq baş vermiş faktı aydınlaşdırmağa çalışırlar. Hərdən elə olur ki, rəvayət, şayiə, xəbər gələcəkdə baş verə biləcək hansısa variantın inkişafını şərh və izah edir. Bu halda «proqnoz» məfhumu ilə «rəvayət, şayiə, xəbər» anlayışı ola bilsin ki, üst-üstə düşsün. (202)

Müasir mətbuatın səhifələrində jurnalistlər proqnozun müəllifi qismində çox az çıxış edirlər. Çox vaxt proqnozu müvafiq fəaliyyət dairəsi ilə məşğul olan alimlər, mütəxəssislər, ekspertlər hazırlayırlar. Bu o zaman baş verir ki, mətbuat orqanı öz məqsədini güdür və bununla bağlı ciddi proqnoz verir. Belə insanlara jurnalistin müraciət etməsinin səbəbi, əlbəttə ki, onların bu işi bacarmaları ilə əlaqəlidir. Ən müvafiq halda, bu dəqiq bilgiyə əsaslanır. Həmin faktlara istinad edərək, gələcəyə böyük

inamla baxmaq olar. Proqnoz verənin çağdaş vəziyyət haqqında dəqiq biliyə malik olması, hələ gələcək haqqında dəqiq və dürüst proqnozun verilməsi demək deyil. Necə ki, özünün «Proqnozların proqnozu və yaxud onun proqnozu, proqnozu necə qurmaq lazımdır» məqaləsində filosof N. Şulevskiy qeyd etmişdir ki, «hər hansı bir proqnoz iki böyük ayrılma tələb edir-daimi və dəyişən.» (152) Daimi xüsusiyyətdə bizə məlum olan, dəyişkən xüsusiyyətdə isə bizə məlum olmayan hallar çıxış edir. Nə vaxt məlum olmayan, məlum olandan ağır gəlir, onda proqnoz dəqiq alınmır. Əgər jurnalist proqnoz üçün alimə müraciət edirsə, onun tapşırığı nəyə gətirib çıxarır? Hər şeydən öncə-proqnozun dəqiq mövzusuna və mətnin ədəbi tərtibatına.

Bəzən elə olur ki, idman, konsert və əyləncəli proqnozlara ehtiyac, tələbat artır.

Əgər jurnalist şəxsi proqnozu ilə çıxış etmək qərarına gəlibsə, onda başqa hallarda olduğu kimi əsas məsələdən başlamaq lazımdır, yəni proqnozun əhatə etdiyi fəaliyyət dairəsinin doğru vəziyyətini aydınlaşdırmaqdan, başqa cür demiş olsaq, proqnozun fundamentini təşkil edən əsas faktların müəyyən olunmasından. Jurnalist kimin üçün proqnoz verirsə, o ilk fundament kimi ciddi və təkzibedilməz dərk edilməli və başa düşülməlidir.

Ola bilsin ki, jurnalistin ixtiyarında kifayət qədər doğru, mötəbər və gercək faktlar olsun. Bununla belə onlar zəmanət verə bilməz ki, verilən proqnoz düz çıxsın. Bundan ötrü onlardan düzgün istifadə etməyi bacarmaq lazımdır. Bu isə, jurnalistdən proqnozun verilməsi metodunu bilmək tələb edir. Müasir mətbuatın səhifələrində, adətən üç cür proqnozun verilməsi metodu mövcuddur. Onlar aşağıdakılardır:

a).Ekstrapolyasiya metodu;
b).Analogiya (oxşayış, bənzəyiş) metodu;
c).Ssenari metodu.

a).Ekstrapolyasiya metodu

«Ekstrapolyasiya» sözü Azərbaycan dilində «genişlənmə, yayılma, proyeksiyasını salma, ekranda göstərmə, təqdim etmə kimi bir neçə mənada işlədilir.» (202) Proqnozun müəllifi «proyeksiyalanma» vasitəsilə nə göstərmək istəyir? O, gələcəkdə bu hadisənin, bütünlükdə, tədqiq etdiyi hadisənin əsas inkişaf tendensiyasını yayır, genişləndirir. Müəllifin topladığı həmin faktlar, onun mövcudluğu haqqında sübut və dəlil kimi istifadə olunur. Məhz, okeanda sıra ilə düzülmüş adaları, onurğa sümüyünə oxşar bu cür faktları, hər hansı bir tədqiq etdiyimiz hadisənin «böyümə» istiqaməti haqqında fikri təsdiq edir. (162) Artıq bu istiqaməti bilərək güman etmək olar ki, o heç olmasa (əlverişli məqam üçün) yaxın gələcək üçün qüvvədə qalacaqdır (ekstrapolyasiya özündə bunu ifadə edir).

Ramilə Həsənli.
Gələcək nikbinlik vəd edir.

«Ana və Uşaq» problemləri ilə bağlı 2009-cu ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti yanında keçirilən müşavirədə Dövlət statiska Komitəsi belə bir açıqlama vermişdir. Bu açıqlamada deyilir ki, 2009-ci ilin doqquz ayı ərzində Azərbaycanda uşaq doğumu keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,8 % artmışdır.

Əmək və Əhalinin Sosial müdafiəsi naziri Füzuli Ələkbərov məlumat vermişdir ki, 2006-2009-cu illərdə Azərbaycanda əhalinin sayı 0,7 milyon nəfər çoxalmışdı. Buna əsasən söyləmək olar ki, Azərbaycan 2015-ci ilə 10 milyonluq səddi keçməklə daxil olacaqdır. Bu sevindirici haldır.

Getdikcə artan iqtisadi yüksəliş, əhalinin güzəranının mütəmadi yaxşılaşması, dövlətin insanlara olan qayğısının günbə-gün yaxşılaşması imkan verir ki, belə bir proqnozla çıxış edək. Bu tendensiya davam edərsə 2020-ci ilə kimi Azərbaycanda əhalinin sayə 11 milyon civarında olacaqdır. Demoqrafik vəziyyətin Azərbaycanda yaxşı halda olmasını nəzərə alsaq, deyə bilərik ki, ölkəmizdə 2010-2020-ci illər arasında heç bir böhran yaşanmayacaqdır.

Azərbaycanda olan demoqrafik vəziyyətin inkişafını bilən və ona əsaslanan müəllif qeyd edir ki, ölkədə əhalinin doğum səviyyəsinin yüksək olması bunu söyləməyə imkan verir. Burda ekstrapolyasiya metodundan istifadə edən jurnalist gələcək proqnozunu bu faktlar üzərində qurur.

b).Analogiya (oxşayış, bənzəyiş) metodu

Yada salmaq yerinə düşər ki, analogiya müqayisə aparmaq üçün istifadə olunan formalardan biridir. Bu o zaman baş verir ki, nəzərdə tutduğumuz hər hansı bir əmtəə, mal, məta, hadisə, vəziyyət, proses onlara müvafiq başqaları ilə müqayisədə eyni çalarlara malik olsun. Hərdən elə olur ki, onların bəzi nişanələri bir-birinə oxşayır, bənzəyir, hətta eynilik təşkil edir, yəni müqayisə apardığımız əmtəə, mal, məta, hadisə, proses, vəziyyət eyni zamanda, bir-birinə uyğun gəlir və yaxud üst-üstə düşür.

Ceyran Günəşi.
Təsadüf, yoxsa havanın şıltaqlığı...

Yanvar 2000 - ci il -«təbiətin insanlara qarşı müharibəsi», görünməyən şaxta və soyuqlar.

Yanvar 2001 - ci il - isti payızdan sonra görünməmiş yağışlar...

Yanvar 2002 - ci il - ağaclar çiçək açır...

Yanvar 2003 - cü il - «soyuq və istinin sövdələşməsi», bir gün isti, bir gün soyuq...

Yanvar 2004 - cü il daşqın, sel, tufan, elə bil ki, aləm dağılır...

Yanvar 2005 - ci il «Dünya dağılır», isti qış küləyi hər şeyi yandırır...

Yanvar 2006 - cı il «daş yağır», dolunun böyüklüyü, hətta qocaları da, dəhşətə gətirir. Onlar belə şey hələ görməyiblər...

Gətirdiyimiz bu misaldan aydın görünür ki, XXI əsrin ilk illərini jurnalist «Təsadüf, yoxsa havanın şıltaqlığı...» sərlövhəsi

ilə verməklə həmin zaman kəsiyində havanın dəyişməsini, təbiətdə baş verən kataklizmləri göstərməyə çalışmışdır. lakin burda diqqəti çəkən əsas məsələ, bu dəyişikliklərin hər il eyni vaxt da, yəni yanvar ayında baş verməsidir. Jurnalist, burda təsadüf olunmanı zamanın analogiyası kimi vermişdir. İndi biz bilirik ki, müəllif doğru söyləmişdir.

c). Ssenari metodu

Məlumdur ki, bu cür metodların inkişafı bir çox mürəkkəb proses, vəziyyət, hadisələrin amil və səbəblərinin təsiri altında yaranır. Ola bilsin ki, müəyyən şəraitin mövcud olması nəticəsində, üstünlük təşkil edən amillərdən biri fakta təsir göstərsin, yəni təsirdən sonra bu hadisədə müxtəlif (tədqiq etdiyimiz hadisənin gələcək vəziyyəti) nəticələr alınsın. Müxtəlif variantları şərh və ifadə etmək özündə hadisənin mümkün inkişafının ssenarisini yaradır.

Bəzən proqnozu qorxulu janr kimi qələmə verirlər. Hər hansı bir hadisənin baş verməsi haqqında olan informasiyadan fərqli olaraq, proqnozu yoxlamaq mümkün deyil. Buna görə də, onu qorxulu və yaxud provakasiya, təhrik, fitnə janrı adlandırırlar.

Təxminən, oxucu qəzet səhifələrindən öyrənir ki, onun pulu saxlanılan bank qısa zaman ərzində alt-üst olacaq, yəni iflasa uğrayacaqdır. Ən əlverişli çıxış yolu, müştərinin həmin bankdan öz əmanətini geri götürməsidir. Əgər bu münvalla hamı öz əmanətini geri götürmüş olsa, bankda nə baş verəcəkdir? Sözsüz ki, bank həqiqətən alt-üst (bankrot, müflis) olacaq! Bankirlər bunu yaxşı bilirlər və həmişə bunu saxta proqnoz, rəqiblərin mübarizə vasitəsi kimi qəbul edirlər.

Bu məsələ haqqında həm siyasətçilər, həm də jurnalistlər yaxşı məlumatlıdılar. Məhz, buna görə də, «proqnozçular» daima opponentlərinin nəzarət və diqqəti, yəni hədəfi altında olurlar. Bu cür dərc olunan proqnozlar, əsasən, daha tez-tez

seçki ərəfəsində baş verir ki, nəticədə siyasətçilər arasında dava-dalaşla müşayət olunur və «müharibə» meydanına çevrilir. (203)

17.VARİANT

Variant-artıq baş vermiş hadisə, vəziyyət haqqında şəxsi fikrin moderinləşdirilərək irəli sürülməsi, bu fikrin kiçik hissəciklərinə kimi arqumentlər əsasında tədqiq və təhlil olunması deməkdir. (203) Həcm etibarilə bu janra məhdudiyyət qoyulmur və çərçivə tətbiq edilmur.

Belə nəşrlər müəllifin ehtimalı, fərziyəsi, gümanı, fikri üzərində qurulur və natamam dəlil və sübutlara əsaslanır. Variant qəti nəticə çıxarmanı özündən kənar hesab edir. Bu janrı törədən əsas dəlil-sübut, gerçəklik və həqiqətin tədqiqatı metodudur ki, onu da «əsassız ehtimal», «uydurma, əfsanə, xəyal» (202) təyin edir. Bədii-ədəbi yaradıcılığın aparıcı mexanizmini bu metod təşkil edir. Bu formanın ədəbiyyat və incəsənətdə rolunu qiymətləndirən mütəxəssislər qeyd edirlər ki, «Ədəbi dildə təqdim edilmiş dəlil-sübutun və bir neçə xüsusiyyət həddinin gərginləşməsi, ehtimalın işıqlandırılması nöqteyi-nəzərindən variant nəticəni daha aydın açır, nəinki, incədən-incə hazırlanmış hesabat.» (63)

Ədəbiyyatdan fərqli olaraq jurnalistikada, həqiqətin bu dərk etmə metodunu adətən qınamalı, pis, çirkin hesab edirlər, çünki o əsaslanmayan və yaxud şübhəli, yəqin-mötəbər olmayan bilik verir. Bunu hər şeydən əvvəl yanlış, düzgün olmayan hadisəyə aid etmək olar, beləki, onun istifadəsi yersiz olardı. Lakin ehtimal, güman, fərziyə tətbiq etmədən jurnalist keçinə bilməz, burda söhbət onun «hissələrə bölünməsindən», (162) uyğunlaşmadan gedir.

Nə vaxt ki, jurnalist məlum olmayan hissəciklərdən, həqiqi məlum olan xəbər, hadisə əsasında yenidən nə isə təşkil etmək istəyirsə, onun ehtimal, güman, fərziyədən istifadə etməsi qaçıl-

maz olacaqdır. Bu metod auditoriyaya imkan verir ki, jurnalistin xəbər verdiyi hadisə haqqında daha aydın təsəvvürə malik olsun. Bu zaman müəllif bu xəbərin hissəciklərə bölünməsinin köməyi ilə auditoriyanın diqqətini öz çıxışına daha yaxşı cəlb etmək üçün əlavə bir şans alır. Güman, fərziyə, ehtimal tətbiq edərkən, variant və yaxud başqa hadisə yaratmaq istəyən müəllif özünün təsdiq etdiyi şərti xarakterə mütləq istinad etməyə borcludur. Bu, onu məqalədə böhtan, şər, iftira atmaqdan, o cümlədən «qəhrəman» tərəfindən günahlandırma və mühakiməyə cəlb olunmadan qoruyur, həmçinin, təhlükəsiz edir.

Auditoriyanı hər hansı bir hadisə və xəbərin «aradakı» analizinin nəticəsi ilə tanış etmək, vaqe olanları, müəllifin təfsirini (kommentariya) oxucu, tamaşaçı, dinləyicinin mühakiməsinə təqdim etmək publisistik variant yaratmaq məqsədi ilə nəticələnir. Variant mövzuda müəllifin düşünmə, fikirləşmə istiqamətini göstərir, auditoriyaya təsvir olunan hadisənin mümkün səbəb-istintaq əlaqələri haqqında informasiya təqdim edir, prosesin sonrakı gedişi üçün proqnoz variantlar verir.

Hər hansı bir (daha çox qeyri-adi) hadisə, vəziyyət, xəbərin çıxış nöqtəsi kimi variant irəli sürülür. Variant mücərrəd, ayrıca, təcrid edilmiş halda törəmir, baş vermir, əksinə, bunun məntiqi nəticəsi olaraq bir müddət sonra ardınca ona oxşar hadisə baş verir.

Variantın inkişafı doğru istiqamətə o zaman yönəlir ki, müəllif sonrakı əsaslar üçün faktlar arasında real plana uyğun səbəb-istintaq əlaqələri axtarır. Məhz bunlarla o, özünün inkişaf gedişini «örtür.»

Variantın inkişafı o zaman doğru istiqamətə yönəlmir ki, müəllif heç bir şeyə diqqəti cəlb etmədən nəyin bahasına olursa olsun öz məqsədini irəli sürsün, bunda israrlı görünsün və öz fikrini əsaslandırmağa çalışsın. Bu cür əsaslandırma aşağıdakı formada olur:

1.Variantı təsdiq etmək üçün müəllif işə aid olmayan faktlardan istifadə edir. Bu zaman o, varianta aid olan,

həmçinin həmin sahə ilə bağlı olan bütün faktları eyni sapa düzür (məsələn, cinayət aləmindən);

2.Müəllif tədqiq etdiyi hadisədə, özünün variantının xeyrinə dəlil-cübut kimi bəhanə olaraq hansısa adamların fikrini əsas gətirir.

Jurnalist variantı formasında informasiyaya qabaqcadan malik olan auditoriya, əvvəlkindən fəqli olaraq, böyük diqqətlə artıq ona məlum olan məlumatla müəllifin əsaslanmış doğru, dürüst, yekun nəticəsi arasında oxşar müqayisə aparır, hadisənin sonrakı gedişini izləyir.

Variantı nəşr etdirən jurnalist həm auditoriya, həm də çıxışda adı çəkilən şəxs, idarə, təşkilat tərəfindən müəyyən reaksiyaya bel bağlaya, məruz qala bilər. Bununla demək olar ki, variant müəllifin, müəyyən mənada, hadisədə baş verən səbəbləri öyrənmək və onda olan doğru istiqaməti müəyyən etmək baxımından istifadə etdiyi yaxşı alət və üsuldur.

Mümkündür ki, variant nəşr olduqdan sonra, müəllif hadisə ilə bağlı kifayət qədər məlumata malik olan şəxsdən doğru-dürüst informasiya alsın, sözsüz ki, bu həqiqətin aşkarlanması nöqteyi-nəzərindən zəncirdə həlqənin əsas rolunu oynaya bilər. Məlumatın bu fomada dərc olunması, variant janrına bəraət qazandırır və onun başqa jirnalistika janrlarının palitrasında əvəzedilməz olmasını təsdiqləyir.

Adətən variant, jurnalist yaradıcılığında, məlumatın əvvəlcədən başqa, daha ciddi-korrespondensiya, məqalə, jurnalist təhqiqatı və sair kimi yalnız həqiqi, yoxlanılmış, mötəbər mənbələrə əsaslanan xəbərə, fakta istinad olunan informasiyanın hazırlanması janrı rolunda çıxış edir.

Ramilə Həsənli.
Hakerlər hücum etdi.

16 yanvar 2012-ci ildə Azərbaycanın 40-a yaxın dövlət saytlarına edilmiş haker hucumları ictimaiyyət arasında birmənalı qarşılanmadı. Bu hadisə ilə bağlı rəsmi dövlət strukturları,

o cümlədən KİV-i müxtəlif variantlar səsləndirdi. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin mətbuat xidmətindən Faktxeber.com-a bildirilib ki, «haker müdaxiləsi Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama və Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusu Rabitə və İnformasiya Təhlükəsizliyi departamentinin serverlərində ki, saytlara olub. Nəticədə bir neçə dövlət orqanının və ictimai təşkilatın saytlarının işində problemlər yaşanıb. Məlumatda haker müdaxiləsinin müxtəlif coğrafi məkanlardakı mənbələrdən həyata keçirildiyi deyilir, amma söhbətin hansı məkanlardan getdiyi açıqlanmır. Vurğulanır ki, lazimi əlavə mühavizə tədbirləri reallaşdırılıb, müdaxiləyə məruz qalan saytlarda ciddi fəsadlar yaranmayıb və hazırda həmin saytlar işlək vəziyyətdədir... Baş vermiş faktın ətraflı araşdırılması aparılır və onlar əsasında beynəlxalq təcrübəyə əsasən müvafiq addımlar atılacaq» deməklə kifayətlənib.

Hadisə ilə əlaqədar İnternet Forum İctimai Birliyinin rəhbəri Osman Gündüz Turan Agentliyinə verdiyi müsahibəsində bildirib ki, «Azərbaycanın İnternet resurslarına belə, yaxşı planlaşdırılmış və kütləvi hücum heç vaxt olmayıb... Bu aksiyanın miqyası və nəticələri Azərbaycana qarşı əsl virtual müharibə başlandığından xəbər verir.» O, da «günahkar kimdir və niyə» suallarına cavab verilməsini istəsə də, konkret olaraq heç nə deməmişdir. APA Agentliyinə müsahibəsində, Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitunun direktoru Rasim Əliquliyev söyləmişdir ki, «Azərbaycanda heç bir sayt haker hucumundan sığortalanmayıb. Hətta... Təəssüfləndirici hal odur ki, Azərbaycanda mühüm dövlət orqanlarının saytlarına hücum edilib...» Bu işə birbaşa cavabdeh olan dövlət strukturlarının, həmçinin ekspertin konkret fikir və yaxud hansısa bir variant söyləməməsi təəssüf yaradır.

Saytlarda AzerianCyberArmy qrupunun müraciəti yerləşdirildiyi xəbər verilir. Cəmiyyətdə isə bu barədə müxtəlif variantlar səslənir. Məhz bu nöqteyi-nəzərdən biz, ölkədə dərc olunan müxtəlif mətbuat orqanlarının irəli sürdüyü variantları misal gətirməklə kifayətlənməli oluruq.

«Gün» qəzeti yazır: «Azərbaycanın dövlət saytlarına hucumun arxasında İran kəşfiyyat orqanları dayanır. Bu, onların Azərbaycan iqtidarının əleyhinə saytlarda yerləşdirdikləri yazılardan açıq-aydın görünür. Azərbaycanın apardığı xarici siyasi kurs, əsasəndə, ABŞ və İzraillə, İranı çoxdan qıcıqlandırır.»

Bundan fərqli olaraq «Sabahın nuru» qəzeti Azərbaycanın dövlət saytlarına olan haker hucumlarında xaricdə yaşayan erməni təşkilatlarının dayandığını bəyan edir və yazır: «Bu məkirli planın arxasında erməni diasporası dayanır. Həmişə olduğu kimi bu dəfə də, onlar Azərbaycan və Ermənistan Prezidentlərinin 23 yanvar 2012-ci il tarixində Soçidə nəzərdə tutulan görüşündə irəliləyişin olmaması üçün bu addımı atmışlar.»

Hadisə ilə bağlı «Narahat» qəzetinin variantı isə tamamilə başqadır. Qəzetin yazdığına görə bu məsələnin arxasında Rusiya FTX-nin dayandığı qeyd olunur və belə bir variant irəli sürülür ki, «Rusiya gələcəkdə «Şahdəniz» yatağından çıxan qaza sahib olmaq üçün bu addımı atmış və bununla da Azərbaycanı qorxu içində saxlamaq marağındadır. Dağlıq Qarabağ problemi ilə bağlı təşkil olunan görüşdə Azərbaycanla Rusiya arasında qaz müqaviləsinin imzalanması bunu birmənalı şəkildə təsdiqləyir.»

Baş vermiş hadisənin üstündən bir neçə gün keçməsinə baxmayaraq rəsmi surətdə heç bir ittiham irəli sürülməmişdir. Ona görə də irəli sürülən başqa variantlar şayiə, rəvayət olaraq qalır. Əlbəttə ki, baş vermiş prosesl ə bağlı verilən variantlar müəyyən arqument və əsaslara söykənir. Lakin istintaq-səbəb materialları, dəlil-sübut və faktlar olmadan nə isə konkret söyləmək və bunun «cinayətlə» əlaqəsini həqiqət kimi dəyərləndirmək olmaz.

Variantın inkişafı həqiqi istiqamətə o vaxt yönəlir ki, müəllif irəli sürülən əsas şayiə və rəvayətlərin içərisində vacib olan hansısa bir elementi tapır və onu real planın daxilinə yerləşdirməklə oxucu auditoriyasında 90 %-li inam yaradır. Bu isə özündə, ən azı, əsas faktla istintaq-səbəb materialları arasında inandırıcı rabitə yaratmalıdır.

18.EKSPERİMENT

Eksperment-(elmi təcrübə, sınaq) baş vermiş hadisə, fakt, problem və vəziyyəti jurnalistin daxildə moderinləşdirmə yolu ilə tədqiqinin nəticəsidir. Bu janr həcm baxımından sərbəst olur.

Eksperment Azərbaycan mətbuatının səhifələrində XX əsrin 80-ci illərində «görünməyə» başladı. Lakin öz məğzinə görə buna oxşar məlumatlara indi «eksperment» (bu başa düşüləndi, çünki ki, həqiqətən tədqiqat metodları belə adlanır) rubrikası adı altında rast gəlinir, halbu ki, bu cür məlumatlar mətbuat səhifələrində on illər boyu dərc olunmuşdur. Yalnız fərq ondadır ki, bu cür məlumatlar başqa «ad» altında-oçerk, felyeton, korrespondensiya və s. adlanırdı. Həmin dövrlərdə nəşr olunan elmi tədqiqat əsərlərini xatırlamaq kifayət edər. Deməli, Azərbaycan mətbuatına eksperment janrı nə yaddır, nə də ki, yenidır. Sadəcə olaraq indi bu ad altında dərc olunan məqalələr, əvvəl ki, dövrlərdə analitik informasiyanın başqa janrları kimi təqdim olunurdu.

Bu niyə belə olmuşdur? Artıq biz, girişdə bu barədə danışmışıq. Məna baxımından əsərin bu və yaxud başqa janra aid edilməsi ona görə gizlədilir ki, müəyyən üsullarla nəşrin fərqlənən tərəflərini, onların «qohumluğunu», təkraredilməzliyini və başqalığını (özgəliyini) göstərmək mümkün olsun. Ola bilər ki, bu mövzunun müxtəlif xüsusiyyətlərə malik olması, ələlxüsusilik, obyektin təsviri, məlumatın yığılması üsulu, dərk və şərh etmə normaları və başqa priyomlar vasitəsi ilə verilsin və onu «nə qədər fakta bölsün» və yaxud «faktlar haqqında nə qədər ideyanın olması» və s. ilə bağlasın. (202)

Son illər mətbuatda apardığımız müşahidələr göstərir ki, müəlliflər tərəfindən həyata keçirilən eksperimentlər bir qrup müstəqil janrların meydana çıxmasına səbəb olmuşdur. Jurnalistlərin bu cəhdi, çağdaş auditoriyanın daha əhəmiyyətli və maraqlı informasiyaya olan tələblərinə cavab verməsi kimi dəyərləndirilə bilər. KİV-nin müasir auditoriyası daha «canlı»

informasiya almağa meyillidir, nəinki çox on illiklər əvvəl baş vermiş...

Nə üçün məlumatın hazırlanmasında müəllif eksperement metodundan istifadə edir? Eksperement auditoriyanın diqqətini cəlb etmək baxımından yetərli hesab oluna bilərmi?

Bu, ən azından, aşağıdakı səbəblərə görə mümkündür:

Birincisi, korrespondensiya, reportaj, hesabat, resenziya və başqa analitik janrlar jurnalistə nisbətən olsa da, passiv mövqedə durmaq imkan yaradır.

İkincisi, müəllif marağında olduğu hadisə, proses və vəziyyətin birbaşa müşahidəsində iştirak edə bilmir, baş verənləri yalnız kənardan öyrənməli olur. Məhz bu prinsiplərə əsaslanaraq yuxarıda qoyduğumuz suala cavab vermiş oluruq.

Jurnalistin prosesdə bu cür passiv iştirak etməsi, ona qəzet və yaxud jurnal səhifələrində maraqlı məlumatla çıxış etmək imkanı vermir. Bundan başqa, müşahidədən tez-tez kənarlaşdırılan jurnalistin verdiyi material qeyri-adilikdən daha çox, gündəlik həyatda baş verən vəziyyətə oxşayır. Bu isə auditoriyanın diqqətini cəlb edən mövzu olmur və müəllifə kömək etmir.

Gündəlik vəziyyəti təsvir edən, lakin onun müəllifi tərəfindən müşahidəyə «qoşulmayan», özünü «orta səviyyəli» əsər kimi təqdim edən, həmçinin auditoriyanın kifayət qədər tez-tez laqeyid, etinasız, maraqsız yanaşması ilə üzləşən jurnalist, bizə onun haqqında müəyyən təsəvvürə malik olmaq imkanı verir. (241)

Adətən eksperiment özündə daha çox müəyyən intriqa, fitnə, fəsad daşıyır. Bu ona görə baş verir ki, eksperimentin bütün iştirakçıları onda iştirak etdiklərini bilmirlər.

Bu nöqteyi-nəzərdən jurnalistlər çalışır ki, xalq tərəfindən nəzərə çarpsınlar və öndə olsunlar. Çox vaxt onlar gözləmək istəmirlər ki, nə vaxtsa arzu olunan münbit şərait yetişəcək və yaxud maraqlı bir hadisə baş verəcəkdir. Həqiqətdə, özünün bütün hüdudları ilə müəllifə nə vaxt belə bir fövqəladə vəziyyət, hadisə, proses, xəbər, vəziyyətin toplusu, yekunu halında yetişəcəkdirr? Əlbəttə ki, bunu heç kim bilmir. Əgər belə bir

hal baş verərsə, onda müəllifə bunu oçerk, korrespondensiya, kommentariya və başqa analitik janrlarda olduğu kimi yazmaq qalır.

Qeyri-müəyyən, uzun müddətli gözləmədən sonra cəmiyyəti, (və yaxud deyək, hansısa mətbuat orqanında, hansısa jurnalistdə) auditoriyanı kəskin maraqlandıran, diqqəti çox cəlb edən ən vacib və müəyyən əhəmiyyət kəsb edən məsələyə aydınlıq gətirilmir. Bu zaman getmək ən zəruri tələb kimi qarşıda dayanır. Eksperimet daha tez-tez qaranlıq məqamlara aydınlıq gətirmək baxımından əhəmiyyətlidir. Qaydalara əsasən, eksperimenti onun üçün tətbiq edirlər ki, hadisələrdə qarşılıqlı gizli rabitəni, mövcud olan hansısa ehtimal, fərziyə, gümanı yoxlamaq mümkün olsun, həmçinin insanlar arasında olan münasibətlər nümayiş etdirilsin. Başqa cür demiş olsaq, eksperimentin müəllifi öz qarşısına tətqiqat tələb edən tapşırıqlar qoya bilər: səbəb-istintaq münasibətlərini üzə çıxartmaq, hadisənin səciyyəviliyini aydınlaşdırmaq, zərurilik vəziyyətini düzgün qiymətləndirmək (bu analitik jurnalistikaya xas olan tapşırıqdır) və s. Eksperiment-bir çox hallarda həqiqəti müəyyən edən ən əhəmiyyətli yollardan biridir.

Lakin nə vaxt ki, jurnalist öz qarşısına daha mürəkkəb tapşırıq qoyur, bu halda müəyyən olunmuş eksperimental sınağı ilk ehtimal kimi lazımi səviyyədə yerinə yetirmək olduqca çətin olur. Qeyd edək ki, jurnalistin birinci addımından çox şey asılıdır, daha doğrusu, eksperimenti təşkil etmək. Ehtimal etmək olar ki, bu mənada diqqəti elmdə təşkil olunan eksperimentə yönəltmək lazımdır. Ən azından, eksperimentin əsasında müəyyən olunmuş tapşırıqla jurnalistin qarşıya qoyduğu problem arasında mütləq yaxşı əsaslanmış sxem tətbiq olunmalıdır. Təəssüflər olsun ki, heç də bütün jurnalistlər bu prinsipi «saymır» və qəbul olunmuş plan tapşırığın yerinə yetirilməsinə «işləyirlər.» (202)

Eksperiment metodundan istifadə etməklə alınan informasiya, gələcək əsərin janrının müəyyən olunmasını söyləməyə imkan vermir. Qeyri-müəyyənlik o zaman baş verir ki, eksperi-

ment yeganə olmur və konkret halda jurnalist materialın hazırlanmasında tədqiqat metodlarından birini tətbiq edir.

Deyək ki, eksperimentlə bərabər, nə vaxt müəllif sənədlərin analizi, müsahibə, sorğu və sairəyə müraciət etməyi lazım biləcəkdir? Alınan məlumatların cəminə əsasən ola bilsin ki, oçerkin və yaxud müəyyən məqalənin və s. təsiri altina düşən əsər yaransın. Bu halda, janrın müəyyən olunması bir neçə janr yaradan faktın qarşılıqlı əlaqəsi nəticəsində meydana gəlir. Yekunda, tətbiq olunan bir neçə həqiqətin başqa metodla tədqiqatı üstünlük təşkil edən fakt kimi qeydə alınmır. Mümkündür ki, ilk növbədə ön plana hansısa başqa nişanələr (materialın ölçüsü, forması, ifadə dili, çıxışı, əsas faktının xırda hissəcikləri və sair və i.) çıxsın. Lakin nə zaman ki, vəziyyətin ehtimalı müəllif tərəfindən mövzuya tətbiq olunur, burda tədqiqat metodu necə olursa-olsun əsas janr yaradan fakt kimi qəbul olunur. Bu planda, yaxşı məlum (klassik) misal-müsahibə janrını təşkil edir. Beləki, əgər müəllif informasiya alarkən yalnız müsahibə metodundan istifadə edibsə, onda tətbiq edilən bu metod müsahibə janrına aid ediləcəkdır.

Eksperiment metodu üstünlük təşkil edən janr jaradan nişanələrlə çıxış edə bilər. Bu, o zaman baş verir ki, eksperimentin keçirilməsində (xüsusilə də, daha xırdalıqlarla) təsvir olunan predmet əsərin başlıca məzmunu olur. Əsəri eksperiment janrına aid etmək, onu deməyə əsas verir ki, *söhbət jurnalistin özü tərəfindən təşkil olunmuş süni, xüsusi konkret-təcrübi vəziyyətdən gedir.* (162)

Burda bir məqama aydınlıq gətirmək lazımdır. Məlumdur ki, elmdə eksperiment həqiqətin empirik metoduna aid edilir. Buna görə də, onun necə metod olması və analitik janr doğurması haqqında danışmaq bir növ nəzakətsizlik kimi başa düşülə bilər. Ancaq bu anlaşılmazlığı aradan götürmək olar, əgər nəzərdə saxlasaq ki, «eksperiment» anlayışı bu halda yalnız göstəriş üçün istifadə olunur. Analiz etdiyimiz vəziyyətin qeyri-adiliyi, onun eksperiment olması ilə bağlıdır və onun analizinin nəticəsində mövzuda janrın «adı» törəyir. Analizin özü isə

həmin metodlara istinad oluna bilər ki, bir çox analitik janrların mövzusunun yaranmasında tətbiq olunur.

Bu janrın nəşrində, jurnalistin əldə etdiyi üstünlük onun mövzu yaratmağa, həmçinin dinamik xüsusiyyətə malik olması və materialı «canlı» təsvir etməyə imkan verməsi ilə bağlıdır. Başlanığıcda analitik material kimi təqdim olunan eksperiment janrı həm də, reportajı birləşdirir. Başqa cür demiş olsaq, eksperimentin müəllifi hər hansı bir hadisəni yalnız analiz etməklə kifayətlənmir, eyni zamanda vəziyyətin yaranmasında reportaja aid olan hissələri birləşdirir və təsvir edir. Müasir mətbuat orqanlarında eksperiment janrından geniş istifadə olunur.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu).
İstehlakçıların hüququ necə qorunmalıdır?

Qəzetimizin «Eksperiment» rubrikası daima oxucu auditoriyasının diqqət mərkəzində olur. Bunu redaksiyaya gələn çoxsaylı oxucu məktubları təsdiq edir. Məhz biz də, çalışırıq ki, hər dəfə rubrikanın mövzusunu oxucuların müraciətləri əsasında quraq. Hamıya yaxşı bəllidir ki, bəzi ərzaq məhsulları olmadan insan keçinə bilmir. Çünki bu qida məhsulları hər bir kəsin gündəlik rasionuna daxildir. Bu sırada çörək, yağ, şəkər, pendir, süd, ət, yumurta, düyü, çay, şirə və bir çox məmulatlar dayanır. Sirr deyil ki, tez-tez bu qida məhsulları obyektiv və subyektiv səbəblər üzündən keyfiyyətsiz olur, standartlara uyğun hazırlanmır, kimlərinsə gəlir mənbəyinə çevrilir. Oxucu auditoriyasının müraciətlərində pendirlə bağlı suallar çoxluq təşkil etdiyi üçün, biz bu günkü rubrikamızı məhz azərbaycanlıların əsas qidası hesab olunan bu məhsula həsr etmək qərarına gəldik. Qeyd etmək istəyirəm ki, şəhərin mərkəzində yerləşən super marketinqlərdən birində aparacağımız eksperiment və bu eksperimentə cəlb edəcəyimiz pendir istesalçıları haqqında alıcılara, həmçinin ekspert komissiyasının üzvlərinə və laboratoriyanın işçilərinə heç bir məlumat verilməmişdir. Hər şey tam məxfi şəraitdə keçirilirdi.

Müsabiqəyə geniş satış şəbəkəsini əhatə edən beş şirkətin istehsalı olan pendir cəlb olunmuş və onlar rəqəmlərlə sıralanaraq məxfi saxlanılmışdır. Bunlar «Çoban çöl»-1, «Nehrə yağı»-2, «Dağlar qoynunda»-3, «Sevimli inəyim»-4 və «Ağ pendir»-5 şirkətləridi və müvafiq olaraq 1-dən 5-ə kimi rəqəmlərlə sıralanmışdır.

Bundan sonra aparılan eksperiment haqqında oxuculara məlumat verilir və nəticədə «Sevimli inəyim»-4 şirkətinin qalib gəldiyi bildirilir. İlk növbədə müəllif tərəfindən qarşıya qoyulan tapşırığı uğurlu adlandırmaq olar. Amma hər hansı bir təcrübəli ekspert və yaxud tədqiqatçı eksperimentin nəzakətsiz aparıldığını vurğulayacaqdır. Niyə?

Ən azı ona görə ki, eksperimenti aparanlar minimum iki səhvə yol vermişlər. Birincisi-eksperimendə müxtəlif yağlılığı olan pendirlərdən istifadə olunmuşdur. Belə olduğu halda sübut kimi başqa bir sual ortaya çıxır ki, onların təmində fərq ola bilərmi? Ritorik cavab:-bəli! Demək eksperiment üçün düzgün şərait yaradılmayıbdır.

İkinci-səhv ondan ibarətdir ki, pendirlər təsnifatı üzrə qruppalaşdırılmayıb. Buna görə də, pendirlərin təmində kifayət qədər fərq olacaqdır ki, bu da müxtəlif dad və ləzzət kateqoriyasına malik olan insanlar tərəfindən, sözsüz ki, birmənalı qarşılanmayacaqdır. Qeyd etdiyimiz bu fərqlər özünü laboratoriya anilizində də, mütləq göstərəcəkdir.

Düşünmək olar ki, müəllif eksperiment aparmağa tələsib və yaxud ən kiçik incəlikləri nəzərə almayıbdır. Eksperiment o vaxt əhəmiyyət kəsb edər ki, mütəxəssis rəyinə əsasən aparılsın və bütün çalarlar onda öz əksini tapsın. Müəllifin bu cür «incəliklərə» müraciət etməməsi eksperimentin uğursuz alınmasına səbəb olmuşdur.

O ki, qaldı «Sevimli inəyim»-4 şirkətinin birinci yerə çıxmasına, ola bilsin ki, müsabiqədə ekspert qismində iştirak edən alıcıların dad-ləzzət bilmə duyğuları nisbətən bir-birinə yaxın olsun və yaxud həmin pendir daha yağlı və həqiqətən keyfiyyətli olsun. Burda əsas məsələ, eksperiment aparmamışdan öncə

mütəxəssis məsləhətinə diqqət yetirmək və bütün parametrləri düzgün qiymətləndirmək lazımdır. Belə çıxır ki, eksperiment istədiyimiz effekti vermədi.

Eksperiment vasitəsilə alınan informasiya heç də, həmişə gələcək janrın müəyyən olunmsına təsir göstərmir. Hər şeydən əvvəl müəyyənsizlik o zaman baş verir ki, jurnalist tərəfindən tədqiqat metodu ilə alınan materialdan məqalə hazırlananda yalnız eksperiment janrından istifadə olunmur və başqa janrlar da, burda öz rolunu oynayır. Sənədlərin analizi, sorğu, müsahibə və s. kimi publisistik janrlar daima eksperimentlə yanaşı «addımlayırlar.» (203)

19.MƏKTUB (EPİSTOLYAR)

Məktub bir jurnalistka janrı kimi, jurnalistlərin şəxsi və işgüzar yazışmaya olan ehtiyacı üçün uyğunlaşma forması nəticəsində yaranıbdır. Məktubun nəşr olunması-artıq insanlar arasında şəxsi yazışma kimi qəbul oluna bilməz. Axı, gələcəkdə nəşr olunan məktub bir şəxsin və yaxud bir qrupun yox, minlərlə, bəlkə milyonlarla, daha doğrusu, kütləvi auditoriyanın mülkü olacaqdır. Belə olduqda, bu janr öz gücü müqabilində yalnız geniş auditoriya üçün ən vacib əhəmiyyət daşıyan maraqlara toxuna və onları təmsil edə bilər. «Şəxsi və yaxud işgüzar yazışmaya qoşulmuş cəmiyyət üçün, ümumiyyətlə mühüm əhəmiyyət kəsb edən ideya, həmçinin mütləq şərait olmalıdır ki, məktub müstəqil jurnalistika janrı olsun.» (121,3-17)

Epistolyar (məktub) janr-bu jurnalistikanın əsasının əsası, təməli sayılan oxucu məktublarıdır. Məktub bütün zaman və dövrlərdə, jurnalistikanın yarandığı ilk gündən mümkün olan materialların əsasını təşkil edibdir. Məktub (epistolyar) janrının aşağıdakı növləri mövcuddur:

1.Məktub-təklif;
2.Məktub-çağırış;

3.Məktub-müraciət;
4.Məktub-şikayət;
5.Məktub-sual;
6.Məktub-cavab.

Redaksiyanın və yaxud jurnalistin baş vermiş hadisəyə diqqətini cəlb etmək məqsədi ilə oxucular birbaşa müraciət ünvanlayırlar. Tarixən insanlar arasında münasibətlərin tənzimlənməsi və qurulması məktublar vasitəsi ilə həyata keçirilib. Azərbaycan dramaturgiyasının banisi M. F. Axundzadə, şair Qasım bəy Zakir, tənqidçi-publisist Firidun bəy Köçərli, jazıçı Yusif Vəzir Çəmənzəminli, yazıçı Abdulla Şaiq, inqilabi satiranın yaradıcısı Mirzə Ələkbər Sabir, həkim-şair Abbas Səhhət və başqa ədiblər epistolyar janrın müxtəlif növlərinin bütün imkanlarından geniş istifadə etmiş və kifayət qədər bəhrələnmişdilər. M. F. Axundzadə yazırdı: «Mənim sizə göndərdiyim məktubları əvvəldən axıra qədər xüsusi bir dəftərə köçürüb saxlayın! Bu məktublar biz öləndən sonra gələcək nəsil üşün tarixi və əntiqi sənədlər olacaqdır.» (192,5)

Məşhur «Molla Nəsrəddin» jurnalında mövcud olan on bir bölmədən, səkkizincisinin məhz, «Poçt qutusu» adlandırılması epistolyar janrın nə qədər əhəmiyyətli və məntiqə uyğun olmasından xəbər verir.

Janrın xüsusiyyətinə müxtəlif zamanlarda cəmiyyətdə baş verən kataklizmlər-iğtişaş, qiyam, inqilab, çevrilişlər, əhali arasında geniş yayılmış hər cür müraciət, çağırış, proklamasiya, bəyanat, vərəqələr əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Bu cür müraciət, çağırış, proklamasiya, bəyanat, vərəqələr qəzet səhifələrində dərc olunurdu ki, bütün bunlar da, jurnalistika üçün izsiz, xətərsiz ötüşməmişdir.

Məktub janrının müəyyən dairələrdə epistolyar jurnalistika adlandırılması (yunan məfhumu olan epistola-sözündən götürülmüş, mənası müraciətnamə, məktub deməkdir) heç də təsadüfdən əmələ gəlməmişdir. Epistolyar jurnalistikanı (janr münasibətində) mətbuatın başqa janrlarından, (qeyddən baş-

lamış hərtərəfli oçerkə kimi) həmçinin bir çox qəzet və jurnal səhifələrində «Bizim oxucuların məktubu» və ya «Oxucu məktubları» rubrikası adı altında dərc olunan yazılardan ayırmağı bacarmaq lazımdır. Bu halda, yəni rubrika sadəcə olaraq sərlövhə kimi götürülür, bu ad altında dərc olunan yazılar poçtla məktub formasında oxuculardan redaksiyaya daxil olur, onları yazanlar redaksiyanın ştatlı işçiləri deyillər. Janrın özünə, bu rubrika altında nəşr olunma heç bir təsir göstərmir və bunu janr yaradan faktor kimi qəbul etmək (hərçənd, başa düşmək olar ki, bu rubrika altında özündə həqiqətən epistolyar nəşri təmsil edən mövzular dərc etdirmək olar) olmaz.

Məktub epistolyar janr olaraq ona məxsus olan xarakter nişanələrinə malikdir. Bu nişanələrdən birincisi-müəllifin adresata vasitəsiz (bilavasitə) müraciət etməsidir (oxucuya, dinləyiciyə). İkincisi-müəllif adresatı çıxış edəcəyi predmetlə bağlı təxirəsalınmaz, fəal hərəkət oyatmağa sövq etməkdən ibarətdir.

Məktubun imkanlarını sadəcə ünsiyyət vasitəsi kimi deyil, həm də, əlaqədə olan hər bir hadisəni müəyyən etmək və geniş oxucu dairəsinə effektiv təsir göstərmək aləti kimi də, başa düşmək olar. (202)

Birincisi-çoxdan məlumdur ki, insanlar öz məktublarında bir-birinə tez-tez ən məxfi fikirlərini etibar edirlər. Buna görə də, onlar hesab edir ki, hərdən başqasının məktubunu oxuyub anlamaq lazımdır ki, sözün əsl mənasında, onların nə düşündüyünü biləsən. Bu cür psixoloji mexanizm onun dərrakəsində (insanın) əsrlər boyu möhkəmlənmişdir. Jurnalistin bunu nəzərə almamağa haqqı yoxdur.

İkincisi-başqa məlumatdan fərqli olaraq, məktubda müəllif özünün ən müəmmalı girintili-çıxıntılı fikrlərini, o cümlədən hər hansı bir hissinin xırda çalarlarla ifadə edə bilir. Bəzən bu qarşılıqlı rabitə, oxucu ilə müəllif arasında əldə olunan ən böyük nailiyyət hesab olunur.

Üçüncüsü-məktub adresatın dairəsini dəqiq adlandırır, hüdudlarını ayırır və sərhəddini müəyyən edir. Auditoriyanın diqqətini fokusa düşən dairəyə yönəldir və məktuba olan reak-

siyanın cavabını gözləyir. Müasir mətbuat tez-tez görkəmli dövlət xadimlərinə (dövlətin rəhbərinə, nazirlərə, deputatlara və b.) müraciət olunan məktubları verir, qısa zaman ərzində onların bu və yaxud «yolverilməz, biabırçı suallara» hesablanmış cavabını gözləyir, məhz belə reaksiya (auditoriyanın «nəzarəti altında») məktubda qaldırılan aktual problemin tez həlli ilə nəticələnə bilər.

Dördüncüsü-çox vaxt məktubun qəzetdə dərc olunması-adresat tərəfindən açıq çağırış kimi qəbul olunur, yəni qarşı tərəf onu ümumi «meydançaya» dəvət edir (bu radio-tele efir məkanı, mətbuat səhifəsi və yaxud geniş auditoriya ola bilər) və burda o çalışmalıdır ki, nəinki öz peşəkar üstünlüyünü və yaxud öz səlahiyyətini, həm də, cəsarətini, intellekt səviyyəsini, əxlaqını və s. şəxsi keyfiyyətlərini nümayiş etdirsin. Həqiqətən, hər kəs opponenti ilə üzbə-üz dayanaraq, yarışda olduğu kimi, mərdi-mərdanə çıxış edə bilməz. Buna görə də, çox az insan tapılar ki, bu cür çağırışlara cavab versin (əsasəndə, vəzifədə olan məmur və hökumət nümayəndələri). Ola bilsin ki, nəticədə müəlliflə adresat arasında görünməyən, anlaşılmaz münasibət yaransın və ayıq auditoriya bu münaqişəni sezsin. Ehtimal oluna bilər ki, bu oxucunun diqqətini cəlb edəcək, onu gərginlikdə saxlayacaq və çalışacaqdır ki, qəzetin və yaxud jurnalın növbəti sayını səbirsizliklə gözləsin. (162)

Beşincisi-jurnalistikanın məktub janrında müəllif, adresat, məktubun yazılmasını sifarış verən şəxs, nəşrin redaksiyası, bir sözlə, bütün tərəflər məlum olur. Məhz, buna bahəm bəzən elə olur ki, məktub mətbuatda dərc olunduqdan sonra proses məhkəmə zalında davam etdirilir.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu). Azərbaycan Respublikasının Prezidenti İlham cənab Əliyevə müraciət.

Sizin Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, tarix və etnoqrafiyasına, musiqisinə göstərdiyiniz yüksək və isti münasi-

bət bütün xalqımıza yaxşı bəllidir və bu çox xoş qarşılanır.

Bir ədəbiyyatşünas, pedaqoq və publisist kimi böyük iftixar hissi və duyğusu ilə deyə bilərəm ki, bir neçə il bundan əvvəl Sizin sərəncamınıza əsasən Azərbaycan şair, ədib, yazıçısı və alimlərinin kitabları hərəsi 25.000 nüsxə tirajla nəşr edilib məktəblərə, kitabxanalara və elmi-tədqiqat müəssisələrinə pulsuz paylanmışdır və bu nəcib proses bu gün də davam edir.

Bu sərəncamın məntiqi nəticəsində əlifba fərqliyi ilə ədəbi-bədii irsimizdən ayrı düşmüş çağdaş oxucu kütləsi yenidən çox zəngin mənəviyyat xəzinəmizlə qidalanmağa başladı.

Nəşr olunan kitablar arasında tədqiqatı ilə məşğul olduğum Azərbaycanın görkəmli pedaqoqu, tənqidçi-alimi, publisist-tərcüməçi Firidun bəy Köçərlinin «Azərbaycan ədəbiyyatının tarixi materialları»nın olması məni daha da sevindirdi və bunu yüksək qiymətləndirirəm.

1920-ci ildə rus-erməni şovinizminin qurbanı olan bu ədəbiyyatşünas alimə qarşı sovet imperiyası dövründə biganə yanaşılmış və onun əsas silahı hesab olunan, rus və erməni yuxarı dairələrini təşvişə salan publisistikası tədqiqatdan kənarda qalmış, «materialları» və başqa işləri unudulmağa başlamışdır. Məhz Sizin sərəncamınız nəticəsində «Azərbaycan ədəbiyyatının tarixi materialları» kitabının nəşri, ümumiyyətlə Firidun bəy Köçərli irsinin yenidən, daha dürüst və sanballı araşdırmasına imkan yaradılıbdır.

Mən, «Firidun bəy Köçərlinin publisistikası» adlı elmi tədqiqat işinə başladım və araşdırmanı başa çatdıraraq uğurla dissertasiya müdafiə edib filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi aldım. 2011-cu ildə «Firidun bəy Köçərlinin publisistikası» adlı (müqəddimə, beş fəsil və nəticə) monoqrafiyanı nəfis formada nəşr etdirərək oxucu auditoriyasına təqdim etdim. Düzdür, bu tiraj dəryada bir damla mənziləsində hesab oluna billər. Ancaq nə etmək olar, bu mənim imkanlarım çərçivəsində olan işdir...

Son dəfə Firidun bəy Köçərlinin «Seçilmiş əsərləri» 1963-cü ildə, akademik Kamal Talıbzadənin redaktorluğu ilə, ədibin

anadan olmasının 100 illik jubileyi münasibəti ilə dərc olunubdur. Həmin dövrün siyasi məfkurəsi akademik Kamal Talıbzadəyə imkan verməyibdir ki, ədibin bütün publisistik əsərlərini kitaba cəlb etsin və həqiqəti əks etdirən «Müqəddimə» yazsın.

Son illər Firidun bəy Köçərlinin publisistikasının tədqiqatı ilə məşğul olduğumdan onun indiyə kimi heç yerdə dərc olunmayan, əsasəndə 1906-1916-cı illəri əhatə edən «İrşad», «Tərəqqi», «Səda» və «Yeni İqbal» qəzetlərində dərc olunan 19 məqaləsini və yeni müqəddiməni işləyib ərsəyə gətirmişəm.

26 yanvar 2013-cü ildə Firidun bəy Köçərlinin anadan olmasının 150 illiyi tamam olacaq. Odur ki, Sizdən çox xahiş edirəm, «Firidun bəy Köçərlinin publisistikası» və» Firidun bəy Köçərlinin «Seçilmiş əsərləri» (yeni müqəddimə və 19 yeni məqalə ilə birlikdə) kitablarının nəşr olunmasına, həmçinin ədibibin layiqli yubileyinin keçiriməsinə dair göstəriş və tövsiyələrinizi verəsiniz. Bu, böyük pedaqoqun ruhuna qida, rus-erməni şovinizminə tutarlı sillə, Azərbaycan xalqı üçün qalibiyyət təntənəsinin başlanığıcı ola bilər. Əmin olmaq istəyirəm ki, xahişim diqqətinizdən kənarda qalmayacaqdır. Sizə can sağlığı və uğurlar arzulayıram.

Ünvanına göndərilmiş məktub auditoriyanın xarakterindən asılı olaraq iki əsas qrupa böıünə bilər:

Birinci qrupa-konkret şəxsə ünvanlanmış məktub. Bu cür dərc olunmuş məlumat, özünün aydın sərhəddi ilə şəxsiyyətlər arasında mümkün olan ünsiyyət vasitəsinə, ekspressiv, təsirli, səmimi apellyasiyaya aiddir. Adresat danışıq mövzusuna uyğun olaraq, onun hərəkətinə, rəftarına, həll etmə qabiliyyətinə, bu mövzu ilə bağlı olan reaksiyayasına yiyələnir. Burda, məktub müəllifinin «qandallanmaq» dərəcəsi nə qədər böyük olasa da, sosial vəziyyətinə görə adresat ona bir o qədər yaxın olacaqdır. (241)

İkinci bölməyə isə, hər hansı sosial qrupa, bütünlükdə, ölkənin əhalisinə ünvanlanmış məktub daxildir. Burda bir misala nəzər yetirsək daha yaxşı olar.

Aleksandr Novikov.
Filip Kirkorovun məktubuna cavab.

Ah, Filip, Filip! Sənin bütün həyatın-yalan, uydurma... Sən bütün həyatın boyu yalan danışırsan. Buna baxmayaraq, sənin yaradıcılığın da, müxtəlif çalarlıdır... Sən çoxdan başlamısan. Əlbəttə ki, onda sən «Avrovijin»ın seçim konkursunda iştirak etmədin, ancaq ora getdin...Nə vaxt ki, sən Monte-Karloya «Rusiyanı təqdim etməyə» gəldin-yenə də, yalan danışdın: Rusiyadan səni, səndən başqa heç kim ora göndərməmişdilər. Bunun üçün sən heç nə etmədin... Nə vaxt ki, evləndin-onda da, sən yalan danışdın. Dedin ki, onu sevirsən-yalan danışdın. Səhnədən bütün ölkəyə dəhşətli və qorxulu: ucuz və bərkdən ... «Yaramazcasına», görürsənmi, buna bax, mənə ləğəb verdin. Xa-xa! Və burda da, yalan danışırsan ... Həmişə yalan danışırsan, yalan danışırsan, yalan danışırsan, ulduzlu əclaf ...

Hər hansı bir epistolun (məktub, namə) hazırlanması prosesi, müəllifin nəşrin məqsədini dərk etməsi zamanından başlayır. Dəyər baxımından burda, daha tez-tez aşağıdakı amillər çıxış edir:

1.Açıq bəyənilmə, təqdir etmə; tərifləmə;
2.Açıq məzəmmət etmə, töhmət;
3.Açıq təklif; təklif etmə;
4.Açıq təvəqqi, xahiş, rica;
5.Açıq tələb etmə; istəmə; tələbnamə;
6.Açıq məlumat, xəbər, parol; şeytançılıq, çuğul, xəbərçilik;
7.Müraciətnamə; çağırış.

Hal hazırda bir məqsədi güdən məktublar yoxdur. Bir neçə məqsədi özündə birləşdirən məktublar dərc olunur. Həmişə yaxşı epistolun (məktub, namə) aparıcısının başlıca məqsədi özü haqqında daha aydın məlumat verməkdən ibarət olubdur.

Məktub öz əsas tapşırığını yerinə yetirmək üçün, adresatı müəllifin düzgün mövqe tutmasına inandırmalı, mütləq o cür hərəkət etməlidir, necə ki, bunu janr tələb edir. Bu isə bir çox halda, müəllifin əsaslandırılmış fikir, mülahizə, mühakiməsinin xüsusiyyətindən asılıdır.

Adresat tərəfindən ciddi reaksiyaya məruz qalmaq istəyən nəşr, həmişə müəllif tərəfindən inandırıcı sübut və dəlillərlə gücləndirilməli və faktlar auditoriya üçün aydın olmalıdır. Təəssüflər osun ki, təcrübədə həmişə belə olmur.

20.AÇIQ ETİRAF (TÖVBƏ)

Etiraf (boynuna alma, tövbə)-«ürəyin səsi» deməkdir. (160) Bu cür mövzular oxucu poçtundan doğur. Hər hansı bir şəxsin öz daxili gərginliyini açması, etiraf etməsi onun xüsusiyyətinin səmimiliyi və düzgünlüyündən irəli gəlir. Demək, bir jurnalistika janrı olaraq etirafın mövzularının əsasını, birinci sətrdə qeyd etdiyimiz kimi, müəlliflərin daxili «dünyası» təşkil edir. Bu cür mövzuların hazırlanmasında öz-özünü təhlil etmə başlıca vasitə sayılır. Jurnalistikanın bu janrı öz kökünü ədəbiyyat, fəlsəfə və dindən alır. Böyük fransız filosofu və yazıçısı Jan-Jak Russo iki yüz əlli il bundan əvvəl özünün növbəti kitabını bu sözlərlə başlamışdır: «Mən tayı-bərabəri olmayan və təqlidçi tapmayan vahid bir işə başlayıram. Mən özümün həmqardaşlarına bir nəfərin bütün həqiqətini, onun təbiəti ilə göstərmək istəyirəm və bu adam mən özüm olacam.» (134) Onun kitabı çox qısa adlanırdı: «Tövbə» və yaxud «Etiraf».

Yazıçı vəsiyyət etmişdir ki, onun kitabını 1800-cü ildən tez çap etdirməsinlər. O, istəmirdi ki, dostları və tanışları kitabı onun sağlığında oxusunlar. Jan-Jak Russonun açıq etirafı, yalnız bir Allaha ünvanlamışdır. Kitabı indiyə kimi minlərlə sadə insanlar oxuyub. Onların qarşısında açıb göstərmək (ifşa etmək) ki, küfrlik kafirlikdir, yoxsa Yaradanın qarşısında öz həqiqətini açıb göstərmək? Bu dünyada «azad fikirli», dahi, məşhur Rus-

sodan başqa daha kim belə və yaxud buna uyğun bir addım ata bilər? Lakin filosofun öz əməyi ilə yaratdığı həmin dövrdən tarixilik baxımından çox da böyük olmayan bir zaman keçməsinə baxmayaraq, onun ardıcılları tapıldı, onlar yalnız kitablarda «etiraf» etmirdilər, bir qayda olaraq mətbuatda artıq öz oxucularını heç cürə xəbərdarlıq etmədən, onların növbəti «təqlidçi»sinin tapılmayacağından çəkinmirdilər. Elə həmin dövrdən, etiraf adəti üzrə jurnalist janrı olaraq qaldı.

«Həm orta səviyyəli, həm qeyri-adi, həm də, dahi insanların mətbuat orqanlarında «etiraf, tövbə etmək, boynuna almaq» arzuları bir çox hallarda tez-tez baş verirdi. Bunu isə başa düşmək olar.» (100,235-237) Bu halda sual başqa cür səslənir: nə üçün bizim müasirlərimiz daha tez-tez öz etiraflarını mətbuatda dərc etdirməyə üstünlük verirlər?

İnsanlardan aldığımız məlumatlara əsasən belə qənaətə gəlmək olar ki, Allah qarşısında olan açıq etiraf hansısa bir nəticə gətirir, amma insanların qarşısında duran tamamilə başqa şeydir. Açıq dini etiraf insana nə verir? Mömünlər çox yaxşı bilirlər ki, bu əhəmiyyətli bir işdir. Dini etirafda həmişə şəhadət və göstəriş var. İnsan öz hərəkətini Allahın ehkamı və vəsiyyəti ilə müqayisə etdikdə, ola bilsin ki, əzab-əziyyət hiss etsin, bu zaman həmin ağırlığı yalnız dini etiraf götürə bilər. Bu prosesi yerinə yetirənlər çox vaxt dərin və səmimi rahatlaşma keçirir, sakitlik tapırlar. Onlar üçün məhz, «günahın bağışlanması», mənəvi təmizlənmə olduqca əhəmiyyətlidir. Burda etirafı qəbul edən axund, rahib Allah Təəaala ilə mömin, dindar arasında yalnız vasitəçi funksiyasını yerinə yetirir.

Özünün etirafı ilə geniş auditoriyaya müraciət edən insanın məqsədi tamamilə başqadır. Çünki burda vasitəçilik rolunu jurnalist öz üzərinə götürür və çox halda həmin etiraflar onun fəaliyyətinin əsas məqsədi ilə üst-üstə düşür. Sözün həqiqi mənasında, «açıq etiraf, tövbə» jurnalistikanın törəməsinə səbəb oldu. Burda məqsəd nədir? Mətbuatda tez-tez təqdim olunan açıq etiraflarda bəzi məqsədlərin nəzərə çarpdığının görürük. Həmin məqsədləri sistem formasına saldıqda aşağıdakı struk-

tur formasını almış oluruq:

1.Qeyri-adi hərəkəti, rəftarı aydınlaşdırmaq.
2.Fəlakətin, bədbəxtliyin öhdəsindən gəlməyi göstərmək.
3.Uğurlu karyera, peşə təcrübəsini bölüşmək.
4.Özünü reklam emək.

Bu və buna oxşar məqsədləri izləyən etirafları şərti olaraq sosial-pedaqoji yönümlü açıq etiraf adlandırmaq olar. (162) Lakin bu məqsədlər qətiyyən etirafın həqiqi çalarlarını tükəndirmir. Hətta demək olar ki, bu günkü mətbuatda dərc olunan açıq etirafların əsas kütləsi heç də, onları izləmir. Çıxışların böyük bir hissəsi açıq etirafın planına uyğun olaraq reklam-komersiya yönümlüdür. (100)

Bununla bahəm, onların əsas məzmununu, «özünü reklam» sözü ilə müəyyən və yaxud ifadə etmək mümkündür. Təcrübəli jurnalist bunu irəlicədən müəyyən etməyə borcludur. Qəzet və jurnal səhifələrində açıq etiraf nə cür peyda olacaqdır? Məlum mənada, bu sual artıqdır və ona ehtiyac duyulmur. Çünki, bu cür müəyyən etmə daima olub, var və olacaqdır. Hətta jurnalist, belə bir görüntü yarada bilər ki, «hər şey açıq etirafın müəllifinin əlindədir.» Qəhrəmanın seçiminə mətbuat orqanının öz səhifəsini həvalə etməsi, çıxışa təklif olunan mövzu artıq onun xüsusiyyətinə öz təsirini göstərəcəkdir. (202)

Birincisi, açıq etirafın necə hazırlanmasında, jurnalistin qəhrəmanın dediklərini yazması və yaxud sadəcə olaraq ondan müsahibə alması çox əhəmiyyətlidir. İkincisi, jurnalistin iştirakı böyük ölçüdə çıxışın məzmununa təsir göstərə bilər. Onda jurnalist, qəhrəmanın verəcəyi məlumat üçün bu və yaxud başqa mənada öz üzərinə müəyyən məsuliyyət götürə bilər. Buna görə də, çox əhəmiyyətlidir ki, müəllif «etiraf edənin» «oriyentasiyasını» özü düzgün analiz etsin, heysiyyatının ölçüsünü itirməsin. (100) Təəssüfər olsun ki, jurnalistlər bu incə məqamı çox vaxt unudurlar. Hərdən «təşkilatçı» sadəcə olaraq öz qəhrəmanını

provakasiyaya təhrik edir və nəticədə həmin şəxs öz çıxışında elə məlumatları oxucu auditoriyasına açıqlayır ki, sağlam düşüncədə heç zaman bunu etməzdi. «Speys» televiziyasında yayımlanan «Açıq etiraf» verlişini buna əyani misal göstərmək olar.

Jurnalistlər olduqca tez-tez açıq etiraf edənə şəxsi həyatlarının müxtəlif maraqlı, cazibədar, qaranlıq, kədərli, tutqun və sair anlarını tamamilə aydın və xırda hissəciklərinə kimi ifadə etməyə geniş imkan verir, bəzən onları buna təhrik edir, özləri isə belə demək mümkünsə, danışana münasibətdə «qəsdən susan fiqur» forması yaradaraq açıq etirafda gedən söhbəti dinləyir, prosesin gedişini kənardan izləyir. Bu, jurnalistə bir tərəfdən çıxışın mövzusundan aralı durmaq imkanı verirsə, digər bir tərəfdən «qazanc» məqsədilə tilovuna müəyyən sayda təvazökar, iddiasız oxucu ilişdirir. (241)

Hərdən jurnalistlər özlərinin susmalarını əsaslandırmaq üçün, bəhanə olaraq-mətbuat guya fakt verməyə, cəmiyyətin acı, zəhərli sözlərini açıqlamağa, onları kommentariya etməyə borclu deyil, fikirlərini irəli sürməklə birbaşa cavabdan yan keçərək-qoy oxucular özləri seçim etsin,-deyirlər. Bunu etməyi bacaran «müəllifin qəsdən susması» ilə qarşılaşan insan, hansı seçimi edə bilər? Ehtimal etmək olar ki, cavab belə səslənəcək: «Susmaq razılıq əlamətidir.» (203) Nəticədə, daha ciddi oxucular çıxıb gedirlər. Lakin buna baxmayaraq qəzet və yaxud jurnalın auditoriyası, şübhəsiz ki, azalmır, əksinə, çoxala bilir. Bu isə, yalnız tənəzzülə uğramış oxucu kütləsinin hesabına ola bilər. Vəziyyətin bu cür olması mətbuat orqanını tamamilə narahat etmir, çünki onun əsas istiqaməti, hər şeydən öncə, kommersiya uğuru ilə bağlıdır.

Açıq etiraf nə ilə jurnalistikanın başqa janrlarından fərqlənir? «İnkişaf etməmiş», «məhdudlaşdırılmış», özündə təhlil (açıq etirafın əsas nişanəsi) elementlərinin ən müxtəlif formasını əks etdirən-qeyd, korrespondensiya, resenziya, məqalə və s. janrlarda onu görmək mümkündür, yəni hardakı jurnalistin şəxsən «mən» ifadəsi iştirak edir. Lakin janrların çıxışı üçün

öz-özünə təhlil əsas məqsəd deyil. Açıq etiraf müəllifin gələcək çıxışına və mövzunun məzmununa, hər hansı fikri aydınlaşdırmağa, nəşrə ekspressiv, təsirli, obrazlı başlanğıc gətirməyə, vəziyyətin gərginliyini göstərməyə nisbətən də olsa kömək edir. Nə zaman ki, etiraf edən özünün təhlilində yardımçı faktdan, mövzunun əsas məqsədini daşıyan vasitələrdən birinə keçir, o zaman original və tamamilə müstəqil janr-açıq etiraf (162) meydana gəlir.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu).
Heyif ki, zamanı geri qaytarmaq olmur...

Bir zaman var idi ki, mənim hər sözüm ağzımdan çıxmamış yerinə yetirilirdi. Onda mən ölkədə aparıcı siyasi partiyanın yuxarı kürsüsündə, mühüm yerlərdən birini tuturdum və orda da möhkəm əyləşirdim. Sözümün əvvəli də, axırı da «qılınc kimi kəsirdi.» Yan-yörəmdə olanlar paltomu tutmağı, çay gətirməyi, avtomobilin qapısını açmağı, əlqabını su ilə doldurmağı, ayaqqabımı cütləməyi, başqalarından mənə xəbər verməyi və sairəni özləri üçün böyük şərəf hesab edirdilər. Hələ, heç mənim sözümlə Milli Məclisə deputat seçilənləri, nazir və nazir müavini təyin olunanları, rayon icra hakimiyyətlərinə başçı təyin olunanları və başqalarını, hələ heç demirəm...

Ayba-ay yuxarı vəzifəli dövlət məmurlarından bəxşiş kimi masamın siyirməsinə qoyulan dəstə-dəstə pul bağlamalarını, zərfləri və verilən bahalı qonaqlıqları, qulluğumda dayanan xanımları, evimə gətirilən ən ləziz ərzaq məhsullarını və bir çox başqa deyilməsi mümkün olmayan halları, hələ heç demirəm...

Nazir olduğum zaman prezident aparatına işə düzəltdiyim, öz nazirliyimə apardığım, partiyada irəli çəkdiyim, xaricə və daxilə ezamiyyətlərə göndərdiyim, konsul, mətbuat katibi və jurnalist etdirdiyim insana oxşayan məxluqları, hələ heç demirəm...

Vaxtilə bir «qara köpək» kimi qapımdan əl çəkməyən, kölgəm kimi arxamca hərlənən, hər nə məndən buyrulurdusa

həmən yerinə yetirən, mənim hesabıma elmi dərəcə alıb özünü «alim» sayan, deputat olub universitetdə dərs deyənləri, həmin siyasi partiya da yuxarı kürsülərdən birində əyləşib, bu gün mənə yuxarıdan aşağı baxanları, indi məni saymayanları, hələ heç demirəm...

Sözün doğrusu indi də, vəziyyətim pis deyil. Keçmiş imperiyaya daxil olan respublikalardan birində neçə ildir ki, səfir kimi çalışıram. Yenə də, əlimin altında kifayət qədər buyruqçum, saunada süpürgə vuranım, massaj edənim, hələ yan yörəmdə olan gözəl-göyçək xanımları, aldığım rüşvəti, əla yaşayış tərzini, hələ heç demirəm...

Amma hərdən oturub keçmişə boylananda, görürəm ki, mən də, çox səhflər, çox haqsızlıqlar etmişəm. Mənim ucbatımdan ər arvadından boşanıb, uşaqlar atasız-anasız qalıblar, «kişilər» öz mənliklərini itiriblər, kimlərsə arvadının daş-qaşını satıb mənə rüşvət, bəzəndə, rüşvət yerinə elə daş-qaşın özünü verib, neçə ailəni mənzilsiz qoymuşam, dövlətin partiyaya ayırdığı pulu geninə-boluna xərcləmişəm, neçə «kişini» Həccə yola salıb xanımı ilə başqa şəhərə istirahətə getmişəm. Hələ heç bunları demirəm...

Lakin nə etmək olar ki, hər zamanın bir hökmü olduğu kimi, hər yaş dövrünün də öz tələbləri var. Mən də, çalışmışam ki, bu tələbləri ödəyim. Necə deyərlər canıma qulluq göstərim. İndi artıq yaşım altmışı keçib, məhz ona görə də istəyirəm səhflərimi açıq etiraf edim və Allah qarşısında tövbə edim ki, bir daha bu cür nanəcib əməllərə qol qoymayacağam. Hər şeyim var, amma mənəvi rahatlığım yoxdur. Çünki yaş öz sözünü deyir. Həvəsdir, bəsdir,-deyiblər- o günü görməyən yazıq atalar. Bir müddət fikirə gedir və sonda qərara gələrək deyir: «Ayıbdır, bir də belə əməllərə yol verməərəm. Qoy Allah günahlarımdan keçsin. Heyif ki, zamanı geri qaytarmaq olmur. Yoxsa hər şeyi sahiblərinə qaytarardım. Tövbə, əsla tövbə, bir də tövbə ...»

21.TÖVSİYƏ, MƏSLƏHƏT, ZƏMANƏT

Tövsiyə, məsləhət, zəmanət-məsləhət janrı ilə eynidir. Yalnız burda bir fərq var ki, o da necə? və nə? suallarının olmasıdır. Bu janrda niyə?, nəyə görə?, nə səbəbə?, nə üçün? sualları verilir və onlara cavab alınır. Əlbəttə ki, başqa cür ola da bilməz. Bu janrın həcmi sərbəst olur. (202)

Tövsiyə, məsləhət, zəmanətin özündə nəyi əks etdirdiyi hamıya yaxşı bəllidir. Əgər tövsiyə, məsləhət, zəmanətin məzmun və mahiyyəti sayılan informasiyanın forma və yaxud modeli haqqında danışsaq, deyə bilərik ki, bu proqramlı informasiyadır. Yuxarıda nəşrin forma və modeli haqqında, daha doğrusu, «mini-məsləhət» bölməsində söhbət açarkən biz bunu informasiya janrına aid etmişdik. Tövsiyə, məsləhət, zəmanət analitik janr da, ola bilər.

Bu tip nəşrlər əmr, sərəncam, fərman və təlimatın özünün tərkibində, «açılma» nəticəsində, onların əsaslandığı, dəlil-sübut gətirdiyi, səbəb-istintaq əlaqələrinin müəyyən olunduğu, həmçinin qiymətləndirmə və proqnozlaşdırmada aparılan mülahizələr zamanı belə keyfiyyətə malik ola bilirlər.

Mətndə sübut olunacaq müzakirə və müqayisənin olması, o cümlədən səbəb-istintaqın təhlilinin aparılması tövsiyə, məsləhət, zəmanəti analitik janr edir. Həmçinin mətnin məzmununda oxucuya məsləhətin yer alması imkan verir ki, tövsiyə, məsləhət, zəmanət və yaxşı rəyi analitik janra aid edək.

Veydəddin Pirəliyev (Vidadi Həsınoğlu).
İnsan bəxtini harda axtarmalıdır?

İndi ki, gənc nəsil öz hissiyyatını aşkarlamaqda daha sərbəst sayılır, nəinki bir neçə on il bundan əvvəl olanlar. Əgər biz, son zamanlar baş verən ailə-məişət problemlərinə diqqət yetirmiş olsaq bunun canlı şahidi ola bilərik. Son zamanlar baş verən eşqbazlıq, asanlıqla tanış olma prosesi, məsləhətə və tövsiyələrə qulaq asmamaq, utanmadan öz hisslərini aşkarlamaq,

dözümsüzlük və sair bu kimi hərəkətlər ailə-məişət zəmnində fəsadların yaranmasına gətirib çıxarır. Bu məqamda, yeni nəsil bir çox komponentlərinə görə özündən əvvəl ki, nəslə uduzur. Çünki əvvəllər gənclərin ailə qurma prosesi böyük nəslin nəzarəti, məsləhəti, tövsiyəsi və ən əsası isə, milli adət-ənənələr əsasında həyata keçirilirdi.

Bu gün isə gənc nəsil bir-biri ilə kafe, restoran, bar, konsret, idman və rəqs salonlarında, son vaxtlar isə mobil telefon və internet vasitəsi ilə tanış olurlar. Bu tədbirlərdə gənclərə təklif olunan alkoqol tərkibli cürbəcür kokteyl, dondurma və şirələr, həmçinin tünd tərkibli kofe və tütün məmulatları, səs-küylü musiqi nömrələri, «Dəli Kür» filmində ki, oyunlara gətirib çıxarır və nəticədə şüur pozğunluğu yaranır, hərənin öz üzərində olan nəzarəti itir və nələrin baş verəcəyi bilinmir, şəhvət hisləri baş qaldırır və sonda facia baş verir. Bu cür həyat tərzi gəncləri lazımsız intibaha daşıyır, intim hissiyatı oyanır və gənclər də, məsləhətsiz evlənmə, ərə getmə kimi hallar ön plana keçir. Belə səviyyədə baş verən tanışlıq müxtəlif formalı nigahlara, sonda isə ailə-məişət fəsadlarının yaranmasına gətirib çıxarır. Nəticədə, dağılan talelər, kimsəsiz qalan körpələr, küçəyə atılan qadınlar, başqa neqativ hallara alışan oğlanlar və s. bu kimi cəmiyyəti korlayan hadisələr törəyir.

Təhliyin beş səbəbi:

Nə üçün subay oğlanlar və qızlar bir-biri ilə görüşə bilmirlər?

Birincisi, onlar öz işlərinə məftun olurlar və yaxud şəxsi həyat tərzi üçün vaxt tapmırlar və yaxud da, özlərinin maddi vəziyyətini yaxşılaçdırmaq haqqında düşünmürlər (beləsinə kim ərə gedər və yaxud evlənər).

İkincisi, həyatın zərif, incə və gözəl yarısı hesab olunan qızlar, ali təhsil diplomu aldıqdan sonra, elmi dərəcə almaq haqqında fikirləşir və həyatını laqeyd kiminsə əlinə vermək istəmirlər, ən azı, onlar özlərinə uyğun olanını axtarırlar.

Üçüncüsü, kişilərin qadınlara, qadınların kişilərə olan ehtiyacı azalıb. Beləki, paltarı kimyəvi təmizləmə və paltaryuma sexlərinə verməklə, evdə yarımfabrikatları mikrodalğalı sobada qızdırmaqla, bioloji tələbatı ödəmək məqsədi ilə müxtəlif yönümlü salonlara getməklə yerinə yetirmək olur.

Dördüncüsü, qadınlar yaxşı qazandıqları üçün kişiyə olan maddi və mənəvi tələbata ehtiyac duymurlar. Evdə olan bütün nasazlıqları xidmətçiləri dəvət etməklə aradan qaldırmaq olur. Birsözlə, kişi ilə bərabər ailə büdcəsi yaratmağa ehtiyac duyulmur.

Beşincisi, hər iki cinsdən olan-kişi və qadın müstəqilliyə, sərbəstliyə, azadlığa öyrəşdikləri üçün asılı vəziyyətə düşmək, məsuliyyət daşımaq və s. ümdə məsələlərdən uzaq olmaq istəyirlər.

Ailə qurmağın on altı əsas səbəbi:

1.İşdə və təhsildə tanış olma;
2.Siz daima bir-birinizi görürsünüz;
3.Bir-birinizə yaxşı bələd olursunuz;
4.Bir-birinizin mənfi və müsbət tərəflərini öyrənirsiniz;
5.Görüş üçün nə isə düşünməyə ehtiyac qalmır;
6.Bütün bayram və şənlikləri bir yerdə keçirirsiniz;
7.Təcrübəni və yaxud eyzamiyyəti birlikdə yola verirsiniz;
8.Bir-birinizə maddi və mənəvi dayaq olursunuz;
9.Heç bir səbəb olmadan oğlan qızı evlərinə ötürür;
10.Hər ikisinin elmi və ixtisas istiqaməti eyni olur;
11.Həyata baxış və düşüncədə fərq olmur;
12.Artıq söz-söhbət üçün yer qalmır;
13.Bir-birinin kulinariyaya olan zövqü öyrənilir və formalaşır;
14.Geyimə, rəngə, makiyaşa olan instinq formalaşır;
15.Hər ikisində büdcə yaratmaq, mənzil, maşın almaq arzusu meydana gəlir;
16.Ailə qurmaq, övlad dünyaya gətirmək istəyi baş qaldırır və s.

Yeddi xeyirli məsləhət:

Psixoloqların araşdırmalarına görə tanış olma insan üçün əsas mane hesab olunur. Bu məsələdə ən vacib çətinlik kişilərin üzərinə düşür. Çünki qızlar heç vaxt tanış olmağa cəhd göstərmirlər, ancaq buna cəhd edənlər də, istisna deyil və sözsüz ki, bunun da öz yolları var. Bəzi qızlar belə tanışlıq modelindən məharətlə istifadə edirlər. Tanış olmağa risk etmədiklərinə görə saysız-hesabsız oğlanlar öz arzularına, bir o qədər də, qızlar tanış olmaqdan vaz keçməli olurlar.

1.Qızlar onlara diqqət yetirən tanış və yaxud az tanış olan oğlana təbəssümlə cavab verməlidir. Bu oğlanı cəsarətləndirir və o, bundan sonra qıza yaxınlaşmaqda risk edir;

2.Bərabərlik əsrində yaşadığımıza görə qızlar da, oğlana öz duyğularını çatdıra bilər. Bu istəyir, təbəssüm, istəyir salamlaşma, istəyirsə də, nə isə soruşmaq yolu ilə baş versin;

3.Yalnız danışmaq deyil, həm də qulaq asmaq, diqqətlə dinləmək qabiliyyətinə malik olduğunuzu nümayiş edirin. Həmçinin tənqid etməklə bərabər, həm də şərh etmək bacarığını göstərin;

4.Kişilər həddən artıq ağıllı qadınlar, qadınlar isə zəif kişiləri xoşlamır. Bunu hər iki cinsin bilməsi vacibdir;

5.Özünüzü dəymədüşər, o cümlədən zəif xüsusiyyətli, tez hasilə gələn kimi göstərməyin. Sonda bu sizin zərərinizə işləyə bilər;

6.Ən dəhşətli şaxtada, gözəl gül dəstəsindən hər hansı bir qadının ürəyi etiraz edə bilər;

7.Kişi özünü qalib rolunda görməyi xoşlayır. Əgər siz ona bu şansı yaratmış olsanız (teatr, konser və yaxud hədiyyə seçmək imkanı) inanın, çox keçməz ki o, sizə öz əlini və ürəyini təklif edəcək.

Təsadüfü tanışlığı da, planlaşdırmaq olar:

Bunu necə etmək mümkündür?

Hər şeydən öncə özünüzə bir iki sual verin: mənə kim lazım-

dır və onu harda tapa bilərəm?

Əgər siz sakit ailə axşamları keçirmək, incəsənət, bədii ədəbiyyat, rəsm əsərləri və kino haqqında söhbət aparmaq istəyirsinizsə, onda siz öz gələcək həyat yoldaşınızı rəsm qaleriyasında, filormoniyada, teatr, kino, konsert salonlarında, konservatoriyada axtarmalısınız.

Yaradıcı ziyalılara mümkün olan başqa yerlərdə: açılışlarda, festifallarda və s. yerlərdə də, öz gələcək həyat yoldaşınıza rast gəlmək olar.

Atçılığı sevən-ippodroma, bədii ədəbiyyatı sevən-kitabxanaya, geyinməyi sevən- modalar evinə və s. təşrif buyurmalıdır.

Qadınların çoxu pul qazanan, villası və maşını olan, ümumiyyətlə, şəraiti yaxşı olan kişiləri axtarır. Belələrinə, məsələn, sərgi salonlarında, iqtisadi forumlarda, iş-biznes yığıncaqlarında rast gəlmək mümkündür.

Varlı bəy və gəlinə bahalı maqazinlərdə, avto salonlarda, idman komplekslərində və s. yerlərdə rast gəlmək olar.

Hətta komunal işləri (santexnik, elektrik, telefon və kompüter ustası, pəncərə silən və təhlükəsizlik sisteminə nəzarət edən və s.) yerinə yetirmək üçün evə dəvət olunan mütəxəssislər də bu sırada özünə yer tapa bilərlər.

Düşünürəm ki, bütün yuxrıda söylənilənlərin təməlində milli adət-ənənə, «yüz ölç, bir biç» məsəli dayanmalı, böyük məslətinə üstünlük verilməli, hər bir halda məsuliyyət hissi dərk olunmalıdır.

Bu publisistik məqaləni nəzərdən keçirərkən biz aşağıdakıların şahidi oluruq. Artıq məqalənin başlanığıcı özündə müqayisəli analizi göstərir-müəllif imkan daxilində gələcək həyat yoldaşını axtarmağın yollarını gənc nəslə başa salmağa çalışır. Daha sonra jurnalist səbəb-istintaq analizi apararaq bir çox insanların tək qalmasının səbəbini açıqlayır. Fikirlərini davam etdirən müəllif yeddi xeyirli məsləhət verdikdən sonra, planlaşdırılmış tanışlıq haqqında danışır və onun mümkün yollarını göstərir. O, sonda düşüncələrinə və milli adət-ənənəyə

əsaslanaraq böyüklərdən məsləhət almağı, ölçüb-biçməyi, ailə məsələsinə məsuliyyətlə yanaşmağı tövsiyə edir.

Mövzuda dəlil və sübutun müqayisəli verilməsi, həmçinin səbəb-istintaq analizinin aparılması publisistik məqaləni analitik edir. Mətndə oxucuya məsləhət, tövsiyə və rəyin verilməsi isə bizə imkan verir ki, onu zəmanət, tövsiyə, yaxşı rəy, məsləhət janrına aid edək. Hər iki fikrin birləşməsi son nəticədə analitik zəmanət, tövsiyə, yaxşı rəy, məsləhət janrının yaranmasına səbəb olur.

22. ANALİTİK PRESS-RELİZ

Press-reliz «səhnə arxası, gizli» janrdı. Müxtəlif publisistik janrların hazırlanması üçün obyektiv və yaxud subyektiv fakt, mövzu, hadısə rolunu oynayır. (57) Həcm etibarı ilə sərbəstdir.

Kütləvi İnformasiya Vasitələrinin ölkədə bazar münasibətlərinin kəskin inkişaf etdiyi, hər şeyi sıxışdırıb çıxarmağa cəhd göstərdiyi bir dövrdə, qəzet və jurnal səhifələrində, radio-teleproqramlarda reklamın möhkəmlənməsinə səbəb bir çox nəşrlərin maddi rifah mənbəyinin bundan asılı olmasıdır. KİV-də reklam sadəcə olaraq yalnız onun mətnlərinin forması demək deyil. O, həmçinin jurnalist mövzularına «paltar geyindirir.» (57) Bu, xüsusilə özü haqqında fəal bəyanat verən «press-reliz» janrının meydana gəlməsinə səbəb oldu. Hər hansı bir firmanın və yaxud başqa bir şəxsiyyətin, məsələn prezidentliyə namizədin məziyyətləri haqqında danışan, seçmə informasiya və məlumatlar toplayan janr press-reliza adlanır. Sözün həqiqi mənasında, KİV-ə onlardan bu cür press-reliza daxil olur. Redaksiyaya daxil olan press-relizin nəşr olunması mütləq deyil. Ola bilsin ki, redaksiya tərəfindən oriyentasiya üçün həmin press-reliz söhbət gedən prosesin, məsələn, dünyada baş verən hansısa hadisənin və yaxud seçki kampaniyasının işıqlandırılmasında bir informasiya mənbəyi kimi istifadə olunsun. Bəzən elə olur ki, əldə olunan məlumatın bir hissəsi

götürülür və qeyd, xronika, informasiya korrespondensiyası kimi verilir.

Bununla press-reliz nümayiş etdirir ki, o artıq jurnalistikaya məlum olan hər hansı başqa bir janra çevrilmək iqtidarındadır. Lakin jurnalist qarşısına belə bir tapşırıq qoya bilər ki, press-reliz reklam məğzini qoruyub saxlasın, onu lazimi əlavə məlumatlarla zənginləşdirsin, yararsız informasiyanı çıxartsın, özünə məxsus cizgiləri ilə bahəm nəşrə hazırlasın. Bu cür nəşr özünün bütün atribut və xüsusiyyətləri ilə analitik janr hesab oluna bilər. Analitik və reklam başlanğıcının birləşməsi analitik press-reliz əsasında dayanır.

Analitik press-relizin mövzusu hər hansı bir insanın və yaxud təşkilat, firma, idarənin, onların tələbatı ilə bağlılığı var və KİV-nin auditoriyasına daxıldir. Qarşısına press-reliz hazırlamaq tapşırığını qoyan jurnalist, auditoriyanın mümkün tələbatını ödəmək üçün mütləq səbəb-istintaq məlumatlarını təhlil etməli, onların arasında rabitənin olub-olmamasını, həmçinin reklam olunan firma və idarəni, ayrı-ayrı şəxsləri yoxlamalıdır.

Analitik press-relizin məqsədi sadəcə olaraq auditoriyaya hansısa firmanın və yaxud şəxsin yaxşı keyfiyyətlərini nümayiş etdirməkdən ibarət deyil, o həm də, bunu sübut etməlidir. Buna görə də, analitik press-reliz müəllifi inandırıcı müzakirəyə müraciət etməli, arqumentlərdən istifadə etməklə onun sübutunu təsdiq etməyə səy göstərməlidir.

Adətən analitik press-reliz hazırlayarkən arqument qismində idarə, firma, müəssisənin və yaxud hansısa şəxsin fəaliyyətinin yaxşı keyfiyyətləri, uğurlu işi, yüksək peşəkarlığı, əxlaqi və başqa müsbət dəyərləri nəzərə alınır. Analitik press-reliz müəllifi, həmçinin daha tez-tez öz reklam etdiyi kompaniyanın və yaxud şəxsin uğurlu fəaliyyətini təsdiq etmək və öz fikirlərini sübuta yetirmək üçün ekspert rəyinə müraciət edir, sözsüz ki, bu da onun mövqeyinin inandırıcı olması ilə yekunlaşır.

Nəticə çıxararaq deyə bilərik ki, analitik press-reliz janrını təhlil etmək üçün iki əsas növ mövcuddur-qiymətləndirici və səbəb-istintaq. Qiymətləndirmə-təhlil aparılan zaman reklam

olunan firmanın və yaxud ayrı-ayrı şəxslərin yüksək uğurlu keyfiyyətləri ilə təyin olunur. Səbəb-istintaq növünün qarşısında isə başqa tələblər dayanır. Burda, təhlili zamanı KİV-nin auditoriyasının qarşısında bu firma və yaxud şəxslərin köməyi ilə konkret tapşırığın yerinə yetirilməsini nümayiş etdirmək məqsədi dayanır.

Analitik press-reliz hazırlayan jurnalist qiymətləndirici təhlilə üstünlük verir. Ona görə ki, prosesin gedişi zamanı auditoriya reklamdan ona lazım olanını, yəni əmtəənin keyfiyyətini dəyərləndirən mütəxəssis rəyi alır və həmin əmtəənin yararlı və yaxud yararsız olması haqqında verilən qiymət onu qane edir.

Analitik press-reliz janrı jurnalistdən, hər şeydən əvvəl, reklam olunan firma və yaxud ayrı-ayrı şəxslər haqqında kifayət qədər diqqətli olmağı, mütləq doğru, dürüst, həqiqi məlumata əsaslanmağı tələb edir. Beləki, yoxlanılmamış informasiya, əgər o mətbuatda dərc olunubsa, həmin KİV-nin auditoriyasına kifayət qədər maddi və mənəvi ziyan vura bilər.

Veydəddin Pirəliyev (Vidadi Həsənoğlu).
Merin öhdəlikləri.

2016-cı ildə keçiriləcək Samara meri kürsüsünə namizədlər arasında İvan Saviç başqa namizədlərdən seçkiqabağı proqramı ilə seçilir. Proqramın tərkib hissəsini sosial-iqtisadi tərəqqi tutur. Jurnalistlərin iştirakı ilə keçirilən proqramın təqdimetmə mərasimində, İvan Saviç özü bu barədə məlumat vermişdir. Onun sözlərinə görə əgər o, mer seçilsə artıq 2017-ci ilin ortalarında sosial-iqtisadi proqram öz nəticəsini verəcəkdir. Bunu Samaranın hər bir sakini, uşaqdan tutmuş böyüyə kimi hamı hiss edəcəkdir. Şəhər meri kürsüsünə iddialı olan namizəd, onu da bildirdi ki, bu gün Samara şəhərinın dövlət büdcəsinə 35 milyard rubl, ayrı-ayrı şəxsi təşkilatlara isə 12 milyard rubl borcu var. Bunun hamısı Samaranın indiki meri İqor Lessinin məsuliyyətsiz, səhlənkar və bacarıqsız «fəaliyyəti» nəticəsində baş ver-

mişdir. Siz, heç də elə düşünməyin ki, İvan Saviç hansısa iqtisadi möcüzədən danışır. Əsla yox... İqtisadiyyat həqiqəti sevir. Odur ki, mən düzünü danışacam.

Sonra İvan Saviç jurnalistləri heyrətləndirən bəyanat verdi:

-Samaranın büdcəsinin xərc və gəlir hissəsini artırmaq və yaxud azaltmaq lazım deyil. Sadəcə olaraq dövlətin Samara şəhərinin sosial-iqtisadi yönümlü layihələri üçün ayırdığı və müxtəlif istiqamətlərdən (reklam, ticarət, avtomobil dayanacaqları və s.) şəhərin büdcəsinə mədaxil olunan pulları mənimsəmək, daha doğrusu, oğurlamaq və göyə sovurmaq lazım deyil. Bizim tərəfimizdən aparılan araşdırmalar nəticəsində məlum oldu ki, şəhərin büdcəsinə ildə 12 milyard rubl əlavə gəlir daxil olur. Onu düzgün, tələbatı üzrə, ünvanlı xərcləmək gərəkdir.

-İnvestisiya siyasəti yüksək effektlə aparılsa Samara meriyasının büdcəsinə əlavə olaraq ildə 10 milyard rubla yaxın vəsait daxil ola bilər.

-Müqayisə olunan vəsait verginin vaxtında və düzgün yığılmasına səbəb olar. Halbu ki, hal hazırda bu vəziyyət 50 % civarındadır.

-Dövlət əmlakının idarə olunmasından toplanan gəlir, eyni iqtisadi göstərici, ərazi və əhali sayına bərabər olan şəhərlərlə müqyisədə, Samara şəhərində 10-12 dəfə azdır. O ki, qaldı şəhərin büdcəsinə daxil olan xarici valyutanın həcminə, burda da, vəziyyət ürəkaçan deyil. Beləki, daxil olmalar cəmisi 31 % təşkil edir. Bu sahə başqa fəaliyyət sahələri kimi ciddi nəzarətdən kənarda qalıbdır.

-Milyardlarla rubl halal pul Samaranın abadlaşdırılmasına, komunal təsərrüfatların yeniləşməsinə, infrastrukturanın yaxşılaşmasına, şəhər nəqliyyatının, əsasən də, havanı çirkləndirməyən və təhlükəsiz hesab olunan metro, tramvay və trolleybus şəbəkəsinin genişləndiriməsinə və insanların sosial vəziyyətinin yüksəlməsinə yönəlməlidir. Biz, dəqiq hesablama apararaq bütün bunları nəzərə almışıq və bunun əsasında Samaranın so-

sial-iqtisadi proqramını hazırlamışıq. Şəhər əhalisi bundan qat-qat artığına layiqdir...

İvan Saviçin seçkiqabağı qərargahında çalışan işçi qrupu bu proqramı tanınmış iqtisadçı-alim Nikolay Qoroxovun fəal iştirakı ilə hazırlayaraq ərsəyə gətiribdir:

- Sosial istiqamətli bu proqrama əsasən uşaq baxçaları və körpələr evində olan hər bir uşağa ümumi məbləğ 3,5 dəfə artırılıb; burda işləməyən təqaüdçülər, əlil və qocalara xidmət göstərən kiçik işçilər də yaddan çıxmayıbdır. Onların təqaüd və əmək haqqları müvafiq olaraq 30-40 %; yalqız uşaq böyüdən analara verilən köməyin miqdarı 50 % artırılıb. Yerdə qalan məbləğ isə şəhərin gözlənilməyən və fövqəladə problemlərinə sərf olunacaqdır.

İvan Saviç hesab edir ki, bu günkü Samaranın başlıca problemi iqtisadi sistemin düzgün qurulmamasındadır, beləki, şəhərin başqa subyektlərinin iqtisadi fəaliyyəti yoxdur. Məmur ordusu, əgər belə demək mümkünsə, sərbəst idarəetmədən kənarda qalıbdır. Halbu ki, bu onların birbaşa vəzifəsidir və bunun üçün iqtisadi sistem nəzərdə tutulubdur. Hər kəsə sərbəst düşünmək və onları həyata keçirmək imkanı verilməlidir. Avtoritorizmdən birdəfəlik qurtarmaq lazımdır. Hər şeydən öncə rüşvətə son qoymaq lazımdır və s.

Buna yalnız qanunların işləməsi və iqtisadi metodların həyata keçirilməsi ilə nail olmaq mümkündür. Nailiyyət əldə etmək üçün aşağıdakıları təmin etmək vacibdır:

1.Bütün subyektlərin iqtisadi fəaliyyətini bərabərləşdirmək;

2.Sosial və təsərrüfat həyatının real təhlükəsizliyini təmin etmək;

3.Sosial müdafiənin ünvanlılığını dəqiqləşdirmək;

4.Şəhərin investisiya layihələrini şəffaf və konkurs yönümlü etmək.

İvan Saviç tərəfindən hazırlanmış proqram Samara şəhəri

üçün iqtisadi reallığa əsasanır, lakin bu proqram Rusiyanınnın başqa ərazi və regionlarına da, tətbiq oluna bilər, çünki onda iqtisadiyyatın bütün metodları nəzərə alınıbdır.

Bu materialda şəhər meri kürsüsünə namizədin mətbuat konfransında öz proqramını açıqlaması analitik hesabatı xatırlayır. Ancaq analitik hesabat öz qarşısına reklam-təbliğat, yuxarıda verilənə məqsəd və tapşırıqlar qoymur. Press-reliz üçün isə bu konkret vəziyyətdən asılı olmayaraq əsas məqsəd hesab olunur.

Analitik press-relizdə qiymətləndirici analiz mühüm yer tutur. Söhbət apardığımız janrın xüsusiyyətinin əsas cizgilərindən biri, müəyyən mənada, onun məktub janrı ilə birləşməsidir. Bu müəllifin birbaşa özünün auditoriyaya müraciət etməsi, onları müəyyən formada hərəkətə çağırmasından irəli gəlir.

Analitik press-reliz üzərində işləyən jurnalistdən hər şeydən öncə, onu işə təklif edən firma, ayrı-ayrı şəxs haqqında olan informasiyanın dəqiqliyini sübuta yetirən fakt və dəlilin olmasını yoxlamaq tələb olunur. Beləki, yoxlanılmamış, həqiqətə uyğun olmayan informasiya, mətbuatda dərc olunarsa, həmin kütləvi informasiya vasitəsinə, jurnalistin özünə, həmçinin oxucu auditoriyasına maddi və mənəvi ziyan gətirə, hətta istisna deyil ki, müəllifi məhkəmə zalına da, apara bilər.

Press-relizin strukturu

Bütünlükdə, sərlövhə və press-relizın ilk abzası (sətrbaşı) bu sənəddə, ən əhəmiyyətli hesab olunur. Məhz, onu oxuyan jurnalist birinci sətrdəcə mövcud yeniliyin onun mətbuat orqanı üçün maraqlı və yaxud maraqsız olmasını müəyyən edir. Buna görə də, sərlövhə parlaq və cəlbedici olmalıdır ki, onu oxuyan hər kəs üçün maraqlı olsun. Sətrbaşı bir cümlədən ibarət olmalı və özündə yeniliyin yığcam məğzini ifadə etməlidir. İnformasiya sonrakı ardıcıllıqla verilməlidir: baş vermiş hadisə, yenilik, prosesin iştirakçısı, yeri, vaxtı, baş vermə səbəbi və s. haqqında. Press-relizin strukturu aşağıdakı kimidir:

1.Press-reliz-anons-bu cür press-relizdə, həmin an baş verə biləcək informasiya haqqında məlumat verilir. Vaxtında göndərilmiş bu cür press-reliz xəbərdə mətbuat nümayəndələrinin iştirakı təmin edilir. Bu cür press-relizdə baş vermiş hadisənin məğzindən başqa, həmin hadisənin müvafiq tarixcəsini də, vermək olar. Bu mətbuatı maraqlandıra bilər.

2.Press-reliz-yenilik (yeni-reliz)-özündə artıq baş vermiş hadisəni daşıyır. Burda, fəaliyyət göstərən və yaxud maraqlanan şəxslərə kiçik və yığcam kommentariya, əlavə vermək olar.

3.İnformasiya-press-reliz-cari, hələ tamamlanmamış hadisə haqqında informasiya hesab olunur. Bu cür press-relizdə hadisənin axarı və dəyişikliyi haqqında məlumat verilir. (253)

Press-reliz qiymətləndirici və yaxud reklam xarakterli məlumatları özündə daşıya bilməz. O həcmcə kiçik (iki səhifədən çox olmamalı) və yalnız bir-vahid informasiyanın məzmununu özündə cəmləşdirə bilər. Press-relizdə verilən informasiya onun göndərildiyi mətbuat orqanının və nəşrin tələblərinə tam cavav verməlidir.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYATIN SİYAHISI

1.Abbasov İ. Siyasi ekstremizmin «nəzəri» əsasları. «Xalq qəzeti», 15. 08.1996.

2.Ağayev Ə. Müsahibeyi-İslamiyyə, Axund və Hatifülqeyb. Bakı, 1902.

3.Ахмадулин Е. Краткий, курс теории журналистики. Москва, 2006, с. 271.

4.Аграновски В. Уроки Аграновского. Москва, 1976, с. 259-269.

5.Ампилов В. А. Современный газетный очерк. Минск, 1972.

6.Аврамов Д. С. Профессиональная этика журналиста. Москва, 2003.

7.Azərbaycan dilinin izahlı lüğəti. Bakı, 1964, 4 c., 1 c., (A-Q).

8.Azərbaycan dövri mətbuatının qısa icmalı. Tiflis, «Zaqafqaziye» qəzeti,1906, №2.

9.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2002.

10.Azərbaycan Sovet Ensiklopediyası. I c., (A), Bakı, 1976, s. 214-215.

11.Bakıxanov A. Abbasquluağa Bakıxanov Qüdsi. Bakı, 1984, s. 11.

12.Бекасов Д. Г. Корреспонция, статья-жанры публицистики. Москва, 1972.

13.Здоровега В. И. В мастерской публициста. Киев, 1966.

14.Беспалова А. Г., Корнилов Е. А., Короченский А. П., Лучинский. История мировой журналистике. Москва, 2004.

15.Боневолская Т. А. Композиция газетного очерка. Москва, 1973.

16.Боневолская Т. А. Портрет современника. Москва, 1983.

17.Борев Ю. О комическом. Москва, 1957, с. 213.

18.Брокгауз Ф. А. Ефран И. А. Энцикло-ский словарь. Петербург, 1890-1907.

19.Cabbarlı C. «İnqilab və mədəniyyət» jurnalı. Bakı, 1934.
20.Cümşüdoğlu N. Füzulinin sənət və mərifət dünyası. Bakı-Tehran, 1997.
21.Черепахов М. С. Проблемы теории публицистики. Москва, 1973, с. 203.
22.Чернишевский Н. Г. Лессинг, его время, его жизнь и деятельность. IV т., Москва, 1948, с. 9.
23.Даль В. И. Толковый словарь... 4 т., Москва, 1978.
24.Друвериуа А. Материалы для словарья древнеруского языка. Критичский разбор труда. Санкт-Петербург, 1896, с. 8.
25.Денисович Т. Т. Педагогическая журналистика. Москва, 1997.
26.Добролюбов Н. А. Луч света в темном царстве. Москва, 1935, II т. с. 326.
27.Егоров В. В. На пути к информационному обществу. Москва, 2006, с. 192.
28.Ершов Ю. М. Методы познавательной деятельности публициста и жанры. Автореферат. Москва, 1987, с. 21.
29.Есин В. И. История русской журналистики XIX века. Москва, 2008, с. 298.
30.Əbdürrəhimova C. Felyeton və pamflet. Bakı, 1987, s. 86.
31.Əbdürrəhimova C. Qəzet satirasının əsasları. Bakı, 1991, səh. 33.
32.Əkbərov Ə. Ədəbiyyatımıza dair. «İqbal» qəzeti, 1912, 26 mart.
33.Философия епохи ранних буржазных революций. Москва, 1983, с. 299.
34.Fi 6 mahi-mayis. Qori, «Kəşkül» qəzeti, 1890, 28 iyun.
35.Göyüşov Z. B. Архивные материалы об общество «İmdadiyyə». 1963, №10.
36.Gürcüstan tarixi. Tbilisi, I hissə, s. 32-47.
37.Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1996.
38.Hacıyev A. Tiflis ədəbi mühiti. Bakı, 1980.
39.Hacıyev T. «Molla Nəsrəddin»in dili və üslubu. Bakı,

1983.

40.Hacıbəyli Ü. «Molla Nəsrəddin». «İrşad» qəzeti, 12 iyun 1907, №109.

41.Hacıbəyli Ü. Pruşkeviç və Hacı Xudu. «Tərəqqi» qəzeti,1910, № 39.

42.Hacıbəyli Ü. Seçilmiş əsərləri. Bakı, 1985.

43.Haqverdiyev Ə. Seçilmiş əsərləri. Bakı, 1971, II c.

44.«Həsən bəy Zərdabi və onun qəzeti». Bakı, «Azərbaycan» qəzeti, 23.02.2009.

45.Hüseynov F. «Molla Nəsrəddin» və mollanəsrəddinçilər. Bakı, 1986.

46.Hüseynzadə Ə. Həyatı. «Füyuzat» jurnalı, açıq ensiklopediya. Vikipediya.

47.История английской литературе. Москва, Ленинград, 1945, с. 328-329.

48.Масленников Р. Сто один совет по пресс-релизе. Москва, 2012, с. 74.

49.История всемирной литературе. Москва, 1988.

50.Жанры международный журналистике. Москва, 1995.

51.Журбин Е. И. Теория и практика художественно-публицистических жанров. Очерк. Фельетон. Москва, 1969.

52.Köçərli F. Seçilmiş əsərləri, Bakı, 1963.

53.Köçərli F. «Molla Nəsrəddin» jurnalı, «Ana dili» məqaləsi, 1913, №2, 22.

54.Köçərli F. «Tərcüman» qəzeti, №17.

55.Köçərli F. «Yeni iqbal» qəzeti, 1916, № 235

56.Köçərli F. Y. V. Çəmənzəminliyə məktub. 12.02.1914, RƏ fondu-26,13(27).

57.Карпусин Д. Чикирова С. Пресс-релиз. Правила составления. С-Пб, 2007.

58.«Kaspi» qəzeti. Татарский спектакль, 1895 г., 17 января.

59.Кашинская Л. В. Метод наблюдения в журналистике. Москва, 1987.

60.Ким М. Н. Жанры современной журналистики. С-Петербург, 2004.

61.Ким М. Н. Методы журналистики. С-Петербург, 2008.

62.Ким М. Н. Технология создания журналистского произведения. С-П, 2007.

63.Константинов А. D. Журналистское расследование: История метода и современная практика. С-Петербург, 2001.

64.Корконосенко С. Г. Основы журналистике. Москва, 2009.

65.Коханова Л. А., Калмыков А. А. Интернет журналистика. Москва, 2005.

66.Коханова Л. А., Калмыков А. А. Основы теории журстике. Москва, 2009.

67.Кулик К. СМИ в Древний Греции. Новое литературное обозрение. Москва, 2004.

68.Крикунов Ю. Рецензия в газете. Москва, 1975, с. 3-5.

69.Кройчик Л. Современный газетный фельетон. Воронеж, 1975, с. 60-62.

70.Qasprinski İ. Lisan məsələsi. «Tərcüman» qəzeti, 1905, № 90.

71.Галеева И. С. Интернет как инструмент библиографического поиска. Москва, 2007.

72.Геттнер Г. История всеобщей литературы XVIII века. Санкт-Петербург, 1866, с. 244.

73.Qənizadə S. M. XIX əsrin axır illərində maarif və ədəbiyyata dair xatiratım. Bakı, 1986.

74.Городова М. Звезды как люди: Журналисткое расследование о том, как они стали звездами. Москва, 2008.

75.Горохова В. М. Методы журналистского творчество. Москва, 1982.

76.Горохов В. В. Закономерности публиц-ческой творчества. Москва, 1975.

77.Гостомислов А. П. Детская журналистика. Москва, 2006.

78.Горчева А. Ю. Корпоративная журналистика. Москва, 2008.

79.Грабелников А. А. Работа журналиста в прессе. Москва, 2007.-

80.Гроссман Г. Периодическая печать в Германиию. Москва, 2001.

81.Гребенина А. М. Обзор печати: Проб-мы теории жанра. Москва, 1980, с. 9.

82.Шарль де Голль. Военные мемуары. Москва, 1957.

83.Лабрюер Ж. Характери или нравы нынешнего века. Москва-Ленинград, 1964, с. 43.

84.Лекторский В. А. Принципы воспроизведения объекта в знании. Москва, 1967, №4, с. 49.

85.Луков В. А. Предромантизм. Монография. Москва, 2006.

86.Лансон Г. История французский литературы. Москва, 1909, с. 15.

87.Məmmədquluzadə C. Əsərləri, «Xatiratım». Bakı, 1967, III c.

88.Məmmədov X. Azərbaycan ədəbi tənqidi XIX-XX əsrlərin hüdudunda. Bakı, 1999.

89.Məmmədov X. Azərbaycan publisistikası. Onu haradan və necə öyrənməli? Bakı, «Azərbaycan müəllimi» qəzeti, № 32.

90.Гертсен А. И. Литературно-худож-венное наследие. А-я наук СССР, 1947.

91.Ушиниский К. Д. Опыт педагогической антропологии. Москва, 2002.

92.Mirzəyev E. Toy. «Alatoran» jurnalı, Bakı, 2004, № 4.

93.Mir Cəlal, Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982.

94.Mir Cəlal, Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı, 1972.

95.Mirəhmədov Ə. Azərbaycan «Molla Nəsrəddin»i. Bakı, 1980.

96.«Molla Nəsrəddin» jurnalı, «Ana dili» məqaləsi, 1913,

№ 22-23.

97.«Molla Nəsrəddin» jurnalı. «Dəbistan» felyetonu, 1906, № 37.

98.«Molla Nəsrəddin» jurnalı. «Rəhbər» məqaləsi, 1906, № 28.

99.Маныкин А. С. Новая и Новейшая история стран Западной Европе и Америки. Москва, 2004,

100.Маркс К., Енгелсь Ф. Исповедь благородной души. Москва, с. 235-237.

101.Маслова Н. М. Путевые очерки как публицическая форма. Москва, 1977, с. 527.

102.Мерзон Л. С. Проблемы научного факта. Ленинград, 1972, с. 69.

103.Митченкова И. И. Усиление публицистического начала в современной прессе. «Журналистика». Москва, 1999, с. 49-53.

104.Моисеев В. Журналистика и журналисты. Москва, 2002.

105.Nağısoylu M., Zeynallı M. «Azərbaycan dili». Bakı, 2009, s.194-211.

106.Назайкин А. Н. Как манипулировать журналистами. Москва, 2004.

107.Nərimanov N. Müsahibə. «İrşad» qəzeti, 1906, 9 mart.

108.Новомбергский Н. Освобождение печати во Франции, Германии, Англии, России. Москва, 2001, т.2.

109.Nəbiyev B. Firidun bəy Köçərli. Bakı, 1963.

110.Nəbiyev B. Tənqid və ədəbi proses. Bakı, 1976.

111.Növrəs M. Ə. Pəndi-ətfal. Bakı, 1900.

112.Олешко В. Ф. Журналистика как творчество. Москва, 2005.

113.Ordubadi Məhəmməd Tağı Sidqi. Puşkin, Bakı, 1914.

114.Панарин И., Панарин Л. Информационная война и мир. Москва, 2003.

115.Пелть В. Д. Новость в газете. Проблемы информации в печатах. Москва,1971, с. 119-137.

116.Поварнин С. И. Искусство спора. Петербург, 1923, с.

5-57.

117.Поспелов. История русской литературы XIX века. Москва, 1972.

118.Прутсков Г. В. Введение в мировую журналистику. От античности до конца XVIII века. Москва, 2007.

119.Прохоров Е. П. Введение в теорию журналистики. Москва, 2009.

120.Прохоров Е. П. Правовые и этические нормы в журналистике. Москва, 2008.

121.Прохоров Е. П. Эпистолярная публицистика. Москва, 1966, с. 317.

122.Прохоров Е.П. Общая теория и проблемы родов, видов и жанров публицистеки. Москва, 1973, с. 296-300.

123.Прохоров Е. П. Публицист и действительность. Москва, 1973, с. 191.

124.Pirəliyev V. H. Firidun bəy Köçərlinin «Ana dili» məqaləsi: mübahisələr və müzakirələr. «Dil və ədəbiyyat» jurnalı, Bakı, 1999, № 4 (22), s. 108.

125.Pirəliyev V. H. Firidun bəy Köçərlinin publisistikası. Bakı, 2010.

126.Pirəliyev V. H. Çar Rusiyası dövründə Azərbaycanda uşaq jurnalistiası. «Dil və ədəbiyyat» jurnalı, Bakı, 2009, № 1 (67), s. 255.

127.Pirəliyev V. H. Müasir jurnalistikanın dili. «Dil və ədəbiyyat» jurnalı, Bakı, 1999, № 2 (68), s. 253.

128.«Rəhbər» jurnalı, 1906, № 1. Bakı, 1998, s. 194.

129.Rəhimov S. «Azərbaycan jurnalı». Bakı, 1980, №3.

130.Rəsulzadə M. Ə. «Dəbistan» məqaləsi. «İrşad» qəzeti, 07.12.1906, №280.

131.Розенталь Д. Современный русский язык. Москва, 1971.

132.Рубинов А. П., Басков В. Секреты журналистики. Москва, 2008.

133.Rusca-Azərbaycanca lüğət. Bakı, 1997, s. 358.

134.Руссо Ж. Ж. «Исповедь». Минск, 2004.

135.Sabir M. Ə. «Əlminnətullah ki, «Dəbistan»da...»şeri, «Hophopnamə». Bakı,1962.

136.Саламон Л. «Всеобщая история прессы». т.2, Москва, 2001, с. 419.

137.Самарин Р. М. Творчество Джона Милтона. Москва, 1964.

138.Самартцев О. R. Творческая деятельность журналиста: Очерки теории и практики. Издательство «Гаудяамус», 2009.

139.Сахновский-Панкеев В. О комедии. Москва, 1964, с. 89.

140.Симкин Я. Р. Сатирическая публицистика. Ростов-на-Дону, 1976.

141.Свитич Д. Г. Введение в специальность: Профессия журналист. Москва, 2008.

142.Солганик Г. Я. Стилистика текста. Москва, 1997.

143.Станиславлева Б. Н. Советский очерк о зарубежных странах. Москва, 1979.

144.Станко А. И. История мировой журналистики. Москва-Ростов, 2003.

145.Стефенс М. А. Новая История. Нью-Йорк, 1989, с.176.

146.Свик В. А. Введение в журналистику. Москва, 1997.

147.Циганов О. В. Режиссура газетного номера. Москва, 1968, с. 71.

148.Смирнов В. А. Уровни и этапы процесса познания. Проблемы логики научной познания. Москва, 1964.

149.Шафир Ю. Советский фельетон. «Журналист». Москва, 1926, №1, с. 32.

150.Шкловский В. Возвышающая пародия. 1975, №2, с. 300.

151.Шеремет П. Г. Журналистика: в ведение в профессию. Санкт-Петербург, 2004, с. 28.

152.Шулевский Н. Б. Прогноз прогнозов или о том, как надо строить прогнозов. «Союз-ТПП», 2000, № 4.

153.Шумилина Т. В. Не могли бы вы рассказать? Статья.

Москва, 1976, с. 3.

154.Шум Ю. Журналистское расследование. Санкт-Петербург, 2008.

155.Talıbzadə K. Firidun bəy Köçərli. Bakı, 1963, s. 341.

156.Talıbzadə K. XX əsr Azərbaycan tənqidi. Bakı, 1966.

157.Talıbova A. Həyat tarixçəsi. «Baku Rages» jurnalı, 2005.

158.Tərsülməsəllər (parodiyalar). «Kirpi» jurnalı. Bakı, 1975, №6, s.7.

159.Тепляшина А. Н. Сатирические жанры современной публицистики. Санкт-Петербург, 2004.

160.Тертычный А. А. Исповедь, журнал «Журналист». Москва, 2000, №3.

161.Тертычный А. А. Версия...журналиста. «Журналист», 1999, №11.

162.Тертычный А. А. Жанры перодической печати. Москва, 2006.

163.Третяков В. Как стать знаменитым журналистом. Москва, 2004.

164.Ткачев П. И. Иду на «вы»: Заметки о памфлете. Минск, 1975.

165.Трыков В. П. Античная протожурналистика. «Культурология», Москва, 2008, № 4.

166.Трыков В. П. История зарубежной журналистики: От истоков до Второй мировой войны. Москва, 2007.

167.Тулупов В. В. Дизайн периодических изданий. Санкт-Петербург, 2006, с. 224.

168.Ушаков Д. Н. Толковый словарь русского языка. Москва, 1935-1940.

169.Vəliyev Ş. Füyuzat ədəbi məktəbi. Bakı, 1999.

170.Василева Л. А. Делаем новости! Москва, 2003.

171.Василев С. Пародия-не забава! «Литературная газета». Москва, 1972, с. 7.

172.Виленский М. Э. Как написать фельетон. Москва, 1982.

173.Володин М. Н. Язык средств массовой информации.

Москва, 2008.

174.Ворошилов В. В. «Журналистика». Москва, 2009,

175.Заславски Д. Фельетонисты о своей работе. Ленинград 1927, с. 50-51.

176.Засурский Ю. Н. История печати: Анталогия. Москва, 2001, т. 2, с. 414.

177.Zərdabi H. Seçilmiş əsərləri. Bakı, 1960.

178.Zərdabi H. «Həyat» qəzeti. 28 dekabr, 1905, № 129.

179.Sabir M. Ə. Hophopnamə. Bakı, 1980.

180.Kütləvi İnformasiya Vasitələri haqqında Qanun. Bakı, 1999.

181.Булински В. Г. Собрание сочинений. 9 т. Москва, 1976-1982.

182.Köçərli F. «İrşad» qəzeti. 1906, №74.

183.Калмыков Ф. А. Научно-култ-чеський журнал. Москва, 2009, №10, (112).

184.Ağayev Ə. «Kaspi» qəzeti., Татарский спектакль. 17.01.1895.

185.Горки А. М., Жиге О. Собр. соч.: В 30 т. Москва, 1953, т.30, с. 145.

186.Маслова Н. М. Путевые очерки как пуб-кая форма. Москва, 1977, с. 5-27.

187.Кройчик Л. Система журналистских жанров. Санкт-Петербург, 2000.

188.Жанры эссе. К проблеме формирования. Москва, 2003.

189.Sarıvəlli O. Seçilmiş əsərləri (III ciliddə). Bakı, 1971-1975.

190.Səməd Vurğun. Seçilmiş əsərləri., Bakı, 1972.

191.Köçərli F. «Azərbaycan dövri mətbuatının qısa icmalı». Tiflis, «Zaqafqaziye» qəzeti, 21 dekabr 1906, № 2.

192.Axundov M. F. Əsərləri. (Üç cilddə, üçüncü cild) Bakı, 1962, səh. 5.

193.Барманкулов М. Жанры печати, радиовещания и телевидения.

Сравнительный анализ. Алма-Ата, 1974, с. 243.

194.Готфрид Г. Афоризми. Москва, 2000.

195.Ученова В. В. Информационные жанры. Основы их дифференциации. Проблемы информации в печати. Москва., 1971, с. 155-168.

196.Ağayev Ə. «Kaspi» qəzeti. «Татарский спектакль», 17.01.1895г.

197.Кант И. Критика чистого разума. Москва, 1994.

198.Теккерей У. М. Собрание сочинений. в 12 т., Москва, 1975.

199.Əliyev Y. Qədim türk runik yazılı abidələrinin yeni arealı Azərbaycandır. «Azərbaycan» jurnalı, 2008, № 1.

200.«Tifliskie vedomosti» qəzeti. Tiflis,1828, №2.

201.Геншер Г. Д. Германия в Европе. Баден-Баден, 2002.

202.Тертычный А. А. Аналитическая журналистика. Москва, 1998.

203.Тертычный А. А. Аналитический инструментарий журналиста. Деловая пресса России: настоящее и будущее. Москва, 1999, с. 160-185.

204.Тертычный А. А. Предъявите аргументы. «Журналист». Москва, 1998, №5.

205.Тертычный А. А. Журналистское расследование. Москва, 2000.

206.Акшина А. А. Структура цельного текста. Москва, 1979.

207.Бойко К. Г. Репортаж газете. Москва, 1964.

208.Воскобойников Я. С., Юрьев В. К. Журналист и информация.Моква,1993.

209.Герхард М. Искусство повествования. Москва, 1984.

210.Горохова В. М. Критика и библиография в газете. Москва, 1970.

211.Горохова В. М. Основы журналистского мастерства. Москва, 1984.

212.Гуревич С. М. Репортаж в газете. Москва, 1963.

213.Кашинская Л. В. Эксперимент как метод журна-

листской деятельности. Вестник МГУ. Серия «Журналистика». Москва, 1986. №6.

214.Киш Э. Э. Опасный жанр литературы. Репортажи. Москва, 1964.

215.Колосов Г. В. Поэтика очерка. Москва, 1977.

216.Конторович В. Заметки писателя о современном очерке. Москва, 1973.

217.Коппервуд Р., Нельсон Р. П. Как преподносить новости. Москва, 1998.

218.Крол Н. Руководителям и бизнесменам нужны журналисты-аналитики.

Деловая пресса России: настоящее и будущее. Москва, 1999. с. 86–87.

219.Пельт В. Д. Обзор печати. Москва, 1980.

220.Пелът В. Д. Информация в газете. Москва, 1980.

221.Померанц Г. Фельетонизм и Касталия. «Журналист». Москва, 1999,№12.

222.Поспелов Г. Н. Теория литературы. Москва, 1978.

223.Пронин Е. И. Выразительные средства журналистики. Москва, 1980.

224.Прохоров Е. П. Журналистика. Государство. Общество. Москва, 1996.

225.Журбина Е. Теория и практика художественно-публицистических жанров. Москва, 1969.

226.Ивин А. А. Искусство правильно мыслить. Москва, 1990.

227.Лазутина Г. В. Технология и методика журналистского творчества. Москва, 1985.

228.Лазутина Г. В. Основы творческой деятельности журналиста. Москва, 2000.

229.Магай И. П. Структура произведения журналиста. Проблемы теории печати. Москва, 1975.

230.Майданова Л. М. Структура и композиция газетного текста. Красноярск, 1973.

231.Мезенцев М. Т. Особенности недокументального

очерка. Филолоческие этюды. Ростов-на-Дону, 1974. с. 59–70.

232.Мучник Б. С. Человек и текст. Москва, 1985.

233.Шандра В. А., Попова М. Ф., Макашина Л. П. Аналитические жанры газеты. Екатеринбург, 1996.

234.Шостак М. И. Ироничный журналист. «Журналист». Москва, 1997, №5.

235.Шостак М. И. Картинки репортерам. «Журналист». Москва, 1997, №10.

236.Свинцов В. И. Смысловой анализ и обработка текста. Москва, 1979.

237.Симкин Я. Р. О публицистической пародии. Филологические этюды. Ростов-на-Дону, 1974. с. 71-83.

238.Солганик Г. Я. Стиль репортажа. Москва, 1970.

239.Социальная практика и журналистский текст. Москва, 1990.

240.Справочник для журналистов стран Восточной и Центральной Европы. Москва, 1993.

241.Стрельцов Б. В. Аналитычный жанры. Минск, 1974.

242.Стюфляева М. И. Образные ресурсы публицистики. Москва, 1982.

243.*Ткачев П.* И. Сатиры злой звенящая струна... (о памфлете). Минск, 1980.

244.Ученова В. В. От вековых корней. Москва, 1985.

245.Ученова В. В. Творческие горизонты журналистики. Москва, 1976.

246.Ученова В. В. Современные тенденции развития журналистски жанров. Вестник Москва. «Журналистика». Москва, 1976. с. 17–27.

MÜNDƏRİCAT

Giriş ... 3

BİRİNCİ FƏSİL

Jurnalistika tarixi ... 15
Yunan jurnalistikası tarixi ... 17
Roma jurnalistikası tarixi ... 21
Qərbi Avropa jurnalistikası tarixi ... 24
Azərbaycan jurnalistikası tarixi ... 57

İKİNCİ FƏSİL

Jurnalistika və ədəbi-tənqid ... 81

ÜÇÜNCÜ FƏSİL

Jurnalistikanın elementləri ... 103
Məzmun və forma ... 106
Jurnalistikada peşəkarlıq ... 110
Jurnalistikada fərdiçilik ... 118
Müasir jurnalistikanın dili ... 121
Jurnalistikada informasiya axtarışı ... 127
Üslubiyyat ... 131
Jurnalistikada etik davranış ... 135
Jurnalistin peşə etikası: müəllif mövqeyi və subyektivlik ... 136
Peşəkarlıq kodeksinin jurnalistikada obyektivliyi haqqında ... 138

Jurnalistika və İnternet 140
Jurnalistlərin İnformasiya ilə təmin olunma sistemi 142
Bütün müəssisə və təşkilatlar informasiya mənbəyi kimi 143
İnformasiya agentliyi 144

DÖRDÜNCÜ FƏSİL

Bədii publisistik janrları: inkişafı və xüsusiyyətləri 146
Oçerk 150
Təsviri oçerk 155
Portret oçerk 156
Problem oçerk 164
Səyahətnamə oçerki 168
Esse 177
Essenin növləri 179
Essenin quruluşu 183
Esse hazırlamaq üçün lazım olan dəlil-sübutun strukturu 184
Essedə sübutetmə və rabitə növləri 185
Essedə həqiqi məlumat və başqa mənbələrə olan tələblər 187
Esse necə hazırlanmalı və yazılmalıdır? 187
Essenin qiymətləndirilməsi 189
Felyeton 194
Pamflet 203
Parodiya (istehza-təqlid) 209
Satirik kommentariya 218
Həyat tarixçəsi 224
Əfsanə 229

Epiqraf......232
Epitafiya......236
Lətifə (anekdot)......239
Zarafat......245
Oyun......253

BEŞİNCİ FƏSİL

İnformasiya janrları: növləri və xüsusiyyətləri......258
Qeyd. Ümumi xüsusiyyətlər......260
Fakta əsaslanan informasiya qeydi......262
Ehtimalı mümkün olan qeydlər......264
Preventiv (qoruyucu, qabaqlayıcı) qeydlər......267
Qiymətləndirici informasiyalı qeydlər......271
Normativ informasiyalı qeydlər......272
Proqram informasiyalı qeydlər......274
Qeydin janr növləri......275
Faktlarla zəngin olan qeydlər......276
Anons......277
Annotasiya......279
Mini-resenziya......281
Blits-portret......282
Mini-xülasə......284
Mini-tarixçə......285
Mini-məsləhət......287
Qeyd janrının strukturu......289
Qeydə olan tələblər......292
İnformasiya korrespondensiyası......292
İnformasiya hesabatı......295
İnformasiya müsahibəsi......298

Blits (qısa)-sorğu 301
Sual-cavab 303
Reportaj 305
Nekroloq 311

ALTINCI FƏSİL

Analitik janrlar: xüsusiyyəti və yaranma səbəbləri 313
Analitik hesabat 315
Analitik korrespondensiya 322
Analitik müsahibə 329
Analitik sorğu 337
Söhbət 341
Kommentariya (şərh) 348
Sosioloji xülasə 357
Anket 360
Monitorinq 365
Reytinq 367
Resenziya 372
Məqalə 381
Ümumtədqiqat məqaləsi 382
Taktiki-analitik məqalə 390
Polemik (müqayisəli) məqalə 398
Jurnalist təhqiqatı 403
İcmal 413
Kütləvi İnformasiya Vasitələrində xülasə 426
Tematik (temalar, mövzular üzrə) xülasə 432
Ünvansız xülasə 433
Proqnoz 435
Ekstrapolyasiya metodu 437

Analogiya (oxşayış, bənzəyiş) metodu....................439
Ssenari metodu....................440
Variant....................441
Eksperiment (təcrübə, sınaq)....................446
Məktub (epistolyar)....................452
Açıq etiraf (tövbə)....................459
Tövsiyə, məsləhət, zəmanət....................465
Analitik press-reliz....................470
Press-relizin strukturu....................475
İstifadə olunan ədəbiyyatın siyahısı....................477

Diqqət! Diqqət! Diqqət!

Hörmətli oxucular!

Rəy və təkliflərinizi 070-507-72-24 saylı telefona zəng etməklə müəllifə çatdıra bilərsiniz. Əvvəlcədən öz təşəkkürümüzü bildiririk.

Diqqət! Diqqət! Diqqət!

Müəllifin razılığı olmadan bu kitabı və yaxud onun hər hansı bir hissəsini çap etdirmək qəti qadağandır. Mövcud qanunauyğunluğa əsasən müəllif hüquqları qorunur.

Texniki redaktor: Fariz Məhərrəmov
Kompüter dizaynı: Ceyran Günəş
Kompüter yığımı: Zenfira Nəsirqızı
Korrektor: Ramilə Həsənli

Təknur

Çapa imzalanmışdır: 25.02.2013.
Formatı: 60x84 1/16. Həcmi: 31 ç.v.
Sifariş 46. Tiraj 300.
«Təknur» MMC-nin mətbəəsində
hazır elektron variantdan çap olunmuşdur.

Mətbəənin direktoru: Ələkbər Məmmədov

Mətbəə kitabın məzmununa görə
heç bir cavabdehlik daşımır!

Ünvan: Qanlı gölün qərb sahili 125
Telefon: 408-18-30; 050-222-40-25